AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

Toplu Azərbaycan xalqının Ümummilli lideri, Ulu öndər
***Heydər Əliyevin 90-illik** yubileyinə həsr olunur*

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLAR 2012

Bakı - 2013

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ

*Сборник посвящается **90-летию** со дня рождения*
*Общенационального лидера **Гейдара Алиева***

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ 2012

Баку – 2013

NATIONAL ACADEMY OF SCIENCES OF AZERBAIJAN
INSTITUTE OF ARCHAEOLOGY AND ETHNOGRAPHY

*The collection is dedicated to the **90th anniversary** of the National leader **Heydar Aliyev***

ARCHAEOLOGICAL RESEARCHES IN AZERBAIJAN 2012

Baku – 2013

Məsul redaktor: **M.N.RƏHİMOVA**
tarix elmləri doktoru

Redaksiya heyəti: **T.Ə.Bünyadov**
AMEA-nın həqiqi üzvü

İ.A.Babayev
AMEA-nın müxbir üzvü

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLAR – 2012


Bakı, *"Xəzər Universiteti"* nəşriyyatı, 2013, 380 səh.

ISBN 978-9952-8209-3-5

AFpoliqrAF mətbəəsində çap olunmuşdur

AZ1143, Bakı şəhəri
Hüseyn Cavid prospekti, 31
Tel.: +(994)12 4393649
E-mail: arxeoetno@archaeology.org.az

© Arxeologiya və Etnoqrafiya İnstitutu, 2013



HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MADDİ-MƏDƏNİ İRSİ

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə maddi-mədəni irsimizin qorunması, tədqiqi və təbliği işi yüksək inkişaf səviyyəsinə çatmışdı. Azərbaycanda arxeoloji və etnoqrafik tədqiqatların yüz ildən artıq tarixinin olmasına baxmayaraq bu sahələrdə inqilabi inkişafa məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə – ötən əsrin 70-80-ci illərində nail olunmuşdu. Arxeoloq alimlərimizin apardıqları tədqiqatlar nəticəsində Azərbaycanın dünyada ən qədim insan məskənlərindən və sivilizasiya mərkəzlərindən biri olması elmi əsaslarla sübuta yetirilmişdir. Həmin dövrdə respublikamızın bütün bölgələrində arxeoloji və etnoqrafik ekspedisiyalar fəaliyyət göstərmiş, xalqımızın maddi-mədəni irsinə dair yüz minlərlə qədim nümunələr – arxeoloji-etnoqrafik materiallar toplanmışdır. Böyük şəhərlərlə yanaşı Azərbaycanın demək olar ki, bütün rayonlarında Tarix Diyarşünaslıq muzeyləri yaradılmış, qədim və yaxın tariximizin ən nəfis nümunələri nümayiş etdirmək, qorumaq və tədqiq etmək məqsədi ilə bu muzeylərdə toplanmışdır. Xalqımızın qədim tarixinin arxeoloji tədqiqinə xüsusi diqqət yetirilmiş, regionlarda arxeoloji qazıntı işlərinin fəaliyyətinin daha da yaxşılaşdırılması üçün arxeoloji bazalar yaradılmışdır. Heydər Əliyev tarixi abidələrə və arxeoloji qazıntı sahələrinə şəxsən səfərlər etmiş, qədim tariximizin yadigarları olan abidələrimizin tədqiqinin və təbliğinin zəruriliyini dəfələrlə qeyd etmişdi.

Heydər Əliyevin sovet hakimiyyəti illərində tarixi-arxeoloji abidələrin mühafizəsi və tədqiqi ilə bağlı həyata keçirdiyi ən mühüm tədbirlərdən biri Azərbaycan kommunist partiyası mərkəzi komitəsinin

və Azərbaycan SSR nazirlər sovetinin “Azərbaycan SSR-də şəhərsalma, memarlıq və arxeologiya abidələrinin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında” 436 № li, 15 sentyabr 1981-ci il tarixli Qərarının (bundan sonra Qərar) qəbul edilməsi olmuşdur. Yaranmış vəziyyətin ətraflı təhlili, problemlərin, çətinliklərin yaranma səbəbləri, vəziyyətdən çıxış yollarının çox düzgün müəyyən edilməsi baxımından bu Qərarın qəbul edilməsini mühüm bir tarixi hadisə kimi qiymətləndirmək olar.

Abidələrin mühafizəsi, tədqiqi və təbliği ilə əlaqədar problemlərin şərhi, yaranmış problemlərin həlli istiqamətlərinin müəyyənləşdirilməsi baxımından Qərar mükəmməl bir proqram sənəd olub, nəinki 80-ci illər üçün, eyni zamanda bu günümüz və gələcək üçün aktuallığını saxlamaqdadır.

Qərarın preambula hissəsində konkret misallar əsasında tarixi abidələrin qorunması, idarəsi və istifadəsi işlərinin lazımi səviyyədə olmadığı göstərilmişdir. Bütün SSRİ məkanında, xüsusilə də müsəlman ölkələrində dini və dini-xatirat abidələrinin məqsədyönlü şəkildə kütləvi surətdə dağıldığı halda Heydər Əliyev çox böyük cəsarət və vətənpərvərliklə Azərbaycandakı belə abidələrin – Naxçıvandakı Qarabağlar türbəsinin, Qusar rayonundakı Həzrə türbəsinin, Şamaxı Cümə məscidinin təmir-bərpa işlərinin vacibliyini Qərarın preambulasında önə çəkmişdir. Azıx mağarası, Ordubad rayonundakı “Xaraba-Gilan”, Qax rayonu Ləkit kəndindəki alban monastırı, İçərişəhər, Qobustan. Qəbələ kimi arxeoloji və arxeoloji-memarlıq abidələrinin mühafizəsi və abadlığı ilə bağlı məsələlər xüsusilə vurğulanmışdır.

İnsanların, xüsusilə də, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında tarixi abidələrin mühüm əhəmiyyətə malik olduğunu yüksək qiymətləndirən Ulu Öndər kütləvi informasiya vasitələrinin fəallığının artırılması məsələlərini qaldırmışdır.

Qərarda tarixi abidələrin qorunmasının, bərpasının, tədqiqinin və təbliğinin ən mühüm istiqamətlərini əks etdirən 16 maddə öz əksini tapmışdır, bu maddələrin hər biri ayrı-ayrı məsələlərə həsr olunsa da, ümumilikdə bir məqsədə – tarixi keçmişimizin zəngin maddi mədəniyyət nümunələrinin Azərbaycan üçün misilsiz əhəmiyyətini, xalqımızın “milli pasportu” olmasını geniş ictimaiyyətin diqqətinə çatdırılması işinə xidmət göstərmişdir.

Qərarın ilk maddələrində bütün mərkəzi və yerli dövlət strukturlarına abidələrin qorunması və bərpası işlərinə bütün mümkün köməkliklərin və qayğının göstərilməsi, bu işə geniş ictimaiyyətin cəlb edilməsi tapşırılmışdır. Eyni zamanda bütün nəşriyyat orqanlarına, kütləvi informasiya vasitələrinə tarixi abidələrin təbliği ilə bağlı müvafiq işlərin genişləndirilməsi və azərbaycan və xarici dillərdə nəşrlərin daha da artırılması vəzifə olaraq qarşıya qoyulmuşdur.

Məhz bu Qərara əsasən arxeoloji materialların saxlanması və sərgisi üçün müvafiq bina ayrılmışdır. İçərişəhərdə yerləşən həmin binada Arxeologiya və Etnoqrafiya İnstitutunun “Elmi Ekspozisiya” sərgi zalı yerləşir.

Qərarda ən mühüm məsələlərdən biri arxeologiya və etnoqrafiya elmlərinin inkişafını nəzərdə tutan maddənin yer almasıdır. Belə ki, Qərarın 12-ci maddəsində Tarix İnstitutunun nəzdindəki Arxeologiya və Etnoqrafiya Sektorunun bazasında müstəqil elmi tədqiqat müəssisəsinin – Arxeologiya və Etnoqrafiya İnstitutunun yaradılması, arxeoloji ekspedisiyaların maddi-texniki bazasının gücləndirilməsi, tədqiqatların maliyyələşdirilməsinin artırılması, bölgələrdə arxeoloji bazaların yaradılması nəzərdə tutulmuşdur. Lakin növbəti – 1982-ci ildə Heydər Əliyevin Moskvaya – SSRİ rəhbərliyinə yeni işə təyin edilməsi səbəbindən bu məsəllərin bir çoxu icra edilmədi. Ulu Öndərin yalnız ikinci dəfə hakimiyyətə gəldiyi 1993-cü ildə Arxeologiya və Etnoqrafiya İnstitutu təsis edilmişdir.

Bütövlükdə bu Qərar xalqların tarixi, milli-mədəni dəyərlərinin hər gün məhv edildiyi sovet imperiyası mühitində Azərbaycan xalqının maddi-mənəvi varlığının qorunması və təbliği istiqamətində çox böyük tarixi addım idi.

Heydər Əliyev müstəqilliyin ilk illərində Azərbaycanda dövlətçiliyin əsaslarının yaradılması, ölkəmizə xarici müdaxilənin dayandırılması, respublikamızı daxildən parçalamağa çalışan qüvvələrin qarşısının alınması, bir sözlə Azərbaycanı tam məhv olmaq təhlükəsindən xilas etmək uğrunda gərgin mübarizə aparırdı. Heydər Əliyev bu mübarizədən qalib çıxdı və müasir Azərbaycan dövlətini yaradaraq onu dünya dövlətləri tərəfindən tanınmasına nail oldu, regionda aparıcı dövlətə çevrildi. Müstəqilliyimizin siyasi, iqtisadi və hərbi dayaqları möhkəmləndikcə respublikamızda elm, təhsil və mədəniyyət də yüksələn xətlə yeni inkişaf mərhələsinə qədəm qoydu.

Artıq 90-cı illərin ikinci yarısında Heydər Əliyevin göstərişi və bilavasitə rəhbərliyi ilə Azərbaycanın maddi mədəni irsinin qorunması və elmi tədqiqatların mükəmməl hüquqi bazasını yaratdı. Belə ki, Ulu Öndərin imzası ilə "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" 1998-ci il 10 aprel tarixli və "arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə" 1999-cu il 20 oktyabr tarixli Respublika Qanunları qəbul edilmişdir. Bu Qanunlarda abidələrin qorunmasının, tədqiqatlarının, istifadəsinin hüquqi əsasları şərh edilmiş və bütün bunların mühüm dövlət əhəmiyyətli işlər olması göstərilmişdir. Eyni zamanda, işğal olunmuş bölgədəki abidələrin vəziyyəti barədə daxil edilmiş xüsusi maddələrdə həmin ərazilərdəki abidələrin mühafizəsinə nəzarət üçün beynəlxalq təşkilatların qarşısında məsələ qaldırılmasının zəruriliyi göstərilmişdir.

XXI əsrin ilk illəri Azərbaycanın maddi-mədəni irsinin öyrənilməsi tarixində yeni bir mərhələnin başlanğıcı oldu. Heydər Əliyevin müdrik siyasəti nəticəsində dünya dövlətləri sırasında öz mövqeyini möhkəmlədən Azərbaycan sürətli iqtisadi və siyasi inkişaf mərhələsinə qədəm qoydu. On ildən artıq bir müddətdə demək olar ki, tam dayandırılmış arxeoloji və etnoqrafik ekspedisiyaların fəaliyyəti məhz bu dövrdən başlayaraq yenidən bərpa edildi. Heydər Əliyevin bilavasitə təşəbbüsü və göstərişi əsasında ilk geniş tərkibli ekspedisiya 2001-ci ildə Naxçıvan bölgəsinə göndərildi. Bu məqsədlə Naxçıvan bölgəsinin seçilməsi heç də təsadüfi deyildir. Ermənistan tərəfindən blokadaya alınmış Naxçıvan ermənilərin daimi hədəfi olmuşdur. Ermənilər bu qədim Azərbaycan torpağının guya onlara məxsus olması barədə saxta təbliğatla məşğul olur və öz əməllərini tarixi faktları saxtalaşdırmaqla ört-basdır etməyə çalışırdılar. Digər tərəfdən, Naxçıvan bölgəsi Azərbaycan xalqının qədim tarixinin bütün mərhələlərini əks etdirən tarixi-arxeoloji abidələrlə zəngindir. Bütün bunları dərindən bilən Ulu Öndər məhz Naxçıvanı ilk geniş tədqiqat obyekti olaraq seçmişdir. Bu məqsədlə "Naxçıvan – Gəmiqaya" arxeoloji ekspedisiyası yaradılmış və bu ekspedisiya Naxçıvanın bütün ərazisində 2001-2003-cü illərdə ətraflı arxeoloji araşdırmalar aparmışdır. Nəticədə onlarla qədim yaşayış məskənləri və qəbir abidələri, Gəmiqaya kompleksində yüzlərlə qayaüstü təsvirlər və digər abidələr aşkara çıxarılaraq tədqiqata cəlb edildi. Naxçıvan ərazisində aşkar edilmiş bir çox tapıntılar analoji paralellər əsasında əslində indi Ermənistan adlandırılan ərazinin də qədim Azərbaycan torpaqları olmasını bir daha sübut etdi.

Ümummilli Liderimizin müdrik siyasəti nəticəsində Bakı–Tbilisi–Ceyhan neft kəməri layihəsinin reallığa çevrilməsi ölkəmizin iqtisadi-siyasi qüdrətini artırmaqla yanaşı maddi-mədəni irsimizin tədqiqatı işlərinə də böyük bir təkan verdi. Məhz bu kəmərin inşası ilə əlaqədar olaraq tikinti sahəsində aparılan arxeoloji qazıntı işləri zamanı eneolit dövründən (e.ə. V minilliyin sonu – IV minilliyin əvvəli) son orta əsrlərədək (XVII – XVIII əsrlər) bütün tarixi mərhələlərə aid onlarla yaşayış məskənləri, yüzlərlə qəbir abidələri arxeoloqlar tərəfindən qazılaraq tədqiq edilmiş, 30 mindən artıq maddi mədəniyyət qalıqları

aşkara çıxarılmışdır.

Heydər Əliyev Azərbaycanın digər bölgələrindəki mühüm elmi, tarixi əhəmiyyət daşıyan maddi mədəniyyət abidələrinin qorunması üçün də zəruri tədbirlər həyata keçirmişdir. Eyni zamanda Ulu Öndər 2003-cü ildə "Şabran" və "Çıraqqala" qoruqlarının yaradılmasını və "İçərişəhər" qoruğunun fəaliyyətinin təkmilləşdirilməsini nəzərdə tutan sərəncamlar da imzalamışdı.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ölkəmizə rəhbərliyə başladığı vaxtdan demək olar ki, Azərbaycan arxeologiya və etnoqrafiya elmlərinin inkişafında yeni mərhələ başlandı. Ulu Öndər Heydər Əliyevin bu istiqamətdə əsasını qoyduğu müdrik siyasət İlham Əliyev tərəfindən böyük uğurla və uzaqgörənliklə davam etdirildi. Qədim tariximizin arxeoloji tədqiqi, etnoqrafik araşdırmaların nəticələri daha geniş şəkildə dövlətimizin azərbaycançılıq ideologiyasının əsaslarından birinə çevrildi. Azərbaycan dövlətinin tədricən möhkəmlənməsi ilə yanaşı olaraq maddi-mədəni irsimizə diqqət daha da artırıldı, abidələrimizin tədqiqi və təbliği istiqamətində beynəlxalq əlaqələr daha da genişləndi.

Xalqların maddi-mənəvi mədəniyyətinin tarixi yadigarlarının məhv edilməsi və təhrif edilməsinə yönəlmiş imperiya siyasətinin hökm sürdüyü sovet dövründə, eyni zamanda ölkəmiz üçün çox ağır olan 90-cı illərin keçid mərhələsində Heydər Əliyev uzaqgörən, müdrik addımlarla Azərbaycanın maddi-mədəni irsini qorumağa və onu bugünkü nəslə çatdırmağa nail olmuşdur. Ulu Öndərin bu istiqamətdəki misilsiz fəaliyyəti hələ uzun illər tarixçi alimlər tərəfindən araşdırılacaqdır.

Rəhimova Maisə Nurbala qızı
tarix elmləri doktoru
Azərbaycan Milli Elmlər Akademiyası
Arxeologiya və Etnoqrafiya İnstitutunun direkoru



Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

26 aprel 2012, 18:30

Azərbaycan xalqının zəngin maddi-mədəni irsinin üzə çıxarılması, dərindən və hərtərəfli öyrənilməsi üçün arxeologiya və etnoqrafiya sahəsində araşdırmaların müstəsna əhəmiyyəti vardır. Dünya elmində müasir texnologiyalardan istifadə imkanlarının genişlənməsi ilə əlaqədar meydana çıxan hazırkı tədqiqat üsulları arxeoloji və etnoqrafik tədqiqatların da keyfiyyətcə yeni mərhələyə qədəm qoyması üçün zəmin yaratmışdır. Respublikamızda bu istiqamətdə araşdırmaların səmərəliliyinin artırılması, eləcə də Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun maddi-texniki bazasının müasir tələblər səviyyəsində qurulması və kadr potensialının gücləndirilməsi məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən Azərbaycan Respublikası ərazisində 2012–2014-cü illərdə nəzərdə tutulan arxeoloji araşdırmaların maliyyələşdirilməsi üçün Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Milli Elmlər Akademiyasına 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti ayrılmış vəsaitin Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən təqdim olunmuş plana əsasən aidiyyəti üzrə istifadəsinə nəzarəti təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 26 aprel 2012-ci il

Göytəpə Arxeoloji Parkının yaradılması ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

18 aprel 2012, 18:50

Azərbaycanın ən qədim maddi mədəniyyət nümunələri içərisində Tovuz rayonu ərazisindəki Göytəpə arxeoloji kompleksinin özünəməxsus yeri vardır. Neolit dövrünə aid bu yaşayış məskəni tariximizin öyrənilməsi və eləcə də respublikamızda turizmin inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Göytəpə arxeoloji kompleksində aşkar olunmuş tikililərin bərpası və konservasiyası, habelə aparılan elmi tədqiqat işlərinin davam etdirilməsi məqsədi ilə qərara alıram:

1. Göytəpə arxeoloji kompleksi ərazisində Azərbaycan Milli Elmlər Akademiyası yanında Göytəpə Arxeoloji Parkı yaradılsın.

2. Göytəpə Arxeoloji Parkının yaradılması ilə bağlı layihələndirmə və tikinti işlərinin başlanılması üçün Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Milli Elmlər Akademiyasına ilkin olaraq 300,0 (üç yüz) min manat ayrılsın.


3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.


4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 aprel 2012-ci il



HESABAT – 2012


42⁰
44⁰
2012-ci ildə arxeoloji qazıntılar aparılmış abidələr:
1 - ZUVANDÇAY mağarası;
2 - QAZMA düşərgəsi;
3 - I HƏSƏNSU yaşayış yeri;
4 - GÖYTƏPƏ yaşayış yeri;
5 - AŞAĞI DAŞARX yaşayış yeri;
6 - GÖL YERİ yaşayış yeri;
7 - QARQUCAQ kurqanları;
8 - I MAXTA yaşayış yeri;
9 - SƏRKƏRTƏPƏ yaşayış yeri;
10 - FAZIL TƏPƏBAŞI nekropolu;
11 - ŞADILI kurqanları;
12 - ŞAHTAXTI yaşayış yeri;
13 - PLOVDAĞ yaşayış yeri;
14 - II KÜLTƏPƏ yaşayış yeri;
15 - SUMBATAN yaşayış yeri;
16 - SARVANTƏPƏ yaşayış yeri;
17 - YASTITƏPƏ yaşayış yeri;
18 - RƏSUL DƏRƏSİ yaşayış yeri;
19 - MEYDANTƏPƏ yaşayış yeri;
20 - QƏBƏLƏ (SƏLBİR) şəhər yeri;
21 - QALATƏPƏ yaşayış yeri;
22 - SANDIQTƏPƏ yaşayış yeri;
23 - BALATƏPƏ yaşayış yeri;
24 - GÜLİSTAN qalası;
25 - ŞƏMKİR şəhər yeri;
26 - DİROVDAĞ yaşayış yeri;
27 - AĞSU şəhər yeri;
28 - QALA şəhər yeri;
29 - ŞƏHƏRGAH yaşayış yeri;
30 - PALIDLI nekropolu;
31 - SİTALÇAY kurqanları;
32 - DÜBƏNDİ yaşayış yeri;
33 - MENTEŞ yaşayış yeri;
34 - OVÇULARTƏPƏ yaşayış yeri;
35 - OĞLANQALA yaşayış yeri;
36 - KAMİLTƏPƏ yaşayış yeri;
37 - QARACƏMİRLİ sarayı;
38 - Gədəbəydə arxeoloji kəşfiyyat;
39 - Lerikdə arxeoloji kəşfiyyat;
40 - İmişlidə arxeoloji kəşfiyyat;
41 - Şahdəniz-2 kəşfiyyat işləri.
1:4 000 000
40 0 40 80 120 160 KM
17
16
5
2
34
35
8


48⁰
44⁰
40⁰
48⁰
9
22
10
3
28
4
33
20
25
37
27
24
31
32
6
7
38
11
29
41
23
30
21
36
40
14
26
12
15
19
18
13
39
1

AZƏRBAYCANDA 2012-ci ildə APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLAR

M.N.Rəhimova

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru

Maddi mədəni irsimizin öyrənilməsinə göstərilən hərtərəfli dövlət qayğısı sayəsində Arxeologiya və Etnoqrafiya İnstitutu cari ildə məhsuldar fəaliyyət göstərmişdir. Bu baxımdan 2012-ci il İnstitutumuz üçün xüsusilə əlamətdar olmuşdur. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi araşdırmaları ilə birbaşa şəxsən tanış olmuşdur. Cənab Prezident 2012-ci ilin mart ayında Salyan rayonunda səfərdə olarkən burada İnstitutumuzun ekspedisiyası tərəfindən antik dövrə aid küp qəbirləri nekropolunda aparılan qazıntı işlərinə baxış keçirmişdir. Bundan əlavə Respublika Prezidenti bu ilin aprel ayında qərb bölgəsinə səfəri çərçivəsində Tovuz rayonu ərazisindəki Göytəpə qədim yaşayış məskənində olmuş, burada aparılan arxeoloji qazıntı işləri, aşkara çıxarılmış maddi mədəniyyət qalıqları ilə yaxından tanış olmuşdur. Cənab Prezidentə həm Salyanda, həm də Tovuzdakı qazıntı sahələrində aparılan tədqiqat işləri barədə ətraflı məlumat verilmişdir. Ümumiyyətlə, ölkə Prezidenti Arxeologiya və Etnoqrafiya İnstitutunun fəaliyyətini yüksək qiymətləndirmişdir. Bununla əlaqədar olaraq cənab Prezident 2012-ci ildə İnstitutumuzun fəaliyyəti ilə əlaqədar iki Sərəncam imzalamışdır. Bunlar «Göytəpə Arxeoloji Parkının yaradılması ilə bağlı bəzi tədbirlər haqqında» 18 aprel və «Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında» 26 aprel tarixli Sərəncamlarıdır. Bu Sərəncamlar Azərbaycanın arxeologiya elminə, abidələrimizin tədqiqinə göstərilən ən böyük diqqət və qayğının təzahürüdür. Belə bir dövlət qayğısı İnstitutumuzun əməkdaşlarının daha böyük fədakarlıqla çalışmaları üçün böyük stimul yaratmışdır. Respublikamızın bütün bölgələrində müxtəlif tarixi mərhələlərə aid arxeoloji abidələrdə əsaslı arxeoloji qazıntı işləri aparılmışdır.

Mil–Qarabağ bölgəsində arxeoloji tədqiqat işlərinin genişləndirilməsi İnstitutumuzun elmi fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etmişdir. Bu bölgədə 2012-ci ildə həm beynəlxalq tərkibli (Azərbaycan–Almaniya), həm də İnstitutun müstəqil ekspedisiyası tərəfindən əvvəllər elmə məlum olmayan neolit, eneolit və tunc dövrlərinə aid yaşayış məskənləri və qəbir abidələri aşkar edilmiş, təsərrüfat işləri nəticəsində abidələrin dağılma təhlükəsinin qarşısı alınmışdır. Bununla yanaşı Naxçıvan, Gəncə–Qazax, Şəki–Zaqatala, Quba–Xaçmaz, Lənkəran–Astara bölgələrində də iri miqyaslı qazıntı işləri aparılmış, yeni arxeoloji abidələr aşkara çıxarılmışdır. Tədqiqat işlərində yerli arxeoloqlarla yanaşı Avropanın müxtəlif ölkələrindən dəvət edilmiş geomorfoloqlar, paleobotaniklər, topoqraflar və digər elm sahələrinin nümayəndələri də çalışmışlar. Birgə çöl işləri nəticəsində götürülən nümunələr xarici ölkələrin müasir laboratoriyalarına müxtəlif analizlər üçün göndərilmişdir. Əvvəlki illərdə beynəlxalq tərkibli ekspedisiyaların apardıqları arxeoloji qazıntı işlərinin nəticələri barədə elmi məqalələr bir sıra xarici ölkələrdə nəşr edilmişdir. Bütün bunlar İnstitutun beynəlxalq elmi əlaqələrinin genişlənməsinə, Azərbaycanın qədim dövr abidələri, zəngin tarixi barəsində informasiyaların bütün dünyada geniş yayılmasına şərait yaratmışdır.

Respublikanın hər bir bölgəsində aparılan arxeoloji qazıntı işləri ölkəmizin qədim tarixinin bütün mərhələlərini əhatə etmişdir.

Son illər daş dövrü abidələrinin öyrənilməsi,

ibtidai insanların Azərbaycan, o cümlədən bütün Qafqaz ərazisində yayılması tarixinin araşdırılması ən aktual elmi problemlərdən birinə çevrilmişdir. 2012-ci ildə Lerik, Qax rayonları və Ceyrançöl ərazisində qədim daş dövrü abidələri ilə əlaqədar tədqiqatlar aparılmışdır. Lerikdəki Zuvandçay mağarasında Mustye mədəniyyəti dövrünə – 125-130 min il bundan əvvələ aid daş alətlər aşkar edilmişdir. Qax rayonunun Ləkit Kötüklü kəndi yaxınlığında Xor qaya mağarasında Şəki-Zakatala bölgəsi üçün ilk dəfə olaraq Aşel mədəniyyəti dövrünə – 450 min il bundan əvvələ aid daşdan hazırlanmış əmək alətləri aşkar edilmişdir. Ceyrançölün şərq ərazilərində Azərbaycanın qərb bölgəsi üçün ilk dəfə olaraq Orta Abşeron mərhələsinə – 1-1,3 milyon il əvvələ aid arxeoloji tapıntılar əldə edilmişdir.

Azərbaycanın qədim tarixinin öyrənilməsində Naxçıvan abidələrinin arxeoloji tədqiqinin mühüm əhəmiyyəti vardır. İnstitutumuzun 7 arxeoloji ekspedisiyası Naxçıvan bölgəsində geniş çöl-tədqiqat işləri aparmışdır. Bu tədqiqatlar erkən tunc dövründən – e.ə. IV minilliyin axırlarından antik dövrə – e.ə. I minilliyin sonlarına qədərki bütün tarixi mərhələləri əhatə etmişdir. Bu dövrlərə aid qədim yaşayış məskənləri və qəbir abidələri tədqiqata cəlb edilmişdir.

Şərur rayonundakı Maxta və Şortəpə erkən tunc dövrünə aid yaşayış məskənlərində aparılan qazıntı işləri maraqlı nəticələrə gətirib çıxarmışdır. Uzun illər elm aləminə məlum olmasına baxmayaraq Şortəpə qədim yaşayış məskənində qazıntı işləri aparılmamışdı. Bu ilki qazıntılar nəticəsində həmin abidənin stratiqrafiyası müəyyən edilmişdir.

Maxtada daha geniş sahədə (300 m^2) aparılan qazıntılar isə bölgədə Kür-Araz mədəniyyətinin mənşəyi, bu mədəniyyətin daşıyıcıları olan qədim tayfaların mədəni-iqtisadi əlaqələri barədə yeni məlumatlar vermişdir.

Babək rayonundakı II Kültəpə yaşayış yerinin orta tunc dövrü təbəqəsində qazıntı işləri davam etdirilmişdir. Erkən şəhər tipli bu qədim yaşayış məskənində daşdan və çiy kərpicdən inşa edilmiş tikili qalıqları və zəngin dulusçuluq məmulatları aşkar edilmişdir.

Ordubad rayonu ərazisində Xaraba-Gilan arxeoloji ekspedisiyası tunc dövrünün müxtəlif mərhələlərinə aid yaşayış yeri və qəbir abidələrində qazıntı işləri aparmışdır. Plovdağ yaşayış yeri və nekropolunda parılmış arxeoloji tədqiqatlar tunc dövrünü kompleks şəkildə və xronoloji ardıcıllıqla öyrənməyə imkan verir.

Son tunc-erkən dəmir dövrünə aid (e.ə. II minilliyin sonu-I minilliyin əvvəlləri) Kəngərli rayonu ərazisindəki Şahtaxtı kompleksində və Ordubad rayonu ərazisindəki Rəsul Dərəsi yaşayış məskənində qazıntı işləri aparılmışdır. Şahtaxtıda qazıntı sahəsi daha da genişləndirilmiş və abidənin ümumi stratiqrafiyası müəyyən edilmişdir. Burada son tunc-erkən dəmir dövrü təbəqəsinin altında orta tunc dövrünün mədəni təbəqəsi aşkar edilmişdir ki, bu da burada 1000 ildən artıq bir dövrdə intensiv yaşayış olduğunu sübut edir.

Naxçıvan bölgəsində antik dövrə aid əsaslı arxeoloji qazıntılara cəlb edilmiş yeganə abidə Babək rayonu ərazisindəki Meydantəpə yaşayış məskənidir. Bu abidədən aşkar edilmiş maddi mədəniyyət qalıqları antik dövrdə Naxçıvanın geniş beynəlxalq əlaqələrə malik olduğunu göstərir.

Arxeologiya və Etnoqrafiya İnstitutunun fəaliyyətinin əsas istiqamətlərindən biri də Qarabağ bölgəsinin arxeoloji tədqiqindən ibarətdir. Burada eneolit dövründən başlayaraq orta əsrlərə qədərki bütün tarixi mərhələlərə aid abidələrdə arxeoloji tədqiqatlar aparılmışdır.

Ağcəbədi rayonu ərazisində tədqiqatlar aparan Azərbaycan-Almaniya beynəlxalq tərkibli ekspedisiya neolit-xalkolit dövrlərinə aid abidələrdə arxeoloji qazıntı işlərini davam etdirmişdir. Bu abidələrin tədqiqatları Qarabağın qədim sakinlərinin Ön Asiyanın Hələf-Ubeyd mədəniyyətləri ilə sıx əlaqələrini göstərir. IV Kamiltəpə abidəsi buradakı qədim yaşayış məskənləri sırasında daha qədim olub, e.ə VII-VI minilliklərə aiddir.

Ağdam rayonu ərazisində eneolit dövrünə (e.ə. V minilliyin birinci yarısına) aid İsmayılbəy təpə qədim yaşayış yerində arxeoloji qazıntı işləri aparılmışdır.

Həmin rayon ərazisində son tunc-erkən dəmir dövrünə aid Palıdlı nekropolunda arxeoloji qazıntı işləri davam etdirilmişdir. Dövrün dəfn adətləri izlənilmiş, çoxlu sayda maddi-mədəniyyət qalıqları aşkara çıxarılmışdır. Tapıntılar sırasında digər ölkələrdən gətirilmiş bəzək əşyalarını xüsusilə qeyd etmək lazımdır. Bunlar qədim Qarabağ əhalisinin Misir, Mesopotamiya, Aralıq dənizi və Hind okeanı hövzəsinin qədim mədəniyyət mər-

kəzləri ilə iqtisadi-mədəni əlaqələrinin mövcudluğunu sübut edir.

Qarabağ bölgəsindəki Alban abidələrinin tədqiqi mühüm əhəmiyyət kəsb edir. Belə abidələrdən olan Ağcabədi rayonu ərazisindəki Qalatəpə şəhər məskənində arxeoloji qazıntı işləri bu il də davam etdirilmişdir. Bu abidənin arxeoloji tədqiqi eyni zamanda antik dövrə aid bölgə haqqındakı yazılı mənbələrin araşdırılması ilə parallel surətdə aparılır.

Füzuli rayonu ərazisindəki Şeyx Babı xanəgahında ötən ildən başlayan qazıntılar bu il də davam etdirilmişdir.

Gəncə–Qazax bölgəsində neolit dövründən başlayaraq tunc dövrünün sonlarına qədərki bütün tarixi mərhələlərə aid abidələrdə geniş miqyaslı qazıntı işləri aparılmışdır.

Ağstafa və Tovuz rayonları ərazisində Ağdaşqolu, Göytəpə, Hacı Ələmxanlı neolit dövrü yaşayış məskənlərində qazıntı işləri aparılmışdır. Göytəpədə əvvəlki illərdə aparılan qazıntılar bu il daha iri miqyasda davam etdirilmişdir. Hacı Ələmxanlı abidəsində aparılan qazıntı işləri nəticəsində aşkara çıxarılmış maddi mədəniyyət nümunələrinin tam təhlili Şomutəpə mədəniyyətinin erkən mərhələsi barədə yeni fikirlər söyləmək imkanını yaradır.

Goranboy rayonu ərazisindəki Göl yeri eneolit-erkən tunc dövrlərini əhatə edən yaşayış məskənində aparılan arxeoloji qazıntı işləri Cənubi Qafqaz arxeologiyasında mühüm elmi problemlərdən olan eneolit və erkən tunc dövrləri arasındakı varisliyin mövcudluğu barədə yeni fikirlər söyləməyə imkan verir. Belə ki, burada eneolitdən erkən tunca keçidi əks etdirən maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

Gəncə-Qazax bölgəsində aparılan arxeoloji araşdırmaların mühüm bir istiqamətini Xocalı-Gədəbəy mədəniyyətinə (e.ə. II minilliyin ikinci yarısı – I minilliyin əvvəlləri) aid abidələrin qazıntısı təşkil edir. Bu elmi istiqamətə dair Qazax rayonu ərazisində Sarvantəpə, Ağstafa rayonu ərazisində Yastıtəpə, Gədəbəy rayonu ərazisində Leşkər qalaçası qədim yaşayış məskənlərində, Goranboy və Daşkəsən rayonları ərazisində kurqan tipli qəbir abidələrində arxeoloji qazıntı işləri aparılmışdır.

Quba–Xaçmaz bölgəsində çöl-tədqiqat işləri tunc, erkən orta əsrlər və orta əsrlər dövrünü əhatə etmişdir.

Xaçmaz rayonu ərazisində erkən tunc dövrünə (e.ə. III minillik) aid Mollaburhan yaşayış yerində arxeoloji qazıntı işlərinə başlanmışdır. Bu qazıntılar Qafqaz arxeologiya elmində hazırda geniş diskussiya mövzusu olan, e.ə. IV-III minilliklərə aid Kür-Araz mədəniyyətinin yayılma arealı, Dağıstan və Azərbaycan ərazilərində Kür-Araz mədəniyyətinin yayılma xüsusiyyətləri, bu mədəniyyətin daşıyıcılarının təsərrüfat həyatı, müxtəlif sənətkarlıq sahələri və s. barədə ətraflı məlumat verir.

Quba rayonununda Xınalıq kəndi ətrafında tunc dövrünə aid abidələrin qazıntısı işi davam etdirilmişdir və erkən orta əsrlərə aid I və VII Sandıqtəpə yaşayış məskənlərində arxeoloji qazıntı işləri aparılmışdır. Qeyd edilən dövrə aid insanların maddi mədəniyyətini və məişətini əks etdirən zəngin arxeoloji materiallar aşkara çıxarılmışdır.

Bölgədə aparılan tədqiqatlardan Şabran rayonu ərazisindəki orta əsr Şabran şəhər yerində qazıntıları xüsusilə qeyd etmək lazımdır. Mühüm elmi və turizm əhəmiyyəti daşıyan bu abidədə son iri miqyaslı qazıntı işləri sovet hakimiyyəti dövründə aparılmışdır. Uzun illərdən sonra bu abidədə arxeoloji qazıntılar bərpa edilmiş və abidə yenidən tədqiqatlara cəlb edilmişdir.

Azərbaycanın Cənub bölgəsində eneolit, antik və erkən orta əsrlər dövrlərinə aid abidələrdə arxeoloji qazıntı işləri aparılmışdır.

Cəlilabad rayonu ərazisindəki eneolit dövrünə aid Alxantəpə yaşayış məskənində qazıntı işləri davam etdirilmişdir. Burada çoxsaylı dulusçuluq nümunələri, metalişləmə kürəsi, qəliblər, möhür və s. maddi mədəniyyət qalıqları əldə edilmişdir.

Salyan rayonu ərazisində antik dövrə aid küp qəbirləri nekropolunda qazıntı işləri davam etdirilmişdir.

Lerik rayonunun Gürdəsər kəndi ərazisində antik dövrə aid 20-dən artıq qəbir abidəsi tədqiqata cəlb edilmişdir. Aşkar edilmiş maddim mədəniyyət qalıqları bölgənin antik dövr dəfn adətləri, müxtəlif sənətkarlıq sahələri, eləcə də mədəni-iqtisadi əlaqələrinin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir.

Cəlilabad rayonunun Seyidbazar kəndi ərazisində aparılan arxeoloji qazıntı işləri nəticəsində atəşpərəstlik dininə aid olan qəbir abidələri aşkar edilmişdir.

Şəki–Zaqatala bölgəsində antik və orta əsr abidələri tədqiqata cəlb edilmişdir. Şəki rayonu ərazisində Fazıl kəndi yaxınlığında antik dövrə aid Təpəbaşı nekropolunda 4 qəbirdə arxeoloji qazıntı işləri aparılmışdır. Oğuz rayonunun Kərimli kəndi yaxınlığındakı son tunc-erkən dəmir dövrünə aid Dərə Zəmin nekropolunda arxeoloji qazıntı işləri aparılmışdır. Qax, Zaqatala və Balakən rayonları ərazisindəki alban-xristian abidələrində tədqiqat işləri aparılmış, yeni aşkar edilmiş abidələrin ölçüləri müəyyənləşdirilmiş və yoxlama qazıntı işləri aparılmışdır. Bölgədə aparılan arxeoloji qazıntılar Kiçik Qafqaz regionu üçün səciyyəvi olan, son tunc–erkən dəmir dövrünə aid Xocalı-Gədəbəy mədəniyyətinin bu ərazilərdə də yayıldığını sübut etmişdir.

Antik və orta əsrlər dövrlərinə aid şəhər tipli yaşayış məskənlərində və onların ətrafında yerləşən digər abidələrdə arxeoloji qazıntı işləri aparılmışdır.

Qəbələdə tədqiqatlar şəhərin antik dövrə aid sahəsində İnstitutumuzun ekspedisiyası tərəfindən, son antik-orta əsrlərə aid sahəsində isə Koreya arxeoloqları ilə birgə arxeoloji qazıntı işləri aparılmışdır.

Qəbələ beynəlxalq aeroportu ərazisində e.ə. IV minilliyə aid Qala yeri yaşayış məskənində arxeoloji qazıntılar aparılmış və bu abidənin qeyd edilən dövrdə Ön Asiya ilə sıx bağlı olduğu müəyyən edilmişdir. Bu tip abidə bu vaxtadək Böyük Qafqazın cənub ətəkləri regionunda aşkar edilməmişdir.

Şamaxıda orta əsr Şamaxı şəhər yerində və Gülüstan qalasında arxeoloji qazıntı işləri davam etdirilmişdir. Gülüstan qalası Şirvanşahlar dövlətinin əsas iqamətgahlarından biri olmuşdur. Abidədə aşkar edilən pullar Şamaxı, Qəbələ, Şabran, Gəncə və Təbrizdə zərb edilmiş sikkə nümunələridir.

İl ərzində Şamaxının Gülüstan qalasında və qədim Qəbələ şəhər yerində aparılan qazıntılar zamanı aşkara çıxarılmış numizmatik materiallar tədqiq edilmişdir. Aşkar edilən pulların əsasən Azərbaycanın orta əsr zərbxanalarında (Şamaxı, Dərbənd, Təbriz və s.) kəsildiyi müəyyən edilmişdir. Bununla yanaşı Gülüstanda Bizans imperiyasına aid pullar da aşkar edilmişdir.

Son orta əsrlərə aid Ağsu şəhər yerində qazıntılar nəticəsində digər maddi mədəniyyət nümunələri ilə yanaşı qızıl və gümüş pullardan ibarət dəfinə aşkar edilmişdir. Qızıl pullar 37 ədəd Holland dukatından ibarətdir.

Bərdə arxeoloji ekspedisiyası rayon ərazisindəki Şatırlı kəndi yaxınlığında Balatəpə tunc dövrü yaşayış yerində arxeoloji qazıntı işləri aparmışdır. Bu ərazidəki qazıntılar Bərdənin erkən tunc dövründən etibarən əsaslı şəkildə məskunlaşdığını göstərmişdir.

Orta əsr Şəmkir şəhər yerində iri miqyaslı arxeoloji qazıntı işləri davam etdirilmişdir. Qazıntının mühüm nəticələrindən biri kimi Böyük Səlcuqlar dövlətinin mühüm mərkəzləri olan Rey və Kaşan şəhərləri ilə sıx iqtisadi-mədəni əlaqələri təsdiqləyən xeyli səlcuqlu keramikasının aşkarlanması olmuşdur. Bu tapıntılar orta əsr Şəmkir şəhərinin geniş beynəlxalq əlaqələrə malik olduğunu göstərir.

Şəmkir rayonunu Qaracəmirli kəndi yaxınlığında e.ə. V–IV əsrlərə aid şəhər kompleksində aparılmış qazıntı işləri nəticəsində aşkara çıxarılmış maddi mədəniyyət qalıqları üzərində elmi tədqiqat işləri davam etdirilmiş, bir sıra ümumiləşdirmələr aparılmışdır.

Mühüm elmi problemlərdən biri də Azərbaycanın qədim metalı və metallurgiya tarixinin araşdırılmasıdır. Arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılmış qədim metal nümunələri və ümumiyyətlə metalişləməyə aid tapıntılar Azərbaycanda qədim metallurgiyanın tarixinin öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Çünki qədim dövr abidələrindən aşkara çıxarılmış metallurgiyaya dair tapıntıların müvafiq analizlərini aparmadan həmin abidələr və onların aid olduğu tarixi mərhələ barədə tam dolğun fikir yürütmək mümkün deyildir. Bu istiqamətdə inkişaf etmiş ölkələrin müasir elmi təcrübəsinin öyrənilməsinə və onların İnstitut tərəfindən tətbiqinə böyük ehtiyac vardır.

Bunları nəzərə alaraq Almaniya Berqbau Muzeyi, Arxeometallurgiya laboratoriyasının tədqiqat rəhbəri professor Andreas Hauptmanın dəvəti ilə qeyd edilən laboratoriyanın iş prinsipi, arxeometallurgiya sahəsində istifadə edilən müasir elmi cihazlar, yeni metod və üsullarla yaxından tanış olaraq elmi mübadilə aparılmışdır.

Beləliklə, 2012-ci ildə respublika ərazisində Arxeologiya və Etnoqrafiya İnstitutunun ekspedisiyalarının apardığı qazıntı işləri mühüm elmi yeniliklərlə nəticələnmişdir. Paleolit dövrünə aid araşdırmalar ibtidai insanların bölgədə yayılma arealı barədə yeni məlumatlar vermiş, neolit, eneolit və tunc dövrlərinə aid qazıntılar qədim Azərbaycan əhalisinin təsərrüfat həyatı, sənətkarlıq sahələri, mədəni-iqtisadi əlaqələri tarixinin tədqiqi üçün maddi faktlar bazasını xeyli zənginləşdirmişdir. Antik və orta əsrlər dövrlərinə aid şəhərlərin tədqiqi Azərbaycanın həmin dövrlərə aid maddi mədəniyyətinin, eyni zamanda siyasi tarixinin və beynəlxalq əlaqələrinin öyrənilməsi istiqamətində əsas addımlardan biri olmuşdur.

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ в 2012 году

Рагимова М.Н.

Директор Института Археологии и Этнографии НАН Азербайджана

В 2012 году Институт археологии и этнографии НАНА продолжал целенаправленное изучение памятников материальной культуры различных исторических эпох практически во всех регионах республики.

Важнейшим условием поступательного развития археологической науки в Азербайджанской республике является расширение объемов и качества проводимых полевых работ, укрепление материально-технической базы экспедиций, рост числа научных публикаций, международных связей и другие аспекты научной жизни Института, что напрямую связано с большим вниманием и заботой государства к изучению культурно-исторического наследия азербайджанского народа.

Важным стимулом для всего коллектива Института археологии и этнографии в их научной деятельности является личное внимание и забота к развитию археологической науки со стороны президента Азербайджанской республики господина Ильхама Алиева.

В 2012 г. Президент Азербайджана Ильхам Алиев во время поездки в Сальянский район ознакомился с археологическими раскопками могильника античного периода, а в рамках поездки в западный регион на территории Товузского района посетил, интенсивно исследуемое в последние годы, древнее поселение Гейтепе, где ознакомился с результатами полевых исследований и яркими образцами материальной культуры, выявленными при раскопках этого поселения. Получив подробную информацию об исследованиях памятников археологии на территории Азербайджанской республики, Президент Ильхам Алиев высоко оценил научную деятельность Института археологии и этнографии. В этой связи Президент И.Алиев 18 апреля 2012 г. подписал указ «О некоторых мерах, связанных с созданием Археологического Парка Гейтепе», а 26 апреля 2012 года им был подписан указ «Об усилении материально-технической базы Института археологии и этнографии Национальной Академии Наук Азербайджана».

Подписанные указы являются еще одним очередным показателем огромного внимания и заботы лично Президента И.Алиева к изучению памятников истории и культуры и развитию в нашей стране археологической науки. Это большой стимул для азербайджанских археологов к еще большей активизации своей научной деятельности.

В 2012 г. в различных регионах Азербайджанской республики были осуществлены масштабные полевые археологические работы.

Одним из главных направлений научной деятельности нашего Института стало расширение археологических исследовательских работ в Миль-Карабахском регионе. В этом регионе как международной (Азербайджан-Германия), так и самостоятельной экспедициями Института, выявлены, до того неизвестные науке, поселения и погребения, относящиеся к неолиту, энеолиту и бронзовому периодам, а также предотвращена угроза уничтожения памятников в результате хозяйственных работ. Проведены масштабные раскопки и выявлены новые археологические памятники в Нахчыванском, Гянджа-Газахском, Шеки-Закатальском, Губа-Хачмазском, Лянкяран-Астаринском регионах. В исследовательских работах, наряду с местными археологами, участвовали представители различных сфер науки – геоморфологи, палео-

ботаники, топографы и др., приглашенные из разных стран Европы. Образцы артефактов для проведения анализов были посланы в современные лаборатории зарубежных стран. Научные статьи о результатах археологических раскопок, проводимых международными экспедициями в прошлые годы, опубликованы в ряде зарубежных стран. Все это привело к еще большему развитию международных научных связей института, распространению информации о древних памятниках и богатой истории Азербайджана во всем мире.

Археологические раскопки, проводимые во всех регионах Республики, охватили все этапы древнейшей истории нашей страны.

Изучение истории расселения первобытных людей древнекаменного века на территории Азербайджана, в том числе всего Кавказа, превратилось в одну из самых актуальных научных проблем в последние годы. В этой связи следует особо отметить полевые исследовательские работы, проводимые в ряде регионов Республики: в Лерикском, Гахском районах и на территории Джейранчёл. В пещере Зувандчай в Лерикском районе были обнаружены каменные орудия, относящиеся к культуре Мустье – 125-130 тыс. лет до н. э. В пещере Хор-гая вблизи села Лякит-Кетюклю Гахского района, впервые для Шеки-Закатальского региона, обнаружены каменные орудия труда Ашельской культуры – 450 тыс. лет до н. э. В восточной части Джейранчёл, впервые для западного региона Азербайджана, выявлены артефакты Средне-Абшеронского периода – 1-1,3 млн. лет до н. э.

В изучении древней истории Азербайджана важное значение имеет археологическое исследование памятников Нахчывана. Семь археологических экспедиций нашего института вели обширные полевые исследовательские работы в Нахчыванском регионе. Эти исследования охватили все исторические периоды – начиная с раннего бронзового века (конец IV тыс. до н.э.) до античного (конец I тыс. до н.э.). К исследованию были привлечены древние поселения и погребения указанных периодов.

Раскопки на поселениях бронзового века Махта и Шор-тепе в Шарурском районе привели к интересным научным результатам. В результате раскопок на поселении Шор-тепе была определена стратиграфия данного памятника. Раскопки, на более обширном участке (300 $м^2$) в Махта, представили новую информацию об истоках Кура-Аракской культуры в регионе, а также о культурно-экономических связях древних племен – носителей этой культуры.

Были продолжены раскопки на поселении среднего бронзового века Кюльтепе II Бабекского района. На этом древнем поселении раннего городского типа обнаружены остатки построек из камня и сырцого кирпича, а также различные керамические изделия.

На территории Ордубадского района археологическая экспедиция Хараба-Гилан провела раскопки на поселениях и погребениях различных периодов бронзового века.

В комплексе Шахтахты на территории Кянгярлинского района и в поселении Расул Дереси на территории Ордубадского района проведены раскопки, относящиеся к периоду поздней бронзы – раннего железа (конец II – начало I тыс. до н.э.). В Шахтахты участок раскопок был расширен и определена общая стратиграфия памятника. Здесь, под слоем периода поздней бронзы – раннего железа, обнаружен культурный слой среднего бронзового века, что свидетельствует об интенсивной жизни на этой территории в период более 1000 лет.

Единственным памятником античного периода в Нахчыванском регионе, где проведены основательные археологические раскопки, является поселение Мейдантепе на территории Бабекского района. Обнаруженные здесь материально-культурные остатки свидетельствуют о широких международных связях Нахчывана в античный период.

Одним из основных направлений деятельности Института Археологии и Этнографии является археологическое исследование Карабахского региона. Здесь проведены археологические исследования памятников, относящихся ко всем историческим периодам, от неолита до средних веков.

Международная Азербайджано-Германская экспедиция, проводящая исследования на территории Агджабединского района, продолжила археологические раскопки поселений неолит-халколита. Исследования памятников свидетельствуют о тесных связях древних жителей Карабаха с культурами Халаф-Убейд Передней Азии. Памятник Камиль-тепе IV является самым древним среди поселений на этой территории и относится к VII-VI тыс. до н.э.

Археологические раскопки проведены на неолитическом поселении Исмаилбейтепе (первая половина V тыс. до н.э.) на территории Агдамского района.

На территории этого же района продолжены раскопки на некрополе Палыдлы периода поздней бронзы – раннего железа. Изучен погребальный обряд, обнаружены многочисленные остатки материальной культуры. В числе находок особо следует отметить украшения, привезенные из других стран. Они свидетельствуют о наличии культурно-экономических связей населения древнего Карабаха с культурными центрами Египта, Месопотамии, бассейнов Средиземного моря и Индийского океана.

Важное значение имеет исследование Албанских памятников в Карабахском регионе. Одним из таких памятников является поселение городского типа Гала-тепе на территории Агджабединского района. Исследование этого памятника ведется параллельно с изучением античных письменных источников об этом регионе.

Продолжались раскопки в ханегяхе Шейх Баба на территории Физулинского района.

Широкомасштабные археологические раскопки проведены на памятниках Гянджа-Газахского региона, начиная от неолита и до конца бронзового века.

Археологические раскопки проведены на неолитических поселениях Агдашголу, Гейтепе, Хаджи Алемханлы в Агстафинском, в Товузском районах, расширены раскопки Гей-тепе. Полный анализ материально-культурных образцов, обнаруженных в результате раскопок на памятнике Хаджи Алемханлы, позволил придти к мнению о раннем периоде культуры Шомутепе.

Археологические раскопки на поселении Гёл Ери, периодов энеолит – ранняя бронза в Геранбойском районе позволили предположить наличие связей между этими эпохами, что является важной научной проблемой в археологии Южного Кавказа.

Важным в археологических исследованиях Гянджа-Газахского региона, являются раскопки памятников Ходжалы-Гедабекской культуры (вторая половина II – начало I тыс. до н.э.). В связи с этим проведены археологические раскопки на поселениях Сарван-тепе на территории Газахского района, Ясты-тепе на территории Агстафинского района, Лешкяр галачасы на территории Гядабейского района и на погребениях курганного типа на территории Геранбойского и Дашкесанского районов.

Полевые исследования в Губа-Хачмазском регионе охватили период бронзового, раннего среднего и среднего веков.

Начаты археологические раскопки на раннебронзовом поселении Моллабурхан III тыс. до на э. в Хачмазском районе. Эти раскопки представляют подробную информацию об ареале распространения Кура-Аракской культуры (IV-III тыс. до н.э.), об особенностях распространения этой культуры на территориях Дагестана и Азербайджана, о хозяйственной жизни и различных отраслях ремесла носителей данной культуры и т.д., что сегодня является темой широкой дискуссии в Кавказской археологической науке.

На территории Губинского района продолжены раскопки памятников бронзового века вблизи села Хыналыг и раннесредневековых поселений Сандыг-тепе I и VII. Здесь выявлен богатый археологический материал, отражающий материальную культуру и быт людей исследуемых исторических периодов.

В числе исследований, проведенных в данном регионе, особенно следует отметить раскопки на средневековом городище Шабран в одноименном районе. Последние крупномасштабные раскопки этого памятника, имеющего важное научное значение, были проведены в советский период. Спустя много лет археологические раскопки памятника возобновились.

В южном регионе Азербайджана проведены археологические раскопки на памятниках энеолита, античности и раннего средневековья.

Продолжены раскопки на энеолитическом поселении Алхантепе на территории Джалилабадского района. Здесь обнаружены многочисленные образцы гончарного ремесла, металлообрабатывающая печь, литейные формы, печати и т.д.

В результате археологических раскопок на территории села Сеид-базар были обнаружены погребения огнепоклонников.

На территории Сальянского района продолжены раскопки в античном некрополе.

На территории села Гюрдесер Лерикского района привлечены к исследованию свыше 20-и погребений античного периода. Обнаруженные остатки материальной культуры имеют важное значение в изучении погребальных традиций античного периода, различных ремесел, а также культурно-экономических связей региона.

Изучены античные и средневековые памятники в Шеки-Закатальском регионе. На территории Шекинского района, недалеко от села Фазыл, в античном некрополе Тепе-башы проведены археологические раскопки в 4-х погребениях. На территории Огузского района, близ села Керимли, в некрополе Дере-Земин, относящемуся к периоду поздней бронзы – раннего железа, также велись раскопки. На албано-христианских памятниках Гахского, Загатальского и Балакенского районов проведены обмеры обнаруженных памятников и заложены контрольные шурфы. Археологические раскопки в данном регионе доказали распространение на этих территориях Ходжалы-Гедабекской культуры (период поздней бронзы – раннего железа), характерной для Малого Кавказа.

Археологически исследованы также поселения городского типа и близлежащие памятники античности и средних веков.

На территории античной Габалы, исследования проводились археологами нашего Института, а на территории позднеантичной – средневековой Габалы раскопки велись совместно с корейскими археологами.

На территории Габалинского международного аэропорта, в поселении Гала Ери IV тыс. до н.э. проведены археологические раскопки и определена тесная связь данного памятника с Передней Азией. До этих исследований памятник такого типа не был известен в южных предгорьях Большого Кавказа.

Были продолжены археологические раскопки в средневековом городе Шамаха и в крепости Гюлистан - одной из главных резиденций государства Ширваншахов. Монеты, обнаруженные в этой крепости, являются образцами, чеканенных в Шамахе, Габале, Шабране, Гяндже, Тебризе. В Гюлистане также обнаружены монеты Византийской империи.

В результате раскопок на позднем средневековом поселении Агсу, наряду с другими образцами материальной культуры, был найден клад золотых и серебряных монет. Золотые монеты представлены 37-ю голландскими дукатами.

Бардинская археологическая экспедиция вела раскопки на территории района на поселении бронзового периода Бала-тепе близ села Шатырлы. Проведенные раскопки показали, что первичное заселение территории Барды приходится на ранний бронзовый век.

Продолжены крупномасштабные археологические раскопки в средневековом Шамкире. Одним из важных результатов раскопок явилось обнаружение многочисленной Сельджукской керамики, подтверждающей тесную культурно-экономическую связь с важными центрами Великого Сельджукского государства – городами Рей и Кашан. Эти находки свидетельствуют о широких международных связях средневекового города Шамкир.

Одновременно исследовались остатки материальной культуры, обнаруженные в результате раскопок городского комплекса V-IV вв. до н.э. близ села Гараджемирли Шамкирского района.

Одним из важнейших научных проблем является исследование древнего металла и истории металлургии в Азербайджане. Древние образцы металла, обнаруженные в результате археологических раскопок и находки,

относящиеся к металлообработке в целом, имеют важное значение для изучения истории древней металлургии в Азербайджане. Без соответствующих анализов предметов металлургии, обнаруженных на памятниках древнего периода, формирование полноценного мнения об этих памятниках и об исследуемой исторической эпохе не представляется возможным. В этом направлении ощущается большая потребность в изучении современного научного опыта развитых стран и в применении такого опыта нашим Институтом.

В связи с этим, по приглашению руководителя исследований лаборатории Археометаллургии Германского музея Бергбау профессора Андреаса Хауптмана, осуществлен научный обмен, охватывающий ознакомление с принципом работы данной лаборатории, современными научными приборами, передовыми методами, используемыми в археометаллургии.

Раскопки, проводимые на территории республики экспедициями Института Археологии и Этнографии в 2012 году, завершились значительными научными новшествами. Исследования палеолита дали новую информацию об ареале распространения первобытных людей в регионе, раскопки, относящиеся к неолиту, энеолиту и бронзовому веку обогатили базу материальных фактов в исследовании истории хозяйственной жизни, отраслей ремесла, культурно-экономических связей древнего населения Азербайджана. Исследование античных и средневековых городов стало одним из основных шагов в направлении изучения материальной культуры, а также политической истории и международных связей Азербайджана.

ARCHAEOLOGICAL STUDIES IN AZERBAIJAN IN 2012

M.N.Ragimova

Director of the Institute of Archaeology and Ethnography

In 2012 the Institute of Archaeology and Ethnography of ANAS kept on goal-oriented investigation of monuments of material culture dating to different historical epochs virtually in all regions of the republic.

The most important condition for the progressive development of archeology in the Republic of Azerbaijan is to expand the scope and quality of the field works, strengthening the material-technical base of the expeditions, the growing number of scientific publications, international relations and other aspects of the academic life of the Institute, which is directly related to the great care and attention of state about the study of cultural and historical heritage of the Azerbaijani people.

An important stimulus for the entire staff of the Institute of Archeology and Ethnography in their research activities is the personal attention and care to the development of archaeological science from the President of the Republic of Azerbaijan Ilham Aliyev.

In 2012, President of Azerbaijan Ilham Aliyev, during his visit to Salyan district, got acquainted with the archeological excavations in ancient burial ground and within his trip to western region in the territory of Tovuz district, he visited the ancient settlement Goytepe, intensively investigated in recent years, where he was reported about the results of the field researches and bright samples of material culture revealed during the excavations of the settlement. Being well-informed about the research of archaeological monuments in the territory of the Republic of Azerbaijan, President Ilham Aliyev appreciated highly the research activities of the Institute of Archaeology and Ethnography. In this regard, on April 18, 2012 President Aliyev signed a decree “On some measures related to the creation of the Archaeological Park Goytepe”, and on April 26, 2012 he signed another decree “On strengthening the material-technical base of the Institute of Archeology and Ethnography of the Azerbaijan National Academy of Sciences”.

These orders are just another indicator of great attention and care personally of the President Ilham Aliyev to the study of historical and cultural monuments and to the development of archaeological science in our country. This is a great incentive for all archaeologists to further enhance their research activities.

In 2012, large-scale archaeological field works were carried out in the various regions of the Republic of Azerbaijan.

One of the main directions of scientific activity of our Institute was the expansion of archaeological research in the Mil-Karabakh region. Settlements and burials relating to the Neolithic, Chalcolitic and the Bronze Ages, hitherto unknown to science, were discovered by international (Azerbaijan-Germany) and independent expeditions of the Institute, as well as the threat of destruction of monuments as a result of agricultural works was prevented in this region. Large-scale excavations were carried out and new archaeological monuments were discovered in Nakhchivan, Ganja-Gazakh, Shaki-Zagatala, Guba-Khachmaz, Lankaran-Astara regions. Along with local archaeologists, the repre-

sentatives of different spheres of science - geomorphologists, pale botanists, topographers etc. invited from different countries of Europe were engaged in these researches. The samples of artifacts were sent to the modern laboratories abroad for analysis. Research articles on the results of archaeological excavations carried out by international expeditions in recent years have been published in several foreign countries. All this led to the further development of international scientific relations of the Institute, to the dissemination of information about the ancient monuments and rich history of Azerbaijan in the world.

Archaeological excavations in all regions of the Republic covered all phases of the ancient history of our country.

The study of the history of primitive peoples' settlement of the Stone Age on the territory of Azerbaijan, including the Caucasus, has become one of the most pressing scientific problems in recent years. In this regard, we should emphasize the field researches conducted in several regions of the Republic: in Lerik, Gakh districts and in the territory of Jeyranchol. The stone tools relating to the culture of Moustiers – 125-130 thousand years BC were found in the cave Zuvandchay in Lerik. The stone tools of the Acheulian culture –450 thousand years BC were found in the cave Khor-gaya near the village Lakit-Kotuklu of Gakh district, for the first time in the Shaki-Zagatala region. The artifacts of Middle-Absheron period – 1-1.3 million years BC were discovered in the eastern part of Jeyranchol, for the first time in the western region of Azerbaijan.

The archaeological research of Nakhchivan monuments is very important in studying the ancient history of Azerbaijan. Seven archaeological expeditions of our institute carried out extensive field researches in the Nakhchivan region. These researches covered all the historical periods – from the Early Bronze Age (the end of IV millennium BC) to the antique period (the end of the 1st millennium BC). The ancient settlements and burials of the afore-mentioned periods were involved to the research.

The excavations at the Bronze Age settlements Makhta and Shor-Tepe in Sharur district led to interesting scientific results. The stratigraphy of the monument at the settlement Shor-Tepe was defined as a result of these excavations. Excavations on a vaster area (300 m^2), in Makhta, produced new information about the origins of the Kura-Araxes culture in the region, as well as about the cultural and economic ties of the ancient tribes - the bearers of this culture.

Excavations were continued at the Middle Bronze Age settlement Kultepe II of Babak district. The remains of the buildings of stone and mud brick, and various ceramic products were discovered in this early town-type ancient settlement.

The archaeological expedition Kharaba-Gilan conducted excavations in the territory of Ordubad district, in the settlements and burials of the various periods of the Bronze Age.

Excavations were carried out in the complex Shahtakhty, in the Kangarli area and in the settlement of Rasul Deresi in Ordubad dated from the period of late Bronze - Early Iron Age (the end of II - early I millennium BC). The excavation site was expanded and defined the general stratigraphy of the monument in Shahtakhty. The cultural layer of the Middle Bronze Age was revealed here, under the layer of the Late Bronze - Early Iron Age indicating the intense life in the area during the period of over 1000 years.

The only monument of the antique period in Nakhchivan region where extensive archaeological excavations were conducted is Meydantepe settlement on the territory of Babak district. The material and cultural remains found there is the evidence of wide international relations of Nakhchivan in the ancient period.

One of the main areas of activities of the Institute of Archaeology and Ethnography is the archaeological investigation of the Nagorno-Karabakh region. The archaeological research of monuments related to all historical periods, from the Neolithic period to the Middle Ages were carried out here.

International Azerbaijan-Germany expedition conducting research in Aghjabadi district continued archaeological excavations in Neoli-

thic-Chalcolithic settlements. Study of the monuments show the close relation of the ancient inhabitants of Karabakh and the cultures Khalaf-Ubaid of Front Asia. Monument Kamil Tepe IV is the oldest of the settlements in this territory and dates to the VII-VI centuries BC.

Archaeological excavations were carried out at the Neolithic settlement Ismayilbey Tepe (first half of V century BC) in the territory of Agdam district.

In the territory of this district the excavations were carried on in the necropolis Palydly of the Late Bronze - Early Iron Ages and the burial rite was studied, numerous remains of material culture were found. Among the findings it should be made a special emphasis on the adornment imported from other countries. They are evidence of the presence of cultural and economic ties between the ancient population of Karabakh and cultural centers of Egypt, Mesopotamia, the Mediterranean basin and the Indian Ocean.

The study of the Albanian monuments in Karabakh region is of a particular importance. One of these monuments is the town-type settlement Gala Tepe in the territory of Agjabedi district. The study of this monument is carried out simultaneously with the study of ancient written sources on the region. Also the excavations were continued in Sheikh Baba khanegah in Fizuli district.

Large-scale archaeological excavations were conducted in the monuments of Ganja-Gazakh region, ranging from the Neolithic period to the end of the Bronze Age.

Archaeological excavations were carried out in Neolithic settlements Agdashgolu, Goytepe, Haji Alemkhanly in Agstafa, and in Tovuz district were extended excavations in Goytepe. A full analysis of the material and cultural patterns found in the excavation of the monument Haji Alemkhanly, enable us to come to the opinion that the culture Shomu Tepe dates to the early period.

Archaeological excavations in the settlement Ghol Yeri in Goranboy region, relating to the Chalcolithic - Early Bronze Ages enabled to assume the existence of links between these epochs, which is an important scientific problem in the archeology of the South Caucasus.

Excavation of sites of Khojaly-Gedabey culture (the second half of the II - early I millennium BC) is important for archaeological researches in Ganja-Gazakh region. In this regard, the archaeological excavations were carried out in the settlements Sarwan Tepe in Gazakh district, in Yasty Tepe in Agstafa, Leshkar galachasy in Gedabey region and in the kurgan-type burials in Goranboy and Dashkesen districts.

Field studies in Guba-Khachmaz region embraced the Bronze, early Middle and Middle ages.

Archaeological excavations started in the Early Bronze settlement Mollaburhan three thousand years BC in Khachmaz district. These excavations provide detailed information on the area of distribution of the Kura-Araxes culture (IV-III centuries BC), about the features of the spread of this culture on the territory of Dagestan and Azerbaijan, and on the economic life and the various branches of handicraft carriers of the culture and so on, that today is the subject of extensive discussion in the archaeological science of the Caucasus.

Excavations were continued in the territory of Guba district, in Bronze Age monuments near the village Khinalig and early medieval settlements Sandyg Tepe I and VII. A rich archaeological material, reflecting the material culture and life of people in the researched historical periods have been revealed here.

Among the researches conducted in the region, especially should be noted the archaeological excavation in medieval settlement of Shabran in the same area. Recent large-scale excavation of the monument, which is of great scientific importance, had been carried out in the Soviet period. After many years the archaeological excavations were resumed.

The archaeological excavations in the monuments of the Chalcolithic, antique and early Middle Ages were carried out in the southern region of Azerbaijan.

Excavations were continued in the Chalcolithic settlement of Alhantepe in Jalilabad district. A great deal of pottery, a metalworking

oven, molds, seals etc. were found there.

The burials of fire worshipers were found as a result of archaeological excavations in the village Seid-bazaar.

Excavations of the ancient necropolis were continued in the territory of Salyan district.

More than 20 ancient burials have been attracted to the study in the territory of the village Ghurdeser of Lerik district. Discovered remains of material culture are of great importance in the study of ancient burial traditions, various handicrafts, as well as cultural and economic ties of the region.

Ancient and medieval monuments were studied in the Shaki-Zagatala region. The archaeological excavations were carried out in 4 graves in the territory of Shaki region, not far from the village Fazil in the ancient necropolis of Tepe-Bashy. The excavations were also carried out in the territory of Oghuz region, close to the village of Kerimli in the necropolis Dere -Zemin, relating to the period of the Late Bronze - Early Iron Ages. Measurements of revealed monuments were conducted and the control pits were laid in the Albanian-Christian monuments of Gakh, Zagatala and Balakan districts. Archaeological excavations in the mentioned region proved the spread of Khojaly-Gedabey culture (the Late Bronze - Early Iron Age), characteristic for the Minor Caucasus in these areas.

The town-type settlements and nearby monuments of antiquity and the Middle Ages were also archaeologically investigated.

In the territory of ancient Gabala, researches were carried out by archaeologists of our Institute, and in the territory of late antique-medieval Gabala excavations were conducted jointly with the Korean archaeologists.

In the territory of the Gabala International Airport, the archaeological excavations were carried out in the settlement Gala Yeri IV millennium BC and was identified a close link of the monument with the Front Asia. Prior to these studies, a monument of this type was not known in the southern foothills of the Major Caucasus.

Archaeological excavations were continued in the medieval town Shamakhy and in Gulistan fortress - one of the main residences of the state Shirvanshahs. Coins found in the fortress are examples minted in Shamakhy, Gabala, Shabran, Ganja and Tabriz. In Gulistan were also found coins of the Byzantine Empire.

As a result of the excavations in the late medieval settlement Aghsu, along with other pieces of material culture, a treasure of gold and silver coins was found. Gold coins are 37 Dutch ducats.

Excavations in the area of the settlement of the Bronze Age Bala Tepe near the village Shatyrly was led by Barda archaeological expedition. The excavations showed that the initial settlement in the territory of the Barda relates to the early Bronze Age.

The large-scale archaeological excavations were continued in the medieval Shamkir. One of the important results of the excavations was the discovery of a large Seljuk ceramics, confirming the close cultural and economic ties with the important centers of the Great Seljuk state – towns Rey and Kashan. These findings indicate the broad international ties of the medieval town of Shamkir.

At the same time, were studied the remains of material culture found in the excavations of town complex of the V-IV centuries BC near the village Garajamirli of Shamkir district.

One of the most important scientific problems is the study of the ancient history of metal and metallurgy in Azerbaijan. Ancient metal samples found during the archaeological excavations and relating to the metal processing as a whole, are important for the study of the history of ancient metallurgy in Azerbaijan. Without proper analysis of objects of metallurgy found in the monuments of the ancient period, the formation of a full opinion on these monuments and on the studied historical period is not possible. In this sense, there is a great need in the study of current scientific experience of developed countries, and to apply that experience to our Institute.

In this regard, due to the invitation of the head of research Archaeometallurgy laboratories of German museum Bergbau Professor Andreas Hauptmann, was carried out academic exchanges, covering the introduction of the

working principle of the afore-stated laboratory with modern scientific devices, leading practices that are used in archaeometallurgy.

Excavations carried out in the territory of the republic by the expeditions of the Institute of Archeology and Ethnography in 2012, were accomplished with significant scientific innovations. Paleolithic researches have provided new information about the area of distribution of primitive people in the region, and the excavations relating to the Neolithic, Chalcolithic and the Bronze Age enriched the base of material facts in the study of the history of economic life, branches of handicraft, cultural and economic ties of the ancient population of Azerbaijan. The research of ancient and medieval towns was one of the main steps in the line of studying the material culture, as well as the political history and international relations of Azerbaijan.

ARXEOLOJİ QAZINTILAR

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ
ARCHAEOLOGICAL EXCAVATIONS

QƏDİM DAŞ DÖVRÜ
КАМЕННЫЙ ВЕК
STONE AGE

NEOLİT VƏ ENEOLİT DÖVRÜ
ПЕРИОД НЕОЛИТА, ЭНЕОЛИТА
NEOLITHIC, ENEOLITHIC PERIOD

TUNC VƏ DƏMİR DÖVRLƏRİ
ПЕРИОД БРОНЗОВОГО И ЖЕЛЕЗНОГО ВЕКОВ
PERIOD OF BRONZE AND IRON AGES

ANTİK DÖVRÜ VƏ İLK ORTA ƏSRLƏR
АНТИЧНЫЙ ПЕРИОД И РАННЕЕ СРЕДНЕВЕКОВЬЕ
ANTIQUE AND EARLY MEDIEVAL PERIOD

ORTA ƏSRLƏR DÖVRÜ
СРЕДНЕВЕКОВЫЙ ПЕРИОД
MEDIEVAL PERIOD

PALEOLİT ARXEOLOJİ EKSPEDİSİYASININ APARDIĞI TƏDQİQATLARIN İLKİN NƏTİCƏLƏRİ

(Lerik rayonu)

Ə.Q.Cəfərov

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Paleolit arxeoloji ekspedisiyası 2012-ci ilin iyul-avqust aylarında Lerik rayonunun Buzeyir kəndi yaxınlığında, Lerik-Zuvand yolunun 11-ci km-də, Zuvandçayın sol sahilində yerləşən Zuvandçay paleolit düşərgəsində arxeoloji qazıntı işləri aparmışdır. Bu düşərgə 2007-ci ildə paleolit arxeoloji ekspedisiyasının Lerik rayonu ərazisində apardığı arxeoloji kəşfiyyat işləri zamanı qeydə alınmış, 2011-ci ildə ilkin kəşfiyyat işləri aparılmışdı.

Zuvandçay paleolit düşərgəsi dəniz səviyyəsindən 1630 m yüksəklikdə, çayın müasir yatagından isə 200 m hündürdə yerləşir.



Şəkil 1.

2012-ci ildə Zuvandçay paleolit düşərgəsində aparılan arxeoloji qazıntıların əsas məqsədi aşagıdakılardan ibarət olmuşdur:

1-ci, magaranın giriş yolunun sag hissəsində 12 m^2 sahədə arxeoloji qazıntı aparmaq;

2-ci, yeni sahədə çöküntünün stratiqrafiyasının müəyyən olunması;

3-cü, tapılmış maddi mədəniyyət qalıqlarının arxeoloji dövrlərinin müəyyən olunması;



Şəkil 2.



Şəkil 3.

4-cü, tapılmış daş məmulatının texniki-tipoloji xüsusiyyətlərinin təyin edilməsi;

5-ci, tapılmış sümüklər əsasında ibtidai insanların düşərgədəki ovçuluq təsərrüfatının xüsusiyyətlərinin müəyyən edilməsi;

6-cı, yeni tədqiqat sahəsində maddi mədəniyyət qalıqlarının yayılma səviyyəsini müəyyən etmək;

7-ci, əldə olunmuş arxeoloji və palentoloji tapıntılar əsasında elmi yeniliklərin müəyyən edilməsi;

8-ci, tapılmış maddi mədəniyyət qalıqları əsasında paleolit arxeoloji ekspedisiyasının 2012-ci ildə gördüyü çöl tədqiqat işlərinin hesabatının yazılması və s .

2012-ci ildə Zuvandçay paleolit düşərgəsində arxeoloji qazıntı işləri düşərgənin giriş yolunun sag tərəfində, 12 m^2 sahədə aparılmışdır. Arxeoloji qazıntılar zamanı düşərgənin çöküntülərindən bu sahədə hələlik 5 arxeoloji təbəqə qeydə alınaraq tədqiq olunmuşdur. Arxeoloji qazıntılar aparılan sahədə düşərgədə olan çöküntünün ümumi qalınlıgı 2m 90 sm-ə bərabər olmuşdu. Bu hissədə düşərgədə çöl tərəfə dogru çöküntünün qalınlıgı davam edir. Məhz buna görə də gələcəkdə Zuvandçay paleolit düşərgəsində aparılacaq arxeoloji qazıntılar zamanı daha yeni mədəni təbəqələrin qeydə alınması güman olunur.

2012-ci ildə Zuvandçay paleolit düşərgəsinin I və II təbəqələrində aparılan arxeoloji qazıntılar zamanı orta əsrlər, antik, tunc və eneolit dövrlərinə aid gil qab qırıqları tapılmışdır. Zuvandçay qədim insan düşərgəsinin III – V təbəqələrində daş dövrünün müxtəlif inkişaf mərhələlərinə aid əmək alətləri və ovlanmış heyvan sümüklərinin qalıqları tapılmışdır.

Maraqlıdır ki, Zuvandçay paleolit düşərgəsinin aşagı təbəqələrində, çöküntülərdə bir neçə ocaq layları qeydə alınmışdır.

Arxeoloji qazıntılar zamanı Zuvandçay paleolit düşərgəsinin III-V təbəqələrindən 100-dən artıq ovlanmış heyvan sümüklərinin qalıqları tapılmışdır. Düşərgədən tapılmış fauna qalıqları çapılıb dogranmış vəziyyətdədir. Bu da onların əksəriyyətinin hansı heyvan və ya quş növlərinə aid olmasını təyin etməyi çətinləşdirir. Lakin düşərgədən tapılmış sümük məmulatı içərisində ondan artıq çənə və heyvan dişləri qeydə alınmışdır. Məhz, həmin çənə və dişlər əsasında sümük məmulatının hansı heyvan və quş növlərinə aid olmasını müəyyən etmək mümkün olmuşdur.

2012 ci ildə aparılan arxeoloji qazıntılar zamanı Zuvandçay paleolit düşərgəsinin III-V təbəqələrində fauna qalıqları ilə yanaşı daş məmulatı da tapılmışdır. Düşərgədən tapılmış daş məmulatları arasında əmək alətləri, qəlpələr, istehsal tullantıları və çay daşları qeydə alınmışdır. III təbəqədən tapılmış daş məmulatlarının texniki və tipoloji tədqiqi əsasında onların üst paleolit mədəniyyəti dövründə hazırlandıqları müəyyən edilmişdir. Maraqlıdır ki, üst paleolitə aid olan əmək alətləri düşərgədən ilk dəfədir ki tapılır. Düşərgənin IV və V təbəqələrindən tapılmış daş məmulatının texniki və tipoloji tədqiqi zamanı onların mustye mədəniyyəti dövründə-yəni 125-130 min il bundan əvvəllərdə hazırlandıqları müəyyən edilmişdir.

Zuvandçay paleolit düşərgəsi Azərbaycanda qeydə alınmış ikinci ən böyuk qədim insan düşərgəsidir. 2012-ci ildə tapılmış maddi mədəniyyət qalıqlarının tədqiqi davam edir və bu da düşərgədə məskunlaşmış ən qədim insanların məşgulliyəti, əmək alətlərinin texniki-tipoloji xüsusiyyətləri və digər cəhətlərin müəyyən olunmasına şərait yaradacaqdır.

А.Г.Джафаров

ПЕРВЫЕ РЕЗУЛЬТАТЫ ИССЛЕДОВАНИЙ ПАЛЕОЛИТИЧЕСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

В июле-августе 2012 года Палеолитическая археологическая экспедиция продолжила исследования на палеолитической стоянке Зувандчай, расположенной недалеко от села Бузеир Лерикского района.

Раскопки проводились у входа пещеры. Площадь раскопа 12 м^2.

В пещере обнаружены и изучены пять культурных слоев, толщиной 2 м 90 см. Толщина осадочного слоя продолжает увеличиваться в сторону входа пещеры, и не исключено, что в будущем будут выявлены новые культурные слои.

A.Q.Dzhafarov

THE FIRST RESULTS OF RESEARCH OF THE PALAEOLITHIC ARCHAEOLOGICAL EXPEDITION

SUMMARY

In July-August 2012 Paleolithic archaeological expedition of the Institute of Archaeology and Ethnography continued research on the paleolithic camp Zuvandchay, located near the village of Buzeir, Lerik region.

Excavations were carried out at the entrance of the cave, at the right. Excavation area is 12 square meters.

In the cave were discovered and studied five cultural layers of 2 m 90 cm thick. The thickness of sediment layer is increasing toward the entrance of the cave, and it is possible that in the future new cultural layers may be found.

PALEOLİT ARXEOLOJİ EKSPEDİSİYASI QAX, BALAKƏN, ZAQATALA DƏSTƏSİNİN ÇÖL-TƏDQİQATININ NƏTİCƏLƏRİ

(Qax, Balakən, Zaqatala rayonları)

M.M.Mənsurov

Paleolit arxeoloji ekspedisiyası 2012-ci il iyulun 1-dən sentyabrın 29-dək Qax-Zaqatala-Balakən rayonları ərazilərində çöl-tədqiqat işləri aparılmışdır.

2012-ci ilin çöl-tədqiqat işlərində Qax, Balakən, Zaqatala arxeoloji dəstəsinin başlıca məqsədi aşağıda sadalanan məsələlərə diqqət yetirməkdən ibarət olmuşdur.

İlk növbədə Qax rayonu Tarix və Diyarşünaslıq muzeyi direktoru, Mədəniyyət və Turizm şöbəsinin müdiri, eləcə də İcra Hakimiyyəti ilə görüşlərdə olub bu nahiyədə mövcud olan qaya zolaqları, orada əmələ gələ biləcək mağaralar (Küy, Hin, Zağa və s.) haqqında məlumat topladıq.

Qaxın Tarix və Diyarşünaslıq muzeyinin ekspozisiyasını nəzərdən keçirərkən tunc dövrü vitrinində obsidiandan disk şəkilli iri nüvə, massiv qəlpə və çalpanalarla maraqlandıq. Məlum oldu ki, bizi maraqlandıran əşyalar rayonun Qanıq (Alazan) çayının sol sahilindəki Lələkənd qədim yaşayış yerində aparılan qazıntılar zamanı əldə olunmuşdur.

Topoqrafik xəritələrdə göstərilən dağ yüksəkliklərinə gedən yolları müəyyənləşdirmək lazım gəldi. Bu məqsədlə əvvəlcə Ağçay-İlisu-Sarıbaş kəndləri istiqamətini seçdik. Ağçayın sol sahili boyu çox dik sıldırım qayalıq uzanır. Çay yatağından xeyli hündürdə qaya layları arası oyuqlar (boşluq) görünürdü. Yerli ovçunun köməyi ilə çətinliklə olsa da həmin oyuqlara girə bildik. Məlum oldu ki, Küy dedikləri bu oyuqlar süni çapmalar olub qaçaqların sığınacaq yeri olmuşdur (şəkil 1).

İlisu ətrafı Gümrük çayı boyu qayalıq seyrək meşəli dağlar tez aşınan, lay-lay qopub sürüşmə verən süxurlardan əmələ gəldiyindən dərə və qılıçlar ətrafı axtarışlarda da qayaaltı boşluqlara rast gəlinmədi.

Sarıbaş kəndi və Uludağ şələləsi istiqamətinə səfər etdik. Yerli yaşlı adamlar, meşə gözətçisi, ovçu və çobanlarla sorğular keçirdik. Onlar bu ətrafda mağara (küy) görmədiklərini dedilər.

Nəhayət Qax rayonu "İlisu Təbiət qoruğunun" Ləkit-Kötüklü kəndi ətrafında mağaralar olduğunu öyrəndik. Ləkit-Kötüklü kəndinə gəldik. Burada bir sıra qayaaltı boşluqlara Xor qaya, Qoşa zağa (şəkil 3), Yarıq qaya (şəkil 4) tipli karst formalarına təsadüf etdik. Lakin yaşayış üçün sərfəli yer kimi Xor qaya mağarası altında kəşfiyyat şurfu qoymağı qərara aldıq. Belə ki, Xor qaya mağarası yerləşən zolağın şimal küncünə kiçik su şırnağı tökülür və bura üç tərəfdən təbii uçurumlarla əhatələnmişdir (şəkil 1).

Xor qaya mağarasının orta bərabərində üzdə düşmə qaya parçaları görünməyən yerdə üzünü (qərb-şərq) 2 m, eni 1,5 m (şimal-cənub) ölçüdə şurf qoyduq.

Üstdən 1-ci təbəqə tozlu peyinli olub 15 sm qalınlıqda idi. 2-ci təbəqə ağgöz əhəng qarışıq çınqıl-iti künc daşlı, qalınlığı 25 sm. 3-cü təbəqə qalınlığı 50 sm olub, narın gillicəli tək-təksə iti künclü daşlardan ibarət idi. Bu təbəqənin alt hissəsindən təxminən 10 sm qalınlıqda çöküntüdən arxeoloji və paleontoloji qalıqlar çıxmağa başladı. 4-cü təbəqə qaramtıl gillicə içində sıx yayılan qorizontal yatmış çınqıl, bəzənsə hamar künclü xırda daşlardan əmələ gəlmişdi, qalınlığı 75 sm idi. 5-ci təbəqə narın gilli yumşaq çöküntü qatıdır, qalınlığı 35 sm idi. Bu təbəqə altında böyük kül-kömür qarışıq qalınlığı 20 sm olan ocaq yeri açıldı. Onun üstündə qızartdaq kərpic rəngli, ortasında qara, altında ağa çalan zeh (linza), dibdə isə yenə qırmızı rəngli kül görünürdü. Ocaq yeri şurfun cənub-şərq kəsiyində aşkar edilmişdir. Dairəsi 60 sm-dir. (şəkil 5).


Burada bir maraqlı cəhət də ocaq altında və yanlarına yastı daşların döşənməsidir. Bu cür lay daş quraması çox güman ki, nəmişlik-rütubətə qarşı düzülmüşdür. Görünür bununla ocaq istisinin ətrafa yayılması təmin olunmuşdur. Başqa məqsədlərə görə qurulmasını da fərz etmək olar.



Şəkil 1. Qax rayonu, Ağçayın sol sahili qayalıqda oyuqlar.



Şəkil 2. Qax rayonu, Ləkit-Kötüklü kəndi üstü Xorqaya mağarasının ilkin görünüşü.



Şəkil 3. Qax rayonu, Ləkit-Kötüklü kəndi üstü Qoşa Zağalar.



Şəkil 4. Qax rayonu, Ləkit-Kötüklü kəndi üstü Yarıq qaya karst boşluğu.

Aşağıda təbəqələr üzrə əldə olunan materialların təsvirini veririk:

III təbəqənin daş məmulatı


Bifas № 2, oval formalı olub, bir yanı qövsvari digəri batıqdır. Materialı çaxmaqlaşmış əhəng daşıdır. Üst üzü yanları boyu pilləli xırda fasetlərlə işlənmişdir. Yuxarı ucu əsasən üst üzdən, qismən də alt tərəfdən itiləyici qoparmalarla arıtlanıb sivriləşdirilmişdir. Başlıca olaraq sol yanı daha çox ikinci işləməyə uğramışdır. Bu yan çapma, kəsmə, sağ yanı isə sıyırma işində istifadə oluna bilərdi. Alətin hər yeri qaramtıl rəngdə patina ilə örtülüdür. Üzləri və tilləri sürtülmüş, sığallanmış görüntüyə malikdir. Ölçüləri: 10x6x3,3 sm (şəkil 6–3).

Çopper № 1 badam şəkillidir, materialı çaxmaqlaşmış əhəng daşıdır. Əsası yarımdairəvi, yanları qabarıq olub, yuxarı ucu sivriləşdirilmişdir. Hər iki üzü yastıdır. İki üzdən də dırnaqvari yuxaldıcı fasetlərlə işlənmişdir. Distal ucun çıxıntılı əsasın hamar olması, ümumiyyətlə, bifasial alətlərdə müşahidə olunur. Ölçüləri: 9,5x7,4x2,6 sm.

Çopper № 5, düzbucaq formalı felzit cinsli daş parçası üzərində hazırlanmışdır. Əsası nisbətən enli və qalın olub alt səthə tərəf dikinə vurulmuşdur. Xammal kimi istifadəyə götürülən daş yastı olmuşdur. Sol yanı maili vurulan zərbələrdən iri qoparmalarla arıtlanıb vurma səthi şəklinə salınmış, bu səthlərdən üstünə tərəf orta ölçülü qəlpələr qoparılmışdır. Onun sağ yanında üst səthə tərəf qoparılan dərin qəlpə izləri qalmışdır. Yuxarı ucda ikinci işlənmə izi yoxdur. Alətin sağ küncü iki üzdən də dimdikvari işlənmişdir. Ola bilsin ki, bu əşyada ikinci işlənmə axıra şatdırılmamış bir mərhələdə qalmışdır. Ölçüləri: 12x6,x3,5 sm (şəkil 6–4).



Şəkil 5. Qax rayonu, Ləkit-Kötüklü kəndi Xorqaya mağarası şurfun cənub kəsiyi görünüşü.




Şəkil 6. Xorqaya mağarası. 3 təbəqədən daş məmulatı.

Makro iskənə № 3, trapes formalıdır. Materialı çaxmaqlaşmış iki qalın əhəng daşıdır. Yanları və əsası qalındır. Üzləri yastıdır. Yuxarı ucu ensiz olub, üst üzdən lyamelyar sıyırma, alt üzdənsə pulcuqlar götürməklə itiləşdirilmişdir. Ölçüləri: 11x2x5 sm.

Massiv qəlpə № 4, nal şəkllidir. Alt və üst üzdə yastı olub qalındır. Enli ucda alt üzə maili vurulmuş hamar vurma səthi yaxşı qalmışdır. Ölçüləri: 9x9,5x3 sm.

Qaşov № 6, materialı felzit cinsli çay daşıdır. O düzbucaq biçimli yuxa nukleus qalığı üzərində formaya salınmışdır. Nüvənin üst üzündə və sağ yanı boyu lövhəvari qoparma yerləri qalmışdır. Alt səthi təbii qabıqdadır. Enli ucda incə fasetli kiçik vurma səthi izlənilir. Yuxarı ucda eninə vurulmuş maili qoparma izi görünür. Bu element kəsər kimi istifadə oluna bilərdi. Sol yan-əsas iş elementi yuxaldıcı pulcuqlarla dişəklənmişdir. Ölçüləri: 6,7x4,7x1,4 sm (şəkil 6-1).

Gəzli alət № 7, ləpik şəkilli təbii daş parçası üzərində düzəldilib. Formaca diski xatırladır. Əsası hamardı, hər iki üzdə kiçik çuxurlar vardır. Yan tərəfdə aşel gəzi açılmışdır. Yuxarı yarımdairədə kəsmə iş elementi də nəzərə çarpır. Ölçüləri: 7,7x7,2x1 sm.



Şəkil 7. Xorqaya mağarası. 4 təbəqədən daş məmulatı.



Şəkil 8. Xorqaya mağarası. 5 təbəqədən daş məmulatı.

Bıçaq № 9, oval şəkilli olub çaxmaqlaşmış əhəng lövhəsi üzərində hazırlanmışdır. Əsası sağ yanı görünür çox istifadə olunduğundan sığallanıb hamarlanmışdır. Sol yanı iki üzdən də itiləyici, yuxaldıcı faset və pulcuqlarla dişəklənmişdir. Yuxarı sivri ucda bu qorizontun bir neçə alətində olduğu kimi dimdikvari iş elementi də müşahidə olunur. Ölçüləri: 12,2x8x1,4 sm (şəkil 6-2).

IV təbəqədən 4 alət tapılmışdır. Bunlar bifas, bir yanlı qaşov və uc qaşovlarıdır.

Bifas № 10, uzunsov oval formalıdır. Felzit cinsli lay daş parçası üzərində hazırlanmışdır. Hər iki üzü yastıdır. Sağ yanı üst üzdən dikinə pilləli işlənmişdir. Sol yanı üst üzdən əvvəl fasetlər qoparmaqla, ikinci növbədə pulcuqlarla dişəklənmişdir. Yuxarı ucu iki üzdən də yuxaldıcı döymə sıyırmalarla dişəklənmişdir. Sol yanın aşağı yarısı üstdən alt üzə maili qoparmalarla hamarlanmışdır. Bu da onun ovucda rahat tutulması üçün edilmişdir. Üst üzün orta hissəsində eninə və aşağıya tərəf çat xətlər

görünür. Alətin hər yeri qalın patina ilə örtülüdür. Ölçüləri: 14x8x2,5 sm (şəkil 7-2).

Bir ağızlı təbii tutacaqlı (belli) **qaşov № 13**. Tünd yaşımtıl rəngli felzit cinsli yastı daş parçası üzərində hazırlanmışdır. Planda düzbucaqlı olub üzləri şumaldır. Uclar və sağ yan dikdir. Sol yanı pilləli qat-qat qoparmalarla işlənmişdir. Ağız xəttinin yuxarı və aşağı küncləri çapma, kəsmə, orta hissə sıyırma funksiyasını görə bilərdi. Bu alət də qalın patinalıdır. Ölçüləri: 12x6,5x2,4 sm (şəkil 7-4).

Uc qaşovu № 12, badam formalı çaxmaqlaşmış əhəng yumrusu üzərində formaya salınmışdır. Üzlərdə linzavari qabarıqdır. Üst üzündə sanki daha qədim dövrdə qoparılmış qəlpə izləri müşahidə olunur. Amma güclü siyirlənməyə məruz qaldığından tillər sığallanıb və qalın patina ilə örtülüb. Yalnız enli ucu üst üzdən dırnaqvari fasetlərlə dişəklənmişdir. Aşağı ucu sivridir. Bu ucdan yanlara və üst üzə zərbələr endirməklə qəlpələr qoparılmışdır. Ölçüləri: 12x8,2x3,7 sm (şəkil 7-1).

Uc qaşovu № 11, düzbucaq formalı lay qopmuş ləpik daş parçası üzərində formalaşıb. Yanları dik, üzləri yastıdır. Ucları dikinə fasetlər qoparmaqla dişəklənib. Yuxarı ucu sağ yarıda üst sol yarıda alt üzdən dişəklənmişdir. Alət sığallı, sürtülmüş vəziyyətdədir. Ölçüləri: 8x5,2x1,9 sm (şəkil 7-3).

V təbəqədən 7 ədəd daş məmulatı üzə çıxarılmışdır. Onlar aşağıdakılardan: massiv alət üçün hazırlıq materialı, kəsər, sıyırma aləti, çoppinqdən ibarətdirlər.

Çopper № 15. Həvə şəkillidir. Materialı qara rəngli, tərkibi iri dənəli sərt daş parçası üzərində formalaşmışdır. Yuxarı ucu enli olub çox hündürdür. Elə ikinci işləmə də bu qalın ucda getmişdir. Ağız hissə yarımdairəvi olub iri paralel fasetlərlə işlənmişdir. Alət düzəldilən daş çox ağırdır. Yanları dik, alt üzü düzdür. Tutacaq hissə ələ yatımlı olub hamardır. Bu alət bərk materialı sığallayıb hamarlamaq üçün istifadə oluna bilərdi. Ölçüləri: 12x8x5,6 sm.

Alət düzəltmək üçün daş parçası № 16. Bu üç üzlü daş nümunəsi üçbucaq şəkilli olub alt üzü yastı, üstü iki tilli olmaqla əsası qalındır. Sağ yanı görünür alət hazırlama əsnasında dilim şəklində qopmuşdur. Ölçüləri: 13,5x8,6x4,7 sm.

Alət hazırlamaq üçün seçilmiş kiçik daş dilimləridir. Biri **(№ 17)** düzbucaq formalı yuxarı ləpik kiçik daş qopuğudur. Bir yanı yuxarı və aşağı küncdə ikinci işləmə izi daşıyır. İş elementlərindən biri sıyırma, digər isə kəsmə funksiyasını yerinə yetirə bilərdi. Bir başqası **(№ 19)** sıyırma, kəsmə işinə yarıya bilərdi.

Makro çoppinq № 21. Düzbucaq formalı yastı qaya daşı üzərində formaya salınmışdır. Küp hissə təbii qabıqda yarım dairəvidir. Orta hissədə yanlar boğmalı görünür. Alt və üst üzdə təbii qabıqda hamardır. Sağ tərəfində 2/3 hissə ilkin örtükdə qalmışdır. Sol yanı alt üzdən endirilən zərbələrdən dərin batıqlar daşıyır. Nəhayət yuxarı ucda dioqonal çapma, vurma funksiyalı enli ağız alınmışdır. İkinci işlənmə dioqonalın üzləri boyu əvvəlcə yuxa fasetlərlə ikinci növbədə narın pulcuqlarla dişəklənmişdir. Ölçüləri: 13,4x9,2x5,1 sm (şəkil 8).

Fauna qalıqlarına hər təbəqədə tək-tək də olsa rast gəlinir, onlar quş kimilərə, xırdabuynuzlu və orta onurğalı heyvanlara aiddirlər.

Daş məmulatının təhlili göstərir ki, kəsmə, deşmə funksiyalı iş ucluğu düzəltmək bu dağ qurşağı abidələrində xarakterik hal kimi görünür.

Hələlik belə təsəvvür yaranır ki, bu mərhələdə nukleus hazırlama, qəlpə alma və onlar üzərində alət düzəltmək vərdişi mənimsənilməyib. Bu da kollektivin texniki ənənəsi və yaxud təsərrüfat, məşğuliyyəti ilə bağlı ola bilərdi.

Xor qaya mağara paleolit düşərgəsində istifadə olunan daş cinsi-süxur nümunələri Saqqızlı, Qara Deyin qədim paleolit yaşayış yerləri daş məmulatında da müşahidə olunur.

Paleolit dövrü baxımından tədqiq etdiyimiz regionda mağara və zağaların əmələ gəlməsi barədə geoloq Həsən Dəllayev və paleogeoqraf Bayram Ələsgərovun fikrincə Böyük Qafqaz dağlarının cənub üzündə orta və yüksək dağ silsilələri Yura və Təbaşir dövrləri çöküntülərindən yaranmışdır. Qaya bloklarının tərkibi orqanik qalıqlı əhəng və gilli mergel süxurlarından ibarətdir. Belə qarışıq çöküntülərdən əmələ gələn dağ massivlərində qaya altı zağalar, çardaqlar və mağaralar formalaşa bilir. Amma hansı qaya kütləsində əhəng qarışığı mergeldən çox olduqda orada mağaralar formalaşır. Mergel qarışığı üstünlük təşkil etdikdə isə çardaq, zağa və s. kimi kiçik, dayaz karst boşluqları yaranır.

Mağara çöküntülərinin rəng, tərkib və quruluşuna gəldikdə əhəng çöküntülərində orqanik qalıqları çox olduğundan qayalığın üzləri, qorizont və təbəqələrin tərkibi qara rəngə çalmaqla

çöküntülər yumşaq və tünd görünürlər. Belə ki, əhəng və mergel süxurları dəniz altında isti iqlim şəraitində çöküb qatlar əmələ gətirmişdir.


Qax, balakən, Zaqatala dəstəsinin əsas tədqiqat planı paleolit mağara düşərgələrini müəyyənləşdirmək olduğuna görə Qax rayonu ərazisində müəyyən işlər gördükdən sonra Zaqatala rayonuna səfər etdik. Burada Tarix və Diyarşünaslıq muzeyinin direktoru Cahangir Sultanov, Mədəniyyət və Turizm şöbəsinin müdiri Zümrüd Ağakişiyeva ilə görüşüb bu ərazidə mağaraların olması barədə söhbətlər apardıq.

Yenə də axtarış planımıza əsasən orta dağlıq qurşağa yaxın Mamrux kəndinə qalxdıq. Məhəmməd Həsənovla (kənd müəllimi) tanış olub gəlişimizin məqsədini açıqladıq. O, isə bizi kənd ağsaqqalları, ovçu və çobanlarla görüşdürdü.

Burada mahir ovçu Hacı Muradla söhbətdə ətraf dağ kəndləri, hətta Dağıstan sərhədlərinə qədər harada bizi maraqlandıran nə varsa məlumat verdi. Söylədi ki, Qara çayın sağ sahilində Cim-Cimax kəndinin güney döşü yüksəkdə və sol sahildə yerləşən Ağdam Kələli kəndindən xeyli yuxarıda meşə qurtaracağında qaya zolağı altda mağara, daha yüksəkdə alp çəmənliyində Xalxına gölü vardır. Gölün uzunluğu qərb-şərq istiqamətinə 90 m, eni şimal-cənuba 45 m-dir. Suyu şəffaf olub, həm də çox dərindir. Ruletkanı gölə saldı, sahildə dərinliyi 9 m idi, suya gümüşü pul atdı yazıları naxışları seçilib oxunurdu. Cim-Cimax kəndi ərazisindəki mağaranın ağzı şərqə açılır, içərisi qurudur; uzunluğu 18m, eni 6 m, hündürlüyü 3 m-dir. Döşəmədə çöküntü olduğu aşkar bilinir. Gələcəkdə burada qazıntı aparmağı qərara aldıq (şəkil 9).

Bir başqa gün ovçu Hacı Muradla danışıb onun silahlı müşayiəti ilə böyük çətinliklə əvvəl rayon bazarından UAZ maşınla Ağdam Kələli kəndinə oradan at kirələməklə yüksək dağlığa çata bildik. Çoban Cəlil kişinin fermasında gecələdik.

Ağdam Kələli kəndinin şimalında (şəkil 10) mövcud olan mağara da böyük sahəyə (8x4x3 m) malik olub içərisi qurudur. Qazıntı üçün perspektivli olduğunu müəyyən etdik. Bir neçə gün Mamrux, Sabunçu kəndləri ətrafında kəşfiyyata çıxdıq. Bu arada yağışlar başladı. Qara çayda su səviyyəsinin enməsini gözlədikdə su çəkilmədi. Geriyə bazaya qayıtdıq. Rayon İcra Hakimiyyətindən və Təbiət qoruğu idarəsindən xəbərdarlıqlar gəldi ki, fövqəladə vəziyyət elan olunub meşə zolağında axtarış təmizləmə əməliyyatı keçirilir. Helikopterlər qalxıb müəyyən məntəqələrdə desant dəstələri endiriləcək. Bir neçə kəndə həkim briqadası səfərlər olunub. Bu səbəbdən də dağlarda işi davam etdirmək mümkün olmayacaq.



Şəkil 9. Zaqatala rayonu. Cim-Cimax mağarasının görünüşü.



Şəkil 10. Zaqatala rayonu. Ağdam Kələli mağarasının görünüşü.

Belə vəziyyətdə fasilədən istifadə edib Əyriçay vadisi boyu tirələrdə və Alazan (Qaniq) çayının sol sahil hövzəsində daş dövrü izlərini axtarmaqla məşğul olduq. Əyriçayın sol sahili tirələrdə Şəki rayonu ərazisində 3 çopper, bir lövhə, qəlpə üzərində qaşov və bir neçə obsidian çalpanası, nukleus əldə etdik.

2012-ci il çöl-tədqiqatının ilkin nəticələri. Böyük Qafqaz dağlarının cənub (Qax-Zaqatala-Balakən) dəstəsinin bu ilki axtarış kəşfiyyat işlərində əsas məqsədi bölgədə paleolit mağara düşərgələrini müəyyənləşdirib qeydə almaq olmuşdur.

Plana uyğun olaraq Qax rayonu yüksək dağlıq ərazisində Ləkit-Kötüklü kəndinin şimalında dəniz səviyyəsindən təxminən 1400 m yuxarıda çardaq, zağa və mağaralar tipli karst boşluqları aşkar etmişdir. Bunlardan Xor qaya karst boşluğunun altında qoyulan kəşfiyyat şurfunda aşel dövrünə aid mədəni təbəqələr açılmışdır. Bununla da Böyük Qafqazın cənubunda ilk dəfə olaraq paleolit mağara düşərgəsinin mövcudluğu təsdiq olunmuşdur.

Yura dövrü geoloji laylarda karst formalı mağaralar Qax rayonu ilə yanaşı Zaqatala və Balakən ərazisinin dağ yüksəkliklərində əldə olunan materiallar ola bilsin ki, bu dağ silsiləsinin cənub qurşağında məskunlaşmanın qərbdən şərqə yayılmasına əsaslar verir. Bunu istifadə olunan xammal uyğunluğu, daş məmulatında texniki, morfoloji və tipoloji yaxınlıq da təsdiq edir. Məsələn, Soni, Qara Deyin, Xorqaya, Abadzex qədim paleolit abidələrində süxurların, alət formalarının oxşarlığı bunu göstərir.

Növbəti ildə Xorqaya mağarasında qazıntını genişləndirmək, Qoşazağa, Cim-Cimax və Ağdam Kələli mağaralarında (Zaqatala), Mahamalar (Balakən) mağarasında kəşfiyyat xarakterli şurflar qoymağa aşel dövrü insanlarının miqrasiya yolunu bərpa etmək və müxtəlif yönümlü texniki kompleksləri ayırd etmək mümkün olacaqdır.

М.М.Мансуров

ПРЕДВАРИТЕЛЬНЫЕ РЕЗУЛЬТАТЫ ПОЛЕВЫХ ИССЛЕДОВАНИЙ ОТРЯДА ПАЛЕОЛИТИЧЕСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

В 2012 году отряд палеолитической археологической экспедиции проводил археологическую разведку в Гахском, Закатальском и Белоканском районах Азербайджана.

Основные работы проводились в пещере Хоргая, расположенной около села Лекит-Кетикли Гахского района, на высоте 1400 метров над уровнем моря. В пещере был заложен разведочный шурф, выявивший 5 слоев. Два верхних слоя не содержат находок и являются стерильными, три нижних слоя культурные. В основании 5 слоя обнаружен очаг диаметром 60 см и толщиной 20 см.

Среди обнаруженных каменных материалов выделены бифасы, чопперы, скребла и скребки архаичного облика. Выявленные орудия, возрастом около 500,000 лет относятся к раннему ашелю. Остатки фауны содержат кости птиц, мелкого рогатого скота.

В среднегорной полосе этого района под мощными обрывистыми скалами юрского возраста, обнаружено несколько пещер с отложениями.

Разведочные работы проводились также в Закатальском и Белоканском районах, где обнаружены перспективные, с точки зрения палеолита, пещеры, а также в окрестностях села Джим-Джимах, по правому борту реки Карачай, возле села Агдам-Келали и около села Махамалар Белоканского района.

Главной целью археологических исследований на Южных склонах Большого Кавказа было определение направлений миграций древнейших людей и технический характер палеолитических комплексов.

M.M.Mansurov

THE PRELIMINARY RESULTS OF FIELD RESEARCHES OF THE PALEOLITHIC ARCHAEOLOGICAL EXPEDITION GROUP

SUMMARY

In 2012, the group of Paleolithic Archaeological Expedition on Southern slope of Greater Caucasus conducted archaeological exploration in Gakh, Zagatala and Balakan districts of Azerbaijan.

The main work was carried out in the cave Khorgay, located near the village Lekit-Ketikli of Gakh district, at an altitude of 1400 meters above sea level. In the cave was built prospecting shaft that revealed 5 layers. The top two layers do not contain the findings and are sterile; the three lower layers are cultural. In the base of the fifth layer was discovered five hearths with 60 cm diameter and 20 cm thick.

Among the discovered stone materials there are bifases, choppers, scraping knives and scrapers of archaic aspect. Identified tools belong to the early Acheulian, about 500,000 years-old. Faunal remains include bones of birds and small cattle.

In the middle mountain strip of the area under the powerful precipitous rocks of Jurassic age, was found a few caves with sediment.

Exploration works were also conducted in Zagatala and Balakan districts where were found caves in the vicinity of the village of Jim-Jim, on the right bank of the river Garachay, near the village Agdam-Kalali and around the village Mahamalar of Balakan district promising in terms of Paleolithic.

The main purpose of archaeological researches on the southern slopes of the Greater Caucasus, was to determine the direction of ancient people's migration and the technical nature of Paleolithic complexes.

AZƏRBAYCANDA YENİ PALEOLİT ABİDƏLƏRİ
(Gəncə-Qazax bölgəsi)

A.Ə.Zeynalov, İ.N.Avşarova

Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu Paleolit arxeoloji ekspedisiyasının Gəncə-Qazax dəstəsi 2012-ci ildə Gəncə-Qazax regionunda arxeoloji kəşfiyyat işləri aparmışdır. Paleolit arxeoloji ekspedisiyasının Gəncə-Qazax dəstəsinin tərkibində Rusya alimləri də iştirak etmişlər (Kulakov S.A. – Rusiya Elmlər Akademiyası Maddi Mədəniyyət Tarixi İnstitutu, Sankt-Peterburq şəhəri və İdrisov İ.A. – Rusiya Elmlər Akademiyasının Dağıstan Elmi Mərkəzi Geologiya İnstitutu, Mahaçqala şəhəri).

Paleolit arxeoloji ekspedisiyasının Gəncə-Qazax dəstəsinin əsas məqsədi Azərbaycanın qərb bölgəsində arxeoloji kəşfiyyat işləri aparmaq, qədim insanların izlərini və yeni qədim paleolit düşərgələrini tapmaq olmuşdur. Diqqət əsasən abşeron yataqlarına, xüsusilə də o təbəqələrdə, ayrı-ayrı yerlərdə üzə çıxan fauna qalıqlarının ətraf ərazilərinə yönəlmişdir. Gəncə-Qazax zonasında abşeron yataqlarında Cənub fili və diqər fauna qalıqları dəfələrlə tapılırdı və bu barədə ədəbiyyatda da məlumat var.

Beləliklə üç əsas marşrut müəyyənləşmişdir (Şəkil 1):

1. Mingəçevir su ambarının ətrafı; 2. Şəmkir su ambarının ətrafı; 3. Palan Tökən dağ silsiləsi, Ceyrançöl, Gürcüstanla sərhəd zolağına yaxın sahələr.



Şəkil 1.

Eyni zamanda ekspedisiyanın məqsədi, çap olunmuş ədbiyyatdan bu ərazidə yerləşən mağaralar haqqında məlumat toplamaq və onlara baxmaq idi. Belə ki, XX əsrin 30-cu-50-ci illərində bu ərazidə Y.Qummel və İ.Cəfərzadə arxeoloji tədqiqat işləri aparmış və mağaralar haqqında məlumat vermişlər.

Y.Qummel indiki Göygöl şəhəri ilə üzbəüz yerləşən "İoqannes Bekın" mağarasında arxeoloji qazıntı işləri aparmışdır (1), İ.Cəfərzadə isə Daşkəsən rayonunda yerləşən bir sıra mağaralar haqqında məlumat çap etmişdir (2).

DAŞKƏSƏN RAYONU

Daşkəsən rayonu, Zağali kəndinin girəcəyində, Qoşqarçayın sol sahilində, dəniz səviyyəsindən 1678m hündürlükdə, ədəbiyyatda əks olunan beş mağara qeydə alınmışdır. Ümumiyyətlə, Zağalı kəndinin ətrafında, Qoşqarçayın sağ sahilində mağaralar çoxdur.

Baxış keçirdiyimiz beş mağaranın təsviri, sağdan sola (Şəkil 2):



Şəkil 2. Daşkəsən rayonu, Zağali kəndinin yanındakı 5 mağara.



Şəkil 3. Qırmızı qaya.

Mağara 1. Çöküntü var. Giriş hissəsi demək olar ki tutulub, hündürlüyü ≈0.5 m.

Mağara 2. Çöküntü var. Girişin qabağına iri qayalar düşüb, lakin mağaraya girmək mümkündür. Hündürlüyü ≈1.8 m, sahəsi ≈25 m^2.

Mağara 3. Çöküntü var. Giriş hissəsi demək olar ki tutulub. Hündürlüyü ≈30-70 sm, görünən sahəsi ≈8 m^2.

Mağara 4. Çöküntü var. Giriş hissəsi tutulub. Girişin eni 6m, görünən sahəsi ≈5 m^2.

Mağara 5. Çöküntü var. Girişin qabağına iri qayalar düşüb, lakin mağaraya girmək mümkündür. Hündürlüyü ≈1.2 m, sahəsi ≈40 m^2.

Beş mağaranın beşində də çöküntü var. Bu mağaralar perspektivlidir və burada tədqiqat aparmaq olar.

QIRMIZI QAYA DÜŞƏRGƏSİ

Y.Qummelin Gəncəçay vadisində tədqiq etdiyi "İoqannes Bekın" mağarasını, təəssüf ki, tapa bilmədik. Lakin həmin ərazidə, daş dövrünə aid yeni düşərgə tapılmışdır (Şəkil 1). Düşərgə qayanın altında yerləşirdi və qaya qırmızı rəngdə olduğundan ona "Qırmızı Qaya" adı verilmişdir (Şəkil 3).

Düşərgə Göygöl rayonu ərazisində, Gəncəçayın sol sahilində, Göygöl şəhəri ilə üzbəüz dağın cənub ətəyində, Gəncəçaydan 240 metr aralıda və 40 metr hündürlükdə, dəniz səviyyəsindən 647m hündürlükdə yerləşir. Əraziyə iri, qırmızıya çalan, əhəng daşından qayalar səpələnib və belə qayalardan birinin altında düşərgə aşkar olunmuşdur.

Qayanın altından və qabağından, kiçik bir sahədən, yerin üstündən, 9 ədəd ilk tunc və orta əsr dövrünə aid saxsı qırığı, 244 ədəd daş məmulatı və 1 ədəd sümük tapılmışdır.

Saxsı qırıqları daha son dövrlərə aid olduğundan daş məmulatı ilə əlaqəsi yoxdur. Tapılan 1 ədəd sümük isə Aralıq dənizi tısbağasına (Testudo graeca) aiddir[1].

<u>Qırmızı Qaya düşərgəsindən tapılmış daş məmulatları</u>

Qırmızı Qaya düşərgəsindən 244 ədəd daş məmulatı aşkar olunmuşdur. Onların 242 ədədi boz rəngli çaxmaq daşından və 2 ədədi dəvəgözü daşındandır. Onların arasında nüvə, qəlpə, lövhə, alətlər və tullantılar müəyyən olunmuşdur.

Nüvələr (2 ədəd). İksi də çaxmaq daşındandır. Onlardan biri prizmatik nüvədir, üzərində qoparılmış lövhələrin neqativləri qalıb (Şəkil 4. 7). İkincisi kifayyət qədər böyükdür və üstündə zərbə səthi və zərbə düyünü var. Lakin üzərində qoparılmış lövhələrin neqativləri də var, bu isə daşı iri qəlpə üzərində nüvə kimi təsvir etməyə əsas verir (Şəkil 4. 6).

Alətlər (2 ədəd). Tapıntıların arasında iki alət qeydə alınıb. Biri dəvəgözü daşından hazırlanmış qaşovcuqdur. Alətin belində təbii qabıq saxlanılıb. Alətin işlək ağzı dik mailiyə keçən dişəklə retuşlanmışdır (Şəkil 4. 1). İkinci alət çaxmaq daşından lövhəvari bıçaqdır. (Şəkil 4. 2).

Qəlpələr (54 ədəd). Biri dəvəgözü daşından, qalanları çaxmaq daşından hazırlanmışlar (Şəkil 4. 4,5). Üzərlərində ikinci dəfə işlənmə izi yoxdur. Zərbə səthi və zərbə düyünləri saxlanılıb. Qəlpələrin dördü fraqmentdir. Biri və ən irisi qəlpənin distal hissəsidir (Şəkil 4. 5), 1 özək, 2 isə orta hissələridir.

Lövhələr (11 ədəd). Lövhələr açıq boz rəngli çaxmaq daşından hazırlanıb. Dördü bütövdür, ən irisinin ölçüləri 7.2x2.1x0.6 sm bərabərdir, ən kiçiyinin ölçüləri isə 2.8x1.3x0.7 sm bərabərdir. Lövhələrin 4 özək hissələri qalıb, 3 - orta.

Texniki qopuqlar (42 ədəd). Onların 27-si xammalın ilkin qopuqlarıdır, yanı bel tərəflərini təbii qabıq örtür.

Daş məmulatı içərisində 133 ədəd istehsalat tullantısı aşkar olunmuşdur. Onların hamısı çaxmaq daşındandır. Daş məmulatı arasında istehsal tullantılarının qeydə alınması düşərgə sakinlərinin burada alət hazırladığını söyləməyə imkan verir.


QARA TƏPƏ ORTA PALEOLİT DÜŞƏRGƏSİ

Yuxarıda qeyd olunduğu kimi, ekspedisiyanın əsas marşrutlarından biri Ceyrançöl idi. Bu ərazidə arxeoloji kəşfiyyat işləri apararkən yeni açıq tipli düşərgə aşkarlandı. Tapıntılar ərazidə yerləşən Qara Təpə dağının cənub ətəyində yerləşirdilər və məhz buna görə düşərgəyə Qara Təpə adi verildi (Şəkil 1).


Düşərgə Ceyrançölün Tovuz rayonuna aid ərazisində, Qara təpə dağının şərq qutaracağında, Əyri dərə yarğanından qərbdə, dəniz səviyyəsindən 460 m hündürlükdə yerləşir (Şəkil 5).

Düşərgədən iki ədəd, təyin olunmayan, sümük qırığı tapılmışdır.

[1] 2012-ci ilin arxeoloji tədqiqat zamanı tapılmış sümük məmulatı təyin olunmaq üçün AMEA Geologiya İnstitutu, H.Zərdabi adına Təbiət Tarixi Muzeyinə verilmişdir . Sümük məmulatının təyini ilə T.M.Heybətov məşğul olmuşdur.



Şəkil 4. Qırmızı qaya.



Şəkil 6. Qara Təpə. Daş alətlər.



Şəkil 5. Qara Təpə.

Geoloji quruluş.

Tovuz rayonunun ərazisi oroqrafik quruluşuna görə 3 əsas hissəyə bölünür:

Ceyrançöl (Kür çayından şimalda yerləşən sol sahil ərazisi), Xunam (Kür çayı ilə Kiçik Qafqaz dağlarının şimal ətəkləri arasında yerləşən düzənliklər və rəmələr), Kiçik Qafqazın şimal ətəkləri, yaxud cənub-dağlıq hissə.

Ceyrançöl qərbdən, Gürcüstan Respublikası sərhədlərindən, cənub-şərqə, Mingəçevir su ambarının sahillərinə qədər, 150 km məsafədə uzanan nisbətən geniş bir ərazidir və onun yalnız mərkəz hissəsi Tovuz rayonuna aiddir.

Ceyrançölün oroqrafik quruluşu əslində xeyli sadədir. Burada asimmetrik quruluşlu alçaq tirələr və düzlər şimaldan cənuba tərəf bir-birini əvəz edir. Rayonun şimal sərhəddi boyu Çobandağ (şərq hissəsi) və Ağtaxta təpə tirələri çox hündür olmasalar da, Qabırrı (İori) çayı ilə Kür çayı arasında suayırıcı tirələrdir.

Ümumiyyətlə, Tovuz rayonunun dağlıq sahəsində ən geniş yayılmış süxur kompleksləri yura dövrünə aid maqmatik və çökmə süxurlardan-bazaltlardan, andezit-bazaltlardan, vulkanogen-çökmə süxurlardan (tuflardan, tufkonglomeratlardan, tufqumdaşlardan) ibarətdir.

Alçaq dağlıq və dağətəyi zonada üst yura-alt təbaşir və təbaşir yaşlı vulkanogen, vulkanogen-çökmə və çökmə süxurlar geniş yayılmışdır. Bunlar əsasən qumdaşlardan, andezit-bazaltlardan, tufkonqlomeratlardan və s. ibarətdir. Alçaqdağlığın Qazax sinklinoriumuna aid edilən qərb hissəsində (Tovuzçaydan qərbə) təbaşir çöküntüləri əsasən vulkanogen, vulkanogen-çökmə, və çökmə (karbonatlı) süxurlardan təşkil olunmuşdur.

Qara Təpə düşərgəsindən tapılmış daş məmulatları

Qara Təpə düşərgəsindən 12 ədəd daş məmulatları aşkar olunmuşdur (1 ədədi dəvəgözü daşından, 3 ədədi çaxmaq daşından, 1 ədədi kvars, 6 ədədi isə çay daşındandır). Bütün toplanmış materiallar Qara Təpə dağının cənub ətəyindən, təxminən 40 m^2 sahədən yerin üstündən yığılmışdır. Daş materialları, xammalına və qalma dərəcəsinə görə, iki kompleksə bölmək olar ki, onlar da öz növbəsində 3 qrupa bölünür. Birinci iki qrup bir kompleksə aiddir.

Birinci qrup – 1 ədəd:

Qaşovçuq. Dəvəgözü daşından qopuq, retuş nəticəsində işlək ağızına qaşovçuq forması verilmişdir.

İkinci qrup – 4 ədəd (3 ədədi çaxmaq daşından, 1 ədədi kvars):

Nüvələr (2 ədəd). Çaxmaq daşından nüvə. Belində təbii qabıq, diqər üzündə isə qoparılmış qəlpənin neqativi saxlanılıb (Şəkil 6. 1). Digər nüvəyə bənzər məmulat kvarsdan hazırlanıb.

Qəlpələr (2 ədəd). Hər iki qəlpə çaxmaq daşındandır. Qəlpənin birində özək hissəsi sınıb. Bel tərəfində qopuqların neqativləri izlənir (Şəkil 6. 2). Digər qəlpə lövhəvaridir, distal hissəsi sınıb. Zərbə səthi hamardır. Qəlpənin qıraqları işlənmə izi daşıyır (Şəkil 6. 3).

Üçüncü qrup - 7 ədəd (hamısı çay daşındandır).

Alət (1 ədəd). Alət iri, açıq yaşıl rəngli daşdan hazırlanıb. Alət olduqca hamardır, lakin üzərində çoxlu qopuqların neqativləri aydın izlənir. İşlək ağzı iri dik retuşla işlənib (Şəkil 6. 5).

Qəlpələr (4 ədəd). Birinin belində qoparılmış iri qəlpənin neqativi qalıb. İkincisi tünd qırmızı rəngdə qəlpədir. Belində təbii qabıq qalıb. Üşüncüsü açıq boz rəngli çay daşından hazırlanmış qəlpənin özək hissəsidir, hazırlanmış zərbə səthi ilə (Şəkil 6. 4). Dördüncüsü lövhəvari qəlpənin özək hissəsidir. Fraqment hamarlanıb, üstü isə dərin patinalıdır.

Çay daşları (2 ədəd). Məmulatlar qabaqcadan düşünərək işlənib. Xırdasında qoparılmış qəlpənin neqativi izlənir, uzunsov çay daşın üstündə isə qoparılmış lövhələrin neqativləri izlənir.

ŞƏMKİR SU AMBARININ CƏNUB SAHİLİ

Şəmkir su ambarının cənub sahilində, arxeoloji kəşfiyyat işləri apararkən abşeron yataqlarında filin sümükləri tapılmışdır (Şəkil 1). Onlardan bir qədər aralıda orta paleolit dövrünə aid 8 ədəd daş məmulatı tapılmışdır. Tapıntı yeri su bəndindən təxminən 500 metr qərbdə, dəniz səviyyəsindən 154 m hündürlükdə yerləşir (Şəkil 7).



Şəkil 7. Şəmkir su ambarının çənub sahili.

Tapıntılar Şəmkir su ambarının sahilində, filin sümükləri ilə bir səviyyədə yığılmışdır. Sahil boyu isə təxminən 25-30 metr aralıda sıldırım dağdır. Görünür bu daş alətlər bura oradan sürüşüb düşüblər, çünki onların işlənmə xüsusiyyətləri abşeron dövrünə yox, daha çox sonrakı orta paleolit dövrünə xasdır.

Bu daşlarla birlikdə bir diş tapılmışdır. Dişdə kiçik formalı Equus caballusun əlamətləri var. Bu da orta paleolit üçün xas olan atın növüdür.


Şəmkir su ambarının çənub sahilində tapılmış daş məmulatları

Şəmkir su ambarının çənub sahilində orta paleolit dövrünə xas olan əlamətlərlə 8 ədəd daş məmulatı tapılmışdır. Onlar çay daşı cinsinə məxsus olan xammaldan hazırlanıblar. Bütün daşlar olduqca hamardır. Görünür uzun müddət axar su təsirinə məruz qalıblar.


Nüvələr (2 ədəd). Hər ikisi çay daşındandır və çox hamardır. Birinin üzündə qoparılmış lövhələrin neqativləri saxlanılıb, beli isə təbii qabıqlıdır (Şəkil 8. 3). İkinci nüvə yalnız bir iri qoparılmış qəlpənin neqativinin izini daşıyır (Şəkil 8. 4).

Levallua qəlpəsi (1 ədəd). Yaşıl rəngli çay daşı cinsindən hazırlanmış klassik levellua qəlpəsidir. Zərbə səthi qabarıq fasetlidir. Qəlpənin beli mərkəzəqaçan qopuqların izlərini daşıyır. Qəlpə hamar və patinlidir (Şəkil 8. 1).

Qəlpələr (2 ədəd). Biri boz rəngli daşdandır. Zərbə səthi düzdür, ucan quş formasındadır. Belində əvvəl qoparılmış qopuqların neqativləri qalıb (Şəkil 8. 2). Digəri qəlpənin özək hissəsidir. Fraqmentin zərbə səthi düzdür.



Şəkil 8. Şəmkir su ambarının çənub sahili. Daş alətlər.



Şəkil 10. Qaraca qədim paleolit tapıntı yeri. Daş alətlər.

QARACA TAPINTI YERİ

Yuxarıda qeyd olunduğu kimi paleolit arxeoloji ekspedisiyası Gəncə-Qazax dəstəsinin əsas məqsədi Azərbaycanın qərb bölgəsində abşeron yataqlarında, xüsusilə də o təbəqələrdə fauna qalıqlarının üzə çıxdığı yerlərdə qədim insanların izlərini, yəni əmək alətlərini tapmaq olmuşdur. Bu məqsədlə əsas istiqamətlərdən biri Mingəçevir su ambarının ətrafıdır ki, oradan su yuyulması nəticəsində dəfələrlə cənub filin və digər fauna qalıqları tapılırdı.



Şəkil 9. Qaraca qədim paleolit tapıntı yeri.

Paleolit arxeoloji ekspedisiyasının 2012-ci ilin tədqiqat mövsümündə ən böyük nailiyyəti, Mingəçevir şəhərinin yanında, abşeron yataqlarında, heyvan sümükləri ilə yanaşı qədim insanın daş əmək alətlərinin tapılmasıdır. Yeni qədim paleolit tapıntı yeri Qaraca dağın yanında yerləşdiyinə görə, ona Qaraca adı verilmişdir (Şəkil 1).

Qaraca qədim paleolit tapıntı yeri, Mingəçevir şəhəri, Mingəçevir su ambarının cənub sahilində, Bozdağ silsiləsinin Qaraca dağından cənub-şərqə, dəniz səviyyəsindən 90 m hündürlükdə yerləşir (Şəkil 9).

Coğrafi şərait

Mingəçevir dəniz səviyyəsindən 55 metr yüksəklikdə, Bozdağ dağ silsiləsinin cənub-şərq yamacında, mərkəzi Azərbaycanın Kür-Araz ovalığındakı Mingəçevir su anbarının kənarında yerləşir (3).

Dördüncü dövrün Pleystosen epoxasında müasir Kür-Araz ovalığı Xəzər dənizinin suları altında olmuşdur. Epoxanın sonuna doğru Kür körfəzi getdikcə ensizləşir, dayaz dənizin sahili dəyişir. Ətrafda göllər, bataqlıqlar əmələ gəlir. Körfəz şimaldan və cənubdan sıx çay şəbəkəsinə məruz qalmış düzənliklərlə əhatə olunurdu. İqlim isə isti və rütubətli olmuşdur.

Orta Kür ovalığında onurğalı fauna qalıqlarının tədqiqatına keçən əsrin 30-cu illərindən başlanmışdır. 1936-cı ildə S.A.Kovalevski Bozdağ və Duzdağda Üst Abşeron çöküntülərində filin köpək dişinə, Qaraca dağında isə yaşlı gilli qumdaşılarında *Mastodonun* dişlərinə rast gəlmişdir.

Dördüncü dövr fəqərəlilər faunasının öyrənilməsində V.İ.Qromovun böyük xidmətləri olmuşdur. O, Xocaşen dağ silsiləsinin cənub yamacının qərb hissəsində topladığı xillə və dişlərə əsasən *Archidiskodon meridionalis* təyin etmişdir. Tapıntının Abşeron yaşlı olmasını sümüklərin yerləşdiyi süxurlarda *Apscheronia propinqua*, *Dreissensia polymorpha* və b. mollüska faunasının olması ilə əsaslandırır.


Azərbaycan EA Geologiya İnstitutunun əməkdaşları B.G.Vəkilov, S.Q.Qaryağdı, Coğrafiya İnstitutundan Ə.V.Məmmədov və b. Mingəçevir rayonunda geniş geoloji və geomorfoloji tədqiqatlar aparmışlar. Bu zaman çoxlu miqdarda onurğalı fauna qalıqları toplanmışdır. Bozdağ, Duzdağ və ətraf rayonlardan toplanan onurğalı faunanın öyrənilməsi ilə R.C.Cəfərov, N.İ.Burçak-Abramoviç, D.V.Hacıyev və başqaları məşğul olmuşlar. Paleontoloqların qənaətinə görə, Ceyrançöl ərazisində Gec Pliosen-Erkən pleystosendə fil, kərgədan, vəhşi öküz, at, ceyran və bir çox meşə və çöl heyvanı yaşamışlar. Məlum olan skeletlərin bir qismi, fraqmentləri Təbiət-Tarixi Muzeyinin qiymətli eksponatları sırasındadır (4).

XXI əsrin başlanğıcından Mingəçevir su anbarının səviyyəsi aşağı düşməkdədir (15 m). Nəticədə geniş bir quru sahə su basımından azad olmuşdur.

2001-ci ildə Mingəçevir su anbarının cənub-şərq sahilində, Dəyirmandağın şimal yamacında qədim heyvan skeletinin ayrı-ayrı fraqmentləri tapılmışdır. Tapıntı yerində Azərbaycan MEA müxbir üzvü Ə.V.Məmmədov, biologiya elmləri namizədi T.M.Heybətov və b. olmuşlar. Tapıntı Dördüncü dövrdə yaşamış, hazırda nəsli qırılmış filin *Archidiskodon meridionalis* (T.M.Heybətovun şifahi məlumatı) çənə və qıç sümüklərindən, dişlərindən və skeletin digər hissələrindən ibarətdir.

Fauna tapıntıları

Qaraca qədim paleolit tapıntı yerində çoxlu iri sümüklərə rast gəlinirdi. Onların əksəriyyəti daşlaşmış təbəqənin içində idi. Tədqiqat üçün 7 ədəd dümük götürüldü. Onların 3-ü Cənub fili *Archidiskodon meridionalisə* məxsusdur. Cənub fili 2.5-0.7 mln il bundan əvvəl yaşamışdır.



Şəkil 11. Qaraca qədim paleolit tapıntı yeri. Daş alətlər.

Qaraca qədim paleolit tapıntı yerinin daş məmulatları

Qaraca qədim paleolit tapıntı yerində 5 ədəd daş məmulatı tapılmışdır. Daş məmulatının arasında 3 ədəd çopper və iki qəlpə müəyyən olunub.

Çopper (3 ədəd). Biri sarımtıl rəngli çay daşından hazırlanıb. Üzərində bir neçə qopuğun izləri var. Bir tərəfində üç ardıcıl qopuqların izləri var, əks tərəfdə - iki ardıcıl qopuğun izləri var. Bu qopuqlar nəticəsində alətin işlək ağzı formalaşıb (Şəkil 11. 1). Digər çopper boz qəhvəyi rəngli çay daşından hazırlanıb. Alət iki tərəfdən işlənib. Alətin bir qırağından bir iri qəlpə qoparılıb ki, alətətin işlək ağzına ensiz forma verilsin. Bundan sonra çopperin işlək ağzı hər iki tərəfdən işlənib (Şəkil 11. 2). Üçüncü tapıntı çopperə bənzər iki tərəfli alətdir. Alət yastı qara rəngli çay daşından hazırlanıb (Şəkil 10. 3).

Qəlpə (2 ədəd). Qəlpələr çay daşından hazırlanıb. Zərbə səthləri oxunur. Birinin belində əvvəl qoparılmış qopuqların neqativləri qalıb (Şəkil 10. 2). Digəri üç tərəfli qopuqdur (Şəkil 10. 1).

ŞƏMKİR SU AMBARININ ŞİMAL SAHİLİ

Paleolit arxeoloji ekspedisiyasının 2012-ci ilin tədqiqat mövsümündə digər böyük bir nailiyyəti, Şəmkir rayonunda, abşeron yataqlarında heyvan sümükləri ilə yanaşı qədim insanın daş əmək alətlərinin tapılmasıdır (Şəkil 1).

Tapıntı yeri Şəmkir rayonu, Şəmkir su ambarının şimal sahilində, su bəndindən qərbdə, sahil boyu 10-15 metr ərazidə, dəniz səviyyəsindən 150 m hündürlükdə yerləşir (Şəkil 12).



Şəkil 12. Şəmkir su ambarının şimal sahili.

Tapıntı haqqında məlumatı Şəmkir rayonu İskəndərli kənd sakini Vahid Həmidov vermişdir. O balıq tutmağa gedərkən Şəmkir su ambarının şimal sahilində iri sümüklərə rast gəlmişdir. Sümüklərin bir qismi daşlaşmış təbəqənin içində, bəziləri isə üzdə idi. Ümumiyyətlə sümüklər su ambarında suyun aşağı enməsi nəticəsində üzə çıxıb.

Ümumiyyətlə, Şəmkir su ambarının şimal sahilindən Ceyrançöl başlanır və yuxarıda Qaraca qədim paleolit tapıntı yerinin Coğrafi şəraiti haqqında verdiyimiz məlumat eynilə bura da aiddir. Ərazi Kür və Qabırrı - iki çay arasındakı yerdir.

Fauna tapıntıları

Şəmkir su ambarının şimal sahilində iri sümüklər çox idi. Tədqiqat üçün 36 ədəd sümük

götürüldü. Onların arasında Cənub fili *Archidiskodon meridionalis*, *Equus stenonis* və *Equus caballus* təyin olunmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, Cənub fili 2.5-0.7 mln il bundan əvvəl yaşamışdır. *Stenon* atı da Avropada demək olar ki, eyni vaxtda yaşayıb. Bu at Avropaya təxminən 2 mln. il bundan əvvəl gəlib və 1 mln il bundan əvvələ qədər yaşayıb.

Şəmkir su ambarının şimal sahilində tapılmış daş məmulatları

Sümükləri topladığımız yerdən 3 ədəd daş tapıldı. Daşların olduqca hamar olduqlarına baxmayaraq, üzərində işlənmə izləri oxunur və işlənmə texnikasına görə, onları qədim paleolit dövrünə aid etmək olar.

Copper (?) (1 ədəd). Küncülü daşın üstündədir, cox hamardır. İşlək ağzı iki tərəfli qopuqlarla formalaşıb.

Qəlpə (1 ədəd). Kvars daşından hazırlanıb, cox hamardır.

Tullantı (1 ədəd). Qəlpə hazırlanan xammaldan, yəni kvarsdandır.

2012-Cİ İL TƏDQİQAT MÖVSÜMÜNÜN İLKİN NƏTİCƏLƏRİ:

Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu Paleolit arxeoloji ekspedisiyasının Gəncə-Qazax dəstəsi 2012-ci ilin tədqiqat mövsümündə Gəncə-Qazax zonasında arxeoloji kəşfiyyat işləri apararkən 5 yeni paleolit tapıntı yeri aşkar etmişdir. Abidələrdən zəngin arxeoloji material əldə olunmuşdur. Daş məmulatları ilə yanaşı abşeron dövrünə aid kifayət qədər fauna qalıqları da toplanmışdır.

- Göygöl rayonunda daş dövrünə aid yeni düşərgə tapılmışdır. Yeni düşərgəyə "Qırmızı Qaya" adı verilmişdir.
- Ceyrançöldə, Tovuz rayonu ərazisində, "Qara Təpə" orta paleolit düşərgəsi tapılmışdır.
- Şəmkir rayonunda, Şəmkir su ambarının çənub sahilində, orta paleolit dövrünə aid tapıntı yeri qeydə alınmışdır.
- Minqəçevir şəhərinin yanında, abşeron yataqlarında, "Qaraca" yeni qədim paleolit tapıntı yeri qeydə alınmışdır.
- Şəmkir rayonu, Şəmkir su ambarının şimal sahilində, abşeron yataqlarında, digər qədim paleolit tapıntı yeri qeydə alınmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan ərazisinin abşeron yataqlarında, yəni yaşı 1 milyondan artıq olan təbəqələrdə, daş əmək alətlərinin tapılması Azərbaycanın paleolitşunaslığında ilk dəfədir. Bu vaxta qədər Azərbaycan ərazisində yeganə qədim paleolit düşərgəsi Azıx qədim paleolit mağara düşərgəsi idi.

Azərbaycanın abşeron yataqlarında, Mingəçevir şəhərinin yanında Qaraca və Şəmkir su ambarının şimal sahilində yerləşən qədim paleolit tapıntı yerləri onu göstərir ki, qədim insanlar bu ərazidə təkcə mağarada yox həm də mağaralardan kənarlarda yaşamışlar.

ƏDƏBİYYAT

1. Гуммель Я.И. Пещера Бека в долине Ганджа-чая / Рукопись. Архив Института истории АН АР, 1937, № 688.
2. Джафарзаде И.М. Следы древнейшей культуры человека на территории Азербайджана (от камня до металла - меди) // Изв. АзФАН СССР, 1944, № 9, с. 54-72.
3. Mingəçevirin tarixi. / http://www.mtk.az/Content/UmumiMelumat/Mingecevir.aspx
4. Mingəçevir dördüncü dövr faunasi. / http://www.gia.az/view.php?lang=az&menu=78&id=1127.

А.А.Зейналов, И.Н.Авшарова

НОВЫЕ ПАЛЕОЛИТИЧЕСКИЕ ПАМЯТНИКИ В АЗЕРБАЙДЖАНЕ

РЕЗЮМЕ

Летом 2012 года Гянджа-Газахский отряд палеолитической археологической экспедиции проводил археологическую разведку в Гянджа-Газахском регионе Азербайджана. Основной задачей экспедиции был осмотр абшеронских отложений в местах их обнажения, в особенности тех участков, где ранее палеонтологами были обнаружены и исследованы костеносные линзы с остатками плейстоценовой фауны, с целью обнаружения там следов палеолита.

Было выбрано три основных маршрута археологической разведки: 1. Окрестности Мингячевирского водохранилища; 2. Окрестности Шамкирского водохранилища; 3. Хребет Палан Текян и Джейранчельская степь вдоль азербайджано-грузинской границы.

Наряду с этими маршрутами, было целесообразным осмотреть ряд археологических объектов, исследованных в первой половине XX века и интерпретированных как памятники каменного века. В частности «пещера Иоганнеса Бека» в долине реки Гянджачая, исследованная Я.И.Гуммелем.

"Пещеру Бека" обнаружить не удалось, однако при осмотре левого берега р. Гянджачай был обнаружен небольшой известняковый грот. На привходовой площадке грота и на склоне перед гротом, на площади около 30 м^2, было собрано 244 каменных предметов верхнепалеолитического, мезолитического облика. Судя по сохранности, они обнажились недавно, вероятно, были смыты водой. Стоянка была названа Гырмызы гая (Красная скала) по специфическому цвету известняка стен грота – красно-малинового.

Одним из основных маршрутов археологической разведки была Джейранчельская степь, где и была открыта среднепалеолитическая стоянка открытого типа Гара тепе, названная по одноименной близлежащей горе. Стоянка расположена в Товузском районе, в Джейранчельской степи, на восточной периферии горы Гара-тепе, на высоте 460 м над уровнем моря. Всего на стоянке Гара-тепе обнаружено 12 каменных изделий, среди которых выделены нуклеусы, орудия, отщепы. Сырьем служил обсидиан, кварц, кремень и галька.

При осмотре южной береговой полосы Шамкирского водохранилища обнаружен один зуб Equus caballus и 8 каменных предметов среднепалеолитического облика. Все они оформлены на галечных породах различных оттенков и имеют характерную сильную окатанность.

Основной задачей Гянджа-Газахского отряда палеолитической археологической экспедиции был осмотр абшеронских отложений в местах их выхода на поверхность, особенно в местах находок костей плейстоценовой фауны. Одним из таких мест стала прибрежная полоса Мингячевирского водохранилища, где и было обнаружено раннепалеолитическое местонахождение Гараджа в абшеронских отложениях. Местонахождение расположено на южном берегу Мингячевирского водохранилища, у подножия хребта Боздаг, юго-восточнее горы Гараджа.

Всего на площади 10-15 м^2 обнаружено 7 костей, из которых определены три фрагмента коренных зубов южного слона – Archidiscodon meridionales. Вместе с костями на поверхности собрано 5 галечных предметов раннепалеолитического облика: чопперы, отщепы.

Интересные находки были сделаны также при археологической разведке на северном берегу Шамкирского водохранилища. Местонахождение расположено на абсолютной высоте 150 м, около 1 км к западу от плотины в абшеронских отложениях на площади 10-15 метров вдоль берега и 3 метра вглубь берега.

При осмотре абшеронских отложений на месте обнаружения костей (в тех же границах) обнаружено три каменных предмета. Несмотря на их сильную окатанность, два из них сохранили облик раннепалеолитических артефактов.

В абшеронских слоях обследованного региона, в различных стратиграфических горизонтах от нижнего до верхнего абшерона, обнаружены находки сухопутной фауны и орудия труда древнего человека. Наиболее перспективными для дальнейшго изучения являются местонахождение Гараджа (Мингячевирское водохранилище) и местонахождение на северном берегу Шамкирского водохранилища.

A.A.Zeynalov, I.N.Avsarova

NEW PALEOLITHIC MONUMENTS IN AZERBAIJAN

SUMMARY

The team of the Paleolithic archeological expedition of the Archeology and Ethnography Institute of the National Academy of Sciences of Azerbaijan carried out archeological exploration in Azerbaijan's Gyandja-Gazakh region in summer 2012. The key task of the team was to examine Absheron sediments in the places of their getting naked, especially those portions where osseous lenses with Pleistocene fauna remains were discovered and studied by Paleontologists earlier.

There were chosen three main routes of the archeological exploration: 1. The surroundings of the Mingechevir reservoir; 2. The surroundings of the Shamkir reservoir; 3. Ridge Palan Tekyan and Jeyranchel steppe stretching along the Azerbaijani-Georgian border.

Apart from these routes, it was considered appropriate to examine a number of archeological objects, which had been studied in the first half o the 20th century and interpreted as Stone Age monuments. One of them is the "Johannes Beck Cave" located in the valley of River Gyandjachay. The cave was examined by Y.I.Gummel.

No "Beck Cave" was detected; however, a small lime grotto was discovered during the examination of Left Bank of River Gyandjachay. A total of 244 Upper Paleolithic/Mesolithic stone items were found at the grotto's entrance and on a slope in front of the grotto within an area of around 30 square meters. The appearance of these items shows that they were discovered recently and, probably, were washed out by water. The site was called Gyrmyzy Gaya (Red Rock) due to the specific crimson color of the grotto's walls' limestone.

One of the main routes subjected to archeological exploration was the Jeyranchel steppe where there was discovered an open-type Middle Paleolithic site Gara tepe named according to a nearby mountain of the same name. Administratively, the site is located in Azerbaijan's Tovuz region at the Jeyranchel steppe (at the eastern periphery of Mountain Gara tepe) at a height of 460 meters above the sea level. A total of 12 stone items were discovered at the site Gara. Of them, worthy of a note are cores, tools, and flakes. Note that obsidian, quartz, flint, and pebble served as raw material.

Examination of the southern shoreline of the Shamkir reservoir resulted in the discovery of one dent Equus caballus and 8 stone items apparently of the Middle Paleolithic origin. All they are made of pebble rocks of various tints and based upon rounded pebbles.

A key task of the Gyandja-Gazakh team of the Paleolithic archeological expedition was to examine Absheron sediments in the places they reach the surface, especially, at places where Pleistocene fauna bones were found. One of such places was the coastline of the Mingechevir reservoir where there was discovered a Lower Paleolithic locality Garaja in the Absheron sediments. The site is located on the southern shore of the Mingechevir reservoir at the foothills of Ridge Bozdag, southeast of Mountain Garaja.

In an area of 10-15 square meters there were discovered a total of 7 bones, of which there were identified three fragments of molar teeth of the southern mammoth – Archidiscodon meridionales. Together with the bones, 5 pebble items of Lower Paleolithic appearance: choppers and flakes were collected from the surface.

Besides, interesting discoveries were made during archeological exploration at the northern shore of the Shamkir reservoir. Administratively, the site is located in the territory of the Shamkir region, at the northern shore of the Shamkir reservoir, at an absolute height of 150 meters, some 1 kilometer west of the dike, in the Absheron sediments within an area of 10-15 meters along the shore and 3 meters deep into the shore.

Examination of the Absheron sediments at a place where bones were found (within the same boundaries) resulted in the discovery of three stone items. Despite being strongly rounded, two of them have maintained the appearance of Lower Paleolithic artifacts.

Land fauna findings and labor tools of the ancient man were discovered at the Absheron layers of the examined region, at different stratigraphic horizons stretching from the lower Absheron to the upper one. For the reasons of further exploration, most promising are the locality Garaja (the Mingechevir reservoir) and the locality at the northern shore of the Shamkir reservoir.

AĞSTAFA RAYONUNDA NEOLİT DÖVRÜNƏ AİD YENİ ARAŞDIRMALAR

(Ağstafa rayonu)

N.Ə.Müseyibli, A.M.Ağalarzadə, G.K.Axundova



Ağdaş qolu yaşayış yeri.

Neolit dövrünə aid Şomutəpə mədəniyyətinin ən sıx yerləşdiyi bölgələrdən biri Ağstafa rayonunun ərazisidir. Burada erkən əkinçilik mədəniyyətinin demək olar ki, bütün mərhələlərini əks etdirən çoxsaylı yaşayış məskənləri aşkar edilmiş, uzun illər ərzində geniş arxeoloji qazıntı işləri aparılmışdır. Bütün bunlarla yanaşı, son illər çöl-tədqiqat işləri nəticəsində Şomutəpə mədəniyyətinə aid daha bir neçə yaşayış məskən aşkar edilmişdir.

2012-ci ildə Ağstafa rayonunun Aşağı Göycəli kəndinin şərqində, əkin sahələrinin əhatəsində neolit dövrünə aid yaşayış məskəni aşkar edildi. Təsərrüfat işləri nəticəsində abidəyə böyük ziyan vurulmuş, onun əksər hissəsi əkin işləri üçün istifadə edilmişdir. Abidənin təpə şəklində yalnız kiçik bir hissəsi saxlanmışdır ki, onun da üstündə yüksək gərginlikli elektrik xəttinin metal dirəyi basdırılmışdır. Bütün bu antropogen müdaxilələr Aşağı Göycəli yaşayış yerinin elmi informasiya tutumuna əsaslı mənfi təsir göstərmişdir. Abidənin üstündən Şomutəpə mədəniyyəti üçün səciyyəvi olan obsidiandan lövhəşəkilli alətlər və saxsı qab fraqmentləri toplandı.

Ağstafa rayonu ərazisində son illər aşkar edilmiş Şomutəpə mədəniyyəti abidələrindən biri də Ağdaş qolu yaşayış məskənidir. 2005-ci ildə qeydə alınmış bu abidə Aşağı Kəsəmən kəndindən 300 m şimalda yerləşir. Burada iki yanaşı süni təpə – neolit dövrü yaşayış məskənləri biri digərindən 20 m şimalda yerləşir. Cənubdakı birinci təpənin (I Ağdaş qolu) mərkəzi hissəsi hələ sovet dövründə tam dağıdılmış, burada qazılmış dərin və geniş çalada kənd təsərrüfatında istifadə edilən kimyəvi maddələrin anbarı və tullantı yeri yaradılmışdır. Oval formalı təpənin saxlanmış hündürlüyü 2,5 m, uzunluğu şimal–cənub istiqamətində 80 m, şərq–qərb istiqamətində 60 m-dir.

İkinci təpə (II Ağdaş qolu) uzunsov olub çox da hündür deyil. Ola bilsin ki, onun üstü uzun illər təbii və antropogen təsirlərdən dağıntılara məruz qaldığından ilkin hündürlüyünü itirmişdir. Hazırkı vəziyyətdə saxlanmış hündürlüyü 1 m-dir. Uzunluğu şimal–cənub istiqamətində 110 m, şərq–qərb istiqamətində 55 m-dir. Təpənin üstündən hazırda istifadə edilən torpaq yol keçir. Şimal və şimali-qərb ətəkləri isə dərin su arxı ilə kəsilmişdir. Bütün bunlar qədim yaşayış yerinin dağıntıya məruz qalmasına səbəb olmuşdur.



Ağdaş qolu yaşayış yeri. Qazıntı sahəsi.

Abidənin stratiqrafiyasını, artefaktların xüsusiyyətlərini öyrənmək məqsədi ilə birinci təpənin şimali-qərb yamacında, şərq–qərb istiqamətində 5x4 m ölçüsündə yoxlama qazıntısı aparıldı. Torpağın bərkimiş üst qatı açıq boz rəngdə olub çətin qazılırdı. 40-60 sm dərinlikdən başlayaraq kül qatışıq yumşaq torpaq qatı başlanır.

Qazıntı sahəsində 80 sm-dən başlayaraq tikili qalıqları aşkar edilmişdir. Bütün tikililər çiy kərpicdən (7x14x33 sm) və möhrədən inşa edilmiş dairəvi-oval planlıdırlar. Belə tikililər bəzən düz divarla birləşdirilmişdir. Divarların saxlanmış hündürlüyü 50 sm-dir.

1,2 və 1,6 m dərinlikdə, üç yerdə kül qatının içərisində, 40-50 sm diametrində çay daşları yığımı aşkar edilmişdir. Çox ehtimal ki, dairəvi çalada yandırılmış odun istiliyinin uzun müddət saxlanması məqsədi ilə çay daşları burada közün üstünə yığılmışdır.

Qazıntı yerinin şərqində, mərkəzi hissədə iri ölçülü təsərrüfat quyusu aşkar edilmişdir. Quyu materikdə qazılmışdır. Yuxarı hissəsi dar, aşağıya doğru isə genişlənir. Onun diametri yuxarıda 1,7x1,9 m, dibində isə 2x2,4 m-dir, dərinliyi 1,2 m olmuşdur. Maraqlıdır ki, quyunun divarları bəzi yerlərdə (şərq tərəfdən) çiy kərpiclərlə hörülmüş və ümumilikdə gil qatı ilə suvanmışdır.

Qazıntı sahəsində mədəni təbəqənin maksimal qalınlığı 1,8 m olmuşdur.

Ağdaş qolunda qazıntı nəticəsində əsasən daş məmulatından ibarət çoxsaylı arxeoloji materiallar aşkar edilmişdir. Bütün tapıntılar erkən əkinçilik mədəniyyəti üçün səciyyəvi olub Şomutəpə mədəniyyətinə aid digər abidələrdə paralellərə malikdirlər.

Qazıntı sahəsindən müxtəlif təyinatlı daş alətlər tapılmışdır. 20 sm dərinlikdən tapılmış boz rəngli andezitdən *sürtgəc* yastı-ovalvari formalıdır. Daşın üzərində istifadənin əlamətləri olan sürtülmüş sahələr vardır. 60 sm dərinlikdən çay daşından yastı-uzunsov formalı *sürtgəc – üst dən daşı* aşkar edilmişdir. Daşın alt üzünün və yanlarının qabığı istifadə nəticəsində tökülmüşdür. Bilavasitə alt işlək səth yastılanmış və tünd rəng almışdır. Daşın hər iki ucu vurma nəticəsində yastılanmışdır. Daşın

üstünün mərkəzi hissəsi vurma üsulu ilə çökəldilmişdir. 80 sm dərinlikdən aşkar edilmiş qum daşından *piramida* formalı əşyanın istifadə təyinatı məlum deyildir. 1,4 m dərinlikdən aşkar edilmiş məsaməli tuf daşından uzunsov *dən daşının* alt hissəsi qayıqvari formalı olub işlək, üst səthi istifadə nəticəsində bir qədər çökəlmişdir. 1,6 m dərinlikdən uzunsov *çay daşından* alət aşkar edilmişdir. Daşın bir səthi istifadə nəticəsində hamarlanmış və yastılanmışdır. Çox ehtimal ki, yumşaq materialların, ola bilsin ki, dəri məmulatının işlənməsində istifadə edilmişdir. Məsaməli tuf daşından düzəldilən *dən daşının* bir sonluğu sınmışdır, digər sonluğu isə qalındır. Uzun müddətli istifadə nəticəsində daşın ortası çökəlmiş və qayıqvari forma almışdır. Daşın işlək səthində qırmızı oxra ləkəsinin olması bu daşın həm də oxra əzilməsində istifadə edildiyini göstərir.

Qazıntı sahəsindən cəmi 1 ədəd saxsı qab fraqmenti aşkar edilmişdir. 60 sm dərinlikdən tapılmış bu saxsının üstü qara, içərisi qonurdur. Qum tərkibli gildən hazırlanıb, zəif bişirilmişdir.

Qazıntının bütün dərinliklərindən çaxmaqdaşından istehsal tullantıları aşkar edilmişdir. Lakin çaxmaqdaşından hazırlanmış alətlərə çox az hallarda təsadüf edilir. Bu alətlər əsasən oraq dişlərindən ibarətdir. Oraq dişləri üzərində saxlanmış bitum izlərinə əsasən onların Şomutəpə tipli yığma oraqlara aid olması məlum olur. Belə dişlər sümük və ya ağac əsasa bitumla çəpinə düzülməklə bərkidilirdilər. 40 sm dərinlikdə surquç rəngli çaxmaqdaşı lövhəsindən *çoxfunksiyalı* alət aşkar edilmişdir. Üçsəthli bu lövhənin sağ yanında üst üzdən dişəkləmə ilə iki gəz açılmışdır. Həmin gəzlərdən *sıyırğal* kimi istifadə edilmişdir. Lövhənin sol yanı isə çox ehtimal ki, mişar funksiyalıdır. 1,4 m dərinlikdən çaxmaqdaşından hazırlanmış 4 ədəd *oraq dişi* aşkar edilmişdir. Onların hamısının üzərində çəpinə bərkidilmənin əlamətləri olan bitum izləri var. Oraq dişlərindən 3 ədədi solğun yaşıl rəngli daşlardır. Biri isə solğun narıncı rəngli şəffaf mineral daşdır. Tünd boz rəngli digər yastı çaxmaqdaşı qəlpəsinin bir yanı *qaşov* funksiyalıdır. Bu dərinlikdə həmçinin tünd göy rəngli, parlaq çaxmaqdaşı lövhəsindən hazırlanmış ikitərəfli qaşov da aşkar edilmişdir. Dişəkləmə lövhənin sonluğunu da dairələmə əhatə etmişdir. Lövhənin üst, qabarıq hissəsi vurulub götürülmüşdür. Kvadratın mərkəzi hissəsində, 1,6 m dərinlikdən yaşıl rəngli çaxmaqdaşından *nüvə* (karandaşvari) və 4 ədəd qəlpə birlikdə qırmızı və sarı-boz ləkəli çaxmaqdaşından iki ədəd piramida formalı nüvələr aşkar edilmişdir. Həmçinin yaşıl rəngli çaxmaqdaşından yastı, üçüzlü lövhə aşkar edilmişdir. Lakin bu lövhənin ətrafları dişəklənmişdir. Bıçaq kimi istifadəsi ehtimal edilir. Aşkar edilmiş bir ədəd yığma alətin dişi yaşıl rəngli çaxmaqdaşı qəlpəsinin üstündə olub çəpinə düzümün əlaməti ilə bitum izi qalmışdır.

Ağdaş qolundan aşkar edilmiş ən çoxsaylı tapıntılar obsidian məmulatıdır. Bu daşın çeşidli növlərindən müxtəlif tipli və funksiyalı alətlər aşkar edilmişdir. Eyni zamanda nüvələr və istehsal tullantıları obsidian alətlərin yaşayış yerində hazırlandığını sübut edir.

Alətlər həm lövhə, həm də qəlpə üzərindədir. Çoxfunksiyalı alətlərin sayı nəzərə çarpacaq qədər çoxdur.

40 sm dərinlikdən 6 ədəd obsidian lövhə üzərində alətlər aşkar edilmişdir. Onlardan 4-ü *bıçaq*, biri *qaşovdur*. Bir ədəd şəffaf lövhənin yanları bıçaq, sonluğu isə dişəklənərək və alt üzdən qoparmaqla *yonqar* kimi istifadə edilmişdir.


Bu dərinlikdən həmçinin 3 ədəd qəlpə və bir ədəd nüvə qalığı aşkar edilmişdir. Qəlpələrdən birinin bütün ətrafları *mişar* məqsədi ilə dişəklənmişdir. İkinci qəlpənin bir yanından *qaşov*, digər yanından isə *sıyırğal* kimi istifadə edilmişdir. Üçüncü qəlpənin ətraflarından *qaşov*, bir tərəfindən isə *yonqar* kimi istifadə edilmişdir. 60 sm dərinliyin alətləri 1 ədəd nüvə qalığı və bir ədəd uzun lövhədir. Üçüzlü lövhənin yanları bıçaq funksiyalıdır. 80 sm dərinlikdən tapılmış bir ədəd *ox ucluğu* şəffaf obsidiandan üçbucaq formasında düzəldilmişdir. Ucu alt üzdən vurularaq itilənmişdir. Bu dərinlikdən həmçinin dörd ədəd lövhə aşkar edilmişdir. Onlardan biri şəffaf obsidiandan hazırlanıb dörd səthlidir. Yanları *bıçaq*, sonluğu isə *iskənə* kimi istifadə edilmişdir. Şəffaf obsidiandan hazırlanmış digər bir lövhənin yanları *bıçaq*, bir sonluğu isə *yonqardır*. Digər iri ölçülü "tüstülü" obsidian lövhənin yaxın hissəsinin hər iki yanları alt üzdən dişəklənərək qaşov düzəldilmişdir. Lövhənin sol yanının orta hissəsi *bıçaq*, sona yaxın hissəsi isə iki yanaşı *sıyırğaldır*. Lövhənin sağ tərəfinin qalan hissəsi bıçaq funksiyalıdır.



Ağdaş qolu yaşayış yeri. Çay daşlarından əmək alətləri.



Ağdaş qolu yaşayış yeri. Sümükdən əmək alətləri.





Ağdaş qolu yaşayış yeri. Obsidiandan əmək alətləri.



Ağdaş qolu yaşayış yeri. Çaxmaqdaşından əmək alətləri.



Alətlərdən qaşov kimi istifadə edilmiş qonur rəngli, iri ölçülü dördsəthli lövhənin sol yanı üst üzdən, sağ yanı isə alt üzdən dişəklənmişdir. 80 sm dərinlikdə bir ədəd piramidal nüvə və 3 ədəd qəlpə üzərində alətlər aşkar edilmişdir. Onlardan biri *sıyırğaldır*. İkinci qəlpənin bir yanında *mişar* düzəldilmişdir. Qalın, uzunsov qəlpənin bir yanı *qaşov* kimi istifadə edilmişdir.

1 m dərinlikdən 7 ədəd lövhə aşkar edilmişdir. Onlardan biri *bıçaq* funksiyalıdır. Digər iki lövhələr isə çoxfunksiyalıdır. Onların hər ikisinin bir yanı *bıçaq*, digər yanı isə *sıyırğaldır*. Bir ədəd qəlpə olduqca maraqlıdır. Bu qəlpənin kənarları bir üzdən vurularaq nazikləşdirilmişdir. Qəlpənin iki tərəfi isə hər iki üzdən əvvəl vurularaq nazikləşdirilmiş sonra isə narın dişəklənərək *yonqar* düzəldilmişdir. Qəlpənin bir tərəfindən isə *qaşov* kimi istifadə edilmişdir.

1,2 m dərinlikdən altı ədəd lövhə aşkar edilmişdir. Onlardan biri mikrolitdir. İki lövhə *bıçaq* funksiyalıdır. Onlardan birinin sonluğu hər iki üzdən vurulmuşdur və çox ehtimal ki, *yonqar* kimi istifadə edilmişdir. Başqa bir lövhənin bir tərəfi *bıçaq*, digər yanı isə *kəsər* funksiyalıdır. İki lövhənin hər ikisi həm *bıçaq*, həm də *sıyırğaldır*. Onlardan birinin hər iki tərəfində sıyırğal düzəldilmişdir. Bu dərinlikdə iki *yastı-diskşəkilli nüvə* aşkar edilmişdir. Onlardan biri ikinci dəfə *qaşov* kimi istifadə edilmişdir.

Bu səviyyədə aşkar edilmiş iki ədəd qəlpədən biri yastı-kvadrat formalıdır. Onun bir tərəfi bir üzdən yayma dişəklənərək *iskənə* düzəldilmişdir. İkinci qəlpə uzunsov – üçbucaq formalıdır. Qəlpənin sağ yanı üst üzdən dişəklənməklə *qaşov* hazırlanmışdır. Sol yanında isə alt üzdən *sıyırğal* düzəldilmişdir. Qəlpənin arxa tərəfi qalın olub *saplaq* düzəldilmişdir.

1,4 m dərinlikdən 16 lövhə aşkar olunmuşdur. Onlardan 6 ədədi *bıçaqdır*. Dörd ədəd müxtəlif ölçülü lövhə isə *qaşov* funksiyalıdır.

İri ölçülü lövhələrdən birinin dişəkləmə üsulu maraq doğurur. Lövhənin sol yanı bıçaq kimi istifadə olunmaqla yanaşı, arxaya yaxın yerdə alt üzdən dişəklənməklə iki *sıyırğal* düzəldilmişdir. Sağ yanı isə iri ölçülü yayma dişəklərlə dişəklənmişdir.

Uzunsov lövhənin bir hissəsi sınmışdır. Onun sol yanı üst üzdən dişəklənməklə *qaşov* düzəldilmişdir. Sağ yanında isə *sıyırğal* düzəldilmişdir. Kiçik ölçülü bir lövhənin sağ yanı *bıçaq*, sol yanı isə *sıyırğaldır*. Kiçik ölçülü digər bir lövhənin bir yanı *bıçaq*, digər yanı isə *mişardır*.

Bu dərinlikdə həmçinin beş ədəd qəlpə üzərində alət aşkar edilmişdir. İri ölçülü yastı, dördbucaq formalı qəlpənin bir yanı *qaşov* kimi istifadə edilmişdir. Digər tərəfində isə qoparmalarla *sıyırğal* əmələ gətirilmişdir. Bir qəlpənin isə yan tərəfində iri qoparmalardan sonra bir tərəfli dişəkləmə üsulu ilə *sıyırğal* düzəldilmişdir. Digər qəlpələrin ətraflarından *qaşov* kimi istifadə olunmuşdur.

1,6 m dərinlikdən obsidiandan hazırlanmış 15 lövhə aşkar edilmişdir. Onların əksəriyyəti *bıçaqlardır*. Lövhələrdən biri seqment formalı olub yanları dişəklənərək *qaşov* kimi istifadə edilmişdir. Bir lövhə fraqmentinin yanları yayma dişəklə dişəklənmiş və *qaşov* kimi istifadə edilmişdir. Şəffaf obsidian lövhənin bir yanı *qaşov*, digər yanı isə *sıyırğaldır*. Dişəkləmə hər iki halda alt üzdən aparılmışdır. Tutqun lövhənin hər iki yanında *sıyırğalar* düzəldilmişdir. Lövhənin sağ yanında biri üst, digəri alt üzdən olmaqla iki *sıyırğal* yanaşıdır.

Lövhələrdən birinin bir yanı *kəsər*, digər yanı isə *sıyırğaldır*. Lövhənin ucu iki tərəfdən qoparmalarla *yonqar* düzəldilmişdir. Başqa bir lövhə də çoxfunksiyalıdır. Bu şəffaf lövhənin bir tərəfi *sıyırğal*, digər tərəfi isə *qaşovdur*. Qaşov olan tərəfin bir küncü *deşici burğu* kimi istifadə olunmuşdur.

Bu dərinlikdən iki ədəd nüvə də aşkar edilmişdir. İstifadəsi sona çatmış nüvələrin yanlarından qaşov düzəldilmişdir. Tapıntılar arasında 3 ədəd qəlpə aşkar edilmişdir. Onlardan birinin bir kənarı dişəklənib *qaşov* düzəldilmişdir. Qəlpələrdən biri qoparma zamanı üç qanadlı alınmışdır. Onun bir tərəfi qaşov kimi istifadə edilmişdir. Qanadlardan birinin sonluğunun ətrafları vurularaq, çox ehtimal ki, *burğu* aləti düzəldilmişdir.

Qazıntı nəticəsində sümükdən düzəldilmiş 5 ədəd biz alətlər aşkar olunmuşdur. Onların hamısı xırda buynuzlu heyvan sümüklərindən hazırlanmışdır.

Müqayisəli materiallar əsasında Ağdaş qolunu e.ə. VI minilliyin birinci yarısına aid etmək olar.

Beləliklə, Ağstafa rayonu ərazisində neolit dövrü abidələri üzrə aparılan araşdırmalar erkən əkinçiliyə aid Şomutəpə mədəniyyətinin bölgədə daha intensiv yayıldığını göstərdi. Eyni zamanda, qazıntı nəticəsində aşkara çıxarılan maddi mədəniyyət qalıqları neolit dövrü tayfalarının təsərrüfatının, istehsal sahələri tarixinin öyrənilməsi üçün imkan yaradır.

Н.А.Мусеибли, А.М.Агаларзаде, Г.К.Ахундова

НОВЫЕ ИССЛЕДОВАНИЯ НЕОЛИТА В АКСТАФИНСКОМ РАЙОНЕ

РЕЗЮМЕ

Территория Акстафинского района насыщена памятниками шомутепинской культуры периода неолита. В 2012 г. на восточной окраине с. Ашагы Гекчали обнаружено еще одно поселение этой культуры. В результате сельскохозяйственных работ памятник был сильно поврежден. На поверхности памятника собраны орудия, изготовленные на обсидиановых пластинах и фрагменты керамических сосудов.

На другом поселении раннеземледельческой культуры «Агдаш голу» проведены разведочные археологические раскопки. Памятник обнаружен в 2005 г. на расстоянии 300 м к северу от с. Ашагы Кесаман. Здесь находятся два искусственных холма на расстоянии 20 м. друг от друга. Сохранившаяся высота первого холма 2,5 м, площадь 80х60 м. На холме был заложен шурф 5х4 м. Толщина культурного слоя составляет 1,8 м. Выявлены строительные остатки округло-овального плана, сооруженные из сырцового кирпича, очаги, заполненные булыжником, хозяйственная яма, вырытая в материке.

Основную часть находок поселения Агдаш голу составляют разнотипные орудия из обсидиана. Большинство из них изготовлены на пластинах. Изделия из кремня относительно малочисленны и, в основном, представлены вкладышами серпов. Обнаружены пять костяных шильев.

На основе сравнительного анализа археологических материалов поселение Агдаш голу датируется первой половиной VI тыс. до н.э.

N.A.Museyibli, A.M.Aghalarzadeh, G.K.Akhundova

NEW RESEARCHES ON THE NEOLITHIC PERIOD IN AGSTAFA REGION

SUMMARY

The territory of the Agstafa district in the west of Azerbaijan abounds with monuments of Shomutepe culture of the Neolithic period. In 2012, on the eastern outskirts of Asaghi Gokchali was found another settlement of this culture. As a result of agricultural works the monument was badly damaged. On the surface of the monument were collected guns, manufactured on obsidian plates and fragments of ceramic vessels.

At the other settlement of early agricultural culture “Aghdash golu”(Aghdash branch) were made exploratory archaeological excavations. The monument was discovered in 2005 at a distance of 300 m to the north of Asaghi Kesaman. There are two artificial hills at a distance of 20 m. The preserved height of the first hill is 2.5 m, the area 80x60 m. On the hill was built pit measuring 5x4 m. Thickness of the cultural layer is 1.8 m. Was revealed the remains of building round-oval plan built of mud brick, hearths filled with cobblestones, the household hole dug in the continent.

The main parts of finds of the settlement “Aghdash golu” are guns of different types made of obsidian. Most of them are made on the plates. Products made of flint are relatively few and, in general, are sickle inserts. Found five bone awls.

Based on comparative analysis of archaeological materials the Aghdash settlement dates from the first half of the VI millennium BC.

ПОЛЕВЫЕ ИССЛЕДОВАНИЯ МУГАНСКОЙ НЕОЛИТ-ЭНЕОЛИТИЧЕСКОЙ ЭКСПЕДИЦИИ

(Джалилабадский район)

Т.И.Ахундов, В.А.Махмудова, А.А.Рахманов,
Г.Х.Рамазанлы, С.С.Велиев



Алхантепе. Вид памятника с востока.

В 2012 году, после годичного перерыва Муганская неолит-энеолитическая экспедиция продолжила комплексные исследования по изучению памятников Муганской степи, в контексте изучения эпохи раннего производящего хозяйства на Южном Кавказе. Основное внимание было уделено археологическому изучению поселения Алхантепе, расположенному на землях села Учтепе Джалилабадского района, в 4 км к северу от села.

В предыдущие полевые сезоны на памятнике были начаты раскопки площадью 200 м^2, системой шурфов определены его площадь, первичная морфология территории, освоенной под поселение, предварительные данные о его стратиграфии, хронологии и культурной принадлежности. В 2010 году на основном раскапываемом участке культурные отложения были изучены до глубины 1,8-2 м от современного горизонта, зондажом определена их толщина на этом участке памятника. В 2012 году экспедиция поставила перед собой задачу сосредоточить все силы на исследовании поселения Алхантепе и довести исследования в этом раскопе до материка.


В результате исследований 2012 года на Алхантепе выявлены остатки разнохарактерной архитектуры, производственные гончарные и металлургическая печи, отходы и орудия металлургического производства, металлические изделия, остатки гончарных печей и орудий, большое количество фрагментов керамики. Наряду с ними, найдены каменные (кремень, галька, булыжник, обсидиан и пр.) орудия, связанные со всеми этапами земледелия и обработки её продукции, а также сами продукты земледелия-зёрна пшеницы и ячменя. Как и в прежние годы, найдены зооморфные фигурки и, впервые, фрагменты двух антропоморфных фигурок из глины, керамическая печать, глиняные буллы и «фишки» для счёта. Как и в прежние годы, выявлены погребения младенцев в кувшинах и взрослого в грунте. Расчищены хозяйственные и мусорные ямы на глубине 4,1 м, достигающие грунтовых вод.



Алхантепе. Вид раскопа с запада.



Алхантепе. Захоронение младенца в сосуд.



Алхантепе. Остатки пшеницы.



Алхантепе. Общий вид раскопа с севера.



Алхантепе. Образцы фрагментов керамических сосудов.



Обобщив все данные, полученные за четыре сезона исследований поселения Алхантепе, кратко охарактеризуем памятник в целом.

Поселение находится в зоне интенсивного земледелия, что приводит к периодическому разрушению его верхних горизонтов. Культурные отложения памятника находятся ниже современного горизонта и он, рельефных наземных признаков не имеет.

Определено, что площадь, занятая поселением, превышает 4 гектара. Это был край увалистой равнины, полого опускающейся к северу и востоку, образуя в этом месте подобие мыса. Судя по рельефу, к востоку от поселения некогда проходила водная артерия. В настоящее время культурные отложения восточной половины памятника подтоплены грунтовыми водами и лишь на 1 м возвышаются над ними. Памятник однослойный, входит в круг памятников лейлатепинской традиции (лейлатепинского варианта урукской традиции).

На глубине 0,5 м почти всю площадь основного раскопа покрывала деревянная конструкция, составленная из брусьев квадратного сечения (5х10см), положенных на ребро в двух перпендикулярных направлениях, образуя квадраты, размерами около 0,7х0,7 м. Аналогичные конструкции были выявлены и в двух стратиграфических шурфах.

Ниже, в северной половине раскопа, отмеченного как квадрат 1, на глубине 1,1 м были расчищены остатки двух строений прямоугольной формы, с округлыми очагами в каждом из них. Стены их, вероятно были сооружены из камыша и определены лишь по желобкам, заполненным тёмной землёй вперемежку с золой. В южной половине раскопа, отмеченного как квадрат 2, остатков строения не обнаружено.



Алхантепе. Пряслицы.

С глубины 1,3 м в квадрате 2 стали прослеживаться остатки прямоугольных и округлых строений из жёлто-глиняного кирпича и того же цвета глинобита, а также, обмазанные желтой глиной поверхности. Во всех случаях использована, глина без каких либо растительных добавок. Кирпич прямоугольной формы размерами 25х50х9 см или около этого, обычно, скреплялся тёмно-глиняной массой. Остатки строений из кирпича и глины в этом квадрате, слегка видоизменяясь, опускались до глубины 2,6 м. Ниже расчищены остатки кругло-плановых полуземлянок.

В квадрате 1, на глубине 1,7-1,9 м, расчищены полуземлянки круглой и прямоугольной форм, а ниже прямоугольное строение из желто-глиняного кирпича.

На различных уровнях культурных отложений попадались остатки очагов, в большинстве случаев сохранившихся в виде, прожжённой до кирпично-красного цвета, глиняной обмазки. Но встречались и более сложные сооружения с дополнительными элементами.


На памятнике выявлены остатки гончарных печей в виде округлых обгоревших глинных масс толщиной около 5 см. В центре некоторых в обмазку были встроены горловины сосудов. В одном случае частично сохранились остатки стенок печи. Судя по обжигу этих поверхностей, огонь на их поверхности не разжигался и жар, окрасивший их в красный цвет, поступал сюда при помощи каких-то продухов и каналов.

На поселении выявлены две печи, связанные, одна с производством металлических изделий, другая с металлургией. Первая имела двухярусную грушевидную форму, вторая прямоугольную форму, на поверхность которой жар попадал по системе различных продухов. Свидетельством горячей металлургии является наличие большого количества металлического шлака, формы для отливки стандартных брусков, керамические тигли и льячки, каменный молот, предположительно для размола руды. Металлические предметы представлены кинжалами, шильями, стамеской и множеством находок небольших фрагментов, в основе которых лежит медь. Но имеются и свинцовые предметы и шлаки, много остатков изделий из меди с примесью свинца.



Алхантепе. Зооморфная фигура из глины и керамическая печать.

Широко представлены каменные орудия различного назначения. Пластинчатые орудия изготовлены главным образом из сероватого кремня. Изредка попадаются орудия на отщепах обсидиана. Много обломков зернотёрок из плотного пористого песчанника, которые вторично использованы в различных целях. Из этого же материала изготовлены и детали гончарного круга, широко использованного на поселении. Из галек и булыжников сделаны различные ударные орудия.



Алхантепе. Образцы материалов: 1, 2, 4, 6-14, 17, 21 – керамика; 3, 5, 15 – терракота; 16 – камень; 18 – глина; 19, 20 – кость.

Керамические находки, главным образом фрагменты сосудов, представлены в огромном количестве и в большом разнообразии. Только в 2012 году собрано более 20 тысяч её фрагментов. Это, главным образом, стандартный набор форм, характерных для лейлатепинской традиции в целом. Отличие Алхантепе – это наличие большого количества двугорлых сосудов и особенно сосудов чёрного обжига, часто с черно-окрашенной и залощённой поверхностью. Изредка попадаются расписные черепки, явно импортного происхождения. Имеется керамика с отпечатками нитей различного размера и плетения, а также пряслица из кости, керамики и камня. На днищах сосудов сохранились отпечатки циновок, судя по размерам из стеблей пшеницы, наличие которой у обитателей поселения подтверждено находками двух видов её зёрен.

На Алхантепе найдены различные ручки керамических сосудов, в том числе горизонтального положения.

С глубины 1,3 м и ниже, уходя в подстилающие материковые отложения, культурные отложения прорезали трещины, пересекающие площадь раскопа и выделяющиеся жёлтым цветом. Дальнейшие исследования показали, что это следы древнего землетрясения. Данная версия была подтверждена геологами, указавшими, что жёлтое их заполнение состоит из серы, поднявшейся из недр при тектонических сдвигах.

Весь комплекс находок, в совокупности с показателями других наук, позволяет отнести поселение Алхантепе к середине второй половины IV тыс. до н.э. или иначе к XXXIII-XXXII вв. до н.э.

T.İ.Axundov, V.Ə.Mahmudova, A.A.Rəhmanov, H.X.Ramazanlı, S.S.Vəliyev

MUĞAN NEOLİT-ENEOLİT EKSPEDİSİYASININ ÇÖL TƏDQİQATLARI

XÜLASƏ

Ötən 2012-ci ildə Muğan neolit-eneolit ekspedisiyası Müğanın qədim tarix və mədəniyyətinin kompleks tədqiqini davam etmişdir. Həmin mövsümdə əsas diqqət Cəlilabad rayonunun Üçtəpə kəndindən 4 km şimalda yerləşən Alxantəpə yaşayış yerinə yönəldilmişdir. Abidə Leylatəpə ənənəsinə (Uruk ənənəsinin leylatəpə variantına) aiddir. Onun ərazisi 4 hektardan artıqdır, müasir yer səthindən aşağıda yerləşən mədəni qatının qalınlığı 2,9 m, qazılmış sahəsi 200 m^2 dir.

2012-ci ildə abidədə müxtəlif xarakterli memarlıq qalıqları, metallurgiya kürəsi, metallurgiya istehsal alətləri və qalıqları, metal əşyalar, dulus kürələri və alətləri, çoxlu sayda saxsı fraqmentləri aşkar edilmişdir. Onlarla yanaşı, əkinçiliyin bütün mərhələləri və onun məhsullarının emalı ilə bağlı daş (çaxmaq, çay daşı, dəvəgözü) alətləri, həmçinin əkinçilik məhsulları-buğda və arpa toxumları, zoomorf fiqurlar və bu abidədə ilk dəfə olaraq gildən hazırlanmış iki antropomorf fiqurun fraqmentləri, saxsı möhür, gil bulla və "fişka"lar tapılmışdır. Küpdə dəfn edilmiş körpələr və torpaqda dəfn edilmiş boyük insan qəbirləri aşkar edilmişdir. 4,1 m dərinlikdə qrunt sularına çatan təsərrüfat və zibil quyuları təmizlənmişdir.

Tapıntılar kompleksi digər elmlərin göstəriciləri ilə vəhdətdə Alxantəpə yaşayış yerini b.e.ə. IV minilliyin ikinci yarısının ortalarına, başqa sözlə b.e.ə. XXXIII-XXXII əsrlərə aid etməyə imkan verir.

T.I.Akhundov, V.A.Makhmudova, A.A.Rakhmanov, G.Kh.Ramazanly, S.S.Veliyev

FIELD RESEARCHES CARRIED OUT BY THE MUGAN NEOLITHIC-ENEOLITHIC EXPEDITION

SUMMARY

In the ended 2012, the Mugan Neolithic-Eneolithic expedition continued to carry on complex studies of the ancient history of the culture of Mugan. This time the works focused at the settlement Alkhantepe located 4 kilometers north of the village Uchtepe of the Jalilabad region. The site (monument) dates back to the Leilatepe tradition (Leilatepe variant of the Uruk tradition). It covers an area of more than 4 hectares, has the 2.9-meter thick cultural layer located lower than the modern horizon, and has the excavated area of 200 square meters.

In 2012, the works at the monument revealed remains of various kinds of architecture, a metallurgic furnace, waste and tools of metallurgic production, metallic items, remains of potter's furnaces and tools, and a great quantity of pottery. Besides, there were found stone implements (flint, pebbles, cobblestone, obsidian, etc.) relating to all the stages of land farming and processing of agriculture products, as well as the very agricultural produces including grains of wheat and barley, zoomorphous figures and, for the first time ever at this monument, the fragments of two anthropomorphous clay figures, pottery print, clay bullas and "chips". There were discovered the jug graves of infants and the soil grave of an adult. There were cleared household pits and waste pits at the depth of 4.1 meters reaching subsoil waters.

The whole complex of discoveries, in combination with indicators of other sciences, makes it possible to date the settlement Alkhantepe back to the middle of the second half of the IVth millennium BC, i.e. the XXXIIIrd-XXXII nd centuries BC.

QALAYERİ YAŞAYIŞ MƏSKƏNİNDƏ APARILMIŞ ARXEOLOJİ QAZINTILARIN İLKİN NƏTİCƏLƏRİ

(Qəbələ rayonu)

N.Ə.Müseyibli



Qalayeri. Qazıntı sahəsi.

Leylatəpə mədəniyyətinə aid Qalayeri yaşayış məskəni Qəbələ rayonu ərazisində beynəlxalq aeroportun sahəsində yerləşir. Abidə aeroportun tikintisi zamanı aşkara çıxmışdır. 2012-ci ilin may-iyun aylarında bizim tərəfimizdən Qalayerində arxeoloji qazıntı işləri aparılmışdır.

Qalayeri düzənlik bir sahədə yerləşir. Müasir yer səthindən hündür təpə şəklində seçildiyinə görə yerli əhali buranı "Qalayeri" adlandırmışdır. Təpənin üstü və ətraf ərazilər əkin sahəsi kimi istifadə edilmiş, sonra isə tikinti işləri nəticəsində ətraf torpaqlar ilkin səviyyəsini dəyişmişdir. Təpə hazırkı səthdən təqribən 3 m-ə yaxın yüksəkdir. Təpənin şimal hissəsində son tunc – erkən dəmir dövrünə aid üst örtüyü çay daşlarından ibarət olan qəbirlər salınmışdır. Orta əsrlərdə isə təpənin üstündən müsəlman qəbiristanlığı kimi istifadə edilmişdir. Müsəlman qəbirləri çox yerdə 1-1,2 m dərinliklərə qədər mədəni təbəqəni dağıtmışdır.

Geniş qazıntı üçün təpənin cənub yamacında 400 m^2 ölçüdə sahə seçildi. Bu qazıntı sahəsi şimaldan, şərqdən və cənubdan antropogen müdaxilə nəticəsində əmələ gəlmiş yarğanlarla, qərbdən isə mühafizə yolu ilə əhatələnmişdir. Qazıntı işləri bilavasitə 200 m^2 sahədə aparılmışdır. 100 m^2 ölçüsündəki II kv-da qazıntı 40 sm-ə, I kv-ın A və B sektorlarında 1,4 m-ə (50 m^2), I kv-ın C və D sektorlarında (50 m^2) isə materikə çatdırılmışdır. Sonuncu iki sektorda mədəni təbəqənin qalınlığı 2,7 m olmuşdur.

Qazıntı sahəsində tikinti qalıqları aşkar edilməmişdir. Yalnız ümumi planı hələlik müəyyən edilə bilməyən tikilinin 70 sm uzunluğunda kiçik bir fraqmenti aşkar edilmişdir. Bu tikili 7-8 sm qalınlığındakı sarı gil təbəqələrindən hörülmüşdür. Heç bir qatışığı olmayan gildən düzəldilmiş bu təbəqələr arasında bərkidici vasitə kimi boz kül rəngli məhluldan istifadə edilmişdir. Eyni zamanda belə gil qatlarından hörülmüş tikili qalıqları dağıntılar nəticəsində əmələ gəlmiş yarğanlarda da müşahidə edilir. Bu abidədə kərpic tikililəri hələlik aşkar edilməmişdir.



Qalayeri. Gil qatlarından ibarət tikili qalığı.



Qalayeri. Keramika nümunələri.

Ümumiyyətlə, Qalayerində aparılan qazıntı Leylatəpə mədəniyyətinin vahid memarlıq üslubuna malik olmadığını və həmin müxtəlifliyin bu mədəniyyətin abidələrinin hər birinin Ön Asiyanın müəyyən mədəniyyət mərkəzləri ilə bağlılığından irəli gəldiyini göstərmişdir.

Qazıntı sahəsində müxtəlif dərinliklərdə xalkolit yaşayış yeri ilə sinxron 4 ədəd uşaq qəbri aşkar edilmişdir. Yeni doğulmuş körpələrə aid bu qəbirlərin ikisində uşaqlar saxsı qabların içərisində dəfn edilib. İki halda isə torpaqda qoyulmuş uşaq meyitinin üstü saxsı qab parçası ilə örtülmüşdür.

Qazıntıların sona çatdırıldığı kvadratlarda materikdə qazılmış təsərrüfat quyuları aşkar edilmişdir. Materik – xam torpaq gil təbəqəsindən ibarətdir. Gildən ibarət təbii tikinti materialının bolluğu insanları bura cəlb etmişdir.

Keramika

Arxeoloji materialın əsasını kütləvi tapıntılar olan keramika təşkil edir. Gilinin tərkibinə görə saxsı qabları Leylatəpə mədəniyyətinə aid digər abidələrdə olduğu kimi Qalayerində də üç kateqoriyaya bölmək olar:

1-ci kateqoriya – “keyfiyyətli keramika”. Buraya bitki qatışıqlı və təmiz gildən hazırlanmış qablar daxildir. Bu qablar qırmızı, narıncı, oxra, çəhrayı, sarı, təsadüfi hallarda qonur və qara rənglidirlər. Bu kateqoriyaya aid qablar bir qayda olaraq dulus çarxında formalaşdırılmışdır.

Tipoloji zənginlik baxımından bitki qatışıqlı gildən hazırlanmış qablar üstünlük təşkil edir. Bunlar

əsasən küp, küpə, xeyrə, boşqab kimi qablardır ki, bu qablar miqdar etibarilə keramika məmulatının əksəriyyətini təşkil edir. Təmiz gildən hazırlanmış belə qablara rast gəlinmir. Kuzə və kasa tipli qablar məhz təmiz tərkibli gildən hazırlanmışlar. Bu qablar çəhrayı, narıncı və qırmızı rəngli olub, dulus çarxında səliqəli formalaşdırılmışdır. Kuzələrin xarici səthi və boğazının daxili səthi, kasalar isə hər iki tərəfdən cilalanmışdır. Bitki qatışıqlı gildən hazırlanmış kuzə və ya kasa tipli qablara nadir hallarda təsadüf olunur. Yastı oturacaqlı bir neçə kuzə və boşqab tipli qablar istisna olmaqla 1-ci kateqoriyaya aid qabların hamısı yuvarlaq altlıqlıdır.

Ağız kənarının tərtibatlı baxımından küp və küpələr xüsusilə zəngindir. Hər iki tipə aid qablar bəzi istisnalar nəzərə alınmazsa, eyniyyət təşkil edir. Onları fərqləndirən başlıca xüsusiyyət ölçü müxtəlifliyidir. Bütün hallarda ağız kənarı qıfşəkillidir və xaricdən qabarıqdır. Lakin bu qabarıqların formaları və ölçüləri müxtəlifdir. Ağız kənarının daxili səthi isə bəzən bir və ya bir neçə kanalvari batıqla dövrələnmişdir. Bəzi hallarda qabın daxilində ağız kənarı ilə çiyinin birləşdiyi yer qabarıqdır.

Xeyrə və boşqab tipli qablara aid çoxsaylı fraqmentlər aşkar edilmişdir. Bu qabları da fərqləndirən əsas cəhət onların ağız kənarının müxtəlif formalı tərtibatlarıdır. Onların ağız kənarları düz, üstü üfüqi "kəsilmiş" düz, daxilə meylli, müxtəlif ölçülərdə və formalarda xaricə qabarıq şəkillidirlər.

Kasalar və kuzələr təmiz tərkibli gildən hazırlanıb dulus çarxında formalaşdırılıblar. Kasalar əsasən nazik divarlı, "S" profilli olub çox zaman cilalanmışlar. Kuzələr uzun və qıfşəkilli boğaza malikdirlər. Qalayeri kasa və kuzə tipli qabların ən çox aşkar olunduğu Leylatəpə mədəniyyətinə aid yaşayış məskənidir.

"Keyfiyyətli keramika" kateqoriyasına aid qabların üzərində bişirilmədən əvvəl vurulmuş işarələrə rast gəlinir. Bunlar gözşəkilli, çarpaz xətlər, paralel xətlər, çarpaz və paralel xətlərlə birgə çəkilmiş və s. tipli işarələrdir. Leylatəpə mədəniyyətinin demək olar ki, bütün abidələrində belə işarələrə rast gəlinsə də, Qalayerində onlar daha çoxsaylıdırlar.

Bu kateqoriyaya aid sınmış qabların təmir edilməyi faktları da müəyyən edilmişdir. Belə qabların çatlamış hissəsi xaricdən və daxildən bitumla bərkidilmişdir. Təmir edilmiş qab fraqmentlərinin üstündə bitum qalıqları saxlanmışdır.

2-ci kateqoriyaya eyni zamanda bitki və qum qatışıqlı gildən dulus çarxında, bəzən isə əldə formalaşdırılmış qablar daxildir. Bu kateqoriyaya aid qablar qonur, qəhvəyi, az hallarda isə qırmızı rənglidirlər. Tipoloji olaraq demək olar ki, 1-ci kateqoriyanın qablarını təkrarlayırlar. Bu kateqoriyaya aid cilalanmış qablara rast gəlinmir. Bu kateqoriyaya aid vazalar və qapaqlar aşkar edilmişdir. Digər Leylatəpə tipli abidələrdə belə tapıntılara təsadüfi hallarda rast gəlinir. Gildən hazırlanmış bir ədəd şamdan tipli əşya aşkar edilmişdir. Maraqlı tapıntılardan biri də ikitərəfli qab altlığıdır. Ortası boruşəkilli, hər iki tərəfə qıfşəkilli hazırlanmış bu qab qırmızı rənglidir. Leylatəpə mədəniyyətinə aid digər abidələrdən belə "şamdan" və altlıq məlum deyil.

3-cü kateqoriyaya ("kobud keramika") aid qablar qeyri-üzvü qatışıqlı gildən əldə formalaşdırılmış, zəif bişirilmişdir. Bunlar əsasən qonur və boz rənglidirlər. Tipoloji olaraq demək olar ki, daha çox hündürboğaz küpələrlə təmsil olunmuşlar. Bu qabların ağız kənarının sonluğu basma və çərtmələrlə naxışlanmış, üzərləri isə daraqvari alətlə müxtəlif istiqamətlərdə işlənmişdir. Bəzən qabların ağız kənarı və boğazının daxili səthi də "daraqlanmışdır". Ümumiyyətlə, bütün Leylatəpə mədəniyyəti abidələri sırasında ən çox "daraqlanmış" keramika məhz Qalayerində aşkar edilmişdir.

"Kobul keramika" kateqoriyasından tava tipli qabları da qeyd etmək lazımdır. Çox zaman belə qabların divarının yuxarı hissəsinin sonluğuna xaricdən relyef – şişvari naxışlar əlavə edilmişdir.

Daş məmulatı

Qalayerində çoxsaylı dən daşları aşkar edilmişdir. Bunlar boz rəngli məsaməli daşlardan olub uzunsov, oval və bəzən dairəvi formalıdırlar. Bəzi hallarda iri ölçülü dən daşları aşkar edilmişdir ki, onların ortası uzun müddətli istifadə nəticəsində çökəlmiş və daş qayıqvari formaya düşmüşdür. Dən daşlarının bir qisminin işlək səthində 3-5 sm diametrli oyuqlar düzəldilmişdir. Bundan əlavə, abidədən sürtkəclər, həvəng dəstələri və digər daş alətlər aşkar edilmişdir.





Qalayeri. Daş məmulatı.

Qalayeri. Sümükdən iy başlıqları.

Maraqlı tapıntılardan məsaməli daşdan hazırlanmış bir neçə konusşəkilli daş alətləri qeyd etmək lazımdır. Onların bir tərəfi yastı, digər tərəfi isə qabarıqdır. Mərkəzi hissədən ikitərəfli deşik açılmışdır. Belə alətlərin ən yaxın analoqu Böyük Kəsikdən məlumdur və onların dulus çarxının detalı olması istisna deyildir.

Daş məmulatının böyük əksəriyyətini obsidiandan və çaxmaqdaşından hazırlanmış alətlər təşkil edir. Qara, şəffaf, qırmızı-qəhvəyi və gümüşü obsidiandan eyni zamanda çaxmaqdaşından hazırlanmış alətlər tipoloji-funksional baxımdan olduqca zəngindirlər. Təsadüfi istisnalar nəzərə alınmazsa bütün alətlər lövhə üzərindədir. Leylatəpə mədəniyyətinə aid digər abidələrdən fərqli olaraq Qalayerində çoxfunksiyalı alətlər daha çoxdur. Qaşovlar, sıyırğallar, yonqarlar, iskənələr və s. alətlər aşkar edilmişdir.

Qalayeri felzit cinsli daşdan alətlərin aşkar edildiyi eneolit dövrünə aid bizə məlum olan yeganə abidədir. Bu daşdan da, obsidian və çaxmaqdaşından olduğu kimi, lövhəşəkilli alətlər hazırlanmışdır.

Sümük məmulatı

Sümük alətlərin aşkar edilməsi baxımından Qalayeri Leylatəpə və II Poylu yaşayış yerləri ilə eyniyyət təşkil edir. Yəni, hər üç abidədə olduqca az miqdarda sümük əşyalar aşkar edilmişdir. Qalayerində sümükdən hazırlanmış cəmi bir neçə ədəd biz və iy başlıqları tapılmışdır.

Metalişləmə

Qalayerində 2012-ci il qazıntıları zamanı cəmi bir ədəd metal alət, çox ehtimal ki, ox ucluğu aşkar edilmişdir. Buna baxmayaraq mədəni təbəqənin müxtəlif səviyyələrində metalişləməyə aid bir neçə maraqlı məmulatlar əldə edilmişdir.

İlk növbədə borulu baltaların hazırlanması üçün saxsı qəlibi qeyd etmək lazımdır. Qəlib bir-birinə birləşdirilən iki hissədən ibarət olmuşdur. Yalnız bir tərəfin fraqmenti aşkar edilmişdir. Bu dövrə aid digər bir balta qəlibi Böyük Kəsikdən tapılmışdır.

Qalayerinin metallurgiyasına dair digər tapıntılar bir neçə kiçik ölçülü, əldə qalın və kobud hazırlanmış saxsı qabların içərisində metal ərintisi qalıqlarından ibarətdir. Həmin qablardan butə kimi istifadə edilmiş, içərisində metal filizi əridilmişdir. Bu qablar yüksək temperaturun təsirindən kül rəngi almış və divarları məsaməli vəziyyətə düşmüşdür.

Bundan əlavə, bir ədəd dən daşının işlək səthində mis filizinin qalığı aşkar edilmişdir. Bu tapıntı Qalayerinin qədim sakinlərinin təbii mis külçələrini daş alətlərin vasitəsi ilə yaşayış yerində emal etdiklərini sübut edir.

Qalayerinin qazıntı sahəsində aşkar edilmiş ağac kömürü əsasında aparılan radiokarbon analiz (Mayami, ABŞ) abidənin e.ə. IV minilliyin birinci yarısına aid olduğunu göstərmişdir. Abidənin keramika məmulatının xüsusiyyətləri də bu dövrləşmə ilə tam uyğundur. Gələcək araşdırmalar nəticəsində Qalayerinin bir qədər də qədim dövrdə – e.ə. V minilliyin axırlarında məskunlaşmasının müəyyən ediləcəyi istisna deyil. Radiokarbon analizin nəticələri aşağıdakı cədvəldə göstərilmişdir:

Laboratory No.	**Context**	**Conventional Radiocarbon Age**	**2 sigma 95% probability**	**1 sigma 68% probability**
Beta 330265	Kv. IC, 2,4 m. Charcoal	5060+/-30BP	Cal BC 3960 to 3780	Cal BC 3940 to 3890 Cal BC 3880 to 3800

Qazıntı sahəsində pərakəndə halda, mədəni təbəqənin müxtəlif səviyyələrində Kür-Araz mədəniyyətinə aid bir neçə saxsı qab fraqmentləri aşkar edilmişdir. Bu tapıntıların paralelləri Kür-Arazın həm erkən, həm də inkişaf etmiş mərhələlərindən məlumdur. Eyni zamanda qeyd etmək lazımdır ki, Qalayerində Kür-Araz mədəniyyətinə aid təbəqə yoxdur. Bu tapıntılar ehtimal etməyə əsas verir ki, Leylatəpə və Kür-Araz mədəniyyətləri tayfaları müəyyən mərhələdə iqtisadi-mədəni əlaqə qurmuşlar və Qalayerindəki Kür-Araz keramikasının aşkar edilməsi də məhz həmin əlaqələrin nəticəsidir.

Beləliklə, Qalayerində 2012-ci ildə aparılmış qazıntının ilkin nəticələri bu abidənin, eyni zamanda, bütövlükdə Leylatəpə mədəniyyətinin bir sıra səciyyəli cəhətləri, mənşəyi, müxtəlif istehsal sahələrinin xüsusiyyətləri və bu mədəniyyətin yayılma arealı barədə yeni fikirlərin irəli sürülməsinə imkanlar yaradır. Bu qazıntılar Leylatəpə mədəniyyətinin mənşəyinin əvvəllər hesab edildiyi kimi, yalnız Şimali Mesopotamiya ilə deyil, eyni zamanda Şərqi Anadolu ilə də sıx bağlı olduğunu göstərdi. Bilavasitə Qalayeri özünün memarlığı, "işarəli keramikası" ilə daha çox Şərqi və Cənubi-Şərqi Anadolu ilə (Amuq F, Arslantəpə VII) bağlıdır.

Н.А.Мусеибли

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ НА ПОСЕЛЕНИИ ГАЛАЕРИ

РЕЗЮМЕ

Поселение лейлатепинской культуры Галаери обнаружено во время строительных работ Габалинского международного аэропорта. В 2012 году на этом памятнике начаты широкомасштабные археологические раскопки под руководством автора. На участке 50 м^2 раскопки доведены до материка. Максимальная толщина культурного слоя составила 2,7 м.

На поселении Галаери все постройки сооружены из глиняных пластов толщиной 7-8 см. каштанового цвета без какой либо примеси. Между пластами имеется скрепляющий раствор пепельного цвета толщиной 2,5-3 см. Постройки из сырцового кирпича здесь пока не обнаружены. Близкие аналоги архитектуры из глиняных пластов поселения Галаери известны из храма «С» Арслантепе VII.

Индивидуальный характер каждого памятника лейлатепинской культуры объясняется связями каждого из них конкретными центрами Передней Азии. Поселение Галаери по строительной технике, многочисленными знаками на керамике, волнообразным оформлением внутренней поверхности некоторых кувшинов и другими особенностями больше связано с памятниками Арслантепе VII и фазы Амук F (Телл Джудейда, Чатал Гуюк) Восточной – Юго-Восточной Турции, чем с Северной Месопотамией. Другое поселение лейлатепинской культуры Алхантепе на Мугани своей архитектурой, двугорлыми сосудами, глиняными фигурками, печатями и другими находками в основном связано с памятниками Северной Месопотамии типа Тепе Гавры и Телл Хазны.

Вместе с тем, необходимо отметить, что лейлатепинская культура не повторяет все традиции Переднеазиатского позднего халколита. Некоторое своеобразие погребальных обрядов, типологические особенности керамических и каменных изделий лейлатепинской культуры коренным образом отличаются от Переднеазиатских и майкопских традиций.

Керамика поселения Галаери по составу глины делится на три категории:

Первая – «качественная керамика» изготовлена из глины с растительной примесью и из глины без каких либо примесей. Сосуды этой категории формованы на гончарном круге и имеют красный, оранжевый, охристый, розовый, светло-желтые цвета. Типологически это кувшины разных размеров, миски, горшки и т.д. Из чистой глины изготовлены небольшие узкогорлые кувшины и чаши. Последние два типа сосудов в Галаери обнаружены больше, чем на всех остальных памятниках лейлатепинской культуры вместе взятых. Выявлены сосуды этой категории со знаками на поверхности. Эти знаки аналогичны знакам на сосудах из Арслантепе VII, Амук F Передней Азии и майкопских памятников Северного Кавказа.

Вторая категория включает сосуды, изготовленные из глины с растительными и неорганическими добавлениями одновременно. Они формованы на круге и вручную. По типологии, в основном, идентичны с сосудами первой категории, но, в отличии от них, более грубые. Кроме того, выявлены вазы, крышки от сосудов и подставка, которые не встречаются в первой категории. Вазы и крышки, кроме Галаери, из всех памятников лейлатепинской культуры известны только в Беюк Кесик.

К третьей категории – «грубой керамике» относятся сосуды, изготовленные из глины с неорганическими добавлениями, формованные исключительно вручную. Эта категория предоставлена, в основном кувшинными с вздутым туловом и высокой горловиной бурого, иногда серого цветов. Края венчиков сосудов украшены насечками и вдавлениями, поверхности обработаны гребенчатым инструментом. Кроме названных изделий обнаружены сковородки.

Вся керамика, особенно сосуды со знаками, по происхождению связаны с поздним халколитом Анатолии (Амук F, Арслантепе VII).

Каменные изделия представлены зернотерками, пестами, терочниками, деталями от гончарного круга, также из многочисленными орудиями из обсидиана, кремня и фельзита. На рабочей поверхности некоторых зернотерок сделаны углубления. Такие зернотерки известны из Беюк Кесик, а также из поселения Натухаевский Североного Кавказа. Из всех памятников лейлатепинской культуры больше всего орудия из серебристого обсидиана обнаружены в Галаери. Они, в основном, многофункциональные.

Как на поселениях Лейлатепе, Пойлу II и в Галаери костяные орудия единичные. Обнаружены всего несколько пряслиц и шильев.

Выявлен один металлический предмет (вероятно, фрагмент ножа), несколько предметов металлообработки. В первую очередь следует отметить фрагмент двустворчатой керамической формы для отливки втульчатых топоров. Эта форма и аналогичная такая форма из Беюк Кесик являются

единственными и древнейшими находками такого рода для всего халколита Передней Азии и Кавказа. Кроме того, выявлены керамические емкости, на дне которых сохранились следы расплавленного металла. На рабочей поверхности одной из зернотерок сохранился кусок медной руды, который доказывает обработки этого сырья именно на этом поселении.

Результаты радиокарбонного анализа (см. табл.) по Галаери, сделанные в Майами, указывают на начало IV тыс. до н.э., что полностью соответствует артефактам поселения.

Археологический материал, особенно керамика поселения Галаери, идентичен с находками поселений Беюк Кесик I, Пойлу II, Лейлатепе, близок с Передней Азией, и с майкопской культурой Северного Кавказа. Как ярко показали раскопки Галаери это поселение, как и другие памятники лейлатепинской культуры, по своему происхождению связано не с убейдской или урукской культурами, как это считают многие исследователи, а с поздним халколитом пост-убейдского времени Восточной Анатолии – Северной Месопотамии конца V – нач. IV тыс. до н.э. В результате слияния на Южном Кавказе культурных традиций позднего халколита Восточной Анатолии и Северной Месопотамии появилась лейлатепинская культура. Урукская культура распространилась в этих регионах Передней Азии только начиная с середины IV тыс. до н.э., т.е. после прекращения существования лейлатепинской культуры на Южном Кавказе. Поэтому между лейлатепинской и урукской культурами никаких связей не существовало и распространение урукской культуры на Южном Кавказе археологическими фактами не доказано.

N.A.Museibli

ARCHAEOLOGICAL EXCAVATIONS IN THE GALAYERI SETTLEMENT

SUMMARY

The Galayeri settlement relating to Leilatepe culture was discovered during the construction of Gabala International Airport. In 2012 began extensive excavations in the monument by the author. On a 50 $м^2$ area excavations were led till the mainland. The maximum thickness of the cultural layer was 2.7 m.

All buildings in Galayeri settlement were built of 7-8 cm thick brown clay layers without any mixture. There is 2.5-3 cm thick ashen binding solution between the layers. Mud-brick constructions have not been revealed here yet. Close analogs of the architecture from clay layers of Galayeri known from the Temple «C» Arslantepe VII. All artifacts of Galayeri settlement are connected just with the Eastern Anatolia.

The individual features of each Leilatepe monument is connected with their genetic relation with different cultural centers of Front Asia. Thus, with method of construction, numerous marks on ceramics, corrugated edges of the inner surface of the mouth of some pots and with other features, the Galayeri site of settlement is rather closely connected with Arslantepe VII and monuments of Amuq F (Tell Cudeydah, Catal Huyuk), than with Northern Mesopotamia. However, the Alkhantepe site of settlement excavated in Mugan which relates to the Leilatepe culture, with the architecture, two-mouthed pottery, clay figures, seals and other findings is related to Tepe Gawra and Tell Khazna type monuments of Northern Mesopotamia.

Also, it should be noted that the Leilatepe culture does not completely repeat the Late Chalcolithic traditions of Front Asia. Some specific features of burial traditions in the Leilatepe culture and a number of typological features of the ceramic and stone ware are of local nature and fundamentally differ from the Front Asian as well as Maikop cultures.

According to clay composition the pottery of Galayeri settlement is divided into three categories:

The first category – “marked ceramics” includes vessels made of clay with vegetable inclusion and made of clay but without any admixture. The vessels of this category molded on the wheel and have a red, orange, ocher, pink and five light yellow colors. Typologically these are pitchers and jugs of different sizes, bowls, pots, etc. Narrow-necked jars of small sizes and the bowls made of pure clay. The last two types of vessels found in Galayeri are more than in all the other monuments of Leilatepe cultures taken together. Vessels of this category were revealed with

the signs on the surface. These signs are similar those on the vessels of Arslantepe VII, Amuk F of Front Asia and Maikop monuments of the North Caucasus.

The second category includes clay vessels with vegetable and inorganic additions simultaneously. They are molded on the wheel by hand. Typologically, they are mostly identical with the vessels of the first category, but, unlike them, they are coarser. Moreover, there were revealed vases, covers of the vessels and a stand that are not found in the first category. Vases and covers, from all monuments of Leilatepe culture are known only in Boyuk Kesik, except Galayeri.

The third category – "the coarse ceramics" includes vessels made of clay with inorganic additions, molded extremely by hand. This category includes, mainly pitchers with a swollen body and brown, sometimes gray color high neck. The corolla edges of the vessels decorated with notches and prints, the surface was treated with comb-shaped tool. In addition to these products were detected pans.

All ceramics, especially vessels with potter's marks, originally related to the Anatolian late Chalcolit(Amuk F, Arslantepe VII).

Stone products are grain-graters, pestles, graters, also numerous tools made of obsidian, flint and felsites. On the working surface of some grain-graters made hollows. Such grain-graters are known from the North Caucasian Natukhayevskiy settlement. From all the Leilatepe culture monuments most of silver obsidian tools found in Galayeri. They are mainly multifunctional.

As in the Leylatepe settlements, Poylu II bone tools are single in Galayeri. Only a few spindles and awls were found.

One metallic object (probably a fragment of a knife), several metal items were revealed. Firstly, should be noted fragment of bivalve ceramic form for casting pipe-shaped axes. This form and a similar form from Boyuk Kesik are the only finds of this kind for all the Chalcolit of Front Asia and the Caucasus. Moreover, were found ceramic vessels at the bottom of which had remained traces of molten metal. On the working surface of one of grain-graters was preserved a piece of copper ore, which proves processing of these raw materials just in this settlement.

The results of radiocarbon analysis (see table) of Galayeri, made in Miami, dates to the beginning of the IV millennium BC, which is fully consistent with the artifacts of the settlement.

Archaeological material, especially ceramics, identical with the findings from the settlements Boyuk Kesik I, Poylu II, Leilatepe is close to the Front Asia, and the Maikop culture of the North Caucasus. as clearly showed the excavations in Galayeri, as the other monuments of Leilatepe culture, this settlement is related neither to Ubaid nor Uruk cultures, as it is considered by many researchers, but the late Chalcolithic post Ubaid period of Eastern Anatolia - Northern Mesopotamia of the end V - early IV millenia BC. The Uruk culture spread in the regions of Front Asia only since the mid of IV millennium BC, that is, since the end of Leilatepe culture in the South Caucasus. So no links existed between Leilatepe and Uruk cultures and dissemination of Uruk culture in the South Caucasus was not proved with archeological facts.


“QARABAĞ NEOLİT-ENEOLİT EKSPEDİSİYASI”NIN APARDIĞI ARXEOLOJİ TƏDQİQATLARIN QISA HESABATI

(Ağdam rayonu)

X.İ.Alməmmədov, N.V.Quluzadə

2012-ci ilin çöl-tədqiqatları mövsümündə “Qarabağ neolit-eneolit ekspedisiyası” qarşısına qoyduqu uzunmüddətli kompleks tədqiqat planına əsasən, iyul-avqust aylarında Ağdam rayonu ərazisində yerləşən İsmayılbəytəpə və Fərmantəpə yaşayış yerlərində arxeoloji qazıntı və topoqrafiq ölçü işləri aparmışdır.

Ekspedisiyanın əsas tədqiqat obyektlərindən biri olan İsmayılbəytəpə yaşayış yeri Ağdam rayonu Xındırıstan kəndinin şimal-şərqində, Quzanlı-Xındırıstan şosse yolundan 250 m qərbdə yerləşir (Şm 40^0 08^{I} 09.2^{II}; Şq 047^0 07^{I} 48.8^{II}; h-119 m). Diametri 100 m, hündürlüyü 4 m olan təpə formalı yaşayış yerinin şərq, cənub və qərb hissəsini su arxları kəsir. Xırda dağıntıları nəzərə almasaq təpə çox yaxşı vəziyyətdə qalmışdır. 2010-cu ildə yaşayış yeri elektron şəkildə qeydiyyata alınaraq xəritələşdirilmişdir. 2012-ci ildə yaşayış yerində topoqrafik ölçü işləri aparılaraq, onun topoplanı tərtib edildi və şərq yamacında 200 kv. m ərazini əhatə edən 2 kvadratdan (A1, B1) ibarət arxeoloji qazıntı sahəsi qoyuldu. İlk əvvəl hər iki kvadratda 0-15 sm qalınlığında birinci qarışıq təbəqə təmizləndi. Sonra qazıntılar A1 kvadratında aparıldı. A1 kvadratında aparılan qazıntılar nəticəsində 0-30 sm-i əhatə edən ən üst təbəqənin qarışdırıldığı müəyyən edildi. Belə ki, bu təbəqədən xarakterik maddi-mədəniyyət nümunələri ilə yanaşı, son tunc-ilk dəmir, inkişaf etmiş orta əsrlər və sovet dövrünə aid saxsı qab fraqmentləri də aşkar olunub. Düzənlikdə yeganə hündür ərazilər olan erkən oturaq əkinçi-maldar əhaliyə məxsus yaşayış yerləri zaman-zaman Qarabağın tərəkəmə əhalisi tərəfindən qışlaq yerləri kimi istifadə olunmuşdur. Odur ki, bu təpələrdə müxtəlif dövrlərə aid nümunələrə təsadüf olunması normal haldır. Sovet dövründə isə təpə pambıq çardağı və pambıqçıların istirahət məkanı kimi istifadə olunmuşdur.



İsmayılbəytəpə yaşayış yerinin topoplanı.

Qazıntılar zamanı A1 kvadratında aşkar olunan ilk memarlıq nümunəsi 1 saylı tikili qalığıdır (Şəkil 1). Tikili qalığı dairəvi planlı olub, diametri 3 m-dir. Onun divarlarının hündürlüyü 50-80 sm arasında dəyişir və iri ölçülü saman qatışıqlı çiy kərpiclə hörülmüşdür. Bu kərpiclərin ölçüləri müxtəlifdir, eni 18-20 sm, uzunluqları 38-40 sm-dir. Kərpiclərin tərəfləri ovalvaridir. Ehtimal ki, onların hazırlanması zamanı qəlibdən istifadə olunmamışdır. Kərpiclər saman tərkibli gil məhlulla hörülüb və son kərpiclərin üzərinə 12-15 sm qalınlığında möhrə kəmər salınıb. Divar həm daxili, həm də xarici tərəfdən xırda döyülmüş saman qatışıqlı gil məhlulu ilə suvanmışdır. Suvağın qalınlığı hörgünün vəziyyəti və istiqamətdən asılı olaraq 5-11 sm arası dəyişir. Tikili qalığının divarının qərb hissəsi nəzərə çarpacaq ölçüdə enli tikilmişdir. Ehtimal ki, bu cür tikinti üsulu təpənin səviyyəsi və yağış sularından qorunmaq ehtiyacından irəli gəlmişdir. Burada divar iki qat və dörd cərgədən ibarət kərpiclərdən inşa edilib. Tikili qalığının şərq hissəsində 28x28 sm ölçülərində dairəvi deşik açılıb ki, bu da ehtimal ki, havakeş rolunu oynamışdır. Havakeş dəliyindən 75 sm şimalda, divar dibində mərkəzi hissəsi işlənərək oyulmuş daşa təsadüf olundu. Bu daş döşəmədə xüsusi olaraq saxsı fraqmentləri əlavə olunmuş palçıqla bərkidilmişdir. Vizual görünüşünə görə dabandaşını xatırladan nümunə dirək və ya hansısa əşyanın altlıq hissəsinə aid olmuşdur. Dairəvi formalı tikili qalığının döşəməsi oxra əlavə olunmuş saman tərkibli palçıqla suvanmışdır. Onun qalınlığı 6-8 sm arası dəyişir və dəfələrlə suvandığından bir neçə qatdan ibarətdir. Bu qatlar bir-birindən ağ xətlərlə ayrılır. Döşəmə al qırmızı rəngdə olub, bir neçə yerdə insan ləpirinin izlərini də özündə saxlayır. Tikili qalığının daxili hissəsi təmizlənərkən şimal tərəfində -132 sm dərinlikdə yumşaq və formaca dairəvi olan hissə diqqətimizi cəlb etdi. Bu hissədə döşəmə yox idi və torpaq küllü idi. İlk əvvəl təsərrüfat quyusu olduğunu ehtimal etdiyimiz bu hissədə ağzının diametri 40 sm, hündürlüyü 41 sm olan təsərrüfat küpünün basdırıldığını aşkarladıq. Təsərrüfat küpü döşəmədə basdırılmış və güman ki, saxlanc kimi istifadə olunmuşdur. Onun oturacaq hissəsinin bir hissəsi yox idi, güman ki, qab oturacağı qopduqdan sonra basdırılmışdır. Küp çıxarılan zaman onun altlıq hissəsinə bitişik uzunluğu 4 sm olan lülək-navalçanın olduğunu müəyyənləşdirdik. Formasından da göründüyü kimi qabdan mayenin süzülməsi üçün istifadə olunmuşdur. Qabın formasına əsaslanaraq ondan süd məhsullarının hazırlanmasında və ya meyvələrin şirələrinin çıxarılmasında istifadə olunmuşdur. Küp saman tərkibli gildən formalaşdırılmış və hər iki səthi qırmızı rəngdə boyanmışdır. Döşəmədə hər hansı bir ocaq yerinə təsadüf olunmamışdır.



Şəkil 1. 1-saylı tikili qalığı.

1 saylı tikili qalığının qazıntıları zamanı ən çox maraq doğuran məsələ kremasiya icra edilmiş qəbirə təsadüf olunması idi. Qəbir tikili qalığının şərq tərəfində döşəmə qalığının altında aşkar edildi. Döşəmədə xüsusi olaraq dərinliyi 11 sm olan qəbir çalası qazılmış və buraya yandırılmış insan sümükləri, mis, pasta və daşdan hazırlanmış muncuqlar oxra ilə qarışdırılaraq tökülmüşdür (Şəkil 2). Sümüklər yanğına çox məruz qalmış və ovxalanmış vəziyyətdə idilər. Yalnız insana məxsus azı dişi salamat olaraq götürülsə də sonradan o da hissələrə parçalandı.



Şəkil 2. Kremasiya icra olunmuş qəbirdən tapılan bəzək əşyaları.



Şəkil 3. Qazıntı sahəsinin (A1 kvadratı) aerofotoçəkilişi.






Şəkil 4. 2 və 3 saylı tikili qalıqları.


Tikinti qalıqlarının təsnifinə yekun vuraraq qeyd etmək istərdik ki, bu ilki qazıntılar müddətində 8 tikinti qalığı aşkar edilmişdir (Şəkil 3). Bunlar, dairəvi və düzbucaqlı planlı çiy kərpicdən inşa edilmiş tikililərdir (Şəkil 4). İsmayılbəytəpə sakinləri eyni tikinti dövründə həm dairəvi, həm də düzbucaqlı planda evlər inşa edmişdilər. Tikinti üçün istifadə edilmiş kərpiclər standart ölçü və quruluşa malik olmasalar da o zaman ki, bənnalar bağlama, arakəsmə kimi çətin memarlıq texnikasını evlərin tikintisində tətbiq etmişdilər. Tikinti zamanı təbii amillər nəzərə alınaraq evlərin girişləri şərq istiqamətində qoyulmuş, divarların qərb və şimal hissələri nəzərəçarpacaq ölçüdə qalın inşa edilmişdir. Gələcəkdə yaşayış yerində aparılacaq arxeoloji qazıntılar bizə İsmayılbəytəpənin erkən oturaq sakinlərinin tikinti mədəniyyəti və bütünlükdə memarlığı haqqında daha dolğun informasiya əldə etməyimizə yardım edəcəkdir.

İsmayılbəytəpə yaşayış yeri

1A kvadratının planı



① 1 Saylı tikili qalığı
② 2 Saylı tikili qalığı
③ 3 Saylı tikili qalığı
④ 4 Saylı tikili qalığı
⑤ 5 Saylı tikili qalığı
⑥ 6 Saylı tikili qalığı
⑦ 7 Saylı tikili qalığı
⑧ 8 Saylı tikili qalığı
⑨ 1 Saylı təsərüfat küpü
⑩ Kremasiya icra olunmuş qəbir
⑪ 3 Saylı təsərüfat küpü
⑫ Təsərrüfat quyusu
⑬ 2 Saylı təsərrüfat küpü



Şəkil 5. Daş qab fraqmenti.



Şəkil 6. Obsidiandan tiyələr.



Şəkil 7. Sümük alətlər.

Qazıntılar zamanı izlənilən ən maraqlı məsələlərdən biri də daş alətlərin azlıq təşkil etməsidir. Onların ümumi sayı 12-dir. Ümumilikdə, 6 ədəd döymək və ya əzmək üçün istifadə olunmuş daş alət və tuf daşından 4 ədəd dəndaşı fraqmentinə təsadüf olunmuşdur ki, onların da hamısı oxra əzmək üçün istifadə edilmişdir. 1 saylı tikili qalığının döşəməsində aşkar edilmiş ağ daşdan hazırlanmış daş qab fraqmenti xüsusilə maraqlıdır. Forma etibarilə kasanı xatırladan qab yonularaq hazırlanmışdır və Qarabağın həmdövr abidələri üçün xarakterikdir (Şəkil 5). Obsidiandan hazırlanmış fraqmentlər (91 ədəd) çoxluq təşkil edir (Şəkil 6). Onlardan 26 ədədi tiyələr, qalanları isə daha kiçik fraqmentlərdir. Aşkar edilmiş obsidian məmulatı trasoloji analiz üçün Sankt-Peterburq şəhərinə göndərilmişdir. Analizlərin cavabları hazır olduqdan sonra biz onların təyinatı haqqında dəqiq fikirlər söyləyə biləcəyik.

Ümumilikdə osteoloji qalıqlara qazıntılar zamanı çox az miqdarda təsadüf olunmuşdur. Onların da əsas hissəsi qarışıq təbəqədən aşkar edilmışdır. Daha dərin qatlar təmizləndiyi zaman osteoloji qalıqlara çox nadir halda rast gəlinirdi. Osteoloji qalıqlara az təsadüf olunduğu kimi sümükdən hazırlanmış alətlər də azlıq təşkil edir (Şəkil 7). Sümük və ondan hazırlanmış məmulatların azlıq təşkil etməsini İsmayılbəytəpə sakinlərinin təsərrüfat həyatı ilə bağlamaq olar. Ehtimal ki, bu tayfalar əsasən əkinçiliklə məşğul olmuşdular. Fikrimizin sübutu kimi Cənubi Qafqaz eneoliti üçün xarakterik olmayan iri həcmli gil qabları göstərə bilərik. Qazıntılar zamanı 1A və 1B kvadratları arasında yer səthindən 20 sm dərinlikdə aşkar edilmiş saxsı qazanın ölçüləri təəccüb doğurmaya bilməz. Ağzının diametri 122 sm olan qazanın hündürlüyü 90 sm-dir. Oturacağını diametri 29 sm olan qazan gilinə iri doğranmış saman əlavə edilmiş gildən hazırlanmışdır. Formalaşdırılan zaman onun xarici səthi basma naxışlarla bəzədilmiş və qırmızı rəngdə boyanmışdır. O qədər də keyfiyyətli bişirilmədiyindən təmizləmə zamanı havanın təsirində üst səthi qabıqlanaraq qopur və onun gövdəsində iri çatlar əmələ gəlirdi. Qabın tam məhv olmasının qarşısını almaq üçün kley, gips, bint və s. ləvazimatlardan istifadə edərək onun qismən bərpasına çalışdıq (Şəkil 8, 9). Lakin bu cür qoruma üsulları lazımi effekt vermədiyi üçün onun hissə-hissə parçalanaraq yenidən daha əlverişli bir ortamda bərpasına qərar verildi. 2 ay ərzində aparılan bərpa işləri nəticəsində saxsı qazan öz əvvəlki vəziyyətinə gətirildi. Qazanın həcmi (0,46 kub.m) onun içində 400 kq-dan çox taxılın saxlanılmasına imkan verirdi. İsmayılbəytəpədən aşkar edilmiş bu qazan öz ölçülərinə görə tam halda tapılmış yeganə nümunədir. Qarabağın arxeoloji abidələrində apardığımız kəşfiyyat işləri zamanı iri həcmli saxsı qabların fraqmentlərinə təsadüf etsəkdə (Kəbləhüseynli yaşayış yeri, 2010) İsmayılbəytəpədən aşkar edilmiş bu qazan öz ölçülərinə görə tam halda tapılmış yeganə nümunədir.



Şəkil 8, 9. 1 saylı təsərrüfat küpünün *insitu* bərpası.

İsmayılbəytəpə yaşayış yerində 2012-ci ildə aparılmış arxeoloji qazıntılar zamanı 1243 ədəd saxsı qab fraqmenti, bütöv halda üç ədəd təsərrüfat küpü, iki ədəd gil kürə və 8 gil sapand daşı aşkar olunmuşdur. Aşkar edilmiş saxsı kompleksinin 877-si (71%) forması təyin olunmayan nümunələrdir. 211 ədəd (17%) qabların ağız, 155-i (12%) isə oturacaq hissəsidir. Oturacaqların hamısı düz formadadır. Qazıntılar zamanı qabların qulp hissəsinə təsadüf olunmamışdır.


Saxsı məmulatı tərkibinə müxtəlif qatışıqlar əlavə edilmiş gildən hazırlanmışdır. Burada əsasən bitki tərkibli fraqmentlər üstünlük təşkil edir ki, onların da sayı 1003 ədəddir (81%). Gilinin tərkibinə qeyri orqanik qatışıqlar-qum və xırda daşlar əlavə edilmiş nümunələrin sayı 84 ədəddir (7%). Bu tip nümunələrin səthləri texniki baxımdan işlənilməmiş olub, çox kobuddur. Gilinin tərkibinə qeyri orqanik və bitki qatışıqları birgə əlavə olunmuş fraqmentlərə də təsadüf olunmuşdur ki, onların da sayı 156 ədəddir (13%). Bu tip nümunələr digərlərindən davamlılığı ilə seçilir. Ehtimal ki, bu kombinasiyadan istifadə etməklə qədim dulusçular qabların dayanıqlığını artırmaq məqsədi güdmüşdülər.

Aşkar olunmuş saxsı qab fraqmentlərinin böyük əksəriyyətinin səthləri texniki baxımdan işlənilmişdir. Belə ki, burada şüyrə və anqobdan istifadə edilərək qabların səthləri texniki baxımdan işlənilmişdir. Fraqmentlərin 856 ədədinin (69%) səthi şüyrələnmişdir. Bir çox nümunələrdə şüyrələmə çox keyfiyyətlə edilsə də, əksəriyyət fraqmentlərdə bu iş kobud aparılmışdır. 2 ədəd qab fraqmentinin xarici səthi qara rəngdə şüyrələnmişdir.

Saxsı qab məmulatının 31%-i, yəni 388 ədədi anqoblanmışdır. Əsasən açıq qəhvəyi və qırmızımtıl-qəhvəyi rəngli anqoblardan istifadə edilmişdir. Göründüyü kimi burada ən sadə anqobdan istifadə edilmişdir. Oxradan geniş şəkildə istifadə saxsı məmulatının qırmızı, 3 ədədi isə şabalıdı rəngdə boya ilə boyanmışdır.

Boyanaxışlı qab nümunələrinə təsadüf olunmasa da, burada iki naxışlanma üsulundan istifadə edilmişdir. Bunlardan birincisi və ən geniş tətbiq olunanı dırnağabənzər izləri xatırladan basma naxış növüdür (İlanlıtəpə tipli). Belə naxış qablar formalaşdırıldıqdan sonra onun yaş səthinə dırnaq və ya dirnaq izlərinə bənzər izlər buraxan alətlə döyülürdü. Qazıntılar zamanı 48 ədəd bu cür naxışlanmış fraqmentə təsadüf edilmişdir. İkinci naxış növü isə əsasən Şomutəpə tipli abidələr üçün xas olan qabartma köbədir (1 ədəd).

İsmayılbəytəpə yaşayış yerində aparılmış arxeoloji qazıntıların təsnifinə yekun vuraraq qeyd etmək istərdik ki, abidə klassik Qarabağ eneolitinə xas abidədir. Aşkar edilmiş maddi-mədəniyyət nümunələrinin müqayisəli təhlili nəticəsində İsmayılbəytəpə yaşayış yerini xronoloji baxımdan e.ə V minilliyin I yarısına aid edirik. Xronoloji çərçivəni daha da dəqiqləşdirmək üçün müxtəlif dərinliklərdən götürülmüş nümunələr C14 analizlərinin aparılması üçün İsrail Dövlətinə göndərilmişdir. Analizlərin nəticələri alındıqdan sonra biz yaşayış yerinin yaşı haqqında daha dəqiq fikirlər söyləyə biləcəyik.



Şəkil 10. Fərmantəpə yaşayış yerinin topoplanı.



Şəkil 11. İşarəli qab fraqmenti.

Ekspedisiyanın ikinci əsas tədqiqat obyekti olan Fərmantəpə yaşayış yeri 2010-cu ildə tərəfimizdən qeydiyyata alınmışdır. Genetik baxımdan Leylatəpə mədəniyyətinə aid olan yaşayış yerində 2012-ci ildə arxeoloji qazıntıların aparılması planlaşdırılsa da, bizdən asılı olmayan səbəblərdən bu iş növbəti ilə kimi təxirə salındı. Arxeoloji qazıntılar təxirə salınsa da biz təpədə topoqrafiq işlərin aparılmasını məqsədəuyğun hesab etdik. Yaşayış yerində ekspedisiyanın topoqraf qrupu tərəfindən ölçmə işləri aparılaraq, onun topoplanı tərtib edildi (Şəkil 10). Qədim çay yatağının sahilində (Qara çay) yerləşən yaşayış yerinin cənub hissəsi Sultanbud meşəsilə sərhədlənir. Hündürlüyü 5 m, sahəsi 2,5 ha-dan çoxdur. Təpənin səthindən toplanılmış saxsı nümunələrinin differensial təhlili aparıldı. Fərmantəpənin qabları tərkibinə bitki qatışığı və qeyri orqanik əlavələr qatılmış gildən hazırlanmış, dulus çarxında formalaşdırılmış və yüksək temperaturda bişirilmişdir. Fraqmentlərin bəzilərinin xarici səthində işarələr cızılmışdır (Şəkil 11).

"Uruk ekspansiyası" nəticəsində Cənubi Qafqazda formalaşmış Leylatəpə mədəniyyətinə aid olan bu abidədə arxeoloji qazıntıların aparılması olduqca vacibdir. Uruk koloniyaları olan bu yaşayış məskənləri strateji yerlərdə salınmaqla o zaman ki, ticarət yollarına bilavasitə nəzarət etmişdilər. Onların digər funksiyası isə metropoliya olan Uruku xammala olan ehtiyacını ödəmək idi. Maddi-mədəniyyət nümunələrinin müqayisəli təhlilinə əsaslanaraq Fərmantəpə yaşayış yerinin e.ə. IV minilliyin II yarısında aid edə bilərik. Gələcəkdə bu abidədə aparacağımız genişmiqyaslı arxeoloji tədqiqatlar Leylatəpə mədəniyyətinin genetik və xronoloji mənsubiyyəti haqqında Azərbaycan arxeologiyasında olan informasiyanın daha da dəqiqləşməsi və zənginləşməsinə yardım edəcəkdir.

Ekspedisiya arxeoloji qazıntılarla yanaşı, kəşfiyyat işlərinin də aparılmasına xüsusi önəm verir. 2010-cu ildən bu istiqamətdə aparılan işlər 2012-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun ayırdığı qranta əsasən aparılır. Qrant layihəsi çərçivəsində Qarabağ düzənliyində yerləşən arxeoloji abidələrin elektron qeydiyyatı həyata keçirilərək xəritələşdiriləcəkdir. Keçən dövr ərzində Qarabağ düzənliyində yerləşən 100-dən çox müxtəlif dövrlərə aid arxeoloji abidə qeydiyyata alınaraq xəritələşdirilmişdir. Onlardan 71-i Qarabağın erkən əkinçi-maldar əhalisinə məxsus yaşayış yerləridir. 2013-cü il çöl-tədqiqat mövsümündə ilkin kəşfiyyat işlərini başa çatdıraraq "Qarabağın arxeoloji abidələri toplusu"nun I cildinin hazırlanıb çap olunması planlaşdırılıb.

Х.И.Алмамедов, Н.В.Гулузаде

КРАТКИЙ ОТЧЁТ АРХЕОЛОГИЧЕСКИХ ИССЛЕДОВАНИЙ «КАРАБАХСКОЙ НЕОЛИТ-ЭНЕОЛИТИЧЕСКОЙ ЭКСПЕДИЦИИ»

РЕЗЮМЕ

2012 года «Карабахская неолит-энеолитическая экспедиция» по разработанному плану долговременных комплексных исследований, провела археологические раскопки и топосъёмки на поселениях Исмаилбейтепе и Фармантепе на территории Агдамского района.

Основной объект исследования поселения Исмаилбейтепе находится на северо-востоке села Хындрыстан, в 250 м к западу от шоссейной дороги Гузанлы-Хындрыстан (С 40^0 08^{I} 09.2^{II}; В 047^0 07^{I} 48.8^{II}; обс. выс. - 119 м).

Раскопочные работы площадью 200 $м^2$ проведены на восточном склоне поселения в виде холма диаметром 100 м и высотой 4 м. В результате на уровне одного строительного горизонта, представляющего раннее оседлое земледельческо-скотоводческое хозяйство Карабаха, выявлены остатки 8 строений и, характерные для эпохи, предметы материальной культуры различного назначения. Проведены дифференциация и статистический анализ керамического материала, снят топоплан холма. На основе сопоставительного анализа полученных образцов материальной культуры памятник можно датировать к первой половиной V тыс. до н.э.

Поселение Фармантепе находится в лесу Султанбуд, в 2 км к востоку от села Аяг Гярвянд Агдамского района (С 40^0 11^{I} 09.7^{II}; В 047^0 06^{I} 41.3^{II}; обс. выс. – 113 m).

В 2012 году на поселении, генетически принадлежащем к лейлатепинской культуре, проведена топосъёмка, собран подъёмный материал. Сопоставительный анализ выявленной керамики позволяет датировать поселение второй половиной IV тыс. до н.э.

Продолжена работа по электронной фиксации и картографированию археологических памятников Карабахской равнины. Для проведения разведочных работ и составления карт выделен грант Фонда Развития Науки при Президенте Азербайджанской Республики. В рамках грантового проекта на Карабахской равнине зафиксировано более 100 археологических памятников различных периодов. Из зафиксированных памятников 71 относятся к раннеземледельческо-скотоводческому населению Карабаха.

Kh.I.Almamedov, N.V.Guluzade

BRIEF REPORT ON ARCHEOLOGICAL STUDIES CARRIED OUT BY THE "GARABAGH NEOLITHIC-ENEOLITHIC EXPEDITION"

SUMMARY

In line with the drafted plan of long-term complex studies, in July-August 2012 the Garabagh Neolithic-Eneolithic expedition carried out archeological excavations and topographic surveys at settlements Ismailbaytepe and Farmantepe located in the territory of the Agdam region.

The key object of the study – settlement Ismailbaytepe – is located northeast of village Khyndrystan of the Aghdam region, 250 meters west of highway Guzanly-Khyndrystan (N 40^0 08^{I} 09.2^{II}; E 047^0 07^{I} 48.8^{II}; elev. - 119 meters).

The excavations covering an area of 200 square meters were carried out at the eastern slope of a hill-shaped 100-diameter, 4-meter high settlement. As a result, one of construction horizons representing an early settled farming and cattle-raising population of Garabagh revealed the remains of 8 buildings and implements of material culture of various designation, typical for this epoch. There were carried out differentiation and statistical analysis of the ceramic material; a topographic survey of the hill was made. On the basis of comparative analysis of the obtained specimens of material culture, it is possible to date the monument back to the first half of the 5^{th} millennium BC.

The second key object of the study – settlement Farmantepe – is located in forest Sultanbud, 2 km east of village Ayag Gyarvyand of the Aghdam region. (N 40^0 11^{I} 09.7^{II}; E 047^0 06^{I} 41.3^{II}; elev. - 113 m).

In 2012, a topographic survey was carried out, and material to be lifted was collected in a settlement genetically belonging to the Leilatepe culture. Comparative analysis of the collected ceramic works makes it possible to date them back to the second half of the 4^{th} millennium BC. It is planned to carry out large-scale archeological works at this settlement in the 2013 field season.

In 2012 there were continued works on digital fixation and mapping of the archeological monuments of the Garabagh lowland. The Science Development Foundation under the President of the Republic of Azerbaijan assigned a grant to carry out exploration works and compose maps. Within the framework of the grant project, there were fixed more than 100 archeological monuments relating to different chronological periods in the Garabagh lowland. Of the fixed monuments, 71 pertain to the early agricultural-cattle-raising population of Garabagh.

ŞORTƏPƏ YAŞAYIŞ YERİNDƏ APARILMIŞ ARXEOLOJİ QAZINTILARIN NƏTİCƏLƏRİ

(Naxçıvan MR, Şərur rayonu)

A.Q.Seyidov, V.B.Baxşəliyev

Şortəpə yaşayış yeri Şərur rayonu ərazisində, İbadulla kəndinin cənub-şərqində yerləşir. Abidə ətraf yerlərə nisbətən 1,5-2 m hündürlükdə olan oval təpədən ibarətdir. Sahəsi 1500 kv.m-dir (**Seyidov 2003, s. 75; Baxşəliyev 2008, s. 31-32**).

1934-cü ildə yaşayış yerinin ərazisində kanal qazılarkən mədəni təbəqə dağıdılmışdır. 1936-cı ildə Ə.K.Ələkbərov burada kəşfiyyat qazıntısı aparmış və mədəni təbəqəni 3 m dərinliyədək tədqiq etmişdir (**Алекперов 1960, с. 54-55**). Tədqiqatlar zamanı tunc və erkən dəmir dövrünə aid materiallar aşkar edilmişdir.

Son zamanlar Şortəpənin üst təbəqəsindən son antik dövrə aid çəhrayı rəngli küpələr aşkar edilmişdir. Bu tapıntılar burada Antik dövrə aid nekropolun olduğunu göstərir.

2012-ci ildə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun ekspedisiyası tərəfindən Şortəpə yaşayış yerində 5 sahə kəşfiyyat şurfu ilə öyrənildi.

Birinci şurf təpənin ətəyində qoyuldu. Tədqiqat 3x2 m (6 m^2) sahədə 1,2 m dərinliyədək davam etdirildi. Buradan erkən tunc və erkən dəmir dövrünə aid saxsı parçaları aşkar olundu.

İkinci şurf 2x2 m (4 m^2) ölçüdə təpənin şərqində yerləşən həyətdə qoyuldu. Qazıntı 1,4 m dərinliyədək davam etdirildi. Qazıntı zamanı erkən tunc, orta tunc və erkən dəmir dövrünə aid keramika parçaları aşkar olundu. Qazıntının şərq tərəfində insan skeletinə aid qalıqların olduğu da müəyyən edildi.

Üçüncü şurf abidənin şimalındakı həyətdə, təpənin ətəyində 2x2,5 m ölçüdə (5 m^2) qoyuldu. Qazıntı 1,5 m dərinliyədək davam etdirildi. Qazıntı zamanı insan skeletinə aid qalıqlar, erkən tunc, erkən dəmir və antik dövrə aid forma verməyən keramika nümunələri aşkar olundu.

Dördüncü şurf abidənin qərbindəki həyətdə 3x3 m (9 m^2) sahədə qoyuldu. Bu sahədə qazıntı 0,8 m dərinlikdə xam torpağa çıxdı. Qazıntı zamanı erkən tunc və erkən dəmir dövrünə aid keramika aşkar olundu.

Abidənin üzərini məişət tullantılarından təmizlədikdən sonra burada 4x4 m (16 m^2) sahə tədqiqat üçün seçildi (5-ci sahə). Bu sahədə aparılan qazıntılar abidənin stratiqrafiyasını müəyyən etməyə imkan verdi. Bu stratiqrafiya Ə.K.Ələkbərovun vaxtilə müəyyən etdiyi stratiqrafiyaya uyğun olsa da, müəyyən fərqlər izlənirdi. Üst təbəqədən aşkar olunan materiallar müxtəlif dövrlərə aid olduğundan, belə hesab etmək olar ki, təbəqə qarışmışdır. Tapıntılar erkən tunc, erkən dəmir və az miqdarda antik dövrə aid idi. Orta tunc dövrünə aid bir ədəd monoxrom boyalı keramika da aşkar olundu. Bu təbəqədə 0,3-0,7 m dərinlikdən insan skeletinin pis vəziyyətdə qalmış qalıqları aşkarlandı. Skeletlərin qalıqlarına əsasən dəfnin şimal-şərq istiqamətində olduğunu demək olar. Keramika məmulatı arasında erkən dəmir dövrünə aid tapıntılar üstünlük təşkil edirdi. Qazıntı zamanı 0,9-1,2 m dərinlikdə yenidən insan skeletinin qalıqları aşkar edildi. Bu skeletlər qərb-şərq istiqamətində idi. Qəbirlərdən maddi-mədəniyyət nümunəsi aşkar olunmadı.

Qazıntı sahəsində 1,2 m dərinlikdən başlayaraq əsasən Kür-Araz mədəniyyətinə aid keramikaya və digər maddi-mədəniyyət nümunələrinə rast gəlinirdi. Qazıntının qərb tərəfində 1,2 m dərinlikdə Kür-Araz mədəniyyətinə aid düzbucaqlı planlı tikintiyə aid divar qalığı aşkar olundu. Divar şərq-qərb istiqamətində uzanırdı. Onun əsas hissəsi qazıntı sahəsindən kənara çıxırdı. Divarın salamat qalan hissəsinin hündürlüyü 20 sm, eni 40 sm, uzunluğu 2,3 m idi. Divar dördkünc formalı kərpiclərdən inşa olunmuşdu. Lakin onlar yaxşı qalmadığından ölçülərini müəyyən etmək mümkün olmadı. Qazıntı 3 m dərinliyə çatdıqda dairəvi formalı tikinti qalığına rast gəlindi. Oval formalı divar çiy kərpicdən inşa

olunmuşdu. Divarın eni 45 sm idi. Bu divar 0,5 m hündürlükdə qalmışdı. Qazıntı 3,8 m dərinliyədək davam etdirildi. Mədəni təbəqə davam edirdi. Lakin, bu səviyyədən sonra yeraltı qrunt suları tədqiqatları davam etdirməyə imkan vermədi.



Şortəpə. Qazıntı sahəsi.





Şortəpə. Torpaq qəbir.



Şortəpə. Yaşayış yerindən tapılmış keramika nümunələri.

Yaşayış yerində aparılan araşdırmalara əsaslanaraq demək olar ki, abidədə həyat eneolit dövründən başlamışdır. Lakin qazıntılar zamanı Eneolit təbəqəsi aşkar olunmadı. Eyni zamanda orta tunc dövrü təbəqəsinin də varlığı müəyyən edilmədi. Ehtimal ki, orta tunc dövründə burada mövsümi yaşayış olmuşdur. Son tunc və erkən dəmir dövründə burada əhali yenidən məskunlaşmışdır. Lakin təpənin üzəri sonrakı dövrlərdə qəbiristanlığa çevrildiyindən son tunc və erkən dəmir dövrünə aid təbəqə tamamilə, erkən tunc dövrü təbəqəsi isə qismən dağılmışdır. Tədqiqatların nəticələrinə əsaslanaraq demək olar ki, qəbiristanlıq yaşayış yerinin mərkəzi hissəsini tamamilə əhatə etmişdir.






Şortəpə. Keramika.

Şortəpə yaşayış yerində eneolit dövrünə aid yalnız bir boyalı qab aşkar edilmişdir. 2010-cu ildə AMEA Naxçıvan Bölməsinin əməkdaşları araşdırma zamanı Şərur rayon Tarix-Diyarşünaslıq muzeyində Şortəpədən aşkar olunmuş bir ədəd Ubeyd tipli boyalı kasa aşkar etmişlər **(Quliyeva, 2009, s. 39; Baxşəliyev, 2011a, s. 140)**. Bu qab qum qarışığı olan gildən hazırlanaraq qırmızı rəngdə bişirilmişdir. Onun bir tərəfi qırılmışdır. Gövdəsinin yuxarı hissəsində olan oval deşik onun lüləkli olduğunu göstərir. Qabın xarici səthi yaxşı cilalanmışdır. Naxışlar qabın cilalanmış səthinə qırmızı boya ilə çəkilmişdir. Naxışlar kasanın ağzının kənarına çəkilən enli zolaqdan ayrılan şüaşəkilli ornamentlərdən ibarət olub, bir-birinin içərisinə çəkilmiş bucaqları xatırladır. Bu tip naxışlama Ubeyd mədəniyyəti üçün xarakterik olub, onun müxtəlif mərhələlərində istifadə edilmişdir.

Yaşayış yerində 1,2-3,8 m dərinlikdə yalnız erkən tunc dövrünə aid maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Bu dövr keramikasının ən qədim nümunələri daraqvari alətlə naxışlanmışdır. Belə keramikanın ən qədim nümunələri digər abidələrdən də məlumdur **(Baxşəliyev, Marro, Aşurov, 2010, s. 16**; **Нариманов, 1987**, **s.137; Cəfərov H.F. 2000, tabl. 8,5,11; Seyidov, Baxşəliyev, Mahmudov 2010, s. 78; Aşurov, 2002, s. 118, tablo V)**.

Şortəpə yaşayış yerinin ən alt laylarından tapılan keramikanı (dərinlik 2,5-3,8 m) iki qrupa bölmək olar. Birinci qrupdakılar boz rəngdə bişirilmişdir. Onların bir qismi çəhrayı astarlıdır. Bu qabların bəzisi içəridən yaxşıca sığallanmış, bəzisi isə cilalanmışdır. Qabların bəzisinin xarici səthinə, bəzisinin isə ağzının içəri tərəfinə qara boya çəkilərək cilalanmışdır. Qabların bəzisinin içəri tərəfində qırmızı boya izləri vardır.

İkinci qrupa qırmızı rəngdə bişirilmiş küpə tipli qabların parçaları daxildir. Qablar narın qum qarışığı olan gildən hazırlanaraq hər iki üzdən cilalanmışdır. Onlardan bəzisinin hər iki üzünə qırmızı boya çəkilmişdir.



Şortəpə. Keramika.

Ümumiyyətlə, Şortəpədən aşkar olunan kasalar son eneolit mədəniyyəti ilə Kür-Araz keramikası arasında genetik bağlılığın olduğunu təsdiq edir. Araşdırmalara əsasən Şortəpənin erkən tunc dövrü keramikasını e.ə. V minilliyin sonu-e.ə.III minilliyə aid etmək olar.

Arxeoloji qazıntılar zamanı Orta Tunc dövrünə aid keramika məmulatı olduqca az tapılmışdır. Tədqiq olunan şurflardan cəmi üç ədəd bu dövrə aid keramika əldə edilmişdir. Saxsı nümunələrinin bəzisinin xarici səthi qırmızı boya üzərindən qara rənglə, digərininki isə həndəsi motivdə naxışlanmışdır.

Şortəpə yaşayış yerində boyalı keramika məmulatı olduqca azdır. Həm də boyalı keramika məmulatı ayrıca təbəqədən deyil, digər keramika nümunələri ilə birgə aşkar olunmuşdur. Bu, Orta Tunc dövründə təbəqənin olduqca az yığıldığını və digər təbəqələrlə qarışdığını göstərir. Bu vəziyyət digər abidələrdə də müşahidə edilmişdir. Şərur rayonunun yaşayış yerlərində Orta Tunc dövrü keramikasına ya az rast gəlinmiş, ya da heç rast gəlinməmişdir. Bunun əksinə olaraq, nekropolların boyalı keramika məmulatı olduqca zəngindir. Onu da qeyd edək ki, Şərur rayonunun arxeoloji abidələrində polixrom boyalı qablar azlıq təşkil edir.

Abidənin Son Tunc və Erkən Dəmir dövrünə aid keramika məmulatı əsasən boz, yaxud qara rəngdə bişirilmişdir. Çəhrayı rəngdə bişirilən keramika olduqca azdır. Boz rəngli keramika məmulatı kasa və küpə tipli qabların parçalarından ibarətdir.

Son illər aparılan araşdırmalar zamanı Şərur rayonunda Son Tunc və Erkən Dəmir dövrünə aid böyük yaşayış yerləri aşkar olunmuşdur. Şortəpə yaşayış yeri bunlardan biridir. Xatırladaq ki, bizim

araşdırmalarımız zamanı Xələc **(Seyidov, Baxşəliyev, Mahmudova, 2010, s. 85-86)** və Sədərəkdə **(Seyidov, Baxşəliyev, 2011, s. 47-58)** də bu dövrə aid böyük yaşayış yerləri aşkar olunmuşdur. Bu abidələr yaxınlığında yaşayış yeri olmayan nekropolların da mahiyyətini başa düşməyə imkan verir. Belə nekropollar Naxçıvanın digər yerlərində olduğu kimi Şərur rayonunda da aşkar olunmuşdur. Onların sırasına Zeyvə, Qarabulaq, Qazxan, Dəmirçi, Aşağı Daşarx nekropolları aiddir. Bu nekropollar Son Tunc və Erkən Dəmir dövründə köçmə maldarlığın inkişaf etdiyini təsdiq edir. Bu dövrdə həmçinin, orta tunc dövründə olduğu kimi, qala tipli yaşayış yerlərində həyat davam edir. Şərur düzünə yaxın dağ ətəklərində - Sədərəkqalada, I Qızqalada, Oğlanqalada, Şərur düzünün şərq qurtaracağında Qalacıq və Şahtaxtıda belə yaşayış yerlərinə rast gəlinmişdir. Qala tipli yaşayış yerlərinə həmçinin Ordubad rayonunda Gilançay vadisində rast gəlinmişdir. Sumbatan-Dizə belə qala tipli şəhərlərdən biridir (**Ibrahimli B.,2010, s.51**). Aşkar olunan abidələr əkinçi-maldar tayfaların dağətəklərində və ovalıqda məskən saldığını göstərir. Son tunc və erkən dəmir dövründə xarici işğal təhlükəsinin artması müdafiə məqsədi daşıyan yeni qalaların inşa olunması ilə nəticələnmişdir.

Naxçıvan ərazisində tapılmış maddi mədəniyyət qalıqları e.ə. II minilliyin sonu I minilliyin əvvəlində Azərbaycanın siyasi həyatında mühüm rol oynayan tayfaların həyat tərzi, ideologiyası və etnogenezini öyrənmək üçün olduqca əhəmiyyətlidir.

Naxçıvanın erkən dəmir dövrü mədəniyyətinin müəyyən xronoloji və lokal xüsusiyyətləri ilə fərqlənməsinə baxmayaraq o Şimali Azərbaycandan Urmiya hövzəsinədək yayılan vahid bir mədəniyyətin tərkib hissəsi olmuşdur. Bu müəyyən dərəcədə Naxçıvanın coğrafi mövqeyi ilə də bağlı olmuşdur.

Bu ərazidən Xocalı-Gədəbəy mədəniyyətinə aid keramika nümunələri də aşkar edilmişdir. Araşdırmalara əsasən Xocalı-Gədəbəy mədəniyyətinin qədim dövrdən Azərbaycan ərazisində məskunlaşan aborigenlər tərəfindən yaradıldığını demək olar. Məlum olduğu kimi bu mədəniyyət başlıca olaraq boz rəngli keramika ilə xarakterizə edilir. Çəhrayı rəngli keramikaya olduqca az rast gəlinir. Bu tip keramika e.ə. V minilliyin sonları – e.ə.III minilliklərdə Azərbaycanda yayılan Kür-Araz mədəniyyəti üçün xarakterik olmuşdur. Orta tunc dövründə Azərbaycanın cənubunda, o cümlədən Naxçıvanda boyalı keramika ilə xarakterizə edilən mədəniyyət yayılmışdır. Bu mədəniyyət Urmiya hövzəsi, Şərqi Anadolu, müasir Ermənistan və Gürcüstan respublikalarının müəyyən hissəsini əhatə etmişdir. Lakin bu dövrdə Gürcüstanın və Şimali Azərbaycanın çox yerində boz və qara rəngli cilalı keramika ilə xarakterizə edilən mədəniyyət mövcud olmuşdur. Fikrimizcə, bu mədəniyyət Kür-Araz mədəniyyətindən törəmiş və onunla bağlı olmuşdur. Xocalı-Gədəbəy mədəniyyəti isə bu mədəniyyətin davamı olmuşdur.

Qeyd edək ki, Naxçıvanın erkən dəmir dövrü mədəniyyətində Kür-Araz mədəniyyətinin elementləri izlənməkdədir. Bu hər şeydən əvvəl qabların formasında, qulp tiplərində və keramika nümunələrinin qara rəngə boyanmasında özünü göstərmişdir. Bu abidələr üçün xarakterik olan kollektiv dəfnlər Azərbaycanda və Naxçıvan MR ərazisində qədim dövrlərdən mövcud olmuşdur (**Абибуллаев 1982, с. 39-51; 31, s. 81-83**).

Şortəpədə müxtəlif dövrlərə aid maddi-mədəniyyət qalıqları aşkar olunsa da mədəni təbəqə başlıca olaraq erkən tunc dövrünə aiddir. Aparılan araşdırmalar göstərir ki, erkən əkinçilik və maldarlıq mədəniyyətlərinin formalaşmasında, habelə Azərbaycanın Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrində Şərurda yerləşən abidələrin böyük əhəmiyyəti vardır. Belə bir faktı xüsusilə qeyd etmək lazımdır ki, eneolit dövrünün sonu və Kür-Araz mədəniyyətinin başlanğıcını əks etdirən abidələr başlıca olaraq Şərur rayonu ərazisində yerləşir. Digər abidələrdə olduğu kimi Şortəpə yaşayış yerində də Kür-Araz mədəniyyətinin erkən mərhələsinə aid keramika məmulatı aşkar olunmuşdur. Bu yaşayış yerinin və Şərurdakı digər abidələrin tədqiqi Kür-Araz mədəniyyətinin mənşəyinin araşdırılması üçün olduqca əhəmiyyətlidir.

ƏDƏBİYYAT

1. Абибуллаев О.А. Енеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм. 1982, 314 с.
2. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256 с.
3. Алекперов А.К. Исследования по археологии и этнографии Азербайджана. Баку: Изд-во АН Азерб. ССР, 1960, 249 с.
4. Aşurov S.H. Naxçıvanda arxeoloji tədqiqatlar. Bakı, 2003, 120 s.
5. Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası. Bakı, 2002, 158 s.
6. Baxşəliyev V.B., Seyidov A.Q. Aşağı Daşarx. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2012, 185 s.
7. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 304 s.
8. Baxşəliyev V.B. Naxçıvanın Eneolit mədəniyyətində Ubeyd mədəniyyətinin izləri // Axtarışlar, 2011a, № 2, s. 138-141.
9. Ibrahimli Bəhlul. Gilançay vadisinin arxeoloji abidələri (e.ə. I minillik – b.e. XIV əsri) // Azərbaycan Arxeologiyası, 2010, № 2, s. 51-68.
10. Ibrahimli Bəhlul. Gilançay vadisinin arxeoloji abidələri (e.ə. III-I minilliklər) // Azərbaycan Arxeologiyası, 2010, № 1, s. 93-105.
11. Seyidov A.Q. Naxçıvan VII-II minillikdə. Bakı, Elm, 2003, 334 s.
12. Seyidov A.Q., Baxşəliyev V.B. Ərəbyengicə. Bakı: Nurlan, 2009, 160 s.
13. Seyidov A.Q., Baxşəliyev V.B., Mahmudov V.Ə. Xələc. Bakı: Elm, 2010, 220 s.
14. Seyidov A.Q., Baxşəliyev V.B. Sədərək. Bakı: Elm, 2011, 184 s.
15. Seyidov A.,Baxşəliyev V., Məmmədov S.,Aşurov S. Qədim Şərur, Bakı, 2012.
16. Cəfərov H.F. Azərbaycan e. ə. IV minilliyin axırı -I minilliyin əvvəllərində. Bakı, Elm, 2000, 187 s.
17. Marro C., Bakhshaliyev V., Ashurov S. Excavation at Ovçulartepesi (Nakhchivan, Azerbaijan). Second Preliminary Report: The 2009-2010 Seasons // Anatolia Antiqua, XIX, 2011, s. 53-100.
18. Нариманов И.Г. Культура древнейшего земледелъцеского- скотоведческого населения Азербайджана. Баку, Элм, 1987, 260 с.
19. Quliyeva Z.K.Şortəpə qədim yaşayış yeri // Azərbaycan arxeologiyası və etnoqrafiyası, 2009, № 2, s. 39-42.

А.Г.Сеидов, В.Б.Бахшалиев

РЕЗУЛЬТАТЫ РАСКОПОК НА ПОСЕЛЕНИИ ШОРТЕПЕ

РЕЗЮМЕ

Поселение Шортепе расположено на юго-востоке села Ибадулла и впервые исследовано в 1934 году А.К.Алекперовым. Поселение в виде холма на 1,5-2 м выше окружающей местности. Площадь поселения 1500 м^2.

Археологическими раскопками 2012 г выяснено, что культурный слой поселения продолжается до глубины до 3,8 м.

В центральной части поселения заложен раскопочный участок площадью 4х4 м (16 м^2). На глубине 1,2 м выявлены остатки стены, с востока на запад прямоугольного строения, куро-араксской культуры. Основная часть стены высотой 20 см, длина сохранившейся части - 2,3 м осталась за пределами раскопа..

Грунтовые воды препятствовали продолжению раскопок глубже 3,8 м. На глубине 3 м выявлены остатки стены овального строения, многочисленные каменные орудия и керамические изделия. Археологический материал, в основном, датируется куро-араксским периодом. Среди случайных находков встречается энеолитическая керамика.

Исследования показывают, что в поселении Шортепе жизнь продолжалась длительное время. На основание исследований поселение можно отнести к V-I тысячелетиям до н.э. Средневековое кладбище можно датировать XV-XVI вв.

A.G.Seyidov, V.B.Bakhshaliyev

RESULTS OF EXCAVATIONS ON SHORTEPE SETTLEMENT

SUMMARY

The monument is situated in south-east of Ibadulla village and dated to Bronze and Iron Ages. Firstly the living place has been registered by A.K.Alakbarov in 1934.

The monument has been investigated in 2012 by us. The cultural layer in 3.8 m has been found at the result of these archeological excavations.

4x4 m (16 m^2) excavation works have been implemented; this excavation works has been executed to a depth of 1.2 m. Early, Late Bronze and Early Iron Ages' materials have been gathered from here.

The wall of Kur-Araz culture which stretches in east-west direction and belongs to a right-angled construction has been found when the excavations reached the 1.2 m depth. Fundament of wall is in 20 cm depth. It's length in excavation area is 2.3 m. Late Bronze and Early Iron Age cultural layer overlaid the Early Bronze Age Kur-Araz culture layer.

The excavations were held to the depth of 3.8m till base land. A lot of earthenware crockery and stone tools have been found. The archeological materials belong to the middle and final stages of Kur-Araz culture.

There are The Chalcolithic potteries among the casual finds.

According to the investigation we can say that life has continued for a long time in Shortapa settlement. The living area has lost importance in Early Iron Age and has been used as cemetery. Perhaps, the living area belongs to the V-I millennia B.C. and the medieval cemetery to the XV-XVII centuries.

NAFTALAN-GORANBOY ARXEOLOJİ EKSPEDİSİYASININ APARDIĞI ARXEOLOJİ TƏDQİQATLAR HAQQINDA
(Goranboy rayonu)

M.M.Hüseynov



Göl yeri yaşayış yeri. Ümumi görünüş.

Naftalan-Goranboy arxeoloji ekspedisiyası 2012-ci ildə Goranboy rayonunun Tatarlı kəndi ərazisində yerləşən Göl yeri qədim yaşayış yerində və Muncuqlutəpə nekropolunda arxeoloji qazıntı işləri aparmışdır.

Göl yeri eneolit və ilk tunc dövrü yaşayış yeri Tatarlı kəndindən 1 km cənub-şərqdə yerləşir. Yaşayış yerinin ərazisi 2,5 ha-ya yaxındır (GPS-koordinatlrı: dəniz səviyyəsindən hündürlüyü – 338 m., şimal – $40^0$30`16.18``; şərq. – $46^0$46`76.98``.

2012-ci ildə yaşayış yerinin cənub-şərq hissəsində, 200 kv metrlik sahədə arxeoloji qazıntı davam etdirilmiş və nəticədə yaşayış yerində qazıntı işlərinin ümumi sahəsi 750 kv metrə çatdırılmışdır.

Yaşayış yerindən eneolit dövrünün yarımqazma evlərinin qalıqları, çoxsaylı təsərrüfat quyuları və ocaq yerlərinə rast gəlinmişdir.

Təsərrüfat quyuları: Yaşayış yerində ümumən 50-dən artıq təsərrüfat quyusu aşkar olunmuşdur. Bütün təsərrüfat quyularının içərisi kül qarışıq torpaq layından ibarətdir. Təsərrüfat quyuları əsasən dairəvi, qismən isə oval formada qazılmışdır. Quyuların dərinliyi 0,5-1,2 metr, diametrləri 1,5–2,2 metr arasındadır. Bəzi təsərrüfat quyuları iki və ya üç hissədən ibarətdir. Belə quyuların bir tərəfi digər tərəfinə nisbətən dərindir. İçərisi iki pilləli hazırlanmış təsərrüfat quyuları ilə yanaşı üç pilləli təsərrüfat quyularına da təsadüf edilmişdir. Təsərrüfat quyularının daxili təmizlənərkən oradan keramika nümunələri, daş alətlər, osteoloji qalıqlar aşkar edilmişdir. Bəzi təsərrüfat quyularında bütöv saxsı qablara da rast gəlinmişdir. Belə təsərrüfat quyularından birində 4 ədəd küpə, 2 ədəd qapaq, 1 ədəd kasa və digər saxsı məmulatı aşkar edilmişdir.


Ocaq yerləri: *Y*aşayış yerində aşkar edilmiş ocaq yerləri dairəvi və oval formalarda hazırlanmışlar. Onların ölçüləri 90 sm.-dən-1,5 metr arasındadır. Ocaq yerlərindəki 15-30 sm qalınlığı olan kül qatının içərisində saxsı, daş və sümük məmulatı aşkar edilmişdir.

Arxeoloji qazıntı işləri nəticəsində eneolit və erkən tunc dövrünə aid maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Bunlara, müxtəlif forma və rənglərdə hazırlanmış saxsı qablar, əkinçilikdə istifadə olunan daş əmək alətləri, o cümlədən obsidian və çaxmaqdaşından hazırlanmış oraq dişləri və kəsici alətləri aid etmək olar.





Göl yeri yaşayış yeri. Qazıntı sahəsi.



Goranboy, GÖL YERİ, 2012
Qazıntının Planı


Saxsı məmulatı: 2012-ci ildə yaşayış yerinin eneolit və ilk tunc dövrü təbəqəsindən əldə olunan arxeoloji materiallar içərisində saxsı məmulatı çoxluq təşkil edir. Yaşayış yerinin eneolit və ilk tunc dövrü saxsı məmulatını forma və təyinatına görə aşağıdakı qruplara ayırmaq olar. Təsərrüfat küpləri, küpələr, kasalar, xeyrələr, tavalar, süzgəclər, qapaqlar, lüləkli qablar və digərləri.

Təsərrüfat küpləri: Eneolit dövrünə aid təsərrüfat küplərindən biri qonur rəngli, bitki qarışıqlıdır. Geniş oturacaqlı küpün gövdə hissəsində ikitərəfli buynuzvari çıxıntı vardır. Küp boğaz hissədən bir qədər daralaraq ağız kənarı xaricə əyintilidir.


Eneolit dövrünə aid digər təsərrüfat küpü bitki qarışıq gillə yoğrularaq hazırlanmış, düz oturacaqlıdır. Qısa boğazı ağıza tərəf daralaraq kənarı xaricə əyintilidir.

Təsərrüfat küpləri yaşayış yerinin ilk tunc dövrü təbəqəsində də, aşkar edilmişdir.

Lüləli saxsı qablar: Eneolit dövrü saxsı qabları içərisində digər diqqət çəkən arxeoloji material lüləli saxsı qablardır. Lülə saxsı qabın ağız kənarına yaxın hissəsində yerləşir. Ağız diametri-17 sm, boğaz hündürlüyü-3 sm, divarının qalınlığı-1 sm-dir. Lülənin dametri-3,5 sm, uz-3 sm, divarın qalınlığı-1 sm-dir.



Küpələr: Yaşayış yerinin eneolit və ilk tunc dövrünə aid saxsı qabları içərisində küpələr üstünlük təşkil edir. Küpələrin xarakterik xüsusiyyətlərindən biri qulpların olmasıdır. Eneolit dğvrünə aid qulplar kobud, en kəsikdə dairəvidir. Belə küpələrdən birinin qulpu ağız kənarı ilə çiyini birləşdirir. Ağız diametri-17 sm, boğaz hündürlüyü-3 sm, divarının qalınlığı-1 sm-dir. Bitki qarışıq gillə yoğrularaq hazırlanmış bu tip saxsı qablar Azərbaycanın eneolit dövrü abidələrində az sayda aşkar edilmişdir.



Göl yeri yaşayış yeri. Eneolit dövrünə aid saxsı məmulatı.

İlk tunc dövrünə aid küpələri forma etibarilə 3 qrupa bölmək olar. 1. Dar boğazlı küpələr. 2. Geniş ağızlı, şar gövdəli küpələr. 3. Bikonik gövdəli küpələr.

Küpələr narın qum qarışıq gillə yoğrularaq əsasən keyfiyyətli hazırlanmışlar. Bütöv küpələrə də təsadüf edilir. Bəzi küpələr üç qulplu hazırlanmışdır. Yarımşar formalı qulplara malik orta həcmli belə küpələrin qulpu gövdənin yuxarı hissəsindədir. Boz və qonur rəngli küpələr uzun boğazlı olub, ağzının kənarı xaricə meyllidir. Küpələrin əksəriyyəti bikonik gövdəli olub, çiyindən boğaza keçən hissə dərin cızma batıqla əhatələnmişdir. Küpələrin əksəriyyətində qulplar boğaz hissədə yerləşir. Bəzi küpələrdə isə qulplar ağız kənarı ilə çiyini birləşdirir.

İlk tunc dövrü təbəqəsindən aşkar edilmiş saxsı qablar əsasən təsərrüfat quyularında aşkar edilmişdir. Təsərrüfat quyularından aşkar edilmiş bir neçə küp demək olar ki, bütöv şəkildə saxlanmışdır. Belə küpələrdən bəziləri açıq qonur rəngli, narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmış, orta həcmlidir. Düz oturacaqlı küpənin ağız kənarı xaricə meylli olub, kənara köbəlidir.

Kasalar: Yaşayış yerinin hər iki təbəqəsindən kasa tipli saxsı qablar aşkar edilmişdir. Əldə edilmiş kasalar əsasən ilk tunc dövrünə aiddir. Kasalar qulpsuz, geniş ağızlı, dar oturacaqlı olub, narın qum və çınqıl qarışıq gillə yoğrularaq, keyfiyyətli hazırlanmışdır.

Xeyrələr**:** Xeyrə tipli saxsı qablara yaşayış yerinin əsasən ilk tunc dövrü təbəqəsində rast gəlinmişdir. Onlar qonur rəngdə olub, bəziləri daxildən və xaricdən anqoblanaraq zəif cilalanmışdır. Xeyrələrin ağız hissələri daxilə və xaricə köbəli hazırlanmışdır. Onlar səliqə ilə simmetrik formada hazırlanmışdır. Üst səthi hamar, oturacaqları isə düzdür.

Tavalar: Yaşayış yerinin əsasən ilk tunc dövrü təbəqəsindən aşkar edilmişdir. Qara, boz və qonur rənglərdə olub, gilinin tərkibində qum və parçalanmış daş qatışıqlarına rast gəlinmişdir. Üzərlərində qalın his təbəqəsi vardır. Bəzi tavalar geniş ağızlı, yastı oturacaqlıdırlar. Oturacaqlarının diametrləri müxtəlifdir.

Tavalardan biri nisbətən yaxşı saxlanmışdır. Diametri 31 sm, hündürlüyü-3 sm olan tavanın bir tərəfində kiçik qulaqcıq formalı çıxıntı vardır.


Qapaqlar: Yaşayış yerində qapaqlar ən çox aşkar edilən saxsı məmulatındandır. ilk tunc dövrünə aid təbəqədən müxtəlif ölçülü qapaqlar aşkar edilmişdir. Onlar boz və qonur rəngli olub, narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmışlar. 1,4-2,6 sm qalınlığında olan qapaqların bəziləri güclü yanmaya məruz qalmışdır. Diametrləri 15-28 sm-dir. Qapaqların alt hissəsi düz, üst hissəsi isə oval formadadır. Qapaqların əksəriyyətinin üst mərkəzi hissəsində əl tutmaq üçün yarımşar formalı qulpları vardır.



Göl yeri yaşayış yeri. İlk tunc dövrünə aid saxsı məmulatı.

Süzgəclər: Qazıntı zamanı müxtəlif hissələrində deşiklər açılmış qab fraqmentlərinə təsadüf edilmişdir. Həmin fraqmentlər narın qum qarışıq gildən hazırlanmış qablara məxsusdur. Deşiklər, əsasən qablar bişirilməzdən əvvəl, iti uclu əşya ilə çöldən basmaqla açılmışdır. Çoxsaylı deşiklər qabların daha çox gövdə hissəsində nizamsız şəkildə açılmışdır. Ehtimal ki, bu fraqmentlər süzgəc tipli qablara məxsusdur. Fraqmentlərin bəzilərində deşiklərin açılması prosesi sona çatdırılmamışdır.

Süzgəclərdən bəziləri uzun boğazlı olub, narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmışlar. Boğaz hissəsi düz qalxaraq ağıza tərəf ketdikcə bir qədər daralır. Çiyindən başlayaraq oturacağına tərəf deşiklər açılmışdır. Bəzi qabların müxtəlif hissələrində xüsusən gövdə və çiyin hissəsində bir və ya iki ədəd oyuq vardır.



Göl yeri yaşayış yeri. İlk tunc dövrünə aid saxsı məmulatı.

Manqallar: Yaşayış yerinin ilk tunc dövrünə aid təbəqəsindən aşkar edilmiş tapıntılardan biri də manqallardır. Son eneolit dövründə meydana gələn bu əşyalar ilk tunc dövründə daha geniş yayılmışdır. Aşkar edilmiş manqal yerdə çala qazılaraq hazırlanmışdır. Manqalın xaricdən diametri-49 sm, daxildən 29 sm, iç dərinliyi-12 sm-dir.

Qulplar. Yaşayış yerində ən çox rast gəlinən və ən maraqlı tapıntılar eneolit və ilk tunc dövrünə aid çoxsaylı qulplardır. Eneolit dövrünə aid qulplar en kəsikdə dairəvi olub, bitki qarışıq gildən kobud hazırlanmışlar. İlk tunc dövrünə aid qulplar əsasən yarımşar formada hazırlanmışlar. Boz, qara və qonur rəngdə olan qulplar müxtəlif böyüklükdədirlər.

Qulplar qabların formasından asılı olaraq hazırlanmış və qabın müxtəlif yerlərinə bərkidilmişdir. Bəzi qulplar gövdədə, bəziləri çiyində yerləşmişlər. Bir qisim qulplar isə qabların ağız kənarı ilə çiyinlərini birləşdirir.



Göl yeri yaşayış yeri. İlk tunc dövrünə aid qulplar.

Qabların naxışlanması: Yaşayış yerinin son eneolit və erkən tunc dövrü təbəqəsində aşkar edilmiş qabların bəziləri müxtəlif üsullarla naxışlanmışdır.

Qablar əsasən daraqvari alətlə, cızma üsulu ilə və boyalar vasitəsilə naxışlanmışdır. Bəzi qabların üzərində yapma üsulu ilə vurulmuş bəzəklərə rast gəlinir.

Yaşayış yerində darqvari alətlə, basma üsulu ilə naxışlara əsasən saxsı qabların boğazında və ağız səthində rast gəlinir. Bu naxışlar səliqəsiz yerinə yetirilmişdir.


Yaşayış yerindən cızma üsulu ilə naxışlanmış saxsı qablar da aşkar olunmuşdur. Cızma naxışlara müxtəlif həndəsi formalarda adətən qabın boğaz hissəsində və ya gövdənin yuxarısında rast gəlinir. Daha çox rast gəlinən düzbucaq və üçbucaq formasında naxışlardır.

Eneolit dövrünə aid saxsı qablar üzərində ən çox rast gəlinən bəzək yapmalardır. Yapma naxış növlərinə daha çox iri həcmli qabların üzərində rast gəlinir. Yapmalar həndəsi baxımdan müxtəlifdirlər. Onlar şiş və ovalvari formada olub, qablar hazırlandıqdan sonra onların üzərlərinə yapışdırılmışdır. Bir çox hallarda yapmalar qabların üzərlərinə yapışdırılmazdan əvvəl möhkəmlik üçün qabın səthinə çərtmələr çəkilmişdir. Yapışdırıldıqdan sonra isə onun ətrafı sığallanmışdır. Bu tip şiş yapmalara adətən qabların çiyin və boğaz hissələrində rast gəlinir. Iri şiş yapmalardan ehtimal ki, tutacaq kimi istifadə edilmişdir. İri şiş yapmalar qabların üzərlərində iki və ya üç ədəd olurlar.

Yaşayış yerindən aşkar edilmiş saxsı qabalar içərisində boyalı qablara da rast gəlinir. Əsasən qara boyadan istifadə edilmişdir. Saxsı qab fraqmentlərinin bəzilərinin xarici səthində qara rənglə çəkilmiş müəyyən bir forma verməyən düz xətlər vardır.

Saxsı qab hissələrindən bəzilərinin üzərində qara bitiumla naxışlara rast gəlinmişdir.

Eneolit dövrünə aid boyalı saxsı qab hissələrindən biri təmiz tərkibli gildən hazırlanmış, üzərinə müxtəlif üsullarla boya çəkilmiş Ubeyd tipli keramikadır. Küpə tipli saxsı qabın çiyin hissəsi həndəsi motivdə naxışlanmışdır. Oxşar boyalı qab nümunəsi Naxçıvanda Ovçulartəpəsi son eneolit və erkən tunc dövrü yaşayış yerində də aşkar edilmişdir. Boyalı qab nümunələrinə Leylatəpə abidəsindən də rast gəlinir. Oxşar saxsı məmulatını tədqiqatçılar Arslantəpənin VII təbəqəsindən əldə olunan materiallarla müqisə edir və e.ə. IV minilliyin ortalarına aid edirlər.



Göl yeri yaşayış yeri. Eneolit dövrünə aid saxsı məmulatı.

Bəzi saxsı qablar olduqca maraqlı formada hazırlanmışdır. Belə ki, qabların bəzilərinin ağız hissəsinə yaxın içəridən çıxıntılar vardır. Bunların nə məqsədlə edildiyini dəqiq söyləmək mümkün olmasa da həmin çıxıntıların tutacaq olduqlarını ehtimal edə bilərik.

Zoomorf fiqur: Narın qum və çınqıl qarışıq gildən hazırlanmış fiqur boyun hissədən sınmışdır. Qalmış hissəsinin uzunluğu 5,9 sm, hündürlüyü 3,2 sm, eni 2,1 sm-dir.



Göl yeri yaşayış yeri. Zoomorf fiqur və diskşəkilli əşyalar.

Diskşəkilli əşyalar: Narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmışlar. Ortalarında yonma üsulu ilə ikitərəfli deşik açılmışdır. Diametrləri 5-8,2 sm, qalınlıqları 0,7-1,2 sm-dir.

Daş məmulatı: Göl yeri qədim yaşayış yerində daşdan hazırlanmış əmək alətləri də aşkar edilmişdir. Əkinçilik təsərrüfatı ilə əlaqədar olan daş alətlər-dən daşları, sürtgəclər, həvəng və dəstələr və müxtəlif təyinatlı kəsici alətlərdən ibarətdir.

Yaşayış yerinin eneolit təbəqəsindən münasib çay daşlarından ibarət dairəvi formada daş düzümü üzərində bir ədəd döyüm aləti aşkar edilmişdir. Fikirimizcə, bura istehsal yeri olmuşdur.

Əldə edilmiş dən daşlarının bəzisi qayıqvari formadadır. Onların alt hissəsi bir qədər qabarıq, işlək hissəsi hamar və bir qədər çökək, ucları isə yuxarı qaldırılmışdır. Dən daşlarının bəziləri boz rəngli tuf daşından hazırlanmışdır. İşlənmə nəticəsində üzərlərində çökəklik əmələ gəlmişdir. Dən daşları taxılın üyüdülməsi, yarma alınması və ola bilsin ki, duz əzmək üçün də geniş istifadə edilmişdir.

2012-ci ildə aparılan arxeoloji qazıntılar zamanı əldə edilmiş daş məmulatının əksəriyyəti eneolit dövrünə aiddir. Dən daşları ensiz, uzunsov, bəzi hallarda isə iri ölçülü qayıqvari formada olub, boz və qonur rəngli çay daşları və məsaməli tuf daşlarından hazırlanmışdır. Qayıqvari, iri ölçülü dən daşları çox güman ki, müəyyən nöqtədə tərpənməz vəziyyətdə qalırdı və onlardan uzun müddət istifadə edirdilər.

Eneolit dövrünə aid digər böyük həcmli alt dən daşı sürtgəclə bir yerdə aşkar edilmişdir.

Yaşayış yerindən bazaltdan və tufdan hazırlanmış uzunsov formalı dən daşları da əldə edilmişdir. Belə dən daşları hər tərəfdən yaxşı dişəklənmişdir, işlək üzü azca çökəkdir.

Xeyli miqdarda üst dən daşları-sürtgəclər də əldə edilmişdir. İlk tunc dövrünə aid sürtgəclər formalarına görə fərqlənirlər-uzunsov, oval, qayıqvari, kvadrat və girdə formalı sürtgəclər. Onlar həm ölçülərinə, həm də formalarına görə müxtəlifdir. Bəziləri hamar və qabarıq şəkildə olub, orta hissəsi daha çox ovulmuşdur. Böyük nümunələrdən əlavə oval, dəyirmi, düzbucaqlı formada kiçik üst dən daşları da mövcuddur və hər iki tərəfi işləkdir**.**

Həvənglər Yaşayış yerinin eneolit və erkən tunc dövrünə aid təbəqəsindən boz rəngli bazalt cinsli daşdan və çay daşından hazırlanmış həvənglər aşkar edilmişdir.

Eneolit dövrünə aid təbəqədən aşkar edilmiş həvənglərdən biri döyüm aləti (həvəngdəstə) ilə bir yerdə aşkar edilmişdir. Boz rəngli, çay daşından hazırlanmış kvadrat vormalı həvəng düz oturacaqlı olub, üst mərkəzi hissəsi yonularaq çökəldilmişdir. Qalınlığı-10 sm, uzunluğu-19 sm, eni-15 sm, üstündəki oyuğun uzunluğu-14 sm, eni-11,5 sm, dərinliyi-4 sm-dir.

Döyüm alətləri: Dəstə tipli daş alətlərin bir qismi dördkünc və uzunsov formadadırlar. Bu alətlər boz rəngli bərk cinsli daşdan hazırlanmışlar. Əl tutan dəstək hissələri bir qədər nazikdir. Hər tərəfdən dişəklənərək hamarlanmşlar. Bir qisminin hər iki ucunda işlənmə nəticəsində yastı səth əmələ gəlmişdir. Dəstələrdən bəzilərinin bir üzü yastı olub, sürtülmə izi var. Belə dəstələrin sürtkəc kimi də istifadə edilməsi ehtimal olunur. Yaşayış yerindən aşkar edilmiş döyüm alətlərinin bəziləri səliqəsiz hazırlanmışdır. Belə ki, yaşayış yeri sakinləri çox zaman döyüm üçün münasib çay daşları seçərək ondan birbaşa istifadə etmişlər. Həmin daşın əldə rahat tutulması üçün əlavə yonma-hamarlama işi aparılmamışdır. Döyüm alətlərinin əksər hallarda hər iki ucundan istifadə edilmişdir.

Çay daşından hazırlanaraq hər iki ucundan istifadə nəticəsində qopuqlar əmələ gələn həvəng dəstəsi həvənglə bir yerdə aşkar edilmişdir. Üç yanı düz, bir yanı orta hissəsdə qabarıq olan dəstə


istifadə üçün münasibdir. Uzunluğu-22 sm, uclarda diametri-3 sm, orta hissədə diametri-6 sm-dir.

Daban daşı: Yaşayış yerindən qara rəngli tuf daşından hazırlanmış daban daşı aşkar edilmişdir. Uzunsov kvadrat formalı əşyanın istifadə izləri aydın hiss olunur.

Oraq dişləri və kəsici alətlər: yaşayış yerindən aşkar olunmuş daş məmulatına obsidian və çaxmaqdaşından hazırlanmış oraq dişlərini və kəsici alətləri də aid etmək olar.

Çaxmaqdaşı nukleus şəklində əldə edilmişdir. İri həcmli nukleusun hər tərəfindən qəlpələr qopardılmışdır.

Oraq dişləri qəhvəyi, boz və qara rəngli çaxmaqdaşı lövhələrindən hazırlanmış dördkünc və uzunsov formadadır. Bir ağzı iki tərəfdən yaxşı dişəklənmişdir. Oraq dişlərindən bəzilərinin dişəksiz tilində qara rəngli bərkidici maddənin (bitum) izi qalmışdır. Oraq dişlərinin uzunluğu 4-8 sm-dir.



Göl yeri yaşayış yeri. Daş əmək alətləri.

Yaşayış yerində çaxmaqdaşından hazırlanmış çoxsaylı kəsicilər və üzərindən kəsici əşyaların qoparıldığı bilinən nukleuslar aşkar edilmişdir. Əldə edilmiş tapıntılara əsasən buranın kəsici alətlərin hazırlanma yeri olduğunu ehtimal etmək olar.

Oxşar əşyalar Azərbaycanın digər həmdövr abidələrində aparılan arxeoloji qazıntılar zamanı da aşkar edilmişdir.

Osteoloji qalıqlar: Yaşayış yerinin təbəqələrindən, xüsusən ilk tunc dövrü təbəqəsindən osteoloji qalıqlar aşkar edilmişdir. Sümük qalıqlarına əsasən təsərrüfat quyusunda rast gəlinmişdir. Yaşayış yerindən əldə edilmiş sümüklər iri və xırdabuynuzlu heyvanlara, eləcə də quşlara aiddir.

Aşkar edilmiş maddi mədəniyyət nümunələrinə əsasən yaşayış yerini e.ə. V-III minilliklərə aid edə bilərik. 2012 ci ildə aparılan arxeoloji qazıntılar yaşayış yerində yeni arxeoloji faktlar üzə çıxardı. Abidədən eneolit dövrünə aid Ubeyd tipli təmiz tərkibli gildən hazırlanmış boyalı qab və digər ubeyd tipli saxsı məmulatı aşkar edilmişdir. Bu isə yaşayış yeri sakinlərinin Qədim Şərq mədəniyyəti ilə əlaqələrinin varlığını sübut edir. Bundan başqa eneolit dövrünə aid qulpları olan saxsı qab və lüləkli saxsı qablar aşkar edilmişdir.

Muncuqlutəpə nekropolu

Muncuqlutəpə nekropolu Goranboy rayonunun Tatarlı kəndi yaxınlığında yerləşir. Nekropolda 2007-ci ildə 2, 2009-cu ildə 4, 2012-ci ildə isə bir qəbir-7 saylı qəbir qazılıb tədqiq edilmişdir.

7 saylı qəbrin kamerası düzbucaqlı formadadır. Kamera təmizlənərkən parçalanmış vəziyyətdə olan skeletin ətrafından xırdabuynuzlu heyvan sümükləri və aşağıdakı saxsı qablar aşkar edilmişdir.



Muncuqlutəpə nekropolu. Saxsı məmulatı və muncuqlar.

Nehrə: Qara rəngli, uzunsov formalı narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmışdır. Sadə formada hazırlanmış nehrənin ağız hissəsi dar olub, xaricə əyintilidir. Gövdənin yuxarı enli hissəsi 4 ədəd batıq xətlə əhatələnmişdir. Batıqlar olan hissədə 1 ədəd eninə qulp və qulpun sol tərəf yaxınlığında bayıra 1, 5 sm çıxıntısı olan boru formalı lüləyi vardır. Qulp en kəsikdə dairəvi formalıdır. Çiyinin boğaza keçən hissəsi cızma üsulu ilə açılmış 3 xətlə əhatələnmişdir. Xətlərin aşağı hissəsində 1 cərgə çərtmələr vardır. Hündürlüyü-40 sm, ağız diametri-10,5 sm, gövdə diametri-29 sm, oturacağın diametri-16,5 sm, boğaz hündürlüyü-2 sm-dir.

Cam tipli, qonur rəngli saxsı qab. Narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmışdır. Saxsı qab şar gövdəli olub, ağız kənarı daxilə əyintilidir. Çiyin hissə 5 ədəd cızma xətlə əhatələnmişdir. Xətlərin arasına çərtmə naxışlar salınmışdır. Geniş ağızlıdır. Hündürlüyü-8 sm, ağız diametri-10,2 sm, gövdə diametri-13 sm, oturacaq diametri-6,4 sm-dir.

Piyalələr**.** Qəbirdən 5 ədəd çox səliqə ilə hazırlanmış piyalə aşkar edilmişdir. Narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmış piyalələr kiçik həcmli, geniş ağızlı, qara rənglidir. Dabanlı oturacaqlı qabların en kəsikdə dairəvi formalı qulpu ağız kənarı ilə çiyini birləşdirir. Çiyinlərindən boğaza keçən hissəsi cızma xətlərlə əhatələnmişdir. Bəzi piyalələrdə xətlərin arası dalgavari üsulla naxışlanmışdır. Gövdə hissəsi qulaqcıq və kvardat formalı çıxıntılarla əhatələnmişdir. Qulpun ağız kənarına birləşən hissəsinin üstündə çıxıntı vardır. Qabların üst səthi və ağız kənarının içəri hissəsi qara rənglə rənglənmişdir. Hündürlüyü-8-9 sm, ağız diametri-7,2-9 sm, gövdə diametri 5-13 sm, dabanın hündürlüyü-0,5-1,5 sm, oturacaq diametri-2-5 sm, boğaz diametri-6-7 sm, boğaz hündürlüyü-2-3,5 sm-dir.

Qazan: Qara rəngli, orta həcmlidir. Oval formalı oturacağa malik qazanın boğaz hissəsi daxilə əyintili olub, ağız kənarı yarımdairəvi formada xaricə meyllidir. Sadə üsulla hazırlanmış qazanın çiyindən boğaza keçən hissəsi çəpinə çərtmələrlə əhatələnmişdir. Çınqıl qarışıq gillə yoğrularaq hazırlanmış qabın üzəri hislə örtülmüşdür. Hündürlüyü-10-sm, ağız diametri-16 sm, gövdə diametri-18 sm, boğaz hündürlüyü-2 sm, divarının qalınlığı-0,5 sm-dir.

М.М.Гусейнов

ОБ ИССЛЕДОВАНИЯХ НАФТАЛАН-ГЕРАНБОЙ АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

В 2012 году проведены раскопки на территории Геранбойского района на древнем поселении Гёль йери и могиле №7 в некрополе Мунджуглутепе близ села Татарлы.

Поселение «Гёль йери» находится в 1 км юго-восточнее от села Татарлы. Поселение охватывает площадь более 2-х га и со всех сторон окружено посевными площадями. Памятник имеет овальную форму со склоном на юго-восток. Самая высокая точка на северо-западе достигает 7-8 метров.

Во время раскопок поселения Гель йери выявлены хозяйственные ямы, очажные места, остатки полуземлянок энеолитического периода и изделия из керамики, камня и кости энеолитического и позднебронзового периодов.

Выявленный материал энеолитического периода представлен в основном керамикой с растительной примесью различной формы и окраски. Часть керамики того периода имеет круглые ручки на боку сосуда. Поверхности некоторых сосудов окрашены. Из энеолитического слоя выявлены орудия земледелия: каменные зернотерки, вкладыши серпов и резаки из обсидиана и кремня.

Выявленные керамические сосуды Лейлатепинского типа позволяют проследить процесс перехода от энеолита к ранней бронзе.

Первичные исследования позволяют отнести поселение «Гёль йери» к периоду энеолита и ранней бронзы.

M.M.Huseynov

ABOUT THE INVESTIGATIONS OF NAFTALAN-GERONBOY ARCHAEOLOGICAL EXPEDITIONS

SUMMARY

Naftalan-Geronboy archarological expedition has carried out archaeological excavations in Geronboy in 2012. During the expedition archaeological excavations were carried out in settlement Gel Yeri situated in the village Tatarly of the Geranboy region and in the grave №7 of the Muncuglutepe necropolis.

Firstly, the excavations were started in Gel Yeri, a settlement of the Eneolithic and Early Bronze epoch. As a result of the excavations of 2012 in the settlement there were unearthed a numbers of farm wells, fire places, earth-houses of Eneolithic epoch, ceramic, stone and bone wares dated back to the Eneolithic and The Early Bronze epoch.

During this year's investigations there have been found archaeological materials dated back to the Eneolithic epoch. The earthenware of the Eneolithic epoch was made from mixed plants has various forms and colors. Some of the earthenware of this epoch consists of potteries of circular shape handles in breadth cuts. Some of the potteries were painted on the various methods. In the layer dated back to the Eneolithic epoch of the settlement have been found a number of stone labour tools - the lower and upper millstones, pestles, sickle teeth and cutting tools made from flint and obsiedian.

The most striking aspect of settlement is following the process of transition from Eneolithic to the Early Bronze epoch and finding potteries of Leilatepe types.

It is to conclude from the initial studies that settlement Gel Yeri dates back to the Eneolithic and Early Bronze epoch.

«MAXTA ARXEOLOJİ EKSPEDİSİYASI»NIN TƏDQİQATLARI
(Naxçıvan MR, Şərur rayonu)

S.H.Aşurov, V.B.Baxşəliyev,
S.A.Hüseynova, F.A.Əliyeva



I Maxta. Yaşayış yerinin ümumi görünüşü (fotogeometrik plan).

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Maxta arxeoloji ekspedisiyası" 2012 Şərur rayonu ərazisindəki I Maxta erkən tunc dövrü qədim yaşayış yerində arxeoloji qazıntıları davam etdirmişdir.

Arxeoloji qazıntılar hər üç kvadratda, yəni əvvəlki illərdə başlanmış 300 m^2 sahədə aparılmışdır. 1-4 cü kvadratlarda əvvəlki illərdə təmizlənmiş ibadətgahın daxili təmizləndi. Dairəvi formada olan tikilinin döşəməsi təmizləndikdən sonra məlum oldu ki, ibadətgah özündən əvvəlki digər bir dairəvi tikilinin üzərində yerləşir. Yeni aşkar edilmiş tikilinin divarının kiçik bir qövsvari hissəsi qalmışdır. Bir cərgə çiy kərpicdən hörülmüş divar tikinti xüsusiyyətlərinə görə yaşayış yerinin dairəvi tikililərindən seçilmir. Maraqlıdır ki, yaşayış yerində indiyədək tədqiq olunmuş istər dairəvi və istərsə də dördkünc tikililərin hamısının divarları bir kərpic enindədirlər. Bu dairəvi tikilinin də mərkəzində Kür-Araz mədəniyyəti abidələri üçün xarakterik olan dairəvi manqal təmizləndi. Manqalla eyni səviyyədə və onun yaxınlığından bir ədəd gil şamdan, gil heyvan fiquru və az miqdarda keramika məmulatı əldə olundu.



I Maxta. Dairəvi və dördkünc tikili qalıqları.

Silindrik gövdəli şamdanın üst hissəsi piyalə formasındadır. Gövdəsində ilk tunc dövrü üçün xarakterik olan yarımşar formalı qulpu vardır. Piyalə formalı hissənin mərkəzi nisbətən batıqdır. Bu hissədə uzun müddət müxtəlif yağların yandırılması nəticəsində qalın qara rəngli his təbəqəsi əmələ gəlmişdir.

Gil fiqurun üzəri iti uclu alətlə deşiklər vurulmaqla bəzədilmişdir. Bu fakt da fikrimizcə tikilinin ibadətgah olduğunu təsdiq edir.

İbadətgahın cənub-qərbində əvvəlki illərdə təmizlənmiş düz divarın aşağı qatlara doğru davam etdiyi məlum oldu. İbadətgaha bitişik kiçik dördkünc yardımçı tikililərdən birinin daxili təmizlənərkən forma və rəng etibarilə Naxçıvanın son eneolit saxsı qablarına bənzər küp təmizləndi. Onun üzərində tam yarımşar formalı qulpu olmuş, lakin sınmışdır. Qulpun mərkəzində üfüqi deşik açılmışdır. Maraqlıdır ki, I Maxtanın aşağı qatlarına doğru qazıntılar davam etdikcə, əldə olunmuş saxsı məmulatı rəng oxşarlığına görə daha çox eneolit keramikasına bənzəyir, formaları isə keçid keramikasını xatırladır. Bu tip keramikanın bənzərlərinə Ovçulartəpəsi abidəsində də rast gəlinir. Onların tarixi radiokarbon analizləri nəticəsində e.ə.V minilliyin sonlarına aid edilir. Maxtanın bu tip keramikası e.ə.IV minilliyin ikinci yarısı ilə tarixləndirilir. Deməli, eneolit dövrünün keramika istehsalı ənənəsi Naxçıvan ərazisində uzun müddət davam etmişdir.

5-ci kvadratda ötən il aşkar edilmiş, metalın ilkin əridilməsi üçün istifadə olunmuş ocaq tam təmizlənərək götürüldükdən sonra, aşağı layda mədəni təbəqənin davam etdiyi məlum oldu. Bu təbəqədə, qazıntı sahəsinin tam mərkəzində, dördkünc çiy kərpiclərdən qurulmuş dairəvi ocaq təmizləndi. Ocağın divarı şaquli vəziyətdə düzülmüş bir cərgə kərpiclərlə qurulmuşdur. Ocağın mərkəzində də bir ədəd yastı kərpic olmuşdur. Lakin güclü yandığından aşınmışdır. Ocağın daxilində qalın kül təbəqəsi vardır. Ocağın kənarında, ona yaxın sahədə 4 ədəd dirək yeri təmizləndi və məlum oldu ki, ocaq dirəklər üzərində qurulmuş yüngül çardağın altında olmuşdur. Lakin ocağın daxilindən heç bir maddi mədəniyyət nümunəsi tapılmadı. Digər tərəfdən ocağın daxilindəki külün tərkibi göstərir ki,

burada ağac qalıqları deyil, ot və ya qamış yandırılmışdır. Bu isə təsdiq edir ki, ocaqda yüksək temperatur alınmamışdır. Ocağın divarlarındakı kərpiclərin də çox az yanmaya məruz qalması, fikrimizi təsdiq edir.

Ocaqdan şimala doğru sahədə iki ədəd dən daşı təmizləndi. İri həcmli dən daşlarının hər ikisi bütövdür. Yaşayış yerinin qazıntıları zamanı bu tip böyük və bütöv dən daşları indiyədək əldə edilməmişdi. Daşların ətrafı 1 m diametrində çaladan ibarətdir. Çox güman ki, sahə dənin üyüdülməsi üçün istifadə edilmiş iş yeridir. Bu cür iş yerləri Şərur düzündəki Ovçulartəpəsi abidəsinin son eneolit təbəqəsindən məlumdurlar. Çalanın daxili və iş yerinin ətrafı uzun zaman ayaqlandığından bərkimişdir.

5-ci qazıntı sahəsinin ortasında şimal - cənub istiqamətdə qurulmuş enli divar davam edir. Lakin ona şərq-qərb istiqamətdə birləşdirilmiş divar aşağı qatlarda davam etmir. O bir cərgə kərpicdən qurulmuş və sanki səki xarakteri daşıyır. Burada kərpiclər yastı halda bir-birinin yanına düzülmüşlər. Kərpiclərin rəngləri bir-birindən seçilir. Tünd sarımtıl kərpiclərlə yanaşı yaşıl rəngə çalan kərpiclər də vardır. Digər kərpiclərə nisbətən onlar daha tez ovulurlar. Bu səki tipli kərpic düzümünün cənubunda bir ədəd iri çaylaq daşı təmizləndi. Üzərində heç bir işlənmə izi yoxdur.

Enli divarın hansı tikiliyə aid olduğunu hələlik müəyyən etmək mümkün olmamışdır. Onun şimal və cənub tərəflərdə davamı yoxdur. Divarın qərb tərəfində təqribən 0,80 m qalınlığında kül təbəqəsi təmizlənmiş və bu kül təbəqəsinin daxilindən arxeoloji materiallar əldə edilmişdir. Enli divarın alt qatlarda davam etdiyini nəzərə alaraq, güman edirik ki, aşağı layların qazıntısı zamanı onun formasını müəyyən etmək mümkün olacaqdır. Ola bilsin ki, üst hissələrdə onun müəyyən hissələri dağılmışdır. Eyni fikri 1-4-cü kvadratlardakı düz divar haqqında da söyləmək mümkündür.

5-ci kvadratın şimal-qərb tərəfində, üst qatlarda iri daşların qısa bir düzümü izlənmiş və onun üç cərgə davam etdiyi müəyyən edilmişdir. Bu düzümdən sahənin mərkəzinə doğru isə dairəvi bir çuxur yerləşir. Çuxurun daxili yumşaq torpaqla dolmuşdur. Buradan heç bir arxeoloji qalıq tapılmadı.

6-cı kvadratda, ötən il tədqiq edilmiş dairəvi tikilinin daxilində tədqiqatlar davam etdirildi. Bu tikili də özündən əvvəlki başqa bir dairəvi tikilinin üzərində qurulmuşdur. Onun mərkəzində bir neçə çay daşından və sınmış dən daşı hissəsindən ibarət kiçik səki formalı qurğu təmizləndi. Onun şimalında bir ədəd kiçik kasa tipli qab aşkar olundu. Kasanın maraqlı xüsusiyyətlərindən biri, onun üzərində son tunc-erkən dəmir dövrü üçün xarakterik olan, üzərində şaquli deşik açılmış qulaqcıq formalı çıxıntısının olmasıdır. Kasanın üzərində ilk tunc dövrü qabları üçün xarakterik olan iki ədəd məməcik şəkilli çıxıntı və dörd ədəd dairəvi basma naxış vardır.

Dairəvi tikiliyə 5-ci kvadrata doğru hissədə, dördkünc formada bitişik inşa edilmiş tikilinin daxilində hələ ötən il bir hissəsi təmizlənmiş yastı daş, bu ilki tədqiqatlar zamanı tam olaraq təmizləndi və onların sınaraq iki hissəyə bölünmüş daş vəl qalıqları olduğu müəyyən edildi. Onların bir tərəflərinin ovalvari formada cilalanması, birinin üzərində isə çəpinə deşik açılması fikrimizi təsdiq edir. Deşiyin ətrafındakı sürtünmə izləri ondan uzun müddət istifadə olunduğunu təsdiq edir. Bu vəlin və 5-ci qazıntı sahəsində əldə edilmiş dən daşlarının bir kompleksə məxsus olmaları şübhə doğurmur.

6-cı kvadratın qərbinə doğru başqa, daha geniş diametrli dairəvi tikilinin qövsvari bir hissəsi təmizləndi. Bu tikili diametrinin genişliyinə görə I Maxtada indiyədək öyrənilmiş ən geniş tikili qalığıdır. Dairəvi tikilidən cənuba doğru isə dördkünc tikilinin qalıqları izlənildi. Bir küncü tam olaraq təmizlənmiş tikilinin əsas hissələri qazıntı sahəsindən kənarda qalır. Bu tikili də bir cərgə yastı kərpiclərdən inşa olunmuşdur. Maraqlıdır ki, I Maxtada istər dairəvi və istərsə də dördkünc tikililərin hörgüsündə istifadə olunmuş kərpiclər ölçülərinə görə bir-birindən fərqlənmirlər. Yalnız arakəsmələrdə möhrədən istifadə edilmişdir.

Geniş diametrli dairəvi tikilinin daxilindən, onun divarına yaxın hissədən çox maraqlı gil əşyalar əldə olundu. Onların bir qismi konusvari, digər bir qismi isə dairəvi sədəfəbənzər formadadır. Bu konusvari əşyalar Şimali Qafqazdan Suriya, Fələstinədək geniş bir ərazidə yayılmış Kür-Araz mədəniyyəti abidələrindən ilk dəfə əldə olunur. Dairəvi formalılardan vaxtilə kəşfiyyat tədqiqatları zamanı I Maxtadan bir neçə ədəd əldə olunsa da, onların təyinatı məlum deyildi. Qeyd etmək lazımdır ki,

dünyanın müxtəlif bölgələrində bu və ya bunlara bənzər əşyalar tapılmışdır. Lakin onların tam bənzərləri Mesapotamiyadan məlumdurlar. Tədqiqatçılar qeyd edirlər ki, bu əşyalar icmalararası mübadilə zamanı ərzaq məhsullarının, təsərrüfat və məişət əşyalarının, ev heyvanlarının kəmiyyətini ifadə etmişdir. Hesab edilir ki, silindrik «və ya barmaq» formalı fiqur «1», disk - «10», şar–«100», kiçik konus – «300», böyuk konus «1000» və ya «3000» ədədlərini bildirirdi. Ön Asiyada məhz I Maxtadan əldə olunmuş bu formalı əşyalardan e.ə. 3200-cü ilədək istifadə olunmuşdur. Bundan sonra artıq müxtəlif yazılı kitabələr meydana gəlir. Bu konusvari əşyaların piktoqrafik və mixi yazıların kökündə dayandıqlarını qeyd edən tədqiqatçılar da vardır.



Küp tipli qab.



Gil şamdan.

Yaşayış yerinin keramika məmulatı içərisində tam fərqli nümunələrə rast gəlmək mümkündür. Klassik Kür-Araz mədəniyyəti üçün xarakterik olan, tam parıldayanadək cilalanmış saxsı qablar əsasən kiçik həcmlidirlər. Onların bəziləri cilalama nəticəsində gümüşü rəng almışlar. Üzərlərində tam yarımşar formalı qulplarla yanaşı, bəzən kiçik şiş çıxıntılara və rudimentar qulplarda rast gəlinir. I Maxtanı digər həmdövr abidələrdən fərqləndirən cəhətlərdən biri, qulpların tam fərqli formalarda olmasıdır. Bu qulplar içərisində kasaların üzərində rast gəlinən şaquli şiş çıxıntılar daha maraqlıdır. Bu çıxıntıların üzərində, son tunc dövrü kasaları üzərindəki qulaqcıqlarda olduğu kimi, şaquli deşik açılmışdır. Naxışlı keramika azlıq təşkil edir və bunlar əsasən şiş çıxıntılardan, dairəvi basmalardan və konnelyur naxışlardan ibarətdir.

Bir ədəd qabın sınığının daxilində, şaquli istiqamətdə qara rəng axmasınən izi bilinir. Bu fakt bir daha sübut edir ki, Kür-Araz mədəniyyəti üçün xarakterik olan qara cilalı qabların üzəri boyadan istifadə olunmaqla qaraldılmışdır. Bir sıra saxsı qabların gilinin tərkibində parçalanmış daş və ya iri qum qatışıqlı gildən istifadə olunmuşdur ki, bu xüsusiyyət daha çox eneolit və ilk tunc dövrünün keçid mərhələsi üçün xarakterikdir.

Yaşayış yerindən qapaqların ənənəvi diskşəkilli formaları ilə yanaşı, dairəvi, ortasında şiş çıxıntısı olan primitiv formalılarına da rast gəlinir.

Bir ədəd silindrik körük ucluğu tapılmışdır. Bu tip körük ucluqları qamışın ucuna keçirilərək uzaqdan odu alışdırmaq üçün istifadə olunmuşlar.

Abidənin qazıntıları zamanı nalşəkilli ocaq qurğularının tam müxtəlif formalarına rast gəlmək mümkündür. Bu ilki tədqiqatlar zamanı əldə edilmiş nalşəkilli ocaq qurğularından birinin orta çıxıntısı üçbucaq formalıdır. Daxili hissəsində şiş çıxıntısı vardır. Bu ocaq qurğusunun üzəri zəif cilalanmışdır. Digər bir nalşəkilli qurğunun ön çıxıntısı simvolik olaraq qoç başına bənzəyir.

Qazıntı sahəsinin müxtəlif hissələrindən əldə olunmuş gil fiqurlar bir sıra xüsusiyyətlərinə görə əvvəlki illərdə əldə olunmuş fiqurlardan fərqlənirlər. Onlardan birinin müxtəlif yerlərində iti uclu alətlə dəliklər açılmışdır. Onlar sistemsizdirlər.

Başqa bir fiqurun isə buynuzlarının arasında üç cərgə olmaqla 3, 3, 2 dəlik açılmışdır. Bu dəliklərin hər hansı bir məna daşıdığı aydındır.

Fiqurlardan birinin boynun arxasından başlayaraq bütün beli və arxası boyunca basma xətt vardır. Başqa bir fiqurun isə boyun hissəsində hər iki tərəfdən dəlik açılmışdır. Lakin, bu dəliklər orta hissədə birləşməmişdir.

I Maxtadan əldə olunmuş fiqurlar içərisində bir neçəsinin təyinatı məlum deyildir. Silindrik formalı gil əşyaların yuxarı hissəsində hər iki tərəfə kiçicik çıxıntıları vardır. Bu çıxıntıların ortasında şaquli istiqamətdə dəlik açılmışdır. Bəzilərində bu dəlik silindrik formanın ortasına qədər uzanır. Bu tip əşyalar əvvəlki tədqiqatlar zamanı da əldə olunmuşdur. Lakin, onların nəyi simvolizə etdiyi və hansı məqsədlə hazırlandıqları məlum deyil.

Metal əşyalar bir ədəd bizdən ibarətdir. 9 sm uzunluğunda bizin arxa hissəsi nisbətən yastı, uc hissəsi isə şişdir.

Arxeoloji materiallar içərisində daş alətlər, xüsusən kəsici və deşici alətlər azlıq təşkil edirlər. İki ədəd oraq dişi lövhəsi və bir ədəd qanadlı ox ucluğu əldə olunmuşdur.

Hər tərəfi yaxşı cilalanmış, yastı, prizmaşəkilli daşın bir tərəfində maili ikitərəfli deşik açılmışdır. Yumşaq tuf daşından hazırlanmış bu əşyanın təyinatı məlum deyildir.

Bir ədəd ortasında oyuğu olan təbii daş da maraqlıdır. Eyni formalı daşın, Şərur düzündə yerləşən digər bir ilk tunc dövrü abidəsindən-Aşağı Daşarxdan da əldə olunması, onun heç də təsadüfi olmadığını təsdiq edir.

Abidənin arxeoloji materialları arasında sümükdən hazırlanmış alətlər yenə də çoxluq təşkil edirlər. Onların əksəriyyəti bizlərdən ibarətdir. Yalnız bir ədəd iy başlığı tapılmışdır.

Qazıntılar zamanı təyinatı məlum olmayan bir neçə daş əşya əldə olunmuşdur. Onlardan üçü dairəvi, yastı formada olub ortalarında deşik açılmışdır. Diametrləri 1-3 sm-dir.


Başqa bir əşya ürək formasındadır. Onun bir tərəfində üç ədəd çıxıntısı olmuş, lakin sınmışdır. Yan tərəfində oyuq açılmışdır.

Sədəfdən hazırlanmış bir əşya isə «qum saatı» formasındadır. Bu tip əşyalara indiyədək Kür-Araz mədəniyyəti abidələrində rast gəlinməmişdir.

I Maxta qədim yaşayış yerinin hər bir dairəvi tikilisinin daxilindən manqal tipli stasionar ocaqların əldə edilməsi bir daha təsdiq edir ki, abidədə oturaq həyat tərzi keçirən və uzun müddət bir yerdə yaşayan insanlar məskunlaşmışlar.



Naxışlı saxsı məmulatı.



Qapaq hissəsi.



Küpə tipli qab hissəsi.


Metal biz.




Sümük bizlər.


Daş asma.








Gil figurlar.


Daş qəlib.




Çaxmaqdaşından alətlər.


Qum saatı formalı daş asma.

Qəbilələrarası və ya tayfalararası əmtəə mübadiləsində tətbiq olunan və ingilisdilli elmi ədəbiyyatda “tokins” adlandırılan konusvari, sədəfəbənzər formalı əşyaların əldə olunması inzibati idarəçiliyin ilk əlamətləri hesab olunur və artıq e.ə. IV minilliyin sonlarından Azərbaycan ərazisində sinfi təbəqələşmənin, sosial bərabərsizliyin və beləliklə dövlətçilik ənənələrinin mövcudluğundan xəbər verir. Qeyd etmək lazımdır ki, bu əşyaların tapılması, eyni zamanda Kür-Araz mədəniyyəti abidələrinin tarixi xronologiyasının müəyyən edilməsində də çox mühüm əhəmiyyətə malikdirlər. I Maxtada bu əşyaların tapıldığı laydan aşağıda, mədəni təbəqənin 3 m-dən artıq davam etdiyini nəzərə alsaq, abidədə Kür-Araz mədəniyyətinin tarixinin daha qədim olduğunu söyləyə bilərik.

Digər tərəfdən eneolit və Kür-Araz mədəniyyətlərinin keçid mərhələsi üçün xarakterik olan keramika məmulatlarının əldə olunması ərazidə məskunlaşmanın e.ə. IV minilliyin birinci yarısından başlandığını söyləməyə imkan verir.

2012-ci ildə «Maxta arxeoloji ekspedisiyası» kəşfiyyat xarakterli tədqiqatları davam etdirmişdir. Əsasən Arpaçay vadisi və Şərur rayonunun Dizə - Axura kəndləri istiqamətində olan sahələr nəzərdən keçirilmiş, indiyədək məlum olan bir sıra abidələrin CPS koordinatları götürülmüş və onların xarakterini müəyyən edəcək materiallar toplanılmışdır.

2011-ci ildə Dizə nekropolunda təsadüfən dağıdılmış bir qəbir barədə çobanlar tərəfindən AMEA Naxçıvan bölməsinə xəbər verilmiş və dağılmış qəbirin arxeoloji materiallarının bir hissəsi təhvil verilmişdir. Qəbir və onun ətrafı nəzərdən keçirilərkən məlum oldu ki, qəbir toxunulmamış bir qəbir olmuşdur. Qəbirin yeri təmizlənərkən oradan daha iki ədəd saxsı qab və başqa qablara məxsus parçalar toplanıldı. Arxeoloji materialların təhlili qəbirin orta tunc dövrünə aid olduğunu söyləməyə imkan verir. Çobanlar tərəfindən təhvil verilən saxsı qablar içərisində boyalı qablar da vardır.

Arpaçay vadisində yerli əhali tərəfindən Ceyran qalası adlandırılan dağın Aşağı Yaycı kəndinə tərəf olan hissəsində daşlardan qurulmuş səddin izləri müəyyən olundu. Əvvəlki illərdə bu tip sədd qalıqları Ceyran qalası dağının Dizə kəndinə tərəf olan hissəsindəki təpələrdə və Arpaçayın əks tərəfindəki Qız Qalasının ətəklərində də qeydə alınmışdır. Bu sədlər bir daha təsdiq edir ki, e.ə. II min. sonu - I min. əvvəllərində Arpaçay vadisinin girişi hər tərəfdən müdafiə istehkamları ilə bərkidilmiş formada olmuşdur.

Şərur rayonunun Axaməd kəndinin qərbində, dəmir dövrünə aid yaşayış yerindən müxtəlif arxeoloji materiallar toplanıldı. Kəsəmənli kəndindən, yerli əhali tərəfindən Qobu adlandırılan yerə tərəf uzanan su kanalının kənarlarından müxtəlif keramika məmulatları əldə olunmuşdur. Lakin, bu materiallar təqribən 1 metrlik torpaq qatının altında qaldığından, yaşayış yerinin sərhədlərini müəyyən etmək mümkün deyil.

Əldə olunmuş materiallar və həmçinin ərazidən məlum olan tapıntılar, burada e.ə.I minilliyə aid böyük bir yaşayış yerinin olduğunu təsdiq edir. Həmçinin, yerli əhali tərəfindən təsadüfən əldə olunmuş saxsı qablar ehtimal etməyə imkan verir ki, burada erkən dəmir dövrünə aid qəbirlər də olmuşdur. Gələcək illərdə ərazidə tədqiqatların davam etdirilməsi zəruridir. Çünki, bölgədə qalaların, nekropolların mövcud olmasına baxmayaraq, bu günədək son tunc-erkən dəmir dövrünə aid yaşayış məskənləri tədqiq edilməmişdir.



"Tokins"lər.

С.Г.Ашуров, В.Б.Бахшалиев,
С.А.Гусейнова, Ф.А.Алиева,

ИССЛЕДОВАНИЯ «АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ МАХТА»

РЕЗЮМЕ

В 2012 г. Археологические раскопки древнего раннебронзового поселения Махта I на территории Шарурского района были продолжены.

Раскопки велись на каждом третьем квадрате участка в 300 м^2. Была расчищена внутренняя часть места поклонения в 1-4 квадратах. После расчистки основания круглого строения стало ясно, что место поклонения размещалось над другим круглым строением.

В обнаруженном в прошлом году 5 квадрате в очаге для плавки металла после его очистки выявлено продолжение культурного пласта нижнего слоя.

На этом уровне, в центре раскопочного участка, был расчищен круглый очаг сооруженный из квадратного сырцового кирпича. В середине 5 квадрата, в направлении север-юг, имелась широкая стена. Однако стена, соединенная со стеной в восточно-западной стороне, не имела продолжения в нижних слоях.

В 6 квадрате были продолжены исследования внутри круглого строения, возведенного на месте предыдущего круглого сооружения.

В его центре расчищено маленькое основание из речной гальки и частей сломанной зернотерки. В западной части 6 квадрата очищена часть круглого строения большего диаметра. Судя по размеру диаметра это строение является фрагментом самого большого строения, исследованного до сих пор в Махта I. Внутри строения, ближе к стене, выявлены интересные глиняные изделия.

Среди керамических изделий поселения Махта I можно встретить совершенно различные образцы. В составе глины ряда керамических сосудов использован дробленный камень или глина, смешанная с крупным песком. Такой состав глины характерен для периода энеолита и переходного этапа ранней бронзы.

Во время раскопок выявлены подковообразные очажные сооружения. Глиняные фигурки из различных частей раскопочного участка рядом особенностей отличаются от фигурок, обнаруженных в предыдущие годы.

Металлические предметы из Махта I представлены одним шилом. Выявленные здесь каменные орудия труда, в том числе режуще и колющие, составляют незначительное количество. Среди археологического материала большинство составляют костяные предметы: шилья, одна пряслица. Стационарные очаги мангалы, выявленные внутри каждого круглого строения, еще раз подтверждают, что здесь обитало оседлое население.

Обнаружение конусовидных перламутровых предметов, именуемых в англоязычной литературе «tokins», которые использовались в межплеменных и в межродовых денежных обращениях, свидетельствует о наличии ранних признаков административного управления. Это позволяет предположить, что в конце IV тыс. до н.э. на территории Азербайджана существовало классовое расслоение, социальное неравенство и традиции государственности. Выявление керамических изделий переходного этапа энеолитической и Кура-Аракской культур, позволяет говорить о заселении этой территории с первой половины IV тыс. до н.э.

S.H.Ashurov, V.B.Bakhshaliyev,
S.A.Huseynova, F.A.Aliyeva

THE INVESTIGATIONS OF "MAKHTA ARCHAEOLOGICAL EXPEDITION"

SUMMARY

Archaeological excavations continued in 2012, Bronze Age old living place I Makhta which situated in Sharur region.

Archaeological excavations taken away in each three square, so began in previous years 300 m² area. Worship's inside has cleaned which its 1-4 squares cleaned in previous years. After cleaning round formed building's floor known that worship is situated on the other building which has before it. It is known that cultural layer was continued in down, after cleaning fireplace which used for melting metal, revealed in 5th square. Four-cornered made by mud brick round fire cleaned in this layer, excavation areas center. The wide wall constructed North-South side, 5th square's middle but the wall linked to it in East-West side is not continues in down layers.

Investigations continued inside of last year investigated round building in 6th in square. This building also is structured on the round building which was other former building. Little pavement formed device which consisted of broken grain stone part and some river stone its centre has cleaned.

Brood diametric building's arch one part cleaned, to the West side of 6th square. For diameters broadness in I Makhta this building is the widest building remainder studied till now. Very interesting clay things got from the near part its wall, wide diameter round building's inside.

It is possible to meet tam different examples in I Makhta living places ceramic product's inside. There are used to big sand mixed clay or broken stone in the component of some faience dishes, this specialty is character for cross stage of En eolith and Early Bronze Age. It is possible meet horseshoe illustrated fireplace devices tam various forms during I Makhta's excavations. Clay figures getting from different parts of excavation are differs to each other for their some properties.

The metal things getting from I Makhta is consist of one awl .The tools getting from here, specially cutting and say tools minority amount. But the tools which made by bone, among monuments archaeological materials has majority amount. Most of them are consist of awl.

Getting brazier typical stationary fireplace from inside of I Makhta's old living places each round building again proves that, there were sedentary life style and peoples lived together here, settles.

Getting likeness mother pearl formed, cone, called English valuable scientific literature and applied exchange of tribes distance or kins distance commodity considered first signs of administrative tillage's and IV millenniums ending B.C. warning of statehood traditions being, social inequality, class stratify in Azerbaijan area. On the other hand En-eolith and Kuro-Araxes cultures cross stage allows to say that getting ceramic products settlement in area began IV millenniums first half B.C.

"Makhta archaeological expedition" secret-service characteristic investigations continued in 2012 year.

РЕЗУЛЬТАТЫ АРХЕОЛОГИЧЕСКИХ РАСКОПОК НА ПОСЕЛЕНИИ МОЛЛАБУРХАНТЕПЕ

(Хачмазский район)

Д.Л.Мусаев



Поселение Моллабурхантепе. Общий вид памятника.

С 2012 г. начались археологические раскопки на поселении Моллабурхантепе в Хачмазском районе.

В историческом отношении Хачмазский район представляет большой научный интерес. Эта одна из областей Кавказа, где проходил важнейший путь, который связывал весь Южный Кавказ с Востоком, Северным Кавказом, Южно – русскими степями и иранским регионом. Данный район был одним из удобных путей проникновения Кура–Аракской культуры с юга на север и является связующим звеном южного и северного регионов Кура–Аракской культуры. Многочисленные племена, проходившие по этому «корридору» оставляли частицу своей культуры и поэтому местное население, подвергшееся влиянию Кура–Аракской культуры, создало свой локальный вариант этой культуры.

В археологическом отношении Хачмазский район изучен довольно слабо. Здесь всего лишь на поселении Серкертепе велись широкомасштабные раскопки. Поэтому раскопки 2012 г. на поселении Моллабурхантепе имеют большое значение для истории изучения района.

Поселение Моллабурхан открыто в 1977 г. Границы памятника : с права проходит дорога из села Гымыл в село Моллабурхан, с юго- востока протекает река Гудиалчай, с севера сад. Поселение располагается на холме четырёхугольной формы (высота холма от 3 м до 5 м) и вытянуто с востока на запад. Поверхность ровная, края пологие. Площадь поверхности составляет 22 325 кв.м. – по показателям это одно из крупнейших поселений эпохи ранней бронзы.

Археологические раскопки на площади 50 кв.м. велись в юго–восточной части холма.

В результате раскопок, удалось установить предварительную стратиграфию поселения Моллабурхантепе. Верхний слой, мощностью 20–25 см относится к развитому средневековью и датируется IX–XII вв. Ранее предполагалось, что здесь представлен и период раннего средневековья. Однако, археологический материал развитого средневековья малочислен и, в основном, представлен фрагментами керамики. Все это свидетельствует, что на поселении периода IX–XII в.в. жизнь была не очень активной и, вероятно, оно имело второстепенное значение в системе раннесредневековых поселений.

Керамику того периода мы разделили на две большие группы – глазурованная и не глазурованная. По функциональному назначению глазурованная керамика, в основном, представлена блюдами, неглазурованная фрагментами кюпов, горшков, чайников, петлевидной формы ручками. Данная керамика характерна для всех памятников IX – XII в.в.

Второй слой, мощностью слоя в 1.7 м., представляет эпоху ранней бронзы и датируется III тыс. до н.э.


Основу археологического материала составляет керамика.

По функциональному назначению керамические изделия мы разделили на несколько групп.

Первую группу составляют крупные сосуды – кюпы. Венчик у них небольшой, отогнут наружу. Диаметр горла достигает 20–25 см., диаметр в средней части 35–40 см. Как правило, дно у них плоское, диаметром 10–15 см. Две ручки лентовидной формы с замкнутым валиком крепятся в средней части сосуда. По форме они полушаровидные, характерные для кура – араксской культуры. Поверхность керамики серая, бурая, розовая, черная. Изнутри кувшины иногда имеют черную или розовую «подкладку».




Керамическая ваза.



Фрагменты керамических горшков.



Фрагмент керамического котла.



Фрагменты орнаментированной керамики.

Вторая большая группа представлена сосудами в виде ваз (фруктовницы). Такие сосуды являются «визитной карточкой» кура-араксской культуры Северо – Восточного Азербайджана. Ни в одном регионе Кура–Аракской культуры, не обнаружено такого количества и разнообразия керамики. Археологические раскопки позволили проследить изменения,происходившие в изготовления этой посуды в IV до III тыс. до н.э. Вазы IV тыс. до н.э. имеют следующую форму – верхняя часть в форме чаши, которая крепится к поддону колоколовидной формы. Венчик отогнут во внутрь. С внешней стороны венчика, на одинаковом расстоянии прикреплены 2 ложные ручки втульчатой формы, с очень узким отверстием. На колоколовидном поддоне проделаны два отверстия круглой, реже овальной формы. Цвет керамики, в основном, черный, реже розовый. Поверхность тщательно сглажена или залощенна. В отличии от ваз IV тыс., вазы III тыс. до н.э. отличаются меньшим размером, формой и, главное, они орнаментированы врезными дугообразными линиями. Верхняя часть ваз представляет неглубокую чашу, венчик отогнут вовнутрь. С внешней стороны, у венчика крепились две ручки с узким сквозным (горизонтальным) отверстием. Верхняя часть (чаша) соединена ножкой цилиндрической формы, часто двух – трехступенчатой формы. Поддон имеет колоколовидную форму. Как правило, верхняя и нижняя часть ваз имеют одинаковый диаметр. На поддоне, на одинаковом расстоянии, имеются два сквозных отверстия круглой формы диаметром 2–3 см. Верхняя часть отверстий орнаментирована ломанными врезными линиями. Поверхность ножки также орнаментирована ломанными линиями, насечками, точками. Назначение подобной посуды могло быть различным. Они могли служить в качестве «тарелок». Отдельные вазы изнутри имеют черный цвет и копоть, – что может свидетельствовать отом что их использовали в качестве светильников или при исполнении ритуальных обрядов. Одна из ваз была заполнена жженым зерном (подобная находка известна из Серкертепе). Размеры ваз в основном такие : диаметр от 15 до 20 см, высота от 10 до 15 см. Однако имеются и более миниатюрные сосуды диаметром 8 - 10 см., высотой 8 - 9 см.

Фрагменты блюд составляют следующую группу керамики. По форме блюда не различаются. Отличаются они лишь размерами и черным и розовым цветами. Дно у них узкое, плоское, венчик отогнут во вовнутрь. Стенки от донышка плавно загибаются во внутрь. С внешней стороны венчика крепятся две ручки петлевидной формы. Обжиг высокого качества.

Котлы на плечиках имеют ребристый уступ. Корпус котлов более позднего периода покрыт обмазкой, а более раннего орнаментирован выступающим пояском с защипами или насечками. Тулово имеет вздутую форму, горло небольшое, вогнуто во внутрь, а затем наружу, образуя небольшой венчик. Из этой группы выделяются два фрагмента покрытые клиновидным орнаментом ниже горловины вдавленным пунктиром. Цвет керамики бурый.

Фрагменты кубков высотой от 10 и до 18 см. также являются отличительной чертой находок эпохи ранней бронзы северо – восточного Азербайджана. Они имеют биконическую форму, с колоколовидным поддоном, небольшой венчик отогнут наружу. Две ручки петлевидной формы, крепятся с венчиком и серединой корпуса. Орнаментированы шишкообразными выступами между ручками. Цвет в основном розовый, бурый, реже черный.

Горшки имеют шаровидную форму, небольшой венчик отогнут наружу, дно узкое, плоское, в верхней части прикреплена ручка петлевидной формы с замкнутым валиком. Имеются ручки и полушаровидной формы.Из этой группы выделяется фрагмент небольшого тонкостенного (0,5 см) хорошо обожженного горшка. Горло слегка вогнуто во внутрь и переходит в небольшой венчик. Плечико образует выступ с орнаментом в виде колоса. Этот орнамент может означать хлеб, жизнь, богатство.

Фрагменты жаровень, также довольно часто встречаются на поселениях северо–восточного Азербайджана. Они имеют дисковидную форму. По краю проходит бортик с выступом овальной формы. Поверхность ровная, сглаженная.

Среди керамики интерес представляет фрагмент роговидной формы. Поверхность орнаментирована пятью вдавленными линиями, верхняя узкая часть сглажена.

Подавляющая часть каменных предметов изготовлена из речного камня, реже из кремния и известняковых пород. Преобладают каменные зернотерки ладьевидной формы. Длина зернотерок от 25 до 50 см.

Имеется несколько фрагментов булав из кремневых пород, а также камни – пращи шаровидной формы. Интерес представляют наконечник мотыги с острым широким основанием, молоток с ручкой, а также два небольших камня с углублениями.




Фрагменты каменных булав.



Каменные тиглы.



Изделия из камня, мотыга..



Фрагмент каменного молотка.

Предметы из кости немногочисленны и представлены проколками и лощилами.

Строительные остатки этого периода представлены фрагментами стен построек турлучного типа. Как правило, помещения того периода (III тыс. до н.э.)имеют круглую форму. Построены они из жердей и прутьев, а затем с двух сторон обмазаны толстым слоем глины. Подобного типа постройки имеют широкий ареал – Кавказ, Балканский полуостров, Средиземноморье.

На многих поселениях того периода сохранились следы пожара. Вероятно, это связано природными катаклизмами либо с массовым нашествием племен. На исследуемом поселении сохранились шлак, большое количество пепла и следы жженой земли. Подобное наблюдали на поселениях Чаккалыктепе и Серкертепе.

Раскопки поселения Моллабурхантепе в 2012 г. позволили определить предварительную стратиграфию. Последующие раскопки позволят установить окончательную стратиграфию, определить связи с другими памятниками этого периода.

D.L.Musayev

MOLLABURXAN YAŞAYIŞ YERİNDƏ APARILAN ARXEOLOJİ QAZINTILARIN NƏTİİƏLƏRİ

XÜLASƏ

2012-ci ildə Azərbaycan Respublikasının Xaçmaz rayonunda yerləşən Mollaburxan yaşayış yerində arxeoloji qazıntılara başlanıldı.

Tarixi cəhətdən Xaçmaz rayonu böyük elmi maraq doğurur. Bura, bütün Cənubi Qafqazı şərqlə, Şimali Qafqazla, cənubi-rus düzənlikləri və İran bölgəsi ilə birləşdirən ən əhəmiyyətli yolun keçdiyi Qafqaz vilayətlərindən biridir.

Qazıntılar nəticəsində Mollaburxan yaşayış yerinin ilkin stratiqrafiyası müəyyən edilmişdir. İlkin təbəqə inkişaf edən orta əsrlərə aiddir. İkinci təbəqə erkən tunc dövrünü təmsil edir.

Arxeoloji materialların əsasını keramika təşkil edir. Öz funksional təyinatına görə biz saxsı məmulatlarını bir neçə qrupa bölmüşük. Birinci qrupa iri qablar-küpələr daxil edilmişdir. İkinci qrupu vaza (meyvə qabı) şəklində olan qablar təşkil edir. Bu cür qablar Şimal-Şərqi Azərbaycanın kür-araz mədəniyyətinin "vizit kartıdır". Qab və qazan parçaları keramikanın sonrakı qrupunu təşkil edirlər. Piyalə fraqmentləri də Şimali-Şərqi Azərbaycanın erkən tunc dövrünün tapıntılarının fərqli cəhətlərindəndir. Şimali-Şərqi Azərbaycanın yaşayış yerlərində kürə fraqmentlərinə də rast gəlinir. Keramikadan buynuz formalı parça böyük maraq doğurur. Onun səthi içəri basılma üsulu ilə 5 xətt vasitəsilə naxışlanıb. Hündürlüyü 7 sm-ə bərabərdir. Daşdan olan məmulatlara aşağıdakılar aiddirlər: dən daşları, sürtgəc və bülöv daşı, toppuz parçaları, toxa ucluğu. Sümükdən olan əşyalar çoxluq təşkil etməyərək deşmələr və pardaxlardan ibarət idi.

Sonrakı qazıntılar abidənin tam stratiqrafiyasını müəyyən etməyə imkan verəcəkdir.

D.L.Musayev

THE RESULTS OF THE ARCHAEOLOGICAL EXCAVATIONS IN THE SETTLEMENT OF MOLLABURKHAN

SUMMARY

It has begun the archaeological excavations in the dwelling place of Mollaburkhan in Khachmas region of Azerbaijan Republic in 2012.

Khachmas region makes an interest on historical aspect. This territory is one of the Caucasian area which crossed an important connective way. That way connected the Southern Caucasus by the East, Northern Caucasus, Southern Russian plains and Iran.

It was fixed the initial stratigraphy of Mollaburkhan dwelling place in the result of the excavations nowadays. The primary layer is concerning to the Middle Ages. The second layer is represented to the Early Bronze Age period.

Ceramics is forming the basis of archaeological materials. We divided ceramics some groups by the functional fixing. We included in a first group large-scale earthenware-pots. The ceramics like as vase (fruit crockery) is forming the second group. This kind of ceramics is "visit card" of the Kura-Araxes culture of the North-Eastern Azerbaijan. The pieces of dishes and pots are forming the next group of ceramics. The bowl fragments are the distinctive motives of the Early Bronze Age findings of the North-Eastern Azerbaijan.

It was often met sphere fragments in the dwelling places in the North-Eastern Azerbaijan. The piece of horn form makes the great interest. It was designed by the 5 line in push inside method it's surface. Height is 7 cm. the following list is concerned stoneware: grain stones, grater and grindstone, cudgel pieces, hoe head. The bone things are not forming majority and consisting of gaps and polishes.

The next excavations will give an opportunity for fixing a whole stratigraphy of monument.

AZƏRBAYCANIN ŞİMALİ-QƏRB RAYONLARINDA ARXEOLOJİ TƏDQİQATLAR

(Şəki, Qax, Oğuz rayonları)

N.M.Muxtarov, İ.N.Bədəlova, B.Əmrullah qızı

Ekspedisiya 2012-ci ildə Şəki, Oğuz, Qax və Balakən rayonları ərazisində keçən ilki qazıntı sahələrində işləri davam etdirmiş və yeni abidələrdə arxeoloji qazıntı və kəşfiyyat işləri aparılmışdır.

Şəki rayonu ərazisində (Fazıl kəndi) Təpəbaşı nekropolunda 4 qəbir abidəsi tədqiq edilmişdir.

1 saylı qəbir . Bu qəbir nekropolun mərkəzində yerləşir. Torpaq qəbirdir. Dərinliyi 210 sm, uzunluğu 180 sm, eni isə 120 sm-dir. Uşaq qəbridirdir. Oturacağa yaxın körpə uşaq tam bükülü vəziyyətdə dəfn edilib. Qəbir inventarları qara, qırmızı, qırmızı-sarımtıl rəngli bardaq, kiçik küpə,kasa,üçayaqlı kiçik qab və şamdanlardan ibarətdir. İri və xırdabuynuzlu heyvanlara mxsus sümüklər dəfn küpünün şimali-şərq tərəfində aşkar edildi. Uşağın boyun,baş və döş qəfəsi hissəsində qeyri-metal muncuqlar aşkar edilib. Qəbrin döşəməsində, cənub-qərb tərəfdə 0,7 m^2 sahədə ocaq yandırılıb. Küpün divarının qalınlığı 8 sm-ə qədərdir. Bu qəbir Fazıl Təpəbaşı nekropolunda körpə uşağa məxsus 2-ci qəbrdir. Qəbirdə bıçaq, nizə tiyələri aşkar edilib. Qəbrin antik dövrə aid olduğu şübhə doğurmur.

2 saylı qəbir . (FTBQ-2/2012) 1-ci qəbrdən bir qədər (2 m-ə qədər) aralı olub, ölçüləri 260 sm X 200 sm, dərinliyi 200 sm-dir. Qəbrdə bütöv halda öküz skleti, onun ayaq tərəfində qoç və qoyun sümükləri aşkar olundu. Qəbrin inventarları skletin qarşı tərəfinə, 5 qara rəngli qab isə arxa tərəfinə topa halında yığılmışdı. Skelet qəbrin şimal tərəfinə bükülü vəziyyətdə (dizdən sıx) qoyulmuşdu. Heyvan skeleti ilə insan skeleti arasındakı boşluğa isə saxsı qablar yığılmışdı. Bir ədəd çaynik formalı qab isə insanın döş qəfəsi ilə qoç və qoyun skeletləri arasındakı boşluğa qoyulmuşdur. Qəbr dördkünc formada qazılmışdır. Öküz skeleti qəbə şərq qərb istiqamətində qoyulmuşdur. 1 və 2 saylı qəbilərin döşəməsində nazik kül təbəqəsinə,qab və sümükllərin arasında isə kömür qırıntılarına təsadüf edildi. Belı ki, kənarda yandırılan ocağın külünü qəbrin döşəməsinə səpmişlər. Bu qəbri, bu vaxta qədər açılmış qəbrlərdən bəzək əşyalarının zənginliyi ilə fərqlənir.

Skeletin qarşı tərəfində mis bəzək əşyaları, mis həlqələr, mis və qeyri-metaldan kiçik muncuqlar aşkar edilmişdir. Onu da qeyd edək ki, bütöv şəkildə iribuynuzlu heyvan sümüklərinin (skeletinin) insanla birlikdə dəfn edildiyi ikinci dəfədir ki,Təpəbaşı nekropolunda qeydə alınır. Qəbrlərin demək olar ki, eyni dövrə (e.ə IV-III əsrlərə) aid olduğu şübhə doğurmur.

3 saylı qəbir (FTBQ 3/12). Bu qəbir də Təpəbaşı nekropolunun şimal tərəfində, 1 və 2 saylı qəbrlərin olduğu yerdə, 2 saylı qəbrdən 2 m aralı qismən şərqə tərəf qazılmışdır. Qəbir 250 sm uzunluğunda, 180 sm enində və 220 sm dərinliyindədir. Qazıntı zamanı yer səthindən 10-15 sm dərinlikdən başlayaraq 140 sm dərinliyədək müxtəlif formalı və rəngli qabların parçalarına, osteoloji qalıqlara, ara-sıra kömür, kül qatına təsadüf edilirdi. Bu vəziyyət qəbirdən əvvəl burada yarımqazma, tipli yaşayış evlərin olduğu qənaətinə gəlməyə əsas verir.

3 saylı qəbirdə 1 saylı qəbirdə olduğu kimi iri, lakin qulpsuz, ağzı yastı daşla örtülmüş, orta ölçülü xaşal gövdəli küp bir küncə qoyulmuşdur. 1 və 2 saylı qəbirlərdən fərqli olaraq qəbrin dioqanalı boyu əks tərəfdə başqa bir armudvari, tək qulpu, qısa və darboğazlı küp (daha çox iri bardaq) yanı üstə aşkar olunmuşdur. Qəbrin iki yerində heyvan skeletlərinin bir hissəsinə təsadüf edilmişdir. İribuynuzlu heyvana məxsus kəllə sümükləri, onurğa,bud sümükləri (tam cəsəd yox), qəbrin şərq küncünə iri bardağın arxa tərəfinə, kəllə, onurğa, qol, qıç sümükləri isə bardaqla insan cəsədi arasına qoyulmuşdur. Bu dəfn adətinin ən maraqlı cəhəti ondan ibarətdir ki, gildən qırmızımtıl rəngdə büt, it kəlləsi ilə birgə aşkar edilib. İtin kəlləsi (alt çənəsiz) iki bərabər hissəyə iti bir alətlə bölünərək qoyulmuşdur. Qəbrdə itin kəlləsinin çox ustalıqla (sanki iti mişarla) tən ortadan burun istiqamətində bölünərək, üstünə büt qoyulması ikinci dəfədir ki, qeydə alınır.

Qazma - 2012









Fazıl - 2012









Qəbirdə qabların düzülüşü də maraq doğurur. Qablar aypara (bədii ədəbiyyatda ona həftəlik, on günlük deyilir) formasında düzülüb və bu ayparanın uclara yaxın yerinin birində kiçik qablar,it kəlləsi, büt və öküz başı, tərəfində isə xaşal küp durur. Bir ucunda isə nizə, xəncər (çox pis qalıb) olan kiçik bardaq durur. Qəbir inventarları bütövlükdə 50 (əlli) saydadır.

4 ***saylı qəbir (FTBQ 4/12).*** 3 saylı qəbirdən 1 m şimali-qərbə tərəf aşkar olunmuşdur. Onu da qeyd edək ki, bu qəbirlərin döşəməsi eyni hündürlükdə deyil. 4 saylı qəbrin döşəməsi 3 saylı qəbrin döşəməsindən 22 sm hündürlükdə yerləşir. Qəbirlər arasında 100 sm fərq olmasına baxmayaraq onlar arasında xam torpaq cəmi 32 sm-dir. 4 saylı qəbir bütün əvvəlki 3 qəbirdən həm ölçülərinə, həm də formasına görə fərqlənir. Digər tərəfdən insan cəsədi qəbirə (uşaq) bütöv qoyulmayıb, baş və sinə hissəsinə çiyin sümükləri qoyulub. Zinət əşyaları (muncuq) nöqteyi nəzərincə isə əvvəlki 2 və 3 saylı qəbirlərdən zəngindir.

Qəbr dördküncdür. Qablar cəsəddən şimal-qərb tərəfə düzülüb. Qabların düzülüşündə müəyyən bir qaydaya əməl edilib. Burada da iri armudvari, formalı cüt qulp qab qəbrin küncünə yaxın qoyulub. Qablar qara, qırmızımtıl, sarı rəngli vazlardan, ördəkburun, leyləkdimdik (çovdar formalı) vaza və bardaqlardan ibarətdir. Kəllə sümüyü tərəfdə düymə formalı mis və qeyri-metal muncuqlara təsadüf edilir. Qəbirdə bir ədəd kiçik dəmir xəncər tiyəsi tapıldı.O sol gicgah sümüyünü 6 sm deşərək içəri girmişdir. Digər dəmir xəncərin çox pis qalmış tiyəsinin parçaları isə qəbrin şərq hissəsindən, tiyə hissəsi tam çürümüş, küp hissəsi qismən salamat qalmış nizə isə kəllə sümüyündən bir qədər aralı aşkar olundu. Onu da qeyd edək ki, qismən parçalanmış alt çənə sümüyündə 12 diş qeydə alındı. Bu qəbirdə inventarların (13 qab) əksəriyyəti yerində parçalansa da qismən salamat qalmış süfrə qabları da vardır. Ümumiyyətlə, 2012-ci ildə tədqiq edilən qəbirlər Qafqaz Albaniyasının e.ə IV-III yüzilliklərinə aiddir.

Oğuz rayonu Kərimli kəndi Dərə Zəmin nekropolunda dəfn adətinin səciyyəvi və ümumi cəhətlərinin xronologiyasını dəqiqləşdirmək üçün arxeoloji qazıntı işləri davam etdirilmişdir.

2012-ci ildəki qazıntılarda aydın oldu ki, bəzi hallarda qəbirlər qazma tipli evlərin döşəməsinin altında aşkar edilir. Arxeoloji materiallar Xocalı-Gədəbəy mədəniyyətinin bütün üç mərhələsini əhatə edir.

I saylı qəbr. Bu qəbir dərənin kənarında yerləşir. Yer səthindən 30-40 sm dərinlikdə keramika parçaları aşkar olmağa başladı. Qazıntını genişləndirdikdə burada üç nəfərin dəfn edildiyi məlum oldu.

Birinci dəfn olunan şəxsin sümükləri anatomik formada idi. Onun parçalanmış başı qəbrin qərb tərəfinə qoyulmuş **xeyrə** və iri küpün altında idi. Skeletin digər sümükləri qəbrin şərq tərəfində, qab düzümünün sağ tərəfində nizamsız halda aşkar olundu. Qəbrin dərinliyi 70 sm, uzunluğu 140 sm, eni isə 95 sm idi. Qablardan **dördünün** qəbrə bir hissəsi qoyulmuşdu (küpə, bardaq və xaşal küpün bir hissəsi, qara rəngli qab) . Bu qəbir 2 saylı qəbirdən 23 sm məsafədədir.

2 saylı qəbir dərəyə yaxın yerdə aşkar olundu. Bu qəbirdə də insan qeyri-anatomik formada idi. Qəbrin inventarları da pis vəziyyətdə idi. Qablar parçalanmışdı. Parçalara görə qabların heç birinin bütöv olmadığı yəqin edildi. Bütün əlamətlərinə görə bu qəbrin talan edildiyi şübhəsizdir. Bu qəbirdə cəmi bir kiçik boz rəngli bardaq, bütöv halda tapıldı. Qəbrin ölçüləri 140 x 120 sm, dərinliyi isə 78 sm idi.

Burada insana məxsus sümüklər torpağa qarışmış şəkildə aşkar olundu. İnsanın kəllə sümüyü qəbir döşəməsindən 58 sm hündürlükdən aşkar olundu. Qəbrdə 5 qaba, bir iri küpə məxsus parçalardan və nsan sümüyündən başqa, xırda buynuzlu heyvana məxsus sümüklər də aşkar olundu. Bu sümüklərə həm qab parçalarının altında, həm də içərisində təsadüf edilirdi. Kiçik bardağın altından aşkar olan parçalar iri **xeyrəyə** aid idi. Həmin xeyrənin bir kiçik parçasına qəbrin mərkəzində təsadüf edildi. Paza oxşar yastı daş qəbrin şimal-şərq tərəfinə ucu cənuba tərəf qoyulmuşdu. Ümumiyyətlə, 3 saylı qəbirdə aşkar olunan dəfn vəziyyətinə Dərə zəmin nekropolunda ilk dəfədir təsadüf olunur. Onu da qeyd etmək lazımdır ki, 3 saylı qəbirdə kömür (xəkə) parçalarına, kül izlərinə, ocaq yerinə təsadüf edilmədi. 1 saylı qəbrdə isə bu əlamətlər qeydə alınmışdı.

3 saylı qəbir 1 saylı qəbirdən cənuba tərəf (qismən qərbə meyilli), 1 saylı qəbir səviyyəsindən 15 sm qədərində, ondan 1m aralıda aşkar edildi. Qəbrin uzunluğu 130 sm, eni 110 sm, dərinliyi isə 112 sm-dir.



Qəbirlərdən aşkar edilmiş keramika.



Fazıl nekropolu. 4 saylı qəbrin kamerası.

Bu qəbirdə aşkar olunan qablar əvvəlki iki qəbrdən fərqli olaraq daha çox anbar və mətbəx qablarından ibarətdir. Gil qablar küp, tayqulp, qısa boğazlı, kiçik ağızlı iri bardaq, nehrə, manqal ayağı, (bir ədəd) və 3 müxtəlif qabların parçaları ilə təmsil olunmuşdur. Bu qablardan 20 sm şimala tərəf üç ədəd qara rəngli kiçik vazalar qoyulmuşdu. Maraqlıdır ki, bu qəbirdə insan və heyvan sümüklərinə nə qəbrdə, nə də qabların içərisində təsadüf edilmədi. Ocaq, kül, kömür izləri də qeydə alınmadı. Güman etmək olardı ki, bu qablar əvvəlki iki qəbrin qurbangahına qoyulub. Çünki, onlar arasında dərinlik və məsafə o qədər deyil. Qəbrin inventarları götürüldükdə məlum oldu ki, qəbrin döşəməsi dərinə davam edir. 10 sm dərinlikdə başqa bir qabın ağzı görünməyə başladı. Məlum oldu ku,qəbrin döşəməsi altında başqa bir qəbir başlayır. Bu qazıntı yerində yeni qəbri ***4 saylı qəbir kimi (ODZQ 4/12)*** qeydə aldıq. Belə bir dəfn adəti 2011-ci ildə qeydə alınmışdı. Həmin qəbir bu qəbirdən həm keramikasına, həm də bəzək əşyalarına görə çox zəngin olsa da, Dərə-zəmin nekropolunda birinci dəfədir ki, ox ucları məhz bu qəbirdə aşkar olnur. Qəbrin uzunluğu 230 sm, eni 180 sm, müasir yer səthindən isə dərinliyi 160 sm-dir. İnsan dizdən sıx bükülü vəziyyətdə, əlləri çənəsinə tərəf, sağ yanı üstdədəfn olunmuşdur. Onun dabanları bir hissəsi olmayan xeyrənin üstünə elə qoyulub ki, qəbirdə bütöv aşkar olunan it skeletinin arxa ayaqlarının üstündə dursun. İtin qabaq ayaqları, boğaz və başı isə nisbətən iri xeyrənin üstünə qoyulub. İnsan bədəninin taz sümüyünün altına başqa bir iri xeyrə, sinəsinə isə dar boğazlı armudvari bardaq qoyulub. O sanki bu bardağı sinəsinə sıxaraq, başını başqa bir xaşal küpə söykəyəyib, yanını xeyrə üstünə qoyaraq üzü şimala, başı şimali-qərbə tərəf, sağ yanı üstə uzanıb. Qəbirdə qablar xüsusi nizamla düzülüb, həm qəbrin baş tərəfinə (qəbrlə cəsədin istiqaməti eynidir) və ayaq tərəfinə qruplaşdırılaraq qoyulub. Baş tərəfdəki qablar 4 ədəd xeyrədən, (2-ci iç-içə qoyulub) iki xaşal gövdəli, qısaboğaz tayqulp, kiçik ağızlı bardaqdan (bardağın biri qarpız dilimlərinə oxşar qabartma naxışla bəzədilib) ibarətdir. 4 ədəd orta ölçülü küpədən (biri sinəyə sıxıllıb) biri qara rənglidir və pis qalıb, manqal ayaqları üstə qoyulub, İki böyük ağızlı küpə isə sıx qoyulub, bir bardaq isə sinədən bir qədər aralı qoyulub. Bunlar qəbrin baş tərəfinə, skeletin qarşısına düzülüb. Cəsədin arxa tərəfində omba sümüyünün altında iri xeyrə, ona bitişik və it cəsədinin qabaq ayaqları və sinəsi altında nisbətən kiçik

xeyrə, insanın topuq sümüyü altında və onun ayaq barmaqlarına tərəf iki xeyrə (cəmi 4 xeyrə) qoyulub. Döş qəfəsi qarşısında qarşı-qarşıya, ağzı yuxarı cüt qulp olan üç xaşal gövdəli, kiçik ağızlı, qısa boğaz küpə, 3-cü küpə ilə diz sümüyü arasına (sol ayağın) iri ağızlı kiçik küpə ondan sonra uzun armudvari dolça və kasa formasında iki qab, başqa bil boyu ellepsvari olan qab, ona söykənmiş vəziyyətdə isə yanı üstə nehrə qoyulmuşdur (10 qab). Ümumiyyətlə, bu qəbirdə keramika manqal altlıqları da daxil olmaqla cəmi 33 ədəddir.

Bu qəbri döyüşçü və ya ovçu qəbri də adlandıra bilərik. Qəbrdən bütöv xəncər və mərmərdən ortası deşik çoxbucaqlı formada kəsik konusa oxşar əsa başı, onun içinə, üstünə qoyulmuş ox ucları və bir ədəd maşa (pinsetə oxşaryır,naqqaş da hesab etmək olar),.xəncərin altından bir kiçik bıçaq da aşkar olunu. Ümumiyyətlə, metal məmulatı 10 ədəddir (bıçaq.naqqaş,xəncər və 7 ədəd ox ucu) .

Keramika sarımtıl boz rəngdədir. Gilinə narın qum qatılıb, astarı açıq qara rəngdədir. Xeyrələrin bir qismi boz qaramtıl rəngdədir. Dayaz və dərin olmaqla iki qrupa bölünür. Ölçülərinə görə isə üç qrupa bölünür. Keramikanın qəbirdə aşkar olunmuş vəziyyəti kafidir.

Sarı qobunun hövzəsi boyu arxeoloji kəşfiyyat işini davam etdirdik. qarabaldır kəndi torpaqlarında 3 böyük təpəlikdə son tunc-dəmir dövrlərinə aid yaşayış məskənləri olduğu güman edilən abidələr qeydə alındı. Təpələr yer səviyyəsindən 6-10 m hündürlükdədir və mərkəzi hissəsində düz səthi olan yeri azdır. Keramika tənəliklərin Sarı qobuya tərəf olan hissəsində daha çoxdur. Şərti olaraq təpəliklərin adları dəqiqləşdirilənədək A,B,V kimi qeydə götürdük. Kəşfiyyat qazıntıları, keramika bu təpəliklərin təxminən eyni vaxtda məskunlaşdığını göstərdi. Mədəni qat az yığılıb. Təxminən yer səthindən 5-10 sm-dən başlayır və 50 sm-ə qədər qalınlıqdadır. Keramika qara, qaramtıl, əsasən boz, sarımtıl, qırmızı qum qatılmış parçalardan ibarətdir. Əsas süfrə və qismən mətbəx qablarıdır. Dövr etibarı ilə daha çox inkişaf etmiş dəmir dövrünü əhatə edir. Lakin bəzi yerdə antik dövrə aid keramikaya təsadüf edilir.

Oğuz rayonunun Qarabaldır kəndi torpaqlarında Çeyil deyilən ərazidə arxeoloji kəşfiyyat qazıntısı aparıldı. Bu ərazi əvvəlki təpəliklərdən fərqli olaraq 2011-ci ildə qeydə alınmışdı.

2012-ci ildə Çeyil ərazisi vizual tədqiq edilməklə bərabər iki yerdə kəşfiyyat şurfları qoyuldu. Bu təpəlik də sonralar qəbiristanlıq kimi istifadə edilib. Kəşfiyyat qazıntıları, əldə edilən keramika, dəfn adəti Çeyil haqqında bəzi mülahizələr söyləməyə imkan verir. Bura qəbiristanlıq olmamışdan əvvəl iki tərəfdən təbii mühafizə olunan kənd tipli yaşayış məskəni olmuşdur. Erkən dəmir dövründən inkişaf etmiş dəmir dövrünə qədər həyat davam edir. Lakin bəzi yerlərdə antik dövrə aid saxsılara təsadüf olunur. Mədəni qat iki metrə qədər yığılıb və birtəbəqəlidir. Lakin bu mülahizə dəqiqləşdirmələrə ehtiyac duyur.

Hesabat dövründə Şəki-Qax-Zaqatala qış otlaqları ərazilərinə, Sarıca-Minbərək kurqanlar düzünə qısa müddətli səfərlər təşkil edilmiş, Səbətli istiqamətində kurqanlar qeydə alınmışdır. Ən pis hal odur ki, bu qış otlaqları indi daha çox əkinə məruz qalır.

Balakən rayonu ərazisində arxeoloji qazıntı işlərini (Qazmada “Qazmatəpədə”) müntəzəm davam etdirməklə bərabər Katex, Ruştatala, İtitala, Tala kəndlərinə məqsədli səfərlər təşkil edildi.

Müşahidələr burada erkən oturaq əkinçi tayfalara məxsus abidələrinin varlığını güman etməyə əsas verir. Hələlik İtitala və Qabaqçöl bu sahədə böyük ümidlər verir. Qabaqçöl ərazisindəki nəhəng təpə heç şübhəsiz yaşayış məskəni olub və sonra kurqan kimi istifadə edilib

Qazmatəpədə (kənd sakini Şəfiqə xanımın həyətində) arxeoloji qazıntılar davam etdirilmiş, təpənin mədəni təbəqəsi, tikinti qalıqları və s.öyrənilmişdir. Onu qeyd etmək olar ki, yalnız 2012-ci ilin iyul ayı ərzində 50 kv.metrə qədər ərazidə şuruf qoyulmuşdur. Bu kəşfiyyat qazıntıları ilə məlum olmuşdur ki, burada mədəni qat hələ Qafqaz Albaniyasının erkən dövlərində qarışdırılmış və bu dövrdə həm xristianlığa qədər, həm də xristianlıqdan sonra tikinti aparılmışdır. Arxeoloji materiallar arasında ilk dəmir dövründən ilk orta əsrin əvvəllərinə qədərki tarixi dövrün tapıntıları çoxluq təşkil edir. Amma bu materiallar içərisində son tunc dövründə-erkən dəmir dövrünə keçidi təmsil edən keramika da vardır. Eyni zamanda, bu dərinlikdə antik dövrün varlığı təbəqənin qarışdığını göstərir. E.ə IV-II əsrlərə aid leyləkdimdik çaynikə oxşar qabların qırıqları, inkişaf etmiş dəmir dövrünə aid keramika parçaları ilə təxminən eyni səviyyədə aşkar olur.

I Tikinti dövründə daş bünövrə yanıq izi olmayan torpaq üzərində qoyulub. Bu dövrdə 1-ci dəfə

tikili güclü yanğına məruz qalıb.

II Tikinti dövründə yanıq qat və əvvəlki bünövrə üzərində düzbucaqlı tikinti inşa edilib, bu otaqların divarları bəzi yerdə əvvəlki tikintini kəsir. Eyni zamanda bu tikinti dövründə əvvəlki tikinti dövrünün uçmuş aralarına yanmış torpaq kül qatı dolmuşdur. Bu yarımdairə düzümünün (dolu) üzərində 45 sm enində 5 metr uzununda düz divarın bir lay daşları aşkar olunmuşdur. Bu vəziyyət 3-cü qazıntı sahəsində qoyulan şurfda da qeydə alınmışdır.

III Tikinti dövrü də kül, yanmış torpaq üzərində qoyulub və onun döşəmələri, divarları üzərində dəfn icra edilib. Yalnız A sektorunda I qazıntı sahəsində qəbirlər daş döşəmə, divarlar arasında deyil kül, köz qarışıq torpaq üzərində qazılıb və dərinlik dirəkləri ilə eynidir. Son tunc, ilk dəmir, antik və ilk orta əsrlərə aid keramika daha çox bu hissədən aşkar edilib. Keramikalara qəbirlərin yanında, qəbir torpağı içərisində təsadüf edilib.

Qazmatəpə daha qədim dövrdə yaşayış məskəni kimi məskunlaşıb (son tunc-erkən dəmir), sonrakı dövrlərdə dini və ya ictimai məqsədli böyük bina kimi istifadə edilib (inkişaf etmiş dəmir və ilk orta əsirlərin əvvəli (e.ə VI-V əsrlər-b.e III-IV əsrləri). Son dövrdə isə (Qafqaz Albaniyasının ilkin xristianlıq dövrü) nekropola çevrilmişdir. Güman edirik ki, bu dövr b.e IV-b.e VIII əsrlərin əvvəllərini əhatə edir. Bu dövrdən sonra Qazmatəpə tərk olunub.

Kortala (Qaracıl) qazıntıları Ufax çayının orta axarını, örüş yerini əhatə edən arxeoloji kəşfiyyat qazıntılarından ibarət olmuşdur.

Qoyulan şurflarda mədəni qat bir-iki təbəqəli olub son antik-ilk orta əsrlərin əvvəllərini əhatə edir. Çayın sahilində qoyulan 1-ci şurf burada vaxtı ilə təsərrüfat quyusu olduğunu güman etməyə əsas verir. Bu quyudan şirli orta əsr saxsısı ilk orta əsr qab parçaları ilə eyni səviyyədə aşkar olunur. Güman etmək olar ki, bu quyu müxtəlif dövrlərdə, amma eyni məqsəd üçün istifadə edilib.

Balakən rayonu ərazisində İtitala kəndinin pay torpaqlarında kəşfiyyat zamanı üç kurqan olduğu qeydə alınmışdır. Bunlardan biri (daha böyüyü) güman etmək olar ki, həm yaşayış yeri, həm də kurqan kimi istifadə edilib. İkincisinin kurqan olduğu şübhəsizdir, üçüncüsünün isə kurqan olduğu şübhə doğurur. Kəşfiyyat qazıntıları zamanı keramika və obsidian parçaları əldə edildi.

İtitala ərazisində daha bir kurqan olduğu güman edilən təpəlik İtitala icra nümayəndəsinin bağında qeydə alındı.

Balakən rayonu ərazisində, Katex torpağında, baş Axi deyilən ərazidə arxeoloji kəşfiyyat davam etdirildi. Burada iki çay arası yerdə (sahəsi 8-10 sot) yerüstü keramikalar müşahidə edilirdi. Bu sahə iki tərəfdən dərin dərə ilə, aşağı tərəfdən bu dərələrdən axan suların birləşdiyi yerlə (çay qovuşanla), yuxarıdan isə iki dərəni ayıran kiçik köçəkliklə sərhədlənir. İnformatorların verdiyi məlumata görə Katex kəndi əvvəllər bu dərənin gün batan hissəsində, bu dərə və qövsvarı dalğalarla sərhədlənən, 10 ha qədər olan nisbətən düzən yerdə yerləşmişdir.

Hesabat dövründə müxtəlif vaxtlarda B.Küngüt və Kərpic zavadu ərazisində xilasetmə işləri aparılmış, 2 qəbir (Kərpic zavodu ərazisi) 2 qəbr üstü daş (Baş Küngüt ərazisi) öyrənilmişdir.

Ağqabırrı (K. Dəhnə) yaşayış yerində yerüstü kəşfiyyat davam etdirilib.

Н.М.Мухтаров, И.Н.Бадалова, Б.Амрахгызы

ИССЛЕДОВАНИЯ ШЕКИ-ГАХ-ОГУЗСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

В 2012 г. экспедиция продолжала археологические-исследования в Шекинском, Огузском, Гахском, Закатальском и Белакенском регионах Республики.

В Шеки обнаружено поселение и курганное захоронение (Аггабырры) III и II вв. до н.э., в селе Фазыл на территории памятника Тепебашы отмечен интересный обычай погребения.

На территории Огузского района выевлено Чейилское поселение, три временных поселения, три кургана, а также проведены разведочные раскопки. В некрополе Дере Земин открыты, сложенные один поверх другого, захоронения и отмечен интересный обычай погребения. Эти захоронения охватывают II и III периоды Ходжалы-Кедабекской культуры. Здесь впервые три захоронения обнаружено в одной могиле.

На территории Шеки, Закаталы и Огуза проведены исследования на поселениях, обнаруженных в прошлые годы. В глиняном карьере кирпичного завода в поселке Дашюз Шекинского района проведены работы по спасению двух захоронений и отмечен средним периодом Ходжалы-Кедабекской культуры.

В Балакенском регионе, на территории сел Газма, Кортала, Ититала проведены археологические раскопки, продолжены разведочные работы. В Ититала выявлены три кургана, на месте поселения заложен шурф. Обнаруженный здесь археологический материал подтвердил принадлежность памятника ко II тысячелетию до нашей эры. В селе Катех, в предгорье Боюк Ахы обнаружено поселение и раннесредневековое захоронение ребенка в кувшине. В селе Газма археологический материал, начиная от поздней бронзы и железа, наиболее полно отражает период Кавказской Албании.

N.M.Muhtarov, I.N.Badalova B.Amrahqızı

THE INVESTIGATIONS IN 2012 OF SHAKI-GAKH-OGUZ ARCHAEOLOGICAL EXPEDITION

SUMMARY

Expedition continued its archaelogical studies in the regions of Shaki, Oghuz, Qakh, Zaqatala, and Balakan.

In Shaki, habitation (Aghqabirri) belonging to between 3rd and 1st millennium BC and kurgan cemetery and interesting habit of burial were recorded in the Fazil village at Teqebashi necropolis. In Oghuz region, Cheyil habitation, 3 temporary habitations, 3 kurgans were recorded. In Dere Zemin metropolitan, one on another graves were opened, interesting habit of burial was recorded. These graves belongs to 2nd and 3rd periods of Khojaly-Gadabay culture. It was learned there for the first time that 3 people were buried in same grave and one of them was buried by being fragmented.

In Shaki, Zaqatala, and Qakh region,in the habitations,which was recorded in the previous years of expedition, research was made and archaelogical materials collected. In the Dashuz settlement of Shaki rayon, at the soil charkhana of brick factory, salvage works were made in two graves, availability of middle period of Khojaly-Gadabay culture recorded.

In the region of Balakan, villages Qazma, Kortala, Ititala archaelogical excavations were made and exploration was proceeded. In ititala, 3 kurgans were recorded, in habitations shurf was placed. Here archaelogical materials proved the availability of 2nd millennium BC. In the foothill of Katekh village (huge AXI), habitations belonging to Early Middle Ages and grave where child placed in hilt was explored. In Qazma village, habit of burial, which reflects more substabtially the culture of Caucasian Albania period, and archaelogical materials were recorded.(starting from the passage of Bronze Age to Iron age belonging to Early Middle Ages)

QARABAĞ ARXEOLOJİ EKSPEDİSİYASININ «PALIDLI» NEKROPOLUNDA APARDIĞI TƏDQİQATLAR

(Ağdam rayonu)

H.F.Cəfərov, D.H.Cəfərova



AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Qarabağ arxeoloji ekspedisiyası plana uyğun olaraq 2012-cit ildə çöl-tədqiqat işlərini davam etdirmişdir.

Ekspedisiyanın əsas tədqiqat obyekti 2009-cu ildən stasionar qazıntılara başlanmış «Palıdlı» nekropolu olmuşdur. Əvvəlki illərdə məlumat verildiyi kimi, nekropol Ağdam rayonunun Mirəselli kəndi yaxınlığında yerləşir. Əldə olunmuş materialların təhlili indiyə qədər aşkar edilmiş qəbir abidələrinin e.ə. XII-XI əsrlərə aid olmasını sübut edir.

2009-2010-cu illərdə nekropolda ümumilikdə 8 (səkkiz) qəbir tədqiq olunmuşdur. Bu haqda «Azərbaycanda Arxeoloji Tədqiqatlar» məcmuəsinin iki buraxılışında, 1-8 saylı qəbirlər haqqında məlumat verilmişdir[1].

2012-ci ilin çöl-tədqiqatları gedişində «Palıdlı» nekropolunda 5 (beş) torpaq qəbiri açılıb öyrənilmişdir. Qəbirlərdən ikisi, müvafiq olaraq ümumi sıralamada 12 və 13 saylı qəbirlər hələ qədim dövrlərdə oğrular tərəfindən talan olunmuşdur. Skeletlər tərpədildiyi üçün anatomik quruluş pozulmuş, sümüklər bir-birinə qarışmışdır. Qna görə də dəfn mərasimini bərpa etmək mümkün olmadı. Qəbir avadanlığı tamamilə talan olunmuş, yalnız müxtəlif tip keramikaya məxsus kiçik fraqmentlər qalmışdır. Yeri gəlmişkən qeyd etməliyik ki, «Palıdlı» nekropolunda qəbirlərin hələ qədim zamanlarda talan olunması faktına ilk dəfə təsadüf olunur.

2012-ci ilin çöl-tədqiqatları dövründə tədqiq olunmuş başqa qəbirlər (9,10,11 saylı) ilkində olduğu kimi saxlanılmışdır. Konstruksiya baxımından ötən illərdə öyrənilmiş abidələrlə eyni tipli olan adi torpaq qəbirlər, planda düzbucaqlı olsa da küncləri müəyyən qədər ovalvaridir. Bir qayda olaraq qəbirlərdə

yerüstü əlamət, yəni hər hansı materialdan örtük, ağac döşəmələri, qamış və ya başqa izlər yoxdur. Qarabağın başqa həmdövr qəbir abidələrindən fərqli olaraq «Palıdlı» nekropolunda belə maddi qalıqların olmamasının özü də müəyyən suallar doğurur.

9 saylı qəbir 2009-2010-cu illərdə tədqiq olunmuş sahədən bir qədər şərqdə, oraya bitişik yerdə, 24 m^2-lik sahədə aparılan qazıntı işləri gedişində açılıb öyrənilmişdir. Ölçüləri: 3x3x0,8-1 m. Burada insan skeletinə təsadüf olunmadığı üçün dəfn adətini tutmaq, ölünün qəbirdəki qoyulma istiqamətini müəyyən etmək mümkün olmadı. Burada, qəbrin mərkəzində, üstdən 80 sm dərinlikdə yeniyetməyə məxsus kəllə sümüyü aşkar olundu. Onun çənə sümüyü və dişlərinə də təsadüf olunmadı. Qəbrin şimal-şərq küncündə, üstdən 1 m dərinlikdə eni 20 sm, uzunu 40 sm, dərinliyi 10 sm olan, içərisi narın yanmış küllə dolmuş çala təmizləndi. Ola bilsin, bura axirət ehsanı ilə bağlı ocaq yeri olmuşdu. Burada kömür parçaları və yanmış sümük qalıqlarına rast gəlinməməsi bu ocağın kremasiya ilə bağlılığı gümanını rədd edir.

Qəbir avadanlığı yalnız müxtəlif tip və quruluşlu keramika nümunələrindən ibarətdir. Bunlar qırmızı rəngli, nazik divarlı, tək qulp kiçik küpəcikdən, sarı rəngli, qalın divarlı badyadan, qara rəngli, orta ölçülü, nazik cingiltili divarlı, tək qulp, səthi sığallanaraq qara parlaq çilalı hala salınmış, çərtmə və süyrəli naxışlı küpədən; təsvir edilən qablardan cənubda bir cərgə düzülmiş qalın divarlı, qırmızı rəngli badyadan, qara rəngli camdan, iri ölçülü, qara rəngli, silindrik boğazlı, səthi qabarıq xətt və süyrələrlə naxışlanmış tək qulp bardaqdan; ona yaxın hissədə bir qədər kobud hazırlanmış, sarımtıl rəngli nehrədən; nəhayət, cənub küncündə çox böyük ölçülü, qırmızı rəngli, şarvari gövdəli küpdən ibarətdir. Axırıncı qabın gövdədən aşağı hissəsi, oturacaqda daxil olmaqla qara hislə örtülmüşdür.

Maraqlıdır ki, doqquz ədəd müxtəlif tipli keramiki nümunəsi ilə müşayət olan 9 saylı qəbirdə heç bir metal əşyaya, bəzəklərə, hətta «palıdlı» nekropolu üçün xarakterik olan muncuqlara da təsadüf olunmamışdı. Qəbirdə bütöv ölü skeleti əvəzinə yalnız kəllə sümüyünün varlığına gəldikdə, qeyd etməliyik ki, belə və buna oxşar hallara əvvəlki illərdə, xüsusilə 2009-cu ilin tədqiqatları zamanı rast gəlinmişdir. Məsələ 2 saylı qəbirdə analoji dəfn adəti müşahidə edilmiş, 4 saylı zəngin qəbirdə isə ümumiyyətlə insan skeleti aşkar olunmamışdır. Belə adətin «palıdlı» sakinləri içərisində kök salması səbəbinin araşdırılması vacibdir.

10 saylı qəbir 2009-2010-2011-ci illərdə tədqiqatlar aparılmış sahələrin qərb istiqamətində davamının təmizlənməsi gedişində açılmışdır. Düzbucaqlı quruluşlu, küncləri ovalvari konstruksiyaya malik qəbir əvvəlki abidələrdə olduğu kimi heç bir yerüstü əlamətə malik deyildi, üzəri bağlanmamışdı. Qəbir açılmış sahə buradakı 35 m^2-ə çatan qazıntı meydanının mərkəz hissəsində yerləşmişdir. Üst qatdan (yer səthindən) 80 sm dərinlikdən başlayaraq müxtəlif tipli keramika nümunələrinin ağız hissəsinin açılması, xarakterik yumşaq torpaq və dəfn izini göstərən ləkələrin varlığı qəbrin ümumi ölçülərinin müəyyən edilməsinə imkan verdi (ölçüləri: 2,8x3x1,2 m). Qəbir kamerasında təmizləmələr aşağıdakıları aydınlaşdırdı.

Qəbirdə dəfn olunmuş insan sol yanı üstə, başı şimal-qərb, ayaqları cənub-şərq istiqamətində qoyulmuşdur. Sol əli qatlanaraq başının altına qoyulmuş, sağ əli isə dirsəkdən qatlanaraq sifətinin qarşısında qalmışdır. Belin fəqərə sümükləri şaqulidir. Ayaqları düzdən bükülərək altına yığılmışdır. Lakin bu yığılma zəifdir. Görünür burada dəfn olunmuş insan sağlığında uca boylu olmuşdur. Məsələn, dizlə çanaq hissəsini birləşdirən yan sümüklərinin uzunluğu 70 sm, dizdən aşağı qılç sümüklərinin uzunluğu 60 sm idi. Buraya bədən və baş hissəsində ölçüləri əlavə olunsa ümumi uzunluğun 2 m-ə yaxın olması şübhə doğurmur. Baş hissəsi (kəllə) dolixokefaldır. Dişləri sağlam, sümükləri möhkəmdir. Qəbirdəki bəzən əşyalarının say çoxluğu, silahlara təsadüf olunmaması mərhumun qadın olmasını sübut edir.

Bu qəbir avadanlıq baxımından «palıdlı» nekropolunun zəngin abidələri sırasına daxildir. Axirət dünyası üçün nəzərdə tutulmuş materiallar mərhumun qulaqları, biləkləri, barmaqları, boyun və sinəsini, saçını bəzəyən muncuqlar, metal əşyalar və qəbrin müxtəlif hissələrinə, əsasən skeletin qarşısına düzülmüş 15 adda keramika nümunələrindən ibarətdir. Keramikanın yalnız biri, kiçik boşqab onun qıç sümüyünün altına qoyulmuşdur.





Keramika nümunələri qəbirdə düzülüş istiqamətinə müvafiq olaraq sadalanır. 1-7 saylı saxsı qablar skeletin baş hissəsindən şərqdə yerləşdirilib. Onlardan: 1 saylı qab böyük ölçülü nehrə; 2-3 saylı olanlar – nehrədən qərbdə qoyulmuş kiçik küpəciklər; 4 saylı nümunə – 1 saylı nehrə ilə yanaşı, ondan şərqdə olan böyük həcmli küpə; 4 saylı böyük küpədən şərqə və cənuba doğru, ona bitişik qalmış 5 və 6

saylı dirsəkvari qulplu, simmetrik biçimli küzələr; 4 saylı böyük küpədən cənubda 7 saylı kiçik bardaq; 8-12 saylı keramika nümunələri – dizin altında (№9) və qarşısında düzülmüşdür. Axırıncılar təkqulp bardaqdan, zənbilvari qulpu olan lüləyi çaynikvari tipli qablardan və nehrədən ibarətdir; 13-15 saylı qablar skeletin ayaq hissəsinin önündə, qəbrin cənub şərqində düzülmüş boşqab, təkqulp küpə, qoşa qulplu sərniclə təmsil olunmuşlar.

Bəzək əşyaları müxtəlif materialdan hazırlanmaqları ilə yanaşı həm də say etibarilə yetərincədir. Tunc əşyalar diqqəti cəlb edir. Buraya «in sity» olaraq qulaq nahiyələrindən tapılan sırğalar, barmaqlarında tunc məftildən üzüklər, kəllənin arxa nahiyəsində, saçların töküldüyü hissədə içərisi boş saç borusu, onun yanında iki ədəd orta ölçülü tunc halqa, biləklərin hər birində tuncdan qalın diametrli tunc bilərziklər, tunc muncuqlar daxildir. Tunc bəzək əşyaları güclü oksidləşməyə məruz qalmışdır, bəziləri deformasiyaya uğrayıb.

Bəzək əşyalarının əksər hissəsi muncuqlarla təmsil olunmuşdur. Bunların sırasında qırmızı, çəhrayı, bozumtul-çəhrayı çalarlı rənglərə malik sarıvari, uzunsov-silindrik, kəsik formalı müxtəlif ölçülü əqiq muncuqlar əksəriyyət təşkil edir. Muncuqların başqa qrupu ağ, göy, qara, sarı, yaşıl, qırmızımtıl-parlaq rəngli pastadan, sədəfdən, sümükdən hazırlanmış, çox halda səthi həndəsi naxışlı nümunələrdən ibarətdir. Onların sayı yüzlərlədir. Maraqlıdır ki, muncuqların bir qismi şarvari quruluşlu olub tuncdan tökmə yolu ilə hazırlanmışdır. Muncuqlar içərisində mübadilə yolu ilə gətirilmiş «Nassa gibbosula» tipli dəniz ilbizlərinin qabıqlarından hazırlanmışları, habelə göy rəngli mineraldan düzəldilmişləri də var. Qəbir avadanlığının təhlili burada yerli tayfanın varlı üzvünün qadınının (həyat yoldaşının) dəfn olunduğunu söyləməyə imkan verir.

11 saylı qəbir 2010-cu ildə öyrənilmiş 7 saylı abidənin açıldığı sahəyə bitişik yerdə tədqiq olunmuşdur. Düzbucaqlı quruluşlu, küncləri ovalvari torpaq qəbrində (4x3,5x1,2 m) ölü sol yanı üstə, əlləri sinəsində çarpazlaşaraq başının altına yerləşdirilmiş halda, beli düz, qılçları dizdən zəif qatlanmış vəziyyətdə dəfn olunmuşdur. Qarabağda aparılan arxeoloji qazıntılar tarixində ilk dəfə olaraq qadının qarın nahiyəsində, ana bətni olan hissədə çox kiçik uşaq dəfni aşkar olundu. İlkin mülahizələrə görə qadın hamilə olarkən dünyasını dəyişmiş və uşaq da onun bətnində qəbirə qoyulmuşdur. Başqa mülahizəyə görə qadın doğuş vaxtı dünyasını dəyişmiş və ölü uşaq da onunla bərabər dəfn olunmuşdur. Mülahizələrdən asılı olmayaraq bu səhnə hər kəsdə kədər və qüssə hissini oyadır.

Əldə olunmuş arxeoloji materiallar qəbrin müxtəlif hissələrində, xüsusilə ölü dəfn olunan yerin qarşısı və ayaqları yanında düzülmüş 12 adda keramika nümunələri və qismən bəzək əşyalarından ibarətdir.

Qadının qulaqları nahiyəsindəki çox nazik tunc halqalardan olan sırğalar, habelə boyun hissəsində toplanmış əqiq, pasta və metaldan hazırlanmış muncuqlar onun bəzəklərini təşkil etmişdir.

Qəbrin əsas materialları müxtəlif tip keramika nümunələri ilə təmsil olunmuşdur. Düzülməsindən asılı olaraq həmin keramika nümunələri aşağıdakılardan ibarətdir. Qadın skeletinin dizləri altında ağırlığın təsirindən sınaraq parçalanmış, böyük ölçülü qoşa qulplu qab (№8); şimal hissədən başlayaraq – 1 və 3 saylı, qara rəngli kiçik küpəciklər; onların arasındakı böyük ölçülü 2 saylı təkqulp küpə; həmin qablardan qərbdə qara rəngli, səthi naxışlı tayqulp su parçı (№4); qadının kəllə sümüyünün şərqində çox böyük ölçülü qırmızı rəngli təkqulp küpə (№7), ona bitişik vəziyyətdə, yani üstə qoyulmuş ölçücə iri olan qara rəngli nehrə (№6); mərkəzdə qırmızı rəngli hədsiz kiçik küpəcik (№5). Bunlarla yanaşı digər keramika nümunələri qəbrin aşağı, cənub hissəsində cəmləşmiş nehrədən (№9); təkqulp kuzədən (№10), ondan qərbdə yanı üstə qoyulmuş qara rəngli uzunsov butulkavari təkqulp qabdan (№11) və bu hissədəki çanaqvari qabdan (№12) ibarətdir.

NƏTİCƏLƏR

Aparılan araşdırmalar aşağıdakı ilkin nəticələri söyləməyə imkan verir:

- Apxeoloji materialların təhlili, başqa həmdövr abidələrlə tutuşdurmalar əvvəlki illərdə söylənilən mülahizələrin təsdiqini sübut edir.

- 12 və 13 saylı talan olunmuş qəbirlər istisna olmaqla qalan qəbir kameralarında mürəkkəb dəfn

mərasimi, yerli əhalinin dünyagörüşünü, ətraf aləmə, axirətə münasibətini əks etdirən adət-ənənələrin inikası aşkar izlənir.

- Ölülər bir qayda olaraq (10 və 11 saylılarda) başları şimal-qərb, ayaqları cənub-şərq istiqamətində olmaqla dəfn olunmuşlar. 9 saylı qəbirdə skeletin əvəzinə yalnız başın (kəllənin) qəbirə qoyulması da yeni mülahizələrin ortaya çıxmasına şərait yaradır.

- 10 saylı qəbir avadanlığının, xüsusilə bəzək əşyalarının zənginliyi baxımından başqalarından əhəmiyyətli dərəcədə fərqlənir.

- Arxeoloji materiallar həm bəzək əşyaları, həm də onların hazırlandığı xammal baxımından bir qismi yerli mənşəli olmayıb, başqa ölkələrdən – Misir, Mesopotamiya, Aralıq dənizi rayonu, hətta Hind okeanı zonasından gətirilmişdir. Bu fakt dövrünə görə lazımi iqtisadi-mədəni göstəricilərə malik Qarabağ tayfalarının ətraf aləmlə, hətta uzaq regionlarla təmasda olmalarını sübut edir.

- Maddi-mədəniyyət qalıqları içərisində heyvandarlıqla bağlı keramika nümunələrinin çoxluğu, xüsusilə çoxsaylı nehrələr, ağartı saxlamaq üçün nəzərdə tutulmuş qablar yerli əhalinin məşğuliyyətində heyvandarlığın üstün yer tutmasına sübutdur.

- Həm metal əşyaların, həm bəzək nümunələrinin bədii gözəlliyi, simmetrikliyi, forma kamilliyi, müxtəlifliyi Azərbaycanın bu bölgəsi tayfalarının sənətkarlığın müxtəlif sahələrində əsl kamillik əldə etməsinə tutarlı cavabdır.

- Bəzək əşyalarının say çoxluğu ilə yanaşı bədii tərtibat baxımından sənətkarlıqla hazırlanması, saxsı qablar üzərindəki həndəsi, astral, ətraf mühitin rəngarəngliyini əks etdirən naxışlar əhalinin bədii-estetik zövqə malik olmasını göstərir.

- 2012-ci ilin tədqiqatları 2009-cu ildə söylənilmiş, 2010-cu il araşdırmaları ilə möhkəmləndirilmiş xronoloji çərçivəsinin – e.ə. XII-XI əsrlər civarında burada dəfn mərasimlərinin icra olunmasını bir daha təsdiq etdi.

ƏDƏBİYYAT

1. H. Cəfərov, D. Cəfərova, N.Əliyev. Qarabağ arxeoloji ekspedisiyasının 2009-cu il çöl-tədqiqatları (Ağdam rayonu). «Azərbaycanda Arxeoloji Tədqiqatlar (2009)». Bakı, 2010, səh.89-93; H. Cəfərov, D. Cəfərova, N. Əliyev. Qarabağ arxeoloji ekspedisiyasının 2010-cu il çöl-tədqiqatlarının ilk nəticələri. «Azərbaycanda Arxeoloji Tədqiqatlar (2010)». Bakı, 2011, səh.90-95. Həmin məcmuələrdə analoji materiallara da istinad var.

Г.Ф.Джафаров, Д.Г.Джафарова

ИССЛЕДОВАНИЯ КАРАБАХСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ В НЕКРОПОЛЕ «ПАЛЫДЛЫ»

РЕЗЮМЕ

Карабахская археологическая экспедиция в 2012 году продолжила полевые научные исследования в некрополе «Палыдлы». Напомним, что некрополь расположен к северу от села Мирашелли Агдамского района. Стационарные археологические раскопки здесь ведутся с 2009 г. В предыдущие годы вскрыты 8 погребальных сооружений. В 2012 г изучено еще 5 погребений, из которых 2 погребения (№12-13) оказались ограбленными еще в древности.

Не тронутые грабителями погребения (№№9, 10, 11) по конструкции идентичны погребальным сооружениям, исследованным в 2009-2010 гг. Они представляют собой обычные грунтовые ямы четырехугольной формы без каких-либо наземных признаков.

В погребении №9 обнаружен только череп. Могильный инвентарь состоит из девяти керамических сосудов различного типа и размеров.

В погребении №10 выявлен скелет на левом боку в слабо скорченной позе. Спина ровная, руки, согнутые в локтях, находились под головой, ноги согнуты в коленях. Артефакты состоят из 15-ти разнотипных керамических сосудов, украшений из бронзы (браслеты, серьги, кольца, бусы, заколки для волос), а также бус из сердолика, кости, пасты, минералов, раковины моллюсков и др.

В погребении №11 находилось захоронение женщины с младенцем, в сопровождении бронзовых украшений, бус из сердолика и пасты, разнотипных керамических сосудов (12 экземпляров).

На основании анализа всех комплексов, погребения №№9, 10, 11 датируются XII-XI вв. до н.э.

H.F.Jafarov, D.H.Jafarova

THE RESEARCHES OF THE GARABAKH ARCHAEOLOGICAL EXPEDITION IN “PALYDLY” NECROPOLIS

SUMMARY

In 2012, Karabakh archaeological expedition continued field researches in the necropolis "Palydly." Recall that the necropolis is located to the north of the village of Mirashelli, Aghdam region. Stationary archaeological excavations were conducted here since 2009. In previous years eight burial structures were opened. In 2012 5 more burials were studied, 2 burials of which (№ 12-13) were robbed in antiquity.

Burials those are untouched by grave robbers (№ № 9, 10, 11) are identical in design to the burial structures studied in 2009-2010. They are common ground pits that are rectangular shaped and without any signs on land.

In burial number 9, only the skull of the deceased is found. Grave inventory consists of nine ceramic vessels of various types and sizes.

In the burial number 10, a skeleton on his left side in a slightly flexed position is revealed. Back is straight, arms that are bent at the elbows were under his head, legs are bent at the knees. The artifacts consist of 15 different types of ceramic vessels, bronze ornaments (bracelets, earrings, rings, beads, tubes for fixing hair), as well as beads of carnelian, bone, pasta, minerals, shells of molluscs, etc.

In the burial number 11 a woman with a baby, accompanied by brass ornaments, beads of carnelian and paste different types of ceramic vessels (12 copies) was found.

Based on the analysis of all the complexes, burials number 9, 10, 11, are dated XII-XI centuries BC.

GÖYGÖL-GORANBOY ARXEOLOJİ EKSPEDİSİYASININ APARDIĞI ARXEOLOJİ TƏDQİQATLAR

(Daşkəsən, Goranboy rayonları)

B.M.Cəlilov




Şəkil 1. Uzun Rəmə ilk tunc dövrü kurqanın görüntüsü.

Göygöl-Goranboy arxeoloji ekspedisiyası Goranboy rayonu Qaradağlı kəndi ərazisində Şadlı kəndindən 400 metr şimalda yerləşən, Uzun Rəmə kurqan qəbiristanlığında İlk Tunc, Son tunc və ilk dəmir dövrü kurqanlarında və Daşkəsən rayonu Xoşbulaq kəndi ərazisində İlk orta əsrlər dövrü kurqanında qazıntı işləri aparmışdır.


Tədqiq edilən kurqanların yerləşmə kordinatları: N40392870, E46345890. Kurqanların yerləşdiyi ərazi, dəniz səviyyəsindən 302 metr hündürlükdədir.

İlk tunc dövrünə aid kurqanın üst örtüyünün diametri 17 metr, hündürlüyü 1,2 metr idi. Kurqanın üst örtüyünün kənarları boyunca iki-üç cərgə, yanı yana düzülmüş, çay daşlarından ibarət kromlex var idi. Bununla yanaşı kurqan kamerasının ətrafı, eni 70-80 sm olmaqla çay daşları düzümü ilə bərkidilmişdir. Kurqanın üst örtüyündə iri çay daşları və ağ rəngli torpaqdan istifadə edilmişdir. Kameranın üstü örtülərkən onun üzərinə ağ torpaqdan məhlul hazırlanaraq, 10-15 sm qalınlığında örtük verilmişdir. Bu cür örtük qatı 70-75 sm dərinlikdə bir daha təkrar edilmişdir. Ola bilsin ki, bu zaman məqsəd üst örtüyü kimi istifadə edilən yumşaq ağ torpağa möhkəmlik vermək olmuşdur. Kurqanın üst örtüyü götürülərkən 70 sm dərinlikdən ağ torpaq qatı içərisindən, bir neçə ədəd yan yana düzülmüş iri dəvəgözü daşı aşkar edildi. İlkin əlamətlərə əsasən onlardan xammal kimi istifadə olunduğunu söyləmək mümkündür. İri dəvəgözü daşları üzərində qoparılmış çoxsaylı qəlpələrin yeri aydın nəzərə çarpır.

Kurqan kamerası dördkünc formada ağ torpaqda qazılmış və şərq tərəfdən giriş qapısı açılmışdır. Daha sonra kameranın və giriş yolunun-dromosun divarları çiy kərpiclə hörülmüşdür. Bərkidici məhlul kimi ağ torpaqdan hazırlanmış məhluldan istifadə edilmişdir. Dromosun divarlarının eni 40-50 sm, kameranın divarlarının eni isə 80-90 sm idi. Tikintidə istifadə olunmuş dördkünc kərpiclərin qalınlığı 8-9 sm, uzunluqları isə 22-23 sm və 30-35 sm-dir.



Şəkil 2. Uzun Rəmə ilk tunc dövrü kurqanın planı (üst və profil).



Şəkil 3. İlk tunc dövrü kurqanın divarının sxematik görüntüsü.

Kurqan kamerasının eni 5,5 metr, uzunluğu 6,5 metr hündürlüyü isə 1,7 metrdir. Dromosun eni 1,3 metr, uzunluğu 2,4 metr, hündürlüyü isə 1,6-1,4 metrdir. Maraqlıdır ki, kameranın yalnız 90 sm hissəsi xam torpaqda qazılmış, daha sonra onun divarları 1,7 metr hündürlüyündə hörülərək qaldırılmışdır. Kameranın materikdən yuxarıdakı hissələrinin arxası isə, qeyd etdiyimiz kimi 70-80 sm enində daş düzümü ilə bərkidilmiş daha sonra isə üzəri ağ torpaqla örtülmüşdür.

Onun üzəri ağac tirlərlə örtülmüş, üstündən çay daşları düzülmüşdür və sonda üzərinə 20-30 sm qalınlığında torpaq qatı əlavə edilmişdir. Tikintidə istifadə edilən ağaclar möhkəmliyi baxımından xüsusi növ ağac olmuşlar. Belə ki, üfiqi vəziyyətdə qoyulmuş ağac tirlərin üzərinə düzülmüş daş örtüyünün qalınlığı təxminən 2 metr təşkil edirdi ki, bunun saxlanılması üşün möhkəm və dayanıqlı ağaclara ehtiyac vardır. Kurqanda yanmaya və çürüməyə məruz qalmadan aşkar edilən ağac qalıqları əsasında, onların möhkəm və uzunömürlü arcan ağacı oldugu müəyyənləşdirilmişdir. Kameranın içərisindən və divarların üzərindən aşkar edilən kömürləşmiş ağac qalıqlarının qalınlığına əsasən, onların kifayət qədər böyük olduğunu, diametrinin 20-30 sm və ola bilsin daha çox olduğunu söyləmək mümkündür. Kurqanın üst örtüyündən diametri 14 sm, uznluğu isə 40 sm olan, hər iki tərəfi yanmış ağac hissəsi aşkar edildi. Ağacın bu hissəsi hansı səbəbdənsə yanmışdır.

Kurqan kamerasının döşəməsinə xırda çınqıl döşənərək bərkidilmışdır. Kameranın dörd küncündə diametri 30-35 sm, dərinliyi 25-30 sm olan kiçik quyular müəyyən edildi. Bu quyularda ağac tirlər basdırılmışdır ki, onların içləri təmizlənərkən, tirlərin çürümüş halda qalıqları aşkar edildi. Kameranın dörd küncünə basdırılmış ağac tirlər, sərdabə qurularkən istinad mərkəzləri rolunu oynamışdır.

Kurqan kamerasının giriş qapısı üzərinə qoyulmuş, bir-birindən 60 sm aralı, iki ağac tir qalıqları aşkar edildi. Onlardan girişə doğru olanı yanma prosesindən kənarda qalaraq, əvəzində güclü çürüməyə məruz qalmışdır. Kameraya doğru olan tir isə, yandığı üçün kömürləşmiş halda aşkar edildi.

Uzun Rəmə İlk tunc dövrü kurqanının sərdabəsi uzunmüddətli istifadə üçün nəzərdə tutulmuşdur. Kurqandan daha geniş elmi məlumat almaq üçün, Türkiyədən antropoloq mutəxəssislər dəvət edilmiş və qazıntı işləri onların iştirakı ilə başa çatdırılmışdır. Kurqan sərdabəsində dəfn edilmiş insanların müxtəlif yaşda olmaları müəyyən edilmişdir. Aşkar edilmiş sümüklərin 2-3 yaşlı körpə uşaqlardan, daha yaşlı insanlara qədər bütün yaş kateqoriyasına uyğun gəlmələrini söyləyə bilərik. Aşkar edilmiş sümüklərin analizi göstərir ki, dəfn edilmiş insanların böyük qismi 15-35 yaşları arasında dünyasını dəyişmişdir. Həmçinin ölən insanlar arasında qadınlar və uşaqlar sayca çoxluq təşkil edirlər.



Şəkil 4. Uzun Rəmə ilk tunc dövrü kurqanın üst örtüyünün görüntüsü.



Şəkil 5. Uzun Rəmə ilk tunc dövrü kurqanaltı sərdabənin kamerası.

Sərdabə tam dolduqdan sonra dini adət ənənəyə uyğun olaraq ona od vurulub yandırılmışdır. Yandırılma dini dünyagürüşlə yanaşı, gələcəkdə sərdabədə baş verə biləcək qarətin qarşısını almaq səbəbindən də bir adətə cevrilə bilərdi. Bütün hallarda sərdabə dolduqdan sonra onun yandırılması bir adət olmuşdur. Sərdabə yandırılarkən, onun qərb divarı boyunca örtüyünün bir hissəsi açılmış və sonradan alov verilərək yandırılmışdır. Belə ki, kurqan kamerasının qərb divarı tamamilə, şimal-qərb və cənub-qərb divarları isə 1,5 metr enində alovun təsirindən yanaraq qırmızı rəng almışdır. Yandırma prosesi zamanı giriş qapısı açıq saxlanılmışdır. Nəticədə, dromos hissəsindən daxil olan güclü hava axını, alovu dahada gücləndirmiş yuxarıdan açılmış hissədən isə alov bayıra sorulmuşdur. Sərdabədə yanma prosesi sanki təndir və ya kürə effekti verəcək bir səviyyəyə gətirilmişdir. Yanma sərdabədə çox yüksək temperatur yaranmışdır ki, nəticədə dəfn edilən insanların sümükləri və sərdabəyə qoyulmuş maddi mədəniyyət nümunələri güclü yanmaya məruz qalmışdır.

Sümüklər bəzən külə dönmüş, bəzən isə kömürləşmişdir. Alovun təsirindən bəzən çay daşları əriməyə məruz qalmış və şlaklaşaraq bir-birinə yapışmışdır. Alov əsasən sərdabənin qərb hissəsində açıq yerdən çıxdığı üçün, bu hissələr, xususən qərb, cənub-qərb və şimal-qərb hissələri daha güclü yanmaya məruz qalmışdır. Qərb hissədə çiy kərpiclər və daşlar yanmanın təsirindən qırmızı rəng almışdır. Bu səbəbdən burada olan istər insan sümükləri, istərsə də qəbir əşyaları güclü yanmaya məruz qalmışdır. Şərq tərəfdən dromosdan daxil olan külək, alovu qərbə doğru qovduğu üçün, bu hissələr əksinə daha az yanmaya məruz qalmışdır.

Sərdabədə dəfn olunan insanların sümükləri bir müddətdən sonra, daha doğrusu yeni ölmüş insanın dəfn edilməsi ilə əlaqədar olaraq, bir yerə yığıldıqları üçün, onların ilkin vəziyyətinin müəyyən edilməsi mümkün olmamışdır. Artıq bu hal bir neçə dəfə təkrarlanarkən sərdabənin orta hissəsi istisna olunmaqla, digər yerlərində xüsusilə kənar hissələrdə qalın insan sümüyü təbəqəsi əmələ gəlməsinə səbəb olmuşdur. Digər tərəfdən sərdabə yandırılarkən, yanmanın təsirindən və üst örtüyünün çökməsi zamanı qəbirdə olan bütün əşyalar, o cümlədən sümüklər, kül, komür, ağac parçaları və daşlarla tamamilə qarışmış və qalın bir təbəqə əmələ gətirmişdir. Bu səbəblərdən dəfn olunan insanların dəfn istiqamətlərini və formalarını müəyyən etmək mümkün olmamışdır. Bununla yanaşı, bu səbəblərdən sərdabədə dəfn olunan insanların sayının dəqiqləşdirilməsi də hələ ki, mümkün olmamışdır. İlkin təxminlərə görə burada dəfn olunanların sayı 60-80 nəfər arasındadır.

Kurqan sərdabəsindən bütöv və dağılmış halda xeyli sayda saxsı qab nümunələri, taxtadan hazırlanmış vaza tipli qabın kömürləşmış qalıqları, ağacdan hazırlanmış taxcanın kömürləşmiş qalıqları, sümükdən hazırlanmış iy başlıqları, pasta muncuqlar, mineral daşdan hazırlanmış möhür və parça qalıqları aşkar edildi.

Keramika.

Kurqandan erkən tunc dövrünə aid saxsı qab nümunələri aşkar edildi. Onların böyük qismi yanğın zamanı üst örtüyün çökməsi nəticəsində, tamamilə dağılmışdır. Aşkar edilmiş qabların əksər hissəsi küpə və xeyrə tipli qablardır. Belə ki, saxsı qablardan 27 ədədi küpə tipli, 17 ədədi isə xeyrə tipli saxsı qablara məxsusdur. Sərdabədən aşkar edilmiş saxsı qabların 25 ədədini tamamilə bərpa etmək mümkün olmuşdur. Saxsı qab nümunələri küpə, xeyrə, bardaq, dopu, kasa və s. ilə təmsil olunmuşdur.

Saxsı qabların əksəriyyəti kiçik həcmlidir. Ümumiyyətlə, saxsı qablar qara, boz və açıq sarımtıl-qırmızı cilalıdır. Onların hazırlanmasında istifadə olunan gilin tərkibinə narın qum qatılmışdır. Bəzi xeyrə tipli saxsı qablarda daha iri dənəcikləri olan qum qarışığı vardır.



Şəkil 6. Uzun Rəmə ilk tunc dövrü kurqanaltı sərdabənin keramikası.

Küpə tipli saxsı qablar qulplarının hazırlanma və yerləşmə formasına görə iki tipə ayrılır. Bu saxsı qabların böyük qisminin yanlarında en kəsiyi lentşəkilli, iki qulpu vardır ki, bəzi qablarda bu qulplar çiyin ilə ağız hissəni, bəzilərində isə çiyinlə boğaz hissəni birləşdirir. Birinci tip küpə tipli qabların boğaz hissəsi qısa olduğundan, çiyindən bir başa ağız hissəyə keçid olmuşdur.

Küpə tipli saxsı qabların bəzilərinin oturacaq hissəsi içəriyə doğru batıqdır. Ümumiyyətlə, qablar sadə formada hazırlanmışdır. Belə ki, onların üzərində heç bir naxışa rast gəlinmir.

Kurqandan aşkar edilmiş saxsı qablar içərisində kəmiyyətcə üstünlük təşkil edənlərdən biri də xeyrələrdir. Xeyrələr digər qablardan nisbətən iri həcmli olmaları ilə nəzərə çarpır. Onlar qara, boz, və ya bozla qaranın qarışıq rənglərində olmaqla sadə formada hazırlanmışdır. Xeyrələrin bir qisminin ağız kənarlarında qoşa məməcik formalı, digər qismində oval formalı tək çıxıntılar, bəzilərində isə ortasında yandan deşik olan kiçik yapmalar var idi. Qulpu xatırladan bu cür yapmalar, bəzi xeyrələrdə bir tərəfdə, bəzilərində isə hər iki tərəfdə qoyulmuşdur.

Xeyrələr formaca oxşar olmaqla əsasən ölçülərinə və ağız kənarlarının müxtəlifliyinə görə bir-birindən fərqlənirlər. Onların bir qisminin ağız kənarları düzbucaqlı formasında, bir qisminin ki, oval, nisbətən enli, düz formada, bir qisminin ki, isə oval nazik formada içəriyə doğru meylli hazırlanmışdır.

Kurqandan aşkar edilmiş saxsı qabların xarakterik xüsusiyətləri və spesifik hazırlanma formasına nəzər yetirdikdə, onların klassik Kür-Araz mədəniyyəti qablarından bir qədər özünəməxsusluğu ilə seçildiyini söyləyə bilərik. Xüsusi ilə bu fərqlilik qabların qulplarının hazırlanmasında özünü aydın biruzə verir. Demək olar ki, bu qablarda yarımşarvari, həmçinin öküz burnunu xatırladan qulplara rast gəlinmir. Xüsusi ilə klassik Kür-Araz qabları qulplarının kənarlarında olan, qulpla bir komleks təşkil edən qabarıq çıxıntılı naxışlar qoyulmamışdır. Sərdabədən aşkar edilmiş saxsı qabların en kəsiyi oval olan, sadə formalı qulpları vardır. Digər tərəfdən klassik Kür-Araz qablarının çiyin hissələrində, gövdədən boğaza keçidin sərt şəkildə ayrılması diqqəti çəkdiyi halda, bu qablarda bunu hiss etmək mümkün deyildir. Həmçini gövdənin quruluşunda da bu qabların özünəməxsus formaları vardır. Sərdabədən üç ədəd taxtadan hazırlanmış, xeyrə tipli qab kömürləşmış halda aşkar edildi.



Şəkil 7. Uzun Rəmə ilk tunc dövrü kurqanaltı sərdabənin iy başlıqları və müncüqlar.

Ağac taxca. Sərdabənin cənub-qərb küncündən bir ədəd taxtadan hazırlanmış taxcanın kömürləşmiş qalıqları aşkar edildi. Taxcanın üst hissəsində saxsı qab və insan sümükləri aşkar edildi. Taxca üzərində olan sümüklərin tayfanın nüfuzlu şəxsinə aid olduğunu söyləmək olar. O, dəfn edilərkən taxca üzərində, sərdabənin ən mötəbər hissəsində qoyulmuş və yanına qablar düzülmüşdür.

İy başlıqları. Sərdabədən 7 ədəd, sümükdən hazırlanmış iy başlıqları aşkar edidi. Onlar konusvarı formada hazırlanmışlar. İy başlıqları formaca oxşardır. Onların diametrləri 3,5-4 santimetrdir.


Sərdabədən əmək aləti olaraq, yalnız çoxsaylı iy başlıqlarının və xeyli miqdarda bükülü formada parça qalıqlarının aşkar edilməsi, bu tayfaların əsasən toxuçuluq sənəti ilə məşğul olmalarını söyləməyə imkan verir.

Bəzək əşyası. Sərdabədən xeyli sayda qara və ağ rəngli pastadan hazırlanmış, kiçik ölçülü muncuqlar aşkar edildi (604 ədəd). Onlar bir yerdə olmaqla, uşaq skelitinin üzərində rast gəlindi Muncuqlar təkərvarı formada hazırlanmışdır. Forma və ölçü cəhətdən eyniyyət təşkil edirdilər. Muncuqların diametri 2-3 mm-dir.

Parça qalıqları. Sərdabədən aşkar edilmiş maraq doğuran tapıntılardan biri də, parça hissələridir. Onlar sərdabədə bəzən bükülü halda, bəzən isə sümüklərin üzərində rast gəlinirdi. Parçalar nisbətən yanmaya məruz qalmış, bəzi hissələri isə kömürləşmişdir.

Sərdabədən aşkar edilmiş maddi mədəniyyət nümunələrinin xarakterik xüsusiyyətləri və klassik Kür-Araz mədəniyyəti nümunələri ilə qarşılıqlı müqayisəsi zamanı, onların nisbətən fərqli əlamətlərə malik olduğu qənaətinə gəlmək mümkündür. Aparılan tarixi-analitik tədqiqatlara əsasən, bu mədəniyyətin Kür-Arazla eyni dövrə aid edilməklə, fərqli mədəniyyət olması və yaxud Kür-Araz mədəniyyətindən Orta tunc dövrünə keçid mərhələsi olması qənaitinə gəlinmişdir. Bu fikirlərin qətiləşdirilməsi üçün yetərli elmi faktlara ehtiyac vardır. Bunula əlaqədar olaraq, Sərdabədən götürülmüş kömür nümunələrinin C 14 analiz edilməsi və bu kimi digər laborator tədqiqatların aparılması və əldə edilən nəticələr əsasında yekun fikir söyləmək mümkündür.

Uzun Rəmə kurqan çölündə tədqiq edilən Son tunc dövrü kurqanları forma və quruluşuna görə oxşardır. Onların hər üçünün kameraları oval formalı qazılmış, dəfn həyata keçirildikdən sonra üzərləri çay daşları ilə örtülmüş və sonra azacıq torpaq qatı əlavə edilmişdir. Kurqanlardan insan skeleti, saxsı qab nümunələri, metal bəzək əşyaları, mineral daşlardan muncuqlar və s. aşkar edildi.



Şəkil 8. Uzun Rəmə son tunc dövrü kurqanını keramikası və bəzək əşyaları.

Daşkəsən rayonu ərazisində tədqiq olunan Xoşbulaq kurqanı, qəsəbəyə 500 metr qalmış, kənd qəbiristanlığından 250 metr aralı, Daşkəsən-Xoşbulaq şose yolunun sağ tərəfində, dağın yamacında yerləşmişdi.



Şəkil 9. Xoşbulaq kurqanın görüntüsü.

Kurqanın diametri 15 metr hündürlüyü 1,5 metr idi. Kurqan kamerası 50 sm dərinlikdə qazılmış və üst örtüyü kimi kiçik qaya daşlarından istifadə edilmişdir. Aparılan qazıntılar nəticəsində kurqanın vaxtı ilə qarətə məruz qaldığı müəyyən edildi. Qazıntı zamanı bir neçə ədəd muncuq, heyvan və insana məxsus sümük parçaları, saxsı və şüşə qabların hissələri aşkar edildi.

Xoşbulaq kəndi ərazisində arxeoloji abidə kimi qeydiyyata alınmış abidələrə baxış keçirilərkən onların bir qisminin dağıntıya məruz qaldığı müəyyən edildi. Bu abidələrdən xüsusi ilə dünya əhəmiyyətli abidə kimi qeydiyyata alınmış Xoşbulaq kurqanı, ölkə əhəmiyyətli Daşlıtəpə qalaçası, Çobandaşı siklopik tikilisi və s. qeyd edə bilərik ki, onlar bir abidə kimi məhv olmaq üzrədir.

Б.М.Джалилов

О РЕЗУЛЬТАТАХ ИССЛЕДОВАНИЙ ГЕЙГЕЛЬ-ГЕРАНБОЙСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

Археологическая экспедиция проводила раскопки на курганном поле Узун Рама на территории села Карадаглы Геранбойского района, где были исследованы один курган периода ранней бронзы и три кургана периода поздней бронзы-раннего железа, а также раннесредневековые курганы на территории села Хошбулаг Дашкесанского района.

Курганы села Карадаглы расположены в 400-х метрах к северу от села Шадылы, в одной цепи малых холмов, на плато Узун Рама. Координаты исследованных курганов следующие: север 49392870, восток 46345890. Курганы на 302 метра выше уровня моря.

Диаметр верхнего покрытия исследованного кургана ранней бронзы достигал 16 метров, высота 1,7 метра. Раннебронзовый Курган Узун Рама возведен в форме склепа. Стены и вход кургана сооружены из четырехугольного сырцового кирпича. Сверху он был покрыт деревянными балками, булыжником и слоем земли толщиной 20-30 см. Вход кургана направлен на восток, с малейшим отклонением к северу. После полного заполнения склепа он был подожжен. Результаты раскопок выявили здесь захоронения большого числа людей. В склепе обнаружены образцы керамики, костяные пряслица, бусы из пасты, обугленные остатки деревянной посуды, остатки одежды и другие образцы материальной культуры периода ранней бронзы.

На основе артефактов кургана склепного типа, можно утверждать, что этот памятник отличается от памятников Куро-Аракской культуры рядом особенностей.

Исследованные раннебронзовые курганы курганного поля Узун Рама идентичны по форме и структуре. Все три кургана имеют овальную форму, после совершения погребального обряда камеры засыпаны булыжником и тонким слоем земли. В курганах обнаружены человеческий скелет, образцы керамических сосудов, металлические украшения, бусы из минералов и т.д.

Хошбулагский курган Дашкесанского района расположен на расстоянии 250 метров от сельского кладбища, на правой стороне Дашкесано-Хошбулагской шоссейной дороги на горном склоне. Диаметр кургана составляет 15 метров, высота 1,5 метра. Курганная камера вырыта на глубину 50 см и в качестве покрытия использованы небольшие рваные камни. В результате проведенных раскопок определено, что курган был ограблен. В процессе раскопок обнаружены несколько бусинок, кости животных, черепки керамических сосудов и осколки стеклянных изделий.

B.M.Jalilov

ABOUT THE RESULTS OF THE ARCHAEOLOGICAL INVESTIGATIONS BY GEYGOL-GERANBOY ARCHAEOLOGICAL EXPEDITION

SUMMARY

Archaeological expedition conducted the excavations in the Uzun Rama barrow field in the village of Garadagli of the Geranboy region, in one Early Bronza Age, in three barrows dated back to the Last Bronze and Early Iron epoch and in barrow dated to the Early Middle Ages in the territory of village Khoshbulag of the Dashkasan region.

The barrows, investigated in the territory of the village Garadagli of the Geranboy region, are located 400 meter north of village Shadli, on the chain of the small hill,on the plateau, called Uzun Rama. The location coordinates of the investigated barrows: north 40392870, east 46345890. The area of the settled barrows of 302 meters above the sea level.

The diameter of the top of the cover of the investigated Early Bronze Epoch barrow of 16 meter, the height was 1,7 meter.The Early Bronze Epoch barrow, Uzun Rama, prepared in the form of tomb, was intended for the long term burial.

The walls and entrance of the barrow built from uncooked brik, has been prepared in the shape of quadrangle. Its surfaces has been covered with bars of woods, river stones has been laid over it and in the end 20-30 cm thick layer of soil has been added tothe over. The entrance of the barrow to the east is slightly inclined to the north. After filling full the tomb has been set fire and burnt down. In the result of the conducted excavations in the barrow there have been determined a numerous of burial people in the tomb. Potteries dated back to the Early Bronze Age, spindel headlines made from bone, paste beads, carbonized remains of jars made from wood, textile remains and other patterns of material culture were discovered from the barrow.

On the basis of the obtained artifacts, we should mention, the different characteristics of the monument from the Kur-Arax culture.

The investigated Last Bronze Age barrows in the Uzun Rama barrow field are the same in the term of form and structure. All three of chambers have been dug out in the shape of oval, after unearthing the burial their surfaces have been covered with river stones and then a little layer of soil has been added. A human skeleton, the patterns of the potteries, metal jewelry, beads from mineral stones and etc. were found from the barrows.

The Khoshbulag barrow, investigated in the Dashkasan region is situated 250 meters from the village cemetery, on the right side of the Dashkasan highway, on the mountain slope. The diameter of the barrow of 15 meter and the height was 1,5 meter. The chamber of the barrow has been excavated at a depth of 50 meter and small rock stones have been used as a surface cover. In the result of the conducting excavations it was determined that, the barrow had been undergone to the robbery in the past.Several beads, the bone fragments belonging to the animal and human being, parts of the potteries and glass vessels wer found during the excavations.

ŞAHTAXTIDA ARXEOLOJİ ARAŞDIRMALAR
(Naxçıvan MR, Kəngərli rayonu)

Q.H.Ağayev, Z.H.Rzayev

2012-ci ildə tədqiqat işlərinin əsas məqsədi Şahtaxtı qalasında arxeoloji qazıntı işlərini davam etdirərək abidənin stratiqrafiyasını müəyyənləşdirmək, qədim tayfaların məişət və təsərrüfat həyatlarını öyrənmək, əvvəlki illərdə aparılan tədqiqatlarla müqayisələr etmək, etnogenetik əlaqələri öyrənməkdən ibarət olmuşdur. Bu məqsədlə də qazıntı sahəsinin artırılması məqsədə uyğun görülmüş, qazıntı sahəsi 125 kv metr artırılaraq 525 kv metrə çatdırılmışdır.

2012-ci ildə aparılan qazıntı işləri nəticəsində 6 mədəni təbəqə aşkarlanmış və son qazıntının nəticələrinə əsaslanaraq belə bir fakt təsdiqlənmişdir ki, Şahtaxtı ərazisində qədim tayfalar heç bir yerdəyişmə etmədən uzun müddət yaşamış və zəngin mədəni irs yaratmışlar. Qazıntılar 6,2 metr dərinliyə qədər çatdırılsa da, əvvəlki illərdıəki kimi materik səhtinə çıxmaq mümkün olmamışdır. Lakin, əldə olunmuş materiallar bir daha sübut edir ki, qədim tayfalar eneolit dövründən bu ərazidə məskunlaşaraq sənətkarlıq sahələrini inkişaf etdirmiş və ilkin şəhərsalma mədəniyyətinin formalaşmasında böyük rol oynamışlar. Maddi-mədəniyyət nümunələri içərisində erkən Kür-Araz mədəniyyətinin formalaşdığı dövrlərdən başlayaraq orta əsrlərə qədər nümunələr əldə edilmişdir. Bir daha sübut olunmuşur ki, yerli tayfaların məskunlaşdığı Şahtaxtı yaşayış yeri əlverişli strateji mövqedə yerləşdiyindən qədim tayfalar ətraf əraziləri nəzarətdə saxlamağı bacarmışlar ki, bu da tayfaların əkinçilik üçün əhəmiyyətli otlaq sahələrinə nəzarət etməsinə, maldarlığın və əkinçiliyin paralel olaraq inkişaf etdirilməsinə zəmin yaratmışdır. Aparılmış çoxillik tədqiqatlara əsaslanaraq bu fikrə gəlinmişdir ki, yerli tayfalar ərazidə yüksək mədəniyyət yaratmış, qonşu tayfalarla sıx iqtisadi mədəni əlaqələrdə olmuş, bunlar isə sonralar daha inkişaf etdirilərək qohumluq əlaqələrinin yaranmasına, siyasi və hərbi əlaqələrin genişlənməsinə gətirib çıxarmışdır. Bunun da nəticəsində Şahtaxtı yaşayış yeri şəhərsalma mədəniyyətinin əsasını qoymuşdur. Sonralar, Şahtaxtı ərazisində formalaşmış sənətkarlıq sahələri daha uzaq ərazilərə transformasiya olunmuşdur ki, bu da Ön Asiya, Urmiya gölü və Yaxın Şərq ərazilərində yaşayan tayfalarla əlaqələrin yaranmasına gətirib çıxarmışdır. Araz çayının Şahtaxtı yaşayış yerinin yerləşdiyi ərazinin yaxınlığından axması ərazidə sənətkarlığın inkişafı ilə bərabər, ticarət əlaqələrinin də genişlənməsinə səbəb olmuşdur. Tədqiqatlar zamanı müəyyən edilmişdir ki, yaşayış yerinin salındığı ərazi Kəngərli düzünün böyük hissəsinə nəzarət etməyə imkan verir. Ərazidə yerləşən otlaq sahələri, əkinçilik üçün yararlı torpaq sahələri, böyük şirin su ehtiyatı, zəngin təbii sərvətlər qədim tayfalarda əkinçilik və maldarlıqla yanaşı sənətkarlığın çoxşaxəli inkişafına da zəmin yaratmışdır.

2012-ci ildə Sahtaxtı yaşayış yerinin yerləşdiyi ərazidə eyni zamanda kəşfiyyat xarakterli qazıntılar da aparılmışdır. Burada əsas məqsəd abidənin dağılmağa məruz qalmış erkən orta əsrlər dövrü mədəni təbəqəsini öyrənməkdən ibarət olmuşdur. Məlumat üçün qeyd edək ki, Şahtaxtı yaşayış yerinin erkən orta əsrlərə aid mədəni təbəqəsi demək olar ki, əsasən yerüstü materiallarla zəngindir. Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının bəzi başqa abidələri kimi Şahtaxtı yaşayış yerinin də ilk orta əsrlərə aid mədəni təbəqəsi xeyli zərər görmüşdür. Şahtaxtı ərazisi uzun müddət İran və Türkiyə ilə Rusiya arasında aparılmış müharibələr zamanı döyüş meydanına çevrilmiş, bu səbəbdən də qədim dövrlərə aid olan qala divarlarının yerüstü görünən hissələri tamamilə dağıdılmışdır. Şahtaxtıda indi də “Rus təpəsi” deyilən ərazinin olması, Şahtaxtı yaşayış yerinin Gavurqala adlandırılması dediklərimizin sübutudur. Şahtaxtı yaşayış yerinin ilk orta əsrlər təbəqəsi zərər görsə də, bəzi ərazilərdə bu mədəni təbəqəni qismən də olsa izləmək mümkün

olmuşdur. Erkən orta əsrlərə aid tikili qalıqlarına rast gəlinməsə də, xeyli miqdarda keramika nümunələri əldə edilmişdir. Bu keramika nümunələrinə əsaslanaraq söyləmək olar ki, Şahtaxtı ərazisində keramika sənətkarlığı ilk orta əsrlərdə əsas sənətkarlıq sahələrindən biri olmuş və ticarətin inkişafında mühüm rol oynamışdır.

2012-ci il qazıntıları zamanı ərazidən Erkən Orta əsrlər dövrünə aid ocaq qalıqları və təndir aşkarlanmışdır. Qeyd etdiyimiz kimi təbii fəlakətlər, işğalçılıq müharibələri qədim abidənin maddi-mədəniyyət nümunələrinin zərər görməsinə səbəb olmuşdur. Bu səbəbdəndir ki, Erkən Orta əsr mədəni tədəqəsindən digər qədim dövrlərə də aid maddi-mədəniyyət nümunələri tapılmışdır.

Qeyd etdiyimiz kimi, Şahtaxtı Erkən orta əsrlər keramikasını əsasən məişətdə və təsərrüfatda işlənən gil qablar təşkil elir. Orta ölçülü küpələr, badyalar, fincan qırıqları hissəsi sarı gildən hazırlanmış, divar qalınlıqları 0,7-1 sm arası dəyişir. Hazırlanma texnologiyaları yüksək səviyyədə olub, üzərləri türk-islam ornamentasiyası ilə naxışlanmış və yüksək temperaturda bişirilmişdir.

2007-2011-ci illərdə aparılan qazıntı və kəşfiyyat işləri zamanı əldə olunan keramika nümunələrinin oxşarlığı və çoxluğu onu söyləməyə əsas verir ki, bu saxsı parçaları yerli sənətkarlar tərəfindən hazırlanmış və lokal xüsusiyyətlərə malikdir. Bütün bunlara əsaslanaraq söyləmək olar ki, Erkən orta əsrlərdə də Şahtaxtı ərazisində qədim dövrlərdə olduğu kimi keramika sənətkarlığı yüksək səviyyədə olmuşdur. Eyni zamanda belə bir fikir söyləmək olar ki, bu dövrdə yaşamış əhalinin qədim tayfalarla etnogenetik bağlılığı da olmuşdur.

2012-ci ilin arxeoloji qazıntı işləri, əvvəlki illərdə tədqiqat aparılmış qazıntı sahəsinin şimal hissəsinə bitişik olan yeni götürülmüş 125 kv. metrlik ərazidə davam etdirildi. Qazıntı sahəsinin üst hissəsi təmizləndikdən sonra tədqiqat işlərinə başlanıldı. Yeni götürülmüş qazıntı sahəsində, antik dövr mədəni təbəqəsi aşınma səbəbindən üzə çıxmışdır. Bu da antik dövrə aid maddi-mədəniyyət nümunələrinin zərər görməsinə səbəb olmuşdur.Buna baxmayaraq təbəqənin alt qatlarında bur sıra maddi-madəniyyət nümunələri aşkar edilmişdir. Eyni zamanda bu dövrə aid yaşayış tikililəri də aşkarlanmışdır.

Şahtaxtı yaşayış yerinin antik dövr mədəni təbəqəsi təqribən 60-70 sm qalınlığında olub, son dəmir dövrü mədəni təbəqəsinin üzərində yerləşir. Qeyd etmək lazımdır ki, Şahtaxtı yaşayış yerində ilk orta əsrlərə qədər intensiv yaşayış olduğundan mədəni təbəqələr arasında keçid təbəqələrinə də rast gəlmək olur. Bu təbəqələrdə osteoloji qalıqların içərisində özündən əvvəlki təbəqəyə məxsus maddi-mədəniyyət nümunələrinin qalıqlarına qarışıq şəkildə rast gəlinir.

Şahtaxtı yaşayış yerinin antik dövr mədəni təbəqəsinin tikili qalıqları burada yaşayışın olduğunu sübut edən faktlardan biridir. 2012-ci il arxeoloji qazıntıları əvvəlki illərdə (2007-2011) tədqiqatlar zamanı aşkar edilmiş divar qalıqlarının şimal istiqamətində genişləndirilmişdir.

Əvvəlki illərdə olduğu kimi 2012-ci ildə də aparılan tədqiqatlar zamanı qazıntı sahəsinin bu təbəqəsindən xeyli miqdarda şüşə və keramika nümunələri əldə edilmişdir. Müxtəlif rəngli şüşə və keramika məmulatları içərisində məişət əşyalarının qalıqlarına rast gəlinmişdir.

Tapılmış maddi-mədəniyyət nümunələri içərisində şüşədən hazırlanmış bəzək əşyaları üstünlük təşkil edir. Qara şüşədən hazırlanmış bu parçalar əsasən sırğa, üzük və bilərzik hissələridir.

Qazıntılar zamanı aşkar edilən yaşayış evlərinin daxili hissələrində müxtəlif ölçülü daşdan hörülmüş taxça tipli tikililərə də rast gəlinmişdir ki, bunlar da həmin dövr məişət əşyalarını və tikili daxili interyeri öyrənmək baxımından maraq kəsb etmiş olur.

Qeyd etdiyimiz kimi antik dövr mədəni təbəqəsi bu il artırılmış qazıntı sahəsində qismən izlənilsə də kifayət qədər maddi-mədəniyyət nümunələrini aşkar etmək mümkün olmuşdur. Onların arasında heyvan sümüklərinin qalıqları üstünlük təşkil edir. Bu da onu göstərir ki, artıq antik dövrdən başlayaraq ərazidə yaşamış qədim insanlar arasında heyvandarlıq sahəsində ixtisaslaşma baş vermiş, ərazinin florasına uyğun heyvandarlıq təsərrüfatı formalaşmışdır.

Ümumiyyətlə, demək olar ki, antik dövr mədəni təbəqəsi fauna baxımından zəngindir. Bunlardan bir qismi yerli heyvan nümunələri olsa da, ticarətin inkişafı ilə bağlı ərazidə mövcud

olmayan canlı nümunələrinə də rast gəlinir. Bu dövrdə dəniz və çay mənşəli heyvanların sümüklərindən və sədəfdən hazırlanmış bəzək əşyaları, məişət əşyaları üstünlük təşkil edir.

Yaşayış yerinin qeyri bərabər dağıdılmış ilk orta əsrlər təbəqəsindən sonra antik dövr mədəni təbəqəsi başlayır. 20 sm. dərinlikdə aşkar edilən antik dövrə aid tikili qalıqları, əvvəlki illərin qazıntıları zamanı aşkar edilmiş tikili qalıqları ilə ardıcıl sürətdə izlənildi. Əlavə edilmiş qazıntı sahələrində yaşayış evlərinin dördkünc olması dəqiqləşdirildi. Tikinti materialı kimi ərazidə böyük yataqları olan yerli tikinti materialından istifadə olunduğu müəyyən edildi. Tikinti qalıqlarının eni 85-95 sm. arasında dəyişir ki, bu da daşların bir o qədər də emal olunmaması ilə bağlıdır. Çünki, daşların içərisində müxtəlif geoloji dövrlərin çöküntüləri olduğundan daşların sərtlik və möhkəmlik səviyyəsi eyni deyildir.

Şahtaxtı yaşayış yerində evlərin içəri hissəsində ocaq qalıqlarına və xeyli miqdarda osteoloji qalıqlara rast gəlinmişdir ki, bu da bizdə belə bir fikir formalaşdırır ki, bu cür iri tikililər çox güman ki, müəyyən sənətkarlıq məqsədi daşımışdır. Otaqların iri olması, bunlara bitişik bir neçə təsərrüfat otaqları və tapılmış maddi-mədəniyyət qalıqları, bu tikililərin sənətkarlıq emalatxanaları olması fikrini söyləməyə əsas verir. Qəribə burasındadır ki, divarın ortası təqribən 25 sm. torpaqla doldurulmuşdur ki, daxili səthlərin hamarlığı xarici səthlərə nisbətən hamardır. Şahtaxtı torpağı, sementləşmə möhkəm olduğu üçün ondan bu gündə tikinti materialı kimi istifadə olunur. Məhz bu səbəbdən də divar arası torpaq qatı daşların bir-birlərinə daha bərk yapışmasına kömək etmişdir. Ümumiyyətlə, Şahtaxtı yaşayış yerində aparılan qazıntılar zamanı aşkar edilmiş bütün mədəni təbəqələrdə divarlar arası torpaq qatına rast gəlinmişdir. Bu da ərazidə yaşamış qədim tayfaların memarlıq üslubunda bir yaxınlıq olduğunu göstərir. Bu tendensiya keramika ornamentasiyasında, qabların morfoloji oxşarlığında da qabarıq sürətdə əks olunur. Bu də ərazimizdə yaşamış qədim tayfalar arasında bir etnos bağlılığının olmasını və qədim tayfalarla müasir əhalinin arasında bir qohumluq əlaqəsinin olmasını söyləməyə əsas verir. Tədqiqat zamanı, minerallar, o cümlədən obsedian parçaları da aşkar edilir. Təndirin ətrafından balıqqulaqları, müxtəlif rəngli şüşə qab parçaları tapılmışdır.

2012-ci ildə əlavə olunmuş sahədə qazıntı işləri zamanı tikili qalıqlarının daxili hissəsi təmizlənərkən balıqqulaqları, qaban dişləri, dağkeçisi buynuzları aşkar edilmişdir. Bu cür materiallar çox güman ki, sənətkarlığın inkişafı ilə bağlı olmuşdur.

Ərazidən tapılmış şüşə parçalarının əsas özəllikləri ondan ibarətdir ki, bunların əksəriyyətinin tərkibinə xüsusi ovulmuş metal parçaları qatılmışdır. Digər tərəfdən qara şüşə parçaları çox zərif hazırlansa da, günəş şüalarını belə çətinliklə keçirir.

Şüşədən hazırlanmış qab parçalarının əsəriyyətinin ağız hissəsi köbəli olmaqla, görünməz, bulanıq şüşədən hazırlanmışdır. Qara şuşədən çoxlu sayda kiçik ölçülü qab qulpları və bəzək əşyaları tapılmışdır. Bundan əlavə bu sahədən muncuq hazırlamaq üçün rəngli minerallar və müxtəlif formalı rəngli daşlar da tapılmışdır. Bunların qədim tayfaların dini inancları ilə də bağlı olmasını ehtimal etmək olar.

Antik dövr təbəqəsindən tapılmış heyvan sümüklərinin əksəriyyəti tam sağlam halda tapılmışdır. Tapılmış sümüklər arasında diqqət çəkən bütöv kiçikbuynuzlu heyvan başıdır. Çox ehtimal ki, bu keçi başıdır. Çünki, keçiçilik bu gün də belə Şahtaxtıda əsas heyvandarlıq sahəsidir.

Uzun illər Şahtaxtı abidələr kompleksi son tunc və dəmir dövrü abidəsi kimi arxeoloji ədəbiyyatda özünə yer tapmışdır. Bu da əsasən ərazidə fundamental tədqiqatların və qazıntıların aparılmaması ilə əlaqədar olmuşdur. Ərazidə daha çox son tunc və dəmir dövrü tədqiq olunmuşdur.



Yaşayış yerindən tapılmış şirli qab və şüşə bilərziyin bir hissəsi.



Lakin son 6 illik (2006-2012) qazıntılar ərazidə bundan xeyli əvvəllər qədim tayfaların məskunlaşdığını sübut etmişdir. Şahtaxtının son tunc və dəmir dövrü mədəni təbəqəsi ilə yanaşı, bu dövrə aid böyük bir ərazini əhatə edən nekropolu da vardır. Nekropolun ərazisini indiki halda müəyyən etmək olduqca çətindir. Bu dövrə aid maddi-mədəniyyət nümunələrinə kənd ərazisinin hər yerində, qazıntı, evtikmə, təsərüffat işləri zamanı rast gəlinməsi göstərir ki, bu dövrdə Şahtaxtı ərazisində sənətkarlıq özünün çiçəklənmə dövrünə çatmışdır.

Şahtaxtı abidələr kompleksinin arxeoloji material cəhətdən ən zəngin təbəqəsi məhz son tunc və dəmir dövrünə təsadüf edir. Bunun əsas xarakterik cəhəti ondan ibarətdir ki, uzun illər aparılmış qazıntılar əsasən Şahtaxtı-1 nekropolunda aparılmışdır ki, burada son tunc və dəmir dövrlərini əhatə edir. Yaşayış yerində aparılan qazıntılar zamanı əldə edilmiş maddi-mədəniyyət nümunələri içərisində dəmir dövrünə aid silah məmulatları, keramika nümunələri ilə bərabər son tunc-erkən dəmir dövrünə aid tikili qalıqları, təndirlərdə tapılmışdır ki, bu da həmin dövr insanlarının təsərrüfat və məişət həyatları, dini ideoloji görüşləri haqqında fikir söyləməyə əsas verir.


Təqribən, 1 metr 35 sm dərinlikdən izlənməyə başlayan bu mədəni təbəqə qazıntı sahəsinin bütün tədqiqat aparılan sahəsində rast gəlinmişdir. Bu dövrə aid olan tikili qalıqları belə bir ehtimal irəli sürməyə əsas verir ki, artıq bu tarixi erada əhalidə tayfadaxili münasibətlərdə məişət və təsərrüfat həyatlarının qurulmasında eyni tendensiya saxlanılmışdır. Bu da onu göstərir ki, qədim tayfaların həyatında artıq müəyyən qanunlar və qaydalar köklü şəkildə inkişaf etmişdir ki, bu da onlar arasında dini-ideoji həyatlarının öyrənilməsinə imkan verir.

Bundan başqa bu təbəqədən çoxlu sayda daş əmək alətləri, həvəngdəstə, obsidiandan və dəmirdən hazırlanmış silah ucluqları da tapılmışdır. Lakin bunların əksər hissəsi torpağın erroziyası səbəbindən çürümüşdür. Son tunc-dəmir dövrü mədəni təbəqəsindən müxtəlif heyvan sümükləri də tapılmışdır. Bunların arasında əsasən ev heyvanlarından keçi, qoyun və iribuynuzlu mal-qara sümükləri üstünlük təşkil edir. Tapılmış sümüklərin böyük əksəriyyəti parçalanmış haldadır. Bu təbəqədən tapılmış sümüklər arasında diqqət çəkən qoşa buynuzlardır. Bu da, Şahtaxtı ərazisində bu dövrdə ovçuluğun yüksək səviyyədə olmasından xəbər verir. Digər bir dağkeçisinə məxsus qabırğa sümüyü bu fikirlərin ehtimal olmadığını, həqiqətə söykəndiyini göstərir. Belə ki, bitişdirilmiş sümük tapılmışdır. Sümüyün birləşmiş yerində düyün vardır ki, bu da onun iri bir daş parçası ilə sındırıldığını göstərir.

Ərazidən tapılmış yumru, girdə daş parçalarının sapand məqsədi ilə istifadə olunması qənaətindəyik. Belə bir fikir söyləməyə əsas var ki, tunc dövründə maldarlığın inkişaf etməsinə baxmayaraq, qədim insanlar vəhşi heyvanların əhilləşdirilməsinə də maraqlı olmuşlar. Bu da çox güman ki, yeni növlərin alınmasına xidmət etməklə yanaşı, evlərdə müəyyən estetik zövq baxımından saxlamaq məqsədi ilə edilərək artırılmışdır.

Gürcüstan arxeoloqları belə düşünürlər ки, hələ Paleolit dövründən başlayaraq qədim insanlar ovçuluğun inкişafına baxmayaraq fauna və floradakı geofondların qorunmasına maraqlı olmuşlar. Onlar regionlarda təbii atmosferin mühafizəsinə çalışmışlar ки, bu da ibtidai insanlarda eкoloji düşüncə tərzinin formalaşdığını göstərir.






Qazıntı sahəsinin ayrı-ayrı mədəni qatlarında tapılan maddi-mədəniyyət nümunələri.

Bu mədəni təbəqədə tapılan arxeoloji materiallar içərisində minerallar, o cümlədən obsidian parçaları üstünlük təşkil edir. Aşkar edilmiş təndirin ətrafından balıqqulaqları, müxtəlif qab parçaları tapılmışdır.

Şahtaxtı yaşayış yerinin orta tunc dövrü mədəni təbəqəsindən aşkar edilən arxeoloji tapıntılar arasında sümükdən, müxtəlif minerallardan hazırlanmış kəsici alətlər, daş əmək və məişət avadanlıqları üstünlük təşkil edir.

Şahtaxtı yaşayış yerinin orta tunc dövr mədəni təbəqəsindən tapılmış keramika nümunələri əsasən monoxrom boyalı və qara inkrustasiyalı qab parçaları ilə zəngindir. Əldə olunmuş keramika nümunələri göstərir ki, hələ e.ə. II minilliyin əvvəllərindən başlayaraq ərazidə yaşamış tayfalar keramika sənətkarlığında yüksək ixtisas sahibi olmuşlar. Bunun nəticəsində isə istehsal səviyyəsini artıraraq keramika sənətkarlığını elə bir səviyyəyə çatdırmışlar ki, bu da digər tayfalarla iqtisadi mədəni əlaqələrin güclənməsinə səbəb olmuşdur. Sonda əlaqələrin genişlənməsi Şahtaxtı tayfalarının yerləşdiyi ərazinin şöhrət tapmasına və ərazidə şəhərsalma mədəniyyətinin inkişafına gətirib çıxarmışdır. Tapılmış keramika nümunələrinin üzərindəki naxış elementləri qədim tayfaların məişət və təsərrüfat həyatlarının, dini-ideoloji görüşlərinin öyrənilməsi baxımından çox zəngindir. Naxışlanma hər hansı bir ornamentin ayrı-ayrı morfemlərinin (detallarının) öyrənilməsindən ibarətdir. Əldə edilmiş monoxrom boyalı qablar üzərindəki ornamentlərə görə fərqlənir.

Tapılmış keramika nümunələri çox da böyük olmasa da, üzərlərindəki ornamentasiya və naxış müxtəlifliyi etibarilə zəngindir. Orta tunc dövrü keramikasında həndəsi ornamentasiya üstünlük təşkil edir. Belə ki, tapılmış keramika parçaları üzərində ornamentlərə əvvəlki illərdə aparılan qazıntılar zamanı da təsadüf olunmuşdur. Bu dövr keramikasının lokal xüsusiyyətlərinə gəldikdə isə, belə hesab edirik ki, qablar Şahtaxtı ərazisinə yaxın olan gil yataqlarından gətirilmiş, tərkibinə bərkidici kimi qum, əhəng daşı, obsidian, kvars birləşmələri qatılmışdır. Tapılmış keramika məmulatlarının əksər hissəsini his qatı örtmüşdür. Lakin fikrimizə görə bunlar heç də mətbəx ləvazimatı olmasından deyil, ərazidə

baş vermiş təbii fəlakətdən (zəlzələdən) sonra yaranmış yanğınla bağlıdır. Çünki ilk növbədə qazıntı aparılan ərazi təbii fəlakətin episentrinə düşür. Ikincisi isə, indiyə qədər tapılmış bütün keramika məmulatları bu şəkildə tapılmışdır.

Qeyd etmək yerinə düşərdi ki, Şahtaxtı ərazisində keramika sənətkarlığı təkcə hazırlanma texnologiyasına görə deyil, eyni zamanda rənglənmə texnologiyasına görə də lokal əhəmiyyətlidir. Qazıntı zamanı əldə edilmiş süxur və mineralların əksər hissəsindən rəng almaq mümkündür.

Şahtaxtı orta tunc dövrü mədəni təbəqəsindən çoxlu sayda daş əmək alətləri, çapacaqlar da əldə olunmuşdur. Bunlar yüksək ustalıqla hazırlanmışdır. Bunların əksər hissəsinin əmək alətləri kimi, yəni dən döymək, həvəngdəstə qulplarının olması fikrindəyik. Hətta bu gün Şahtaxtı kəndində əksər evlərdə təsərrüfat işləri zamanı tapılmış daş alətlərə rast gəlmək olur ki, yerli sakinlər bunlardan məişət həyatlarında istifadə edirlər.

Fikrmizə görə qədim yaşayış yerinin yüksək sənətkarlığı Şahtaxtı keramikasının uzaq ərazilərə yayılmasına səbəb olmuşdur. Buna ərazinin əlverişli coğrafi mövqedə yerləşməsi də şərait yaratmışdır. Belə ki, Çalxanqala, Oğlanqala kimi həmdövr abidələrlə əlaqələrin saxlanması müəyyən siqnallarla mümkün olmuşdur. Bunlar vasitəsi ilə də Kültəpə, Nəhəcir, Sirab, Qazançı və s. ərazilərdə yaşayan dil qohumluğu olan tayfalarla əlaqələr estafet yolu ilə, bir zəncir halqaları kimi bir-birinə bağlanmışdı.

2012-ci il qazıntıları zamanı Kür-Araz mədəniyyətinə aid çoxlu sayda maddi-mədəniyyət nümnələrinə rast gəlindi ki, bunların da əsas hissəsini həmin dövr üçün xarakterik olan gil qabların qulp hissələri təşkil edir.

Eyni zamanda bu təbəqədən saf qranitdən hazırlanmış girdə, dəyrmi iy başlığına da rast gəlinmişdir. Diametri 6 sm, hündürlüyü 3,5 sm, ortasındakı deşiyin diametri isə 0,5 sm-dir. Yüksək ustalıqla hazırlanmış, üzərində heç bir yonma izinə adi gözlə rast gəlinmir. Buna əsaslanaraq demək olar ki, hələ Erkən Tunc dövründən Şahtaxtı ərazisində daşyonma sənəti inkişaf etməyə başlamışdır.

Əldə edilmiş bir sıra maddi-mədəniyyət nümunələri onu söyləməyə əsas verir ki, sənətkarlıq sahələrinin bir sıra sahələri Şahtaxtı ərazisində Erkən Tunc dövründə başlamışdır. Sümükdən hazırlanmış, uzunluğu 13 sm olan bizi buna misal göstərmək olar. Sənətkarlığın bu cür çoxşaxəli inkişafı gəstərir ki, şəhərsalma mədəniyyətinin kökləri Şahtaxtı ərazisində Erkən tunc dövrünə dayanır.

Obsidiandan hazırlanmış əmək aləti öz unikallığı ilə seçilir. Insan yumruğu böyüklüyündə olan bu alətdən çox güman ki, dənli bitkiləri döymək üçün istifadə olunmuşdur. Mineralın üzəri çox işləndiyindən çopurlaşsa da, öz dairəviliyini qoruyub saxlamışdır.

Başqa mədəni təbəqələrdə olduğu kimi bu təbəqədən də çoxlu sayda suda yaşayan heyvan sümükləri tapılmşdır. Əldə olunmuş iri və kiçik buynuzlu heyvan sümükləri ərazidə maldarlığın inkişaf tempini öyrənməyə kömək edir.

Təqribən 4,7 metr dərinlikdən başlayan Eneolit və qarışıq təbəqədən tapılmış maddi-mədəniyyət nümunələri içərisində daş əmək alətləri, minerallar və kütləvi sayda obsidian parçaları əldə edilmişdir. Dairəvi, yonulmuş dən daşları hələ bu dövrdən başlayaraq ərazidə yaşamış tayfalar arasında əkinçilik mədəniyyətinin formalaşdığını göstərir. Qeyd edək ki, tapılmış heyvan sümükləri içərisində at dişləri, iribuynuzlu heyvanların onurğa sümükləri üstünlük təşkil edir. Əvvəlki illərdəki kimi bu ildə kömürləşmiş osteoloji təbəqədən sonra torpaq yenə də nəmləşməyə başladı. Yenə də qazıntı sahəsində stratiqrafiyanı sonadək izləmək mümkün olmadı. Bu səbəbə görə belə qənaətə gəlindi ki, gələcək ekspedisiyalar zamanı abidədə nəmliyin qarşısını almaq üçün abidənin şimal və şimal-şərq tərəflərində drinajlar vurulsun ki, bu üsulla abidəyə axan qrunt sularının qarşısını almaq mümkün olsun və abidənin stratiqrafiyasını sonadək izləmək mümkün olsun.

Artıq, qazıntı sahəsində sırf Eneolit dövrünün keramikasına rast gəlindi. Bundan başqa ərazidən daş əmək alətləri, ərazinin landşafına uyğun olmayan yastı daşlar və obsedianlar əldə edildi. Keramika məmulatlarının formasını müəyyən etmək mümkün olmasa da, tapılmış parçaların divar qalınlığına və müəyyən formalarına görə, onların müxtəlif çeşidli qablara aid olmasını demək olar. Aşağı

temperaturda bişirilməsinə və torpağın nəmliyinə baxmayaraq keramika parçaları ovulmamışdır. Eneolit dövrü keramikasının bu cür deformasiyaya uğramasına səbəb olan şərtlərdən biri də üzərindəki kömürləşmiş təbəqənin əzilməsi olmuşdur. Bu təbəqənin saxlanılması aşağı təbəqənin sıxılmasına səbəb olmuş və bütöv hissələri basaraq əzmişdir.

Arxeoloji qazıntı sahəsində mədəni təbəqənin dərinliyi 6,2 m. çatdırılsa da 2012-ci ildə də materik səthinə çıxmaq mümkün olmadı. Yuxarıda qeyd etdiyimiz üsul vasitəsilə qrunt sularının qarşısını almaqla, arxeoloji qazıntı işlərini dərinliyə doğru aparmaq olar ki, bununla da biz Şahtaxtı arxeoloji kompleksinin qaranlıq sahələrini daha dərindən öyrənmiş olarıq.

Г.Г.Агаев, З.Г.Рзаев

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ НА ПОСЕЛЕНИИ ШАХТАХТЫ

РЕЗЮМЕ

Шахтахтинская археологическая экспедиция в 2012 году продолжила раскопки на цитадели городища Шахтахты. Раскопочный участок расширен на 125 кв. м., и таким образом, общая площадь раскопа составила 525 кв. м.

Раскопки велись до глубины 6,2 метра, но из-за просачивания грунтовых вод работу пришлось остановить.

Были определены и изучены 6 культурных слоев, охватывающие периоды с начала IV тысячелетия до ранних средних веков.

Результаты археологических исследований свидетельствуют о том, что жизнь на территории поселения продолжалась беспрерывно. Это поселение играло важную роль в создании раннегородской культуры на территории Нахчывана. Шахтахты имело культурно-экономические связи с Переднеазиатскими странами и племенами Приурмийского бассейна.

Q.H.Agayev, Z.H.Rzayev

ARCHAEOLOGICAL RESEARCHES AT THE SETTLEMENT SHAHTAKHTI

SUMMARY

Shakhtakhti archaeological expedition in 2012 continued excavations at the fort Shahtakhti. The main purpose of the excavations was to determine the stratigraphy of the monument. Excavation area expanded to 125 square meters, and thus, the total area of the excavation was 525 square meters.

The excavations were conducted to a depth of 6.2 meters, but because of the seepage of ground water, they had to be stopped.

Six cultural layers, covering the period from the beginning of IV century to the early Middle Ages have been identified and studied.

The results of archaeological studies suggest that life in the settlement continued without interruption. This settlement played an important role in the creation of early urban civilization in the territory of Nakhchivan. Shahtakhti had cultural and economic bonds with the countries of the Near Asia and tribes of Urmian pool.

GƏDƏBƏY RAYONUNDA APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLAR
(Gədəbəy rayonu)

T.N.Göyüşova

2012-ci ildə Gədəbəy arxeoloji ekspedisiyası Gədəbəy rayonunda arxeoloji işlərini "Leşkər qalaçası" adlı son tunc-erkən dəmir dövrünə aid yaşayış yeri olan siklopik tikilidə davam etdirdi.

Ötən illərdə qalaçada aparılmış kəşfiyyat xarakterli tədqiqatlar bu il müsbət nəticələrini verdi. Arxeoloji qazıntı işlərinin miqyası genişləndirilərək 2010-cu ildə tədqiq etidiyimiz I kv-dan qərbdə yerləşən 6x6 (36 kv metr) sahədə, II kvadratda aparıldı. Beləliklə də ümumilikdə qazıntı sahəsi 61 kv m çatdırıldı. Mədəni təbəqəni materikə qədər izləmək mümkün olmuşdur. Mədəni təbəqənin dərinliyi relyefə görə 1,70-180 sm idi.

Qazıntı sahəsindən çay daşlarından və ağ daşlardan tikilmiş divar qalıqları, otaq, təsərrüfat quyuları, ocaq yerləri aşkar edildi.

Mədəni təbəqədən iri tutumlu təsərrüfat küpləri, saxsı məmulatı, daş və sümük alətlər, iy başlıqları, gil möhür, obsidiandan düzəldilmiş kəsici alətlər, çoxlu sayda osteoloji qalıqlar və s. maddi mədəniyyət nümunələri əldə edildi.



Leşkər qalası. Qazıntı sahəsi.

Saxsı məmulatı müxtəlif tipli qablara aid (küp, küpə, xeyrə, bardaq, kuzə, cam, kasa, tava) yüzlərlə fraqmentlərlə təmsil olunur. Qabların əksəriyyəti dulus çarxında hazırlanmışdır. Saxsı məmulatı əsasən boz, qəhvəyi, qara rəngli olub, əksəriyyətinin üzərində batıq xətlərdən ibarət buğdavarı, dalğavarı, torvarı, kəsmə, çərtmə naxışları var. Bəzi qabların üzəri şüyrələnmişdir. Leşkər qalaçasından tapılmış saxsı qab fraqmentləri müxtəlif forma və ölçülərinə görə yüzə qədər qab növünə aiddir. Bu fakt burada əhalinin sıx və intensiv yaşadığını, dulusçuluğun yüksək inkişafını, tunc dövrü tayfalarının zəngin mətbəx mədəniyyətinin olduğunu bir daha sübut edir.



Leşkər qalası. Qazıntı sahəsi.

Daş alətlər əsasən çay daşından düzəldilmişdir. Onların içərisində say etibarı ilə bülöv daşları üstünlük təşkil edir. Obsidian məmulatı əsasən bıçaq lövhələrindən, kiçik nukleuslardan ibarətdir. Dən daşları isə azlıq təşkil edir.

Sümük alətlər iy başlığından, bir neçə ədəd müxtəlif kiçik qaşovlardan ibarətdir.

Aşkar edilmiş xeyli sayda osteoloji qalıqlar, iri və xırda buynuzlu heyvanlara aiddir. Heyvan sümükləri mədəni təbəqənin müxtəlif dərinliyindən eyni zamanda iri küplərin içərisindən tapılırdı. Əldə edilmiş heyvan sümüklərinin içərisində dağ keçisinə məxsus buynuz maraq doğuran faktlardandır.

Əldə edilmiş artefaktlar son tunc-erkən dəmir dövrünə (e.ə. II minilliyin sonu I minilliyin əvvəlləri) aiddir. Leşkər qalaçasından aşkar edilmiş tikinti qalıqları, zəngin arxeoloji materiallar, eyni zamanda qida ehtiyatı olan, iri tutumlu küplərin içərisindən aşkar edilmiş heyvan sümükləri və digər faktlar fikrimizcə qalaçanın əhalinin müəyyən hissəsinin yaşadığı daimi yaşayış yeri olduğunu göstərir.


Leşkər qalaçası siklopik tikilidə aparılan tədqiqatlar zamanı əldə edilmiş artefaktlar tunc dövrü tayfalarının yaylaq-qışlaq təsərrüfatının, məişət həyatının, sənətkarlığının yüksək inkişaf səviyyəsini göstərir.

Gələcəkdə ərazidə aparılacaq geniş miqyaslı qazıntılar abidə haqqında daha tutarlı fikirlər söyləməyə imkan verəcəkdir. Belə ki, Azərbaycanda, xüsusilə də dağlıq bölgələrdə son tunc-erkən dəmir dövrünə aid siklopik tikililərdəki yaşayış evlərinin plan quruluşunu təyin etmək üçün Leşkər qalaçasından aşkar edilən tikili qalıqları, eyni zamanda buradan əldə edilmiş zəngin maddi mədəniyyət nümunələri böyük elmi əhəmiyyət daşıyır.

Bununla yanaşı Gədəbəy arxeoloji ekspedisiyası rayon ərazisində kəşfiyyat axtarış işləri aparmış, nəticədə yeni arxeoloji abidələr aşkarlanaraq qeydə alınmışdır. Kəşfiyyat mərkəzi əsasən Şınıx bölgəsi olmuşdur. Gədəbəy rayonundan şimal qərbdə yerləşən bölgədə ötən il bir neçə abidə qeydə almışdıq. Bu ilki kəşfiyyat axtarış işləri əsasən Motudərə, Qasımağalıları, (onu da qeyd edək ki 1993-cü ildə hər iki kənd Ermənistan ordusu tərəfindən işğal olunmuş, bir neçə aydan sonra Azərbaycan milli ordusu tərəfindən işğaldan azad edilmişdir), Dördlər, Cücanlı, İsalı, Mor-mor, Arabaçı, Zamanlı, Göyəlli kəndlərində və ətraf ərazilərdə İvanovka, Arabaçı, Qalakənd kəndlərində aparıldı. Nəticədə bir neçə yeni arxeoloji abidələr qeydə alındı.



Keramika məmulatı.



Obsidian məmulatı.

Bunlardan biri Göyəlli kəndi ərazisində yerli əhali arasında “Yurd yeri” adlanan yerdə qeydə aldığımız qədim qəbiristanlıqdır. Qəbirlərin yerüstü əlaməti yoxdur. Bəzi dağılmış qəbirlərdən aydın olur ki, bu qəbirlər kiçik ölçülü daşlardan tikilib. Qəbirlərin plan və quruluşu haqqında hələlik dəqiq bir fikir demək olmasa da onların daş qutu tipli qəbir olmadığı dəqiqdir. Yerli əhalidən aldığımız məlumata görə təsərrüfat işləri zamanı dağılmış qəbirlərdən müxtəlif saxsı qablar, tunc bəzəklər, qırmızı və yaşıl rəngli muncuqlar, insan sümükləri aşkar edilir. Yol kənarında dağılmış qəbirlərin birindən topladığımız saxsı qab fraqmentləri müxtəlif formalı qablara aid olub əsasən tünd boz, qara rənglidir. Qablar forma etibarı ilə son tunc-erkən dəmir dövrünə aiddir. Lakin qəbirlərin divarlarının kiçik ölçülü daşlarla hörülməsi bölgə üçün xarakterik deyildir.

Motudərə kəndində, Axınca çayın sağ sahilində yerli əhalinin arançı adlandırdığı köhnə müsəlman qəbiristanlığında daha bir arxeoloji abidə kurqan qeydə aldıq. Hündürlüyü 1 m, diametri 6,50 sm olan kurqan daş qarışıqlı torpaqdan qurulmuşdur.

Mor-mor kəndi ərazisində Topxana adlanan yerdə qalaça-siklopik tikili qeydə aldıq. Tikilinin divarları tamamilə dağılmışdır. Dairəsinin uzunluğu 280 m.dir. Qayalardan hörülmüşdür. Daşların ölçüləri müxtəlifdir. Böyük daşların uzunluğu 1,20, 1,40, sm, eni, 60, 70 sm qalınlığı, 60, 70 sm dir. Ərazidən bir ədəd bülöv daşı parçası aşkar edildi.

Daha bir qalaça Arabaçı kəndində qeydə alındı (Gədəbəy ərazisində iki Arabaçı kəndi var, onlardan biri Novoivanovka kəndi yaxınlığında, digəri sözü gedən Şınıx bölgəsindədir). Axınca və Qaraqaş çaylarının qovuşduğu yerdə təpənin üzərində yerləşən siklopik tikili həyətyanı sahə olduğu üçün tamamilə dağıdılmışdır.

Yalnız yol tərəfdən qalaçanın divarının böyük daşları az da olsa qalmışdır. Qalaçanın divarları iki sırada, yonulmamış daşlardan hörülmüşdür. Qalaçanın ümumi ərazisi 1,5 ha yaxındır.



Daşdan və sümükdən əmək alətləri.

Mormor kəndi ərazisində qeydə aldığımız, yerli əhali arasında Oddax adlandırılan (yəni od yandırılan yer) meşənin ətəyində, təxminən 1 ha yaxın ərazini əhatə edən əkin sahəsindən, antik dövrə aid xeyli yerüstü saxsı fraqmentlərinə, obsidian parçalarına rast gəlinirdi. Bura çox güman ki, antik və erkən orta əsrlərə aid yaşayış yeri olmuşdur. Yer üstündən toplanan saxsı fraqmentləri əsasən açıq qırmızı, qəhvəyi, boz, rənglidirlər. Saxsı fraqmentləri müxtəlif qabların hissələrinə (ağız, oturacaq, qulp, gövdə) aid olub oynaxoya (süddan biçimli qab), cam, küpə tipli qabları, təmsil edir. Şumlanmış ərazidə yanaraq qırmızı rəng almış torpaq kütlələri, ayrı-ayrı şlaklaşmış gil tullantıları əsasında demək olar ki burada antik və erkən orta əsrlərdə dulusçuların istehsal mərkəzi olmuşdur. Ərazinin yaxınlığında, Qiblə eyni zamanda Pəri adlanan bulağın ətrafında üzərinə xaç işarəsi cızılmış daş, aşkar edildi. Daş yarıya qədər torpağın içərisində idi. Daşın ətrafı təmizlənərək torpaqdan çıxarılan zaman məlum oldu ki, burada qədim xristian abidəsinin bünövrəsi yerləşir. Galavan dərəsindən axan sel suları nəticəsində yuyulan cənub divarının bünövrəsinin uzunluğu 12 metr təşkil etmişdir. Qeyd olunan ərazidə xeyli sayda erkən dəmir, antik və ilk orta əsr üçün xarakterik olan saxsı fraqmentləri aşkar edildi. Burdan aşkar edilmiş qədim xristian məbədinin yalnız bünövrəsinin qalması və aşkar edilən daş üzərində xaç işarəsinin yan qanadlarının olmaması, eyni zamanda antik və erkən orta əsr keramikasının çoxluq təşkil etməsi abidəni antik və erkən xristianlıq dövrünə aid etməyə imkan verir.

İvanovka kəndi yaxınlığındakı Arabaçı kəndi ərazisində, Arabaçı çayının sağ sahilində, hündür təpənin üzərində yerli əhalinin oğuz qəbiristanlığı adlandırdığı qədim nekropol qeydə aldıq. Təxminən 6-10 sot sahəni əhatə edən ərazidə qəbirlərin üst örtüyü yer üzündən aydın görünür. Qəbiristanlıq

ərazisindən eyni zamanda üzərində xaç, ilan təsviri olan yonulmuş qəbirüstü daş aşkar edildi. Ərazidə yerüstü materiala rast gəlinmədi. Bu bölgədə yerli əhali adətən son tunc-erkən dəmir dövrünə aid olan daş qutu tipli qəbirlərə oğuz qəbirləri deyir. Lakin qəbirlərdə arxeoloji qazıntı işləri aparmadan, qəbir materialları əldə etmədən onların dəqiq dövrü barədə məlumat verməkbir qədər çətindir.

Göydəyə adlanan yaylaq yeri Rüstəm Əliyev kəndindən cənub şərqdə yerləşir. Ərazidə, meşənin içərisində, nisbətən hündür təpənin üstündə yerləşən siklopik tikili qeydə aldıq. Qalaçanın daşları bir sırada olub, iri qaya parçalarından hörülmüşdür. Qalaçanın dairəsinin uzunluğu 180-200 metrdir. Iri daşların ölçüsü uz. 2,40, 2,20, 2,10, eni 1m, 80 sm, qalınlığı, 50, 70, 40 sm. dir. Qalaçanın salamat qalmış divarının hündürlüyü relyefə görə 2,20,-2,40 sm dir . Qalaçadan 200 m cənubda kromlexli qəbir qeydə aldıq. Qəbirin uzunluğu 4 m, eni 3 m dir.

Hesabat ilində Gədəbəy rayonu ərazisində yerləşən mövcud arxeoloji abidələrlə yanaşı, həmçinin xristian alban məbədlərinə baxış keçirilmiş, abidələrin bu günkü vəziyyəti öyrənilmiş, fotoşəkilləri çəkilmişdir.

Gədəbəy abidələri içərisində maddi-mədəniyyətimizin ən qiymətli incisi hesab edilən Qafqaz Albaniyasının nadir memarlıq nümunələri olan Alban xristian məbədləri xüsusi yer tutur. Bu maddi-mədəniyyət abidələri Şərq xristianlığına məxsus memarlığın ən səciyyəvi nümunələridir. Gədəbəy ərazisində 20 dən çox Alban xristian məbədi, kilsə və monastır mövcuddur. Çox təəssüf ki bu abidələr ciddi dağıntıya məruz qalır.

Govdu, Çanaxçı, Novosaratovka, Kilsəli, Ağ kilsə, Çaldaş, Qalakənd, Mahrasa məbədi, Böyük Qaramurad kəndindəki Həmişəvəng monastırı, Gədəbəy rayon mərkəzindən 3 km məsafədə, meşə massivində yerləşən xristian alban abidələri, eləcədə onlarla mövcud arxeoloji abidələr qədim yaşayış yerləri, siklopik tikililər, qədim qəbiristanlıqlar Mədəniyyət və Turizm Nazirliyi və rayon şöbəsində qeydiyyatda olsa da onların heç birinin üzərinə inventar nömrəsi vurulmamış, abidələrin mühafizəsi təmin edilməmişdir.

Bildiyimiz kimi Gədəbəyin alban abidələri tam öyrənilməyib. Bu abidələrin öyrənilməsinə illərlə vaxt lazımdır. Hal-hazırda qarşıda duran əsas problem bu abidələrin qorunması, xüsusən də onların dağılmaq təhlükəsinin qarşısının alınması və bərpa konservasiya işlərinin aparılmasıdır.

Т.Н.Геюшева

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В ГЯДАБЕЕ

РЕЗЮМЕ

В 2012 году Гядабейская археологическая экспедиция продолжала исследования на поселении «Лешгяр каласы», эпохи поздней бронзы – раннего железа. Площадь раскопа составляет 36 м^2 (6Х6 м), толщина культурного слоя 170-180 см. В культурном слое обнаружены глиняные сосуды разной формы и типа, изделия из кости, пряслицы, глиняные печати и орудия труда, изготовленные из обсидиана и речного камня.

Гядабейская археологическая экспедиция кроме археологических раскопок проводила также археологические разведывательные работы. В результате открыты и зафиксированы новые курганы, поселения и циклопические сооружения.

T.N.Geyusheva

ARCHEOLOGICAL RESEARCH IN GEDABEY

SUMMARY

In 2012, the archeological expedition Gedabek continued research on the settlement "Leshgyar Kalas' Late Bronze Age - Early Iron Age. The area of 36 m^2 (6x6m) was excavated. The thickness of the cultural layer is 170-180 cm. In the cultural layer clay vessels of different shapes and types, products made of bone, spindle, clay stamps and tools made of obsidian and of river stones were found.

Gadabay archaeological expedition conducted archaeological exploration works in the region besides the archaeological excavations. As a result there were opened and fixed mounds, settlements and cyclopean structures.

PLOVDAĞIN YENİ AŞKAR EDİLMİŞ III NEKROPOLU

(Naxçıvan MR, Ordubad rayonu)

B.İ.İbrahimli, H.Q.Qədirzadə, T.F.Xəlilov



III Plovdağ nekropolu. 1,2,3 saylı qəbirlər.

Xaraba-Gilan arxeoloji ekspedisiyası 2012-ci ildə Dəlmə qalası və Plovdağ yaşayış yerindən başqa daha bir yeni abidədə arxeoloji qazıntılara başlamışdır. Bu abidə Plovdağın şərq tərəfində, ondan 150 m aralıda, Qaraqılçıq adlanan yerdə aşkar olunmuş müxtəlif tip qəbirlərdən ibarət, 1,5 hektardan artıq bir ərazini əhatə edən nekropoldur.

Nekropol, Plovdağa şimal-şərq tərəfdən birləşən dağın cənub qolları arasından başlayaraq getdikcə genişlənən dərənin içərisində yerləşir. Dərənin cənub tərəfini XX əsrin 60-cı illərində çəkilmiş Dəstə arxı kəsir. Arx çəkildikdən sonra dərənin dağa tərəf olan hissəsi zaman-zaman sel sularının gətirdiyi lillə dolmuş, kurqanların və daş qutu qəbirlərin yerüstü əlamətləri tamamilə itmişdir.

Bu nekropoldan təqribən 100 m şərqə tərəf, təpənin arxasında keçən əsrin 80-ci illərində tədqiq edilmiş erkən dəmir dövrünə aid Muncuqlutəpə nekropolu yerləşir.

Yeni aşkar edilmiş nekropol Plovdağ yaşayış yerinə aid üçüncü nekropoldur. Digər iki nekropoldan fərqli olaraq onlardan 20-30 m aşağıda – dərədə yerləşir. Nekropolun yerləşdiyi dərənin şimal tərəfi getdikcə daralaraq dağa birləşir. Burada daş qutu qəbirlərin yan daşları yer üstündən azca izlənir. Quruluşuna görə onlar Xalı-keşan (e.ə. XII-X əsrlər) nekropolunun qəbirlərinə və İkinci Plovdağ nekropolunun 10 N-li qəbrinə oxşayırlar. Qəbirlərin üst hissəsi dağıdılmışdır.

Nekropolun yerləşdiyi dərədə diqqəti ilk cəlb edən şərq tərəfdə dağın ətəyində yerləşmiş dairəvi tikilinin qalıqlarıdır. Qazıntı sahəsi də məhz burada - nekropolun şərq tərəfində 320 kv. m-lik (16X20 m) sahədə götürüldü.

Qazıntı sahəsinin qərb tərəfində, 20-25 sm dərinlikdə iki dairəvi kromlex aşkar edildi. Qərb tərəfdə yer səthindən 40-50 sm hündürlükdə nizamsız şəkildə tökülmüş daşlar təmizlənərkən onun dairəvi kromlexli kurqanın qalıqları olduğu məlum oldu. Nekropolun bu hissəsi kurqan tipli qəbirlərdən ibarətdir. Bunlardan ikisi qazıntı sahəsinin qərb yarısında, biri isə şərq yarısında yerləşir. Şərq tərəfdə yerləşmiş qəbrin kromlexi iri həcmli daşlardan ibarətdir və ilk baxışda onlar hansısa dağıdılmış bir tikilinin qalıqlarını xatırladır.



III Plovdağ nekropolu. 1 saylı qəbir.



III Plovdağ nekropolu. 2 saylı qəbir.





Qərb tərəfdə yerləşmiş kurqanların kromlex daşları yer səthindən 20-30 sm dərinlikdə, dairəvi planda, iki cərgə düzülmüş yastı dağ daşlarından ibarətdir.

Əvvəlki nekropolların kurqanlarının kromlexlərinin quruluşu üç tipdə idi. Birinci tipə aid olan kromlexlər, düz tərəfləri xaricə olmaqla bir-neçə qat daşla dairəvi formada işlənmişdi. İkinci tip kromlexlər, yanı üstə dikinə qoyulmuş iri həcmli dağ daşlarından qurulmuşdu. Üçüncü tip kromlexlər isə, torpaq qəbirlərin üstünə dairəvi formada döşənmiş sal daşlardan ibarət idilər.

Birinci və İkinci Plovdağ nekropolunun kurqanlarından fərqli olaraq Üçüncü Plovdağ nekropolu kurqanlarının kromlexləri dairəvi planda iki sıra daşla divar kimi işlənmişdir. Üçüncü Plovdağ nekropolunda aşkar edilmiş kromlexlər burada yeni bir qəbir tiplərinin və ya torpaq qəbirli kurqanların yeni bir tipinin aşkar olunduğunu göstərir.

1N-li kurqan qazıntı sahəsinin cənub-qərbində, yer səthindən 25-30 sm dərinlikdə aşkar edildi. İki sıra dağ daşı ilə işlənmiş, eni 60-70 sm olan disk şəkilli kromlexi vardır. Kromlexin mərkəzindən cənub-şərq tərəfə dairəvi planda torpaq qəbrin izləri aşkar edildi. Örtüyü saxlanmamışdır. Qəbir çuxurunun torpağı nisbətən tünd rəngdə olub materikdən seçilir. 60 sm dərinlikdə, sümükləri tamamilə çürümüş vəziyyətdə olan skelet aşkar edildi. Ölü başı şərqə tərəf, sol yanı üstə, yarımbükülü vəziyyətdə dəfn olunmuşdur. Başının altına yastı dağ daşı qoyulmuşdur. Arxa tərəfdən başına və boynuna bitişik biri qara, digəri çəhrayı gilli olmaqla iki ədəd gil qab, bir az onlardan aşağıda – bel hissəsinə yaxın daha bir çəhrayı rəngli gil qab qoyulmuşdur. Boğazına yaxın ağ pastadan hazırlanmış, disk formalı, üstü dilim-dilim kəsilmiş və qara rəngli kömürləşmiş dairəvi və silindrik formalı muncuqlar aşkar edildi. Olünün sifəti qarşısında, ondan 12 sm aralı 5 ədəd aypara sırğa, çənəsinə yaxın daha bir ədəd aypara sırğa, onların arasında isə başı papaqlı tunc muncuqlar və ağ pastadan muncuqlar vardır. Bütün əlamətlərinə görə qəbir toxunulmamışdır, lakin aypara formalı sırğaların,


sancaqların və muncuqların ölünün qarşısında ayrıca aşkar edilməsi bir qədər qəribə görünür. Gil qablardan da birinin tam çürümüş vəziyyətdə olması qəbrə uzun zaman yağış və qar sularının daxil olduğunu göstərir. **2N-li kurqan** 1N-li kurqandan şimal-qərb tərəfdə yerləşir və daha çox dağıntıya məruz qalmışdır. Disk formasında, dağ daşları ilə işlənmiş kromlexi vardır. Kromlexin qərb tərəfi tamamilə dağıntıya məruz qalmışdır. Kromlex daşlarından 35-40 sm dərinlikdə skelet aşkar edildi. Dəfn adətinə görə qadına məxsusdur. Başı şərq istiqamətində, yarımbükülü vəziyyətdə, sağ yanı üstə dəfn olunmuşdur. Skelet çox pis saxlanmışdır. Qəbirdə, ölünün qarşı tərəfində aşkar edilmiş ağ pastadan hazırlanmış muncuqlar və onlardan bir qədər aşağıda yerləşən qara rəngli qab da tam çürümüş vəziyyətdədir. 1N-li qəbirdə olduğu kimi bu qəbirdə də muncuqlar və tuncdan hazırlanmış bəzək əşyaları kəllə sümüyü qarşısında topa şəklində aşkar olunur. Muncuqların əksəriyyəti ağ pasadan, bir qismi isə əqiqdəndir. Onların içərisində uzunluğu 5 sm-ə çatan ağ pastadan hazırlanmış muncuqlar da vardır. Muncuqlarla yanaşı başı papaqlı və papağından bir qədər aşağıda deşiyi olan tunc sancaqlar aşkar edildi. Ölünün qarşı tərəfində aşkar edilmiş qəhvəyi gilli yeganə gil qab o dərəcədə çürümüşdür ki, ölçülərini belə götürmək mümkün olmadı. Plovdağ nekropollarının qadın qəbirlərində diqqət çəkən bir cəhəti xüsusilə qeyd etmək lazımdır. Bu qəbirlərə müxtəlif bəzək əşyaları çoxlu miqdarda qoyulsa da yalnız bir ədəd və ən çox da boz rəngli gil qab qoyulur. Qadın qəbirlərindən fərqli olaraq kişi qəbirlərində bəzək əşyaları az, gil qablar isə çox sayda aşkar edilir.

Nekropolda qazıntısı başa çatdırılmamış **3N-li kurqan** mürəkkəb quruluşa malikdir. Qəbrin kromlexi yer səthindən 40-50 sm hündürlükdə nisbətən salamat qalmışdır, ortası çuxurdur. Ehtimal ki, qəbrin üstü çökmüşdür. Kromlexi 65-70 sm enində divar kimi iri həcmli daşlardan həlqə şəklində hörülmüşdür. Qurbangahının olub-olmamasını müəyyən etmək çətindir. Belə ki, qəbrin şərq tərəfi dağıntıya məruz qalmış, burada iri həcmli dağ daşları nizamsız halda yerləşmişdir. Ola bilsin ki, bu daşlar qəbrin qurbangahına aid olmuşdur. Kurqanın üstü və ətrafı təmizlənərkən məlum oldu ki, onun qərb yarısında, diametri 0,8-1,0 m olan, daşdan işlənmiş 10 dairə vardır. Dairələr dağ daşı və palçıq məhlulu ilə işlənmişdir. Bəzilərinin içərisinə daş döşənmişdir. İki dairədə döşəmə daşları birbaşa kromlex daşlarının üzərindədir. Arxeoloji qazıntı zamanı bu dairələrdən heç bir tapıntı əldə olunmadı. Hələlik, bu dairələrin nə məqsədlə qurulduğunu müəyyənləşdirmək çətindir. Kurqanın qədim bir ziyarətgah olduğunu ehtimal etmək mümkündür.

Kurqanın iri həcmli kromlex daşlarından içəridə orta və kiçik həcmli yastı dağ daşları üfüqi vəziyyətdə qat-qat döşənmişdir. Qatların arasına palçıq məhlulu tökülmüş və bərkidilmişdir. Çətin qazılır. Kromlexin içəridən qərb tərəfində 1X1 m ölçülərində kiçik şurf qoymaqla bu qatın nə qalınlıqda olduğunu müəyyən etdik. Bu daş qatı kromlexin hər yerində eyni deyildir. Şərq tərəfdə 70-80 sm qalınlığındadır. Qərb tərəfdə dağıdıldığından qalınlığını dəqiq müəyyən etmək çətindir, ehtimal ki, 50-60 sm olmuşdur. Bunu kromlexə tərəf tək-tək saxlanmış daşlara görə müəyyən etmək mümkün oldu. Ekspedisiyanın başa çatmasına üç gün qaldığından qazıntı bu vəziyyətdə dayandırıldı. Çünki, kurqan tam dağıdılmamışdır və onun təmizlənməsi üçün müəyyən vaxt lazımdır.

İlkin qazıntılar göstərir ki, nekropolun cənub tərəfi əsasən, kromlexlərinin diametri 3-5 m olan torpaq qəbirli kurqanlardan ibarətdir. Əksər qəbirlərin yerüstü hissəsi saxlanmamışdır. Şərq tərəfdən kromlexə bitişik işlənmiş qurbangahları vardır. Plovdağın Üçüncü nekropolunda iki kurqan tam öyrənilmiş, üçüncü kurqanın qazıntısını isə başa çatdırmaq mümkün olmamışdır. Tədqiq olunmuş kurqanlarda diqqəti cəlb edən Plovdağın əvvəlki iki nekropolundan nisbətən fərqli dəfn adətinin aşkar olunmasıdır.

Birinci, bu nekropoldakı kurqanların kromlexləri iki cərgə daşla divar kimi işlənmişdir. İkinci, qəbirlərdə ölünün yanına qoyulmuş bəzək əşyaları dəri torba içərisində, ölünün dirsəkdən bükülmüş əllərinin yanında, sifəti bərabərində qoyulmuşdur. Baş sancaqlarından, sırğalardan və müxtəlif muncuqlardan ibarət bəzək əşyalarının ölünün üzərində deyil, torbada ayrıca qoyulmasına Gilançay vadisində ilk dəfədir rast gəlinir. Tuncdan hazırlanmış bəzi bəzək əşyalarının formasında da fərq vardır. Belə ki, tuncdan hazırlanmış içi boş aypara sırğalara da Plovdağda ilk dəfə təsadüf olunur.



III Plovdağ nekropolu. 3 saylı qəbrin ətrafındakı dairəvi tikililər.



III Plovdağ nekropolu. 1 saylı qəbrin qurbangahı.

Tuncdan hazırlanmış sancaqlarda fərqlər özünü onların baş hissəsinin formalaşmasında göstərir. Belə ki, bir neçə baş sancağının baş hissəsi yumru – kiçik kürə şəklində hazırlanmışdır. Digər sancaqların baş hissəsi metalın üzərindən mavi rəngli şüşə ilə (tökmə üsulu ilə) yumru formada hazırlanmışdır, üzərində xırda məməciklər vardır. Bu tip sancaqlara da Plovdağda ilk dəfədir rast gəlinir. Üçüncü nekropolun muncuqları içərisində də Plovdağ üçün yeni formalar aşkar edilmişdir. Belə ki, 2N-li kurqanda, xırda pasta muncuqlar arasında uzunluğu 5-7 sm, eni 7-8 mm, qalınlığı 4-5 mm və üzərində dairəvi basma naxışları olan ağ pastadan hazırlanmış muncuqlar aşkar edildi. Belə formalı bəzək əşyası da ilk dəfə aşkar olunur. 2N-li kurqanın muncuqları içərisində bir neçə ədəd ağ mərmərdən hazırlanmış, badamı formada, ensiz tərəfində deşiyi olan muncuqlar da vardır. Qeyd etmək lazımdır ki, bu tip muncuqlar Gilan çay vadisinin erkən dəmir dövrü üçün xarakterikdir.

Üçüncü Plovdağ nekropolu tapıntılarındakı yuxarıda göstərilən fərqlər, eyni zamanda

nekropolun şimal tərəfində daş qutu (daha dəqiq desək “plitəli”) qəbirlərin çoxluq təşkil etməsi və nekropolun özünün də Plovdağdan bir qədər aralı yerləşməsi yeni aşkar edilmiş nekropolun Plovdağ yaşayış yerinin son nekropolu olduğunu söyləməyə əsas verir. Nekropolun dövrü gələcək qazıntılarda dəqiqləşdiriləcəkdir. Məsələ ondadır ki, Birinci Plovdağ yaşayış yerinin arxeoloji qazıntısı zamanı aşkar olunmuş, Naxçıvan boyalı qablarının üçüncü mərhələsinə aid boyalı qabların mənsub olduğu qəbir abidələri hələlik aşkar olunmamışdı.

Ona görə də, yuxarıda adı çəkilən fərqlərin etnik və ya zaman fərqi olduğunu müəyyənləşdirmək çətin olsa da, lakin biz onların daha çox zaman fərqi – xronoloji fərq olduğunu hesab edirik.

Plovdağ nekropollarının arxeoloji tədqiqi zamanı diqqəti cəlb edən daş qutu qəbirlərin İkinci və Üçüncü nekropolların şimal tərəfində, kurqanlardan bir qədər aralıda yerləşməsidir. Adətən bu əlamət etnik və ya dini fərqlərlə bağlı olur. Bir çox tədqiqatçılar da dəfn adətinin kəskin surətdə fərqlənməsini yeni etnik qrupların gəlməsi ilə bağlayırlar. Lakin Plovdağ nekropollarının qəbirləri arasında, eyni zamanda bu qəbirlərlə Xalı-keşan və Muncuqlutəpə nekropollarının qəbir kompleksləri arasında genetik bağlılıq aydın nəzərə çarpır. Ehtimal ki, bu qəbirlər Plovdağ yaşayış yerinin son dövrlərinə - e.ə. II minilliyin sonlarına aid qəbirlərdir.

Yeni bir nekropolun aşkar olunması və indiyədək aparılmlış arxeoloji tədqiqatların nəticələri Plovdağın artıq tunc dövrünün sonlarında inkişaf etmiş şəhər tipli bir (protoşəhər) yaşayış məskəni olduğunu söyləməyə imkan verir.

Б.И.Ибрагимли, Г.И.Гадирзаде, Т.Ф.Халилов

НОВОВЫЯВЛЕННЫЙ III НЕКРОПОЛЬ ПЛОВДАГ

РЕЗЮМЕ

В 2012 году Хараба-Гиланская археологическая экспедиция начала раскопки нового памятника – третьего Пловдагского некрополя. Третий некрополь расположен в 150-ти метрах к востоку от Пловдага. Некрополь состоит из курганных и плиточных могил. Плиточные могилы находились в северной части некрополя.

В центральной части некрополя, на участке площадью 216 кв. м., полностью исследованы два кургана и верхняя часть третьего кургана. Некоторые находки в долине р. Гиланчай обнаружены впервые. Особое внимание привлекают бронзовые булавки со стеклянным узорчатым навершием и крупные бусы из белой пасты. Кроме того, отмечено существенное изменение в расположении инвентаря в камере: все украшения, собранны вместе, лежат перед лицом скелета.

Результаты первичных археологических исследований III некрополя Пловдаг позволяют предположить, что нововыявленный некрополь хронологически находится между Пловдагом II и некрополем Халы-кешан.

B.I.Ibragimli, G.I.Gadirzade, T.F.Halilov

NEWLY FOUND III NECROPOLIS OF PLOVDAG

SUMMARY

In 2012 archaeological expedition of Kharaba-Gilan began excavating a new monument - the third Plovdagh necropolis. Third necropolis is located 150 meters east of Plovdag. The necropolis consists of mounds and slab graves. Slab graves are on the northern part of the necropolis.

This year, in the central part of the necropolis, on a plot of 216 square meters there were fully investigated two mounds and upper part of the third mound. Some findings were found for the first time in the valley Gilanchay. Particular attention is drawn to the bronze pins with glass, patterned knob and large beads of white paste. Also, there was a significant change in the location of equipment in the chamber: all ornaments, taken together, were found in the front of the face of the deceased.

The results of primary archaeological research necropolis Plovdag III suggest that newly found necropolis is chronologically situated between Plovdag II and necropolis Khali-Keshan.

II KÜLTƏPƏ YAŞAYIŞ YERİNDƏ TƏDQİQATLAR
(Naxşıvan MR, Babək rayonu)

V.H.Əliyev, A.Ə.Məmmədova



II Kültəpə. Ümumi görünüş.

"Naxçıvan" arxeoloji ekspedisiyası 2012-ci il üçün qazıntı işlərini II Kültəpə – Qədim Naxçıvan şəhər yerində aparmağı planlaşdırmışdır.

Arxeoloji qazıntılar əsasən, şimal qala divarı daxilində davam etdirilərək, bir qədər də genişləndirilmişdir. Keçən il qazıntı işi abidənin üst müstəvisindən 1,8 m-ə qədər davam etdirilmiş, emalatxana sahəsi, bina qalıqları açılmış, zəngin material əldə edilmişdir. Lakin qeydə alınan bir sıra memarlıq qalıqlarının planı, inşaat xüsusiyyətləri tam aşkarlanmamışdır. Odur ki, qazıntı şərq və şimal istiqamətdə genişləndirildi. Əlavə genişləndirilmiş qazıntı sahəsində (kv. 7, 8), son tunc və ilk dəmir dövrünə aid üst təbəqələrdə qazıntı işi davam etdirildi. Şəhərin son dövrlər həyat tərzini özündə əks etdirən müdafiə divarlarının, yaşayış evlərinin qalıqları abidənin üst müstəvisindən izlənilir. Bu sahədə üst mədəni təbəqələr (e.ə. XV – IX əsrlər) xeyli dağıntıya məruz qalmışdır. Qazıntı nəticəsində üst laylardan çoxlu inşaat materialları – müxtəlif həcmli çay daşları aşkar olunmuşdur. Həmçinin möhrə və gil çiy kərpic qalıqlarına təsadüf edilir. Arxeoloji materiallar müxtəlif sənətkarlıq məmulatlarından – keramika, daş alətlər, tunc bəzəkdən ibarətdir.

Son tunc və ilk dəmir dövrünə aid keramika məmulatına sadə və boyalı qab nümunələri daxildir. Sadə keramika məmulatı məişət qalıqları və təsərrüfatda işlədilən qablardan ibarətdir. Buraya qazan, çölmək, xeyrə, küpə, badya, kasa tipli qabların fraqmentləri daxildir.

Qazanlar qara, boz rəngdə olub, gilinə qum qatılmış, yaxşı yoğrulmuş və keyfiyyətli bişirilmişdir. Qazanlar geniş ağızlı, qabarıq gövdəli, yastı oturacaqlı hazırlanmışdır. Ağız kənarı enli, lentvari çıxıntılıdır. Qulpsuz olsa da, qazanların ağız kənarı tutmaq üçün çox rahatdır. Üzərlərinə və ağzının içərisinə anqob hopdurulmuş, sığallıdır.

Çəhrayı rəngli qazanlar daha yaxşı keyfiyyətdə hazırlanmış və bişirilmişdir. Üzəri və içərisi anqobla örtülmüşdür. Üzərinə və ağzının içəri tərəfinə qırmızı boya çəkilmişdir.



II Kültəpə. 2012-ci ilin qazıntı sahəsi.



II Kültəpə. Çay daşından divar qalıqları.

Çölmək tipli qablar boz rəngdə olub, gilinə narın qum qatılmışdır. Gövdəsi çiyin hissədən başlayaraq qabarıqdır. Ağzının kənarı xaricə çıxıntılıdır.

Badya tipli keramika məmulatı açıq çəhrayı rəngdə olub, gilinə narın qum qatılmış, yaxşı keyfiyyətdə bişirilmişdir. Ağzı geniş, gövdəsi bir qədər qabarıqdır. Ağzının kənarı xaricə maili lentvari köbəlidir. Üzərinə sarı anqob çəkilib.

Küpə tipli keramika müxtəlif həcmdə hazırlanmışdır. Bu qablar boz və çəhrayı rəngdə olub, gilinə narın qum qatılmış, yaxşı keyfiyyətdə hazırlanmışdır. Küpələrin boğazı qısa, ağzı geniş, gövdəsi qabarıq, oturacağı yastıdır. Bəzilərinin boğazla çiyin hissəsinin birləşdiyi yer üfüqi cızma qoşa zolaqlarla əhatələnib. Küpələrin bəzilərinin üzərinə qırmızı boya çəkilmişdir. Tək-tək küpə qırıqlarının üzərində çərtmə naxışlar var.

Boyalı keramika nümunələri küpə, kasa, badya tipli qablara aiddir. Bu qablar müxtəlif həcmdə hazırlanmışdır. Gillərinə narın qum qatılmış, yaxşı keyfiyyətdə bişirilmişdir. Qabların üzərinə qırmızı boya çəkilərək, qara rəngdə həndəsi motivlərdə naxışlanmışdır.

Monoxrom boyalı küpə qırıqlarının bir qisminin üzəri qara rənglə çəkilmiş torlu üçbucaqlarla bəzədilmişdir. Üçbucaqlar enli qara xətlərlə çəkilmiş, daxili enli qara xətlərlə rombvari şəbəkələrə bölünmüşdür. Bu rombların bir tərəfi torla doldurulmuşdur. Digər rombların içərisinə qara rənglə dairələr düzülmüşdür.

Daş məmulatı əkinçiliklə bağlı olan dən daşları, daş gürzlər, həvəng və dəstələrdən ibarətdir.

Dən daşları boz rəngli bazalt cinsli uzunsov formalı daşlardan hazırlanmışdır. Üst dən daşları kimi istifadə edilən bu əmək alətləri hər tərəfdən yaxşı dişəklənmişdir.

Daş gürzlər boz rəngli bazalt daşlardan hazırlanmışdır. Bu alətlər üçün xüsusi daş – yadrolar seçilərək, diqqətlə dişəklənmişdir. Uzunsov, piramida formalara malikdir. Tünd boz rəngdə daş gürzün baş hissəsi ovalvari formaya malikdir. Bu alətin baş hissəsi yanlardan və bir tildən dərin kəzlərlə əhatələnmişdir. Baş hissə üstdən yastılanaraq ağac dəstək üçün hazırlanmışdır. Kəzlər vasitəsilə dəstək istənilən səviyyədə gürzə bərkidilirdi. Gürzün əsas işlək ucu tədricən dişənərək getdikcə şiş vəziyyətə salınmışdır. Əsasən dağ-mədən işində, daş-duz istehsalında və mis filizlərinin parçalanıb əzilməsində istifadə olunan bu alət çox mükəmməl əmək alətidir.

Həvəng daşları müxtəlif böyüklükdədir. Boz rəngli daşlardan hazırlanmışdır. Kiçik həcmli həvəng daşları dairəvi formaya malikdir. Hər tərəfdən yaxşı işlənmiş, dişəklənmişdir. Oturacağı yastıdır. Üzərindəki oyuq dibə getdikcə daralır. Belə həvəng daşlarında ədviyyat, rəngli minerallar, duz döyülüb narın hala salınmışdır.

Dəstək tipli əmək alətləri boz, qəhvəyi rəngli silindrik formalı daşlardan hazırlanmışdır. Belə dəstəklərin əl tutan başı ovalvari, dairəvi və dördkünc formadadır. İşlək uca doğru dişəklənərək nazildilmişdir. İşlək ucunda döymə izləri var. Uzunluğu 8 sm, diametri 3,5 x 4 sm, uc hissədə 2 x 2,5 sm-dir.

Qazıntı orta tunc dövrü mədəni təbəqəsində davam etdirildi. Qazıntı nəticəsində keramika – sadə və boyalı qabların qırıqları (küpə, qazan, çölmək, kasa və s.), daş məmulatları – dən daşları, sürtkəclər, heyvan sümükləri aşkar olundu.

Küpə tipli qabların bir qismi boz rəngdə olub, gilinə narın qum qatılıb, yaxşı bişirilib. Belə küpələrin ağzı geniş, boğazı qısa və silindrik formadadır. Ağzının kənarı xaricə köbəlidir. Gövdələri çiyin hissədən başlayaraq qabarıqdır. Bu tip boyalı küpələr çoxluq təşkil edir. Boyalı, naxışlı küpələr üçün daha keyfiyyətli gil seçilmiş, narın qum qatılmış, çəhrayı rəngdə bişirilmişdir. Bu küpələrin üzərlərinə və ağzının içərisinə qırmızı rəng çəkilib, qara rənglə həndəsi naxışlarla bəzədilmişdir.

Qazan tipli qabların gilinə narın qum qatılmış, qalın divarlı hazırlanmışdır. Ağzının kənarı geriyə əyilmiş, əllə tutmaq üçün çox rahatdır. Gövdəsi çiyin hissədən başlayaraq qabarıqdır. Üzərinə və ağzının içərisinə qara rəng çəkilmişdir.

Küpə tipli boyalı qabların qırıqları çoxluq təşkil edir. Bu qablar üçün keyfiyyətli gil seçilmiş, tərkibinə narın qum qatılaraq yaxşı yoğrulmuşdur. Qırmızı rəngdə bişirilmişdir. Həmçinin üzərinə tünd

qırmızı rəng çəkilmiş qara rənglə həndəsi motivdə (düz, dalğalı xətt, üçbucaq və s.) naxışlanmışdır.

Qazıntıdan tapılan daş məmulatı içərisində toppuzvari əşya, daş gürzlər, təkərvari əşyalar diqqəti cəlb edir. Toppuza bənzər əşya qəhvəyi rəngli bərk cinsli daşdan hazırlanmışdır. O, armudvari formaya malik olub üst tərəfində dairəvi deşik oyulub, orta hissəyə çatdırılmışdır. Digər başı nisbətən yoğun və qabarıqdır. Bu əşya hər tərəfdən çox yaxşı dişəklənmişdir. Deşiyinin dərinliyi 3 sm, diametri 2 sm-dir. Deşik ya tamam açılmamış, ya da elə bu dərinlikdə dəstək keçirilərək istifadə olunmuşdur.

Ovalvari daş əşya boz rəngli, məsaməli yastı daşdan hazırlanmışdır. Üst hissəsi qabarıq, alt hissəsi yastı səthlidir. Kiçik həcmli kirkirənin üst daşını xatırladır. Orta hissəsində ikitərəfli deşik açılmışdır. Deşikdə və yastı üzündə işlənib sürtülmə izi var. Belə işlənmə izi alətin dairəsində tillərdə də aydın görünür. Görünür, alətin deşiyinə ağac sap keçirərək təkər kimi fırlamaqla əzmə işində istifadə edilmişdir. Diametri 12 x 14 sm, deşiyinin diametri 3 sm-dir. Qalınlığı 3,4 sm-dir.

Daş gürz bərk cinsli bazaltdan düzəldilmişdir. Uzunsov, armudvari boz daşdan hərtərəfli dişənərək lazımi xüsusi formaya salınmışdır. Baş tərəfi dördkünc formaya malik olub, qurtaracaq hissəsi yastı səth qəlpələnmişdir. Bir qədər aşağıda dərin oyulmuş kəzlə əhatələnir. Daş alət yastı formada olub işlənən hissəsi hər tərəfdən yaxşı dişənərək, uca doğru sivridir. Vurma zərbəsini səmərəli etmək üçün uc hissəsi bir növ şiş formaya salınmışdır. Ağırlığı 2 kq-a qədərdir. Uzunluğu 13 sm, eni 9 sm, qalınlığı 5,5 sm-dir.

Bir ədəd qurd-canavar dişi əldə edilmişdir. Qurda inamla bağlı, qurd dişi qoruyucu talisman, asma kimi istifadə olunmuşdur. Qurd inamı ilə bağlı Gəmiqayada qurd təsviri və kompozisiyalı təsviri səhnə mövcuddur.

Sümük alət əldə olundu. İribuynuzlu heyvanın lülə sümüyünü parçalayaraq, bir hissəsini hər tərəfdən çilikləyib, cilalamış və uc hissəsini sivri, şiş düzəltmişlər. Bu alət gön-dəri işləmədə, pardaxlama, deşmə işində, yaxud dulusçuluqda cızma, çərtmə naxışlar işləmək üçün istifadə olunmuşdur.

Qazıntı 1-3-cü kvadratlarda dərininə davam etdirildi (dərinlik 2,30 sm-ə qədər). Dördkünc evin bünövrə hissəsinin tikinti xüsusiyyətləri araşdırıldı. Buradan çoxlu boyalı qab qırıqları, sadə keramika nümunələri, dən daşları, müxtəlif daş əmək alətləri, heyvan sümükləri aşkar edildi.

Boyalı qablar – küpə, xeyrə, kasa tipli qablara aiddir.

Bu laydan çıxan monoxrom boyalı qab nümunələri üzərində ornamentlərin işlənməsində 6 say sistemi tətbiq olunmuşdur. Naxışlar 6 paralel xətlərlə verilmişdir.

Qazıntı bütöv sahə üzrə davam etdirilmişdir. Artırılmış sahədə vaxtilə dağıntılar nəticəsində xeyli miqdarda inşaat materialları, möhrə, çiy kərpic qalıqları tökülüb bir-birinə qarışmışdır. Bu sahədə mədəni təbəqənin stratiqrafiyası diqqətlə izlənmişdir. Töküntü materiallar, xüsusilə çoxlu sayda çay daşları təmizləndikdən sonra 2,5 m dərinlikdə bütün sahədə yanğın izləri aşkar olundu. 1-3-cü kvadratlarda, qala divarının daxili boyunca aşkar olunmuş kül-kömür layı yeni sahədə də davam edir. Vaxtilə II Kültəpənin şimal qala bürcündən, şərq divarından daxildə, 120 m^2 sahədə açılmış dulusçuluq emalatxanası kompleksində müəyyən edilmiş yanğın qalıqları ilə eyni səviyyədə yerləşən yeni açılmış yanğın izləri, qədim şəhərin e.ə. II minilliyin ortalarında basqınlara məruz qaldığını bir daha təsdiqləyir.

Qazıntı bütövlükdə sahənin müxtəlif yerlərində davam etdirildi. Geniş sahəni əhatə edən yanğın nəticəsində əmələ gəlmiş kül-kömür laylarının əhatə dairəsi izlənildi. Qala divarı yaxınlığında mövcud olan qalın yanğın qalıqları laylarının geniş sahəni əhatə etdiyi müəyyənləşdirildi. Belə güclü yanğın və dağıntı şimal qala divarı boyunca baş vermişdir. Qala divarının ikinci dəfə yenidən bərpası məsələsini aydınlaşdırmaq lazım idi. Qala divarının daxildən və xaricdən eyni dərəcədə diqqətlə təmizlənməsi bəzi məsələlərə aydınlıq gətirdi. Qalaya giriş yerinin bir daha dəqiqləşdirilməsi də vacib məsələ idi. Bu məqsədlə aparılan qazıntı nəticəsində giriş yeri və onun hər iki tərəfində xaricdən inşa edilmiş bürclərin planı izlənildi.

Qazıntı nəticəsində çoxlu keramika, müxtəlif daş alətlər aşkar olundu. Keramika məmulatı sadə və boyalı qabların qırıqlarından ibarətdir. Qazan, çölmək tipli sadə mətbəx qabları boz, qara rəngdədir. Onların gillərinə qum qatılıb, kobud divarlı hazırlanmışdır.



II Kültəpə. Keramika nümunələri.

Monoxrom boyalı qab qırıqları küpə, badya, kasa tipli qablara aiddir.

Qazıntı yeni sahədə davam etdirildi. Burada şimal qala divarının planını dəqiqləşdirmək əsas məqsəd idi. Həmçinin qalatikmə memarlığının xüsusiyyətlərini bir qədər də ətraflı öyrənmək lazım idi. Şimal qala bürcləri arasındakı qala divarı qalıqları – bünövrənin tikintisinə xüsusi diqqət verilmişdir. Bu hissədə qala divarının əsasını lazımı möhkəmlikdə qurmaq məqsədilə uzaq məsafələrdən gətirilmiş inşaat materialından – açıq rəngli əhəng, travertin cinsli daşlardan istifadə olunmuşdur. Qarşıya qoyulmuş məqsədə nail olundu, şimal qala divarının mühüm bir hissəsi təmizlənib açıldı. Qazıntıdan daş məmulatı, keramika və heyvan sümükləri əldə edildi.

Daş məmulatına vurma alətlər, çaxmaqdaşı nukleus qalığı, qəlpələnmiş dairəvi formalı əşya daxildir.

Keramika sadə və monoxrom boyalı qab qırıqlarından ibarətdir. Sadə qab qırıqları küpə, qazan, çölmək, kasa tipli boz, qara, çəhrayı rəngli keramika məmulatlarına aiddir.

Qazıntılar nəticəsində açılmış memarlıq qalıqları, xüsusilə şimal qala divarının ayrı-ayrı elementləri hərtərəfli təmizlənib bir sıra məsələlərə aydınlıq gətirdi. Şəhərin memarlıq xüsusiyyətlərinə və inşaetmə planına dair nəticələr əldə edilmişdir.

Bununla belə bir sıra arxeoloji materiallar – daş əmək alətləri – dən daşları, dağ-mədən işləmə alətləri, sadə və monoxrom boyalı keramika əldə edilmişdir.

Badya tipli monoxrom boyalı qab geniş ağızlıdır. Gövdəsi çiyin hissədən etibarən qabarıqdır. Gilinə narın qum qatılmış, nazik divarlı hazırlanmış, çəhrayı rəngdə keyfiyyətli bişirilmişdir. Ağzının qırağı düz-lentvaridir. Ağzının altı və çiyin hissəsi üfüqi batıq xətlə əhatələnmişdir. Badyanın üzəri və ağzının içərisi qırmızı boya ilə örtülmüş, qara rəngə maraqlı motivdə naxışlanmışdır. Naxışlar bir növ sxematik quş rəsmlərinə, həmçinin bir istiqamətdə hərəkət edən ilanlara bənzəyir.

Adam başı formalı heykəltəraşlıq nümunəsinə bənzəyən daş məmulatı tapıldı. O, bozumtul-ağ rəngli, təbii formaya malik daşdan düzəldilmişdir. Daşın üzərində dişəkləmə-sürtmə işi görülmüşdür. Təpə hissəsi ovalvari formada azca yastıdır. Başın arxa tərəfi enli olub, maili hamarlanmışdır. Alın hissəyə doğru bir qədər yığılır və qövsvari mailidir. Hər iki üzdən şaquli enli oyuqla burun və üz hissələri bildirilmişdir. Arxa tərəfdə şaquli çıxıntı saçı, hörüyü xatırladır. Burundan üstdə alında başlayaraq lentvari dayaz xəzlə əhatələnmişdir. Bu xətt diadema və yaxud sarığı xatırladır. "Fiqurun" oturacaq hissəsi yastıdır. Hündürlüyü 22,5 sm, oturacaq hissədə eni 26 sm, təpənin arxasından alına qədər eni 21 sm-dir. Oturacaq hissəsi üçbucaq formadadır. Bu adam başı "heykəl"ciyə bənzər digər adam başı fiquru Şərur rayonu ərazisindən təsadüfi tapılmışdır. Həmin fiqur qırmızımtıl-qəhvəyi daşdan hazırlanmışdır.

Qazıntı 1,8 m dərinlikdən 2 m dərinliyə çatdırıldıqda, qala divarından daxildə (1, 2, 3-cü kvadratlarda) yaşayış evlərinin daşdan qurulmuş bünövrələri aşkar olunmuşdur.

Yaşayış evlərindən birinin üç divarının bünövrəsi yaxşı qalmışdır. Buna əsasən evin dördkünc plana malik olduğu müəyyən edildi. Divarların bünövrəsi orta və xırda həcmli çay daşlarından qurulmuşdur. Möhkəmliyi təmin etmək üçün bünövrəyə daşlarının qurğu sisteminin araları gil palçıqla doldurulmuşdur. Divarın üst hissəsi çiy kərpiclərdən hörülmüşdür. Çiy kərpiclərin qalıqları vardır. Bu tikinti materialı keyfiyyətli gildən dördkünc formada hazırlanmışdır. Evin şərq, şimal və qərb divarlarının bünövrəsi açılmışdır. Şərq divarının uzunluğu 3,2 m, şimal divarı 4,2 m, qərb divarınınkı 3,2 m-dir. Evin sahəsi 12,64 m^2-dir.

Bu evin şimal divarından 1 m şimalda, şimal-qərb istiqamətdə, qala divarına birişik düz divar bünövrəsi açıldı. Divarın bünövrəsi bazalt daşlardan qurulmuş, araları gil palçıqla doldurulmuşdur.

Bünövrənin üzərində çiy kərpic qalıqları vardı. Divarın bünövrə hissəsinin uzunluğu 5 m, eni 80 sm, hündürlüyü 40 sm-dir. Bu divar qalığından şimalda digər bir divarın bünövrəsi açıldı. Həmin divar da qala divarına bitişik olaraq şərq-qərb istiqamətdədir. Bünövrə çay daşlarından qurulmuş, möhkəmliyini təmin etmək üçün üzərinə gil palçıq tökülmüşdür. Bünövrənin üzərində möhrə və yaxud çiy kərpic qalıqları vardı. Uzunluğu 4,4 m, eni 80 sm, hündürlüyü 40 sm-dir.

Qazıntı sahəsinin artırılmış yeni hissəsində qala divarının giriş qapısından sağda və solda şimal qala divarının yenidən bərpa olunmuş divarının qalıqları açıldı.

II Kültəpənin e.ə. XX – XIX əsrlərdə tikilmiş ilk qala divarında tətbiq olunmuş memarlıq inşası texnikası bu ikinci divarda da tətbiq edilmişdir. Divarın bünövrəsinin hər iki yan cərgə hörgü daşları iri həcmlidir. İri hörgü daşlarının arası orta və xırda həcmli çay daşları ilə xüsusi səliqə ilə doldurulmuş, möhkəmliyi təmin etmək üçün üzərinə gil məhlul tökülmüşdür.

Girişdən solda açılan qala divarının uzunluğu 2,1 m, eni 2,5 m, hündürlüyü 80 sm-dir. Girişdən sağda açılan qala divarı bünövrəsinin uzunluğu 3,2 m, eni 2,5 m, hündürlüyü 80 sm-dir. Qalanın şimal giriş qapısının eni 3 m-dir.

Şimal və şimal-qərb divarları, giriş yerində daha möhkəm və təhlükəsiz etmək məqsədilə, giriş qapısının hər iki tərəfi, eləcə də bir qədər qərbdə qala divarı dördkünc planlı bürclərlə möhkəmləndirilmişdir. Giriş qapısının sağında və solunda, eləcə də bir qədər qərbdə – şimal qala divarı ilə qərb divarının birləşdiyi hissədə dördkünc planlı bürclər tikilmişdir. Bürclərin bünövrəsi iri həcmli əhəng daşı və çay daşlarından qurulmuş, gil məhlula daha da bərkidilmişdir. Bürclərin bünövrə hissəsində istifadə olunan ağ rəngli, əhəng cinsli iri sal daşlar Naxçıvan çayının sol sahilindən bir neçə km uzaqlıqdakı qayalıqlardan böyük zəhmət hesabına gətirilmişdir. Bu daşların bəziləri yarım ton ağırlığındadır. İri sal daşlar hər tərəfdən qəlpələnərək dördkünc formaya salınmışdır. Belə daşlarla birlikdə qala divarının və bürclərin bünövrəsinin qurulmasında iri həcmli bazalt cinsli daşlardan da istifadə olunmuşdur. Kənar cərgəyə düzülmüş iri həcmli daşların arasında qalan 2,5 m məsafə xüsusi memarlıq qaydasında orta və xırda daşlardan qurulmuşdur. Bünövrənin monolitliyini yaratmaq üçün daş qurğunun üzərinə gil məhlulu tökülmüşdür. Belə möhkəm bünövrə üzərində iri çiy kərpiclərdən divar ucaldılmışdır. Bürclər eyni memarlıq planında – dördkünc formada tikilmişdir. Bürclərin uzunluğu 2 m, eni 3,5 m-dir.



II Kültəpə. Tunc sırğa.





II Kültəpə. Daş alətlər.



II Kültəpə. Aşkar edilmiş osteoloji qalıqlar.

Giriş yolunun sağ tərəfindəki bürclə şimal və qərb divarının birləşdirən dördkünc bürcün arasındakı məsafədə (9 m) qala divarı hər iki tərəfdən təmizləndi. İri bazalt daşlardan tikilmiş bünövrə daxildən və xaricdən açıldı, qala divarının memarlıq inşa edilməsi planının istiqaməti aydınlaşdırdı.

Bu il qazıntı nəticəsində qala divarının şimal hissəsinin bünövrəsi və qala divarının çiy kərpicdən ucaldılmış salamat qalan hissəsi açılıb öyrənildi. Çiy kərpicdən olan qala divarı burada 2 m hündürlükdə 12 m uzunluqda salamat qalmışdır. Tədqiqat işləri müəyyən elmi nəticələr çıxarmağa imkan verir.

II Kültəpə qədim şəhər mərkəzinə e.ə. II minilliyin ortalarında güclü basqınlar, qarətçi yürüşlər olmuşdur. Şəhərə şimal və şimal-qərb tərəfdən, əsas giriş qapısından hücumlar edilib zərbə vurulmuşdur. Görünür, qala bürcləri və müdafiə divarı dağıntıya məruz qalmışdır. Bu dağıntılar bir

müddət bərpa edilməmişdir. Qazıntı nəticəsində bu məsələyə aydınlıq gətirmək mümkün olmuşdur.

Şəhərdə həyat tərzi tədricən bərpa olunduqdan sonra, ilk qala divarının dağılmış hissəsi bünövrəyədək təmizlənmiş və ikinci bərpa divarı ucaldılmışdır. Yeni bərpa olunan qala divarı ilk qala divarına daxildən bitişik tikilmişdir. Burada qala divarının monolitliyini təmin etmək üçün yenidən möhtəşəm bünövrə qurulmuş və çiy kərpiclərdən divar inşa edilmişdir.

Qazıntı göstərdi ki, qalaya hücum zamanı güclü yanğın baş vermişdir. Qala divarı yaxınlığındakı evlər, dulusçuluq emalatxanaları tamam dağıdılmışdır. Burada bir müddət qala divarını bərpa etmək üçün lazımı işçi qüvvəsi toplamaq mümkün olmamışdır.

Zaman keçdikcə qala divarının dağıntıya məruz qalan hissəsi öz davamlılığını tamam itirmişdir. Bunun əksinə olaraq şəhərdə iqtisadi, maddi dirçəliş olmuş, şəhərin ömrünü davam etdirməyə ehtiyac duymuşdur.

Qədim şəhər ikinci ömrünü yaşamağa başladığı zaman qala divarının dağılmış hissəsinin yenidən qurulub əvvəlki vəziyyətinə qaytarılması zəruriyyəti meydana gəlmişdir. Buna çox böyük ehtiyac duyulmuşdur. Tədqiqatlar göstərir ki, bu dövrdə Naxçıvan ərazisində digər qala şəhər mərkəzləri də meydana gəlmişdir.

II Kültəpə qədim şəhər mərkəzi özünün ikinci, dirçəliş ömrünü davam etdirdiyi dövrdə, e.ə. XV – IX əsrlərdə qala divarının bu və digər hissələri bərpa olunub yenidən qurulmuşdur. Bərpa işləri, yenidən qurulma II Kültəpənin birinci, ilk qala divarının memarlıq qaydalarına uyğun olaraq çox yüksək səviyyədə aparılmışdır.

Naxçıvanda qalatikmə memarlığının e.ə. II minilliyin əvvəllərində meydana gəlməsi ilk dəfə II Kültəpədə qədim şəhər mədəniyyətinin yaranması ilə bağlıdır. İlkin sivilizasiyanın çox mühüm mədəniyyət atributu üçün səciyyəvi sayılan qalatikmə memarlığının məhz II Kültəpədə yaranması heç də təsadüfi deyil.

I Kültəpə nəsli icmasının davamçıları, II Kültəpədə məskunlaşmış və özlərinə məxsus inkişaf yolu keçmişlər. Onlar ulu babalarının memarlıq ənənələrini davam etdirməklə bərabər, dairəvi və düzbucaqlı planda inşa etdikləri yaşayış evləri, ictimai binaların daha keyfiyyətli, uzunömürlü olmasını təmin etmək məqsədilə yeni tikinti texnikası tətbiq etmişlər. İcmanın varlı təbəqəsi özlərini və var-dövlətini mühafizə etmək məqsədilə yaşadıqları evlərin ətrafını müdafiə divarları ilə əhatə etmişlər. Belə varlı tayfaların sayı artdıqca onlar yaşayış yerinin müəyyən hissəsinə cəmləşmiş və ətrafını müdafiə divarı ilə möhkəmləndirmişlər. İcmada yaranan və sosial mövqeyi ilə seçilən əyanlar, kahin və sənətkar ailələr var-dövlətlərini qorumaq, xarici basqınlardan, qarətlərdən qorunmaq haqqında düşünmüşlər. Onlar əvvəllər öz yaşadıqları yerin ətrafını müdafiə divarları ilə möhkəmləndirmişlər.

İlk tunc dövrü Kür – Araz mədəniyyəti tayfaları e.ə. III minilliyin ortalarından etibarən ilk dəfə II Kültəpə yaşayış yerinin ətrafını müdafiə hasarı ilə əhatələmişlər.

E.ə. III minilliyin son yüzilliklərində II Kültəpə əhalisinin sosial-iqtisadi həyatında yeni inkişaf mərhələsi başlamışdır. İqtisadiyyatın çox mühüm sahəsi kimi formalaşan sənətkarlıq icmanın həyat tərzinə daha bir yenilik gətirdi. Təkamül prosesinin yeni göstəricisi kimi, ilkin şəhər sivilizasiyası yaranmağa başladı.

Orta tunc dövründə – e.ə. XX – XV əsrlərdə mühüm mədəniyyət mərkəzinə çevrilən II Kültəpənin ətrafında qala divarları ucaltmaq tələbatı meydana gəldi.

II Kültəpədə ilk dəfə olaraq qalatikmə memarlığı inkişaf tapdı. II Kültəpə qalatikmə memarlığı təcrübəsi Naxçıvan çayı vadisində Vayxır Govur qalasının, Quyuludağ üzərindəki qalanın, Payız kəndinin şimalında Kəmərdağın üzərindəki Çalxanqalanın tikintisində tətbiq edilmişdir.

II Kültəpədə aparılan (2012-ci il) yeni qazıntılar nəticəsində qala divarının bir sıra memarlıq xüsusiyyətinin müəyyənləşdirilməsi, bütövlükdə Naxçıvanın tunc dövrü qədim qalatikmə memarlıq tarixinə mühüm elmi yenilik kimi daxil olunmalıdır.

В.Г.Алиев, А.А.Мамедова

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ НА ПОСЕЛЕНИИ КЮЛЬТЕПЕ II

РЕЗЮМЕ

В III тысячелетии территория среднего течения реки Аракс, в том числе территория современной Нахчыванской АР, была заселена племенами Гаргар. Эти племена впервые возводили оборонительные стены вокруг поселения Кюльтепе II в середине третьего тысячелетия до н.э. Археологические исследования подтверждают, что в Кюльтепе II ремесленное производство высокого уровня и способствовало возникновению и развитию раннегородской культуры. Об этом свидетельствуют особенности возведения крепостной стены на территории древнего поселения Кюльтепе II. Дается информация о найденных каменных изделиях, остатках керамики, а также костей животных.

V.H.Aliyev, A.A.Mammedova

RESEARCH WORKS CARRIED OUT IN 2012 IN II KULTAPA SETTLEMENT

SUMMARY

The article deals with the fortress walls discovered in ancient city site of Kultapa II and their construction features. It informs about stone tools, pottery remains and animal bones.

The ancient Nakhchivan tribes gargars which were creaters of Early Bronze Age Kuro-Araxes culture was surrounded II Kultapa living place's around with defence fence in middle of III millenniums B.C. Hnadicraft was passed progression stage as lots of significant area of economy in III millennium B.C. Early town civilization has formed as a new indicator of this evolution process.

The specialties arising in II Kultapa are followed in Nakhchivan's other living places.

PLOVDAĞ YAŞAYIŞ YERİ
(Naxçıvan MR, Ordubad rayonu)

B.İ.İbrahimli, H.Q.Qədirzadə,
F.Səfərli,T.F.Xəlilov,L.N.Əhmədova



II Plovdağ nekropolu. Ümumi görünüş.

Xaraba-Gilan arxeoloji ekspedisiyasının birinci dəstəsinin 2004-cü ildən başlayaraq sistematik və planlı arxeoloji qazıntı işləri apardığı Plovdağ yaşayış yeri və nekropolu – e.ə. IV minillikdən e.ə. II minilliyin sununa qədər – tunc dövrünün bütün mərhələlərini əhatə edir.

Plovdağda aparılan arxeoloji tədqiqatların əsas məqsədi abidənin hər yerində mədəni təbəqələrin stratiqrafik quruluşunu, möcud olduğu xronoloji çərçivəni, qədim memarlıq elementlərini, sənətkarlıq sahələrinin inkişaf səviyyəsini, qədim insanların məişətini, təsərrüfat həyatını, dünya görüşlərini, iqtisadi-mədəni əlaqələrini müəyyən etməkdən ibarətdir. Bu sahədə, əvvəlki illərin tədqiqatları zamanı mühüm nəticələr əldə olunsa da, qədim tariximizin hərtərəfli öyrənilməsi üçün Plovdağ nekropolunda arxeoloji qazıntılara ehtiyac vardır. Plovdağ, Cənubi Qafqazda tunc dövrünün iki yaşayış yerini və üç nekropolunu əhatə edən yeganə unikal abidədir. Bu abidənin ətrafında yerləşmiş erkən dəmir və antik dövr abidələri, 4-5 minillik bir xronoloji dövr çərçivəsində müxtəlif tipli abidələr arasında müqayisəli təhlil aparmağa, arxeoloji mədəniyyətlərin genezis məsələlərini aydınlaşdırmağa və Naxçıvanlıların qədim tarixini hərtərəfli öyrənməyə imkan verir.

2012-ci ildə Xaraba-Gilan arxeoloji ekspedisiyası, Plovdağın şimal ətəyində - 650 kv.m. sahədə arxeoloji qazıntıları davam etdirmiş, bəzi kvadratlarda qazıntı materikə qədər çatdırılmışdır. Qazıntısı başa çatdırılmış kvadratlar nekropolun şimal tərəfində yerləşirlər. Nekropolun bu hissəsində yalnız orta tunc dövrünün qəbir abidələri aşkar olunmuş, bunlardan doqquz daş qutu qəbir keçən ilki mövsümdə tədqiq edilmişdir. Tədqiq olunmuş qəbirlərdən qərb və cənub tərəflərdə - dağın zirvəsinə doğru ilk tunc dövrünə aid yaşayış yerinin izləri aşkar olunur. Yaşayış evlərinin qalıqlarını kompleks

şəkildə aşkar etmək mümkün deyil, ona görə ki, orta və son tunc dövrünün kurqanları qurularkən ilk tunc dövrünün mədəni təbəqəsi çox yerdə dağıntıya məruz qalmışdır. Aşkar edilmiş ilk tunc dövrünə aid yaşayış evlərinin quruluşu diqqəti cəlb edir. Evlərin dağ daşı və palçıq məhlulu ilə hörülmüş divarları 0,3-0,5 m. hündürlüyündə salamat qalmışdır. Yaşayış evlərinin plan quruluşu ilə tunc dövrü kurqanlarının plan quruluşu arasında ümumi oxşarlıqlar vardır. Dairəvi planda işlənmiş, diametri 3,2-3,5 m olan otaqların bəzilərinə şimal tərəfdən kiçik həcmli tikililər bitişik işlənmişdir. Yaşayış evlərindən biri 16N-li kurqandan qərb tərəfdə yerləşir. Bu otağın salamat qalmış şərq divarının daşı kurqanın kromlexindən 1,3 m aşağıda yerləşir. Kromlexin kənar daşları evin divarı səviyyəsinə qədər düşmüş, onlardan bir neçəsi birbaşa evin divar daşının üzərinə qoyulmuşdur. Bu səbəbdən də yaşayış evi başqa kvadratlardan fərqli olaraq, az dağıntıya məruz qalmışdır.

Otağın içərisindən isə ilk tunc dövrü üçün xarakterik keramika nümunələri, otağın bir neçə yerində kül qatı və kömür qırıqları, qərb divarı yanında daşla işlənmiş oval formalı tikili, otağın divarlarına paralel düzülmüş daş cərgələri və nəhayət otağın hər yerində döşəməyə səpələnmiş darı qalıqları aşkar edildi. Bəzi yerlərdə bu qalıqların qalınlığı 2-3 sm-ə çatır. Hələlik nə otağın içərisində, nə də ona yaxın taxıl saxlanılan təsərrüfat quyusu aşkar edilməmişdir. Darı, ola bilsin ki, bu evə şimal tərəfdən bitişik işlənmiş, kiçik həcmli (1,1X1,2 m) tikilinin içərisində saxlanırmış.

Bu otaqdan qərbə tərəf, diametri 5 m-ə yaxın olan daha bir dairəvi plana malik evin divarının üçdə bir hissəsi aşkar edildi. Bu evin divarı nisbətən iri həcmli daşlarla palçıq məhlulu ilə işlənmişdir. Şərq tərəfdə evin divarı bundan əvvəl təsvir etdiyimiz evin divarının üzərindən keçir. Qeyd edək ki, mədəni təbəqənin bu cür yatımı və ya ilk tunc dövrü evlərinin qalıqlarının belə vəziyyətdə - bir-birinin üzərində aşkar edilməsi bütün Yaxın Şərq, Mərkəzi Asiya və Cənubi Qafqazın həmdövr abidələri üçün xarakterikdir. Plovdağ abidəsində tədqiqatı çətinləşdirən son tunc dövrü qəbirlərinin yaşayış yerinə aid mədəni təbəqəni yarıb keçməsi və müxtəlif dövrlərə aid mədəni təbəqələrin materiallarının qarışmasıdır.



Plovdağ yaşayış yeri. Dairəvi və dördkünc tikililər.



Plovdağ yaşayış yeri. Tikili qalıqları.

Dairəvi plana malik tikililərdən başqa, eyni mədəni təbəqədə dördbucaqlı plana malik tikililər də aşkar edildi. 10N-li qəbirdən şərq tərəfdə aşkar edilmiş dördbucaqlı tikilinin döşəməsi torpaqdır, içərisindən heç bir avadanlıq, daşdan və ya palçıqdan işlənmiş tikili qalığı aşkar edilmədi. Ölçüləri 1,8X1,2 kv.m-dir. Əlbətdə, bu kiçik ölçülü tikililəri yaşayış evləri hesab etmək olmaz.

Plovdağ nekropolu və yaşayış yerində mədəni təbəqələrin yuxarıda göstərdiyimiz səbəblər üzündən qarışmasına baxmayaraq bəzi kvadratlarda yaşayış yerinə aid mədəni təbəqənin toxunulmamış hissələrinə də rast gəlmək olur. Birinci qazıntı sahəsinin mərkəzində, dairəvi plana malik evdən 2,2 m cənub-qərb tərəfdə, 0,7 kv.m sahədə ilk tunc dövrünün mədəni təbəqəsi toxunulmamış vəziyyətdə aşkar edildi. Mədəni təbəqə boz rəngli, yumşaq torpaqdan ibarətdir, tərkibində kömür qırıntıları və osteoloji qalıqlar aşkar olunur. Osteoloji qalıqlar, əsasən iri və xırdabuynuzlu heyvanların ətraf sümüklərindən və qabırğa sümüklərinin qalıqlarından ibarətdir. Burada, 1,2 m dərinlikdə gildən hazırlanmış nalşəkilli ocaq qurğusu fraqmentlər şəklində və öküz sifəti formasında kult əşyasının buynuz hissəsi tapıldı. Qeyd edək ki, nalşəkilli ocaq qurğuları da kult təyinatlı olmuşdur. Təcrübi əhəmiyyət daşıyan və daha geniş istifadə olunan ocaq qurğuları əsasən düz divarlı olub, aşağı hissəsi xaricdən oturacağına doğru genişlənir. Bu mobil ocaq qurğuları kult əhəmiyyətli ocaq qurğularına nisbətən keyfiyyətsiz hazırlanmışdır. Belə ocaq qurğularının fraqmentlərinə daha tez-tez rast gəlinir.


Birinci qazıntı sahəsinin qərb tərəfində iri həcmli daşlar nizamsız vəziyyətdə düşmüşdür. Ehtimal ki, bu daşlar orta tunc dövrünə aid kurqanın kromlex daşlarıdır. Belə ki, nekropolun bu hissəsində son tunc dövrü kurqanlarının kromlexləri demək olar ki, salamat qalmışdır. Həmin kurqanlar tikilərkən orta tunc dövrünün kurqanları və ilk tunc dövrünün tikililəri dağıdılmışdır. İri həcmli daşlardan dairəvi plana malik yaşayış evlərinin tikintisində çox az istifadə olunmuşdur, bu daşlar kurqanların kromlexləri üçün xarakterikdir. Digər tərəfdən qazıntı zamanı, daş və torpağın arasından insan skeleti qalıqlarının aşkar olunması da burada vaxtilə ilk tunc dövrü yaşayış yerinin xarabalıqları üzərində orta tunc dövrü kurqanlarının yerləşdiyini və son tunc dövrünün kurqanları qurularkən onların dağıdıldığını sübut edir.

İkinci qazıntı sahəsinin (180 kv.m) şimal tərəfində, 100 kv.m sahədə qazıntı daha 50-100 sm dərinlikdə davam etdirildi. Beləliklə, qazıntı sahəsinin şimal tərəfində ümumi dərinlik 1,5 m, cənub tərəfində isə 0,5 m-dir. Fərq dağın relyefindən asılı olaraq alınmışdır. Burada da tək-tək yerləşmiş son tunc dövrü qəbirlərindən alt təbəqədə yaşayış evlərinin qalıqları aşkar edilir. Onların bir hissəsi, xüsusən, şimal tərəfdə yerləşmiş evlər daha çox dağıntıya məruz qalmışdır. Bəzi otaqların yalnız bir neçə özül daşı yerində aşkar olunur, qalan daşları isə nizamsız şəkildə və ya qalaq-qalaq tökülmüşdür. Maraqlıdır ki, tikili qalıqlarının içərisindən tapıntı çox az əldə olunur. Halbuki, yaşayış evləri arasındakı sahədə, bəzi yerlərdə çoxlu sayda şarşəkilli qulplar tapılır. Görünür, yaşayış evləri təcavüz nəticəsində dağıntıya məruz qalmamış, tədricən tərk edilmişdir.

İkinci Plovdağ nekropolu və yaşayış yerində aparılmış arxeoloji qazıntılarda əldə olunmuş arxeoloji tapıntılar, əsasən gil məmulatından, daş alətlərdən onların fraqmentlərindən və osteoloji qalıqlardan ibarətdir.

Qara rəngli keramika, qulpları ağzı ilə gövdəsini birləşdirən, silindrik boğazlı, şar gövdəli, düz oturacaqlı qablarla təmsil olunmuşdur. Bu qablar ilk tunc dövründə geniş yayılmışdı. Analoji formada, lakin qulpsuz qablara ilk tunc dövrünün sonlarında və orta tunc dövrünün əvvəllərində də rast gəlinir.

Keramika məmulatının böyük əksəriyyətini boz və çəhrayı gilli qab fraqmentləri təşkil edir. Şarşəkilli qulplar ən çox qara-boz rəngli qablara aiddir. Nisbətən ovalvari quruluşa malik olan bu qulplar ən çox ilk tunc dövrünün son mərhələləri üçün xarakterikdir. Tək-tək çəhrayı rəngli şarşəkilli qulplara da rast gəlinir. Nalşəkilli ocaq qurğuları da boz rəngli gildən hazırlanmış və üzəri yaxşı hamarlanmışdır. Onların üzərində qabaqda iki, arxa divarında isə bir çıxıntı vardır. Arxa divarındakı çıxıntı nisbətən enlidir. Bunlardan fərqli olaraq düz divarlı, aşağı hissəsi xaricdən genişlənən, üzərində heç bir çıxıntısı və bəzəyi olmayan, sadə hazırlanmış ocaq qurğuları nisbətən keyfiyyətsiz bişirilmiş və tərkibinə daha çox iri dənəli qum qatılmışdır. Onların daxildən çəhrayı rəngdə olması da daha çox istifadə olunduqlarını göstərir.



Plovdağ yaşayış yeri. Aşkar edilmiş ocaq qurğusu, keramika və daş alətlər.

Əgər ilk tunc dövrü keramikasının əksəriyyətini qara və boz rəngli keramika təşkil edirsə, orta tunc dövründə bu nisbət dəyişir və çəhrayı gilli qablar çoxluq təşkil edir. Çəhrayı gilli keramika içərisində orta tunc dövrünün nəfis hazırlanmış, qırmızı anqob üzərindən nazik qara zolaqlarla naxışlanmış qab fraqmentləri diqqəti cəlb edir. Bu fraqmentlər düz oturacaqlı, uzunsov gövdəli və silindrik boğazlı qablara aiddir. Yaşayış yerinin mərkəzi hissəsində tapılmış öküz sifəti formasındakı kult əşyasının buynuz hissəsi də çəhrayı rəngdədir.

Qırmızı və boz anqoblu, çəhrayı gilli qab fraqmentlərinin üzərində naxış yoxdur. Onlardan bəzilərinin ağız hissəsinə birləşən, 0,4-0,5 mm diametrində deşiyi olan həlqəvari qulpları vardır.

II Plovdağ yaşayış yerində aşkar edilmiş arxeoloji tapıntılar içərisində daş alətləri xüsusilə qeyd etmək lazımdır. Demək olar ki, hər il formasına və təyinatına görə yeni-yeni alətlər aşkar olunur. Bu ilki yeni daş tapıntılara daş qablar və qapaq formalı daş sürtkəclər aiddir. Trassoloq N.Skakunun fikrincə, belə formalı daş qablardan və çay daşından hazırlanmış silindrik formalı döyəclərdən metal filizlərinin istehsalında istifadə olunmuşdur. Mütəxəssisin fikirlərini qabların gilinə qatılmış gümüşü və qızılı rəngli parıltılar verən filiz tullantıları da təsdiq edir.

Plovdağın şimal ətəyində, yaşayış yerində aparılmış arxeoloji qazıntılardan əldə olunmuş materiallar bu yaşayış yerinin artıq e.ə. IV minilliyin ortalarında mövcud olduğunu, e.ə. III minilliyin ortalarında burada sənətkarlığın inkişaf etdiyini göstərir.

Б.И.Ибрагимли, Г.Г.Гадирзаде,
Ф.Сафарли, Т.Ф.Халилов, Л.Н.Ахмедова

ПОСЕЛЕНИЕ ПЛОВДАГ

РЕЗЮМЕ

Хараба-Гиланская археологическая экспедиция в 2012 году продолжила раскопки в центральной части поселения Пловдаг. На глубине 1,8-1,9 обнаружен культурный слой эпохи ранней бронзы. Толщина культурного слоя в этом месте поселения достигает 1,5 м.

Здесь обнаружены подковообразные переносные очажные подставки, глиняный культовый предмет в виде морды быка, шаровидные ручки сосудов из темносерой глины, каменные орудия и остеологические останки. Кроме того, в северной части раскопочного участка обнаружены остатки круглых и четырёхугольных в плане строений.

Пловдаг сложный, многослойный памятник. Здесь встречаются все этапы эпохи бронзы. Верхний культурный слой относится к эпохе поздней бронзы и достигает толщины до трёх метров, нижний культурный слой состоит, в основном, из остатков строений эпохи ранней бронзы.

B.I.Ibragimli, G.G.Gadirzade,
F.Safarli, T.F.Halilov, L.N.Ahmedova

PLOVDAG SETTLEMENT

SUMMARY

In 2012 Kharaba-Gilan archaeological expedition of the Institute of Archaeology and Ethnography continued the excavations in the central part of the settlement Plovdagh. The cultural layer of the Early Bronze Age was found at a depth of 1.8-1.9 m.

The thickness of the cultural layer in the place of settlement is up to 1.5 m. In the cultural layer there were found portable hearth stands, clay cult object in the form of a bull muzzle, ball-shaped handles of dark gray clay vessels, stone tools and skeletal remains. In addition, in the northern section of excavation there were found the remains of round and rectangular shaped constructions.

Plovdag is complex, multi-layered monument. There are found all the stages of the Bronze Age. Upper cultural layer refers to the Late Bronze Age and reaches a thickness of up to three meters, and the lower cultural layer consists mainly of the remains of buildings of the Early Bronze Age.

QAZAX ARXEOLOJİ EKSPEDİSİYASININ SARVANTƏPƏ YAŞAYIŞ YERİNDƏ APARDIĞI QAZINTILAR

(Qazax rayonu)

Ş.N.Nəcəfov



Sarvantəpə yaşayış yeri. Ümumi görünüş.

Sarvantəpə son tunc-ilk dəmir dövrünə aid yaşayış yeri Qazax rayonunun Çaylı kəndi ərazisində, kənddən 250-300 m aralıda, ondan cənubda alçaq təpə üzərində salınmışdır [1, s.143]. Burada arxeoloji qazıntılar 2009-cu ildən aparılır.

Qeyd edək ki, keçən üç il ərzində arxeoloji qazıntılar I, II, IIA, III və IV kvadratlarda (125 m^2 sahədə) aparılmışdır. Kvadratların yalnız üçündə - I, II, IIA-da arxeoloji qazıntıları materikə qədər aparmaq mümkün olmuşdur [1, s.143-148; 2, s.291-292].

2012-ci ilin qazıntıları zamanı daha 3 kvadrat (IIB, IVA və IVB kvadratları) əlavə edildi. Onların sahəsi hər biri 25 m^2 olmaqla cəmi 75 m^2 idi. Bununla da Sarvantəpə yaşayış yerində ümumi qazıntı sahəsinin həcmi 200 m^2 (hər biri 25 m^2 olmaqla 8 kvadrat) oldu. Yeni əlavə edilmiş kvadratlar əvvəlki kvadratlardan şimalda yerləşir.

Yaşayış yerində mədəni təbəqənin qalınlığı 180-200 sm arasındadır.

Tədqiqatlar zamanı Sarvantəpə yaşayış yerindən son tunc-ilk dəmir dövrünə aid (e.ə.XIII-IX əsrlər) artefaktlar aşkar edilmişdir. Bunlar yaşayış evləri və təsərrüfat məqsədli tikililərin qalıqlarından, təsərrüfat quyuları, ocaq qurğuları, daş və keramika nümunələri, metaldan və sümükdən hazırlanmış müxtəlif məzmunlu və təyinatlı artefaktlardan ibarətdir.

Artırılmış kvadratlarda 80 sm dərinlikdə arxeoloji qalıqlara seyrək halda rast gəlinirdi. Ən çox artefaktların rast gəlindiyi dərinlik IVA kvadratı idi. Burada qeyd olunan dərinlikdən xeyli sayda müxtəlif formalı keramika nümunələrinə rast gəlindi. Onlar əsasən xeyrə, sini, bardaq və küpə tipli qabların qırıqları idilər. Bütün digər keramika nümunələri dulus çarxında hazırlansalar da sinilər əldə kobud hazırlanmaları ilə seçilirdilər. Bu kvadratda (IVA) həm də 40-60 dərinlikdən iki ədəd gil möhürün dairəvi en kəsiyə malik dəstəsi, 1 ədəd isə bütöv möhür aşkarlandı. Bütöv möhür nisbətən iri formalı olub, svastikanı xatırladan ziqzaqvari kəsmələrlə naxışlanmışdır.

Digər müvafiq kvadratlardan da xeyli arxeoloji material bazası toplandı. IIB və IVB kvadratlarında 80 sm-lik dərinlikdə ən çox rast gəlinən materiallar daş məmulatı idi. Daş məmulatı ən çox çaydaşından hazırlanmış alt və üst dən daşları, sürtgəclər, bülövlər, döyüm alətləri və sapandlar,

tuf daşından hazırlanmış həvənglər idilər. Obsidian mənşəli daşların heç biri kəsici deyildir. Onlar çox ehtimal ki, qəlpələr olmuş və istifadə əhəmiyyətli olmamışlar. Demək olar ki, tapılan bütün materialların üzərini ərp örtmüşdür. Bu da yaşayış yerinin torpağının həddindən artıq küllü və gəcli olması ilə bağlı idi.

Qazıntılar nəticəsində aşkar edilmiş müəyyən artefaktların təhlili onu göstərir ki, alt mədəni qatların materialları əldə hazırlanmışdır. Bu isə həmin materialların son tunc dövrünün ilkin mərhələsinə aid olduğunu göstərir.



Sarvantəpə yaşayış yeri. Qazıntı sahəsi.

Arxeoloji qazıntılar zamanı fraqment halında da olsa tapılmış gil qab hissələri yaşayış yerinin keramikasının forması və məzmunu haqqında kifayət qədər bilgi verir.

Qazıntılar zamanı kvadratların hər üçündən 40-100 sm dərinlikdə çox zəngin və sıx halda ocaq yerləri və kül topaları və onların içərisindən çoxlu sayda sümük məmulatı da aşkar edilirdi. Sümük məmulatı əsasən iribuynuzlu ev heyvanlarına və çöl heyvanlarına aid idi. Bunlara misal olaraq inək, camış, at, eşşək, çöleşşəyi (gur), maral və ceyran, eləcə də donuz və qaban sümüklərini göstərə bilərik. Sümük məmulatı üzərində odda bişirilmənin izləri aydın nəzərə çarpırdı.

Arxeoloji qazıntılar zamanı IVA və IVB kvadratların mərkəzi hissəsindən ocaq yerləri aşkar edildi. Bu ocaq yerləri ya üzdə, ya da daha dərində idilər. Onlar yalnız əhatə dairəsinə görə biri-digərindən fərqlənirdi. Ocaq yerlərinin bəzilərinin içində müxtəlif sümük fraqmentlərinə, keramika qırıqlarına rast gəlinirdi. Bu keramika nümunələrinin böyük əksəriyyəti qazan tipli qablara məxsus idi. Onların çox yaxşı bəzək ornamentləri olmuşdur və gil tərkibləri qarışıqdır.



Sarvantəpə yaşayış yeri. Keramika məmulatı.

Arxeoloji qazıntılar zamanı IVA kvadratdan iki ədəd təsərrüfat küpü aşkar edildi. Bu küplər yarımdağılmış vəziyyətdədir. Bu küplər bir-birindən cəmi 1 metr aralı məsafədə yerləşirlər. 1-ci küp IVA kvadratın şərq divarından, 2-cisi isə qərb divarından tapıldı. 1-ci təsərrüfat küpünün d=130 sm, 2-ci təsərrüfat küpünün d=95 sm idi. 1-ci təsərrüfat küpünün ağız və gövdə hissəsi tamamilə dağılmışdır.

Bu küp IVA kvadratın şərq divarının yaxınlığından aşkar edildi. Bu küpün ağız hissəsi demək olar ki, tamamilə dağılmışdır. Onun formasından müəyyən etmək olardı ki, bu əldə kobud hazırlanmış, qalın divarlı bir təsərrüfat küpü olub, gil tərkibi narın qum və kiçik çınqıl qarışıqlıdır. Elə yerindəcə bişirilən bu təsərrüfat küpü iri tutumlu olmuşdur və dağılmışdır. Küpün gövdədən aşağı hissəsi torpaqda qalmışdır.

2-ci təsərrüfat küpü də eynilə 1-ci kimi yarımdağılmış formada olub, onun ağız hissəsi tamamilə dağılmış halda idi. Küpün üzərində boğaz hissəni əhatələyən çox sadə naxış elementinə rast gəlindi. Keyfiyyətsiz hazırlanan təsərrüfat küpü üzərində qopuqlar müşahidə edilirdi.

Təsərrüfat quyuları (2 ədəd) formaca ovaldırlar və onların divarları tamamilə mükəmməl hazırlanmışdır. Belə ki, yarımdağılmış vəziyyətdə olan bu quyular çox da dərin deyillər. Əlbəttə ki, bu quyular təsərrüfat anbarı rolunu oynayır və ərzaq ehtiyatının saxlanmasına xidmət edirdilər. Bu quyuların ətrafında xeyli dağıntıların olması görünürdü. Bu dağıntılar əsasən xırda quyuların divarlarının oyulmasından ibarət olmuşdur. 1-ci təsərrüfat quyusunun d=120 sm, 2-ci təsərrüfat quyusunun d=165 sm idi. 1-cinin dərinliyi 70 sm, 2-cinin dərinliyi isə 80 sm idi.

Təsərrüfat quyuları daxilindən xeyli sayda keramika nümunələri və daş məmulatı aşkar edildi. Bu keramika nümunələri əsasən xeyrə və küpə tipli gil qabların boğaz və çiyin hissələrindən ibarət idi. Tapılmış daş alətlər isə dən daşlarının hissələrindən, sürtgəclər və döyüm alətlərinin hissələrindən ibarət idi. Burada həm də 1 ədəd asma daş amuletin hissəsi də tapıldı. Bu adam formasında da hazırlanmışdır. Onun ortasında deşik var idi ki, bu da asmaq üçün istifadə olunurdu. Daha sonra digər bir amulet də tapıldı ki, bu da çarpanaq daşdan hazırlanmışdır. O, yumurtavari formada olub, hər iki tərəfindən asmaq üçün deşiyi vardır.

Arxeoloji qazıntılar zamanı abidənin üzərində - mədəni təbəqəyə qarışmış iki müasir qəbir aşkar edildi. Qəbirlər başqa yerə köçürüldü.

Yaşayış yerindən xeyli sayda ***daş alətlər*** aşkar edilmişdir. Onların böyük əksəriyyəti fraqment halında tapılmışdır. Daş məmulatı dən daşları, bülövlər, sürtgəclər, döyüm alətləri, həvənglər və dəstələrin fraqmentlərindən ibarətdir.

Keramika. Sarvantəpə yaşayış yerinin keramikası son tunc dövrünün ilkin və inkişaf etmiş mərhələsini əks etdirir. Tapılmış gil qablar, iy başlıqları, möhürlər, zoomorf gil fiqur qırıqları və s. keramika nümunələrindən ibarətdir. Tapılmış keramika nümunələrinin hamısını aşğıdakı kimi qruplaşdıra bilərik:

Təsərrüfat küpləri: Əlavə edilmiş kvadratlardan əldə olunmuş gil məmulatı (IIB; IVA; IVB) içərisində təsərrüfat küpləri və onların fraqmentləri üstünlük təşkil edir. Təsərrüfat küpləri daha çox ərzaq ehtiyatının saxlandığı anbar rolunu oynamışlar. Ən çox belə qab fraqmentləri 50 sm dərinlikdən sonra aşkar edilməyə başladı. Həcmlərinə görə orta, iri və kiçik həcmli olan təsərrüfat küplərinin hamısı əldə hazırlanmışdır. Təsərrüfat küpləri qalın divarlı (2-4 sm) olub, tərkibi narın torpaq, kiçik çınqıl və qum qarışıqlıdırlar. Bəzilərinin üzərinə bişiriməzdən qabaq daraqvari alətlə paralel xətlər salınmışdır. Küplərin divarındakı yanıq və his izləri göstərir ki, təsərrüfat küpləri elə yerindəcə bişirilmişdir. Onların ağız hissəsi geniş, boğaz hissəsi qısa, gövdələri böyükdür. Küplərin əksəriyyəti orta və iri tutumludur, naxış elementləri çox zəifdir.

Kiçik həcmli təsərrüfat küplərinin bəzilərinin fraqmentlərinə təsərrüfat quyularında da rast gəlinirdi.

Küpələr: Əsasən qara, boz, tünd boz və qonur rəngdə müşahidə olunurlar. Küplərin əksətiyyəti kiçik və orta tutumlu, şar gövdəli olub, ağızlarının kənarı bir qədər xaricə çıxıntılıdır. Oturacaqları yastıdır. Küpələrin çox nadir hallarda köbəli ağız çıxıntısı vardır. Qeyd etmək lazımdır ki, küpələr ən çox rast gəlinən keramika nümunələri olmaqla yanaşı, zəngin naxış elementlərinə görə də seçilirlər. Onların çiyin və gövdə hissələrində basma, burma, sünbülvari, yapma zoomorf, çərtmə, cızma və boya üsulu ilə naxışlar (üçbucaq, romb, ziqzaqvari, dalğalı, düzxətli və s.) vardır. Gövdədən aşağıya doğru ümumiyyətlə naxışa rast gəlinmir. Bəzilərinin üzərində isə heç bir naxış elementinə rast gəlinmir. Küpələrin əksəriyyəti nazik divarlıdır, keyfiyyətli gildən hazırlanmış, sabit tempraturda bişirilmişdir. Bişirilmədən asılı olaraq bəzilərinin daxili və xarici səthi müxtəlif rəng çalarlarına malikdir. Küpələrin oturacaqlarının d=8-10 sm, h=25-50 sm, gövdələrinin d=20-30 sm-dır.

Qazanlar: Yaşayış yerinin arxeoloji materialları içərisində küpələrdən sonra qazanlar say etibarilə üstünlük təşkil edirlər. Bu keramika nümunələri əsasən qara və boz rəngdədir. Onların

hamısının üzərini qara his qatı örtmüşdür. Qazanların gili narın qum və kiçik çınqıl qarışığına malikdir.

Qazanlar geniş ağızlı, qısa boğazlı, şargövdəli, kiçik, bəzən də böyük oturacaqlı olurdu. Onların üzərinin naxış elementi heç bir gil qabda rast gəlinməyəcək dərəcədə çoxdur. Kəsmə, çərtmə, cızma üsulları ilə salınmış düzbucaqlı romb, ziqzaq, dalğalı meandr, üçbucaqlarla naxışları vardır.

Sinilər: Daha çox kobud hazırlanmaları və arxaik quruluşları ilə seçilən sinilərin hamısı əldə hazırlanmışdır. Sinilərin qulp çıxıntıları kobud formadadır. Belə qabların gil tərkibi adətən təmiz olub, çox nadir hallarda narın qum qarışığı müşahidə edilmişdir. Sabit tempratur rejimində bişirilmiş sinilər xeyrə və boşqablara nisbətən iri tutumlu idilər. Sinilərin daha çox xarici səthində bəzən yanıq qatı və hisdən qaralma müşahidə olunurdu. Sinilər də xeyrələr kimi hazırlanmışdır, lakin onların ağızları iki, bəzən də üç yerdən əyilərək qulp çıxıntısı formasını alırdı. Bir növ novça düzəldilirdi.

Sinilərin divarlarının qalınlığı təxminən 1,1 sm-ə çatırdı. Sinilərin ağız d=35-40 sm, h=8-9 sm, çiyin h=4,5-5 sm-ə bərabər olurdu. Onlar adətən qara, boz və açıq-qırmızı rəngdə olurdular.

Manqallar: Arxeoloji materiallar arasında gil manqalların fraqmentləri kifayət qədərdir. Adətən boz, çəhrayı və açıq-qırmızı rəngli, qalın divarlı (2-2,5 sm) manqalların gil tərkibi qarışıq olub tərkibində narın qum və kiçik həcmli çınqıl dənələri vardır. Yaxşı hazırlanmış, sabit tempratur rejimində bişiriliblər. Onların üzəri anqobludur, daraqvari alətlə naxışlanmışdır. Manqalların hər iki səthində qalın his qatı izlənilirdi. Onlar ölçülərinə görə də müxtəlifdirlər. Uzunluqları 30-50 sm, eni isə 25-45 sm arasındadır. Düzbucaqlı formaya malik manqalların bəzilərinin ağız kənarları düzdür, bəzilərininki isə basma naxışlarla bəzədilmişdir. Bəzi manqalların oturacaqlarına yaxın deşikləri olur. Bu deşiklər yalnız manqalın uzunu boyunca divarlarından və hər tərəfində eyni sayda açılmışdır. Gil manqallar bir məqsədlə istifadə olunmuşdur [3, s.95].

Xeyrə və boşqablar: Arxeoloji qazıntılar zamanı aşkar edilmiş tapıntılar içərisində xeyrə və boşqab tipli gil məmulatı da vardır. Qeyd edək ki, xeyrə və boşqablar mətbəx qabları içərisində ən çox istehsal edilən və istifadə edilən qablardır.

Xeyrələr ölçülərinə görə boşqablardan böyükdür. Onlar adətən qara, boz, qonur rəngdə olub, təmiz gil tərkibi ilə seçilirlər. Keyfiyyətli hazırlanmış, sabit tempratur rejimində bişirilmişlər. Çiyinləri çox qısadır, təxminən 4-6 sm arasındadır. Çiyin hissədə bəzən qabarıq kanalvari naxışlar həkk olunmuşdur. Bu naxışlar çox az sayda xeyrələrdə təsadüf edilir. Xeyrələrin əksəriyyətinin ağız kənarı xaricə, çox az sayda xeyrələrin ağız kənarı isə daxilə maili əyintilidir. Onların üzəri çox yaxşı cilalanmış və şüyrələnmişdir. Bəzən hətta daxildən boya ilə naxışlanmış xeyrələrə də rast gəlinir. Xeyrələrin ağız kənarında bəzən bir, bəzən iki ədəd qulaqcıq formalı qulpa rast gəlinir. Qulp üzərində bəzən bir, bəzən də iki ədəd deşiyi olur. Bu deşiklər çox ehtimal ki, asmaq üçün istifadə edilirmiş. Qulaqcıq formalı qulpların bəziləri düz, bəziləri isə yuxarıya doğru istiqamətlənmişdir. Ortadakı deşiyin d=0,9-1 sm-dır.

Boşqablar ölçücə xeyrələrdən kiçikdir. Lakin onların da forma və naxış komponentləri xeyrələrlə eynidir. Keyfiyyətli hazırlanmışlar. Boşqablar daha nazik divarlı olub incə və zərif hazırlanmışlar. Gilinin tərkibi təmizdir, bəzən narın qum qarışığına da rast gəlinir. Boşqabların ağız kənarı çox vaxt daxilə əyintili formadadır. Onların içərisində bəzən dabanlı oturacağa malik nümunələrə də rast gəlmək mümkündür.

Kasa və camlar: Yaşayış yerindən çox az sayda kasa və cam tipli qablar aşkar edilmişdir. Kasalar nisbətən geniş ağızlı, dar oturacaqlı olub, ağız kənarı daxilə azca əyintilidir və ya ağızları kiçik hündürlüklü çiyinləri ilə birlikdə düz yuxarı meyllidir. Camlar isə dabanlı oturacaqlıdırlar və ağız kənarı xaricə doğru açılmış vəziyyətdədirlər. onların h=9-12 sm, ağız d=12-15 sm, oturacaq d=6-10 sm arasındadır. Sarvantəpə yaşayış yerinin kasa və camları nazik divarlı olub, adətən təmiz gil tərkibləri və dulus çarxında yaxşı hazırlanmaları ilə seçilirlər [4, s.75-76]. Onların üzəri yaxşı cilalanır və şüyrələnir. Bəzilərinin üzərinə boya çəkilmişdir. Səthləri adətən naxışsız olur. Çox cüzi naxış elementlərinə yalnız çiyin hissədə rast gəlinir.

Bardaq və kuzələr: Bardaq və kuzə tipli gil qablar da digərləri kimi fraqmentlərlə təmsil

olunurlar. Bu fraqmentlər onların ağız, boğaz və çiyin hissələrini təmsil edirlər. Fraqmentlərlə həmin qabların forması haqqında konkret söz demək mümkündür. Belə ki, onlar kənara açılan ağıza, dar boğaza, iri gövdəyə malik olub şargövdəlidirlər. Bardaqların və kuzələrin divarı nazik olub, təmiz gil tərkiblidirlər. Onlar keyfiyyətli hazırlanmış, sabit temperaturda bişirilmişdir. Bardaqlarda 1 ədəd qulp da müşahidə olunur. Bu qulplar adətən ağız kənarı ilə çiyini birləşdirirlər. Belə tip qulplar çox vaxt dairəvi en kəsikli olurlar. Çiyində və gövdədə naxış elementləri zəngin olur. Onlar əsasən batıq kanalvari, dalğavari xətlərdən, boya ilə çəkilmiş üçbucaqlardan ibarətdir.



Sarvantəpə yaşayış yeri. Daş məmulatı.



Sarvantəpə yaşayış yeri. Keramika məmulatı.

Möhürlər: Arxeoloji qazıntılar zamanı Sarvantəpə yaşayış yerindən 1 ədəd bütöv halda möhür, 2 ədəd isə möhürün tutacaq hissələri tapılmışdır.

Aşkar edilmiş 1 ədəd bütöv möhür indiyədək tapılmış möhürlərə və möhür qalıqlarına nisbətən həcmcə böyük idi. Gildən hazırlanmış və çox keyfiyyətli qalmışdır. Onun üzəri xüsusilə də dəstə hissəsi yaxşı cilalanmış və şüyrələnmişdir. Dəstə hissəsi nisbətən armudvari formada olub, yuxarıya doğru şişkinləşir. Üz hissəsi kvadrat formasındadır. Qalınlığı təxminən 2-3 sm-dır. Möhürün üstündə

ziqzaqvari svastikaya bənzər təsvirlər mövcuddur. Möhürün yalnız bir küncünün az hissəsi qırılmışdır.

Digər qalan 2 ədəd möhür dəstəyinin formasından aydın olur ki, bu möhürlər də təmiz gil tərkibli olub, keyfiyyətli hazırlanmışlar. Onlardan birinin üzərində günəş rəmzi və ondan yayılan şüalar təsvir olunmuşdur.

Yaşayış yerində arxeoloji qazıntılar zamanı əldə edilən arxeoloji materiallar təpənin qədim sakinlərinin təsərrüfat həyatı və məişətinin ayrı-ayrı sahələri haqqında, məşğuliyyəti və dünyagörüşü barədə dolğun məlumat əldə etməyə imkan verir.

ƏDƏBİYYAT

1. Nəcəfov Ş.N. Sarvantəpə (Rustəpə) yaşayış yerində arxeoloji qazıntılar (Qazax rayonu) //Azərbaycanda arxeoloji qazıntılar -2009. Bakı, 2010, s. 143-149

2. Наджафов Ш.Н. Археологические раскопки на поселении Сарван-тепе (Рус-тепе) в 2009-2010 гг. // История и её проблемы №2, 2011 (1997-056). Баку, 2011, стр. 291-300

3. Nərimanov İ.H. 1960-ci ildə Sarıtəpədə arxeoloji qazıntılar //Tarix İnstitutunun Əsərləri, XVI cild. Bakı, 1963, s. 81-98

4. Najafov Sh.N. The new archaeological investigations in the territory of Gazakh region //Azerbaijan & Azerbaijanis. Baku, №3-4 Vol. 107-108, 2010, p.72-79

Ш.Н.Наджафов

ИССЛЕДОВАНИЯ КАЗАХСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ НА ПОСЕЛЕНИИ САРВАНТЕПЕ

РЕЗЮМЕ

В 2012 году Казахской археологической экспедицией были продолжены раскопки на поселении Сарвантепе. Археологические изыскания проводились на площади 200 м^2. Выявленный археологический материал имеет близкие аналогии из памятников Ходжалы-Кедабекской культуры, охватывающей конец II начало I тыс. до н.э.

Толщина культурного слоя центральной части холма достигает 1,8-2 м.

Значительную часть археологического материала составляют глиняные сосуды и орудия труда земледелия: обломки хозяйственных кюпов, мисок, кувшинов и др, изготовленные как на гончарном круге, так и формованные руками. Характерными орнаментальными мотивами сосудов являются вдавленные, врезные и выпуклые линии, а также налепные пуговки.

Выевленные обломки зернотерок и терочников, указывают на оседло-земледельческий характер древнего поселения. Встречаются зернотерки с одним приподнятым концом и с ровной поверхностью овального очертания. Подобные находки свидетельствуют о развитии здесь земледелия.

Последующие раскопки позволят установить полную стратиграфию поселения Сарвантепе и его связь с сопредельными территориями всего Южного Кавказа.

Sh.N.Najafov

THE ARCHAEOLOGICAL RESEARCH OF THE KAZAKH ARCHAEOLOGICAL EXPEDITION OF THE SETTLEMENTS SARVANTEPE

SUMMARY

In 2012, the Kazakh archaeological expedition of the Institute of Archaeology and Ethnography was continued excavations at the settlement Sarvantepe. In 2012, there were unearthed three squares. In 2012, archaeological research conducted on the area of 200 m^2. Settlement Sarvantepe extracted material finds its closest analogy of the monuments of Khojaly-Gadabay culture covering the end of the II and the beginning of the I millennium BC.

The thickness of the cultural layer in the central part of the hill reaches about 1.8-2 m.

Much of the material make pottery and tools of agricultural nature. These include fragments of economic jug, bowls, pitchers, etc. They were made as a potter's wheel and by hand. Ornamental motifs characteristic of vessels of this settlement are depressed, rifled and convex lines and molded buttons.

There were many in the settlement debris carry grain, rumpling and pointing to a settled agricultural nature of neo-identified ancient settlement. There graters to one end and a raised flat surface with an oval shape. Such findings indicate the development of agriculture.

Subsequent excavations will be able to install the full settlement Sarvantepe stratigraphy and its relationship with the adjacent territories of the South Caucasus.

RƏSUL DƏRƏSİNDƏ ARXEOLOJİ QAZINTILAR
(Naxçıvan MR, Ordubad rayonu)

Q.S.İsmayılzadə, B.İ.İbrahimli, T.F.Xəlilov



Rəsul dərəsi yaşayış yeri. Ümumi görünüş.

Xaraba-Gilan arxeoloji ekspedisiyasının İkinci dəstəsi arxeoloji qazıntı işlərini Rəsul dərəsinin cənub tərəfində, Dəyirman dağının cənub-şərq ətəyində 250 kv.m sahədə apardı. Abidənin bu hissəsində mədəni təbəqənin qalınlığı 0,9-1,2 m-dir. Burada aparılan qaıntılar Sumbatan-dizə şəhər yerinin cənub-qərb sərhədlərini müəyyən etməyə imkan verdi. Rəsul dərəsində və Dyirman dağında aparılan arxeoloji tədqiqatların əsas məqsədi şəhərin müxtəlif tarixi dövrlərdə sərhədlərinin müəyyən edilməsi, aşkar edilmiş yaşayış evi komplekslərinin tikinti texnikasının, memarlıq üslubunun, tikinti materiallarının və arxeoloji tapıntıların narınqalada aşkar edilmiş materiallarla müqayisəli təhlilini aparmaqla Sumbatan-dizə şəhərinin erkən dəmir və antik dövrlərdə inkişaf və tənəzzül mərhələlərini müəyyən etməkdən ibarətdir.

Qazıntı sahəsində yaşayış evi kompleksinin üç otağı, dəhlizi, pilləkənin bir hissəsi və cənub-qərb tərəfdə, dağın yamacına tərəf, bir-birindən 2 m aralı, iri həcmli dağ daşları ilə işlənmniş iki divar qalığı aşkar edildi. Yaşayış evi kompleksində divarların eni 0,5-0,8-1,0 m-dir. Eni bir metr olan divarlar dağın yamacında üfüqi vəziyyətdə işlənən və əsas ağırlıq götürən (tirlərin oturduğu) divarlardır. Divarlar müxtəlif qalınlıqlı plitə dağ daşlarından, gil məhlulu ilə (yerli dildə palçıqla) hörülmüşdür. Yaşayış evinin kənar divarları enli, arakəsmələr isə nisbətən ensiz işlənmişdir. Qapı yerlərinin eni 70-80 sm-dir.

Qazıntı sahəsinin şərq tərəfində yerləşmiş otağın divarı yanında ocaq yeri və sınmış qazan fraqmentləri tapıldı. Ocaq yerində kül qatının qalınlığı 23-25 sm-ə qədərdir. Ocaq yerindən 1,5 m cənuba tərəf daş döşənmiş dəhliz vardır. Qeyd edək ki, Rəsul dərəsində aşkar edilmiş əvvəlki yaşayış evi komplekslərində də daş döşənmiş dəhliz aşkar olunmuşdu. Dəhlizlər ala qapıdan evin giriş qapısına

qədər uzanır. İndiyədək aşkar olunmuş hər üç dəhliz yaşayış evi kompleksinin şərq və ya şimal-şərq tərəfində yerləşirlər. Bu isə antik dövrdə yaşayış evlərinin giriş qapılarının ən çox şərqdən – günçıxan tərəfdən olduğunu göstərir.

Evlərin fasadının hansı istiqamətdə olması indi də müəyyən qaydalara əsaslanır. Belə ki, Naxçıvan bölgəsində müasir kənd evlərinin böyük əksəriyyətinin fasadı islam qanunlarına uyğun olaraq Qibləyə - Müqəddəs Kəbəyə istiqamətləndirilmişdir. Buna baxmayaraq, evlər tikilərkən ilk növbədə ərazinin relyefi nəzərə alınmışdır.

Yaşayış evinin ən böyük otağı, qazıntı sahəsinin şimal-qərb tərəfində aşkar edilmiş otaqdır. Otağın sahəsi 36 kv.m-dir. Şimal və cənub divarlarının eni 1 m-dir. Şərq və qərb divarlarının isə eni müvafiq olaraq 50 sm, 70 sm-dir. Divarlar cənub və qərb tərəflərdə 50-70 sm, şərq və şimal tərəflərdə 30-40 sm hendürlüyündə salamat qalmışdır. Bu otağın içərisində, döşəmədən 30-40 sm hündürdə bir neçə ədəd iri həcmli sal daş parakəndə vəziyyətdə aşkar edildi. Ehtimal ki, bu sal daşlardan qapı və pəncərə yerlərində qətlə kimi istifadə olunmuşdur. Otağın cənub divarının ortasında üç pillədən (70 sm hündüylüyündə) ibarət, yastı dağ daşlarından palçıqla hörülmüş pilləkən və 80 sm enində qapı yeri aşkar edildi. Bu pilləkən boyük otaqla qazıntı sahəsinin cənub-qərb küncündəki otağı birləşdirir. Qazıntı sahəsinin cənub-qərb küncündəki otağın sahəsi (6,2X2,6 m) 16,1 kv.m-dir. Otağın şərq tərəfində eni 1,3 m olan, pillələrini çoxu uçulub dağılmış, lakin umumi formasını qismən saxlamış enli pilləkən vardır. Bu pilləkən otaqlararası pilləkəndən həcminə görə çox böyükdür və həyətin arxadan – dağ tərəfdən girişinin qarşısındadır. Beləliklə, aydın oldu ki, yaşayış yerinin kənarında yerləşmiş evlərin, şəhərin mərkəzinə tərəf olan giriş yolundan başqa dağ tərəfdən də girişi olmuşdur. Şəhərin kənarındakı evlərin qərb tərəfə olan çıxışlarını birləşdirən, cənubdan şimala uzanan ümumi yol olmuşdur.



Rəsul dərəsi yaşayış yeri. Tikili qalıqlar.




Rəsul dərəsi yaşayış yeri. Qapı yeri və dübək daşının bir hissəsi.

Aşkar edilmiş yaşayış evi relyefə uyğun tikilmişdir. Bu kompleks plan quruluşuna və tikinti texnikasına görə, Rəsul dərəsinin qərb tərəfində öyrənilmiş yaşayış evi kompleksinin analoqudur. Hər iki kompleks dağa tərəf iki qat divarla əhatə olunmuşdur. Bu divarlar arasınakı sahə düzəldilərək dəhliz və ya daxili həyət kimi istifadə olunmuşdur.

Əldə edilmiş arxeoloji tapıntılar bu komplekslərin eyni dövrə aid olduğunu ehtimal etməyə əsas verir. Yaşayış evlərində nə vaxtsa baş vermiş güclü dağıntının əlamətlərini və ondan sonra aparılmış bərpa işlərini aydın izləmək mümkündür. Maraqlıdır ki, bərpa zamanı yaşayış evlərinin şəhərin mərkəzinə tərəf olan otaqlarının qapı yerləri tutulmuş, ikinci mərtəbə işlənərək oradan birinci mərtəbəyə giriş qoyulmuşdur. Öyrənilmiş hər iki yaşayış evində belə bir vəziyyətin izlənməsi müəyyən nəticələr çıxarmağa imkan verir. Ola bilcin ki, siyasi səbatsızlıq və asayişin zəif qorunduğu dövrlərdə əmlakın daha etibarlı saxlanması üçün birinci mərtəbədəki evlərin qapıları işlənərək tutulmuşdur.

Qazıntı zamanı, əsasən, çəhrayı və boz gilli qab fraqmentləri aşkar edilir. Boz gilli qabların əksəriyyəti kobud hazırlanmışdır, fraqmentlərin bəzilərinin üzərində cızma naxışlar vardır. Çəhrayı gilli fraqmentlər fraqmentlər süfrə və mətbəx qablarına aid olub keyfiyyətli hazırlanmışdır. Çoxunun üzəri anqobludur. Bəzilərinin üzərində qəhvəyi rənli, enli zolaqlarla, qabın ağzından gövdəsinə tərəf salınmış boya naxışlar vardır.

Tək-tək daş alətlərə də rast gəlinir. Daş alətlər içərisində birinci otağın qərb divarına yaxın aşkar edilmiş, içərisi 40 sm dərinliyində dübək daşı formasında yonulmuş daşın təyinatını dəqiq müəyyən etmək çətindir. Adətən iri həcmli dübək daşları qranit və bazalt daşlarından hazırlanırdı. Bu daş isə yumşaq tufit daşından hazırlanmışdır. Çox güman ki, daş buraya sonradan qoyulmuşdur. İkinci dübək daşı tərkibində qara nöqtələr olan ağ qranitdən hazırlanmışdır. Çuxurunun diametri 16sm, eni 8 sm-dir. Toxunduqda ovulur. Bərk xassəli daşın ovulmasına onun uzun müddət odda qalması səbəb olmuşdur.

Keramika məmulatı və daş alətlərdən başqa qazıntı sahəsindən iri və xırdabuynyzlu heyvanlara məxsus osteoloji qalıqlar da aşkar olunur. Xırdabuynuzlu heyvanların ətraf sümüklərinə daha çox rast gəlinir.

Rəsul dərəsində aşkar edilib öyrənilmiş yaşayış evi kompleksləri Sumbatan-dizə şəhər yerində məhəllələrin də necə yerləşdiyini öyrənməyə imkan verir. Şəhərin qərb tərəfində məhəllələr Dəyirman dağının qolları arasındakı dərələrdə salınmış və onların arasındakı yollar narınqalaya tərəf istiqamətləndirilmişdir. Şəhərin su təchizatı narınqala ilə məhəllələr arasından keçən, Gilançaydan çəkilmiş su arxı və Sumbatan dağının şimal, şərq və cənub tərəflərində yerləşən üç bulaq vasitəsilə həyata keçirilmişdir.

Rəsul dərəsində, 2012-ci ildə aparılmış arxeoloji qazıntılar aşkar edilmiş yaşayış evlərinin yaşayış yerinin ikinci mərhələsinə - e.ə. III-I əsrlərə aid olduğunu təsdiq edir.

Г.С.Исмаилов, Б.И.Ибрагимли, Т.Ф.Халилов

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ НА ПОСЕЛЕНИИ РАСУЛ ДАРАСИ

РЕЗЮМЕ

В 2012 году второй отряд Хараба-Гиланской археологической экспедиции продолжил раскопки в юго-западной части поселения Расул дараси. Площадь раскопа составляет 250 м^2, толщина культурного слоя 0,9-1,2 м.

В результате раскопок очищены три комнаты, два коридора и две лестницы жилого комплекса. Сохранились стены сооружения высотой 0,5-0,8 м., ширина стен составляет 0,5-0,8-1,0 м. У западной стены второго помещения обнаружена большая ступа, изготовленная из серо-розоватого туфита.

Археологические находки представлены в основном, фрагментами сосудов хозяйственного и бытового назначения и каменными изделиями. При сооружении жилого комплекса максимально учтён рельеф местности.

По археологическим находкам жилой комплекс можно датировать III-I веками до н.э.

G.S.Ismailov, B.I.Ibrahimli, T.F.Khalilov

ARCHAEOLOGICAL EXCAVATIONS AT THE SETTLEMENT RASUL DARASI

SUMMARY

The second unit of Kharaba-Gilan archaeological expedition continued excavations in the south-western part of the settlement Rasul Darasi. Excavation area 250 m^2, thickness of the cultural layer is 0.9-1.2 m.

The excavations cleaned three rooms, two corridors and two staircases apartment complex. The walls of buildings preserved height of 0.5-0.8 m Width m walls 0,5-0,8-1,0. The western wall of the second room found a large mortar, made of gray-pinkish tufit.

Archaeological findings are mainly fragments of vessels and household economic and stone products. In the construction of the residential complex as the terrain is taken into account.

According to archaeological findings related to a residential complex III-I centuries BC.

XINALIQ QORUĞU ƏRAZİSİNDƏ APARILAN ARXEOLOJİ İŞLƏR
(Quba rayonu)

İ.N.Əliyev, H.S.Ağayev



Zanqar yaşayış yeri. Ümumi görünüş.

Xınalıq ərazisində kəşfiyyat xarakterli arxeoloji tədqiqat işləri İlk dəfə XX əsrin 70-80-ci illərinin əvvəllərində aparılmışdır. Nəticədə, Xınalığın erkən orta əsrə aid olduğu müəyyən olunub. Ümumiyyətlə, Xınalıq və ətrafında olan bütün dağ və dağətəyi ərazilərin abidələri orta əsrlərə aid edilmiş və beləliklə, uzun illər boyu Azərbaycanın dağlıq şimal-şərq ərazilərində daha erkən dövrlərdə oturaq həyat tərzinin olmaması barədə fikir söylənilmişdir. Bir sıra tədqiqatçılar dağlıq ərazilərdə məskunlaşmanın gec dövrə aid edildiyi ilə razılaşırdılar.

Xınalıqda tarixi-etnoqrafik qoruğun yaranmasından sonra Xınalığın memarlıq strukturunun saxlanılması ilə əlaqədar bəzi yaşayış evlərində restavrasiya işləri görüldü. Bununla bərabər, kəndin tarixi hissəsində və ətrafında arxeoloji abidələr aşkarlandıqdan sonra qazıntı işləri həyata keçirildi.

2010-cu ilin əvvəllərində aşkar olunan abidələrdə 2011-ci il avqust ayında arxeoloji qazıntı işləri aparıldı. Bu işlərin davamı olaraq 2012 ilin aprel ayında yeni aşkar olunmuş abidələrdə aparılmış arxeoloji qazıntılar nəticəsində maraqlı və elmi dəyəri olan tapıntılar əldə olundu.

Abidə Xınalıq kəndindən 10 km aralı, Quba-Xınalıq yolunun üstündə yerləşir. Vaxtilə yaşayış yerinin sahəsindən daha əvvəlki (köhnə) yol keçirdi. Bu səbəbdən abidənin böyük bir hissəsinin səthi dağıdılmışdır.

Abidə müasir asfalt yoldan 10 - 20 metr hündürlükdə yerləşdiyindən, yolun (Quba-Xınalıq) solunda aşınmalar nəticəsində müxtəlif tipli saxsı qırıqları, çaxmaq daş lövhələri, sümüklər müşahidə edilir. Koordinatları: 41.11.53.2: 048.12.48.8. Dəniz səviyyəsindən yüksəklik 1963 m.-dir. Tipinə görə bu abidə yaşayış yeri kimi çox maraqlı hesab oluna bilər. İlk növbədə qeyd olunmalıdır ki, Böyük

Qafqaz dağlarının yüksəkliklərində istər kurqan, istərsə də yaşayış yeri bu vaxta kimi aşkar olunmamışdır. Məhz bu səbəbdən burada hətta müvəqqəti yaşayış yerinin aşkarlanması mühüm elmi əhəmiyyət kəsb edir. Bu baxımdan aşkar olunan yaşayış yeri nəinki müvəqqəti, hətta uzun müddət insanların məskunlaşdığını təsdiq edə bilən abidələr sırasına daxil edilə bilər. İlkin kəşfiyyat xarakterli qazıntılar bu abidənin sahəsinin 1 ha-dan çox olmasını, 150-200 sm qalınlığı olan mədəni təbəqənin mövcudluğunu təsdiq etdi.



Zanqar yaşayış yeri. En kəsiyi.

Kiçik sahədən çoxlu material əldə olunmasını nəzərə alsaq, qeyd etməliyik ki, burada intensiv yaşayış olmuşdur. Saxsı nümunələri, çaxmaq daşından alət və qəlpələr abidəni şimal-şərq bölgəsinin yüksək dağlıq ərazisində ilk tunc dövrünə aid yaşayış yeri kimi dəyərdirilməyə əsas verir. Hal hazırda bu abidə adı çəkilən bölgədə ilk abidə hesab olunur. Abidənin böyük ərazisi, uzun müddətli olması onun tarixi və elmi əhəmiyyətini artırır. Yuksək dağlıqlarda analoji abidələrə az təsadüf olunur. Yerli əhali bu ərazini Zanqar adlandırdıgına görə abidə Xınalıq (Zanqar) yaşayış yeri kimi geyd olundu.

Abidə şərqdən qərbə tərəf, ensiz dağətəyində yerləşir. Şimal tərəf dərin dərəyə, Qudyalçay istiqamətinə uzanır. Belə ki, yaşayış yeri strateji cəhətdən təhlükəsiz mövqeyə malikdir.

Burada iki yerdə yoxlama qazıntısı aparıldı. I qazıntı sahəsinin eni (relyefə uyğun) 1,5 m, uzunluğu 5 metr ölçülərində təyin olundu. Üst qat qarışıq olduğundan burada vaxtilə köhnə yolun tikintisi nəticəsində dağıdılmış təbəqə müşahidə edilirdi. Qatın qalınlığı 30-50 sm-dir. Dağıdılmış təbəqənin tərkibində saxsı məmulatı ilə yanaşı cənub tərəfdə yerləşən dağın ətəyindən aşan xırda daş, gil qatı müşahidə olunurdu. Mədəni təbəqənin ümumi qalınlığını təyin etmək üçün qazıntı davam etdirildi və yer səthindən 120 sm-ə çatdırıldı.

Bu təbəqədən ocaq yeri, kül qatı, çoxsaylı saxsı məmulatı tapıldı. Bundan əlavə heyvan sümüklərindən iti uclu biz, oraq dişi, çaxmaq daşından qəlpələr əldə olundu.



Zanqar yaşayış yeri. Keramika nümunələri.

Qazıntı 180-190 sm, qaya-daş təbəqəsinə qədər davam etdirildi. Müəyyən edildi ki, 170-180 sm dərinlikdə eyni tapıntılar aşkar olunur. Materiallar arasında nalşəkilli ocaqaltı maraqlı tapıntı sayılır. Saxsı nümunələri qara rəngli, səthi cilalı küp, bardaq, enli ağız camlardan ibarətdir. Qabların əksəriyyəti yarımşar formalı qulplarla təmsil edilib. Saxsı qabların az bir hissəsi qalın, səthi kobud işlənmiş, gilin tərkibində xırda daş olan açıq çəhrayı-qırmızı qablardan ibarətdir. Digər materiallarla yanaşı çaxmaq daşlarından hazırlanmış oraq dişinin hissəsi, qəlpələri aşkar edilmişdir.

Xüsusən lülə sümüklərindən hazırlanan iynə və bizləri qeyd etmək olar. 180 sm dərinlikdə mis lövhəsi aşkarlanmışdı. Belə tapıntı şimal-şərq yüksəkliklərində ilk nümunədir.

Abidənin 170-190 sm-lik mədəni təbəqəsində iki tikinti qatı müəyyən edildi. Belə ki, I (üst) tikinti qatı 120-130 sm, II (alt) qat 170-190 sm dərinlikdə yerləşir. Bunları yoxlamaq məqsədilə abidənin şərq hissəsində II qazıntı sahəsi aparıldı.

II Qazıntı sahəsinin eni 2 m, uzunlugu 4 metr ölçülərində təyin edildi. Burada da üst qatlar qarışıb. Bundan başqa, yaşayış yerinin kənar hissəsində mədəni təbəqənin dərəyə tərəf çökməsi aydın müşahidə olunurdu. Qazıntının dərinliyi qaya səthinə kimi, 150-160 sm-ə çatdırıldı. Əldə olunan materiallar digər qazıntı sahəsinin materiallarından fərqlənmir. Qazıntının nəticələrinə əsaslanaraq bu abidəni ilk tunc dövrünə aid etmək olar.

Yaşayış yeri Qudyalçayın sağ sahilinin dağətəyi döşündə salınmış, şərqdən qərbə uzunluğu 150-200 metr, eni 20-30 metr olan sahəni tutur. Mədəni təbəqə dağətəyi relyefdən asılı olaraq 110-190 sm qalınlıqdan ibarətdir.

Baxış zamanı yaşayış yerinin şərq hissəsində, qayalığın ətəklərində bir ədəd spiralvari tunc bilərzik tapıldı. Burada qəbirin olması güman edildiyindən qazıntı işlərinə başlandı. Təxminən 100-120 sm dərinlikdə müxtəlif ölçülü muncuqlar, tuncdan hazırlanmış bəzək əşyaları, yarpaq formalı tunc bıcaq və digər materiallar aşkar olundu. Tapıntılar cəm şəkildə, bir yerə yığılmasına baxmayaraq xırda əşyalar, əsasən muncuqların böyük bir hissəsi dağılmışdır. Əşyalar bağlama içində olmuş, bu səbəbdən tapıntıların dəfinə xarakterli olmasını güman etmək olar. Əşyaların müxtəlifliyinə baxmayaraq, onları əsasən orta tunc dövrünə aid etmək olar. Dəfinədə olan tapıntıların böyük hissəsi

bəzək əşyalarından ibarətdir. Sayca üstünlük təşkil edən dəniz balığqulağından hazırlanmış təkərvari muncuqların sayı 400 ədəddir. Bunlardan 50 ədədi çay balıqqulağından hazırlanıb. Təxminən, 400-dən artıq təkərvari muncuqlar dağ büllurundan hazırlanıb. Əqiqdən olan muncuqların forması da təkərvaridir. Sayı 211 əddədir. Pastadan hazırlanan muncuqlar müxtəlif formalarla təmsil olunub, ən xırdalarının (251 ədəddir) diametri 2 mm-dir. Rəngi ağdır. Boru formalı pasta muncuqların bəzilərinin səthi açıq mavi rəngdədir. Sayı 252 ədəddən ibarətdir. Kolleksiyanın tərkibində az miqdarda şəvədən (2 ədəd) muncuq olması qeyd edilməlidir. Domino formasında olan pasta muncuqların sayı 420 ədəddir. Kolleksiyanın digər hissəsi metaldan ibarətdir. Bunlar tunc və gümüşdən hazırlanmış yumru, yan tərəfi bikonik təkərvari, uzunsov boru formalı muncuqlardır. Gümüşdən hazırlanmış yarımkürə formasında olan bəzək əşyasının mərkəzində bir və qırağında 2 dəlik var. Bu əşyanı qadın bəzəyinə aid etmək olar. Qadın bəzəklərinə tunc və gümüş sırğaları da aid etmək olar.





Zanqar yaşayış yeri. Dəfinə.

Maraqlı tapıntılar qismində tuncdan hazırlanan eynəkvari asmalardır ki, onlar ölçülərinin müxtəlifliyi ilə seçilir. Ən böyük eynəkvari asmanın eni 10 sm-dir. Kolleksiya tərkibində müxtəlif ölçüdə 51 eynəkvari asma tapıldı.

Orta tunc dövrünə xas olan silahlarla eynilik təşkil edən yarpaqvari xəncər tapılan yeganə silah növüdür. Digər metal əşyalar tunc asmalar, borular və amulet hesab edilən əşyalardan ibarətdir.

Amuletlərin biri insan əli, digəri isə ərsin formasındadır. Quş formasını xatırladan amuletlər bir-birindən az fərqlənir, bəzilərinin arxa hissəsi üç yerə bölünərək yarpaq, yaxud quşun quyruğuna bənzəyir. Asmaların hazırlanmasında metaltökmə texnologiyasından istifadə olunub. Az təsadüf olunan, 3 ədəd sümükdən hazırlanmış iynələri xüsusən qeyd etmək olar.

Təsvir olunan tapıntılar yuxarıda qeyd etdiyimiz kimi dəfinə xarakteri daşıyır və orta tunc dövrünün metalişləmə və ümumiyyətlə, sənətkarlıq tarixini öyrənmək baxımından son illərin ən dəyərli tapıntısı kimi qiymətləndirilə bilər.

Güman etmək olar ki, əşyalar ətrafda yerləşən qəbir abidələrindən qarət edilmiş və dağ yolları üstündə yerləşən yaşayış yerində gizlədilmişdir. Yaşayış yerinin yaxınlığında tədqiq olunan kurqan da qədim dövrdə qarət edilmişdir. Qeyd etməliyik ki, kəşfiyyat nəticəsində yüksək dağlıq keçid yollarında orta tunc və sonrakı dövrlərə aid yüzlərlə kurqanlar təyin edilmişdir.

Abidənin dövrü və elmi əhəmiyyəti əldə olunan materiallara və qazıntının nəticələrinə əsaslanır. İlk növbədə keramikanın qısa təhlilini verərkən deməliyik ki, yaşayış yerinin keramikası ilk tunc dövrü üçün xas olan əsas aparıcı texnoloji və tərtibat xüsusiyyətlərini əks etdirir. Qablar qara səthinin parıltı səviyyəyə qədər işlənməsi ilə yanaşı cilalanmışdır. Bu dövrdə geniş ərazidə yayılan Kür-Araz mədəniyyəti tipli abidələr üçün xas olan və ümumiyyətlə, ilk tunc dövrünün keramikasını fərqləndirən xüsusiyyətlərdən biri qulpların varlığıdır. Qulplar yarımşar, lentvari şəkildədirlər. Bu mədəniyyətin digər göstəricilərindən birinin də, nal formalı ocaqaltıların abidədə aşkarlanması (Zanqar) Xınalıq yaşayış yerini Kür-Araz mədəniyyət komplekslərinə daxil etməyə imkan verir.

Əlavə olunmalıdır ki, Kür-Araz mədəniyyəti arealına daxil olan abidələrdə ilk metal əşyaları nadir tapıntılar qismində az təsadüf olunur, Azərbaycanda ilk metalın yayılması və istifadəsi baxımından qiymətli mənbə sayılır.

Çaxmaq daşından alətlərin hazırlanması, istifadəsi və geniş yayılması bu yaşayış yerinin oturaq əkinçi-maldar tayfalara aid olduğunu təsdiq edir. Burada çaxmaq daşından ox ucları, oraq dişlərinin aşkarlanması bu tayfaların iqtisadiyyatının məhz maldar-əkinçi olmasına dəlalət edir.

Şimal-şərqi dağlıq ərazidə Xınalıq (Zanqar) yaşayış yeri ilk abidə kimi Kür-Araz mədəniyyətinin ən yüksək zirvələrə yayılma istiqamətlərinin göstəricilərindədir. Burada tapılan bəzi materialların oxşarları ən çox Xaçmaz rayonunun ərazisində tədqiq olunan Sərkərtəpə abidəsindən aşkar olunmuşdur. Oxşarlıq xüsusilə vaza tipli qablarda müşahidə olunur.

Aparılan arxeoloji işlər bu regionda (yəni yüksək dağlıq ərazidə) ilk dəfə qədim dövrə aid abidələrin mövcudluğunu müəyyən etdi.

Cənubi Qafqazda ilk tunc dövründə cərəyan edən proseslər, əlaqələr, tayfaların-mədəniyyətlərin yayılma istiqamətlərinin öyrənməsində Xınalıq yaşayış yeri gələcək tədqiqatlar üçün xüsusi elmi əhəmiyyət kəsb edir. Belə ki, e.ə. III minillikdə ən geniş yayılmış Kür-Araz arxeoloji mədəniyyətinin dağ yüksəkliyində aşkar olunması Azərbaycanın şimal-şərq bölgəsində bu mədəniyyətin yayılması haqqında əsaslı dəlildir.

Uzun illər ərzində orta əsr abidəsi kimi arxeologiya elmində tanınan Xınalıq və ətrafı tunc dövründən başlamış orta əsrlərə kimi xronoloji dövrlərdə inkişaf mərhələlərini keçmiş bir ərazi olmuş və Qafqazın mədəni sistemində yeri olmuşdur. Bu ərazilərdə gələcəkdə aparılan tədqiqatlar Qafqaz arxeologiyasının bir çox problemlərinin həllində mühüm rol oynaya bilər.

И.Н.Алиев, Г.С.Агаев

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ В ХЫНАЛЫГЕ

РЕЗЮМЕ

Археологические раскопки на территории Хыналыг и прилегающей к ней территории были начаты в 2010 году, и носили, в основном, разведочный характер. Тогда впервые были выявлены десятки курганов, поселения, пещеры, культовые места. Был исследован один курган II го тысячелетия до н.э. в местности Зангар, близ села Джек.

Поселение Хыналыг расположено на склоне горы, параллельно автотрассе Баку-Хыналыг (в 10 км от Хыналыг). Поселение частично разрушено при прокладке асфальтовой трассы. Площадь поселения более 1 га. Подъемный материал представлен большим количеством керамики, осколками кремня и костей. Раскопками разведочного характера в нескольких частях поселения был установлен культурный слой, толщиной 190-200 см, определены два строительных горизонта. Керамика куро-араксской культуры, в основном, с лощеной поверхностью с полушаровидными ручками, кроме того имеется керамика красного цвета с лощенной и шероховатой поверхностью. Состав глины красной керамики более грубый. Керамика куро-араксской культуры черная, темно-серая, качественного обжига. Кроме того выявлена очажная подставка, аналогии которой имеются в памятниках куро-араксской культуры. В процессе раскопок был найдены наконечники стрел из кремня, ножевидные пластины, костяные шилья. Наиболее интересна медная пластина, найденная в на глубина 2 м.

В процессе работ, у скального основания был обнаружен клад бронзовых украшений (витых браслетов, птицевидных подвесок, очковидных спиралей, трубочек и др), оружия (листовидный нож), серебряный диск, кольца, костяные иглы и большое количество сердоликовых, пастовых, агатовых, хрустальных бусин различной формы. Эта коллекция относится к более позднему времени и характерна для периода средней бронзы-первой половины 2 тысячелетия до н.э. Обнаруженную коллекцию можно считать одной из наиболее крупных находок на Кавказе в последние годы.

Поселение Хыналыг является первым известным памятником, свидетельствующим о продвижении племен куро-араксской культуры в высокогорные районы Большого Кавказа.

I.N.Aliev, H.S.Agayev

ARCHAEOLOGICAL EXCAVATIONS IN KHINALIG

SUMMARY

Archaeological excavations in the Khinalig and adjacent territory were launched in 2010. Then for the first time were identified dozens of burial mounds, villages, caves, and places of worship. Were found mounds of the 2nd millennium BC in the Zangar area, near the village of Jack.

Area of the settlement is more than 1 hectare. The thickness of the cultural is layer 190-200cm. There were installed two construction horizonts. A big part of ceramics is represented by glossy surfaces with hemisphere-shaped handles of the Kura-Arax culture. Kura-Arax pottery culture is black, dark gray, high-quality firing and pure in composition of clay. In addition, there was a found firing stand. At the bedrock a hoard of bronze ornaments, weapons, silver hemispheric disks, rings, bone needles and a big amount of jade and crystal beads of different shapes was discovered. This collection belongs to a later period, is characteristic of the Middle Bronze Age, the first half of the II millennium B.C.

Settlement Khinalig, is the first known monument testifying to advancement of tribes of the Kura-Araxes culture in the highlands of the Greater Caucasus.

YASTITƏPƏ YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ QAZINTILAR
(Ağstafa rayonu)

Ş.N.Nəcəfov



Yastıtəpə yaşayış yeri. Ümumi görünüş.

2012-ci ildə son tunc-ilk dəmir dövrünə aid Yastıtəpə yaşayış yerində arxeoloji qazıntılar ümumi qazıntı sahəsinə əlavə olaraq 2 kvadratın (IIIA və IVA) artırılması ilə başlandı. Kvadratların hər birinin sahəsi 5x5 metr olmaqla 25 m^2-dir (ümumilikdə isə 50 m^2). Beləliklə, Yastıtəpə yaşayış yerində arxeoloji qazıntı sahəsi 250 m^2-ə (10 kvadrat) çatdırıldı. Bu ilki arxeoloji qazıntılar III, IV, V, VI və yeni artırılmış IIIA və IVA kvadratlarında aparılmış, kvadratların hamısında mədəni təbəqəni materikə qədər izləmək mümkün olmuşdur.

Yastıtəpə yaşayış yerində mədəni təbəqə yatımının qalınlığı 220-240 sm arasındadır [1, s.159-160].

Arxeoloji qazıntılar zamanı yaşayış evinin qalıqları, təsərrüfat quyuları, ocaq kompleksi, təndir qalığı, xeyli sayda daş alətlər və gil qabların müxtəlif fraqmentləri aşkar edilmişdir.

Formaca dairəvi olan *yaşayış evinin* xam torpaqdan olan döşəməsinin bir neçə dəfə saman qatılmış gillə suvanması aydın hiss olunur. Yaşayış evinin möhrə divarının şimal tərəfində ocaq qurğusu aşkar edilmişdir. Bu ocaq qurğusunun bir hissəsi IIIA kvadratına düşürdü. Burada ön hissədə gil badlardan quraşdırılmış ocaq, arxada isə çiy kərpicdən formalaşdırılmış tikinti qalığı yerləşirdi. Yaşayış yerindən aşkar edilmiş böyük ocaq qurğusu çiy kərpicdən tikilmiş yaşayış evinin möhrə divarlarının dibində, ya da evin orta hissəsində qurulmuşdur. IVA, V və VI kvadratlarda da ocaq qurğuları aşkarlanmışdır. Yaşayış üçün tikilmiş evlərin hər ikisi güclü yanğın nəticəsində dağılmışdır. Döşəmədə təxminən 8-10 sm-lik kül qatının olması və kvadratın şimal divarında təxminən 10 sm qalınlığında kül və kömür qatının izlənilməsi burada şiddətli yanğının baş verməsinin əyani sübutudur. Ehtimal ki, möhrə evin üstünü örtmək üçün dirəklərdən istifadə olunmuşdur. Divar qalığının üzərində kiçik həcmli dirək çalalarının yerləri vardır. Bu dirək ağacların materialı adətən davamlı meşə ağaclarından olur, evlərin damı isə çox ehtimal ki, küləşlə və qamışla örtülmüşdür [2, s.46-49].

Aşkar edilən *təsərrüfat quyularının* hamısı xam torpaqda qazılmışdır. Arxeoloji qazıntılar zamanı yeni əlavə olunmuş kvadratlardan 3 ədəd təsərrüfat quyusu tapıldı ki, onların hamısı çox yaxşı qazılmış, divarları suvanmışdır. Oval, təndirvari və silindrik formalı quyuların forması eyni olsa da ölçüləri müxtəlifdir. Təsərrüfat quyularının birində yarıçürümüş odun parçalarına da təsadüf edildi.



Yastıtəpə yaşayış yeri. Qazıntı sahəsi.



Yastıtəpə yaşayış yeri. Keramika məmulatı.

Abidənin dövrünü, yaşayış yerində mövcud olmuş sənət sahələrini və aşkar olunmuş nümunələrin istehsal üsullarını müəyyən etmək üçün oxşar abidələrlə müqayisəli analogiyalar aparılmış, maddi-mədəniyyət nümunələri təhlil edilmişdir.

Yeni əlavə edilmiş kvadratların üst torpaq qatı 10-sm-lik münbit qaratorpaqdır. Bu qat qismən dağıdılmışdır. Bu dərinlikdən heç bir arxeoloji material əldə edilməmişdir. Yalnız ayrı-ayrı yerlərdə kiçik keramika nümunələrinə rast gəlinirdi. IIIA kvadratın şərq divarı boyunca 25x30 sm diametrində ocaq yeri aşkarlandı. Lakin bunun müasir dövrə aidliyi şübhə doğurmurdu. IIIA kvadratın müəyyən yerlərindən tapılan heyvan sümüklərinin də müasir dövrə aid olması aydın oldu. Arxeoloji materialların geniş rast gəlindiyi dərinlik 30 sm-dən sonra idi. Belə ki, burada torpaq qatının dəyişilməsi və yaşayış yerinin bu qatda zəngin materiallarla müşayiət olunması onu deməyə əsas verirdi ki, burada artıq kompakt yaşayışın izləri mövcuddur.

IIIA kvadratında 100 sm dərinlikdən başlayaraq küllü torpaq və kömür qalıqları izlənilirdi. Bu sahə zolaq şəklində kvadratın şimal qərb küncündən cənub şərqinə doğru uzanırdı. Bəzi yerlərdə torpaqda dərin yanmanın izlərini sübut edən sahələrə də rast gəlinirdi. 1,20 m dərinlikdə IIIA kvadratda – kvadratın düz mərkəzində ocaq kompleksi aşkarlandı. Ocaq kompleksi ətrafında xırda ölçülü çay daşları

qurulmuşdu. Çiy kərpicdən inşa edilən bu ocaq kompleksində yanmadan dərin izlər qalmışdı. Ocaq kompleksi cənub-şərq küncündən şimal-qərbə uzanmış formada idi. Onun h=15 sm idi. Ocaq kompleksi içərisində qalın kömür qalıqları mövcud idi. Torpağın yanıb qaralmış hissələrində xırda keramika nümunələrinə rast gəlinirdi. Onlar əsasən qazan, küpə, bardaq, manqal tipli qablara aid edirlər. Çox ehtimal ki, bu qablar elə ocaqda ərzaq məhsullarının bişirilməsi üçün istifadə edilmişdir. Kiçik çay daşlarına çox rast gəlinməsi burada həmin daşlardan geniş istifadə edildiyini göstərirdi. Ocaq kompleksinin qərb küncündə xırda çay daşlarının təxminən 50x75 sm diametrlik düzümünə rast gəlindi. Daşlar çox səliqə ilə düzülmüşdü və qalınlığı 15 sm olardı. Bu daşlar çox möhkəm gil məhlulla bərkidilmişdi və üzərində çoxlu sayda kömür, kül qatına rast gəlinmişdir. Bu daşlar istinin təsirindən yanıb qaralmış, kənarlarındakı daşlar isə qızarmışdı. Çox böyük ehtimalla bu sahə ocaqda yemək bişirildikdən sonra lazım olan tempraturda onu saxlamaqdan ötrü istifadə olunmuşdur. Yemək bişirilir, sonra isə elə qabındaca bu daşların üzərinə qoyulur və kənarına kömür parçaları düzülürdü. Bu da həmin qidanı lazım olan tempraturda saxlayırdı. Ocaq kompleksinin üzü qərbə tərəf olan hissəsində sağda və solda iri daş parçaları qoyulmuşdu. Bu çox ehtimal ki, onun ağız və ya giriş hissəsi idi. Ocaq kompleksi şimal-qərb istiqamətindən başlayıb kvadratın mərkəzinə doğru cənub-şərq istiqamətində uzanırdı. Onun uzunluğu 1,90 m, eni isə 1,70 m idi. Ocaq kompleksi III kvadratda aşkar edilmiş divar qalığına birləşirdi. Çox ehtimal ki, bu kompleks otağın içərisində onun qərb küncündə qurulmuşdu. Ocaq kompleksindən şimal-qərbə tərəf kül və yanmış torpaq izlənilirdi. Onun içərisindən xeyli sayda kömür parçaları tapıldı. Bu ehtimal ki, ocaqdan düşmüş kömür vasitəsilə alışma nəticəsində meydana çıxmışdır. Burada çox dərin yanma müşahidə olunmuşdur. Kvadratın şimal-qərb kəsiyindən bu yanıq qatının qalınlığı 15-20 sm idi. Çox ehtimal ki, ocaqdan düşən köz nəticəsində burada dərin yanma baş vermiş və yuxarıdakı örtük (qamış və ya küləş) yanaraq aşağıya düşmüşdür. Yanmış torpaq və kül qatı içərisindən xeyli sayda keramika qırıqları tapıldı.

IIIA kvadratın mərkəzindən ocaq kompleksinə doğru bütöv halda alt dən daşı tapıldı. Bundan əlavə onun yaxınlığından yenə də əlavə daş düzümü aşkar edildi. IIIA kvadrat ilə IVA kvadratın kəsişmə nöqtəsindən orta həcmli (1,20x1 m) çox da dərin olmayan (30 sm) təsərrüfat quyusu tapıldı. Quyunun içərisindən narın küllü torpaq və kiçik ölçülü keramika nümunələri tapıldı. Qırıq daş alətlərin demək olar ki, hamısı dən daşlarının və sürtgəclərin qırıqları idilər.

IVA kvadratda yer səthindən 40 sm dərinlikdə iri ölçülü təknənin və yaxud ləyən tipli gil qabın hissəsi aşkar edildi. Təknə və ləyən formalı bu qabın hansı məqsədlə istifadə edilməsi çox şübhə doğurur. Belə ki, onun yarı hissəsi yox idi. Yalnız bir tərəfi var idi. Bu tərəflər də ayrı-ayrılıqda hazırlanmışdılar. Onun manqal olması ehtimalı azdır. Çünki, onun içində nə kül qatı, nə də yanıq izləri vardı. Bəlkə də onun xəmir yoğurmaq üçün ləyən və maye axıdılması (süzmək üçün) məqsədilə istifadə olunması ehtimalı vardır. Onun bir küncündə deşiyi vardır. Deşiyin D.=5 sm-dır. Qabın uzunluğu 90 sm, eni 50 sm, hündürlüyü 10 sm, içinin dərinliyi isə 8 sm-dır. Maraqlı bundadır ki, o, iki hissədən hazırlanmışdır. Ayrı-ayrı hazırlanmış, sonra isə yanaşı qoyulmuşdur. Yalnız iki hissəsi vardır. Ağız hissəsi yoxdur. Yəni manqal kimi dördtilli deyildir. Buna görə də onun hansı məqsədlə istifadəsi çox maraqlıdır. Divarının qalınlığı 3,5 sm olub, gil tərkibi qarışıqdır. Narın qum və kiçik çınqıl qarışığı vardır. Divarları ovaldır. Küncləri isə əyilərək birləşir. Onun içindən xeyli sayda gil qab fraqmentləri - xeyrə, kuzə, dopu fraqmentləri, qulp hissələri tapıldı. Əsasən çiyin, oturacaq və boğaz hissələri birləşdirən bu fraqmentlər yaxşı hazırlanmış və mürəkkəb naxış elementlərinə malikdirlər. Bundan əlavə xeyli sayda döyüm alətləri və sürtgəclər də tapıldı. Ləyən formalı qabın içindən bir ədəd sümük biz də aşkar olundu. O, quş sümüyündən hazırlanmış, ucu bizdir və bütöv qalmışdır. Yaxşı işlənmiş bizin uzunluğu 9 sm-dır. Ləyənin içindən tapılan 1 ədəd çox yaxşı formada hazırlanmış döyüm alətinin bir ucu döyülməkdən hamarlanmışdır. Onun uzunluğu 12 sm, eni isə 6 sm-dır. Əldə tutmaq üçün çox yaxşı formalaşdırılmışdır.

IVA kvadratın cənub küncündən 50 sm dərinlikdən ağ rəngli əhəngdaşından həvəngin hissəsi tapıldı. Bu çox böyük ölçülü olub daşınması çətin idi. Çox ehtimal ki, onu yerindəcə otuzdurub içərisində dən əzirlərmiş. Onun altında çox səliqə ilə nazik plitə formasında daşlar düzülmüşdür. Həvəngin d=34

sm, h=33 sm idi. Ağız bir tərəfdən dağılmışdır. Ortasındakı oyuğun d=24 sm, dərinliyi isə 14 sm idi. Dairəvi formada olub, altı və hər tərəfi yaxşı yonularaq formalaşdırılmışdır. Daş alətdən çox ehtimal ki, dənli bitkilərin əzilməsində istifadə olunubmuş.

IVA kvadratın cənub divarına yaxın, gil təknə və ya ləyənin tapıldığı yerdən 1 metr aralıda, yer səthindən 50 sm dərinlikdə çoxlu sayda dən daşının cəmləşdiyi sahəyə rast gəlindi. Burada bütöv və qırıq halda alt və üst dən daşlarına, döyüm alətlərinə, təsərrüfat küpünün oturacaq hissəsinə rast gəlindi. Bunlar cəm halda 1,20 mx1 m diametrində yerləşirdi. Ehtimal etmək olardı ki, bu sahə təsərrüfat məqsədilə istifadə edilən sahə olmuşdur. Təsərrüfat küpünün oturacaq hissəsində qaralmış və bərkimiş halda olan ərzaq qalıqları aşkar edilirdi.

IIIA kvadratdan 1,20 m dərinlikdən tapılan ocaq yeri III kvadratın şərq divarının altına uzanan divar qalığının qurtaracağı idi. Bu divar qalığı bünövrə idi. Onun içərisində kərpic qalıqları aşkar görünürdü. Ocaq kompleksi içərisindən xeyli sayda yanmış keramika nümunələri, heyvan sümükləri tapıldı. Çoxlu sayda kömür parçaları tapıldı. Ocaq kompleksinin qərb-şərq istiqamətində eni 170 sm, şimal-cənub istiqamətində isə uzunluğu 215 sm idi. Ocaq kompleksinin şimal tərəfində möhrədən ocağın ağızlığı formalaşdırılmışdır. Bu hissədə təxminən 40-50 sm dərinlyində kül qatı izlənildi. Kül qatının bu qədər dərinliyə gedib çıxması ocağın uzunmüddətli yandırılmasının nəticəsi idi. Ocaq yeri kompleksindəki kül qatı içərisindən qoyuna, inəyə, keçiyə, qabana məxsus ön kəsici dişlər, qabırğa sümükləri aşkar edildi. Bu sümüklərin əksəriyyəti ocaqda yanmış qaralmış və kövrək halda idilər. Ocaqda bir neçə ədəd sapand daşı da tapıldı. Onlar çay daşından hazırlnamışdılar. Ocaq kompleksinin hündürlüyü təxminən 80 sm idi və bu möhkəm formalaşdırılmışdır. Bu kompleksin içərisində aşkar edilmiş heyvan sümükləri ocaqda bişirilmiş və yemək üçün istifadə edilən heyvanlara aid olmuşdur. Qazıntı sahəsinin IIIA kvadratının divarının başlanğıcından ta şərq divarının qurtaracağına doğru təxminən 5 metrdən də çox uzunluqda 5-10 sm qalınlığında iri kömür parçaları ilə müşahidə olunan kül qatı izlənildi. Bu qat şərq divarında daha da çoxalır və burada qalınlıq təxminən 15-20 sm-ə çatır. Ocaq kompleksinin kəsiyinə nəzər yetirdikdə orada qırmızı rəngli bişmiş gil kərpic qırıqlarına da rast gəlinirdi. IIIA kvadratla III kvadratın kəsişmə nöqtəsində 50 sm uzunluğu və 30 sm dərinliyində ocaq yeri aşkarlandı ki, burada iri dənəvər halında kömür parçaları vardı.

Bu izlənilən kül qatı və kömür parçaları tikili daxilində böyük və iri miqyaslı yanğının baş verməsini göstərirdi. Çox ehtimal ki, yaşayış evi daxilində məhz həmişə gur yanan ocaqdan köz düşmüş və bu alov tikilinin üzərindəki örtüyün alovlanmasına səbəb olmuşdur. Örtüyün qalın olmasının əsas göstəricisi kimi bunun yanaraq qalın kül təbəqəsi təşkil etməsi olmasıdır. Kül qatı içərisində aşkarlanan bəzi dən daşı qırıqları da dərin yanmaya məruz qalmışdır. Onların çox böyük hissəsi qırıq vəziyyətdə, bəziləri isə bütöv aşkar edilmişdir.

III və IIIA kvadratların kəsişməsində aşkarlanan təsərrüfat küpünün üzərinə bir ədəd ortadan dağılmış təsərrüfat küpü keçirilmişdir. Üzərində qulp çıxıntısı, kənarında onun qırıqları vardır.

Kvadratların bəzisində (IA, IVA, V, VI) materikə qədər mədəni təbəqənin qalınlığı 180-200 sm, bəzilərində isə (IA, IIA, II, IIIA, III, IV) 220-240 sm-dır.

2012-ci il qazıntıları zamanı ümumi qazıntı sahəsini (bütövlükdə 250 m^2 sahədə) materikə qədər tədqiq etmək mümkün olmuşdur.

Qazıntı nəticəsində əldə edilmiş keramika və daş məmulatı tərkib və məzmun baxımından son tunc-ilk dəmir dövrünün maddi qalıqlarını əks etdirirlər. Analoji nümunələr Gəncə-Qazax bölgəsinin həmdövr abidələrindən də tapılmışdır [2, s.51-54; 3, s.84-85].

Arxeoloji qazıntı sahəsindən aşkar edilən *daş məmulatı* təyinatına görə müxtəlifdir. Onlar dən daşları (alt və üst), sürtgəclər, döyüm alətləri, sapand daşları, dəstələr, bülövlər, kəsicilər, həvənglər, eləcə də obsidiandan hazırlanmış 1 ədəd ox ucluğu, qısa dəstəyi olan daş alətlər, ərsini xatırladan boz rəngli çay daşından hazırlanmış alətlər, çaxmaqdaşından hazırlanmış kəsici alətin qırığı, daşdan hazırlanmış baltadan ibarətdir. Obsidiandan kəsici alətlər az olsa da tapılmışdır. Daş məmulatı bütöv və qırılmış halda tapılırdı.




Yastıtəpə yaşayış yeri. Daş məmulatı.



Yastıtəpə yaşayış yeri. Zoomorf fiqurlar.



Yastıtəpə yaşayış yeri. Sümük biz.



Yastıtəpə yaşayış yeri. Muncuqlar.

Dən daşları həm formaca, həm də məzmunca bir-birini təkrarlayırlar. Qazıntı sahəsinin əlavə edilmiş kvadratlarında daha mükəmməl, daha çox işlənməyə məruz qalan dən daşları nisbətən 20-100 sm dərinlikdən aşkar edilmişdir. Bunlar əsasən çay daşından hazırlanmış qayıqvari formalı dən daşları idilər. Çox nadir hallarda ağ rəngli əhəngdaşından hazırlanmış dördkünc və ya dairəvi dən daşlarına rast gəlinmişdir.

Qeyd etdiyimiz dərinlikdən tapılan üst dən daşları və ya iri ölçülü *sürtgəclər* də bəzən bütöv, bəzən isə qırıqlarla müşayiət olunurdu. Alt dən daşlarının bəzən yanından tapılan sürtgəclərin əksəriyyəti adi boz rəngli çay daşından hazırlanmışdır. Onların bəziləri məsaməlidir. Yəqin ki, belə daşların seçilməsində məqsəd onların məsamələri arasında dənli bitki dənlərinin (taxıl –buğda, arpa) asanlıqla ilişib qalması və sürtmə prosesində onların əzilərək una çevrilməsini asanlaşdırmaq olmuşdur.

Həvənglərin və çay daşından düzəldilən *dəstələrin* tapılması məişətdə dənli bitkilərin istifadəsinin göstəricisidir. Əzmədə və döymədə istifadə edilən dəstələr əsasən həvənglərin ölçüsünə uygun olaraq seçilib hazırlanmışdır. Həvənglər məsaməli tuf daşından hazırlanmışdır.

Obsidiandan hazırlanan kəsici alətlər çox kiçik ölçülü olub (3x2 sm; 4x2 sm; 1x2 sm) əsasən qəlpələrlə müşayiət edilirlər. Qara rəngli şəffaf obsidiandan hazırlanan bu qəlpələr əsasən üçtilli və

çoxtilli olub, bir tərəfləri kəsmək üçün çox yaxşı formalaşdırılmışdır. Obsidiandan hazırlanan kəsicilər ən çox IIIA kvadratının mərkəzindəki ocaq kompleksi ətrafından tapılmışdır. Bunlardan yəqin ki, ocaqda ətin bişirilməsində doğrama məqsədilə istifadə olunurmuş. Bir ədəd obsidiandan hazırlanmış ox ucluğu isə çox maraqlıdır. Obsidiandan qəlpələnmə yolu ilə alınan ox ucluğunun ucu çox iti və bizdir. Onun ölçüsü kiçik olub (2 sm) üçbucaq formalıdır. Sonluğu çox güman ki, ağac saplağa ya keçirilmiş, ya da sarınırmış.

Qazıntı sahəsindən çox cüzi sayda *sapand daşları* da tapılmışdır –cəmi 3 ədəd. Onların hamısı kiçik ölçülü olub (d=4x5 sm) ocaqda yanmış, qaralmış və çox yüngüldürlər. Sapand daşlarından az istifadə olunması ovçuluqda bu daşlardan az istifadənin göstəricisidir.

Bülövlər nisbətən çox aşkar edilmiş arxeoloji materiallar sırasındadır. Uzunsov formalı bülövlərin hər iki tərəfləri yaxşı sürtülmüş və işlənmişdir. Qazıntı sahəsindən bazalt və adi çay daşından hazırlanmış xeyli sayda kiçik həcmli *sürtgəc və döyüm* alətləri də tapılmışdır. Onların bəzisi zəif, bəzisi isə kobud formada işlənmişdir.

Yaşayış yerinin *keramikası* son tunc-ilk dəmir dövrünün son mərhələsini özündə ehtiva edir və əlavə olunan kvadratlarda aparılan qazıntılar zamanı tapılan keramika nümunələri də bunu təsdiqləyir.

Yaşayış yerindən tapılan xeyrə, sərnic, küp, küpə, qazan, çölmək, tava, manqal, dopu, kuzə, parç tipli gil qablar və onların fraqmentlərinin böyük əksəriyyəti keyfiyyətli hazırlanaraq sabit tempratur rejimində bişirilmiş və dulus çarxında hazırlanmışdır. Üzəriləri şüyrələmə, cızma və çərtmə üsulu ilə əsasən həndəsi motivlərlə naxışlanmışdır. Bundan başqa dairəvi yonulmuş keramika, təkər modeli də aşkar olunmuşdur. Bəzi saxsı qabların qulpu zoomorf hazırlanmışdır.

Yaşayış yerinin yeni artırılmış kvadratlarından 2 ədəd iri ölçülü *təsərrüfat küpü* aşkarlandı. Təsərrüfat küpləri iri və orta ölçülü olub qalın divarlıdır.

Küpələr də zəngin naxışlı, müxtəlif rənglidir. Qazıntı sahəsindən xeyli sayda *xeyrə və boşqab qalıqları* tapılmışdır. Onlar qara, boz və qonur rəngli olub, təmiz gil tərkibə malikdirlər. Bu tip qabların çiyni çox da hündür olmayıb, bəzilərinin ağız kənarı daxilə bəzilərininki isə xaricə əyintilidir.

Nehrə tipli gil qab nümunələrinə az rast gəlinir. Çox sayda rast gəlinən gil qab nümunələrindən biri də *qazanlardır.* Qazan tipli gil qab nümunələrinin çox tapılması onların məişətdə və mətbəxdə geniş istifadə olunmasının göstəricisidir. Daha çox ocaq yerləri yaxınlığından aşkar edilən bu qab fraqmentləri əsasən ağız, çiyin, gövdə hissəni əks etdirirlər. Demək olar ki, bütün fraqmentlərin üzərində dərin yanıq və his izləri olur. Qazanların üzəri yanıq və his izləri ilə örtüldüyündən onların üzərinin naxış elementini tutmaq olmur. Bu naxışlar daha çox çərtmə və sünbülvari naxışlar olub, bütün çiyin hissəni əhatə edirlər. Qazanların hamısı orta ölçülü, şargövdəli və geniş ağızlıdırlar. Hamısının ağız kənarı xaricə yastı çıxıntılıdır.

Keramika nümunələri içərisində *zoomorf qulp qırıqları* böyük maraq doğurur. Belə zoomorf qulp qırıqları əsasən Yastıtəpə yaşayış yeri üçün xarakterikdir [1, s.163-165; 4, s.43-44; 5, s.89-92]. Keçən iki il ərzində burada aparılan qazıntılar onu sübut edir ki, Yastıtəpənin qədim sakinləri içərisində heyvan kultu geniş yayılmışdır. Bu kult əsasən ilan, qoç-qoyun, quş, tısbağa heyvanları ilə bağlıdır. Bu tip heyvanların burada geniş yayılması onlara olan ibtidai inam sakinlərin dini dünyagörüşündə əks olunur [1, s.161-163; 5, s.89-90]. Bu ilki qazıntılarda 3 ədəd qoç başı formasında (üzərində burma buynuzları da təsvir olunmuş) və 1 ədəd çox güman ki, ilanı əks etdirən zoomorf qulp aşkar edilmişdir.

Qazıntı sahəsində xeyli sayda gil *manqal qalıqlarına* da rast gəlinmişdir. Onların hamısı əldə kobud formada hazırlanmış, hamısının gil tərkibində narın qum və kiçik çınqıl qarışığı vardır. Bəzilərinin üzəri xüsusi gil məhlulla suvanmış və sonra da daraqlanmışdır. Gil manqallar çox da hündür olmayıb (h=8-12 sm), divarının kənarları mailidir, enləri qısa, uzunsov formadadırlar. Bütün manqalların səthində və içində dərin yanma və his izləri, kömür qalıqları mövcuddur.

Qazıntı sahəsindən tapılan *bardaq və kuzə* formalı gil qabların forması eynidir. Əksəriyyəti boz və qonur rəngdə olub şargövdəli, darboğazlıdırlar. Əksəriyyətinin ağzı xaricə maili çıxıntılıdır. Nazik divarlı olub, bəzilərinin oturacaqları acza dabanlıdır.

Çoz az sayda *kasa və ya cam* qırıqlarına təsadüf edilmişdir. Kiçik həcmli adətən dabanlı oturacağa malik belə qablar dulus çarxında hazırlanmışdır. Onların gil tərkibi təmizdir, sabit tempraturda bişirilmişdir. Üzərilərində naxış elementi ya sadədir, ya da heç təsadüf edilmir.

Yaşayış yerində əlavə olaraq artırılan IIIA və IVA kvadratlarında *metal məmulatı* çox cüzi sayda – qırıqlarla təmsil olunmuşdur. Qırıqlarından məlum olur ki, onlar metal zəncir (boyun bəzəyi) qalıqları, iynə və bizin qalıqlarıdır. Formaca və ölçücə çox kiçikdirlər.

Qazıntı sahəsindən cəmi bir ədəd *quş sümüyündən hazırlanmış biz* tapıldı. Uzunluğu 8,5 sm olan sümük bizin eni 0,5 sm-dır, ucu bizdir, şişdir, bud sümüyündən hazırlanmış, yaxşı işlənmişdir.

Ağ rəngli pastadan doğrama üsulu ilə hazırlanan kiçik ölçülü *muncuqların* sayı 146 ədəd olub, IIIA kvadratın şimal-şərq küncündən ocaq yeri və küllü torpağın içindən tapıldı. Bu muncuqların ortasından boyuna ip keçirib asmaq üçün deşiyi vardır.

Yastıtəpə yaşayış yerinin qazıntısı zamanı aşkar edilmiş mədəni təbəqənin stratiqrafiyası, tapılan maddi qalıqlar onu sübut edir ki, bu yaşayış yeri son tunc-ilk dəmir dövrünün inkişaf etmiş və son mərhələsinə (e.ə.XII-XI və e.ə.X-IX əsrlərə) aiddir.

ƏDƏBİYYAT

1. Nəcəfov Ş.N. Yastıtəpə yaşayış yerində arxeoloji qazıntılar (Ağstafa rayonu) //Azərbaycanda arxeoloji tədqiqatlar - 2010. Bakı, 2011
2. Muradova F.M., Nərimanov İ.H. Yastıtəpə qədim yaşayış yeri haqqında //Azərbaycanın Maddi Mədəniyyəti, cild VII, 1973
3. Гусейнова М.А. Из истории Южного Кавказа. Ходжалы-Гедабекская культура Азербайджана (XVI-IX вв. до н.э.) Баку, 2011
4. Avşarova İ.N. Azərbaycanın arxeoloji abidələrindən əldə olunmuş bədii keramika məmulatı (tunc və ilk dəmir dövrü) //Azərbaycan arxeologiyası və etnoqrafiyası, 2009, №1. Bakı, 2010
5. Наджафов Ш.Н. Краткие сведения об археологических раскопках в древнем поселении Ястытепе (Азербайджан, 2010-2011 гг.) //Этносоциум и межнациональная культура, сентябрь 2012 №7 (49)1, Москва 2012.

Ш.Н.Наджафов

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ НА ПОСЕЛЕНИИ ЯСТЫТЕПЕ

РЕЗЮМЕ

Казахская археологическая экспедиция в 2012 году продолжила археологические раскопки на территории поселения эпохи поздней бронзы и раннего железа Ястытепе, расположенного близ города Акстафа.

Весь комплекс добытых материалов находит близкие аналогии из памятников Ходжалы-Кедабекской культуры, охватывающей конец II - начало I тыс. до н.э.

Основной инвентарь поселения представлен глиняными сосудами. Они довольно разнообразны. По технике изготовления они делятся на две группы: 1) сосуды, изготовленные на гончарном круге и 2) сосуды, формованные руками. Сосуды на гончарном круге изготовлены из хорошо отмученной глины с небольшой примесью песка. Большинство сосудов черного цвета, внешняя поверхность их хорошо заглажена. Это небольшие одноручные или безручные кувшины, миски, чаши и др. Керамика второй группы формована из глины с большой примесью песка. Обжиг очень неравномерный, отчего поверхность сосудов пятнистая. Цвет обычно черный, коричневатый и, в редких случаях, розоватый. Поверхность сосудов редко хорошо заглажена, чаще всего она просто затерта. Большинство сосудов исследуемого поселения украшены простым врезным орнаментом в виде параллельных зубчатых и волнообразных линий, заштрихованных треугольников, миандры, ромбов, и полосок, заполненных пересеченными линиями, образующими сетку.

Следует упомянуть также, что в составе инвентаря имеются обсидиановые ножевидные пластинки и каменные бруски.

Много в поселении обломков зернотерок и терочников, указывающих на оседло-земледельческий характер древнего поселения. Среди каменных предметов имеются изделия, изготовление которых было трудоемким и требовало большого мастерства. Эта работа, связанная со сверлением, шлифовкой и полировкой твердых пород камня.

Очень много бус разнообразной формы из белой пасты.

Материалы поселении Ястытепе отражают историю культуры племен, с разным укладом жизни.

Sh.N.Najafov

THE ARCHAEOLOGICAL EXCAVATIONS AT THE SETTLEMENT YASTITEPE

SUMMARY

Kazakh archaeological expedition of the Institute of Archaeology and Ethnography in 2012 continued the excavations in the settlements of the late bronze and early iron Yastitepe, located near the town of Akhstafa.

The entire complex of the extracted material finds its closest analogy of the monuments of Khojaly-Gadabay culture covering the end of the II and the beginning of the I millennium BC.

Inventory in the main settlements are crocks. They are quite diverse. On manufacturing technique, they are divided into two groups: 1) vessels made on a potter's wheel, and 2) hand-made vessels. Vessels made on a potter's wheel made of fine clay elutriated with a small amount of sand. Most vessels in black and the outer surface of a well smoothed. In form it is a small one-handed or no hadle pitchers, bowls, cups, etc. pottery second group was made of clay with a large admixture of sand. Roasting is very uneven, causing surface vessels spotted. The surface color is usually black, brown, and rarely pink. Surface vessels rarely well smoothed, more often it is simply overwritten. Most vessels studied settlement decorated simple incised ornament in the form of parallel, gear, and wavy lines, shaded triangles miandry, diamonds and stripes filled with crossed lines forming a grid, etc.

We should also mention that as part of the inventory of the analyzed settlements are obsidian knife-like blades and stone blocks.

There were many in the settlement debris carry grain, rumpling and pointing to a settled agricultural nature of neo-identified ancient settlement. Among the stone objects are products, the production of which was time consuming and required a lot of skill. We have in mind the work associated with the drilling, grinding and polishing hard stone from which many of the items produced.

Necklaces of white paste are very common in the settlements Yastitepe. They have a variety of forms.

Materials Yastitepe settlement also reflect the historical process of adding a common culture tribes different way of life.

TÜRKAN YAŞAYIŞ YERİNDƏ APARILAN QAZINTI İŞLƏRİ
(Abşeron yarımadası)

İ.N.Əliyev, C.İ.Əliyev



Türkan yaşayış yeri. Ümumi görüntü.

2012 ci ildə Türkan yaşayış yerinin cənub hissəsində 300 kv.m ərazidə qazıntı işləri aparıldı. Abidə Türkan kəndindən şimal-qərb istiqamətində yerləşir. Ətrafında bir neçə daş karxanaları fəaliyyət göstərir.

Abidənin GPS koordinatları: N 40 23 24,6; E 50 09 06,8.

Qazıntı işləri nəticəsində ərazidə tikinti qalıqları aşkar edildi. Bunlar divar hörgülərindən və dairə tikililərdən ibarətdir. Aşkarlanan dairə tikililərin diametri 163-260 sm olduğu halda alt tikili daşların hündürlüyü 40-50 sm-dir. Dairə tikililərin daxili hissəsi daş lövhələrlə döşənmiş mərkəz hissədə kül qalıqları müşahidə olunurdu.

Qazıntı işləri və müşahidələr nəticəsində bu dairəvi tikililəri yaşayış otaqları hesab etmək olar. Digər tikinti isə şaquli vəziyyətdə düzülmüş, iri daşlardan ibarətdir. Yaşayış yerində aşkarlanan saxsı materiallar əsasən fraqmentlərlə təmsil olunur. Saxsı nümunələri kobud tərkibli, açıq-qırmızı, qırmızı və qara rəngli, gilinin tərkibində xırda daş və qum garışığı müşahidə olunur. Tikililər A1, A6, A11, A16 kvadratlarında yerləşir. 1№li otaq A1-A2 kvadratında, 2 №li otaq A1 kvadratda, 3 №li otaq A1-A6 və B2-B7 kvadratlarında yerləşir. 4№li otaq A6, B7 kvadratında yerləşir. A6 kvadratından 5 №li otaqa qədər cənub-şərq istiqamətində şaquli vəziyyətdə düzülmüş daş tikili vardır.


1№li otağın diametri 180-190 sm, 2№li otağın diametri isə 230-250 sm-dir. 3№li otağın diametri 170-175 sm, 4 №li otağın diametri isə 150-170 sm-dir. 1 və 2 №li otaqlardan keramika və obsidian nümunələri aşkarlanıb.




Türkan yaşayış yeri. Dairəvi otaqlar.



Türkan yaşayış yeri. Daş lövhə.







Türkan yaşayış yeri. Aşkar edilmiş artefaktlar.

5 №li otaq da digər dairəvi otaqlar kimi şaquli düzülmüş daş lövhələrdən qurulub.

Diametri 250 sm-dir. C3 kvadratından D14 kvadratına qədər yəni, cənub-qərb istiqamətində şaquli vəziyyətdə düzülmüş daş tikili aşkarlandı. D19 kvadratında dağıntıya məruz qalmış tikilinin divarları tikili aşkarlandı.

Qazıntı sahəsi II təbəqədə torpağın tərkibinin dəyişməsi ilə müşahidə olundu. Açıq qonur rəngli torpaq qatından kiçik və iribuynuzlu heyvan sümüklərinin qalıqları aşkarlandı. Heyvan sümüklərinin külli miqdarda tapıldığı kvadratlar tikinti qalıqlarının aşkarlanmadığı ərazilər idi. Bu tapıntılarla yanaşı qazıntı sahəsindən keramika fraqmentləri, kəsici və dağıdıcı təyinatlı daş alətlər aşkarlandı.

Saxsı nümunələrin içərisində qırmızı rəngli, səthi cilalanmış keyfiyyətli keramika nümunələrini qeyd etmək lazımdır. Bu növ keramika digər Abşeron abidələrində sayca az miqdarda təsadüf olunur. Maraqlı tapıntılardan biri də iri həcmli və səthi naxışla bəzədilmiş gil muncuqdur. Çaxmaq daşından və obsidiandan hazırlanmış bıçaqvari lövhələr dairəvi otaqlardan aşkar edilmişdir.

Qeyd etmək lazımdır ki, bu növ tapıntılar Abşeron abidələrində az təsadüf edilir və ilk dəfə bu abidədən çoxlu sayda tapılmışdır. Bununla yanaşı abidədən müxtəlif formalı çaydaşından hazırlanmış kəsici alətlər aşkar edilmişdir. Tapıntıların böyük bir hissəsini iri və xırdabuynuzlu heyvan sümükləri təşkil edir.

Tədqiq olunan abidənin memarlıq xüsusiyyətlərinə, əldə olunan materiallara əsaslanaraq burada məskunlaşan tayfaların təsərrüfatının əsasını maldarlıq təşkil etdiyi barədə fikir söyləmək olar. Abidənin xronoloji dövrü e.ə.III minilliyin I yarısına aid edilir.

И.Н.Алиев, Дж.И.Алиев

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ ПОСЕЛЕНИЯ ТУРКАН

РЕЗЮМЕ

В 2012 году археологические исследования проводились на поселении Туркан в 2 км севернее современного поселка Туркан. Территория поселения занимает площадь более 2 га. Вокруг памятника функционирует каменный карьер. Исследование памятника было начато в 2009 году. Раскопки велись в северной части поселения, где выявлены строительные сооружения, материалы, давшие возможность выделить поселение, как одно из наиболее ранних на востоке полуострова. Раскопки 2012 года подтвердили вышесказанное.

В 2012 году была исследована южная часть поселения и выявлены строительные сооружения, керамика, орудия из булыжника, кремневые, обсидиановые ножевидные пластины. Это единственный памятник Абшерона, где впервые выявлен аналогичный материал, что качественно отличает это поселение от других памятников Абшерона.

Примечательны и архитектурные строения памятника. Зафиксированы строения с округлыми основаниями, сложенные из каменных плит. Данные сооружения можно считать жилищами. Диаметр основания их колеблется от 160 до 260 см, нижний ряд выложен из каменных плит, частично углубленных в грунт. Всего выявлено пять таких строений, часть из которых примыкают к каменной стене, выстроенной по линии север-юг. В процессе работ, в основном у основания каменной стены, обнаружено большое количество костей крупного и мелкого рогатого скота.

Особенности архитектуры и выявленный материал позволяют отнести это поселение к числу наиболее ранних памятников Абшерона. Памятник датируется началом ранней бронзы, что позволяет высказать мнение о начале становления культурного и хозяйственного освоения территории полуострова скотоводческими племенами в указанный период. Традиционно эта культура сумела сохранить свои основные показатели до конца 2-го тысячелетия до н.э.

I.N.Aliev, Dzh.I.Aliev

ARCHAEOLOGICAL EXCAVATIONS OF TURKAN

SUMMARY

In 2012, archaeological researches were conducted on Turkan settlement, located 2 km north of the village of the same name. The territory of the settlement covers an area of more than 2 hectares. The study of the monument began in 2009, which resulted which the the excavation of northern part of the settlement.

In 2012, the southern part of the settlement was excavated, which resulted with the identification of site buildings, pottery, stone tools, cobblestone, flint and obsidian knife-like plates. This is the only monument of Apsheron, where the same material was first encountered.

Architectural structure of the monument is noteworthy. Here, as a result of past and recent works structures in the form of rounded bases built of stone slabs are fixed. These constructions can be considered as dwellings. Total five such buildings were identified, some of which are adjacent to a stone wall, built on the north-south line. Chronology of the monument dates from the beginning the Early Bronze Age. Traditionally, this culture has managed to maintain its core indicators until mid to late 2nd millennium B. C.

MEYDANTƏPƏ YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ QAZINTILAR

(Naxçıvan MR, Babək rayonu)

Ə.H.Bədəlov, A.A.Əsədov

Naxçıvanın antik dövr arxeoloji abidələri, ümumiyyətlə zəif öyrənilmişdir. Bunun obyektiv və subyektiv səbəbləri vardır. Müasir dövrün tikililəri, kənd təsərrüfatı və inşaat işlərinin intensiv inkişafı, tikinti və təsərrüfat işlərində böyük gücə malik müasir texnikadan istifadə olunması daha çox antik dövr abidələrinin dağıdılmasına səbəb olmuşdur. Digər tərəfdən antik dövrdə həyatın əvvəlki dövrlərə nisbətən yüksək templə inkişafı, vaxtaşırı baş verən müharibələr yaşayış yerlərinin genişlənməsinə və yerini dəyişməsinə şərait yaradırdı. Müasir şəhər və kəndlərin tutduğu böyük ərazilər qədim dövr yaşayış yerlərini də əhatə etdiyindən həm onların bir hissəsinin dağıdılmasına səbəb olmuş, həm də onların arxeoloji tədqiqini mümkünsüz etmişdir. Bu səbəbdən də aşkar edilmiş antik dövr abidələrinin hərtərəfli arxeoloji tədqiqi mühüm əhəmiyyətə malikdir.

Antik Naxçıvan arxeoloji ekspedisiyası 2012-ci ildə Meydantəpə yaşayış yerində, müdafiə divarından içəridə və kənarda, 220 m^2 sahədə arxeoloji qazıntı işləri aparmışdır. Qazıntı aparılan sahədə mədəni təbəqənin qalınlığı təpənin kənarına yaxın yerlərdə 0,8-1,0 m, təpənin ortasına yaxın sahələrdə isə 1,8-2,0 m-dir.




Meydantəpə yaşayış yeri. Ümumi görünüş.

Meydantəpə olduqca əlverişli coğrafi mövqedə - Naxçıvan çayın sol sahilində, “Cin dərəsi”nin Naxçıvan çayla birləşdiyi yerdə, çox da hündür olmayan təpənin üzərində yerləşmişdir. Yaşayış yerinin ərazisi 2 ha-dan artıqdır. Naxçıvan-Şahbuz avtomobil yolu çəkilərkən abidənin mərkəzi hissəsi dağıdılmışdır. Lakin abidənin şərq və qərb tərəfindəki tikililər qismən salamat qalmışdır. Şərq tərəfdəki tikililərin bir hissəsi sü arxı çəkilkərkən dağıdılmışdır. Ona görə də arxeoloji tədqiqatlar bir neçə ildir ki, abidənin nisbətən yaxşı saxlanmış şimal-qərb tərəfində aparılır. Son iki ildə abidənin bu hissəsində müdafiə divarlarının əhəmiyyətli hissəsi qazılıb üzə çıxarılmış və şəhərin müdafiə sisteminin necə qurulduğu müəyyən edilmişdir. Müdafiə divarlarının üst hissəsi son antik dövrdə yenidən dağıntıya məruz qalmış və onlardan başqa məqsədlər üçün istifadə olunmuşdur. Belə ki, şimal müdafiə divarında orijinal quruluşa malik, müdafiə sistemi ilə heç bir əlaqəsi olmayan tikili aşkar edilmişdir.



Meydantəpə yaşayış yeri. Qazıntı sahəsi.



Meydantəpə yaşayış yeri. Arxeoloji tapıntılar.

Aşkar edilmiş tikililərin plan quruluşu göstərir ki, Meydantəpənin mərkəzi hissəsi bütünlüklə müdafiə divarları ilə əhatə olunmuşdur və bir çox tikililər müdafiə divarına bitişik işlənmişdir. Mudafiə divarları çay daşı, möhrə və çiy kərpiclə işlənmişdir. Yastı çay daşlarından pəncərə yerlərinin üstünün örtülməsində də istifadə olunmuşdur. Yuxarıda qeyd etdiyimiz tikilinin də üzəri məhz yastı çay daşı ilə örtülmuşdür.

Bu ilki qazıntılar nəticəsində müdafiə divarından içəridə, ona bitişik işlənmiş üç otaq aşkar edildi. Bu otaqlar bir-birindən palçıq məhlulu ilə çay daşından işlənmiş, eni 50-70 sm olan divarlarla ayrılır. Pəncərə yerlərinin olmaması bu otaqlardan anbar kimi istifadə olunduğunu ehtimal etməyə əsas verir. Otaqların eni təqribən eynidir (3,3-3,4 m).

Qərb tərəfdəki otağın divarları 1,4-1,5 m hündürlüyündə salamat qalmışdır. Şimal və qərb divarlarının 0,7 m hündürlükdə, 18-20 sm enində çıxıntısı vardır. Bu çıxıntı divarın həmin səviyyədən sonra ensizləşməsi nəticəsində əmələ gəlmişdir. Bir neçə ildir ki, Meydantəpədə arxeoloji qazıntı işləri aparılır, lakin bir dənə də olsun dam örtüyü qalıqlarına rast gəlinməmişdir.

Ortadakı otağın giriş yolu qərb tərəfdəki otaqdandır. Qərb tərəfdəki otağın şərq divarı eyni zamanda ortadakı otağın qərb divarıdır. Bu otaqları birləşdirən qapının eni 80 sm-dir. Ortadakı otağın şimal-qərb küncündə 2-3 sm qalınlığında samansız suvaq qalıqları izlənir. Divarlar çay daşları ilə işləndiyi üçün onun üzərinə qalın suvaq çəkilmişdir. Bu otağın şərq yarısında 1 sm qalınlığında çürüntü vardır. Şərq divarının bir hissəsi nə vaxtsa sökülmüşdür.

Üçüncü otaq qazıntı sahəsinin şərq tərəfində yerləşir. Divarları 20-30 sm hündürlüyündə salamat qalmışdır. Aşkar olunmuş otaqların içərisində heç bir ocaq yeri və ya tikili aşkar olunmadı.

Bu otaqlardan başqa qərb tərəfdəki otağın qərb tərəfində 180 kv.m sahədə qazıntı işləri aparıldı. 1,2 m dərinlikdə eni 40 sm olan divar qalıqları aşkar edildi. Divarlar şərq-qərb istiqamətində olub 35-40 sm hündürlüyündə salamat qalmışdır. Çay daşı və palçıq məhlulu ilə işlənmişdir. Şimal tərəfdəki divarın uzunluğu 1,7 m-dir. Cənub tərəfdəki divar şimal tərəfdəki divardan 50 sm aşağı səviyyədə yerləşir və ona paralel deyildir. Bu divarlar eyni tikiliyə aid olmamaqla bərabər, həm də ayrı-ayrı tikinti dövrlərinə məxsusdurlar. Maraqlıdır ki, bu divarlar işlənərkən qala divarlarının bu hissəsi o qədər də dağıntıya məruz qalmamışdı. Belə ki, divarların tikintisi zmanı qala divarlarına toxunulmamış, divarlar ona bitişik işlənmişdir. Qeyd etmək lazımdır ki, divarların çay daşından, həm də ensiz işlənməsi onu göstərir ki, bu divarların aid olduğu tikili o qədər də hündür olmamışdır. Ehtimal ki, burada ya tövlə, ya da yardımçı təsərrüfat binası olmuşdur.

Son illər aparılan aexeoloji qazıntılar nəticəsində Meydantəpə yaşayış yerinin şimal-qərb hissəsinin tikililəri öyrənilmiş və ümumi planı çıxarılmışdır. Meydantəpə yaşayış yerində qazıntı yaşayış yerinin böyük bir ərazisini əhatə etsə də, hələlik, küçə aşkar edilməmişdir.

Arxeoloji tədqiqatlar göstərir ki, yaşayış yeri bir neçə dəfə dağıntıya məruz qalmış və yenidən bərpa olunmuşdur. Şimal müdafiə divarının qərb tərəfində aşkar edilmiş, üstü sal daşla örtülü tikili də yaşayış yerinin ikinci mədəni təbəqəsinə - b.e. əvvəllərinə aiddir. Tikilinin təyinatı hələlik müəyyən edilməsə də ondan taxılın bölgüsündə istifadə olunduğu ehtimal olunur. Bu ehtimala əsas verən tikilinin maili vəziyyətdə, getdikcə daralan kanalcıq formasında olması və içərisinə daş döşənməsidir.

Arxeoloji qazıntı işləri nəticəsində antik dövrün sənətkarlığını, məişət həyatını və memarlığını əks etdirən zəngin materiallar toplanmışdır. Bununla bərabər hər il yeni materiallar aşkar olunur. Arxeoloji qazıntılardan əldə olunmuş materiallar əsasən tikinti qalıqlarından, müxtəlif saxsı məmulatından, osteoloji qalıqlardan, daşdan hazırlanmış əmək alətlərindən ibarətdir. Osteoloji qalıqlar, əsasən ev hayvanlarına məxsus onurğa, qabırğa və ətraf sümüklərindən ibarətdir.

Saxsı qablar içərisində torpağa basdırılmış iri həcmli təsərrüfat küpləri diqqəti cəlb edir. Küplərdən bəzilərinin içərisi əhəng məhlulu ilə suvanmışdır. Ehtimal ki, bu kuplərdə saxlanılan ərzaq məhsullarını qurdlanmaqdan və gəmiricilərdən qorumaq məqsədilə edilmişdir. Saxsı qablar içərisində orijinal formalı və keyfiyyətli hazırlanmış kasa, bardaq, küpə, bokal və s. qablar da vardır. Təsərrüfat və mətbəx qablarının gilinin tərkibinə iri dənəli qum qatılmışdır. Bu qabların təyinatının müəyyən edilməsində onların ağız hissəsinin forması və qabın tutumu müəyyənedici rol oynayır. Belə ki, mayenin saxlanması və istifadəsi üçün olan qabların ağız hissəsi nisbətən axımlı olur, lakin dənli bitkilərin saxlanması üçün

olan qabların ağız hissəsi ən çox içəriyə qatlanmış şəkildə olur.

Keramika məmulatı içərisində xaricdən gətirilmə qırmızı və çəhrayı gilli, bəzilərinin üzərində boya ilə naxışları olan nümunələrə də rast gəlinir. Aşkar edilmiş avadanlıq daha çox əkinçilik təsərrüfatı üçün xarakterikdir. Belə ki, aşkar olunmuş keramika içərisində nehrə, süzgəc və ümumiyyətlə maldarlıqda istifadə olunan digər gil qablara az təsadüf olunur.

Meydantəpə yaşayış yerinin hələ öyrənilməmiş problemləri çoxdur. Yaşayış yerinin küçələri, sənətkarlıq məhəlləsi, qəbristanlığı və s. hələlik öyrənilməmişdir. Sənətkarlıq məhəlləsi ola bilər ki, yaşayış yerinin Naxçıvan çaya tərəf olan hissəsində yerləşir, lakin bu hissədə hələlik qazıntı işləri aparılmamışdır.

Aşkar edilmiş tikinti qalıqlarının və maddi mədəniyyət nümunələrinin müqayisəli təhlili abidənin şəhər tipli yaşayış yerinin qalıqları olduğunu söyləməyə imkan verir. Yaşayış yerinin mərkəzi hissəsinin (Narınqalanın) müdafiə divarları ilə əhatə olunması da bu fikri təsdir edir.

Meydantəpədə aparılan tədqiqat işləri Naxçıvan bölgəsinin tarixini, təsərrüfat həyatını və mədəniyyətini öyrənmək baxımından mühüm əhəmiyyətə malikdir. Naxçıvanın antik dövr tarixinin hələlik öyrənilməmiş problemləri çoxdur və əldə olunan arxeoloji tapıntılar bu problemlərin bir çoxunun həllində mühüm rol oynayacaqdır.

А.Г.Бадалов, А.А.Асадов

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ НА ПОСЕЛЕНИИ МЕЙДАНТЕПЕ

РЕЗЮМЕ

Античные памятники Нахчывана слабо изучены. Поэтому исследование каждого нового памятника приобретает особое значение. Одним из этих памятников является античное поселение городского типа Мейдантепе.

В 2012 году археологические раскопки (площадь 220 м^2) были проведены в северо-западной части поселения. Толщина культурного слоя составляет 1,8-2,0 м. Здесь вскрыты остатки жилых помещений, которые пристроены к оборонительной стене. Четырёхугольные в плане помещения сложены из речной гальки на глиняном растворе. Кроме того, в этом году завершены раскопки строения неопределённого назначения у северной оборонительной стены.

В результате археологических раскопок найдены фрагменты глиняных сосудов бытового и хозяйственного назначения. Большинство из них - фрагменты крупных хозяйственных кюпов.

Результаты археологических раскопок на поселении Мейдантепе помогут изучению античного периода Нахчывана.

A.H.Badalov, A.A.Asadov

ARCHAEOLOGICAL EXCAVATIONS AT THE SETTLEMENT MAYDANTEPE

SUMMARY

Archaeological monuments of Nakhchivan antique period studied very little. Therefore, each new study of a monument revealed a special importance. One of these sites is the ancient settlement of urban type Maydantepe.

In 2012, archaeological excavations (area 220 sq m) were carried out in the north-western part of the settlement. The thickness of the cultural layer is 1, 2, 0 m here revealed the remains of dwellings, which were attached to the defensive wall. Rectangular buildings are made of river pebbles on a clay solution. In addition, completed excavation of building of uncertain purpose in the northern defensive wall.

During the excavation were found fragments of pottery and household goods. Most of these are pieces of big economic kups.

Archaeological excavations at the settlement Maydantepe help solve many of the problems of the ancient period.

QALATƏPƏDƏ APARILAN ARXEOLOJİ TƏDQİQATLAR HAQQINDA


(Ağcabədi rayonu)

T.R.Əliyev, F.İ.Babayev, T.T.Hüseynova,
G.İ.Əliyeva, V.B.Abbasov, V.T.Əliyev



Qalatəpə. Böyük otağın cənub divarının görünüşü.

Mil-Qarabağ ekspedisiyası 2012-ci ilin yay aylarında Ağcabədi rayonunun Salmanbəyli kəndi yaxınlığında, Qarqarçayla Gavurarxın kəsişməsində yerləşən antik dövrə və orta əsrlərə aid Qalatəpə şəhər məskənində və onun yaxınlığındakı nekropolda arxeoloji qazıntıları davam etdirmişdir. İki hissədən ibarət - "Yuxarı" və "Aşağı şəhər" olmaqla ümumilikdə 26 hektar sahəni əhatə edən bu abidədə tədqiqatlar aşağıdakı istiqamətlərdə aparılmışdır: 1. Şəhər yerinin akropol hissəsində əvvəlki illərdə açılmış "böyük otaq"da qazıntı işlərinin davam etdirilməsi; 2. Antik şəhərin Qarqarçaya tərəf baxan şimal-qərb divarında dayaq tikilisinin – kontroforsun öyrənilməsi; 3. Şəhərin antik dövrə aid nekropolunda qəbir abidələrinin tədqiqi; 4. Mil-Qarabağ düzündə - Qarasu və Qarqarçay boyu ərazilərdə kəşfiyyat işlərinin aparılması.



Qalatəpə. Narınqala hissəsinin topoqrafik planı.



Qalatəpə. Kompleksin yuxarıdan görünüşü.



Qalatəpə nekropolu. 12 saylı küp qəbir.



Qalatəpə. Kərpic qalıqları və yanıq izləri.






Qalatəpə nekropolu. 3 saylı torpaq qəbir və onun ətrafındakı saxsı qablar.

Ötən tədqiqat mövsümündə qazıntı sahəsinin cənub-qərb hissəsi (III kvadrat) 8 m dərinliyədək qazılıb tədqiq edilmiş, burada üzəri gillə suvanmış kiçik meydança və onun ortasında əhəng daşından hazırlanmış sütun altlığı açılmışdır. Cari ildə həmin sütun altlığının ətrafındakı sahədə qazıntı işləri genişləndirilmişdir. Nəticədə düzbucaqlı şəkildə olub 4,5 x 2,5 m sahəni əhatə edən ocaq qurğusu aşkar edilmişdir. Onun şimal-şərq və cənub-şərq yan divarlarının hündürlüyü O,5 metrə çatır. "Böyük otağın" döşəməsində qazılan və üzəri 2 sm qalınlığında gillə suvanan ocaq yerinin alt hissəsində və yan divarlarında uzun müddətli yanığının izləri vardır. Yaşayış yerinin antik dövr təbəqəsində açılan belə böyük ölçülü ocağın birbaşa funksiyası hələlik aydın deyildir. Bu ocaq qurğusundan altda yanıq izləri və iri kömür parçalarının qalıqları olan daha üç tikinti qatı aydın müşahidə edilir. Görünür ki, əvvəlki ocaq yerlərinin üzərində sonradan daha mükəmməl şəkildə olan qurğu ucaldılmışdır. Bəhs edilən ocaq qurğusunun şərq və şimal-şərq hissəsində, abidənin yerüstü səthindən 6,5 m dərinlikdə "Böyük otağa" məxsus olan, üzərinə suvaq çəkilmiş kərpic və möhrə döşəmə, altına – dib hissəsinə saxsı qabın gövdəsinə məxsus qırıqlar qoyulmuş dirək yeri açılmışdır. Dirək yerinin – oyuğunun diametri 17-18 sm, dərinliyi isə 48 sm-dir. Burada ağac qırıntısına və ya çürüntüsünə rast gəlinmədi. Görünür, dirək hələ qədim dövrdə yerindən çıxarılmışdır. Daş sütun altlığından şərqə doğru qazıntı davam etdirilərkən alt hissədə- 8,3 m dərinlikdən 10 kv.m sahədə gil kərpic döşəməyə təsadüf olunmuşdur. Sütun altlığının özü də bu kərpic düzümü üzərində yerləşirdi. Burada təmizləmə işləri zamanı üst-üstə ümumi hündürlüyü 1,3 m olan 9 cərgə kərpic hörgü açılmışdır. Onlar bir-birinə palçıq məhlulla bənd edilmişdir. İlkin tədqiqat zamanı müəyyən edilmişdir ki, bu hörgü abidənin daha dərin qatlarda yerləşən mədəni təbəqəsinə doğru davam edir. Qeyd olunan kərpiclər narın gildən, kvadrat şəkildə hazırlanmışlar. Ölçüləri aşağıdakı kimidir: 40 x 40 x 14 sm; 42 x 42 x 14-15 sm; 44 x 44 x 15-16 sm. Bu kərpiclər formasına, ölçülərinə görə son illər Şəmkir rayonunun Qaracəmirli kəndi yaxınlığında

rast gəlinən Əhəməni dövrünə aid (e.ə. V-IV əsrlərə) sarayların, eləcə də ötən əsrin ortalarında Beyləqan rayonu ərazisində - Örənqala yaxınlığında yerləşən Qaratəpə yaşayış məskəninin e.ə. V-I əsrlərə aid edilən II mədəni təbəqəsindən açılan tikililərin inşasında istifadə edilmlş çiy kərpicləri xatırladır. Hələlik, bəhs edilən kərpic hörgü tam açılmadığından onu səciyyələndirmək çətindir. Qazıntının III kvadratında dərinlik 10 metrə yaxınlaşsa da materikə çatmaq mümkün olmamışdır. Qeyd edək ki, zəngin və mürəkkəb tikili qalıqları olan sahədə ellinizm dövrünə aid yalnız bir neçə saxsı nümunəsinə (bəzilərinin üzərində qırmızı boya ilə çəkilmiş naxışlar var), üç ədəd obsidian qəlpəyə (birinin üzərində işlənmə izi var) və xırda buynuzlu heyvan sümüklərinin parçalarına təsadüf edilmişdir. Saxsı nümunələrinin Qalatəpə nekropolundakı küp qəbirlərdən əldə edilən keramika ilə müqayisəsi göstərir ki, onlar həmdövr olub eyni istehsal mərkəzlərinin məhsullarıdır. Daş sütun altlığının ətrafındakı kömür qalıqlarından bir qismi tədqiq olunmaq məqsədilə Berlinə göndərilmişdir. Artıq radiokarbon analizlərin ilkin nəticələri əldə olunmuşdur: 8 m dərinlikdə yerləşən mədəni təbəqə iki eranın kəsişməsində formalaşmışdır, daha dəqiq desək, e.ə. 40 – b.e.-nın 70-ci illəri. Gələcək tədqiqatlar haqqında danışılan kompleksin daha ətraflı öyrənilməsinə imkan verəcəkdir.



Qalatəpə nekropolu. 12 saylı küp qəbirin avadanlığı.


Cari tədqiqat mövsümündə Qalatəpə şəhər yerinin istehkam qurğularının araşdırılması da diqqət mərkəzində olmuşdur. Qazıntılarla müəyyənləşdirilmişdir ki, antik dövrdə şəhərin ətrafı çiy və bişmiş kərpicdən inşa olunmuş divarlarla, torpaq sədd və xəndəklərlə əhatəyə alınmışdır. Sonuncuların izləri indi də qalmaqdadır. Son illər aparılan qazıntılar zamanı şəhərin akropol hissəsinin ətrafına çəkilmiş divarlar, gözətçi məntəqəsi və əsgərlərin – qala mühafizəçilərinin hərəkəti üçün dəhlizin bir hissəsi açılmışdır. Bundan əlavə 2012-ci tədqiqat ilində Qarqarçay tərəfdən qala divarlarının kənarına çiy kərpic və möhrədən kontrofosun – dayaq tikililərinin əlavə edilməsi də aşkara çıxarılmışdır.

Qalatəpə antik nekropolunda əvvəlki illərdə tədqiq edilən qazıntı sahəsi cənub-şərq istiqamətində daha 36 kv.m genişləndirilmişdir. Burada bir küp (12 saylı) və iki ədəd torpaq qəbir (2 və 3 saylı) açılmışdır. 12 saylı dəfn küpü 1,0 -1,7 m dərinlikdə, üfüqi vəziyyətdə, ağız hissəsi cənub-şərqə olmaqla qoyulmuşdur. Onun ağız hissəsinin kənarlarına içərisində xırdabuynuzlu heyvan sümükləri olan bir ədəd üzərində güclü yanıq izləri olan təkqulp qab, digər tərəfində bardaq tipli saxsı qab, oturacağının ətrafında isə daha bir qab düzülmüşdür. Mərhum dəfn küpünün içərisində sol böyrü üstə bükülü vəziyyətdə dəfn olunmuşdur və onun sol əlində kiçik, üzəri qırmızı boya ilə gözəl naxışlanmış təkqulp küpə vardı. Dəfn avadanlığı arasında rast gəlinən 4 ədəd çəlləkvari muncuq və iki ədəd tunc sancaq bu qəbirin qadına məxsusluğuna ehtimal etməyə imkan verir.

Ümumiyyətlə, Qalatəpə nekropolundan əldə olunan maddi mədəniyyət nümunələri arasında müxtəlif tipli saxsı qablar üstünlük təşkil edir. Onlara həm dəfn küplərinin ətrafında, həm də içərisində rast gəlinir. Qabların çoxunun üzərinə qırmızı boya ilə həndəsi naxışlar çəkilmişdir. Çərtik və cızma üsulla naxışlanan qablar, cam və kasa tipli keramika tək-təkdir. Qalatəpədə hələlik lüləkli qablara və oturacağında dəlik olan dəfn küplərinə rast gəlinməyib. Metal məmulatı kimi dəmir silah nümunələri (qılınc, xəncər, nizə və ox ucları) və tunc bəzək əşyaları (üzük, sırğa, qolbağı, sancaq, zınqrov, maral və quş fiqurları) çoxdur.

Qalatəpə nekropolunda, qeyd olunduğu kimi, küp qəbirlərlə yanaşı cari ildə iki torpaq qəbir də açılmışdır. Bu qəbirlərdə mərhum palçıqla suvanmış döşəmə üzərində sol və sağ böyrü üstə bükülü vəziyyətdə dəfn olunmuşdur. Torpaq qəbirlərin də ətrafında oxşar saxsı qablara və tunc bəzək əşyalarına təsadüf edilmişdir. Küp qəbirlərdə - dəfn küpünün içərisində olduğu kimi burada da bir əldə silah, digər əldə isə saxsı qab tutma adəti izlənilir.

Qalatəpə nekropolu.



12 saylı küp qəbir. Küpə.



2 saylı torpaq qəbir. Tunc asma.



3 saylı torpaq qəbir. Tunc qolbağı.

Bütövlükdə nekropolda əldə olunan saxsı qablar Qalatəpənin antik təbəqəsindən rast gəlinən materiallarla sinxrondur. Tədqiq olunan sahədə oxşar avadanlıqla müşaiyyət olunan torpaq və küp qəbirlərin bir-birinə yaxınlığı maraq doğuran xüsusiyyətlərdən olub qədim Qalatəpə sakinlərinin dini dünya görüşlərinin və dəfn adətlərinin müxtəlifliyindən xəbər verir.

Tədqiqat dövründə Qarqarçay boyunca olan ərazilər nəzərdən keçirilmiş, neolit-eneolit, erkən dəmir, antik və orta əsrlərə aid bir neçə abidənin yeri müəyyənləşdirilmiş, onlar haqqında ilkin məlumat toplanmışdır. Almaniyalı mütəxəssis Anna Kvast tərəfindən Qalatəpə şəhər məskəninin topoqrafik xəritəsi çıxarılmışdır.

Qalatəpədə tədqiqatların gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

Т.Р.Алиев, Ф.И.Бабаев, Т.Т.Гусейнова,
Г.И.Алиева, В.Б.Аббасов, В.Т.Алиев

ОБ ИССЛЕДОВАНИЯХ В ГАЛАТЕПЕ

РЕЗЮМЕ

II отряд Миль-Карабахской экспедиции в 2012 г. продолжил исследования в акрополе городища Галатепе. Раскопки, в основном, проводились в культурном слое на глубине 6,5–10 м. Здесь было выявлено большое место для очага (2,5х4,5 м), пол из сырцового кирпича, яма для столба и др. Обнаружено очень мало фрагментов керамики, в основном, заключительного этапа эллинизма и синхронной с керамикой некрополя Галатепе, что подтверждается и радиокарбонным анализом.

В античность и в раннее средневековье городище Галатепе было окружено стенами из сырцового и обожженного кирпича, земляным валом и рвами. Следы последнего сохранились до сих пор. В 2012 году со стороны Гаргарчая был обнаружен контрофос из сырцового кирпича на краю крепостных стен.

В некрополе раскопано еще 36 м^2, открыты 1 кувшинное и 2 грунтовых погребения. Из погребальных материалов преобладают керамические сосуды античного периода.

Во время разведочных работ на территории районов Агджабеди и Бейлаган зафиксированы ряд новых памятников различнык периодов истории.

T.R.Əliyev, F.İ.Babayev, T.T.Hüseynova,
G.İ.Əliyeva, V.B.Abbasov, V.T.Əliyev

ABOUT THE SURVEY IN GALATEPE

SUMMARY

In 2012 the brigade II of the Mil-Karabakh expedition continued researches in the acropolis of Galatepe settlement. The excavations were carried out mainly in the cultural layer at a depth of 6.5 - 10 m where was found a place for the hearth with big size (2.5x4.5 m), the floor of a mud brick and the pit for the pillar. There have been found few fragments of clay vessel. They belong to the final phase of Hellenism and synchronous with ceramics of Galatepe necropolis. This is confirmed by radiocarbon analysis.

In antiquity and the early Middle Ages Galatepe was surrounded by walls of mud and baked bricks, earthworks and moats. Traces of last one still remain. In 2012, from the side of Gargarchay were found controfos of mud brick on the edge of the walls.

In the necropolis was excavated 36 m^2 area, was open one pitcher and two ground burials. From funerary materials dominate the ancient period pottery.

During exploration in Agjabedi and Beylagan regions were fixed several new monuments belonging to different periods of history.

BƏRDƏDƏ ARXEOLOJİ QAZINTILAR
(Bərdə rayonu)

A.M.Məmmədov, T.V.Əliyev

Bərdə arxeoloji ekspedisiyası 2012-ci ildə Bərdə rayonunun Şatırlı kəndi ərazisində yerləşən Şortəpə abidələr kompleksində, Balatəpə tunc dövrü yaşayış yerində arxeoloji qazıntı işlərini davam etdirmişdir. Yaşayış yerinin cənub-şərq hissəsində (10x5 metr sahədə) 2 hissədə qazıntı aparılmışdır. Hər iki sahədə qazıntılar 2 metr dərinliyədək davam etdirilmiş, nəticədə müxtəlif təyinatlı maddi mədəniyyət nümunələri aşkar olunmuşdur (Şəkil 1, 2, 3).

Birinci qazıntı sahəsinin cənub-şərq küncündə çiy kərpicdən tikili qalığı və döşəmə üzə çıxarılmış, həmin hissədən 1,5 metr şərqə doğru divar qalığı aşkar edilmişdir. Həmin divar qalığının sonunda təsərrüfat quyusu aşkara çıxarılmışdır. Ümumilikdə ərazidə qazıntılar nəticəsində 4 təsərrüfat quyusu aşkar olunmuşdur ki, onların ikisi birinci qazıntı sahəsində, digər ikisi isə ikinci qazıntı sahəsindədir.

Birinci qazıntı sahəsindəki təsərrüfat quyularının biri qazıntı sahəsinin mərkəzindən qərbə doğru 0,5 metr məsafədə, digəri isə kvadratın cənub-şərq hissəsində – divar qalığının sonunda, aşkar olunmuş döşəmənin qurtaracağında tapılmışdır. Hər iki təsərrüfat quyusundan xeyli miqdarda yanmış buğda qalıqları əldə olunmuşdur.

Birinci qazıntı sahəsindən, həmçinin, I kvadratın cənub-qərbindən şimal-qərbinə doğru olan istiqamətdə qazıntı işləri zamanı kömürləşmiş təbəqə də üzə çıxarılmışdır.

Birinci qazıntı sahəsinin cənub-qərbindəki döşəmədən şimal-şərq istiqamətində divar uzanır ki, onun təmizlənməsi zamanı torpaq təbəqəsi içərisində yaşıl və qırmızımtıl rənglərə rast gəlinmişdir. Ərazi tam təmizləndikdən sonra aydın olmuşdur ki, birinci kvadratın cənub-qərbindəki döşəmə ilə qazıntı sahəsinin şimal-qərb tərəfi arasında burada yaşamış əhali ibadətlə məşğul olmuşdur. Maddi mədəniyyət nümunələri onların dini dünyagörüşünün totemizm olması haqqında fikir söyləməyə əsas vermişdir.

Birinci kvadratın cənub-şərq tərəfində 5 ədəd 30x30 sm ölçüdə döşəmə daşları ardıcıl olaraq tapılmışdır. Onlardan ikisi yerindən boşalmış vəziyyətdə, digər üçü isə möhkəm döşəmə formasında üzə çıxarılmışdır. Buradan üzərində ilkin petroqlif işarə olduğu güman edilən kiçik qab parçası da tapılmışdır.



Şəkil 1,2. Arxeoloji qazıntı sahəsi.



Şəkil 3. Arxeoloji qazıntı sahəsinin cənub tərəfdən ümumi görünüşü.



Şəkil 4. Arxeoloji qazıntı sahəsindən aşkar olunmuş maddi mədəniyyət nümunələri.

Birinci qazıntı sahəsində iki təsərrüfat quyusu ilə yanaşı bir təndir yerinin dağılmış qalıqları qazıntı sahəsinin səthindən bir metr aşağıda aşkar olunmuşdur.

İkinci qazıntı sahəsinin şimal-şərq küncündə – birinci kvadratın cənub-şərqində aşkar olunmuş və içərisində buğda qalığı olan təsərrüfat quyusu ilə paralel istiqamətdə digər bir təsərrüfat təyinatlı quyu da tapılmışdır ki, bunun da içərisində xeyli miqdarda yanmış buğda qalığı tapılmışdır.

İkinci qazıntı sahəsində digər təsərrüfat quyusu da tapılmış, lakin onun torpağa qarışması və tərkibində həm buğda, həm də müxtəlif təyinatlı saxsı qırıqlarının olması bu təsərrüfat quyusunun sırf hansı məqsədlə istifadə olunduğunu söyləməyə imkan verməmişdir. II kvadratda yuxarıda qeyd etdiyimiz divar qalığının cənuba doğru 1,5 metr məsafədə davamını izləmək mümkün olmuşdur. Həmin qalığın şərq tərəfində isə döşəmənin daha sərt olduğu və tərkibinin müxtəlif rənglərdə – yaşıl, boz, qara, qırmızımtıl olduğu müəyyən olunmuşdur.

Arxeoloji qazıntı işləri zamanı abidədən xeyli miqdarda dən daşları, sürtkəclər, saxsı qab nümunələrinin hissələri – xüsusən qulp, oturacaq və küpə hissələri aşkar olunmuşdur (Şəkil 4).

Ərazidə tədqiqat işləri zamanı xeyli sayda heyvan sümüklərinə də rast gəlinmişdir. Onlar əsasən birinci və ikinci qazıntı sahəsinin qərb tərəfindən tapılmışdır ki, bu da ümumilikdə abidə kompleksinin mərkəzinə doğru olan istiqamətdədir.

Arxeoloji tədqiqat işləri zamanı əldə olunmuş maddi mədəniyyət nümunələrinə əsasən ərazinin sakinlərinin əkinçilik, maldarlıqla yanaşı sənətkarlıqla da məşğul olduğunu söyləmək mümkündür. Ərazidə ümumilikdə, 5 qazıntı sahəsində sistemli tədqiqat işi aparılmış və mühüm elmi nəticələr əldə olunmuşdur. Aşkar olunmuş materiallar Balatəpə sakinlərinin oturaq həyat yaşadıqlarını, həmçinin onların içərisində yarımköçəri həyat sürən tayfaların da olduğunu göstərir. Bunu əkinçilik və maldarlıqla əlaqədar əldə olunan maddi mədəniyyət nümunələrinə əsasən söyləmək olar.

Abidədən əldə edilmiş təsərrüfat küplərinin bəziləri boz rəngli olub, yaxşı bişirilmişdir. Onlar qum qatışıqlı gildən hazırlanmışlar. Üzərlərində kəmərvari yapma qurşaqlar vardır. Bəzi küplərin divarlarına yapışmış maddə qalıqları vardır. Onların daşlaşmış çaxır çöküntüsü olduğu ehtimal edilir.

Keramika nümunələrinə əsasən isə Balatəpə sənətkarlarının məişətdə və mübadilədə istifadə olunan müxtəlif təyinatlı saxsı qablar hazırladığını söyləyə bilərik. Bəzi hallarda həmin saxsı qırıqlarının müəyyən hissəsini bərpa etmək mümkün olmuş ki, buna əsasən də orta həcmli keramika nümunələrinin ərazidə daha çox işləndiyi fikrinə gəlmək olur.

Təbəqələrdən aydın olur ki, burada sənətkarlıq sahəsi əkinçilik və maldarlıqdan tədricən ayrılmış və müstəqil sahəyə çevrilmişdir ki, bu da ərazidə ictimai əmək bölgüsünün tarixini izləməyə imkan verir.

Aparılan elmi tədqiqatlar tunc dövrü abidəsi olan Balatəpədə əkinçilik, maldarlıq və sənətkarlığın ayrı-ayrılıqda müstəqil sahə olduğunu təsdiq etmiş, buradakı tayfa ittifaqının təsərrüfat həyatı, dini dünyagörüşü və əlaqələri haqqında tutarlı dəlillər əldə edilmişdir.

Cari ildə ekspedisiya üzvləri tərəfindən Yevlax rayonu ərazisində yerləşən Qaramanlı, Ərəbbəsrə və Saxsılı Köbər ərazilərində kəşfiyyat xarakterli səfər də təşkil olunmuşdur. Bu zaman ilk orta əsrlərdə əhalinin təsərrüfat həyatını əks etdirən müəyyən nümunələr əldə olunmuşdur.

Birinci abidə Qaramanlı kəndinin şimal-şərqində yerləşir. Əraziyə yerüstü baxış keçirərkən əldə edilən qab hissələri aşağıdakılardan ibarətdir:

1. Forması məlum olmayan qab hissəsi. Qab narın gildən dulus çarxında hazırlanmış və qırmızı rəngdə bişirilmişdir. Bu qab hissəsinin xarakterik cəhəti ondan ibarətdir ki, onun üzəri cilalanmış və qırmızı rəngdə anqoblanmışdır.

2. Xeyrə tipli qab hissəsi. Qab qalın divarlı olub, əldə hazırlanmışdır, üzəri isə barmaqla basma üsulu ilə nöqtələnmiş və cızma üsulu ilə paralel-kəsik xətlərlə bəzədilmişdir.

3. Xeyrə tipli qabın yan hissəsi. O, dulus çarxında hazırlanmışdır. Onun xarakterik cəhəti kənarlarının yana doğru geniş əyilməsidir. Qab dayazdır.

4. Gil çıraq. Çıraq əldə hazırlanmış və armudvaridir. O, geniş və yastı oturacaqlardan boğazına doğru daralır.

İkinci abidə Yevlax rayonunun Ərəbbəsrə və Saxsılı Köbər kəndləri arasındakı ərazidə yerləşən ilk orta əsr yaşayış yeridir. Burada aparılan arxeoloji kəşfiyyat işi nəticəsində saxsı qırıqları (o cümlədən, qulplar) tapılmışdır. Aşkar olunmuş qab qulplarını öz formalarına görə bir neçə qrupa bölmək olar:

1. Üzərində barmağın söykədilməsi üçün xüsusi çıxıqlar düzəldilmiş, iri həcmli bardaqlara məxsus qulplar.
2. Kuvəc və ya tavalara məxsus üçbucaq və ya dairəvi qulplar.
3. Dopu tipli qablara məxsus dairəvi qulplar.
4. Küp və ya bardaqlara məxsus saya qulplar.

Həmin saxsı qırıqları içərisində birinci qrupa aid qulplar özləri də bir sıra əlamətlərinə görə bir-birindən fərqlənirlər. Bu qulplar üzərində barmağın söykədilməsi üçün gövdə üzərində üçbucaq formasında çıxıqlar düzəldilmişdir. Çıxıqların bəziləri içərisi balaca, yuxarısı isə azacıq maili düzəldilmiş «məməcikdən» ya qulpun gövdəsi üzərində düzəldilmiş dördkünc formalı qalın çıxıqdan, yaxud qulpun qabın boğazına birləşən hissəsində üçbucaq formada hazırlanmış ucluqlardan ibarətdir. Bu qulpların üzəri bəzən basma nöqtə ilə bəzədilmişdir. Axırıncı növ çıxıntılı qulplar yuxarı hissədən qaba, yanlara doğru ayrılmış xüsusi qanadcıqlar vasitəsilə yapışdırılmışdır ki, bu da onlara xüsusi gözəllik verir.

Aşkar olunmuş qırıqlar içərisində ikinci qrup - kuvəclərə məxsus qulplar güllərinə və hazırlanma üsullarına görə eyni olsalar da bəzi əlamətlərinə görə bir-birindən fərqlənirlər. Qrupa daxil olan qulpların bir qismi üçbucaq formada hazırlanmışdır. Onlardan biri qarışıq tərkibli gildən hazırlanmışdır və iri kuvəcə məxsusdur. Onun üzəri gövdəyə doğru bir-birinə paralel batıq xətlə bəzədilmişdir. Bu növ kuvəc qulpları, ilk orta əsrlərdən başlayaraq Azərbaycanda geniş yayılmışdır. Digər qulp kiçik

həcmli kuvəcə aiddir. Bu qulpun da üzəri naxışlanmışdır. Naxış qulpların kənarları ilə düzülmüş batıq nöqtələrdən və bütün qulp boyu batıq xətlə çəkilmiş haşiyədən ibarətdir. Üç künc formada hazırlanmış qulplardan biri qabın gövdəsinin bir hissəsi ilə birlikdə aşkar edilmişir. O, enli ağızlı tabaqvari qaba məxsus olub, bir qədər kobud hazırlanmışdır. Hazırlanan zaman onun uc hissəsi bir qədər əzilmiş və beləliklə də, simmetriya pozulmuşdur. Qulpun qaba birləşən yerində, hər tərəfdə iki olmaqla dörd batıq nöqtə qoyulmuşdur. Bu nöqtələr bir tərəfdən qulpu qaba daha möhkəm birləşdirmək üçün edilmişdirsə, digər tərəfdən də onlar bəzək rolunu oynayırlar. Kuvəc tipli qablara məxsus qulpların bir qismində çubuqvari və ya lentvari hazırlanmış yarımdairəvi olanları üstünlük təşkil edir. Onlardan biri narın gildən səliqəli hazırlanmış və enli ağızlı qaba məxsusdur. O, çubuqvari düzəldilmiş və qaba birləşən yerdə hər tərəfində biri olmaqla iki kiçik hədd cızılmışdır. Bu xətlər yalnız bəzək rolunu oynamışdır. Yarımdairəvi qulpların digəri isə nisbətən qarışıq gildən lentvari düzəldilmiş və qalınlığından hiss olunur ki, irihəcmli qaba məxsusdur. Onun üzəri sayadır. Bu qulp öz forması ilə əvvəlkilərdən fərqlənir. Belə ki, o qalın və lentvari hazırlanmışdır. Qaba şaquli düzəldilmiş bir qulp tam dairəvi formada hazırlanmışdır. Enli ağızlı qaba məxsus olan bu qulp qabın ağzına yaxın yerdə onun çiyini üzərində düzəldilmişdir. Bu növ qulplar eneolit dövründən başlayaraq məişətə daxil olmuş və orta əsrlərə kimi davam etmişdir.

Tədqiqat zamanı aşkar edilmiş qulpların bir qismini də küp və ya bardaqlara məxsus lentvari və bir növ saya düzəldilmiş qulplar təşkil edir. Bu qulplar hamısı lentvari hazırlanıb, qırmızı rəngdə bişirilmişdir. Onların bəziləri tamamilə saya hazırlanmış, bəzisinin aşağı tərəfində üç batıq nöqtə qoyulmuş, bəzisində həmin nöqtələr əvəzinə iki batıq düz xətt çəkilmişdir. Daha başqalarını isə kənarları boyu bir-birinə paralel olan düz xətt vasitəsilə bəzəmişlər.

Buradakı dulus məmulatlarının böyük bir qrupu müxtəlif qablara məxsusdur. Onların hamısı saya olub, üzərində heç bir naxışa təsadüf edilmir. Demək olar ki, onların hamısı narın gildən əldə hazırlanmış, duru gil məhlulu ilə anqoblanmış və qırmızı rəngdə bişirilmişlər. Aşkar olunmuş qab hissələrinin bir qismi küplərə, bir qismi xeyrə tipli qablara, digərləri isə kuvəc tipli qablara məxsusdur. Hazırlandıqları məqsəddən asılı olaraq bu qabların ağız hissəsi həm köbəli, həm də saya düzəldilmişdir.

Bərdə arxeoloji ekspedisiyasının 2012-ci ildə apardığı arxeoloji qazıntıların nəticələri Azərbaycanda şəhər mədəniyyətinin daha qədim tarixi köklərə malik olduğunu bir daha təsdiq edir.

А.М.Мамедов, Т.В.Алиев

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В БАРДЕ

РЕЗЮМЕ

Бардинская археологическая экспедиция продолжила в 2012 году археологические раскопки комплекса памятников Шортепе на территории села Шатырлы Бардинского района, а также на поселении бронзового периода Балатепе. Раскопки велись на участке 100 м^2 и доведены до глубины 2 метра.

Результаты раскопок показывают, что в период средней бронзы в исслеуемом регионе ремесло, постепенно отделяясь от земледелия и скотоводства, превратилось в самостоятельную отрасль, что дает возможность проследить общественное разделение труда. Городская культура в Азербайджане имеет более древние исторические корни.

A.M.Mammadov, T.V.Aliyev

THE ARCHAEOLOGICAL EXCAVATIONS IN BARDA

SUMMARY

The authors and other members of Barda archaeological expedition were done scientific researches in 2012. The archaeological excavations were done in the south-east part of the Balatepe monument by members.

The result of excavations was scientific significance. There were founded stone, bronze and iron materials which concerned to stoneware, bronze and ironware. It makes us sure that Balatepe dwellers were lived during the Bronze Age and Early Iron period.

ÇƏRMƏDİL SON ANTİK VƏ İLK ORTA ƏSRLƏR DÖVRÜ NEKROPOLU

(İsmayıllı rayonu)

B.M.Cəlilov, M.M.Hüseynov, A.A.Quliyev

Nekropol İsmayıllı rayonunun Çərmədil kəndindən 500 metr cənubda, Girdiman çayın sol sahilində, kiçik təpələrin üzərindəki düzənlik ərazidədir. Arxeoloji abidə on hektardan çox ərazini əhatə etməklə, 40º33'15.60''-şimal, 48º11'20.20''-şərq koordinatlarında yerləşir.

İsmayıllı rayonu, Çərmədil kəndi ərazisində aparılan torpaq işləri zamanı qədim maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Əraziyə tərəfimizdən keçirilən baxış zamanı təsadüfi aşkar edilən nümunələrin antik və ilk orta əsrlər dövrünə məxsus olması müəyyən edilmişdir. Aparılan yoxlama qazıntı işləri nəticəsində burada son antik və ilk orta əsrlər dövrünə məxsus kurqan, küp və torpaq qəbirlərdən ibarət böyük bir ərazini əhatə edən nekropolun olduğu müəyyənləşdirilmişdir. Nekropolda aparılan qazıntı işləri zamanı yalnız torpaq işləri görülən ərazidə bir kurqan, səkkiz küp qəbir, iyirmi beş torpaq qəbir aşkar edilərək tədqiqata cəlb edilmişdir. Təbii ki, tədqiq olunan qəbirlər abidənin az bir qismini təşkil etməkdədir. Təxminən 500 illik bir dövr ərzində, qəbirstanlıq kimi insan dəfni həyata keçirilən bu geniş ərazidə, yüzlərlə qəbir olduğunu düşünürük və onların tədqiq olunmasına uzun zaman gərəkdir.

Küp qəbirlər

Nekropolda aparılan arxeoloji qazıntılar zamanı 8 ədəd küp qəbir aşkar edilərək tədqiq edildi. Küp qəbirlərin birində uşaq, birində qadın, altı ədədində isə kişi dəfn edilmişdir. Göründüyü kimi küp qəbirlərin əksəriyyətində kişilər dəfn edilmişdir. Bununla yanaşı, kişilərə məxsusu olan qəbirlər öz zənginliyi ilə nəzərə çarpırdı.

Küp qəbir №-1. Ərazidə torpaq işləri aparılarkən küp qəbirin bir hissəsi zədələnsədə, qəbir tamamilə dağılmamışdır. Küp qəbir şimal-cənub istiqamətində olmaqla, ağız hissə şimal tərəfə qoyulmuşdur. Üfüqi istiqamətdə basdırılmış küp qəbirin hündürlüyü 1 metr 60 sm, gövdə diametri 75 sm, oturacağının diametri 22 sm-dir. Dar oturacaqlı küp qəbrin oturacağından 40 sm yuxarı, gövdə istiqamətində, diametri 10 sm olan deşik vardır. Qeyd etmək lazımdır ki, dəfn küplərinə bu cür deşiklərin açılmasına Azərbaycan ərazisində aşkar edilmiş digər küp qəbirlərdə də geniş rast gəlinməkdədir. Fikrimizcə bu cür oyuqların açılması dini inamla bağlı olmuşdur. Belə ki, insanların dini dünyagörüşünə əsasən, bu deşikdən ruhun küp qəbri tərk etməsi və yaxud yenidən qayıtması güman edilirdi. Küp qəbirdə azyaşlı uşaq dəfn edilmişdir. Uşağın başı küpün oturacaq, ayaqları isə ağız hissəsinə doğru üzü üstə dəfn edilmişdir. Küp qəbrin daxili təmizlənərkən bir ədəd kiçik həcmli boşqab tipli saxsı qab aşkar edildi. Küp qəbrin ağzı bişmiş kərpiclə qapanmışdır.

Küp qəbrin yanına, orta həcmli küpə qoyulmuşdur. En kəsiyi dairəvi qulpa malik küpə novçalı ağız kənarına malikdir.

Küp qəbir №-2. Çərmədil qəbir kompleksindən aşkar edilən digər 2№-li küp qəbir iri həcmlidir. Küp qəbir şimal-cənub istiqamətində üfüqi vəziyyətdə qoyulmuşdur. Ağız hissəsi şimala olan küp qəbirin hündürlüyü 1metr 60 sm, gövdəsinin diametri 85 sm, ağzının diametri 53 sm, oturacağının diametri 18 sm-dir. Ağız kənarı köbəli hazırlanmış küpün, ağız kənarının qalınlığı 6 sm-dir. Ağız kənarı qabarıq burmalarla naxışlanmışdır.

Küp qəbrin içi təmizlənərkən sol yanı üstə, baş hissəsi küp qəbirin ağzına tərəf, üzü şərqə, sıx bükülü vəziyyətdə kişi skeleti aşkar edildi. Sol əli sifətinə söykənmiş, sağ əli çanağı istiqamətində olub,

ovcunda şüşə piyalə vardır. Ovcunun ətrafında 5 ədəd kiçik həcmli çay daşı aşkar edildi. Skeletin sıx bükülmüş ayaqlarının qarşısında, qınında, yəni qabında dəmir xəncər aşkar edildi. Xəncərin uzunluğu 45 sm, eni 4 sm-dir. Xəncərin baş tərəfində tunc əşya, tuncdan hazırlanmış kəmər başlığı, kəmərdən xəncər və s. asmaq üçün tuncdan hazırlanmış kəmərbəndi vardır. Xəncərdən yuxarı, tunc əşyanın yanında Sasani dövrünə aid sikkə aşkar edildi.

Skeletin sol əlindəki barmağında, əqiqdən qaşı olan tunc üzük vardır. Üzüyün qaşında zoomorf təsvir bərkidilmişdir. Küpün yanında, bir ədəd orta həcmli, qoşa lentvari qulpa malik küpə aşkar edildi. Küpənin ağzına yastı çay daşı qoyulmuşdur.

Küp qəbir №-3. Torpaq işləri görülərkən, qəbir ciddi dağıntıya məruz qalmışdır. Yalnız onun alt hissəsi dağılmamış halda qalmışdır. Qalmış hissəsinin uzunluği 1 metr, diametri 70 sm-dir. Küp qəbirın istqaməti şimal-şərq, cənub-qərb istiqamətindədir. Küp qəbirdən yeniyetmə uşağa məxsus skelet aşkar edildi. Skeletin barmağından tunc üzük və üzərindən isə tunc bəzək əşyaları aşkar edildi.



Çərmədil nekropolu. 2 N-li küp qəbir.



Çərmədil nekropolu. 4 N-li küp qəbir.



Çərmədil nekropolu. 5 N-li küp qəbir.

Küp qəbir №-4. Küp qəbirin uzunluğu 1metr 80 sm, diamteri- 1metr 20 sm-dir. Küp qəbirdən 1 ədəd sol yanı üstə yarı bükülü vəziyyətdə dəfn edilmiş, böyük insana məxsus skelet aşkar edildi. İnsan skeletinin boğaz hissəsindən gümüş sikkə aşkar edildi. Belə ki, o dəfn edilərkən ağzına sikkə qoyulmuşdur. Düşünürük ki, küp qəbirdə dəfn edilən kişi olmuşdur. Küp qəbirin yanından bir ədəd iri həcmli, kupə tipli saxsı qab, bir ədəd isə vaza tipli saxsı qab aşkar edildi. Qəbrin içərisindən bir ədəd süddan biçimli bardaq, bir ədəd isə kasa formalı saxsı qab, 1 ədəd dəmir qılınc, 1 ədəd isə dəmir xəncər, tunc toqqa başlığı, tunc toqqabənd, qaşlı tunc üzük, tunc piləklər, kauri muncuqlar, kiçik buynuzlu heyvanın aşıqlıq sümüyündən hazırlanmış asma və s. aşkar edildi. Qılıncın uzunluğu 80 sm, eni 6,5 sm, xəncərin uzunluğu isə 30 sm, eni 4 sm-dir.

Küp qəbir digər küp qəbirlərdən özünəməxsus dəfn adəti ilə seçilirdi. İlk növbədə onu fərqləndirən xüsusiyyətlərdən biri küpün ölçücə böyüklüyüdür. Digər cəhət tədqiq olunan qəbirlərdən fərqli olara 4**№-**li küp qəbirin qoyulma istiqaməti şərq-qərb istiqamətində idi. Ümumiyyətlə küp qəbirlərdə mərhumun qoyulma istiqaməti küpün istiqamətinə uyğun həyata keçirilmişdir.

4**№**-li qəbirdə digər fərqli əlamət ondan ibarət idi ki, mərhum və onun yanına qoyulan əşyaların üzəri 5-6 sm qalınlığında gil təbəqə ilə süvanmışdır. Bu səbəbdən gil örtüyün altı çürümə prosesindən sonra boş qalmış, skeletin və avadanlıqların içərisi torpaqla dolmamışdır.

Digər küp qəbirlərdə olduğu kimi bu qəbirdə də, küpün müəyyən hissələrində bitum qalıqları aşkar edilmişdir. Bitumdan adətən küpün müəyyən hissələrinin birləşdirilməsində istifadə olunmuşdur.


Qəbirdə olduqca zəngin maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Aşkar olunmuş qəbir avadanlıqlarına əsasən dəfn olunmuş şəxsi nüfuzlu tayfa üzvü və ya döyüşçü olduğunu ehtimal etmək olar.

Küp qəbir №-5. Kup qəbir şimal-şərq, cənub-qərb istiqamətində qoyulmuşdür. Küp qəbirdə skelet yarı bükülü vəziyyətdə, üzü cənub-şərq istiqamətində dəfn edilmişdir. Mərhumun sinə hissəsində ağzı novçalı, süddan biçimli saxsı qab, qarşı hissəsində isə dəmirdən hazırlanmış qılınc və xəncər qoyulmuşdur. Qəbirdən bir ədəd tuncdan hazırlanmış toqqa başlığı aşkar edildi. Küpün qərb divarında qalın bitum qatı vardır. Ümumiyyətlə küpün daxilində bir neçə yerdə bitum qalıqları aşkar edildi. Bitumdan həm küp qəbirlərin və həmdə saxsı qabların bərpasında istifadə edilmişdir. Ümumiyyətlə, tədqiqi etdiyimiz bəzi küp qəbirlərdə, bitum qalıqlarına təkcə sınıq hissədə deyil, digər yerlərdədə kütlə halında rast gəlinirdı. Bu hal hansısa dini inamla bağlı ola bilərdi. Küp qəbrin yanından bir ədəd süddan biçimli saxsı qab aşkar edildi.

Küp qəbir №-6. Küp qəbir şimal-cənub istiqamətində, ağzı şimala doğru qoyulmuşdur. Küp qəbirdən qadına aid skelet aşkar edildi. Mərhum yarı bükülü vəziyyətdə, başı şimala, ayaqları cənuba, sağ yanı üstə, üzü qərbə doğru dəfn edilmişdir. Skeletin bilək sümükləri üstündə iki ədəd tunc bilərziklər, sinə nahiyəsindən pasta və mineral daşlardan hazırlanmış muncuqlar və kəlləsinin sağ və sol tərəflərində qızıldan sırğalar aşkar edildi. Onun sağ ovcuna gümüş sikkə qoyulmuşdur.

Küp qəbir №-7. Küp qəbir iri həcmli olub, oturacağı dabanlıdır. Küp şərq-qərb istiqamətində ağzı şərqə doğru qoyulmuşdur. 7 №-li küp qəbirin həm daxilində, həm də ətrafından zəngin arxeoloji materiallar aşkar edilmişdir. Küp qəbrin kişiyə aid olmasını düşünürük. Küp qəbirdən bir ədəd gümüş cam, beş ədəd saxsı qab, bir ədəd saxsı çıraq, bir ədəd dəmir qılınc, bir ədəd dəmir xəncər, qılınc və xəncəri asmaq üçün, tuncdan hazırlanmış kəmərbəndlər, tuncdan hazırlanmış kəmər başlığı, toqqa parçaları, mineral daşlardan hazırlanmış bəzək əşyaları və s. aşkar edildi. Küp qəbrin hündürlüyü 1 metr 60 sm-dir. Küp qəbrin kənarında, iki ədəd böyük həcmli saxsı qab qoyulmuşdur.

Küp qəbir №-8. Küp qəbir yerin üst səviyyəsindən 2 metr dərinlikdə qoyulmuşdur. Şar gövdəli küp qəbirin uzunluğu 1 metr 20 sm, diametri 85 sm-dir. Qəbirin kişiyə aid olmasını düşünürük. Küp qəbirin daxili təmizlənərkən 1 ədəd dəmir qılınc, 1 ədəd dəmir xəncər, 2 ədəd kiçik həcmli saxsı qab, 1 ədəd saxsı çıraq, 2 ədəd isə şüşə qab aşkar edilmişdir.





Çərmədil nekropolu. Saxsı qablar.



Çərmədil nekropolu. Şüşə qabları.

Torpaq qəbirlər

Çərmədil nekropolunda aparılan arxeoloji qazıntılar zamanı 25 ədəd torpaq qəbir aşkar edilərək, tədqiq edilmişdir. Torpaq qəbirlərin kameralarının bir qisminin üzəri daş örtüklü, bir qismi isə törpaq örtüklü idi. Daş örtüklü kameraların üzərində hündürlüyü 60-90 sm, diametri isə 1-1,5 metr arasında çay daşlarından ibarət düzüm var idi. Qəbir kameraları əsasən 1,5-2 metr dərinliklərdə aşkar edilirdi. Ərazidə torpaq işləri aparılarkən üst hissədən bir metrə qədər qalınlığında torpaq qatı götürülmüşdür. Bu səviyyədən sonra qəbirlər əsasən 0,5-1 metr dərinliklərdən aşkar edilirdi. Yerin üst səthinin relyefi dağıldığı üçün qəbirlərin aşkar edilmə dərinliyin təxmini olaraq müəyyən edilmişdir.

Nekropolda torpaq qəbirlərdə aparılan tədqiqatlar göstərdi ki, bu qəbirlərdə əsasən qadınlar dəfn edilmişdir. Biz küp qəbirlərdə isə əksinə, əsasən kişilərin dəfn edildiyini müəyyən etmişdik.

Diqqəti cəlb edən məqamlardan biri isə nekropolun qərb tərəfindən, aşkar edilən qəbirlərin əksəriyyəti azyaşlı, daha doğrusu yeddi qəbir 1-9 yaş arası uşaqlara, biri nisbətən yeniyetmə, 14-15 yaşlı uşağa, 2 qəbir isə yaşa dolmuş insanlara məxsus idi. Nekropolun şərq hissəsindən aşkar edilən qəbirlər isə əksinə, nisbətən yaşa dolmuş insanlara məxsus idi. Bu onu göstərir ki, artıq insanlar böyüklərlə uşaqların dəfn edildiyi ərazini bir birindən ayırmışlar.

Qəbir №1. Qəbir nekropolun şərq tərəfində aşkar edilmişdir. Qəbir kamerası düzbucaqlı, baş tərəfləri isə oval formada hazırlanmışdır. Qəbir kamerasının uzunluğu 1 metr 60 sm, eni 70 sm-dir. Skelet sol yanı üstə, şimal-cənub istiqamətində dəfn edilmişdir. Mərhumun baş tərəfi şimala, üzü isə şərqə doğru qoyulmuşdur. Mərhum qəbir kamerasına bükülü vəziyyətdə, əllər dirsəkdən sinəsinə, ayaqlar isə, dizdən bədənə doğru yığılaraq, qoyulmuşdur. Sıx bükülmüş skeletin uzunluğu 80 sm-dir. Küp qəbir öz bəzək əşyalarının zənginliyi ilə seçilirdi. Skeletin boyun və bilək nahiyəsində çoxlu sayda, cərgə ilə ipə düzülmüş, mineral daşlardan və pastadan hazırlanmış muncuqlar, bir ədəd tunc üzük, tuncdan hazırlanmış, ağac üzərində düzülərək bəzək kimi istifadə edilən, uzunluqları 1 sm olan, kiçik mıxlar, bir ədəd tunc, bir ədəd isə dəmir qolbağı aşkar edildi. İnsan sümükləri yeniyetmə uşağa məxsusdur.

Torpaq qəbir №-2. Qəbir 1**№**-li torpaq qəbirdən 4 metr şimal-qərbdə yerləşir. Qəbirın şimal-cənub istiqamətində, düzbucaqlı formada qurulmuş kamerası vardır. Qəbir kamerasının uzunluğu 1metr 60 sm, eni 1 metr-dir. Kameranın dərinliyi 2 metr-dir. Kameranın döşəməsi və divarları ağ gəcə oxşar maddə ilə suvanmışdır. Qəbirdən körpə uşağa məxsus, dağınıq halda skelet aşkar edildi. Kameradan müxtəlif rəngli muncuqlar, tunc qolbağ hissələri və dəmir əşyanın hissələri aşkar edildi.

Torpaq qəbir №-3. Qəbir kamerası şimal-qərb, cənub-şərq istiqamətində qazılmışdır. Kamerada körpə uşaq sıx bükülü, sol yanı üstə, üzü şərqə doğru dəfn edilmişdir. Sağ qolunda tunc qolbağ, sol qolunda dəmir bilərzik, boyun hissəsində muncuqlar aşkar edildi. Dizinin qarşısında kiçik ölçülü, ağzı novçalı, kuzə formalı kiçik küpə qoyulmuşdu. Qəbirdən biri böyük, digəri kiçik olmaqla iki ədəd muncuq aşkar edildi. Skelet çürüməyə məruz qalaraq yaxşı saxlanılmamışdır.

Torpaq qəbir №-4. Qəbir körpə uşağa məxsus olmaqla **ş**imal-cənub istiqamətində qurulmuşdur. Təknə formada hazırlanmış torpaq qəbir kamerasının uzunluğu 1metr 60 sm, eni 1metr, kameranın dərinliyi 35 sm-dir. Qəbir kamerası baş tərəfləri oval, düzbucaqlı formada hazırlanmışdır. Qəbirdən azyaşlı körpəyə məxsus sümüklər, düzbucaqlı formasında tunc asma, üç ədəd tuncdan hazırlanmış qolbağı, tunc üzük, əqiq və pastadan hazırlanmış muncuqlar və dəmir əşyanın qırıqları aşkar edilmişdir.Tunc qolbağlardan birinin muncuqdan qaşları vardır.

Torpaq qəbir №-5.

Qəbir yeniyetmə uşağa məxsusu olmaqla, maraqlı quruluşa malikdir. Üçbucaq formada hazırlanmış qəbir kamerasının bir tərəfi düz, digər tərəfi isə piramida formasındadır. Şimal-cənub istiqamətində qurulmuş qəbir kamerasının uzunluğu 1metr 10 sm, eni 70 sm-dir. Qəbir kamerasındakı yeniyetməyə məxsus skelet başı şimala, üzü şərqə, sol yanı üstə, açıq bükülü vəziyyətdədir. Bükülü vəziyyətdə uzunluğu 70 sm-dir. Skeletin ətrafından tunc piləklər, əqiq və pastadan hazırlanmış muncuqlar və bir ədəd dəmirdən hazırlanmış qolbağı aşkar edildi.

Torpaq qəbir №-6. Qəbir kamerası oval formalı olmaqla, eni 60 sm, uzunluğu 80 sm-dir. Mərhum sağ yanı üstə şimal-cənub ustiqamətində dəfn edilmişdir. Üzü qərb istiqamətində olan skeletin 9-10 yaşlı uşağa aid olduğunu söyləyə bilərik. Maraq doğuran məqamdan bir skeletin bir cox hissəsinin dağınıq halda aşkar edilməsidir. Belə ki, onun çanaq və ayaq sümükləri kameranın müxtəlif yerlərindən aşkar edilirdi. Qəbir kamerasından bir ədəd ağzı süddan biçimli, bardaq tipli saxsı qab, müxtəlif mineral daşlardan və pastadan hazırlanmış muncuqlar aşkar edildi. Əqiq daşlardan hazırlanmış muncuqların bir neçəsi üzərində, yüksək ustalqla heyvan və bitki təsvirləri həkk edilmişdir.

Torpaq qəbir №-7. Torpaq qəbirdə mərhum sol yanı üstə, şimal-cənub istiqamətində, üzü şərqə doğru dəfn edilmişdir. Yarımbükülü vəziyyətdə dəfn edilmiş mərhumun qolları dirsəkdən bükülərək əllər üzünə yaxın çarpazlaşdırılımış, ayaqları isə dizdən bükülərək bədənə doğru yığılmışdır. Yaşlı kişiyə məxsus olduğu guman edilən skeletin ətrafından iki ədəd, tuncdan saplağı, dəmirdən tiyəsi olan xəncər qalıqları və iki ədəd tuncdan hazırlanmış kəmərbənd, bir ədəd isə tunc kəmər başlığı aşkar edilmişdir.

Torpaq qəbir №-8. Torpaq qəbirin kamerası oval formada hazırlanmaqla, uzunluğu 1 metr, eni 90 sm-dir. Mərhum kamerada şimal-cənub istiqamətində uzadılmaqla, sol yanı üstə, üzü şərqə doğru dəfn edilmişdir. İnsan skeleti anatomik vəziyyəti pozulmuş vəziyyətdə aşkar edilmişdi. Aşkar edilmiş insan skeletini azyaşlı uşağa aid etmək olar. Həmçinin çürümə səbəbindən skelet yaxşı saxlanılmamışdır. İlkin əlamətlərə əsasən mərhum kameraya six bükülü vəziyyətdə qoyulmuşdur. Maraqlı məqamlardan biri kameradan iki insan kəlləsinin aşkar edilməsidir. Kəllələrdən icincisi mərhumun ayaqları yaxınlığına qoyulmuşdur.

Qəbir kamerasından kiçik ölçülü iki ədəd tunc bilərzik, tuncdan hazırlanmış dördkünc formalı muncuqlar, tunc zınqırovlar, tuncdan, mineral daşlardan və pastadan hazırlanmış muncuqlar, dəmir əşyanın bir hissəsi və parça qalığı aşkar edilmişdir. Aşkar edilmiş əqiq muncuqlardan biri üzərində, yüksək ustalıqla, yatmış halda maral təsvir edilmişdir.

Torpaq qəbir №-9. Qəbir 8№-li torpaq qəbirin şimal-şərq tərəfində, 2 metr aralıda aşkar edilmişdir. Mərhum kamerada sol yanı üstə, şərq-qərb istiqamətində üzü şimala doğru dəfn edilmişdir. Onun ayaqları dizdən qismən bükülü vəziyyətdə idi. Skeletin çanaqdan yuxarı hissəsinin anatomik vəziyyəti pozularaq, tamamilə qarışıq halda aşkar edilmişdir. İnsan sümüklərinin nisbətən yaşa dolmuş insan aid olduğu qənaətindəyik. Qəbirdən maddi mədəniyyət nümunələri aşkar edilmədi.



Çərmədil nekropolu. Bəzək əşyaları.

Torpaq qəbir №-10. Qəbir kamerasının uzunluğu şərq-qərb istiqamətindədir. Mərhum sağ yanı üstə, üzü cənub istiqamətində dəfn edilmişdir. Ən maraqlısı isə skeletin başsız aşkar edilməsidir. Qəbir kamerasının uzunluğu 1metr 90 sm, eni 50 sm-dir. Skelet sağ yanı üstə olmaqla, ayaqları düz, əllər dirsəkdən bükülərək, sinəsinə doğru yığılmış vəziyyətdə aşkar edilmişdir. Skeletin yeniyetmə uşağa aid olduğunu söyləyə bilərik.

Torpaq qəbir №-11. Qəbir torpaq örtüklüdür. Oval formalı qəbir kamerasının eni 80 sm, uzunluğu isə 100 sm-dir. Qəbir kamerasından insan skeleti tamamilə bükülü vəziyyətdə aşkar edilmişdir. Onun bud, baldır, çanaq, qol və qabırğa sümükləri demək olar ki, bir-birinin üzərində yerləşmişdir. Mərhumun sağ yanı üstə üzü qərbə doğru qoyulduğunu söyləmək mümkündür. Mərhumun şaqqalanaraq və ya bizə məlum olmayan səbəblərdən tam bükülü, daha doğrusu aşkar edildiyi formada dəfn edildiyini söyləyə bilərik.

Torpaq qəbir №-12. Qəbirin üzəri çay daşları düzümü ilə örtülmüşdür. Qəbir üstü daş topasının hündürlüyü 80 sm təşkil edirdi. Qəbir kamerası nisbətən oval formada olmaqla uzunsovdur. Kameranın eni 80 sm, uzunluğu 120 sm-idi. Qəbir kamerasından yaşa dolmuş insana məxsus skelet aşkar edildi. O, şimal-qərb istiqamətində, sol yanı üstə üzü şərqə doğru dəfn edilmişdir. Mərhum dəfn edilərkən ayaqları dizdən bükülərək bədənə doğru, əlləri isə dirsəkdən bükülərək sol əli başının altına

qədər, sağ əli isə qarın nahiyyəsinə qədər bükülmüşdür. Sümüklər ciddi çürüməyə məruz qalmışdı. Qəbirdən bir ədəd tunc qolbağı və pastadan hazırlanmış muncuqlar aşkar edildi.

Torpaq qəbir №-13. Qəbir kamerasının üzəri çay daşları ilə örtülmüşdür. Daş topasının şimal-cənub istiqamətində uzunluğu 1 metr, eni isə 60 sm-dir. Qəbir kamerasının uzunluğu 1,5 metr, eni 60 sm-dir. Qəbirdə aşkar edilmiş insan sümüklərini yeniyetmə uşağa aid olduğunu söyləyə bilərik. Kamerada skeletin başı şimala, üzü şərqə doğru qoyulmuşdur. Mərhum dəfn olunarkən arxası üstə, əlləri dirsəkdən bükülərək sol əli sinə, sağ əli qarın nahiyəsinədək, sağ ayağı düz, sol ayağı isə dizdən azacıq bükülərək bədənə doğru yığılmış, başı sola doğru əyilərək dəfn edilmişdir. Skeletin aşkar edilmə vəziyyətində uzunluğu 160 sm idi. Qəbir kamerasından 15 ədəd ağ rəngli mineral daşdan hazırlanmış muncuq aşkar edilmişdir.

Torpaq qəbir №-14. Qəbir kamerasının üzərində çay daşları və bişmiş kərpic düzümü vardır. Bişmiş kərpiclər kameranın qərb tərəfinə düzülmüşdür. Qəbir kamerası şərq-qərb istiqamətində qazılmışdır. Kameraının uzunluğu 1 metr 60 sm, eni 60 sm-dir. Kamera üzərində aşkar edilən ağac qalıqları çürüntülərinə əsasən, mərhum kameraya qoyulduqdan sonra, kameranın üzərinin ağacla örtüldüyünü, daha sonra isə üzərinə çay daşları düzüldüyünü qeyd edə bilərik.

Mərhumun kamerada arxası üstə, ayaqları düz uzadılaraq, qolları nisbətən dirsəkdən bükülərək əlləri qarın nahiyəsində bir birinə birləşdirilmişdir. Sümüklər ciddi çürüməyə məruz qaldığından yaxşı saxlanılmamışdır. Qəbirdə dəfn edilən insanın yeniyetmə uşaq olduğunu söyləyə bilərik.

Qəbir kamerasının qərb tərəfinə, insan kəlləsinin yanına qoyulmuş kərpiclərin uzunluğu 40 sm, eni 25 sm, qalınlığı 10 sm-dir.

14 nömrəli qəbirin yanında, 105 sm cənub-şərq tərəfində bişmiş kərpiclər aşkar edildi. Kərpiclər üst-üstə 2 cərgə divar formasında düzülmüşdür.

Kərpiclərdən birinin uzunluğu 40 sm, eni-25 sm, qalınlığı 10 sm-dir. Digərinin uzunluğu 55 sm, eni 34 sm, qalınlığı 10 sm təşkil edirdi.

Torpaq qəbir №-15. Qəbir kamerasının üzərinə üst örtüyü kimi iri ölçülü çay daşı düzülmüşdür. Daş düzümünün ölçüləri, şimal-cənub istiqamətində 115 sm, şərq-qərb istiqamətundə 85 sm təşkil edirdi. Kamera təmizlənərkən, o daşların alt hissəsindən qərbə tərəf xeyli böyüdü. Belə ki, daşlar qəbir kamerasının üzərinə deyil şərq tərəfinə qoyulmuşdur. Qəbir kamerasının uzunluq istiqaməti şimal-cənub istiqamətindədir. Bu istiqamətdə uzunluğu 1metr 65 sm, şərq-qərb istiqamətində eni 1 metr 20 sm-dir. Qəbir kamerası uzunsov, oval formadadır.

Qəbirdə insanın parçalanaraq və ya bizə məlum olmayan səbəbdən anatomik vəziyyəti dağınıq halda dəfn edildiyini söyləyə bilərik. Belə ki, skeletin əsas hissəsi və alt çənə sümükləri qəbirin şimal tərəfində, kəllə və bir neçə ədəd xırda sümüklər isə, onlardan 50 sm aralıda, cənub tərəfdə dağınıq halda aşkar edilmişdir. Skeletin anatomik vəziyyəti tamam dağıldığı üçün, onun dəfn olunma forma və istiqamətini müəyyənləşdirmək mümkün olmadı.

Qəbir kamerasından xeyli miqdarda bəzək əşyaları aşkar edildi. Aşkar edilmiş maddi mədəniyyət nümunələrinə əsasən qəbirdə qadın dəfn edildiyi qənaətinə gəlinmişdir.

Kameranın şimal-şərq hissəsində, skeletın ayaq sümüyü yanından dəmir maqqaş və buta formasında muncuq düzümü aşkar edildi. Çox güman ki, muncuqlar buta formasında geyimin üzərinə düzülmüşdür. Parça çürüsə də muncuqlar öz düzüm formasını saxlamışdılar. Muncuqlar müxtəlif ölçülərdə və formada olmaqla yanaşı, ayrı-ayrı mineral daşlardan hazırlanmışdırlar. Aşkar edilmiş əqiq muncuqların bir neçəsinin üzərində bitki və müxtəlif həndəsi naxışlar həkk edilmişdir. Həmçinin xeyli sayda əqiq və pastadan hazırlanmış muncuqlara skeletin sinə nahiyyəsində rast gəlinmişdir. Bununla yanaşı qəbirdən 1 ədəd tunc üzük, bir ədəd dəmirdən hazırlanmış bıçaq tiyəsi, dəmir əşyanın hissələri və s. aşkar edildi.

Qəbir kamerasının cənub tərəfində, skeletin kəllə hissəsinin altında, çay daşından hazırlanmış, üst dən daşı, sürtgəc qoyulmuşdur. Dən daşının üst işlək hissəsi düz, əl tutan hissəsi isə ovaldır.

Torpaq qəbir №-16. Qəbir nekropolun cənub-şərq hissəsində yerləşir. Körpə uşağa aid qəbirdən, güclü cürüməyə məruz qalmış, xırda ölçülü sümüklər və skeletin cənub tərəfində isə bir

ədəd kiçik həcmli saxsı qab aşkar edildi. Kiçik ölçülü qəbir kamerasının şimal-cənub istiqamətində uzunluğu 70 sm, şərq-qərb istiqamətində eni 40 sm-dir.

Torpaq qəbir №-17. Qəbir kamerası nisbətən oval formada olmaqla, şimal-cənub istiqamətində qazılmışdır. Kameranın eni 60 sm, uzunluğu isə 90 sm idi. Kameradan aşkar edilmiş insan sümüklərini 7-9 yaşlı uşağa aid edə bilərik. Mərhum kamerada şimal-cənub istiqamətində, üzü şərqə dogru, sol yanı üstə dəfn edilmişdir. Dəfn zamanı mərhumun ayaqları dizdən qatlanaraq bədənə doğru qollar isə dirsəkdən bükülərək yanına qatlanmışdır. Skeletin bükülü, aşkar olunma vəziyyətində uzunluğu 70 sm idi. İnsan sümükləri güclü çürüməyə məruz qalaraq yaxşı saxlanılmamışdır.

Skeletin bilək sümüyü üzərində əqiq daşlardan hazırlanmış və üzərində müxtəlif təsvirlər həkk edilmiş muncuqlar, qarın nahiyəsində isə 1 ədəd gümüş sikkə, üç ədəd tunc üzük, tunc muncuqlar və dəmir əşya qalıqları aşkar edildi. Qəbir kamerasından, skeletin çanaq sümüyü yanından göy rəngli pastadan və müxtəlif mineral daşlardan hazırlanmış zəngin muncuq düzümü aşkar edildi. Muncuqlar kameraya qoyulma vəziyyətini saxlamaqla, düzümü pozulmamışdır. Bəzi muncuqların içərisində, onların düzüldüyü ip qalıqlarıda çürüməmiş qalmaqda idi. Bununla yanaşı qəbirdən 3 ədəd saxsı qab aşkar edildi. Onlardan bir ədədi iki qulplu küpə tipli, br ədədi bardaq tipli qablar, digəri isə üzəri mavi rənglə şirlənmiş çıraq idi.

Torpaq qəbir №-18. Qəbrin kamerası şimal-cənub istiqamətində qazılmışdır. Kameranın uzunluğu 1,7 m, eni 1,1 m-dir. Skelet parçalanmış vəziyyətdədir. Kameradan yaşa dolmuş insana məxsus sümüklər, anatomik vəziyyəti pozulmuş halda aşkar edildi. Bu səbəbdən mərhumun dəfn edilmə istiqaməti və kameraya qoyulma vəziyyətini müəyyənləşdirmək mümkün olmamışdı.

Qəbir kamerasından üzərində qaşı olan bir ədəd tunc üzük, bir ədəd şüşədən hazırlanmış kasa tipli qab (sınıq halda), iki ədəd üzərində salxım formalı pastadan qaşları olan tunc sırğa, dəmirdən və mineral daşlardan hazırlanmış muncuqlar aşkar edilmişdir.

Torpaq qəbir №-19. Qəbir kamerası nisbətən oval formada olmaqla, şimal-cənub istiqamətində qazılmışdır. Kameranın eni 50 sm, uzunluğu isə 80 sm idi. Kameradan aşkar edilmiş insan sümüklərini 7-8 yaşlı uşağa aid edə bilərik. Uşaq skeleti topa halında bir yerdə aşkar edildi. Güclü çürüməyə məruz qalmış, sümüklər yaxşı saxlanılmamışdır. Bu səbəbdən hətta mərhumun dəfn edilmə istiqaməti və kameraya qoyulma vəziyyətini müəyyənləşdirmək mümkün olmamışdı. Kameradan mineral daşlardan hazırlanmış bir neçə ədəd muncuq aşkar edildi.

Torpaq qəbir №-20. Üzəri torpaq örtüklü qəbir kamerası digər qəbirlərlə eyniyyət təşkil etməklə, nisbətən oval formada olmaqla, şimal-cənub istiqamətində qazılmışdır. Kameranın eni 70 sm, uzunluğu isə 1,1m idi. Kameradan aşkar edilmiş insan sümüklərini yeniyetmə gəncə aid edə bilərik. Mərhum kamerada sol yanı üstə, yarımbükülü vəziyyətdə dəfn edilmişdir. Dəfn zamanı mərhumun ayaqları dizdən qatlanaraq bədənə doğru qollar isə dirsəkdən bükülərək yanına qatlanmışdır. Skeletin anatomik quruluşuna və üzərindən aşkar edilən maddi mədəniyyət nümunələrinə əsasən onun qadına aid olduğunu ehtimal etmək olar. Skeletin boğaz, sinə və bilək nahiyyələrindən çoxsaylı, olduqca nəfis şəkildə, tuncdan, mineral daşlardan, pastadan və kauridən hazırlanmış muncuqlar, bir ədəd mineral daşdan qaşı olan tunc üzük aşkar edilmişdir.

Torpaq qəbir №-21. Qəbir kamerasının üzərində iri çay daşları düzümü vardı. Daş düzümünün diametri 1,5 metr, hündürlüyü 50 sm idi. Daş örtük təmizləndikdən sonra, uzunsov formalı kamera aşkar edildi. Kameranın eni 90 sm, uzunluğu 1,6 metr idi.

Qəbirdə bir nəfər yaşa dolmuş insan dəfn edilmişdir. Mərhum qəbirə bükülü vəziyyətdə sol yanı üstə, üzü şərqə doğru dəfn edilmişdir. Onun ayaqları dizdən bükülərək, bədənə doğru yığılmış, qolları isə dirsəkdən bükülərək, əlləri üzünə doğru qatlanmışdır. Aşkar edilmiş maddi mədəniyyət nümunələrinə əsasən, qəbirdə dəfn olunan insanın qadın olduğunu söyləyə bilərik.

Qəbir kamerasından iki ədəd bardaq tipli saxsı qab, bilək sümükləri üzərindən tuncdan hazırlanmış iki ədəd qolbağı, barmaq sümüklərində üç ədəd tunc üzüklər, sinə hissəsindən, tunc asma bəzəklər, zınqırovlar, iki ədəd tunc iynə, salxım formalı pastadan qaşları olan bir cüt tunc sırğa,

tuncdan, mineral daşlardan və pastadan hazırlanmış çoxsaylı muncuqlar aşkar edilmişdir.

Torpaq qəbir №-22. Torpaq örtüklü qəbirin uzunsov formalı kamerası vardı. Kameranın eni 90 sm, uzunluğu 1,9 metr idi. Qəbirdə nisbətən yaşa dolmuş insan dəfn edilmişdir. Lakin onun sümükləri güclü çürüməyə məruz qaldığından yaxşı saxlanılmamışdır.

Qəbir kamerasında mərhum dəfn edilərkən başı şərq, ayaqları qərb istiqamətində üzadılmışdır.

Kameradan üç ədəd saxsı qab, bir ədəd şüşə qabın fraqmentləri, bir ədəd kiçik ölçülü dəmir bıçaq tiyəsi aşkar edildi. Saxsı qablar, bir ədəd iri həcmli, şar gövdəli küpə tipli, bir ədəd süddan ağızlı bardaq tipli, bir ədəd isə kasa tipli qablarla təmsil olunmaqla skeletin ayağı yaxınlığına, şüşə qab fraqmentləri və dəmir bıçaq tiyəsi kəllə yanında qoyulmuşdur.

Torpaq qəbir №-23. Torpaq örtüklü qəbirin uzunsov formalı kamerası vardı. Kameranın eni 70 sm, uzunluğu 1,7 metr idi. Qəbirdə dəfn olunan insanın başı şimala doğru, ayaqları isə cənub istiqamətində uzadılmışdır. Aşkar edilmiş insan sümükləri tamamilə aşınmaya məruz qalaraq çürümüşdür. Bu səbəbdən yalnız kameranın bəzi yerlərində sümük izlərini müşahidə etmək mümkün olurdu. Odur ki, insanın qəbirdə dəfn olunma vəziyyəti müəyyən edilmədi.

Qəbirdən üç ədəd saxsı qab nümunəsi aşkar edildi. Onlardan bir ədədi, bardaq tipli saxsı qab, kameranın şimal hissəsindən, digər iki ədəd xeyrə tipli saxsı qablar isə kameranın cənub tərəfindən aşkar edilmişdir.

Torpaq qəbir №-24. Qəbir kamerası digər qəbirlərlə eyniyyət təşkil etməklə, üzəri torpaq örtüklüdür. Kamera oval formada olmaqla, şimal-şərq, cənub-qərb istiqamətində qazılmışdır. Kameranın eni 80 sm, uzunluğu isə 1,3 m idi. Kameradan aşkar edilmiş insan sümüklərini gənc qadına aid edə bilərik. Mərhum kamerada sol yanı üstə, yarımbükülü vəziyyətdə üzü cənub-şərqə doğru dəfn edilmişdir. Dəfn zamanı mərhumun ayaqları dizdən qatlanaraq bədənə doğru, qollar isə dirsəkdən bükülərək yanına qatlanmışdır. Skeletin başı yanında bir ədəd yastı çay daşı qoyulmuşdur Aşkar edilmiş insan sümükləri güclü aşınmaya məruz qalaraq çürümüşdür.

Qəbirdən iki ədəd tunc qolbağı, kəllənin qarşısından bir ədəd tunc düymə, kəllə üzərindən bir ədəd tuncdan hazırlanmış saç üçün sancaq, iki ədəd tuncdan hazırlanmış və uclarında mineral daşdan qaş asmaları olan sırğalar və kauri muncuqlar, xeyli sayda mineral daşdan və pastadan hazırlanmış muncuqlar aşkar edilmişdi.

Torpaq qəbir №-25. Üzəri torpaq örtüklü qəbir kamerası nisbətən oval formada olmaqla, şimal-cənub istiqamətində qazılmışdır. Kameranın eni 1,2 m, uzunluğu isə 1,5 m idi. Kameradan aşkar edilmiş skeleti nisbətən yaşa dolmuş insana aid edə bilərik. Mərhum kamerada şimal-cənub istiqamətində, üzü şərqə dogru, sol yanı üstə dəfn edilmişdir. Dəfn zamanı mərhumun ayaqları dizdən qatlanaraq bədənə doğru yığılmış, sol qolu düz vəziyyətdə bədənə paralel üzadılmış, sağ qolu isə dirsəkdən bükülərək əlləri üzünə doğru qatlanmışdır. Skeletin bükülü, aşkar olunma vəziyyətində uzunluğu 1,3 m idi. İnsan sümükləri nisbətən çürüməyə məruz qalsada digər qəbirlərə nisbətən yaxşı saxlanılmışdır.

Çərmədil nekropolundan aşkar edilmiş sikkələr.

Çərmədil nekropolunda aparılan arxeoloji tədqiqatlar zamanı üç nüsxə gümüş sikkə aşkar edilmişdir. Bu sikkələr ən erkəni Parfiya hökmdarı III Ərdəvanın (b.e. 10-38-ci illər), bir nusxə Sasani şahı I Firuzun (b.e. 459-484-ci illər) və bir nüsxə də I Qubadın (b.e. 488-496, 499-531-ci illər) adından zərb edilmiş draxmalardı.

Parfiya hökmdarı II Ərdəvana (10-38-ci illər) məxsus gümüş draxma 4 №-li küp qəbirdə, skeletin ağzının içindən aşkar edilmişdir.

Gümüş draxma. Ç=3.62 qr. D= 20 mm.

AV (Üz tərəfi). Nöqtəvari çərçivənin daxilində, II Ərdəvanın üzü sağa baxan təsviri verilib. Şahın uzun, daranmış düz saçları çiyinlərinə tökülüb. Alnını örtən diadema, başının arxasından bant şəklində düyünlənərək, kürək nahiyyəsinə uzanır. II Ərdəvanın arıq siması, iri alnı, uzun qaşları, iri gözləri, uzun buğları və səliqə ilə darnmış saqqalı aydın görünür. Boynunda iki halqavari boyunbağı verilib.

RV (Əks tərəfi). Sikkənin mərkəzində Parfiya dövlətinin banisi Arşakın (Ərsak) üzü sola , taxtda oturmuş təsviri verilib. Şahın sağ əlində, hakimiyyət rəmzi olan ox və yay təsvir edilib. Yayın altında, Arşakın dizlərinin qarşısında Atropatena (Ekbatanu) zərbxanasının monoqramması verilib. Şahın şəkilinin ətrafında, kvadrat formada yunan dilində əfsanə verilib.

2 №-li küp qəbirdə skeletin ayağının altından aşkar edilmiş ikinci sikkə sasani şahı Firuza məxsus, aşağı əyyarlı gümüş draxmadır.

Gümüş draxma. Ç=3,8 qr. D=29-31 mm.

AV(Üz tərəfi). Sikkənin mərkəzində şahın üzü sağa baxan təsviri verilib. Onun başında iki dişli, yuxarısında aypara və şar olan tac var. Tacın şarının üzərində ornamentli üç nöqtə var. Şahın alnının qarşısında aypara verilib. Şahın uzun, düyünlənmiş saqqalı və bığları, boynunun arxasında şar formalı yığılan sacları, qulaqlarından sallanan sırğaları, boynundan asılmış muncuqları aydın görünür. Şəkilin ətrafında pəhləvi əlifbası ilə “Firuz kavianid” (Firuz Şah) sözləri verilib.

RV(Əks tərəfi). Sikkənin mərkəzində atəşgahının təsviri verilib. Atəşgahın ətrafında silahlı gözətcilərin təsvirləri verilib. Atəşgahın solunda ulduz, sağında isə aypara təsvir edilib. Sikkənin solunda-“Firuz”sözü zərb edilib.

Firuzun hakimiyyət illərindən başlayaraq sasani draxmalarının reversində zərbxananın adı göstərilməyə başladı.

Aşkar edilən üçüncü sikkə sasani şahı I Qubada (b.e. 488-496, 499-531-ci illər) aid gümüş draxmadır.

Gümüş draxma. Ç=3,9 qr. D=32 mm.

AV(Üz tərəfi). Sikkənin mərkəzində, düzxəttli cərcivənin daxilində şahın üzü sağa baxan təsviri verilib. Onun başında papaq formalı iki dişli tac var. Tacın qarşısında ay-ulduz təsvir edilib. Təsvirin ətrafında “Kavad kavianid” (Qubad Şah) sözləri verilib. Düzxəttli çərçivənin sağında, solunda və aşağısında ay-ulduz, tacın yuxarısında şar formalı, dörd dilimli alov təsviri verilib.

RV(Əks tərəfi). Sikkənin mərkəzində atəşgahın təsviri verilib. Atəşgahın ətrafında üz-üzə dayanmış silahlı gözətcilərin təsvirləri verilib. Atəşgahın solunda ulduz, sağında isə aypara təsvir edilib.

Abidədə aparılan arxeoloji tədqiqatlar zamanı aşkar edilmiş maddi mənəviyyət nümunələri və numizmatik materiallar əsasında Çərmədil nekropolunu b.e. I-V əsrlərinə aid etmək olar.

Б.М.Джалилов, М.М.Гусейнов, А.А.Гулиев

ПОЗДНЕАНТИЧНЫЙ И РАННЕСРЕДНЕВЕКОВЫЙ НЕКРОПОЛЬ ЧАРМАДИЛ

РЕЗЮМЕ

Некрополь находится на территории Исмаиллинского района, в 500 метрах к югу от деревни Чармадил, на левом берегу реки Гирдыман. Некрополь расположен на относительно ровных вершинах невысоких холмов и занимает более 10-ти гектаров. Координаты памятника: 40º33'15.60'' - север, 48º11'20.20'' - восток.

В результате контрольных шурфов определено, что на некрополе имеются три типа погребений – курганы, грунтовые и кувшинные погребения.

В 2012 году исследованы 25 грунтовых, 8 кувшинных погребений и один курган. Из восьми кувшинных погребений шесть отличались богатым инвентарём и принадлежали мужчинам, одно принадлежало женщине и одно ребёнку.

В грунтовых погребениях захоронены, в основном, женщины. В погребениях обнаружены глиняные сосуды, оружие, разные виды украшений и монеты. Привлекают особое внимание украшения, в частности, золотые серьги, обнаруженные в кувшинном погребении №6.

Обнаружены материал, особенно нумизматический, позволяет датировать некрополь Чармадил I-V веками н.э.

B.M.Jalilov, M.M.Huseynov, A.A.Quliyev

LATE ANTIQUE AND EARLY MEDIEVAL NECROPOLIS CHARMADIL

SUMMARY

The necropolis is located in the Ismayilli, 500 meters south of the village Charmadil, on the left bank of the river Girdiman. The necropolis is located on relatively flat tops of the low hills and occupies more than 10 hectares of land. Coordinates of the monument: 40º33'15.60''-north, 48º11'20.20''-east.

As a result of the control delves, it was determined that in the necropolis there are three types of graves - kurgans, ground burials and pitcher burials.

In 2012, there were investigated 25 ground, 8 pitcher burial and one kurgan. Six of the eight pitcher burials differed by rich inventory and belonged to men, one belonged to woman and one belonged to child.

In the burial ground burials mostly were buried women. Pottery, weapons, different kinds of jewelry and coins were found in the burials. Jewelry, particularly gold earrings that were found in pitcher burial number 6 attract special attention. The found materials, especially numismatic materials allow us to date the necropolis Charmadil by I-V centuries AD.

I SANDIQTƏPƏDƏ TƏDQİQATLAR
(Quba rayonu)

M.C.Xəlilov, E.B.Cəfərova



Şəkil 1. I Sandıqtəpə yaşayış yeri.

2012-ci ildə əsas tədqiqat obyekti I Sandıqtəpə yaşayış yeri (Quba rayonu) olmuşdur. Bununla yanaşı VII Sandıqtəpədə ilk dəfə qazıntı işləri aparılmış, Qusar rayonu ərazisindəki Nadirtəpə, Quba rayonu ərazisindəki Ağbilbaba, Məscidtəpə yaşayış yerlərinə, habelə Söhüb kəndi yaxınlığındakı bürcə kəşfiyyat səfərləri edilmişdir.



Şəkil 2. Söhüb bürcü.



Şəkil 3. I Sandıqtəpə. Qazıntı sahəsi (IX-XI əsrlər təbəqəsi).



Şəkil 4. I Sandıqtəpə. Bişmiş kərpiclərdən qurulmuş ocaq (IX-XI əsrlər).



Şəkil 5. I Sandıqtəpə. Daş ehtiyatı toplanmış çala (VII-VIII əsrlər).


I Sandıqtəpədə qazılmış sonuncu sahə (128 m^2) əsaslı surətdə tədqiq edilmişdir. Məqsəd bu təpədə qazıntı işlərini başa çatdırmaqdan ibarət olmuşdur. 0,60 m dərinliyədək XI-XIII əsrlərə, 1,20 m dərinliyədək IX-XI əsrlərə, 1,20 m dərinlikdən başlayaraq IV-VIII əsrlərə aid mədəni təbəqələr öyrənilmişdir.

Mədəni təbəqələrin bir hissəsi əvvəllər köhnə xristian qəbirlərinin qazılması prosesində dağıdılmışdır.

IX-XIII əsrlərə aid mədəni qatlarda çay daşı və bişmiş kərpicdən inşa edilmiş, başlıca olaraq təsərrüfat təyinatlı tikili qalıqları aşkar edilmişdir. Bunların arasında yarımoval formada əyilmiş bina özüllərinə də təsadüf olunmuşdur. Belə tikililərin bəzilərinin döşəməsinə və binalar arası sahələrə bir neçə qat çınqıl (0,4-0,5 m) döşənmişdir. Adətən, özüldəki iri çay daşlarının arası nisbətən kiçik daşlarla doldurulmuş, bişmiş kərpicin özülə üfüqi oturması üçün buraya xırda yastı daşlar döşənmiş və beləliklə, özül hamarlanmışdır. Özüldə bərkidici vasitə kimi gil, bişmiş kərpiclərin arasında isə əhəng məhlullarından istifadə olunmuşdur. Tikinti işlərində istifadə olunmuş bişmiş kərpiclərin qalınlığı 4-8,5 sm, eni 11-14 sm, uzunluğu 18 sm-dir.

IX-XI əsrlərə aid qatda üzə çıxarılmış 8 tilli (oktaqon) ocağın inşasında istifadə olunan bişmiş kərpiclər daha iri ölçülüdür (25-28x12-16x5-7 sm). İçərisində kül qatının qeydə alındığı ocağın dərinliyi 20 sm, qarşı bucaqlar arasındakı məsafə 75 sm-dir. Üç yerdə bişmiş kərpiclərdən ocağın divarlarından xaricə doğru istiqamətlənmiş düzbucaqlı çıxıntılar hörülüb. Ocağın tikililər arasındakı açıq sahədə yerləşməsi güman etməyə əsas verir ki, ondan əsasən havaların quru keçdiyi yaz-yay mövsümlərində istifadə olunmuşdur. Quba-Xaçmaz bölgəsinin arxeoloji abidələrində bişmiş kərpicdən qurulmuş ocaqlar əvvəlki illərin tədqiqatlarından məlumdur. Adətən, bu tipli ocaqlar 4 və ya 6 kərpici dik qoymaqla düzəldilirdi (1, s. 110). Bişmiş kərpicdən qurulmuş ocaqlara Azərbaycanın bəzi digər abidələrində də təsadüf edilmişdir (8, s. 222). Lakin indiyədək Sandıqtəpədə belə bir ocaq aşkar olunmamışdı. Beləliklə, 8 kərpicdən inşa edilmiş, üç yerdə düzbucaqlı çıxıntısı olan ocaq nəinki Sandıqtəpədə, ümumiyyətlə, Quba-Xaçmaz bölgəsində yeganə nümunədir.

Orta əsr qatlarında yanmış torpaq sahələrinə qazıntının, demək olar ki, hər yerində təsadüf olunmuşdur.Yanıq yerləri XI-XIII əsrlər təbəqəsində 45-70 sm dərinliklərdə 25 sm qalınlığında, IX-XI əsrlər təbəqəsinin 0,70-1,20 m dərinliklərində müxtəlif səviyyələrdə 20-40 sm-dək qalınlıqda qeydə alınıb.



Şəkil 6. Epiqrafik naxışlı şirli saxsı qab parçası (XI-XIII əsrlər).



Şəkil 7. «Allah» sözü həkk edilmiş saxsı qab parçası (XI-XIII əsrlər).




Şəkil 8. Şirli saxsı qab (XI-XIII əsrlər).



Şəkil 10. I Sandıqtəpə. Basma qəlib naxışlı keramika (XI-XIII əsrlər).



Şəkil 9. I Sandıqtəpə. Sümük iy başlığı (IX-XI əsrlər).


Bakı-Quba-Rusiya ilə sərhəd
M1
Баку-Куба-Граница России
Bakı-Quba-Rusiya ilə sərhəd
M1
A
Quba Olimpiya Kompleksi
Diaqnostika Mərkəzi
4
2
3
2
2
SANDIQ TƏPƏ
Ağçay
1
5
6
7
8
N
0
100 m

I Sandıqtəpədə əvvəllər aparılmış qazıntı işlərindən məlumdur ki, burada ilk orta əsr təbəqəsinin qalınlığı 0,7-1,6 m-dir. Bu ilki sahə, ümumiyyətlə, 1,70 m dərinliyədək qazılıb öyrənilmişdir. Bunun 0,5 metri ilk orta əsr təbəqəsinin payına düşür. Hələlik ilk orta əsr təbəqəsinin tikililər olan hissəsinə çatmaq mümkün olmamışdır. Lakin burada diametri 4 m olan dairəvi çala aşkar edilmiş və çalanın içərisi təmizlənərkən buradan irili-xırdalı çoxlu miqdarda çay daşları üzə çıxarılmışdır. Həmin daşların bir hissəsini qıraraq onlara dördkünc daş kərpic forması verilmişdir. Belə formalı daşlardan binaların divarlarının hörgüsündə istifadə edilməsi şübhəsizdir. Çaladan tapılmış bir ədəd bişmiş kərpic parçası xüsusi maraq doğurur. Belə ki, kərpicin bir üzü hamarlanmış və onun səthində paralel xətlər cızılmışdır. Belə kərpiclərdən ilk orta əsrlərdə divarların üzlənilməsi məqsədi ilə istifadə olunmuşdur. Çala hələlik tam təmizlənmədiyi üçün onun dərinliyini dəqiqləşdirmək mümkün olmamışdır. Qeyd etmək lazımdır ki, əvvəlki mövsümlərdə I Sandıqtəpədə iki belə çala üzə çıxarılmışdı (4, s. 119). Bu çala dairəvi forması və diametrinə görə əvvəlki oval çalalardan fərqlənir. Belə çalalardakı daşların müdafiə və tikinti məqsədləri üçün toplanmış ehtiyat olduğu güman edilir (4, s. 119). Beləliklə, **I Sandıqtəpənin bütün səthində orta əsr təbəqələrinin öyrənilməsi başa çatdırılmışdır.** İlk orta əsr təbəqəsinin tədqiqinin yekunlaşdırılması isə növbəti çöl mövsümündə həyata keçiriləcəkdir.

Qazıntı sahəsindən aşkar edilmiş arxeoloji materialların böyük əksəriyyətini dulus çarxında formalaşdırılmış şirli (monoxrom və polixrom) və şirsiz keramika nümunələri təşkil edir. Orta əsrlərə aid keramika nümunələrinin gili əsasən müxtəlif çalarlı qəhvəyi rənglidir. Lakin XI-XIII əsrlərə aid mədəni təbəqədə nisbətən az miqdarda qonur, qara, boz və habelə tünd boz rəngli gilə malik tapıntılar da qeydə alınmışdır. Gilin tərkibi təmiz və qatışıqlı olmaqla müxtəlif səviyyəli keyfiyyətə malikdir. Eyni sözləri bişirilmə səviyyəsinə də aid etmək olar.

Şirli saxsı məmulatı hazırlanarkən müxtəlif çalarlı qəhvəyi, yaşıl, göy, ağ, sarı, qara şirlərdən istifadə olunmuş, lakin yaşıl şirə daha çox üstünlük verilmişdir. Şirli keramika nümunələri arasında halqavari və qabarıq dairəvi oturacağa malik boşqab parçaları üstünlük təşkil edir. Onların səthini başlıca olaraq həndəsi (dama, spiral, üçbucaq və s.) və habelə nəbati naxışlar bəzəyir. Şirlə çəkilmiş epiqrafik naxışlar da qeydə alınmışdır. Naxışlardan IX-XI əsrlərə aid sxematik ağac təsviri də qeyd edilə bilər. Şirli saxsı məmulatı sırasına digər formalı bəzi qab nümunələri də daxildir. IX-XI əsrlərə aid belə qablardan birindən qopmuş, şaquli istiqamətdə, yan-yana birləşdirilmiş iki gil çubuqdan ibarət yaşıl şirli qulp maraq doğurur. Bu tip qulpun IX-X əsrlərə aid analoquna Səlbirdə (Qəbələdə) təsadüf edilmişdir (5, s. 95). XI-XIII əsrlərə aid şirli qab parçasında açılmış deşik həmin dövrdə Sandıqtəpədə keramika məmulatının təmiri işlərinin aparıldığını göstərir.

Orta əsrlərə aid şirsiz saxsı məmulatı əsasən küp, küpə, bardaq qırıqlarından ibarətdir. Parçalardan göründüyü kimi, bardaqlar yuxarısı qıf formalı və ya bütünlüklə düz borunu xatırladan dar, uzun boğaza malik olmuşlar. Bardaqların ağızı ya boğazın davamı kimi çıxış etmiş, ya da aşağıya doğru qatlanmış qabarıq forması ilə boğazdan fərqləndirilmişdir. Bardaqların şaquli bənd edilmiş qulpları en kəsiyi oval, habelə yastı formalıdır. Bəzi digər qab nümunələrindən qopmuş, həmin qablara üfüqi istiqamətdə bənd edilmiş qulplar da qeydə alınmışdır. Bunlar bir yerə bənd olunan yarımoval, dördkünc monolit çıxıntılarla yanaşı, barmaq keçirmək üçün dəliyi olan üçbucaq formalı və habelə yarımoval formada əyilərək iki ucu ilə qaba bənd edilmiş gil çubuq qulplardır. Bu tiplərə aid qulplu qablara Quba-Xaçmaz bölgəsindəki digər orta əsr abidələrində də təsadüf edilmişdir. Belə ki, məsələn, üçbucaqlı qulpa malik keramika nümunələri Talabı (Quba rayonu), Şabran abidələrində üzə çıxarılmışdır (11, s. 59, tab. VI, 4, VIII, 2, 3; 12, tab. IV, 11, 14). Belə keramika məmulatının aşkar edildiyi və Sandıqtəpədən çox uzaqda yerləşən abidələr sırasında Şəmkir şəhər yeri qeyd oluna bilər (7, s. 102). İstər bardaq, istərsə də digər qabların qulplarının müxtəlif yerlərində bir və bir neçə oval batıq müşahidə olunur. Yerindən və sayından asılı olaraq bunlar ya barmaq üçün nəzərdə tutulmuş adi çuxur, ya da naxışdır.

Şirsiz saxsı qabların ağız, boğaz və çiyin sahələrində üfüqi, şaquli, köndələn istiqamətlərdə cızılmış və ya qabardılmış düz, dalğavari xəttlərdən, nöqtələrdən ibarət “buğda”, “hörük”, “zəncir”, həndəsi naxışlar vardır. Parallel xəttli naxışların bir qisminin 3-12 dişli xüsusi alətlə cızıldığı aydın müşahidə olunur. Orta əsr şirsiz keramika məmulatı arasında buta, dairə, nöqtə və xəttlərdən ibarət


basma-qəlib naxışlı qab parçası (XI-XIII əsrlər) xüsusi qeyd edilməlidir. Onun gilinin rəngi sarıdır. Bu fraqment qabın çiyin sahəsindən qopmuşdur. Əvvəllər I Sandıqtəpədən aşkar edilmiş yalnız bir basma naxışlı keramika nümunəsi məlum idi (1, s. 159-160). Bu il aşkar olunan keramika fraqmenti naxışlarına görə həmin tapıntıdan fərqlənir və daha çox Beyləqanın basma naxışlı keramika nümunələrindən birinə oxşayır (2, s. 139, tablo XXI, 8).



Şəkil 11. I Sandıqtəpə. Saxsı qab (IX-XI əsrlər).



Şəkil 12. I Sandıqtəpə. Saxsı çıraq (VII-VIII əsrlər).



Şəkil 14. I Sandıqtəpə. Saxsı iy başlığı (VII-VIII əsrlər).



Şəkil 13. I Sandıqtəpə. Bişmiş dekorativ üzlük kərpic (VII-VIII əsrlər).



Şəkil 15. I Sandıqtəpə. Tunc bəzək əşyası (VII-VIII əsrlər).

Bundan başqa üzərində ərəb hərfləri ilə "Allah" sözü və ərəb hərflərini xatırladan işarələr cızılmış saxsı parçaları (XI-XIII əsrlər), kannelür naxışlı qab qırıqları da maraq doğurur. İlk orta əsrlərin şaquli və enli kannelür naxışlarından fərqli olaraq IX-XIII əsrlərdə qabların üzərində, əsasən üfüqi istiqamətli, daha dar və sıx kannelür naxışları cızılmışdır. Əgər ilk orta əsrlərdə bu naxış əsasən orta və kiçik həcmli saxsı qabların səthinə həkk edilirdisə, orta əsrlərdə kannelür naxış başlıca olaraq qalın divarlı, iri tutumlu keramika nümunələrinin səthini bəzəmişdir. Kannelürlərin qabların yalnız üst səthlərində deyil, həm də görünməyən iç səthində qeydə alınması belə güman etməyə əsas vermişdir ki, bu şırımlar naxış olmaqla bərabər, saxsının keyfiyyətinin artırılmasına xidmət etmişlər (3, s. 211). Ümumiyyətlə, həm kannelür, həm də bəzi digər naxışlar ilk və inkişaf etmiş orta əsrlər ərzində naxışlanma ənənəsinin varisliyini, onun davam etdirildiyini göstərir. Belə bir hal Şimali Qafqazda da müşahidə olunmuşdur. Burada saxsı məmulatı üzərində kannelür naxışlar XII əsrədək həkk edilmişdir (9, s. 273, tab. 94). Şirsiz qabların bəzilərinin səthi sadəcə şüyrələnmiş, müəyyən nümunələrin səthində isə bu üsulla bəsit həndəsi naxışlar cızılmışdır.

Saxsı məmulatı arasında şirli və şirsiz qapaqlara, kiçik parçaları çatmayan bütöv qablara da təsadüf olunmuşdur. XI-XIII əsrlərə aid, ağzı qırılmış belə qablardan biri yaşıl şirlə örtülmüşdür. IX-XI əsrlərə aid, boğazı qopmuş şirsiz bardağa oxşar nümunə Quba-Xaçmaz bölgəsində Çinartala (Xaçmaz rayonu) abidəsindən məlumdur (10, s. 79-80). Bu tip bardaqlar Səlbirdən (Qəbələ) və digər abidələrdən də üzə çıxarılmışdır (5, s. 128-129).

Orta əsrlərə aid az miqdarda daş və sümük məmulatı aşkar edilmişdir. Bunlar bülöv daşlarından, kirkirə parçalarından, habelə sümükdən (epifiz) hazırlanmış yarımkürə formalı iy başlığından ibarətdir. Qazıntı sahəsində bir neçə mal kəlləsinin buynuzlu hissələri qeydə alınmışdır.

Təbəqə axıradək qazılmadığı üçün İlk orta əsr materialları nisbətən azdır. Bunlar əsasən əldə formalaşdırılmış keramikadan və bir ədəd metal sırğadan ibarətdir. Keramika nümunələri arasında bütöv halda aşkar edilmiş çıraq, habelə bir-birinə sarmaşmış iki gil çubuqdan ibarət qulp parçası, qapaq qoymaq üçün xüsusi açılmış gəzi olan küp fraqmenti ayrıca qeyd oluna bilər. Saxsı qab qırıqlarının üzərində cızılmış xəttlərdən ibarət müxtəlif həndəsi naxışlar üstünlük təşkil edir. Qabların bəzəkləri arasında bardağın ağızının kənarlarına yapılmış və ilk orta əsrlər üçün xarakterik olan qabarıq düyməcikləri qeyd etmək olar. Bundan başqa gildən hazırlanmış kiçik diametrli, yastı, dairəvi iy başlığı da maraq doğurur.

Bu il VII Sandıqtəpənin dövrünü və xarakterini müəyyənləşdirmək üçün 75 m^2 sahədə arxeoloji qazıntı işlərinə başlanıldı. Qeyd etmək lazımdır ki, 2011-ci ildə ekspedisiya Sandıqtəpədə işlərini başa vurub Bakıya qayıtdıqdan sonra təpədə "qızılaxtaranlar" dərin bir çala qazmışlar. VII Sandıqtəpə uzunsov formaya malik olub üst səthinin sahəsi 800 m^2 (40 x 20 m) -dir. Təpənin hündürlüyü qərb tərəfdən 25 m, cənubdan 40 m-dir. Qazıntı sahəsinin şərq və cənub divarlarının küncündə, 0,35 m dərinlikdə çay daşlarından inşa edilmiş divar qalığı üzə çıxarıldı. Divarın eni 60 sm, qazıntı sahəsindəki hissəsinin uzunluğu 1,80 m, hündürlüyü 25 sm olub, üst-üstə 1-2 sıra yastı çay daşlarından və bərkidici gil məhlulundan inşa edilmişdir. Divar qazıntı sahəsindən şərq və cənub tərəflərə də girir. Buradan belə nəticəyə gəlmək olur ki, tikilinin əsas hissələri həmin istiqamətlərə doğru davam etmişdir. Tapıntılar əldə formalaşdırılmış, gilinin rəngi qəhvəyi olan qablardan qopmuş bir neçə parçadan ibarətdir. Bunlar abidənin dövrünün müəyyənləşdirilməsi üçün kifayət deyildir. Qazıntı işləri 0,6 m dərinliyədək aparılmış və vaxt məhdudiyyəti nəzərə alınmaqla müvəqqəti dayandırılmışdır, yalnız gələcək tədqiqatlar bu məsələyə aydınlıq gətirə bilər. Hələlik, güman etmək olar ki, VII Sandıqtəpədə yaşayış yeri mövcud olmuşdur.

Kəşfiyyat xarakterli tədqiqatlar da müəyyən nəticələrin əldə olunmasına gətirib çıxardı. Məlum oldu ki, IV-XIII əsrlərə aid Məscidtəpənin (Quba rayonu) üstündə, köhnə məscidin bünövrəsinin yerində təzə məscid binası tikilmişdir. Bu hal gələcəkdə abidədə geniş miqyaslı arxeoloji qazıntı işlərinin aparılmasını xeyli dərəcədə çətinləşdirmişdir. XI-XIII əsrlərə aid Nadirtəpə abidəsinin (Qusar rayonu) yerləşdiyi təpənin mərkəzində "qızılaxtaranlar" dərin bir quyu qazaraq mədəni təbəqənin bir hissəsini məhv etmişlər.

Müşahidə etdiyimiz yaşayış yerlərindən yalnız orta əsr Ağbilbaba yaşayış yerinin (Quba rayonu) qorunma səviyyəsi yaxşıdır. Bunun əsas səbəbi yaxınlıqda pir və türbələrin yerləşməsidir. Cari ildə Söhüb bürcünə (Quba rayonu) qalxmaqla əsasən vizual tədqiqatlar aparılmışdır. Qeyd etmək lazımdır ki, bürcün içindəki qalın torpaq qalağı burada televiziya qülləsi quraşdırılarkən xeyli dərəcədə qazılmış və beləliklə, mədəni təbəqə müəyyən qədər məhv edilmişdir. Sonralar həmin televiziya qülləsi bürcün üstündən götürülmüşdür. Yerli sakinlərin dediklərinə görə, bürcün içi qazılarkən çoxlu kül topaları, kömür qırıntıları, heyvan sümük parçaları üzə çıxarılmışdır. Onların verdiyi məlumata görə, bu abidə od yandırmaqla müəyyən bir yerə xəbər ötürmək üçün nəzərdə tutulmuş işarə qülləsi olmuşdur. Söhüb bürcünün zərdüştçülərin ölünü qoymaq üçün nəzərdə tutulmuş daxma tipli abidələrlə heç bir əlaqəsi yoxdur (6, s. 1027). Söhüb bürcünün dövrünə gəldikdə isə yerli əhali bunu Quba xanlığı dövrünə aid edir. Yalnız arxeoloji qazıntı işləri nəticəsində bürcün xronologiyası dəqiq müəyyənləşdirilə bilər.

Müşahidələr göstərir ki, gələcək çöl tədqiqat mövsümlərində bölgədə stasionar qazıntı işləri ilə yanaşı əvvəllər qeydə alınmış abidələrin qorunma vəziyyətinin aydınlaşdırılması üçün kəşfiyyat işlərinin aparılması da çox zəruridir.

ƏDƏBİYYAT

1. Dostiyev T. Şimal-Şərqi Azərbaycan IX-XV əsrlərdə (Quba-Xaçmaz bölgəsinin materialları əsasında tarixi-arxeoloji tədqiqat). Bakı, 2001.
2. Əhmədov Q.M. Azərbaycanın şirsiz saxsı məmulatı (Örənqala qazıntılarının IX-XIII əsr materialları əsasında). Bakı, 1959.
3. Xəlilov M.C. Quba və Qusar rayonları ərazisində tədqiqatlar / Azərbaycanda arxeoloji tədqiqatlar-2009. Bakı, 2010, s. 210-215.
4. Xəlilov M.C. Albaniyanın yaşayış yerləri (IV-X əsrlər). Bakı, 2010.
5. Qəbələ arxeoloji ekspedisiyası. 2005-2010. Tapıntılar. Bakı, 2011.
6. Quliyev H. Qonaqkənd rayonu Söhüb kəndində olan bürclər haqqında // Azərbaycan SSR EA Məruzələri, XVI cild, № 10, 1960, s. 1023-1027.
7. Orta əsr Şəmkir şəhər yeri. Şəmkir arxeoloji ekspedisiyasının tədqiqatları. Üçüncü buraxılış. 2009. Bakı, 2010.
8. Şəmkir arxeoloji ekspedisiyası. 2006-2008. Bakı, 2009.
9. Археология СССР. Степи Евразии в эпоху средневековья. Москва, 1981.
10. Мусаев Д. Результаты раскопок на поселении Чинартала в 2010 г. (Хачмазский район) / Археологические исследования в Азербайджане-2010. Баку, 2011, с. 79-84.
11. Халилов Дж.А., Кошкарлы К.О., Аразова Р.Б. Археологические памятники Северо-Восточного Азербайджана. Баку, 1991.
12. Халилов Дж.А., Кошкарлы К.О., Ахундов Т.И., Алиев Т.Р. Разведочные исследования на городище Шабран / Материальная культура Азербайджана, том XI. Баку, 1993, с. 68-79.

М.Дж.Халилов, Э.Б.Джафарова

ИССЛЕДОВАНИЕ ПАМЯТНИКА САНДЫГТЕПЕ I

РЕЗЮМЕ

В 2012 году Губа-Хачмазская экспедиция продолжила археологическое изучение холмов, входящих в общий комплекс памятников Сандыгтепе. В текущем сезоне основным объектом исследования был памятник Сандыгтепе I. Наряду с этим, впервые проведены раскопки на Сандыгтепе VII.

На Сандыгтепе I был выбран последний, неисследованный участок (128 м^2) на поверхности холма. Раскопочные работы доведены до глубины 1,70 м. Полностью завершилось изучение средневековых культурных слоев Сандыгтепе I (IX-XIII вв.).

На раскопанном участке выявлены остатки строений хозяйственного назначения, в сооружении которых использован булыжник, обожженный кирпич, глиняный и известковый растворы. Обращают на себя внимание изогнутые, овальной формы строения, а также восьмигранный очаг из обожженного кирпича (IX-XI вв.).

В нижнем, раннесредневековом слое (IV-VIII вв.), выявлена круглая яма диаметром 4 м, наполненная в основном булыжником. Среди них имеются также камни, тесанные в виде строительного кубика, очевидно, предназначенные для кладки. Привлекает внимание также фрагмент облицовочного обожженного кирпича с различными параллельными линиями на лицевой поверхности.

Подавляющее большинство археологического материала составляет поливная и неполивная керамика. Зафиксированы также средневековые каменные, костяные изделия, а также раннесредневековое металлическое украшение. В поливной керамике преобладает зеленая глазурь. Среди керамических изделий XI-XIII вв. можно отметить фрагмент штампованной керамики, а также черепок, на поверхности которого арабскими буквами выгравировано слово "Аллах".

В Сандыгтепе VII, в юго-восточном углу раскопа (площадь 75 м^2, глубина 0,60 м), обнаружена часть фундамента строения, сооруженного из булыжника на глиняном растворе. В дальнейшем планируется расширить раскоп с целью выявления остальных частей этого фундамента и установления точной хронологии данного памятника.

Наряду со стационарными раскопками экспедиция, для проверки состояния археологических памятников, провела разведочные работы на территории Губинского и Гусарского районов.

M.J.Khalilov, E.B.Jafarova

THE STUDY OF THE MONUMENT SANDYGTEPE I

SUMMARY

In 2012 Quba-Khachmaz expedition continued archaeological study of the hills, in the overall complex of monuments Sandygtepe.This season, the main object of the study was Sandygtepe I monument.Along with this first excavated by Sandygtepe VII.

On Sandygtepe I was selected last unexplored area (128 m^2) on superficiality hill. The excavations were carried out to a depth of 1.70 m full investigation of medieval cultural layers Sandygtepe I (IX-XIII cc.).

Excavated at the site revealed the remains of structures of economic purpose, which appears in the construction of rubble, burnt bricks, clay and mortar. Emphasis is placed on curved oval shape of the structure, and the eight-sided fireplace, built of baked bricks (IX-XI cc.).

The bottom layer of the early medieval (IV-VIII cc.) Revealed a round hole with a diameter of 4 m, filled with mostly rocks. Among them, there are also stones, hewn in the form of building blocks, apparently intended for masonry. Also focuses attention on the fragment facing, baked brick with different parallel lines carved on the front surface.

The vast majority of archaeological materials glazed and unglazed ceramik. Recorded in a number of medieval stone, bone artifacts, and early medieval metal ornament. In glazed ceramics dominates green glaze. Among the ceramic XI-XIII centuries. mentioned piece stamped pottery shard and the surface of which is engraved in Arabic letters the word "Allah".

In Sandygtepe VII, in the south-eastern corner of the excavation area (area of 75 m^2, depth 0.60 m) was found part of the foundation of the structure, built of rubble with clay mortar. In future extend excavation to identify the rest of this foundation and establish the exact chronology of the monument.

Along with stationary digging expedition to check the status of monuments archaeological monument realization find out on the territory of the Quba and Qusar areas.

GÜLÜSTAN QALASINDA APARILAN TƏDQİQATLAR
(Şamaxı rayonu)

A.A.Quliyev




Gülüstan qalası. Narınqala.

2012-ci ilin iyun-avqust aylarında AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Şamaxı-Ağsu arxeoloji ekspedisiyası Gülüstan qalasında tədqiqatları davam etdirmişdir. Bu il aparılan arxeoloji işlər hər biri 100 m^2 olmaqla daha üc kvadratda aparılmışdır. Ümumilikdə, qazıntı sahəsi 600 m^2 ərazini əhatə etmişdir.



Gülüstan qalası. Qazıntı sahəsinin ümumi görünüşü.



Gülüstan qalası. Qazıntı sahəsinin planı.

IV kvadratda üst təbəqədən coxlu sayda şirli və şirsiz qab (bardaq, kiçik küp, dolca, vaza, nimcə, kasa) fraqmentləri, şüşə qab qırıqları, heyvan və insan sümükləri, nal və mıxlar, hörgü daşları və s. aşkarlanmışdır. Tədqiqat zamanı, 0,5 m. dərinlikdə, şımal-şərq və cənub-qərb istiqamətində uzanan, eni 2.5 m. olan hörgü aşkara cıxarıldı. Əhənğ daşlarından gəc məhlulu ilə hörülmüş divar, 90 dərəcə bucaq altında sınaraq, şimal-şərq istiqamətində davam edir. Burada hörgünün eni 3 m. təşkil edir. Hörgünün bayır divarı sıldırım qaya üzərində uzanaraq, dərədən çıxan cığırın qarşısını kəsir. Şimal-şərq istiqamətində, 1m dərinlikdə divar hər iki tərəfdən üz daşları ilə hörülmüşdür. Cənub-qərb tərəfdə üz daşlarının çoxu tökülmüşdir.

Burada aparılan qazıntılar zamanı 1m dərinlikdən iki qəbir aşkar edilmişdir. Yonulmuş daşdan hazırlanmış baş daşlarının üzərində olan epitafiyalar pozulmuşdur. Skeletlər qəbir kamerasında üzü cənub-qərb istiqamətində, müsəlman ənənəsinə uyğun dəfn edilmişdir. Skeletlərdən biri orta yaşlı qadına, digəri isə cavan kişiyə məxsus idi. Hər iki skeletlər tökülmüş divar daşların ağırlığından əzilmişdir.

IV kvadratdan iki təndir aşkar edildi. Təndirlərin diametri 0,8 m. təşkil edirdi. Təndirin içərisi təmizlənərkən buradan 6 mis sikkə aşkar edildi. Sikkələr təmizləndikdən sonra məlum oldu ki, onlardan dördü Şamaxıda, ikisi isə Gülüstan qalasında zərb edilmiş, XIII əsrə aid anonim felslərdir.

V kvadratda qazıntı işləri zamanı IV kvadratda aşkar edilmiş hörgünün davamı aşkar edildi. Bu kvadratda hörgünün üz daşları tamamilə tökülmüşdir. Hörgü uzanaraq VI kvadrata kecirdi. Bu kvadrat

daha çox dağıntıya məruz qalmışdır. Kül və yanmış daş hissələrinin içərisindən çoxlu sayda saxsı və şüşə qab fraqmentləri, şüşə qolbağların qırıqları, ox və nizə ucluqları, təbərzin, bıcaq və ülgüc hissələri, at əsləhəsi və əmək alətlərinin fraqmentləri aşkar edilmişdir. **V kvadratın** cənub hissəsindən, 0,6 m. dərinlikdən iri təsərrüfat küpü aşkar edildi. Küpün ağız hissəsi daşların ağırlığından qırılaraq içərisinə tökülmüşdir. Bu kvadratda hörgünün dərinliyi 1.5 m.təşkil edirdi.

VI kvadratda aparılan qazıntı işləri zamanı IV-V kvadratlarda müşahidə edilən hörgünün davamı aşkarlandı. Əvvəlki kvadratlardan fərqli olaraq, bu kvadratda hörgü daha yaxşı qalmışdır. Hörgünün üst hissəsi şimal-qərb istiqamətində əyilərək, tağ forması alır. Yuxarıda üz daşlarının çox hissəsi salamat qalmışdır. Aşağı hissədə hörgünün üzərində olan suvaqların bir hissəsi salamat qalmışdır. Hörgünün cənub-şərq hissəsində su xətti aşkara çıxarıldı. Bir-birinə gəc məhlulu vasitəsi ilə bərkidilmiş su tüngləri Narınqalanın cənubu ilə, qərb itiqamətində uzanaraq, Meysəri kəndi istiqamətinə gedir. Su xəttinin dərinliyi bəzi yerlərdə 0,2-0,4 m. təşkil edir. Memarlıq baxımından, aşkar edilmiş tikilinin saray hamamının qalıqları olması etimalı yaradır.



Gülüstan qalası. IV qazıntı sahəsində tikili qalıqları.

Tikililərin yuxarı hissəsində qaya daşları uzərində yonulmuş su ötürücüləri, kicik hovuzlar aşkar edilmişdir. Bu kvadratdan da, iki orta ölcülü təndir aşkar edildi. Təndirlərin tüstü ötürü küflələrii su tünglərindən düzəldilmişdir. Təndirlərin icərisindən əvvəlki kvadratlarda olduğu kimi, 11 mis sikkə aşkar edilmişdir. XIII-XIV əsrlərə aid bu sikkələrin beşı Şamaxı, ücü Şabran, ikisi Qəbələ, biri Gülüstan zərbxanasında buraxılmışdır.

Bundan başqa qazıntı zamanı üzərində küfi xətti ilə yazi olan daş kitabə aşkara çıxarıldı. VI kvadratın cənub hissəsindən əl dəyirmanın alt hissəsi aşkar edildi.

Silahlar: Tədqiqat zamanı V və VI kvadratlardan 5 ədəd dəmir ox və iki ədəd nizə ucluqları, döyüş baltası, xəncər, qılınc, bıçaq tiyələrinin fraqmentləri və üç ədəd daş top mərmisi aşkar edilmişdir. Ox ucluqları yarpaqvari və uçbucaq formalıdır.

Əmək alətləri: Qazıntı sahəsindən müxtəlif əmək alətlərinin hissələri; bıçaqlar, baltalar, bizlər, üsküklər, qayçılar, dəhrələr, daraqlar, dəyirman daşları, at və qatır nalları, dulus çarxı, ağac kotan və s. aşkar edilmişdir.

Bəzək əşyaları: Tədqiqat zamanı pastadan qaşı olan tunc sırğa, üzərində cızma naxış olan mis üzük, çoxlu sayda şüşə qolbaqlar, tunc, şüşə və sümükdən hazırlanmış üzüklər, sümükdən hazırlanmış və üzərində işləmələr olan müxtəlif bəzək əşyaları, pasta muncuqlar, asmalar və s. aşkara çıxarılmışdır.

Saxsı qablar: IV, V və VI kvadratlarda aparılan qazıntı işləri zamanı müxtəlif formalı şirli və şirsiz qab fraqmentləri aşkar edilmişdir. Kasa, vaza, nimçə, bardaq formalı şirli qabların üzərində nəfis nəbati, həndəsi və epiqrafik naxışlar, heyvan, quş və balıq təsvirləri var idi. Şirli qablar əsasən göy, mavi, qəhvəyi, sarı və yaşıl rənglərlə boyanmışdır. Onların üzərində kufi, nəstəli və süls xətti ilə olan yazılar var. Qazıntı sahəsindən yerli məhsullarla yanaşı Çin istehsalı olan qabların fraqmentlərinə də rast gəlindi.



Gülüstan qalası. Çıraqlar.

Şirsiz qablar əsas etibari ilə iri təsərrüfat küpləri, qazanlar, bardaq, lüləkli və dopu tipli qabların fraqmentlərindən ibarətdir. Əsasən boz və narıncı rəngdə olan saxsılarla yanaşı, qara cilalı miniatür qablara və qazanlara da rast gəlinirdi. Qazıntı zamanı boz və narıncı rənğli, üzərində cızma naxışları olan keramika nümunələrinə də təsadüf edildi. Bu tip qabların üzərində mürəkkəb formalı nəbati və həndəsi cizgilər var idi.

Su tüngləri: Qeyd edildiyi kimi, tədqiqat zamanı VI kvadratdan su xətti aşkar edilmişdir. Sınmış vəziyyətdə olan su tüngləri uzunluğu 35-40 sm., diametri ağız hissədə 8 sm., arxa tərəfdə 14 sm. təşkil edir. Su tüngləri gəc məhlulu vasitəsi ilə bir-birinə bərkidilmiş, onların yan və üst hissələri yastı formalı daşlarla örtülmüşdir. Çökmüş daşların ağırlığından su tünglərinin bir hissəsi yararsız vəziyyətə gəlmişdir.

Təndirlər: Tədqiqatlar zamanı V və VI kvadratlardan 3 ədəd təndir aşkar edilmişdir. Kiçik ölçülü bu təndirlərin üst hissəsi dağılmışdır. Təndirlərin içərisindən mis sikkələr, saxsı parçaları, heyvan, quş və balıq sümükləri, dəmir mıxlar aşkar edilmişdir. Təndirlərin külfürəngisi müxtəlif formalı su tünglərindən düzəldilmişdir və əsasən cənub istiqamətində qoyulmuşdur.

Kitabələr: VI kvadratından üzərindəki epitafiyası pozulmuş baş daşının fraqmenti aşkar edilmişdir. Bundan başqa üzərində kufi yazısı olan, daş kitabə aşkar edildı.

Kaşılar: V və VI kvadratlardan romb və kvadrat formalı, mavi və firuzəyi rəngli kaşılar aşkar edilmişdir. Bu kaşılar cox güman ki, hamamın divarlarını bəzəyirmişlər.

Sikkələr: Qazıntı sahəsindən çoxlu sayda gümüş və mis sikkələr aşkara çıxarılmışdır. Bu sikkələr arasında Şamaxı, Gülüstan, Qəbələ və Dərbənd zərbxanalarında ərəb, şirvanşah, səlcuq, monqol, hulaki, cəlairi, teymuri, qaraqoyunlu və səfəvi hökmdarlarının adından zərb edilmiş dirhəm və felsləri var. Aşkar edilmiş sikkələr əsasən XII-XVI əsrləri əhatə edir.

Aşkar edilmiş sikkələrin ən qədimi abbasilər dövründə zərb edilmiş, mis felsdir. Sikkənin üzərindəki yazılar pozulduğundan onun zərb ilini və zərb yerini təyin etmək mümkün olmadı.

V kvadratdan Ali monqol xaqanlığı dövründə Şamaxıda zərb edilmiş, aversində "Kaan əl-Adil" və üc dişli yaba formalı tamqası olan mis sikkə-"kaanik" aşkar edildi.



Gülüstan qalası. Gümüş sikkələr.

VI kvadratda aparılan qazıntı işləri zamanı, XVII əsrə aid iki ədəd gümüş sikkə aşkar edildi. Bu sikkələr Şamaxı zərbxanasında kəsilmiş, anonim abbasilərdir.

2012-ci ilin avqust ayında ekspedisiya Şamaxı ətrafında aparılan kəşfiyyat işləri zamanı Muğanlı və Qurdtəpə kəndləri yaxınlığında Orta əsrlərə aid yaşayış yeri aşkar etmişdir. Kəşfiyyat zamanı ərazidən coxlu sayda şirli və şirsiz qab fraqmentləri aşkar edilmişdir. İlkin araşdırmalara görə yaşayış yeri 5 ha.-dan artıq ərazini əhatə edir. Abidə tərəfimizdən Qurdtəpə yaşayış yeri kimi qeydiyyata almışdır.

Bundan başqa Şamaxı-Ağsu arxeoloji ekspedisiyası İsmayıllı rayonu Çərmədil və Hacıhətəli kəndləri ərazisində Antik və İlk Orta əsrlərə aid nekropollar aşkar edərək, qeydiyyata almışdır. Cərmədil nekropolunda aparılan arxeoloji tədqiqatlar zamanı buradan 8 küp qəbir, 25 torpaq qəbir, 1 kurqan və məbəd yeri aşkar edilmişdir. Aşkar edilmiş parfiya və sasani dövrünə aid gümüş draxmalar əsasında abidənin I-V əsrlərə aid olduğu müəyyən edilmişdir.

Şamaxı ərazisində aparılan kəşfiyyat işləri zamanı Sabir qəsəbəsi yaxınlığında Son tunc və Dəmir dövrlərinə aid yaşayış yeri aşkar edilmişdir. Yaşayış yeri və onun yaxınlığında olan kurqanların GPS koordinatları AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun İnformasiya Texnologiyalarının Tədbiqi Sektorunun əməkdaşları tərəfindən qeydiyyata alınmışdır.

А.А.Кулиев

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ КРЕПОСТИ ГЮЛИСТАН

РЕЗЮМЕ

В июне-августе 2012 года археологическая экспедиция Шамаха-Агсу продолжила исследования в крепости Гюлистан. Работы велись внутри крепости на площади 600 м^2.

В результате обнаружено 3 тендира, значительное количество фрагментов глазурованной керамики, большие кувшины и другие емкости разных размеров с узким горлышком, жбаны (для хранения воды), тарелки, чаши, котлы, светильники, жернова.

Наряду с многочисленной местной продукцией обнаружены и фрагменты посуды, произведенной в Китае.

Кроме того, найдено много серебряных и медных монет IX-XVII веков. Среди медных монет самым древними являются фельсы Аббасидов.

В ходе археологических работ выявлены стены дворцовой бани, а также, система водоснабжения крепости, многочисленные образцы орнаментированной керамики.

A.A.Guliyev

ARCHAEOLOGICAL INVESTIGATION OF FORTRESS GULUSTAN

SUMMARY

In June and August 2012, an archaeological expedition Shemaxa-Ahsu continued research in Gulistan fortress. The works were carried out inside the fort and covered an area of 600 m^2.

In the search found 3 tandirs, a large number of fragments of glazed pottery, large jars and other containers with narrow necks of various sizes and purposes, jugs (water storage), plates, bowls, boilers, Chirag (light), hand mill.

During the excavations, along with numerous local products were also found fragments of dishes made in China.

In addition, it was found, and a lot of silver and copper coins IX-XVII centuries. Among the most ancient copper coins are copper-felses Abbasids. At the excavation site were found numerous examples of pottery from the draftsman's designs.

In the course of archaeological excavations revealed the walls of the palace baths, as well as the water supply of the fortress.

QƏBƏLƏ (SƏLBİR) ŞƏHƏR YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR

(Qəbələ rayonu)

C.T.Eminli, E.Ə.İsgəndərov



Şəkil 1. 3-cü qazıntı sahəsinin ümumi görünüşü.

2012-ci ilin aprel-iyul aylarında Qəbələ arxeoloji ekspedisiyasının Səlbir dəstəsi 2 və 3-cü qazıntı sahələrində tədqiqatları davam etdirmişdir. Təqdim olunan qısa hesabatda müəllif tərəfindən 3-cü qazıntı sahəsində aparılmış arxeoloji tədqiqatlardan bəhs ediləcəkdir. Əsas məqsəd, əvvəlki illərdə başlanılmış kvadratların tamamlanması, kvadratların arakəsmələrinin götürülməsi ilə tikili qalıqlarının izlənilməsi, sanitar-gigienik qurğuların istiqamətinin müəyyənləşdirilməsindən ibarətdir. Yuxarıda qeyd edilənlərə əsasən 1 və 7-ci, 2 və 4-cü, 8 və 9-cu, həmçinin 8 və 10-cu kvadratlar arası arakəsmələr götürülmüş, 9, 10, 11 və 12-ci yarımkvadratlar tamamlanmış, 13, 14 və 15 saylı yeni kvadratlarda tədqiqatlar aparılmışdır. Beləliklə, ümumi sahəsi 1200 m/kv-dən artıq ərazi qazıntıya cəlb olunmuşdur.

1 və 7-ci kvadratların 1m.-lik arakəsməsi götürülərək, 2011-ci ildə dayandırılmış 1N-li quyunun qazıntısı davam etdirildi. İlk baxışdan bu quyu oval formada dağıntını xatırlatsa da, tədqiqatların gedişi fərqli nəticə verdi. Burada biri digərindən dayaz olmaqla iki quyu qeydə alındı. Birinci quyunun ağzı oval formada olmaqla 2.2 m dərinlikdə, dairəvi ağızlı digər bir quyu ilə 5.6m dərinliyə qədər davam edirdi. İlk baxışdan quyuların biri digərini kəsdiyi ehtimal olunsa da, məhz bir quyunun iki mərhələli qazılması daha məqsədə uyğun görünür. Buradan X əsr üçün səciyyəvi olan xeyli sayda şirsiz və şirli saxsı məmulatı aşkar edildi (**şəkil 2-3**).



Şəkil 2,3. 1N-li quyudan aşkar edilmiş astral naxışlı şirli kasa və yaşıl şirli bardaq.



Şəkil 4. Gil möhrədən olan tikilinin döşəməsindən aşkar edilmiş, üzərində küfi xətti ilə yazı olan şüşə əşya.

Arakəsmələrin götürülməsi ilə KV7-nin üst qatında qeydə alınmış gil möhrə tikilinin şərq divarının ardı da izlənildi. Divarla yanaşı qeyd edilən tikilinin döşəməsi arakəsməyə düşən hissədə yoxlanılarkən üzəri küfi xətti ilə yazılmış şüşə əşya aşkar edildi. Bu əşyanın pul və ya çəki vahidi olması ehtimal olunur (**şəkil 4-4a**).

KV2 və KV4-ün arakəsməsinin də götürülməsi maraqlı nəticələr verdi. Əsas məqsəd, qeyd olunan kvadratlarda izlənilən tikililərin biri-biri ilə əlaqəsini müəyyənləşdirməkdən ibarətdir. Tədqiqatlar zamanı KV4-də yanakı qoyulmuş bişmiş kərpiclərdən ibarət ocaq yerinin cənub kənarı, həmçinin ocaq yerinin şərqində bişmiş kərpic fraqmentlərindən ibarət divarın cənuba doğru 1m-lik davamı da izlənildi. Beləliklə, 2011-ci ildə aşkar edilmiş məişət kompleksinin ümumi görünüşü bərpa olundu (**şəkil 5**).



Şəkil 5. Məişət kompleksinin ümumi görünüşü



Şəkil 6. KV8 və KV9-da aşkar edilmiş boruların kəsişməsinin izlənilməsi.



Şəkil 7. KV8-də aşkar edilmiş hovuzun ümumi görünüşü.



Şəkil 8. KV10-da qeydə alınan son antik dövr təbəqəsi.



Şəkil 9. KV 10-da qeydə alınan son antik dövr döşəməsi.

KV8 və KV9-un arakəsməsinin götürülməsində məqsəd aşkar edilmiş boruların kəsişməsini izləməkdir. Xatırladaq ki, hələ 2011-ci il qazıntı mövsümündə 8-ci kvadratda boruların ardını izləməklə yanaşı, burada müxtəlif istiqamətdə digər iki saxsı boru xətti aşkarlanmışdır. 8-ci kvadratın cənub-qərb küncündə şimal-qərbdən cənub-şərqə istiqamətlənən və digərlərindən 0.8 m dərində olan bu kəmərin ardı 9-cu kvadratda da qeydə alınsa da, burada kəmər biri-birinə keçirilmiş 4 boru ilə tamamlanır. KV9-da dağınıqlıq çox olduğundan kəmərin ardının da dağıntıya məruz qaldığını guman etmək olar. Dağıntılar içərisində boru fraqmentlərinin çoxluğu dediklərimizi misal təsdiq edir. KV8-in cənub-qərb küncündə qeydə alınan boru xətti 60-70 cm qalınlıqda geoloji çınqıl qatının altından keçir. Qeyd olunan borunun istiqamətinə nəzər saldıqda cənuba (KV3) doğru nisbətən dərində, şimalda (KV9) yer səthinə daha yaxında izlənilir. Göründüyü kimi, KV8-də şərq-qərb istiqamətdə uzanan boru xətti şimal-cənub istiqamətdə keçən xətti kəsməmişdir. Və yaxud da əksinə, çınqıl qatının altından keçən boru xətti qurularkən ondan yuxarıda olan kəməri dağıtmamışdır (**şəkil 6**). Bu da onu göstərir ki, şimal-cənub istiqamətdə olan boru daha əvvəl salınmışdır. Hələ, 2011-ci il qazıntıları zamanı qeyd olunan boru xəttinin yanından VIII əsrə aid aşkar edilən mis pul da kəmərin dövrünü müəyyənləşdirməyə kömək edir.

KV8 və KV10-un arakəsməsinin götürülməsində məqsəd KV8-də aşkar olunmuş bişmiş kərpicdən qurulmuş hovuzun şimal divarının izlənilməsi, həmçinin şərq-qərb istiqamətə uzanan boru xəttinin yoxlanılmasıdır (**şəkil 7**). Tədqiqatlar göstərdi ki, həmin hissədə hovuz üçün nəzərdə tutulan quyu qazılaraq döşəməsi və divarları bişmiş kərpicdən hörülmüş, kənarları kirəmit, çay daşı və bişmiş kərpic fraqmentlərindən ibarət qarışıq torpaqla doldurulmuşdur. 4m/kv ölçüdə olan hovuzun əsas hissəsi yer altında, üst hissəsi isə döşəmə səviyyəsindən bir qədər yuxarı qaldırılmışdır.



Şəkil 10. KV9-un şimal-şərq küncündə qeydə alınan antik təbəqə.



Şəkil 11. Son antik dövr kirəmiti (*solen*).

KV8 və KV10-un arakəsməsi ilə yanaşı 10-cu kvadratın da qazıntısı davam etdirilmişdir. 4x10 m. ölçüdə olan bu kvadrat 3-cü qazıntı sahəsinin şimalına doğru enişdə yerləşir. Kvadratın üst hissəsinin seyrək çınqıl qatı izlənilsə də yer səthindən 1 m. dərinlikdə 60 cm. qalınlıqda son antik dövr təbəqəsi qeydə alındı (**şəkil 8**). Hələ antik dövr təbəqəsinə qədərki torpaq qatı götürülərkən qeyd olunan dövrə aid saxsı fraqmentlərinə təsadüf olunsa da, təbəqənin özü fraqmentlərlə daha zəngin idi (**şəkil 9**). 10 cm. qalınlıqda kül və kömür qatışıqlı döşəmə üzərində qeydə alınan antik dövr təbəqəsi saxsı fraqmentləri, üzəri cilalı sarı, qırmızı, bozumtul-qara və qara rəngdə oynoxoya, piyalə, kasa və bardaq formalı qablarla təmsil olunur. Antik dövr təbəqəsinin izlənilməsi məqsədilə 9 və 14-cü kvadratlar da qazıntıya cəlb olundu. Hər iki kvadrat 9-cu kvadratın qərbində, 3-cü qazıntı sahəsinin qərbə istiqamətlənən enişli hissəsində yerləşir. Antik dövr təbəqəsinin izlənilməsi ilə yanaşı enişli sahədə təbəqələrin qalınlığı və baş vərən dəyişikliklərin də öyrənilməsi nəzərdə tutulurdu. Beləliklə, 9-cu kvadratın şimal-şərq küncündə yer səthindən 140 cm dərinlikdə yanıq qat və saxsı fraqmentləri ilə birlikdə antik dövr təbəqəsi qeydə alındı. Burada içərisi yanıq qatla müşahidə olunan gil möhrədən divar qalıqlarına da təsadüf olundu (**şəkil 10**). Ümimilikdə, 9 və 14-cü kvadratlar bir neçə təsərrüfat və ya zibil quyuları, xeyli sayda heyvan (it, at, dəvə, kəl və s.) sümükləri, həmçinin kütləvi dağınıqlıqdan ibarət idi. 14-cü kvadratın yalnız üst qatında son antik dövr üçün səciyyəvi olan yastı (solen) və ikiçatlı (kalipter) kirəmit aşkar edildi (**şəkil 11**).

KV14-ün mərkəzi hissəsindən 70-100 cm dərinlikdən əldə olunan, üzərində quş təsviri olan şirli kasanı xüsusi qeyd etmək olar. Sarı anqob astar üzərində marqansla çəkilmiş quş qabaq görünüşdə, qanadları yanlara açılmış, başı profildən təsvir edilmiş və yaşıl rənglə şirlənmişdir (**şəkil 12**). 9 və 14-cü kvadratların kütləvi tullantılarla izlənilməsi məhz bu hissələrin yaşayış evlərinin həyətyanı sahəsi olduğunu göstərir.

3-cü qazıntı sahəsinin şimala olan enişli yerində yerləşən 11 və 12-ci yarımkvadratlarda da tədqiqatlar tamamlandı. Bu kvadratlar da yaşayış evlərinin kənar hissələrini təşkil edir. Əsasən çınqıl qatından ibarət olan kvadratlarda oval və dairəvi formalı quyular, bişmiş kərpiclərdən qurulmuş ocaq yeri qeydə alındı. Burada həmçinin son antik dövr üçün səciyyəvi olan kirəmit fraqmentlərinə də təsadüf olundu. KV11-də yer səthindən 47 cm dərində, 140x160 cm ölçüdə oval formalı quyu aşkarlandı. 276 cm. dərinliyi olan quyu olduqca zəngin material verdi. Buradan şirsiz və şirli saxsı qablar (**şəkil 13**), çıraq, qapaq, şüşə qab fraqmentləri, sümük düymə və biz, pasta muncuqlar, həmçinin qızıl tərkibli sırğa aşkarlandı. Aşkar edilmiş materiallara əsasən, quyunun X əsrin sonlarına doğru doldurulduğu ehtimal edilir.





Şəkil 12. Üzərində quş təsviri verilmiş şirli kasa (552).


Şəkil 13. Oval quyudan aşkar olunmuş lüləkli qazan (460).

Şəkil 14. Qulpun üzərində cızma ilə xaç işarəsi təsvir olunmuş qab fraqmenti (476).

12-ci kvadratda qeydə alınan quyular təmizlənərkən maraqlı nəticələr əldə olundu. Biri-birini kəsən quyular və toplanılan materiallara əsasən onları V-VII əsrlərə aid etmək olar (**şəkil 14**). Qeyd olunan kvadratın cənub-şərq tərəfində çınqıl qatı içərisindən saxsı boru xəttinin bir hissəsi də aşkar edilmişdir ki, bu xətt qərbdən şərqə doğru istiqamətlənərək 8 və 4-cü kvadratlardan keçir. 12-ci kvadrat qazıntı sahəsinin şimal şərq enişini təşkil etdiyindən qeyd edilən boru xəttinin ardıcıllığını izləmək məqsədilə 4x5 m. ölçüdə 13-cü yarımkvadrat qazıldı. Məhz burada boru xəttinin istiqamətinin sərt döngə əmələ gətirməklə yaşayış yerinin mərkəzi hissəsinə doğru uzandığını izləmək mümkündür (**şəkil 15**). Boru xəttinin döngəsini təşkil etmək üçün bəzi yerlərdə biri-birinə keçən borular yarımçıq birləşdirilmiş və əmələ gələn boşluqlar çınqıllı, gilli əhəng məhlulu ilə doldurulmuşdur.



Şəkil 15. KV13-də qeydə alınan boru xətti.



Şəkil 16, 17. Yeraltı quyular vasitəsilə çəkilmiş su xətti.




Sanitar-gigienik qurğu və su təchizatı şəbəkəsinə aid olan maraqlı tapıntılar sırasına 3-cü kvadratdakı tədqiqatların nəticələrini də daxil etmək olar. Yuxarıda qeyd edildiyi kimi, 8-ci kvadratın cənub-qərb küncündə aşkar edilmiş saxsı boru xətti geoloji çınqıl qatının altından keçərək cənub-şərq istiqamətə, 3-cü kvadrata doğrü davam edir. Xatırladaq ki, hələ ötən qazıntı mövsümündə bu kvadratda gil möhrə və çiy kərpicdən tikilmiş bina qalıqları və həmin binanın döşəməsi aşkar edilmişdir. Alt qatları, xüsusən də çınqıl qatının altı ilə keçən kəməri yoxlamaq məqsədilə şimal-cənub istiqamətdə gedən divarın qərb hissəsindəki döşəmə yerinin qazılmasına başlanıldı. Qeyd edilən divardan şərqdə olan döşəmədə yanıq ləkəsi və oradan *in situ* vəziyyətdə təsərrüfat küpünün aşkar edilməsinə görə həmin hissə toxunulmaz saxlanılaraq yalnız qərb tərəfdəki döşəmə götürüldü. Tədqiqatı davam etdirilən hissədə dağınıqlıq da çoxdur. Haqqında bəhs etdiyimiz saxsı tünglərin yaşayış yerinin mərkəzinə doğru istiqamətlənməsini izləmək məqsədilə üst mədəni təbəqəyə aid döşəmə qatı tamamilə götürüldü. Burada, yəni 3A kvadratının qərb profili dibində, şimal-cənub istiqamətdə 257 cm. uzunluqda puç və çay daşından ibarət divar qalığı qeydə alındı. Divar qalığı çınqıllı qatın üzərində hörülmüşdür. Bundan əlavə çınqıllı qatda diametri 130 cm. olan quyu qeydə alındı. Quyunun içərisində şimal və cənub divarı boyu 75 cm enində digər bir boşluğun varlığı məlum oldu. Geoloji çınqıl qatının altı ilə davam edən boşluq təmizlənərkən onun şimala doğru davam edən hissəsinin 8-ci kvadratın cənub-qərb küncündə aşkarlanmış saxsı boru xətti ilə əlaqəsi müəyyənləşdirildi. Quyunun yalnız cənuba doğru istiqamətində biri-birinə keçirilmiş dörd boru qeydə alındı (**şəkil 16, 17**). Yeraltı çəkilmiş xəttin gözəyarı təhlilinə əsasən onun biri-birindən müxtəlif məsafələrdə quyular vasitəsilə qazılaraq yeraltı əlaqələndirilməsi və onların cənub-şərqə doğru istiqamətləndiyi qənaətinə gəlindi. Beləliklə, birinci quyudan 9 m. cənub-şərqə doğru digər bir quyu da qeydə alındı və bu quyuların yeraltı əlaqəsi də müəyyənləşdirildi. Cənub-şərqə doğru ikinci quyu üst qatda qeydə alınmış şimal-cənub istiqamətdə olan gil möhrə divarın altında izlənildi (**şəkil 18, 19**). Yeraltı tunellər vasitəsilə xəttlərin ötürülməsi Səlbir yaşayış yerinin şimal kənarı boyu aydın izlənilməkdədir. Ehtimal ki, aşkar edilmiş bu quyular da Səlbir yaşayış yerinin şimal kənarı boyu çəkilmiş xəttlə bilavasitə əlaqəlidir. Yeraltı xəttlərin əlaqələndirilməsi üçün biri-birindən müəyyən məsafədə qazılmış quyuların da məqsədi onların həm texniki təchizatı, həmçinin bir xətt boyu qazılmasının çətinliyi ilə izah etmək olar. Bu cür qurğuların geoloji çınqıl və gil qatının altı ilə ötürülməsi onun təhlükəsizliyini təmin edərək düşmən hücumu zamanı da dağıdılmasının qarşısını alır. Yeraltı xəttlərin varlığı ilə yanaşı orada saxsı tünglərin olmaması maraq doğurur. Bunu bir neçə səbəblə izah etmək olar. Səlbir yaşayış yerinin kənarı boyu çınqıllıq qat içərisində eyni üsulla aşkarlanmış boşluqlarda, həmçinin 8-ci kvadratın cənub-qərb dibində saxsı borulara təsadüf olunduğu halda yeni aşkarlanmış boşluqlarda onların olmamasını sonradan boruların çıxardılması ilə əlaqələndirmək olar. Lakin, gələcək tədqiqatlar bu problemin daha ətraflı öyrənilməsinə kömək edəcəkdir.



Şəkil 18. Gil möhrə divarın altında su xəttinin ötürülməsi üçün nəzərdə tutulan digər quyudan görünüş.




Şəkil 19. Yeraltı ötürücülərin təmizlənməsi prosesi.



Şəkil 20. Dulus kürəsinin fraqmenti.



Şəkil 21. Qərb divarı dibindəki quyudan aşkar edilmiş şüşə alembik.



Şəkil 22. Üzərində altıgüşəli ulduz təsvir edilmiş şirli kasa.

3-cü qazıntı sahəsində aparılmış tədqiqatlarla yanaşı həmin sahədən qərbə doğru digər bir kvadratda da qazıntılar aparılmışdır. Qərb divarının dibində qoyulmuş 15-ci kvadrat 3-cü qazıntı sahəsi altında qeydə alınmışdır. Bu kvadrat qərb divarının şimal başlanğıcından 101 m., cənub kənarından 212 m. məsafədə yerləşir. Kvadratın qərb profili dibində kütləvi dağınıqlıq izlənilir ki, bu da qərb divarının yuxarı hissələrinin dağılması ilə əmələ gəlmişdir. Mərkəzi, cənub və şərq profilləri dibində müxtəlif diametrli quyular qeydə alındı. Mərkəzi (Quyu N.4) və şərq profili dibində (Quyu N.1) olan quyulardan tam fərqli materiallar toplanıldı. Buradan toplanılan materiallar V-VII əsrlər üçün səciyyəvidir. Digər maraq doğuran quyulardan biri cənub profili dibində diametri 135 cm olan 3N-li quyudur. Quyu təmizlənməmişdən qabaq onun üzərindəki qarışıq qatdan dulus kürəsinin bir hissəsi aşkar edildi. Millər keçirməklə qabların asılmasında istifadə olunan bu qurğu fraqmenti dulus kürəsinin arakəsmə divarlarında yerləşdirildiyini göstərir (**şəkil 20**).

3N-li quyu 740 cm dərinliyə qədər təmizlənsə də, qazıntı mövsümünün başa çatması ilə əlaqədar olaraq onun tamamlanması mümkün olmamışdır. Quyunun su ehtiyatı üçün nəzərdə tutulduğu şübhə doğurmur. Quyu tədricən dolmuşdur ki, onun təmizlənməsi zamanı maraqlı materiallar əldə olundu. Quyunun 610 cm dərinliyindən aşkar olunmuş şüşə alembiki xüsusi qeyd etmək lazımdır (**şəkil 21**). Xüsusi təyinatlı bu əşya təbabətdə istifadə olunmuşdur və X əsr üçün səciyyəvidir. Bundan əlavə quyudan altıguşəli ulduz təsviri olan şirli kasa (**şəkil 22**) və digər saxsı qab fraqmentləri, pasta muncuq və inşaat keramikası toplandı.


15-ci kvadratın əsasən mərkəzi hissəsini əhatə etməklə şimal-şərqdən cənub-qərbə doğru 9 m. uzunluğunda bişmiş kərpicdən qurulmuş arx yeri aşkar edildi (**şəkil 23, 24**). Yanakı qoyulmuş kərpiclər üzərində eyni ölçülü digər kərpiclər onun örtüyünü təşkil edir. 24.5x24.5x5.5 cm ölçüdə olan kərpiclərin kənarları işlənməklə onların biribirinə rahat yerləşdirilməsi təmin olunmuşdur (**plan**). Kərpiclərin düzülüşü və arxın istiqaməti şimal-şərqdən cənub-qərbə doğru maililik təşkil edir ki, bu da axımın istiqamətini tənzimləyir.



Şəkil 23. KV15-in ümumi görünüşü.



Şəkil 24. Bişmiş kərpicdən qurulmuş arx yeri.



Şəkil 25. Bişmiş kərpicdən qurulmuş arxın təsviri (plan).

Beləliklə, bu ilki qazıntı mövsümündə Qəbələ şəhər xarabalıqlarının Səlbir sahəsində aparılmış tədqiqatlar nəticəsində əldə olunan tapıntılar dövrün tikili strukturunu, şəhərsalma problemini, həyat tərzini işıqlandırmağa kömək edir. Müdafiə istehkamı ilə əhatə olunmuş yaşayış yerində son antik, ilk orta əsrlər və orta əsrlər dövründə baş verən dəyişikliklər maddi mədəniyyət nümunələrində aydın izlənilməkdədir. Yaşayış yerinin mərkəzi hissələrində VIII-X əsrləri əhatə edən mərhələ daha yaxşı izlənildiyi halda, II-III və V-VII əsrləri əhatə edən mərəhələ nisbətən çökək və müdafiə istehkamı yaxınlığında qorunub qalmışdır.

Дж.Т.Эминли, Э.А.Искендеров

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ ГОРОДИЩА ГАБАЛА (СЕЛЬБИР)

РЕЗЮМЕ

В апреле–июле 2012 года Сельбирская группа Габалинской археологической экспедиции продолжила исследования на 2 и 3 раскопочном участках. Исследованиями 3 участка установлены 3 периода существования города: позднеантичный, раннесредневековый и средневековый. При наличии богатого культурного напластования VIII-X вв., слои позднеантичного и раннесредневекового периодов прослеживаются слабо.

Полностью очищен бытовой комплекс, расположенный в кв. 2 и 4. Кроме того, установлены направления и пересечения линий водоснабжения. Вызывает интерес подземный туннель, который соединялся с помощью ям, расположенных в кв. 3 и 8. На основе обнаруженного нумизматического материала туннель датирован VIII в. В кв. 10 исследован культурный слой античного периода мощностью 60 см, обнаружены фрагменты античной строительной и бытовой керамики. Интересный материал дали раскопки близ западной стены. Здесь были обнаружены остатки 9-ти метрового канала из обожженного кирпича. Таким образом, результаты исследований 2012 года помогли выяснить такие вопросы как структура города, градостроение, городская жизнь и т.д.

При хорошей прослеживаемости культурных слоев VIII-X вв. в центральной части городища, культурные слои II-III вв. и V-VII вв. хорошо сохранились в низменной части городища и близ оборонительной стены.

J.T.Eminli, E.A.Iskenderov

ARCHAEOLOGICAL INVESTIGATIONS AT GABALA (SALBIR)

SUMMARY

In April-July, 2012 there were carried out archaeological investigations at 2nd and 3rd excavated sites of Salbir settlement. This short report based on archaeological investigations at 3rd excavated site of settlement. During the investigations there was defined cultural strata belonged to the Late Antique, early medieval and medieval periods. The cultural layer of the 8-10th centuries more splendid than antique and early medieval layers.

At the squares 2 and 4 the domestic place was fully revealed. In addition the crossing and direction of water supply network was defined. The underground tunnel system construction also attracts an attention. On the basis of copper coin found in this tunnel this construction dated to the 8th century.

In the 10th square the late Antique layer with 60cm thickness was investigated. The excavated site near the west wall gave an interesting result. There was revealed 9 meters long sanitary-hygienic syistem constructed of burnt bricks.

Hereby, in the issue of this excavation campaign the building structure and urban life of its period was defined.

ŞEYX BABI XANƏGAHINDA APARILMIŞ ARXEOLOJİ QAZINTILAR
(Füzuli rayonu)

X.İ.Alməmmədov, N.V.Quluzadə



Şeyx Babı xanəgahı. Qazıntılardan əvvəlki görünüşü.

Şeyx Babı xanəgahı Füzuli rayonu Babı kəndində, kənd qəbristanlığında yerləşir. Günümüzə kimi xanəgahdan ancaq tavanı uçmuş türbə, yarıuçmuş minarə və qazıntılara kimi hələ də təyinatı məlum olmayan tikili qalığı qalmışdır. Abidə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən mühafizəyə götürülsə də (İnventar sayı 213) təbii və antropogen təsirlərdən daha çox dağıntıya məruz qalmışdır. Türbənin daxili və xarici hissələrindən daşlar qızılaxtaranlar tərəfindən çıxarılmış, divarların səthində cızılaraq sözlər və şəkillər yazılmışdır. Türbənin daxili divarları yanğın nəticəsində hislə örtülmüşdür. Həm daxildə həm də xaricdə divarlar mismarlarla deşilərək oyuqlar açılmışdır.

Şeyx Babı xanəgahında arxeoloji qazıntı işləri Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin "Azərbərpa" Elmi-tədqiqat Lahiyə İnstitutu ilə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu arasında bağlanılmış müqaviləyə əsasən aparılmışdır.

I Qazıntı sahəsi

Qazıntılara başlamazdan əvvəl əraziyə baxış keçirildi və məlum oldu ki, şərti olaraq I qazıntı sahəsi kimi qeydiyyata aldığımız böyük ictimai tikilinin qalıqlarının 90 % torpaq altındadır (Şəkil 1). Bunları nəzərə alaraq biz bu ərazidə 28x28 m sahədə arxeoloji qazıntı işləri aparmağı planlaşdırdıq. Bəzi yerlərdə bu tikilinin divarlarının ancaq xarici hissəsi görünürdü. Ərazinin böyüklüyünü nəzərə alaraq tikilinin müxtəlif yerlərində kəşfiyyat şurfları qoyuldu və aydın oldu ki, tikilinin daxili hissəsində böyük sütun altlıqları var. Şurflar nəticəsində I qazıntı sahəsində mövcud olan tikili qalığının bütün konturları müəyyən olundu. Bu tikili 1,5-2,7 m bişmiş kərpic və daş qırıntıları, gəc və küldən ibarət olan dağıntı qalıqlarının altında qalmışdı. Şurflar nəticəsində aşkar olunmuş sütunlar və divarlar arasında olan boşluqlar təmizləndiyi zaman bu tikilinin necə möhtəşəm olduğu çılpaqlığı ilə nəzərə çarpdı. I qazıntı sahəsində təmizləmə işləri başa çatdıqdan sonra iki böyük zal, təsərrüfat tikilisi və hər tərəfində böyük giriş qapıları olan tikili qalığı aşkara çıxarıldı (Şəkil 2, 3, 4). Qeyd etmək istərdik ki, bu ərazidə 3m-ə kimi dağıntı qalıqları (2300 kub.m-ə qədər) təmizlənmişdir (Plan 1).





Şeyx Babı xanəgahı. Qazıntılardan əvvəlki görünüşü. Məscidin qalıqları.

İctimai binanın şimal divarının uzunluğu 24,2 m, eni 1 m-dir. Onun təməli kobud yonulmuş əhəngdaşı ilə hörülmüşdür (-230 sm). Divarın xarici səthi 27 sm eni olan ağ əhəngdaşı ilə üzlənmişdir. Bu daşlar relyefdən asılı olaraq 2-3 cərgə düzülmüşdür. İctimai binanın əsas girişi də məhz bu hissədə yerləşir. Bu girişin uzunluğu 2,5 m olub, yonulmuş daşlardan tikilmişdir (Plan 4).

Qərb divarının uzunluğu 30 m olub, onun 26,8 m-i ictimai binaya aiddir. Divarın qalınlığı 83 sm, uçulmuş vəziyyətdə hündürlüyü 70 sm-dir (-60 sm). Burada da eyni tikinti materialı və texnikasından istifadə olunmuşdur (Plan 4).

Cənub divarının uzunluğu 24,2 m, qalınlığı 0,9 m-dir. 119 sm hündürlükdə qalıqarı qalmışdır (-61-180 sm). Divarda daxili səthdə iki sütün çıxıntısı var ki, onlar da təxminən bir metr enindədir. Divarda cənuba çıxış da qoyulmuşdur ki, onun da eni 70 sm-dir. İctimai tikilinin cənub-şərqində yerləşən səkkizgüşə planlı türbə (türbə divara bitişik tikildiyindən onun üç tərəfi divarla əvəz olunmuşdur) də cənub divarına çox dəqiqliklə birləşdirilmişdir (-140 sm). Türbənin uzunluğu 6,2 m, eni isə 3,8 m-dir. Bu türbə həm ölçüləri, həm də formasına görə Şeyx Babı türbəsini xatırladır. Türbənin inşasında əhəngdaşı və bişmiş kərpicdən istifadə olunmuşdur. Türbədə iki qəbir aşkar olundu ki, bunların biri kişiyə, digəri isə qadına məxsus idi (Plan 4).

İctimai tikili qalığının şərq divarı daha çox dağıntıya məruz qalmışdır. Onun uzunluğu 23,9 m, eni 1 m-dir. Divar qalığının əsasən daxili səthi ciddi şəkildə zədələnmişdir. Daxili səthdə divara bitişik hissədə 2,3 m enində sütün çıxıntısı qoyulmuşdur. Çox güman ki, bu cür nəhəng çıxıntı tikilinin böyük tavanını (ehtimal ki, tağlı konstruksiyalı) saxlamaq məqsədilə edilmişdir (Plan 4).

Ictimai binanın divarlarının təsnifatından sonra onun daxili quruluşunu nəzərdən keçirək:

Arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş ictimai bina iki böyük zal, təsərrüfat tikilisi və giriş dəhlizindən ibarətdir. I zalın uzunluğu 20 m, eni isə 12,4 m-dir. Zalın daxili hissəsi böyük sütünlardan (6 sütün və 7 divar çıxıntısı) ibarətdir ki, onların da ölçüləri mövqelərinə görə 1 m-dən, 2,5 m-ə kimi dəyişir. Onların hündürlükləri 70 sm-dən 120 sm-ə kimdir. Zalın şimal, cənub və qərb tərəfində xaricə çıxış qapıları var. Şərq tərəfdə isə onu II zal ilə digər iki qapı birləşdirir. I zalın cənub divarında, mərkəzi hissədə mehrabın qalıqları var. Onun dağılmış vəziyyətdə hündürlüyü 77 sm-dir. Çox böyük ehtimal ki, I zal ibadət zalı kimi istifadə olunmuşdur (Plan 2).

II zal öz ölçülərinə görə I zaldan kiçikdir və onun daxili sütunsuzdur. Bu zalın uzunluğu 14,5 m, eni isə 8,8 m-dir. Mərkəzi hissədə, kənarlarda iri ölçülü (2,3 m) iki divar çıxıntısı var ki, onlarda ehtimal ki, tağlı tavanı saxlamaq üçün inşa edilmişdir. Zalın şimal tərəfində giriş dəhlizinə çıxış qapısı var. Qapı iri daş plitələrlə düzəldilmişdir. II zalın şimal divarında işıqlandırmaq və isitmək üçün buxarı qalıqları aşkar olunmuşdur ki, (-34-131 sm) burada da yanıq izləri aydın görünürdü. Buxara bişmiş kərpicdən divarın daxilində tikilmişdir. II zalda döşəmə qalıqlarına -152 sm-ə təsadüf olunmuşdur. Bu zalın cənub hissəsinə bitişik inşa edilmiş türbə ilə zalın çox ehtimal ki, əlaqəsi olmamışdır. Ehtimal ki, bu zal xanəgah sakinlərinin yaşayış yeri kimi istifadə olunmuşdur (Plan 2).

Qazıntılar zamanı bizim ən çox vaxtımızı alan və daha çox marağımıza səbəb olan obyekt yardımçı tikili kimi qeydiyyata aldığımız tikili qalığı idi (Şəkil 5). -58 sm-dən izlənilməyə başlanan bu tikili qalığı iki hissədən ibarətdir. Tağlı konstruksiyaya malik olan tikili qalığının hər iki tərəfə (qərb və şərqə) çıxışı var. Belə ki, buraya həm ibadət zalından, həm də şərq tərəfdən giriş dəhlizindən daxil olmaq olardı. Tikilinin I otağının uzunluğu 8,4 m, II otağının uzunluğu isə 1,9 m-dir. Enləri isə divarlarla birgə 4,9 m, indiki vəziyyətdə hündürlüyü isə 1,65 m-dir. -232 sm-də bu tikilinin döşəmə qalıqları tərəfimizdən aşkar olunmuşdur. Qazıntılar zamanı burada osteoloji qalıqlara və məişətdə istifadə olunan saxsı qabların fraqmentlərinə təsadüf olunmuşdur.


İctimai tikilinin giriş dəhlizi kimi qeydiyyata aldığımız tikili qalığının uzunluğu 4,9 m, eni isə 2,3 m-dir. Buradan həm təsərrüfat tikilisinə, həm də II zala (yaşayış üçün olan zal) keçid üçün qapılar var. Dəhlizin şərq divarları daha çox dağıntıya məruz qaldığından buradan çıxıç olub-olmadığını qəti söyləyə bilmərik. Çox güman ki, buradan, yəni şərq tərəfdən də ictimai tkiliyə giriş olmuşdur.

II Qazıntı sahəsi

II qazıntı sahəsi I qazıntı sahəsinin cənub-qərb küncündən başlayaraq 15x15 m sahəni, şərti olaraq hamam və ya mədrəsə kimi qeydiyyata alınmış məntəqəni əhatə edir (Plan 3). Burada 1987-ci ildə bərpaçılar tərəfindən qazıntı işləri aparılmış və tağlı örtük uçurulmuşdur. Arxeoloji qazıntılardan əvvəl bu tikili qalığının əsas hissəsi torpaq altında idi. Bu tikili qalığı haqqında müxtəlif əfsanəvi mülahizələr mövcud idi. Bəziləri tikilinin Roma hamamı, digər tədqiqatçılar isə orta əsr hamamı və ya qızlar mədrəsəsi olduğunu iddia etmişdilər. Yerli əhali isə bu tikilinin İrana aparan tunelin başlanğıc hissəsi olduğunu söyləyirdilər. Tikilinin kompleksin digər qurğuları ilə əlaqəsinin olub-olmamasını və təyinatını təyin etmək üçün onun memarlıq konstruksiyasını müəyyənləşdirməkdən ibarət idi. Burada 1 m torpaq qatı götürüldü və düzbucaqlı formaya malik hündürlüyü 73 sm olan iki tikili qalığı aşkar olundu (-207 sm). -270 sm dərinlikdə tikilinin girişi aşkar olundu. Giriş tağlı konstruksiyaya malik olub, üst hissəsi uçmuşdur. Giriş iki pilləli olub, birinci pillə 180 sm uzunluğundadır (-454 sm). Birinci pillə həm də hücrəyə giriş dəhlizi rolunu da daşıyır. İkinci pillə ilə birinci pilləni hündürlüyü 20 sm olan kobud yonulmuş əhəngdaşı hörgüsü ayırır (-422 sm). Bu əhəngdaşlardan xaric hissə materiklə birləşir ki, bu da tikili qalığının giriş hissəsinin elə də hündür olmadığı qənaətinə gəlməyimizə yardım etmiş olur. Birinci pillənin döşəməsinə 37x37x6 sm ölçülərində olan bişmiş kərpiclər düzülüb. Çox ehtimal ki, bu tikilinin bütün döşəməsi də belə kərpiclərlə döşənmişdir. Lakin biz digər hissələrdə bunu izləyə bilmədik bunu isə 1987-ci il qazıntıları ilə bağlamaq olar (Şəkil 6).



Şeyx Babı xanəgahı. Yeraltı məqbərənin girişi.



Şeyx Babı xanəgahı. 1 saylı qəbir (Məqbərə).

Tikili qalığının daxili hissəsi -473 sm-ə kimi təmizləndi. Aşkar edilmiş maddi-mədəniyyət nümunələri tikilinin təyinatı barədə indiyə kimi olan fikirləri alt-üst etdi. Belə ki, təmizləmə işləri zamanı tərəfimizdən 6 qəbir aşkar olundu.

1 saylı qəbir tikili qalığının şimal hissəsində, -468 sm dərinlikdə aşkar olunub. Uzunluğu 204 sm, eni 50 sm, dərinliyi isə 76 sm (-544 sm) olan qəbrin divarları və döşəməsi firuzəyi, mavi və göy rənglərində altıgüşəli kaşılarla bəzədilmişdir. Dəfnetmə müsəlman şəriətinə görə aparılmışdır. Qəbrin üstü 36x36x6 sm ölçülərində bişmiş kərpiclərlə çarpaz formada örtülmüşdür. Qəbrin üst səthindən başlayaraq hücrənin divarları 115 sm-ə kimi kaşı ilə bəzədilmişdir ki, hal-hazırda da onlardan çox az

hissəsi qalmışdır (Şəkil 7, 8).

2 saylı qəbir 1 saylı qəbirdən 64 sm cənubda, -510 sm dərinlikdə aşkar olunub. Uzunluğu 210 sm, dərinliyi 45 sm (-555 sm), eni isə 37 sm olan qəbir tikili qalığının dağılmış döşəməsinin altında aşkar olunub. Qəbir 1987-ci il qazıntıları zamanı və xəzinə həvəskarları tərəfindən tamamilə dağıdılmışdır. Qəbir təmizləndikdən sonra burada insana məxsus osteoloji qalıqlara və dəmir mismarlara təsadüf olundu. Qeyd etmək istərdik ki, burada olan sümüklər tamamilə qarışdırılmış və bir qismi çürümüşdür. Dəmir mismarlar isə ehtimal ki, mərhumun dəfn olunarkən istifadə olunduğu taxta tabuta aiddir. Təmizləmə zamanı tabutun hər hansı bir hissəsinə rast gəlinməmişdir.

3 saylı qəbir 2 saylı qəbirdən 40 sm cənubda, məqbərənin mərkəzi hissəsində aşkar olunub. Uzunluğu 215 sm, eni 81 sm, dərinliyi isə 72 sm olan qəbir kamerası qərb-şərq istiqamətində olub, 20x20x5 sm ölçülərində bişmiş kərpiclərlə hörülmüşdür. Qəbir tikili qalığının döşəməsindən altda yerləşir (-486 sm). 1987-ci il və sonrakı talançı qazıntılar zamanı qəbir toxunulmaz qalsa da, qəbir örtüyünün çox hissəsi dağıldığından içi torpaqla dolmuşdu. Tərəfimizdən aparılan təmizləmə işləri zamanı qəbir kamerasının bişmiş kərpic və gəcdən ibarət olan dağılmış hissəsi götürüldü və məlum oldu ki, ortüyün qalınlığı 15 sm-dir. Qəbir torpaqdan təmizlənərkən dəmir mismarlara və mis pərçimlərə təsadüf olundu. Pərçimlər güman ki, taxta tabutun hissələrini bir-birinə pərçimləmək üçün istifadə olunub. Qəbir kamerasının kənarlarında taxta tabutun hissələrinə təsadüf olundu ki, onlar da çox pis qalmışdılar və təmizləndikdən sonra havanın təsiri ilə dağılaraq toza çevrildilər. Skeletin üzəri də tamamilə bu taxta tabutun toza dönmüş gümüşü-narıncı rəngli qalıqları ilə örtülmüşdü. Bu qalıqlar təmizləndikdən sonra skeletin çox pis halda qalmış onurğa, çanaq və qabırğa sümükləri aşkar olundu. Çox güman ki, qəbir inventarının və sümüklərin belə pis qalmasına səbəb rütübətli mühüt olmuşdur. Skeletin digər hissələrinin tapılmamasına gəldikdə isə, ehtimal edirik ki, bu qəbir şəhidə aiddir və qəbirdə mərhum başsız və ayaqsız dəfn olunmuşdur (Şəkil 9).

4 saylı qəbir məqbərənin cənubunda yerləşir. Ölçüləri, forması və kaşılanmasına görə 1 saylı qəbirlə eynilik təşkil etsə də, üst örtüyünə görə fərqlənir. Belə ki, 1 saylı qəbrin üstü çarpaz formada örtüldüyü halda, burada düz örtükdən istifadə edilmişdir. Qəbir kamerası düzbucaqlı formada olub, qərb-şərq istiqamətindədir və 21x21x5 sm ölçülərində bişmiş kərpiclə örtülüb. Qəbir 1987-ci il qazıntıları zamanı mərkəzdən deşilərək açılmışdır. Bu səbəbdən də qəbrin içi torpaq və məişət tullantılarıyla dolmuşdur. Təmizlənmə zamanı taxta tabutun qalıqlarına, insana məxsus kəllə sümüyünün bir hissəsinə və ox ucluğunun (?) bir hissəsi ehtimal olunan əşyaya təsadüf olundu (Şəkil 10).

Yuxarıda qeyd edildiyi kimi, bu dörd qəbirdən başqa tikili qalığının daxilində, hücrələrin içərisində də iki qəbir aşkar olunmuşdur (Şəkil 11). Qəbirlər forma və ölçülərinə görə digərlərindən fərqlənir.

II qazıntı sahəsindən aşkar olunmuş artefaktların təsnifatına yekun vuraraq bu tikili qalığının təyinatı, quruluşu və xronologiyası barədə fikirlərimizi ümumiləşdirək. Belə ki, burada aparılmış arxeoloji qazıntılar tikili haqqında olan bəzi yarımfantastik fikirlərin əsassız olduğunu sübur etdi. Qazıntılar nəticəsində qəti olaraq müəyyən olundu ki, bu tikili qalığı yeraltı məqbərədir. Burada çox ehtimal ki, nüfuzlu və müqəddəs insanlar dəfn olunmuşlar. Tikilinin quruluşundan aydın olur ki, məqbərə 1 və 4 saylı qəbirlərin sahiblərinin şərəfinə inşa edilmiş, 2 və 3 saylı qəbirlər isə sonradan tikili qalığının döşəməsi sökülərək salınmışdır.

III Qazıntı sahəsi

Şərti olaraq III qazıntı sahəsi kimi qeydiyyata aldığımız sahə kompleksin qərb hissəsini əhatə edir (Plan 1). Vizual müşahidələr zamanı bu hissədə tikili qalıqlarının olduğu müəyyənləşdirildi. Arxeoloji qazıntılar üçün müəyyən olunmuş müddətin azaldığını və qarşıya qoyulmuş tapşırıqların yerinə yetirildiyini nəzərə alaraq bu hissədə qazıntıların şurflarla aparılmasını məqsədəuyğun hesab etdik. Kompleksin qərb və şimal hissəsində 7 kəşfiyyat şurfu qazılaraq xanəgahın memarlıq xüsusiyyətləri, quruluşu və mühafizə divarları haqqında müəyyən nəticələr əldə olundu.



Şeyx Babı xanəgahı. Məqbərənin ümumi görünüşü.




Şeyx Babı xanəgahı. Hücrənin görünüşü (Məqbərə).



Dördkünc türbə qalığı.

Tikili qalıqlarının təyinatı barədə də müxtəlif fikirlər var idi. Kompleksin qərb tərəfində yerləşən dördkünc tikili qalıqlarını bir çoxları ovdan, minarə qalıqları, hamam girişi olduğunu iddia edirdilər. Bütün bu fikirlərə aydınlıq gətirməkdən ötrü dördkünc tikili qalıqlarının olduğu ərazidə, onun divarlarının vəziyyətinə uyğun olaraq 5x5 m ölçülərində 1 saylı kəşfiyyat şurfu qoyuldu (Şəkil 12). Qazıntılar nəticəsində bu tikili qalığının dördkünc türbəyə aid olduğu müəyyən edildi. Türbə xanəgah ərazisində tərəfimizdən aşkar olunaraq tədqiq olunan sayca ikinci, ümumilikdə isə üçüncü idi. Türbənin mərkəzi hissəsində 18,5x18,5x5 sm ölçülərində olan bişmiş kərpiclərlə hörülmüş qəbir aşkar olundu. Uzunluğu 240 sm, eni isə 95 sm olan qəbrin üstü kərpiclər çarpaz qoyularaq örtülmüş və gəclə suvanmışdır. Qərb-şərq istiqamətində olan qəbirdə dəfnetmə müsəlman şəriətinə görə aparılmışdır. Burada da tabutun qalıqlarına təsadüf olunub. III qazıntı sahəsində qazılmış digər 6 kəşfiyyat şurfları nəticəsində xanəgahın qərb və şimal mühafizə divarları və şimal giriş zalının qalıqlarının bir hissəsi aşkara çıxarılmışdır.


Şeyx Babı xanəgahında aparılan arxeoloji qazıntıların nəticələrini dəyərləndirərkən qeyd etmək istərdik ki, bu abidə Azərbaycan memarlığının XIII-XIV əsrə aid ən möhtəşəm abidələrindən biridir. Xanəgahın qazıntı sahələri arasında xronoloji və memarlıq baxımından necə bir bağlılığın olduğunu müəyyənləşdirməkdən ötrü qazıntıların davam etdirilərək sona çatdırılması zəruri və vacibdir. Xanəgahın digər yardımçı binalarının onun mühafizə divarlarından xaricdə olduğunu ehtimal edərək, növbəti qazıntı mövsümündə də ətraf ərazilərdə kəşfiyyat qazıntıların aparılması planlaşdırılmışdır.


Plan 1
Qazıntının ümumi planı
N
23430
23950
3850
37126
10000
9500
18800
7500
5410
10060
4835
6690
① Şeyx babı məscidi.
② Şeyx babı məscidinin minarəsi.
③ Şeyx babı türbəsi.
④ Şeyx babı kompleksində sərdabə.
⑤ Divar izləri.
⑥ Qazılmış şurflar 7 - ədəd.
2011
Şifriş № 448
İnventar №
Memarlıq abidələrinin bərpası.
Füsuli rayonu
Şeix Babı türbəsi
Baş plan ö 1-500
Azərbərpalayihə
institutu

Plan 2

1-ci qazıntı sahəsi

N




Qeydlər.

1. Qazıntılar zamanı aşkar olunmuş məscidin planı dördbucaqlıdır.
2. Məscidin əsas divarları əhəng daşından və bişmiş kərpicdən tikilmişdir.
3. Məscidin döşəməsi torpaq qatından ibarədir.
4. Planda göstərilmiş qırmızı xətlər kərpiç divarların şərti işarəsidir.

arxeo.	Almammədov	2011	Sifriş № 448	İnventar №	
B.M.	Qədirli C.				
L.B.M.	Hüseynova L.	Memarlıq abidələrinin bərpası.			
memar	Səbanov İ.	Füzuli rayonu Şeix Babı türbəsi	mərh.	vərəq	vərəqlər
			Ö. İ.	3	24
		Plan ö 1-200	Azərbərpalayihə institutu		

Plan 3

2 - ci qazıntı sahəsi




Qeydlər.

1. Sərdabənin divarları bişmiş kərpiclə tikilmişdir.
2. Sərdabənin döşəməsinə bişmiş kərpiç döşənmişdir.
3. Sərdabənin üst sahəsi tamamilə çökərək dağılmışdır.
4. Sərdabənin pilləkəni tamamilə dağılmışdır.


Arxeo.	Almasmədov		2011	Sifariş № 448	İnventar №
B.M.	Qədirli C.				
L.B.M.	Hüseynova L.		Memarlıq abidələrinin bərpası.		
memar	Səbanov İ.		Füzuli rayonu Şeix Babı türbəsi	mərh. Ö. İ.	vərəq 21 / vərəqlər 24
			Plan ö-1:100	Azərbərpalayihə institutu	

Plan 4


Batı görünüş ö - 1: 100




Doğu görünüş ö - 1: 100



Güney görünüş ö - 1: 100



Quzey görünüş ö - 1: 100



Qeydlər.

1. Qazıntılar zamanı aşkar olunmuş fasadların qalıqları yonulmuş əhəng daşından üzlənmişdir
2. Məscidin fasadlarının qalıqları ik və üç sıra üzlük əhəng daşı qalmışdır .
3. Fasadların təməli əllə kəsilmiş əhəng daşından ibarədir.
4. Fasadlarda göstərilmiş qırmızı xətlər kərpiç divarların şərti işarəsidir.

arxeo.	Almammədov	2011	Sifriş № 448		İnventar №
B.M.	Qədirli C.				
İ.B.M.	Hüseynova L.	Memarlıq abidələrinin bərpası.			
memar	Səbanov İ.	Füzuli rayonu Şeix Babı türbəsi	mərh.	vərəq	vərəqlər
			Ö. İ.	4	24
		Fasadlar ö - 1: 200	Azərbərpaişiə institutu		

Х.И.Алмамедов, Н.В.Гулузаде

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ НА ХАНЕГЯХ ШЕЙХ БАБИ

РЕЗЮМЕ

Археологические раскопочные работы на ханегях Шейх Баби, расположенном на территории села Баби Физулинского района, проводились по заказу научно-исследовтельского проектного института Министерства культуры и туризма Республики Азербайджан «Азерберпа». Раскопки велись на трёх участках, охватывающих площадь 1200 м^2. В результате раскопок выявлены и расчищены остатки общественного строения общей площадью 600 м^2, остатки двух мавзолеев, 9 могил, один подземный склеп, остатки северных и западных оборонительных стен ханегях и остатки северного зала. На основании сравнительного анализа археологических, архитектурных и эпиграфических материалов определено, что комплекс ханегях Шейх Баби построен в XIII – XIV веках.

Kh.I.Almammadov, N.V.Guluzade

ARCHAEOLOGICAL EXCAVATION AT SHEIKH BABI MAUSOLEUM


SUMMARY

Archaeological excavations at Sheikh Babi mausoleum located in Babi village in Fuzuli region conducted by the order of the “Azerberpa” Scientific-research Projection Institute under the Ministry of Culture and Tourism of Azerbaijan Republic. Excavations carried out at three excavated sites covers 1200 m^2. During the excavations there were revealed the remains of administrative building with the total area 600 m^2, two tombs, nine graves, north and west defensive walls and north entrance hall. According to the comparative analysis of the archaeological, architectural and epigraphic samples the mausoleum complex built in 13-14th centuries.

ŞƏMKİR ŞƏHƏR YERİNDƏ APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLAR

(Şəmkir rayonu)

T.M.Dostiyev, R.Y.Bəşirov,
N.N.Hüseynli, R.H.Mirzəyev



Şəkil 1. Narınqalanın divarları (şimal-qərb küncü, içəri tərəfdən görünüş).

Şəmkir arxeoloji ekspedisiyası AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu və Regionların İnkişafı İctimai Birliyinin birgə layihəsi üzrə 2012-ci ildə Şəmkir şəhər yerində geniş çöl arxeoloji tədqiqatlarını davam etdirib. Arxeoloji qazıntılar əsasən narınqalada, IV qazıntı sahəsində aparılıb. Bu qazıntı sahəsi narınqalanın qərb divarınadək genişləndirilmiş və yeni kvadratların əhatə etdiyi sahə 2000 m^2-dən, qazıntının ümumi sahəsi isə 4000 m^2-dən artıq olmuşdur. İlk dəfə olaraq Azərbaycanın orta əsr şəhərlərindən birində narınqalanın sahəsinin 40 faizi arxeoloji qazıntı ilə əhatə olunub.

Qarşıya qoyulan məqsəd narınqalanın qərb və şimal divarını içəri tərəfdən açaraq öyrənmək, monumental binanın tədqiqini davam etdirmək, narınqalanın strukturuna dair yeni dəlillər üzə çıxarmaq və s. idi.

Narınqalının şimal-qərb sektorunda, yəni IV qazıntı sahəsinin yeni kvadratlarında arxeoloji qazıntıya qədər mikrorelyef pozulmuş, narınqalanın qərb divarı və qismən şimal divarı boyunca eni 1,5 m olan xəndək qazılmışdı. Xəndəyin torpağı mədəni təbəqə yatımının üzərinə tökülmüşdü. Nəticədə zolaq şəklində uzanan təpəciklər əmələ gəlmişdir.

Arxeoloji qazıntılara qədər narınqalanın qərb divarının qalıqlarını xəndək qazılmayan hissədə 1,1-1,2 m, xəndək qazılan hissədə 2,1-2,45 m hündürlükdə izləmək olurdu. Qazıntı nəticəsində narınqalanın şimal və qərb divarlarının içəri tərəfdən tədqiqinə xüsusi əhəmiyyət verilmişdir. Hazırda narınqalanın şimal-qərb küncündə qala divarının təmizlənmiş qalıqlarının hündürlüyü 5,7 m-ə çatır (şəkil 1). Narınqalanın şimal və qərb divarlarının geniş bir sahədə içəridən açılaraq tədqiq edilməsi bu istehkam tikilisinin Arran memarlıq məktəbinin şah əsərlərindən olduğunu faktik dəlillərlə bir daha təsdiqləməyə əsas vermişdir.



Şəkil 2. IV qazıntının şimal-qərb sektoru, XIX əsr təbəqəsinin tədqiqi.



Şəkil 3. IV qazıntının qərb sahəsi. Cənubdan görünüş.

IV qazıntı sahəsinin yeni kvadratlarında tədqiq olunan üst mədəni təbəqə XIX əsrə aid olub qalınlığı 50-80 sm təşkil edir. Bu mədəni təbəqədə bünövrəsi çaydaşından qoyulmuş tikintilərin qalıqları, daş topaları, dirək qalıqları, quyu və s. aşkarlanıb (şəkil 2-3). Arxeoloji qazıntı prosesində XIX əsrə aid tikinti qalıqları ilk təpkeşdən aşkarlanmağa başlanılmışdır. Üst mədəni təbəqədə 15Q kvadratında 10 sm dərinlikdən aşkarlanan şimal-şərqdən cənub-qərbə istiqamətlənən divar qalığı 14L kvadratının sonunadək davam edir. Çaydaşından hörgünün iki cərgəsi qalıb. Divarın uzunluğu 8,1 m, eni 85 sm-dir. Divarın ortasında 1,1 m enində qapı yeri üzə çıxarılıb. Qapı yerində üfüqi yerləşmiş ağac qalığı, ola bilsin ki, qapının çərçivəsinin çürüntüləri qeydə alınıb. Üst mədəni təbəqədə üzə çıxarılan tikinti qalıqları arasında 13P-14R, 11N- 13N kvadratlarını və onların ətrafındakı sahəni əhatə edən, planda dördkünc biçimdə tikili qalığı önəmlidir. Tikili çaydaşından və abidənin ərazisindən toplanan kərpic parçalarından hörülüb. Bu tikilidən şimalda çaydaşından hörülmüş divarın qalıqları 4,6 m izlənib. Hörgünün 4 cərgəsi qalıb. Bu divara cənubdan perpendikulyar birləşən, eni 96 sm olan divar yalnız 2,76 m məsafədə qalıb.


Narınqalanın qərb divarına yaxın, uzunluğu 21 m olan, cənub-şimal istiqamətli çoxotaqlı komleksin qalıqları üzə çıxarılıb (şəkil 3). Cənub tərəfində ona şərqdən 15,1 m uzunluqda divar birləşir, eləcə də şimal tərəfdə şimala və qərbə doğru divar qalıqları izlənir. Qalıqlar vaxtilə kompleksin geniş sahəni əhatə etdiyini ehtimal etməyə əsas verir. Amma, bina güclü dağıntıya məruz qaldığından, divarların bəzi yerlərdə bünövrəyədək dağıldığından onun plan quruluşu, konstruktiv xüsusiyyətləri və təyinatı haqqında fikir söyləmək çətindir.

12F kvadratında üst mədəni təbəqədə bişmiş kərpiclə döşənmiş döşəmə qalıqları üzə çıxarılıb. Onun bir tərəfi çökmüşdü. Çökmüş tərəfin kənarı ilə hündür tərəfin arasındakı fərq kifayət qədər olub 40 sm çatırdı. Döşəmənin kənarında yerləşən, çirkli suyun quyuya axmasını təmin edən tünglər qırıqlar halında idi. Quyu planda düzgün olmayan dairə formasında olub diametri ağzında 65-70 sm, dərinliyi 1,1 m idi. Görünür, XIX əsrdə burada yuyunma otağı olmuşdur.

Üst mədəni təbəqədən aşkarlanan tapıntılar ənənəvi olub qəlyan başlıqlarından, dəmir məmulatından, mis kasa və qaşıqdan ibarətdir. Mis kasaya qalay çəkilmişdir.

2012-ci ildə orta əsr təbəqəsinin tədqiqinin nəticələri xüsusilə əhəmiyyətli olmuşdur. İlk növbədə monumental binanın tədqiqindəki yeni nəticələr üzərində dayanmaq məqsədə uyğundur. Monumental binanın şərqində 2 saylı otaq döşəməyədək tam tədqiq olunmuş, cənub tərəfində isə 6 və 7 saylı otaqların tədqiqinə başlanılmışdır. Müəyyən edilmişdir ki, 2 saylı otağın divarlarında hörgünün alt cərgələri çaydaşı ilə kirəcli məhlulla hörülüb, üst cərgələr isə çiy kərpicdəndir (şəkil 4). Daş hörgüdən çiy kərpic hörgüyə keçiddə antiseysmik ağac qurşaqların qalıqları qeydə alınıb. Həmin qalıqların laboratoriyada öyrənilməsi antiseysmik qurşaqlarda diametri 14-16 sm olan palıd tirlərdən istifadə olunduğunu göstərmişdir. Otağın döşəməsi kirəcli qatla örtülmüşdü, şimal tərəfində ərzaq saxlamaq üçün quyu vardır (şəkil 5). Quyu ağzınadək nəbatı qalıqlar ilə dolu idi. Nəbatı qalıqların Veseda Universitetinin əməkdaşı tərəfindən mikroskop altında analizi onun darı olduğunu müəyyənləşdirməyə imkan vermişdir.

Monumental binanın cənubunda yerləşən 5, 6 və 7 saylı otaqlar müəyyənləşdirilib. 1 saylı otaqdan qərbdə yerləşən 5 saylı otaq əsasən XIX əsr binasının qalıqları altında qaldığından onun tədqiqinə başlanılmayıb. Ondan qərbdə yerləşən 6 və 7 saylı otaqların tədqiqi isə başa çatlayıb. 6 saylı otaqda döşəmə hələ üzə çıxarılmasa da daş hörgünün xeyli təmizlənməsi, mədəni təbəqənin xarakteri döşəməyə az qaldığını söyləməyə əsas verir. Nisbətən yaxşı qalmış cənub-qərb küncündə təmizlənmiş divarların hündürlüyü 3,3 m təşkil edir. Daş hörgü şərq, cənub və qərb divarlarında 50-60 sm hündürlükdə təmizlənib. Amma, cənub divarda təmir aparıldığından şərq tərəfində 1,5 m məsafədə daş hörgünün hündürlüyü 1,9 m-ə çatır. Daş hörgüdən çiy kərpic hörgüyə keçiddə antiseysmik qurşaqlar yerləşdirilib (şəkil 6).



Şəkil 4. Monumental bina. 2 saylı otağın şərq divarı.



Şəkil 5. 2 saylı otaqda ərzaq quyusu.



Şəkil 6. Monumental bina. 2 saylı otaq.



Şəkil 7. Monumental binanın şimal hissəsi.

Qazıntılar nəticəsində binanın sütunlu həyəti haqqında maraqlı faktlar üzə çıxarılmışdır. Həyətin uzunluğu 24,9 m-25,1 m, eni isə şimalda 14,9 m-dir. Müəyyən edilmişdir ki, həyətin şimal divarından 2, 73 m aralı 12 F kv-tında başlanan 7 saylı sütunadək davam edən arakəsmə divar həyətin bir tərəfini kəsərək bir növ dəhlizə bənzər, eni 3,3 m olan məkan əmələ gətirib. Arakəsmə divar yuxarıya doğru daralır və 2,7 m hündürlükdə bu daralma 60 sm fərq edir (şəkil 7). Belə ki, hörgünün aşağı cərgələrində divarın eni 1,6 m olduğu halda, üstdə 1,1 metrdir. Monumental binanın həyətinin şimal-qərb küncündə güclü yanğın olmuşdu. Yanğını sənədləşdirən kömür, kül qatının qalınlığı 2 m-ə yaxın idi. Maraqlıdır ki, yanğın qatının alt hissəsindən yanaraq kömürlənmiş şaftalı, gavalı, zoğal çəyirdəkləri, xiyar, qarpız tumları da tapılmışdır. Bu tapıntılar monumental binada yanğın ilə müşayət olunan bu dağıntının yay aylarında, ehtimal ki, avqust – sentyabr aylarında baş verdiyini göstərir. 2 saylı otaqdakı ərzaq saxlanılan quyuya doldurulmuş darının istifadə edilmədən dağıntı altında qalması da buna dəlalət edir. Əgər 2011-ci ildə 3 saylı otaqdan dağıntı qatından tapılmış dəfinəni nəzərə alsaq onda bu hadisənin XI əsrin əvvəllərində, yay fəslində baş verdiyini söyləyə bilərik.

Yanğın qatından cənubda 10-11 F, H kvadratlarında çınqıl qatından xeyli kürə divarlarının qırıqlarının tapılması diqqəti çəkir .

IV qazıntı sahəsinin şimal-şərq kvadratlarında,16 A, 16 B və 17A, 17B kvadratlarında, monumental binanı dövrələyən qəsr divarı ilə dar, eni 1,32 m olan küçə və ya keçidin arasındakı tikilinin tədqiqi bu ildə də davam etdirilib. Tikilinin şimal (şəkil 8) divarının eni 106 sm olub bayır, küçə tərəfdən ona qalınlığı 3,5-4 sm olan suvaq çəkilib. Küçədən tikiliyə keçməyə imkan verən qapı aşırımının eni 1,2 m-dir. Diqqəti qapı açırımının sağ, qərb divarında hörgüdə 45x45x6,5 sm, 46x46x6,5 sm ölçüdə kərpiclərin adi orta əsr kərpicləri (24x24x6 sm) ilə birgə işlədilməsidir. Dörd sıra bişmiş kərpicdən sonra hörgü çiy kərpiclə davam etdirilib. Qapı aşırımının sol, şərq tərəfində isə alt cərgələr çaydaşından, sonra çiy kərpiclə hörülüb. Qapı aşırımının qərb tərəfindəki çiy kərpic hörgü güclü dağıntıya məruz qaldığı halda, şərq tərəfdə 1,1 m hündürlüyədək salamat qalıb. Üst cərgədə qeydə alınmış bişmiş kərpiclər 23 x 23 x 6 sm, 22,5 x 22,5 x 5 sm ölçüdədir.



Şəkil 8. Dar küçayə çıxışı olan tikilinin qalıqları.



Şəkil 9. IV qazıntının qərb sahəsi. Cənubdan görünüş.




Şəkil 10. IV qazıntının qərb sahəsi. Orta əsr təbəqəsinin tədqiqinə başlanılması.



Şəkil 11. Qarışıq hörgü ilə inşa olunmuş divar qalığı (XII-XIII əsrin əvvəlləri).



Şəkil 12. Üzəri hörülmüş quyu.



Cizgi 1. 2012-ci ildəki qazıntının planı.

Cizgi 2. Qazıntının kəsikləri.

Şimal divarından 1,1 m cənuba daha bir açırım yerləşir. Buradakı qərb tərəfdəki sütunabənzər hörgü çiy kərpicdəndir, eni 80-84 sm, salamat qalmış hündürlüyü 1,8 m-dir.

Şərqdəki divar - sütunun beş cərgəsi bişmiş kərpiclə-23x23x5 sm, 24x24x5,5 sm, 23,5x23,5x5,5 sm ölçülərdə kərpiclərlə hörülüb. Eni 80-84 sm, salamat qalmış hündürlüyü 1,7 m. Onunla tikilinin şimal divarının arasındakı boşluq, uçulub tökülmüş çiy kərpic və bişmiş kərpic töküntüləri ilə dolmuşdu. Otağın içərisi düzbucaq biçimdə olub şərq-qərb istiqamətində 3,9 m, şimal-cənub istiqamətində 2,3-2,68 m. Qərb divarının alt iki cərgəsi çaydaşı və bişmiş kərpiclə hörülüb, üstü isə çiy kərpicdəndir. Divarın qalığının hündürlüyü 1,85 m-ə çatır. Tikintinin cənub divarını monumental binanın şimal divarı təşkil edir. Onun hörgüsünün alt cərgələri 90 sm hündürlüyədək çaydaşından kirəcli məhlulla hörülüb. Daha sonra çiy kərpiclə hörgü davam edir və hündürlüyü 2,9-3 m. Şərq divarının ilk cərgələri və bünövrəsi çaydaşındandır. Daha sonra isə çiy kərpiclə hörgü davam etdirilib. Divarın hündürlüyü 3,1 m-ə çatır. Eni isə 1,1 m-dir. Döşəmənin altına çaydaşı sıx döşənərək üzərinə şirə-suvaq çəkilib. Suvağın qalınlığı 5-8 sm-dir. Otaqda güclü yanğın olduğundan döşəmədə suvaq qatı yanaraq çəhrayı rəng almışdır. Otağın içərisində isə yanğın qatının qalınlığı 2 m-ə çatır. Diqqəti çəkən monumental binanın şimal divarında və həmin divara birləşən divarda çiy kərpiclərin ölçüsü 32x32 x 8 sm olduğu halda daxili qapı yerinin ətraflarındakı hörgüdə çiy kərpiclər 25x25x6 sm, 26x26x6 sm ölçüdədir.

Bu otaqdan qərbdə daha bir otaq yerləşir. Onun qərb divarını monumental binanın şimal divarındakı mərkəzi bürc, cənub divarını isə həmin tikintinin divarı təşkil edir. Həmin otağın şimal divarında yerləşən qapı yerinin eni 1,1 m idi. Onun şərq-qərb istiqamətində uzunluğu 3,8 m, şimal-cənub istiqamətdə 3,85 m-dir. Bürcün qarşısında otağın şimal divarı daha yaxşı qalıb. Onun bünövrəsi çaydaşından olub hörgünün hündürlüyü 3,4 m təşkil edir.

IV qazıntı sahəsinin qərb hissəsində orta əsr təbəqəsinin tədqiqi XII-XIII əsrin tikintilərinin bünövrəyədək dağıdıldığını nümayiş etdirir (şəkil 9-10). Üst inşaat qatında çaydaşı, bişmiş kərpic və çiy kərpicdən istifadə etməklə qarışıq hörgü üslubunda inşa olunmuş divar qalıqları üzə çıxarılıb. Onların güclü dağıntıya məruz qalması tikintilərin plan quruluşunu, konstruktiv xüsusiyyətlərinin və təyinatını dəqiq müəyyənləşdirməyə imkan vermir. 16N, 15N və 15P kvadratlarında yerləşən, çaydaşı və bişmiş kərpicdən inşa olunmuş tikintinin yalnız şimal və şərq divarlarını təmsil edən bir cərgə hörgü qalıb. Bu tikintinin cənub-şərq küncündən 60 sm aralı 23x23x5 sm ölçülü bişmiş kərpiclərlə hörülmüş sütunun qalıqları uzunluğu 1,8 m, eni 97 sm-dir. Hörgünün 8 cərgəsi salamat qalıb. Sütundan cənubda, demək olar ki, tam dağıdılmış tikintinin divarının qalıqları qeydə alınıb.

12M-16M kvadratlarında şimaldan cənuba uzanan qarışıq hörgülü divar qalıqları üzə çıxarılıb. Bişmiş kərpic, çaydaşı və müəyyən qədər də çiy kərpiclə hörülmüş bu divarın qalıqları 17,8 m-dən artıq məsafədə üzə çıxarılıb (şəkil 10). Müəyyən olunmuşdur ki, bişmiş kərpic və çaydaşı ilə hörülmüş bu divarda təmir işləri çiy kərpiclə və kobud aparılmışdır.

Tədqiqat zamanı həm də, şəhərin çiy kərpiclə inşa olunan mülki tikintilərin hörgüsündə, bişmiş kərpiclə qurşaq salmaq ənənəsinin mövcudluğu müəyyən edilib. Şərqdən qərbə istiqamətlənmiş, 11S kvadratında narınqalanın qərb divarına birləşən tikintinin bünövrəsi çaydaşından, divarları isə çiy və bişmiş kərpiclərdən hörülüb. Nisbətən yaxşı qalmış divarın eni 64 sm, qalıqlarının uzunluğu 8,1 m-dir. Hörgünün aşağı ilk cərgəsi bişmiş kərpiclə, sonrakı 9 cərgəsi çiy kərpıclə horülüb. 10-cu cərgə bişmiş kərpiclə icra olunub və bir növ qurşağı xatırladır. Görünür, belə bir qurşaq hörgünün möhkəmliyini, davamlığını artırırdı. Bu qurşağın üzərində isə 17 cərgə ciy kərpic hörgü vardır.

10N, 10P kvadratlarında qarışıq hörgü ilə inşa olunmuş divarın qalıqları aşkarlanıb (şəkil 11). Bünövrə çaydaşından qoyulub. Divar qalıqlarının uzunluğu 2,94 metrdir. Görünür, divar şərqə davam etmişdir. Belə ki, bu qalıqlardan 2,4 m şərqdə çaydaşından bünövrə qalıqları üzə çıxarılıb. Divarın üzərinə həndəsi naxış – kvadratlar və düzbucaqlar salınıb.

Orta əsr mədəni təbəqəsinin üst inşaat qatında çiy kərpicdən inşa olunan tikinti qalıqlarında kərpiclərin ölçüləri kiçik olması, bişmiş kərpiclərə oxşar, yəni 23x23x5 sm, 24x24x5 ölçülərdə hazırlanması və hörgünün üfüqi və şaquli aparılması ilə divar səthində bəzək salınması ilə diqqəti çəkir.




Şəkil 15. Polixrom şirli xeyrə.



Şəkil 16. Polixrom şirli boşqab.



Şəkil 17. Minai tipli qab fraqmenti.



Şəkil 18. Zərnaxışlı fayans qab fraqmenti.

4Q kvadratında bişmiş kərpiclə hörülmüş cənub - şimal istiqamətli divar 2,5 m uzunluqda aşkara çıxarılıb. Oradan şərqdə bişmiş kərpiclə döşənmiş döşəmənin qalıqları üzə çıxarılıb. Onun uzunluğu 1,2 m, eni 2,2 m olub qeyri – düzgün həndəsi formadadır. Döşəmədən şimalda ona bitişik kiçik təndir və ya kürə qalığı aşkarlanıb. Onun ətrafı yarımkərpic və kərpic fraqmentləri ilə hörülmüşdür. Kürə və ya kiçik təndirin qalığının diametri dibində və ağzında 33-34 sm idi. O, silindrik formada idi. Hündürlüyü 22 sm. Divarının qalınlığı 2,2-2,3 sm idi. Ətrafında bişmiş kərpic fraqmentləri və yarımkərpiclərlə qurulmuş səki, görünür, trapes formasında olmuşdu. Səki 3 cərgə hörgüdən ibarət olmuş, hündürlüyü 22-23 sm idi. Təndirin içərisi tərkibində çoxlu kömür qırıntıları və kül ilə dolu idi. Təndir və ya kürədən 52 sm şimalda çiy kərpicdən hörgünün 7-8 sm cərgəsi aşkarlanıb. Bu divarın eni 50 sm, hündürlüyü 40 sm idi. Kərpiclər kiçik ölçülü olub 24 x 24 x 5 sm. Bu kompleksdəki bişmiş kərpiclər isə 23 x 23 x 5 sm, 22,5 x 22,5 x 5 sm. Çiy kərpicdən hörülmüş divar şərq - qərb istiqamətli olub uzunluğu 4,3 m-dir. Dörd cərgəsi üfüqi, beşinci isə dikinə hörülüb. Dikinə qoyulmaqla icra olunmuş hörgü 76 sm məsafədə tam salamat qalmış, 94 sm məsafədə isə dağıntıya məruz qalmış halda idi. Daha sonra, divarının qərb tərəfi tamamilə dağılmışdır. Bu divar 5K və 5Q kvadratlarında yerləşir. Kompleksin davamı 6Q kvadratında da izlənir. Çiy kərpicdən hörülmüş divardan şimala torpaq döşəmə üzərinə şirə çəkilmişdir. Divardan 140 sm şimalda ocaq yeri aşkarlanıb. Onun fərqləndirici xüsusiyyəti dairəvi çuxurda qabın aşağı hissəsinin yerləşdirilməsi və ocaq kimi istifadə olunmasıdır. Ocağın içərisi ağ kül ilə dolu idi. Ocaqdan bir ədəd mis pul tapıldı. Ocağın diametri 34 sm, dərinliyi 12,5 sm-dir. Ocaqdan 1,28 m qərbdə bişmiş kərpicdən eni 50 sm olan divar qalığı üzə çıxarılıb. Ocaqdan 1,5 m şimalda üzə çıxarılan bişmiş kərpicdən döşəmə qalığı da bu kompleksə daxildir. Onun uzunluğu 2,5 m, eni 140-150 sm. Burada qopmuş kərpiclərin izlərinin, kirəc qalıqlarının üzə çıxarılması döşəmənin daha geniş ərazini əhatə etməsinə dəlalət edir. Döşəməni hüdudlayan qərb divarı da güclü dağıntıya məruz qalıb. Onun eni 56 sm idi. Hörgü kirəcli məhlulla icra olunub. Bu divar, görünür, 5Q kvadratının qərbindəki hörgü qalığı ilə birləşibmiş və uzunluğu 4,4 m çatır. Döşəmədən şərqdə bişmiş və çiy kərpic qarışıq hörgünün üç cərgəsi qalıb. Burada üzərində hörgü olan quyu yerləşir.

6Q kvadratında üzə çıxarılmış quyunun üzəri bişmiş kərpiclərlə və düzbucaqlı ağ puc daşla hörülüb (şəkil 12). Onun uzunluğu 100sm, eni 78 sm idi. Döşəmənin qərb tərəfində 23,5 x 13,5 sm açırım var. Quyunun dərinliyi 2,05 m-dir.



Şəkil 13. Dəhrə.



Şəkil 14. Dəmir əşya.



Şəkil 20. Şüşə qab qırığı.



Şəkil 21. Zoomorf elementli saxsı qapaq.

2012-ci ildə Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılar zamanı əldə edilmiş tapıntılar əmək alətlərindən, ox ucluqları ilə təmsil olunan silah nümunələrindən, şirli və şirsiz saxsı, fayans qablardan və onların fraqmentlərindən, şüşə qab qırıqlarından, bəzək əşyalarından, sikkələrdən və nəbati qalıqlardan ibarətdir. Əmək alətlərindən bağçılıqda istifadə olunan XII əsrə aid dəhrə tipli alət diqqəti cəlb edir. Onun qatlanmış ucunda dişləri aydın izlənir (şəkil 13).

Qövsvari dəmir əşya isə formasının orijinallığı ilə fərqlənir (şəkil 14).

Xeyrə tipli iri tutumlu qabın içərisinə şir təsviri çəkilmiş, təsvirin fonu günəş rəmzi olan həndəsi elementlərlə bəzədilmişdir. Qabın divarında salınmış ornamental kəmərdə rəngli zolaqların növbələşməsindən ibarət dekor çəkilib. Haşiyədə isə epiqrafik naxış salınıb (şəkil 15).

Başqa bir polixrom boşqab fraqmentində nəbati fonda quş təsviri çəkilib. Yerliyin boşluğu üç-üç qruplaşdırılmış nöqtələrlə canlandırılmışdır. Dördləçəkli palmetta boşqab tipli qabın dekorunda mərkəzi mövqeyə malikdir. Ləçəklər arasındakı sektorlarda isə buketəbənzər naxış elementi yerləşdirilmişdir (şəkil 16). Minai tipli qab nümunələrindən biri yüksək bədiiliyi ilə fərqlənir. Kasanın dibində kompozisiyanın mərkəzində süvari təsviri çəkilib. İkonoqrafik əlamətlər onun səlcuqlulara mənsubluluğunu söyləməyə əsas verir (şəkil 17). İnsan təsvirlərinə zərnaxışlı fayans qab nümunələri üzərində rast gəlinir (şəkil 18). Şüşə qab qırıqlarından biri orijinal quruluşu ilə fərqlənir (şəkil 20).

Maraqlı tapıntılar sırasında silindrik formalı fayans vazanı, minai tipli və zərnaxışlı qab nümunələrini, nəbati naxışlı, üzəri təsvirli yaşıl şirli kaşıları, arakəsmə divarla ikiyə bölünmüş iri tutumlu şirli qazanı, ağacdan hazırlanmış, üzəri çevrələrlə bəzədilmiş əşyanın hissəsini, şahmat oyununda istifadə olunan piyada fiquru qeyd etmək olar.

2012-ci ilin arxeoloji qazıntılarının başlıca nəaliyyətləri sırasında Narınqalanın içərisində aşkarlanan monumental binanın sıradan çıxma vaxtının dəqiqləşdirilməsi, şəhərin mədəni həyatı ilə bağlı yeni arxeoloji materialların tapılmasını qeyd etmək olar.

Beləliklə, 2012-ci ildə aparılan çöl tədqiqatları nəticəsində Orta əsr Şəmkir şəhərinin istehkamlarına, monumental ictimai binalarına, şəhər məişətinə dair çox maraqlı maddi mədəniyyət qalıqları üzə çıxarılıb. Monumental ictimai binanın otaqlarından ikisi təmizlənmişdir. İnşası IX əsrə aid edilən bu binanın konstruksiyasına, inşaat texnikasına dair yeni faktlar əldə olunub. Monumental binadan tapılmış nəbati qalıqlar burada baş vermiş yanğın və binanın tərk olunma vaxtını müəyyənləşdirməyə əsas vermişdir.

Böyük Səlcuqlar dövlətinin mühüm mərkəzləri olan Rey və Kaşan şəhərləri ilə sıx iqtisadi-mədəni əlaqələri təsdiqləyən xeyli səlcuqlu keramikasının aşkarlanması da mühüm nəticələrdəndir.

Şəmkir arxeoloji ekspedisiyanın mühüm nailiyyətlərindən biri də konservasiya işləri ilə bağlıdır. Qazıntı zamanı üzə çıxarılan, uçmaq təhlükəsi olan tikililərin, o cümlədən Narınqalanın şimal və qərb divarlarında, monumental binanın otaqlarında, elecədə narınqalanın şimal-qərb bürcündə möhkəmləndirmə - konservasiyasıya işləri görülmüşdür.

Т.М.Достиев, Р.Ю.Баширов,
Н.Н.Гусейнли, Р.Г.Мирзеев

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ НА ГОРОДИЩЕ ШАМКИР

РЕЗЮМЕ

В 2012 г. Шамкирская археологическая экспедиция совместно с Общественной Организацией Развития Регионов, продолжила стационарные полевые исследования. Археологические раскопки велись, в основном, на цитадели городища. В результате IV раскопочный участок был расширен до западной стены цитадели более 2000 м^2, а общая площадь раскопа достигла около 4000 м^2.

Поставленная перед экспедицией цель заключалась в изучении внутренних сторон западной и северной стен цитадели, в продолжении исследования монументального здания, в выявлении новых данных по структуре цитадели и т.д.

Изученные остатки крепостных стен цитадели с внутренней стороны, в его северо-западном углу достигают 5,7 м высоты. Новые фактические данные, полученные в результате археологических исследований, позволяют с уверенностью утверждать, что фортификационные сооружения Шамкира являются жемчужиной Арранской архитектурной школы.

Верхний культурный слой раскопа IV, толщиной 50-80 см, новых исследованных квадратов относится к XIX веку. В этом слое обнаружены остатки строений с фундаментом из речного камня, остатки сгнивших столбов, зафиксированы каменные завалы, ямы и т.д.

В восточной части монументального здания изучено помещение №2, в южной части начались исследования помещений №6 и №7. Археологические исследования дали весьма ценные фактические данные для изучения колонного двора монументального здания.

Исследования средневекового слоя в западной части раскопа IV показывают, что строения XII-начала XIII веков были разрушены до фундамента. В верхнем строительном горизонте средневекового слоя выявлены остатки стен, возведенные комбинированной кладкой из булыжника, обожженного и сырцового кирпича. Сильные разрушения не позволяют определить их планировку, конструктивные особенности и назначение строений.

Археологические артефакты на городище Шамкир представлены орудиями труда, оружием, глазурованной и неглазурованной керамикой, фаянсовой посудой и их фрагментами, фрагментами стеклянных сосудов, предметами украшений и монетами.

Таким образом, в результате археологических исследований 2012 года получена ценнейшая информация по фортификационным сооружениям и общественным зданиям средневекового города Шамкир, о быте горожан. Получены новые факты по конструкции, строительной технике монументального здания IX века. Растительные остатки и остеологический материал имеют большое значение для изучения связей города с селами.

Одно из направлений Шамкирской археологической экспедиции связано с консервационными работами по укреплению строений, вскрытых археологическими раскопками. В частности, проведена консервация западной и северной стен, северо-западной башни цитадели и помещений монументального здания.

T.M.Dostiyev, R.Y.Bashirov,
N.N.Huseyinli, R.H.Mirzeyev

ARCHEOLOGICAL RESEARCHES OF SHAMKIR TOWN IN 2012

SUMMARY

The Shamkir archeological expedition continued its stationary, wide-scale archaeological researches in Shamkir town in 2012 within the joint project of the Institute of Archaeology and Ethnography of ANAS, the Ministry of Culture and Tourism of the Republic of Azerbaijan and the Public Association for Regional Development. The archeological excavations were mainly carried out in the town citadel. As a result the 4th excavation site was 2000m^2 widened to the citadel western wall, while the total square of the site became 4000m^2. It is the first time that 40% of the town citadel territory has been archeologically excavated in any medieval town of Azerbaijan.

The aim of the expedition was to study the inner sides of the citadel western and northern walls, to continue the researches of the monumental building, to find out the new details according to the citadel structure and so on.

The studied remains of the citadel fortress walls from the inner side are 5.7m high in its north-western corner. The new facts and details, received as a result of the archeological researches, allow us to confidently state that the fortification constructions of Shamkir are really the pearls of the Arran architectural school.

The upper cultural layer of the 4th site, which is 50-80cm thick in the new researched squares, refers to the 19th century. In this layer there were found the remains of the buildings, the foundations of which were set by river pebble, the remains of the rotten poles, the stone falls, the holes and so on.

The results of the studies of the medieval cultural layer are very important for a medieval town of Azerbaijan. Let's look through the results of the researches of the monumental building. Room № 2 has been studied up to the floor in the eastern part of the building, while the studies of rooms № 6 and № 7 were started in the southern part.

The archeological researches gave very valuable details and facts for the studies of the column yard of the monumental building.

The studies of the medieval layer in the western part of the 4th site show that the buildings of the 12th – the beginning of the 13th centuries were destroyed till the foundation. The remains of the walls, which were built by river pebble, fired bricks and mud-bricks, were found in the upper constructing horizon of the medieval layer. The bad damages don't let us determine the planning, constructive features and destination of the buildings.

The finds of the archeological excavations in the Shamkir town include agricultural tools, weapons, glazed and unglazed ceramic, pottery vessels and its patterns, the fragments of the glass manufacture, decorations and copper coins.

So, the results of the archeological excavations in 2012 gave the most valuable information on the fortification and public buildings of Shamkir town, on the mode of life of its people. There have been received new facts on construction and building techniques of the 9th century monumental building. The vegetable remains and the osteological material, received during the excavations, are very important for the studies of the ties of the town with its suburbs.

One of the Shamkir archeological expedition operations covers the conservation on the strengthening of the constructions, uncovered while the excavations. The conservation works were particularly carried out in the western and northern walls, in the north-western tower of the citadel and in the rooms of the monumental building.

ŞAMAXI ARXEOLOJİ EKSPEDİSİYASININ APARILAN ARXEOLOJİ TƏDQİQAT

(Şamaxı rayonu)

Ş.S.Əhmədov, L.Ş.Əhmədova



Şirvanşahlar saray kompleksinin qazıntı sahəsinin bir hissəsinin görünüşü.


2012-ci ildə Şamaxı şəhərindəki 1 №-li məktəbin həyətində aşkar edilmiş abidədə arxeoloji tədqiqat işləri davam etdirilmişdir. Abidə X-XII əsrlərə aid olub şəhərin ən hündür yerində inşa edilmişdir. Abidənin üst təbəqəsində müxtəlif tullantılar, tikinti qalıqları həmçinin bir-birindən 60 sm aralı qır örtüyü var idi. Təqribən, 20-25 sm aşağıda isə müxtəlif daş və kərpic qalıqlarına rast gəlinirdi. Bunlar abidənin üst hissəsi sökülərkən divarların yerində qalan daş və kərpiclərin qalıqları idi. Abidədən, əsasən asan sökülən, hamarlanmış və nisbətən böyük əhəng daşları çıxarılıb aparılmışdır. Buna görə də çox möhtəşəm olan bu abidənin üst hissəsi bəzi yerdə daha çox, bəzi hallarda isə nisbətən az sökülmüşdür. Hörgüdə istifadə edilən möhkəm kirəc məhlulu abidənin sökülməsinin qarşısını nisbətən almışdır. Kirəc məhlulunu bəzi yerlərdə divarın ortasına-cərgələr arasına da tökmüşlər ki, bu da hörgüyə əlavə möhkəmlik vermişdir. 1,2 m dərinlikdə sarı torpaq (gil) təbəqəsi aşkar olundu ki, bunun nə məqsədlə edildiyini müəyyən etmək mümkün olmadı. Abidənin çox hissəsi hal-hazırda fəaliyyət göstərən məktəbin altında qalmışdır. 2011-ci il qazıntıları zamanı abidənin aşkar edilmiş hissəsi onun zirzəmisi olmuşdur. Abidənin yeraltı hissəsinin-zirzəmisinin fundamental işlənməsi, vaxtilə onun yerüstü hissəsinin hündürlüyünün 12 m qədər olduğunu ehtimal etməyə əsas verir. Binanın xarabalıqları keçən əsrin ortalarına qədər saxlanmışdı. Məktəbin tikintisində də abidədən çıxarılmış daşlardan istifadə edilmişdir. Həmçinin məktəb binasının tüstü boruları abidədən sökülən su tünglərindir.

Bu ilki qazıntılar 12 kvadratda davam etdirilmişdir (Şək.1, Şək.2). Şimaldan cənuba doğru 9 kvadrat, şərqdən qərbə tərəf isə 3 kvadrat var idi. Üst təbəqənin qalınlığı 1,8 m. idi. Abidənin hər yerində kərpic və daş qırıqlarına rast gəlinirdi. Birinci, ikinci və üçüncü kvadratlarda qalın kül təbəqəsinə rast gəlindi. Bəzi təbəqələrdə nizamsız tökülmüş çay daşlarına rast gəlinirdi. Divarın üst hissəsində bəzi yerlərdə kərpiclər divardan qopsa da yerində qalmışdı. Abidənin divarının bir hissəsi sökülmüş, amma olduğu kimi yerində qalmışdı. Qazıntı zamanı məlum oldu ki, divarın yalnız kənar hissələri əhəng daşı ilə hörülmüşdür. Divarın künclərində istifadə olunan böyük əhəng daşları cilalanmışdır. Hörgünün daxilində bəzən dikinə qoyulmuş kərpiclərdən istifadə edilmişdir. Hörgüdə əhəng daşı və kərpic qatları bir-birini əvəz etmişdir. Yəni birinci əhəng daşı sonra kərpic, yenidən əhəng daşı kərpic və kənar hissə yenidən əhəng daşı ilə hörülmüşdür. Bu tikinti texnikası abidənin hər yerində (zirzəmi istisna olunmaqla) təkrar olunmuşdur. Zirzəmidə divarın aşağı hissəsi möhkəm olduğundan dağıntıya az məruz qalmışdır. Belə tikinti texnikasına müasir dövr tikililərində də rast gəlinir. 2,2 m dərinlikdə 11,3 m uzunluğu olan divar aşkar edildi. Üzərinə suvaq çəkilmişdi. İkinci kvadratda çoxlu əhəng daşı və kərpic qalıqlarına rast gəlindi. Daşların alt hissəsində gil və kül qatı da mövcud idi. Bu kvadratda hörgünün üst hissəsinə 1,8 m dərinlikdə rast gəlindi. Burada divarın üst qatı hamar deyildi. Divar uçurularkən daşlardan bir neçəsi hörgü üzərində qalmışdı. Həcminə görə çox böyük olan bu daşlar cilalanmışdı. Görünür hörgünün yuxarı hissəsi böyük və cilalanmış, ornamenti daşlarla, aşağı hissəsi isə nisbətən kiçik hamarlanmamış daşlarla hörülmüşdür. Binanın həm aşağı, həm də yuxarı hissəsində kirəcdən istifadə etmişlər. Üçüncü kvadrat sahəsində də müxtəlif məişət və təsərrüfat tullantılarına, həmçinin daş və kərpic qırıqlarına rast gəlindi. Divarın üst hissəsində işlənən kərpiclər iki ölçüdə idi: 20x20x3 sm, 30x30x5 sm kərpiclər yaxşı bişirilmiş, gilinin tərkibində narın qum dənəciklərinə rast gəlinirdi.

Əgər, 2011-ci ildə arxeoloji qazıntılar zamanı bu abidəyə Şirvanşahlar saray kompleksinin qalıqları şübhəsi ilə yanaşılırdısa, bu ilki qazıntılar tamamilə bu ehtimallara son qoydu. Bu ilki qazıntılar zamanı abidənin bir hissəsi açılmışdır. Abidənin qalan hissəsi yuxarıda qeyd etdiyimiz kimi 1939-1946-cı illərdə tikilən məktəbin altında qalmışdır.

Abidədən 90 metr aralıda şəhərin XI-XII əsrlərdə tikilən Narınqalası yerləşir. Abidədə ən maraqlı cəhətlərdən biri onun kənar hissəsinin əhəng daşı ilə, mərkəzi hissəsinin isə 30x30x5 sm ölçülü kərpic ilə hörüldüyünün aşkar edilməsidir.

Arxeoloji qazıntı zamanı çoxlu məişət və təsərrüfat qablarının fraqmentləri əldə edilmişdir. Bu materiallar əsasən IX-XII əsrləri əhatə edir. Bu abidəni Şirvanşahlar saray kompleksi içərisində orijinal quruluşa malik maraqlı memarlıq abidəsi hesab etmək olar (Plana bax). Burada gələcəkdə aparılacaq arxeoloji qazıntılar qaranlıq suallara cavab verəcəkdir.



Qazıntı sahəsinin ümumi planı.

Ш.С.Ахмедов, Л.Ш.Ахмедова

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ ШЕМИХИНСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

Дворцовый комплекс Ширваншахов XI–XII вв., с архитектурной точки зрения, можно считать одним из жемчужин средневекового зодчества. При строительстве стенных перегородок этого памятника использовался, в основном, кирпич. Наряду с фрагментами поливных и неполивных бытовых и хозяйственных сосудов, обнаруженных во время археологических раскопок, здесь найдены также средневековые монеты, чеканенные в Шемахе. На этот памятник 13 линиями из керамических труб разных диаметров была проведена вода. Недалеко от памятника находится средневековая цитадель.

Sh.S.Ahmedov, L.Sh.Ahmedova

ARCHAEOLOGICAL RESEACHES OF SHEMAKHA EXPEDITION

SUMMARY

The complex of the Shirvanshahs Palace in terms of architecture can be considered as the most beautiful pearl of medieval architecture. A lot of bricks were used during the building of wall partitions of this monument. Along with fragments of medieval household glazed and unglazed crockery revealed during the archaeological excavations was found coins mint in medieval ages in Shamakhy.

It was laid on to this monument water supply with 13 water pipe lines of different diameters. Very close to the monument there is medieval castle “Narin Qala”of the city. This, XI - XII century monument is distinguished for its grandiose building.

AĞSUDA YENİ TAPINTILAR
(Ağsu rayonu)

Q.C.Cəbiyev, F.S.Xəlilli, E.İ.Abbasova



Qazıntı sahəsinin ümumi görünüşü.

Ekspedisiya 2012-ci ilin mart-noyabr ayları ərzində fəaliyyətdə olmuşdur. Tədqiqatlar əvvəlki illərdə olduğu kimi 2012-ci ildə də əsasən Orta əsr Ağsu şəhər yerində aparılmışdır.

Orta əsr Ağsu şəhər yerində 2012-ci ildə qazıntı işləri şərti olaraq VI və VII qazıntı sahələri adlandırılan ərazilərdə aparılmışdır. VI qazıntı sahəsi üçün şəhərin coğrafi baxımdan mərkəzində yerləşən ərazidə, uzunluğu şimal-cənub istiqamətində 35 m, eni şərq-qərb istiqamətində 30 m, olmaqla ümumilikdə, 1050 kvadratmetr sahə seçilmişdir. Sahə 5 x 5 m olmaqla 42 kvadrata bölünmüşdür. Şəhərin ümumi topoqrafik əlamətləri ilə bağlı müşahidələrimiz VI sahənin daha çox istehsalat rayonuna aid ərazi olduğunu düşünməyə əsas verir. Ərazinin üst qatı götürülərkən üzə çıxan çoxsaylı ocaq yerləri, iri yanğın izləri və ətrafa səpələnmiş bişmiş kərpic ovuntuları da qeyd olunan sahənin şəhərin istehsalat məhəlləsi olduğundan xəbər verir. Bu əlamətlər ərazidə daha çox məhz bişmiş kərpic və kirəmit istehsalının cəmləşdiyinin göstəricisi kimi də izah oluna bilər. Ola bilsin ki, həmin sahənin lap yaxınlığında yerləşən Cümə məscidinin tikintisində istifadə olunmuş kirəmit və bişmiş kərpic məhz buradakı istehsal ocaqlarında hazırlanmışdır.

Qazıntılar davam etdirilərkən sahənin cənub tərəfində bir-birinə bitişik vəziyyətdə olan bir neçə yardımçı tikinti qalıqları və daş döşənmiş küçə qalıqları aşkar edilmişdir. Tədqiq olunan tikintilərin hamısının, əsasən bünövrə hissəsi qalmışdır. Tikintilər yonulmuş çay daşından olmaqla palçıq məhlulla inşa edilmişdir. Fikrimizcə, həmin tikililər daha çox ayrı-ayrı istehsalat sahələri ilə, xüsusən də dulusçuluqla məşğul olan ustalara aid emalatxana və yaşayış binalarının qalıqlarından ibarətdir.

VI sahədə tədqiqat işlərinin davam etdirilməsi ilə paralel şərti olaraq VII sahə adlandırılan ərazidə də qazıntılara başlanılmışdır. VII qazıntı üçün şəhər ərazisindəki ən çökək yer seçilmişdir. Hansı ki, həmin çökəklik kosmosdan çəkilmiş fotolarda belə aydın izlənilir. Ətraf kəndlərin yaşlı

sakinləri həmin çökəkliyin Ağsu şəhərinə aid zindan olduğunu ehtimal edirlər. Yerüstü əlamətləri həmin çökəkliyin su anbarı olduğu ehtimalını da söyləməyə əsas verir. Yeri gəlmişkən bildirək ki, yaşlı sakinlər arasında da bu cür düşünənlər var. Bəhs edilən çökəkliyin təyinatını müəyyənləşdirmək məqsədi ilə əvvəlcə çökəkliyin şimal-şərq küncündə kiçik miqyaslı yoxlama qazıntısı qoyuldu. Məqsəd, çökəkliyin şimal və şərq kənarları boyunca divar qalıqlarının olub-olmadığını müəyyənləşdirmək idi. Maraqlıdır ki, qazıntı davam etdirilərkən çökəkliyin həm şimal, həm də şərq tərəfdə divar qalıqları olduğu müəyyənləşdirildi. Bu əlamətlər qeyd olunan çökəkliyin ərazisində hansısa möhtəşəm tikintinin olduğunun göstəricisi idi. Bunu nəzərə alaraq ekspedisiya VI sahədə işləri dayandıraraq bütün qüvvəni VII sahənin tam şəkildə öyrənilməsinə yönəltdi.



IV qazıntı sahəsində divar qalıqları.

VII sahədə qazıntının ümumi uzunluğu 30 m, eni 8 m təşkil edir. Çökəkliyin içərisində çoxlu miqdarda daş töküntüsü vardı. Onların da hamısı tikintidə istifadə olunmuş, yəni, ən azı bir tərəfi yonulmuş daşlardır. Təbiidir ki, bu əlamətin özü də ərazidə möhtəşəm tikintinin olduğundan xəbər verirdi.

Tədqiqatlar davam etdirilərkən tikintinin şərq divarının içəri tərəfdən gəc məhlulu ilə səliqə ilə suvandığı məlum oldu. Şimal tərəfdə isə binaya girişə aid olan daş pilləkən qalıqları aşkara çıxarıldı. Təmizlənmiş pillələrin sayı 20 ədəddir. Pilləkənin eni 1,3 metrdir. Qazıntı işləri davam etdirilərkən qərb və cənub istiqamətlərdə də divar qalıqları aşkara çıxarıldı və bütövlükdə binanın konturları tam şəkildə aydın oldu. Diqqət çəkən məqamlardan birisi də odur ki, binanın divarlarının möhkəmliyini təmin etmək məqsədilə iki yerdə ağac kəmər işlənmişdir. Sonradan divar suvanarkən həmin kəmər də suvağın altında qalmışdır.







Ağsu yaşayış yerində burxananın qalıqları.

Əvvəlcə şimal tərəfdə, binanın içərisinin döşəməyədək təmizlənməsi həyata keçirildi. Təmizləmə işi davam etdirilərkən tikintinin döşəməsinin bişmiş kərpicdən ibarət olduğu məlum oldu. Kərpiclərin ölçüsü 22x22x4 sm və 22,5x22,5x4 sm-dir. Tikintinin şimal hissəsində qazıntı davam etdirilərkən kərpic döşəmənin üzərində qalınlığı 70-80 sm olmaqla lil təbəqə qeydə alınmışdır. Tədqiqatın sonrakı mərhələsində lil təbəqəsinin eyni ilə bütün ərazini əhatə etdiyi müəyyən olundu. Bu o deməkdir ki, XVIII əsrin sonlarında güclü leysan yağışları və ərazini sel basması nəticəsində binanın içərisinə lilli su dolmuşdur. Suyu çəkildikdən sonra isə orada qalın lil təbəqəsindən ibarət çöküntü qalmışdır.

Tədqiqatların gedişi zamanı lil təbəqənin üstündə 1-1.2 metr qalınlığında olan bişmiş kərpic töküntüləri olduğu qeydə alınmışdır. Kərpiclərin əksəriyyəti gəcdən istifadə olunmaqla səliqə ilə hörülmüş divar parçaları şəklində, yəni topa vəziyyətdə qeydə alınmışdır. Maraqlıdır ki, kərpiclər hörgüdə tini üstə hörülmüşdür. Bütün bunlar isə qeyd olunan tikintinin üstünün bişmiş kərpiclə tağvarı formada bağlandığından xəbər verir. Görünür, binanın içərisi su və lil təbəqəsi ilə dolduqdan bir müddət sonra onun kərpic tağdan ibarət üst örtüyü də çökmüşdür. Bu, iki səbəb üzündən ola bilər: 1. Tikintinin özünün dözümsüzlüyü ucbatından. 2. Kənar təsirlər ucbatından. Tikintidən və onun ətrafından tapılmış xeyli miqdarda top mərmisi və güllələr binanın rus ordusunun Şirvana hücumu zamanı dağıdıldığını düşünməyə əsas verir.

VII sahədə qazıntı dərinə düşdükcə torpağın kənara çıxarılması xeyli çətinləşirdi. Təbiidir ki, dörd tərəfi möhtəşəm divarlarla əhatə olunan və yer səthindən 7.1 metr dərində olan sahənin torpağını, tör-töküntü vəziyyətdə olan daş və kərpicləri təmizləmək və onları kənara çıxarmaq ekspedisiya heyəti üçün getdikcə daha artıq çətinlik yaradırdı. Ona görə də sahənin hissə - hissə və mərhələlərlə təmizlənməsi praktikasından istifadə olundu. Yəni, qazıntının cənub-şərq kənarı saxlanılmaqla əvvəlcə sahənin şimal, mərkəz və qərb kənarları bütünlüklə kərpic döşəməyədək təmizlənildi. Cənub və cənub-şərq hissəsinin torpağı və töküntüləri isə xüsusi olaraq tikilmiş qurğuların köməyi ilə kənara daşındı. Yalnız bundan sonra cənub divarın döşəməyə bitişik hissəsində divara sonradan pərçimlənmiş və ətrafı gəc məhlulu ilə diqqətlə suvanmış iri daş divardan çıxarılmışdır. Bir daha təkrar edirik ki, bu daşın sonradan divara pərçimləndiyi aydın görünürdü. Həmin daş çıxarılarkən məlum oldu ki, oradan cənub istiqamətdə su və ya kanalizasiya xətti var. Hələlik həmin xəttin anbar-buzxana ilə əlaqəsi tam olaraq müəyyən edilməmişdir. İçərisi tam şəkildə təmizləndikdən sonra anbar-buzxananın ümumi görünüşü və bütün ölçüləri tam şəkildə müəyyən edildi. Beləliklə, tikintinin ümumi ölçüləri belədir: binanın ümumi sahəsi = 243.3 kv.m, içəridən uzunluğu 29.5 m, çöldən-çölə uzunluğu 34.6 m, daxildən eni 7.9 m, çöldən eni 11.7 m, divarlarının qalınlığı 1.9 m-dir. Döşəmədə hər sırada eninə 34, uzununa 127 ədəd kərpic döşəməklə cəmi 4318 ədəd kərpicdən istifadə olunmuşdur. Təqribi hesablamalara görə tikintidə 12 min ədəddən çox bişmiş kərpicdən istifadə olunmuşdur.

Aşkar olunmuş tikintinin təyinatına gəlincə onun daha çox şəhərin, yaxud da bütövlükdə xanlığın baş anbar-buzxana funksiyası daşıdığını ehtimal etmək olar. Fikrimizcə, birbaşa şəhər və ya xanlığın rəhbərliyinin sərəncamında olan strateji məhsulların, həm də daha çox ərzaq məhsullarının saxlanılması üçün bu bina daha münasib yer sayıla bilər. Məlum olduğu kimi, Ağsu kifayət qədər isti iqlimə malik ərazidə yerləşir. Yay aylarında orada hərarət xüsusilə yüksək olur. Belə çətin iqlim şəraiti olan yerdə ərzaq məhsullarının, xüsusən də gündəlik tələb olunan ərzaq məhsullarını saxlamaq olduqca çətindir. Qədim və orta əsrlər dövründə bu qəbildən olan ərzaq məhsullarının saxlanması məqsədilə buna bənzər yeraltı tikili və qurğulardan geniş istifadə olunduğu bəllidir.

Ağsuda aşkar edilmiş XVIII əsrə aid anbar-buzxana hələlik Azərbaycan ərazisində elmə məlum olan bu növ tikintilərin demək olar ki, ən nəhəngi və ən mükəmməlidir.

Anbar-buzxananın içərisi təmizlənərkən oradan müxtəlif çeşidli zəngin maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Keramika məmulatı nümunələri nisbətən azlıq təşkil edir. Əvvəlki sahələrdən tapılmış nümunələrin həm çeşid, həm də dövr etibarilə təkrarı olan həmin tapıntıların əksəriyyəti kiçik fraqmentlərdən ibarətdir. Anbar-buzxanada aşkar olunan tapıntılar içərisində misdən hazırlanmış qazan, satıl, cam, sini, piyalə və dar boğaz bardaq nümunələri xüsusi maraq doğurur. Fikrimizcə, bu tip əşyalardan anbar-buzxanaya nəzarət edən insanlar daha çox məhz ölçü qabları kimi istifadə etmişlər. Yəni, anbar-buzxanaya bu və ya digər ərzaq məhsulları qəbul ediləndə, yaxud da oradan kimlərəsə ərzaq məhsulları veriləndə ölçü vahidi kimi məhz həmin mis əşyalardan istifadə etmişlər.

Anbar-buzxananın cənub-qərb tərəfində üst-üstə aşkar edilmiş bir cüt əl dəyirman daşı da maraq doğuran tapıntılardandır. Dəyirman daşının ölçüləri belədir: Diametri 42 sm, qalınlığı 7 sm, dən tökülən oyuğunun diametri 6 sm-dir. Çox güman ki, həmin dən daşlarından anbara xidmət edən insanların cari ehtiyacları üçün istifadə olunmuşdur.

Tədqiqatların gedişi zamanı anbar-buzxanadan xeyli miqdar müxtəlif əyyarlı pul nümunələri də tapılmışdır. Hazırda həmin pulların labaratoriya şəraitində təmizlənməsi və təyinatı istiqamətində iş davam etdirilməkdədir. Anbar-buzxanadan tapılmış pullardan ibarət iki ədəd dəfinə xüsusilə böyük elmi maraq kəsb edir.

Gümüş pullardan ibarət dəfinə. Dəfinəyə cəmi 21 ədəd gümüş pul daxildir. Onlar anbar-buzxananın cənub tərəfinə nisbətən yaxın yerdə səpələnmiş vəziyyətdə tapılmışdır. Pullar Milli Azərbaycan Tarixi Muzeyinin numizmatika şöbəsinin müdiri professor Əli Rəcəbli tərəfindən təyin edilmişdir. Onlar aşağıdakılardan ibarətdir.

1. Gəncə xanlığı, Gəncə - 1195 - gümüş abbasi.
2. Gəncə xanlığı, Gəncə - 1189, anonim, gümüş abbasi.
3. Gəncə xanlığı, Gəncə - 1199 - gümüş abbasi.
4. Gəncə xanlığı, Gəncə - 1194 - gümüş abbasi.
5. Şirvan xanlığı, Şamaxı, anonim, gümüş abbasi.
6. Gəncə xanlığı, Gəncə - 1189 - gümüş abbasi.
7. Gəncə xanlığı, Gəncə - 1191 – anonim, gümüş abbasi.
8. Gəncə xanlığı, Gəncə - 1189 - gümüş abbasi.
9. Şirvan xanlığı, Şamaxı - 1189, gümüş abbasi.
10. Şirvan xanlığı, Şamaxı, anonim, gümüş abbasi, ili pozulub.
11. Şirvan xanlığı, Şamaxı - 1192, gümüş abbasi.
12. Gəncə xanlığı, Gəncə, anonim, gümüş abbasi, ili yoxdur.
13. Şirvan xanlığı, Şamaxı, anonim, gümüş abbasi.
14. Gəncə xanlığı, Gəncə - 1192 - gümüş abbasi.
15. Şirvan xanlığı, anonim, Şamaxı - 1195, gümüş abbasi.
16. Gəncə xanlığı, Gəncə - 1192 - gümüş abbasi.
17. Gəncə xanlığı, Gəncə - 1194 - gümüş abbasi.
18. Şirvan xanlığı, Şamaxı – 1192 - gümüş abbasi.
19. Gəncə xanlığı, Gəncə - 1195 - gümüş abbasi.
20. Gəncə xanlığı, Gəncə - 1192 - gümüş abbasi.
21. Şirvan xanlığı. Şamaxı 1190, gümüş abbasi.

22. (1) - Gəncə xanlığı, anonim, Gəncə - 1196 - gümüş abbasi; (2) Şirvan xanlığı, anonim, Şamaxı 1190, gümüş abbasi: (3) Şirvan xanlığı, Şamaxı, ili yoxdur, gümüş abbasi.

Qızıl pullardan ibarət dəfinə. 22 iyun 2012-ci il tarixdə qazıntı işlərini davam etdirərkən bir-birinin yaxınlığında səpələnmiş vəziyyətdə olan qızıl sikkə nümunələrindən ibarət daha bir dəfinə aşkara çıxmışdır. Elmi heyətin nəzarəti altında sahə diqqətlə tör-töküntüdən təmizləndikdən və fotosu çəkildikdən sonra sikkələr ekspedisiya rəhbərliyi tərəfindən yerindəcə aktlaşdırılaraq götürülmüşdür. Sikkələrin ümumi sayı 37 (otuz yeddi) ədəddir. Onlardan bir ədədi 1781, bir ədədi 1786, üç ədədi 1787, bir ədədi 1796, otuz bir ədədi isə 1800-cü ildə zərb olunmuşdur. Aşkar olunmuş qızıl sikkələrin demək olar ki, hamısı yaxşı vəziyyətdədir.



Ağsu yaşayış yerində tapılmış qızıl pullardan ibarət dəfinə.

Məlumat üçün bildirək ki, dəfinəyə daxil olan sikkələr Holland istehsalı olan qızıl dukatlardır. Sikkələrin əyarı 986, diametri 21,8 mm, qalınlığı 1,3 mm, leqal çəkisi 3,49 qr., forması dairəvi, kənarı döyülmüş, üzəri zərb olunmuşdur.

Sikkələrin aversində latın dilində yazısı olan ornamentli kvadrat lövhə vardır. Üzərində qısa olaraq "**MO.ORD.PROVIN.FOEDER.BELG.AD.LEG.IMP.**" yazılmışdır. Yazının latın dilində açılışı belədir:

"*MOneta ORDinum PROVINciarum FOEDERatorum BELGicarum AD LEGem IMPerii".* Yazı belə tərcümə olunur: "İmperiya qanununa uyğun olaraq Belçika Əyalət Federasiyası hökümətinin sikkəsidir".

Sikkələrin reversində mərkəzdə zirehli cəngavər təsvir olunmuşdur. Cəngavərin sağ əlində çiyninə qaldırdığı qılınc, sol əlində ox dəstəsi vardır. Cəngavərin sağ tərəfində dördrəqəmli miladi tarixin ilk iki rəqəmi, sol tərəfində isə son iki rəqəmi zərb olunmuşdur. Üzərində qısa olaraq latın dilində "***CONCORDIA.RES.PAR.CRES.HOL.***" yazılmışdır. Yazının latın dilində tam açılışı belədir: "*CONCORDIA RES PARvae CREScunt HOLlandiae".* Yazı hərfi mənada belə tərcümə olunur: "Uzlaşmış kiçik əşyaların çoxalması ilə - Hollandiya". Yəni, "Güc birlikdədir".

Analoji sikkə nümunələri XVIII əsrdə dünyanın ən müxtəlif ölkələrində geniş yayılmışdır. Mütəxəssislərin fikrincə, o dönəmdə Holland qızıl dukatları öz əhəmiyyəti etibarilə bugünkü ABŞ dolları mahiyyətində idi.

Ekspedisiya rəhbərliyi iki gün ərzində ilkin zəruri tədqiqat işlərini başa çatdıraraq, 25 iyun 2012-ci il tarixdə dəfinəni Arxeologiya və Etnoqrafiya İnstitutu rəhbərliyinin tövsiyəsi ilə Milli Azərbaycan Tarixi Muzeyinə təhvil vermişdir.

Ekspedisiya rəhbərliyi Ağsu dəfinəsi ilə bağlı tədqiqatları davam etdirir. Bundan bir neçə gün sonra qazıntı sahəsindən çıxan torpaq ələkdən keçirilərkən daha bir çəkisi 4.6 qram olan asma-sırğa tipli əşya aşkar olunub. Həmin əşya da ekspedisiya rəhbərliyi tərəfindən Milli Azərbaycan Tarix muzeyinə təhvil verilmişdir.

Təsadüfi tapıntı və kəşfiyyat axtarışları. Ekspedisiya rəhbərliyi rayon sakinlərinin şifahi məlumatı əsasında Ağsu şəhərinin Şıxməzid məhəlləsindəki türbə yerinə baxış keçirərkən orada ayrı-ayrı vətəndaşlara verilmiş yeni həyətyanı sahələrdə ağır texnika ilə hamarlama işləri aparılarkən üzə çıxmış orta əsrlərə aid möhtəşəm tikinti qalıqlarının olduğunu müəyyənləşdirmişdir. Olayla bağlı aidiyyəti orqanlara məlumat verilmiş və orada hər növ inşaat işlərinin dayandırılması tövsiyyə olunmuşdur. Həyətyanı sahiblərinə isə başqa yerdə torpaq sahəsi verilmişdir.

Abidəni xilas etmək məqsədilə ilkin arxeoloji kəşfiyyat qazıntıları aparılarkən səliqə ilə yonulmuş iri ölçülü mədən daşlarından istifadə olunmaqla qiblə istiqamətində tikilən düzbucaqlı formasında binanın bünövrə hissəsi aşkara çıxarılmışdır. Bina təqribən 400 kv.m.-ə qədər sahəni əhatə edən iri zaldan və nisbətən kiçikölçülü, çoxsaylı otaq-hücrələrdən ibarətdir.

Kəşfiyyat qazıntısı zamanı aşkar edilmiş tapıntılar içərisində həndəsi və nəbati elementlərlə bəzədilmiş nəfis kaşı nümunələri üstünlük təşkil edir. Memarlıq xüsusiyyətləri, qiblə istiqamətində tikilməsi, rəngli kaşılarla bəzədilməsi, ətrafında hər birinin içərisində ocaq qalıqları qeydə alınan otaq-hücrələrinin mövcudluğu aşkar olunan binanın daha çox məscid olması ehtimalını artırır. Xatırladaq ki, Azərbaycanı Öyrənən və Tədqiq edən Cəmiyyətinin əməkdaşı Cəmil Aleksandroviç-Nasifinin 1926-cı ilə aid məlumatında Ağsuda Şamaxı Cümə məscidinin yaşıdı və tamamilə ona bənzər möhtəşəm məscidin olduğu bildirilir. Nasifinin qeydlərində, həmçinin Şıxməzid türbəsi haqqında da məlumat verilir. Rayonun yaşlı sakinlərinin dediyinə görə Şıxməzid məscidi və türbəsi 30-cu illərdə sovet rejimi tərəfindən həyata keçirilən "mədəni inqilab" tədbirləri çərçivəsində dağıdılmışdır.

İlkin tədqiqatlar zamanı üst qatdan aşkar olunmuş tapıntıların təhlili göstərir ki, Şıxməzid məhəlləsindəki məscid XVI əsrin II yarısından intensiv istifadədə olmuşdur.

Əfsuslar olsun ki, tədqiqatların davam etdirildiyi bir vaxtda, həm də ətrafının rəngli lentlərlə bağlanmasına və qorunmasının zəruri olduğu barədə bütün yerli orqanlara müvafiq xəbərdarlıq olunmasına baxmayaraq, su və kanalizasiya xətti üçün xəndək qazan Meliolarsiya və su təsərrüfat Açıq Tipli Səhmdar Cəmiyyətinin nəzarəti altında fəaliyyət göstərən AS Şirkətlər Qrupunun inşaatçıları tərəfindən abidə növbəti dəfə çox ciddi dağıntıya məruz qalmışdır. Dözülməz haldır ki, inşaatçılar hətta arxeoloqların ərazidə tədqiq edərək aşkara çıxarmış olduqları tikinti kompleksinə aid divar, mədəni təbəqə və istehsalat qalıqlarını ekskavatorla dağıdaraq ətrafa səpələmişlər.

Törədilmiş dağıntılarla bağlı ekspedisiya rəhbərliyi tərəfindən aidiyyatı orqanlara, o cümlədən

Ağsu Rayon Prokurorluğuna məlumat verilmişdir. Lakin bu müraciətlərin heç bir nəticəsi olmamışdır. Baxmayaraq ki, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununda aidiyyatı orqanların vəzifələri və bu cür qanun pozuntuları baş verərkən necə hərəkət etmək yolları çox aydın göstərilib. Qanunda deyilir: " İnşaat və digər təsərrüfat işləri görülərkən abidə aşkar edilərsə, dərhal işlər dayandırılmalı, bu barədə müvafiq icra hakimiyyəti orqanlarına və Azərbaycan Milli Elmlər Akademiyasına məlumat verilməlidir. Bu halda inşaat və digər təsərrüfat işləri Azərbaycan Milli Elmlər Akademiyasının mütəxəssislərinin rəyi əsasında müvafiq icra hakimiyyəti orqanının icazəsi ilə davam etdirilə bilər. İnşaat və digər təsərrüfat işləri tarixi və arxeoloji əhəmiyyət kəsb edən zonada aparılırsa, həmin ərazi əvvəlcədən mütəxəssislər tərəfindən nəzərdən keçirilir və abidələrin ilkin tədqiqi təmin edilir".

Qanununun 28-ci maddəsində isə oxşar hallara görə məsuliyyət növləri göstərilir: "Abidələrin qorunması haqqında Azərbaycan Respublikası qanunvericiliyini pozan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq cinayət, inzibati, intizam və mülki məsuliyyət daşıyırlar".

Kələğaylı nekropolu. Meliorasiya və Su Təsərrüfatı Açıq Tipli Səhmdar Cəmiyyətinin nəzarəti altında fəaliyyət göstərən AS şirkətlər qrupunun inşaatçıları tərəfindən Girdimançaydan Ağsu şəhərinə su xətti çəkmək məqsədilə torpaq işləri görülərkən Bakı-Göyçay magistral yolunun şimal tərəfində Kələğaylı kəndi ərazisində I-II əsrlərə aid qəbirlər üzə çıxmışdır. Ekskavatorla dağıdılmış qəbirin hər birində zəngin avadanlıq qeydə alınmışdır. Bunlar əsasən yüksək zövqlə hazırlanmış rəngarəng çeşidli saxsı qab nümunələridir. Tapıntıların əksəriyyətini iri təsərrüfat küpləri, süddanbiçimli, ağzı büzməli, lüləkli və novçalı qablar, təkayaq vazlar, kiçik küpə və dolçalar, məhtərələr təşkil edir. Qəbirlərdən çıxan materiallar içərisində qayıqvari formalı dən daşları və dəmir silah nümunələri də vardır. Əfsuslar olsun ki, inşaatçıların və aidiyyəti qurumların səhlənkarlığı üzündən qədim alban mədəniyyətinə aid bu nadir tapıntıların xeyli qismi sındırılmış, dağıdılmış, bir qismi isə fəhlələr və ətraf kəndlərin sakinləri tərəfindən mənimsənilmişdir. AMEA-nın Ağsu arxeoloji ekspedisiyası olaydan xəbər tutduqda su kəməri çəkilən ərraziyə baxış keçirilmiş, aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə müvafiq akt tərtib etmiş və dağıdılmış tapıntıların bir qismini toplayaraq Ağsu rayon tarix diyarşünaslıq muzeyinə təhvil verilmişdir. Aşkar olunmuş yeni abidənin dövlət qeydiyyatına alınması üçün ekspedisiya rəhbərliyi tərəfindən zəruri tədbirlər görülmüşdür.

Bənəcik nekropolu. Ağsu arxeoloji ekspedisiyasına Ağsu rayonunun Bənəcik kəndi ərazisində təsərrüfat işləri görülərkən orada qəbirlər açıldığı və skeletlərin üzə çıxdığı haqqında məlumat daxil olmuşdur. Məlumatı Bənəcik kənd sakini, məktəb direktoru Alı Əliyev vermişdir.

Dərhal ekspedisiya üzvləri Bənəcik kəndinə getmiş, ərraziyə baxış keçirmişlər. Məlum olmuşdur ki, Mingəçevirdən Bakı istiqamətində çəkilən elektrik dirəkləri üçün yer qazılarkən ekskavator Alacəhrə adlanan kiçik dağ tirəsinin üzərində yer səthində nişanəsi olmayan müsəlman qəbiristanlığını kəsmişdir. Yerli sakinlər üzə çıxmış skeletlərin bir qismini müsəlman qaydasında yenidən kənarda dəfn etmişlər. Biz ərazidə olarkən həmin skeletlərdən birini gördük. Yerli sakinlər yaxın günlərdə onu da dəfn edəcəklərini dedilər.

Ekspedisiya üzvlərinin fikrincə aşkar olunmuş qəbirlər XVII-XVIII əsrlərə aiddir.

İndiki halda həmin ərazidə tədqiqatlar aparılmasına zərurət yoxdur.



Konservasiya tədbirləri. Ekspedisiya fəaliyyətdə olduğu müddətdə tədqiqat işləri başa çatmış sahələrdə MİRAS tərəfindən aparılan konservasiya işlərində də bu və ya digər dərəcədə iştirak etmişdir. Belə ki, III qazıntı sahəsində yaradılmış sərgi-kompleksdə işlər tam olaraq başa çatdırılmışdır. IV qazıntı sahəsinin üstü örtülmüş, içərisində isə konservasiya işləri yekunlaşmaq üzrədir. V qazıntı sahəsində aşkara çıxarılmış Cümə məscidinin və onun yaxınlığındakı hovuzların üstü örtülmüşdür. Həmin sahədə geniş bir ərazidə açıq səma altında tam yeni texnoloji üsullar əsasında yaşayış massivinin konservasiya işi də tamamlanmışdır. Hazırda VII sahədə aşkar edilmiş anbar-buxananın konservasiya olunması istiqamətində "Azərbərpa" ilə birlikdə zəruri addımlar atılmaqdadır. Bütün bu işlər birbaşa olaraq Mirasın təşəbbüsü, təşkilatçılığı və maliyyə dəstəyi ilə həyata keçirilməkdədir.

Г.Дж.Джабиев, Ф.С.Халили, Е.И.Аббасова

НОВЫЕ АРХЕОЛОГИЧЕСКИЕ НАХОДКИ В АГСУ

РЕЗЮМЕ

В результате исследований памятника, датируемого XVIII в., выявлены различные остатки материальной культуры, клад, состоящий из 21 серебряных монет, клад золотых монет, представленный 37 Голландскими дукатами.

G.J.Jabiyev, F.S.Khalili, E.I.Abbasova

A NEW ARCHAEOLOGICAL FINDS IN AGSU

SUMMARY

It has been dedicated ti the archaeological excavations of Kharaba sheher site of medieval Agsu town. During to cleaning of the area related to XVIII century it has been found some material-cultural founds. These founds mainly contains from copper bowl and fragments of unglazed ceramics. As a result of archaeological researches it has been found silver treasure from ice-house complex. Treasure consist of 21 silver coins.

Other treasure found from ice-house are gold coins. It consists of 37 coins and there are Holland dukhats.

ORTA ƏSR ŞABRAN ŞƏHƏRİNİN ARXEOLOJİ CƏHƏTDƏN ÖYRƏNİLMƏSİNİN YENİ MƏRHƏLƏSİ

(Şabran rayonu)

Q.O.Qoşqarlı, V.A.Əsədov, T.V.Babayeva,
Ə.İ.Əbdürəhmanov, A.F.Bağırova, T.DBabayev



Foto 1. Şabran şəhər qəsrinin divar qalıqları.

Orta əsrlərdə şimal-şərqi Azərbaycanın əhəmiyyətli şəhərlərindən biri olmuş Şabranın xarabalıqları Xəzər dənizinin qərb sahillərində, indiki Şabran rayonunun ərazisində yerləşir.

Şabran Böyük ipək yolunun keçdiyi marşrut üzərində yerləşirdi və əhəmiyyətli ticari-iqtisadi mərkəz idi. Zaman ötdükcə, iqtisadi tənəzzül və yadelli basqınlar Şabranın getdikcə tənəzzül etməsinə və bir şəhər kimi öz mövcudluğunu itirməsinə gətirib çıxartdı. Paradoksal olsa da, bu Şabranın arxeoloji cəhətdən tədqiqiqni asanlaşdırmış oldu. O.Q.Bolşakovun düzgün olaraq, qeyd etdiyi kimi, " canlı şəhərdə, onun ərazisinin və tikili sıxlığının müxtəlif dövrlərdə nə cür dəyişdiyini üzə çıxara bilən planlı qazıntılar aparmaq çətindir" (1, s.13). Məlumdur ki, sonralar, XIX əsrdə bu yerin məhəllələrindən biri Şabran adlanmışdır, lakin artıq XX əsrdə bu haqda xatırlanılmır.

Zəngin maddi və mənəvi mədəniyyətə malik olan Şabran tarixinin öyrənilməsi arxeoloqlar qarşısında duran vacib məsələlərdən biri idi. Burada əsaslı arxeoloji qazıntılar 1980-1993-cü illərdə prof. R.Göyüşovun rəhbərliyi altında aparılmış və onların gedişində qala tikililərinin, ictimai binaların, sənətkarlıq emalatxanalarının, yaşayış evlərinin qalıqları, həmçinin də müxtəlif maddi və mənəvi mədəniyyət nümunələri aşkar edilmişdi (foto 1).

Orta əsr Şabran şəhərinin öyrənilməsinin yeni mərhələsi 2012-ci ildə başlandı. Bu məqsədlə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən Şabran arxeoloji ekspedisiyası yaradıldı. Şəhərin qazıntıları bərpa edildi. Gələcəkdə, əvvəlki və yeni qazıntıları birləşdirmək məqsədilə, indiki qazıntı sahəsi, keçən əsrin 80-ci illərində arxeoloji tədqiqatların aparıldığı ərazinin yaxınlığında salındı. Təəssüf ki, o zaman qazıntılar prosesində yaranmış və daşınmamış torpaq qalaqları yeni qazıntı sahəsinin əvvəlkinin ardı olmasına mane olurdu.

2012-ci ilin qazıntı sahəsinin ümumi sahəsi 200 kv.m. təşkil edirdi. Sahə iki kvadrata bölünmüşdü (hər biri 10x10 m. omaqla). Hər iki kvadratda işlər sinxron şəkildə, müxtəlif dərinliklərdə yerləşən mədəni təbəqələrin dəqiq qeydə alınmasıyla aparılmışdır (foto 2).

Artıq yer səthindən 10-30 sm dərinlikdən, əsasən çəhrayı rəngdə olan müxtəlif şirli və şirsiz saxsı qabların qırıqları üzə çıxmağa başladı. Bu təbəqədə həmçinin ilk mis sikkə də aşkar edildi (sonradan qazıntı sahəsinin müxtəlf dərinliklərində tapılmış mis pulların sayı 20-dək çatmışdı). (foto 3). Bu ilk təbəqənin torpağı möhkəm və bişmiş kərpiclərin xırda qırıqları ilə qatışıq halda idi. 20-25 sm dərinlikdə ilk düzümlər üzə çıxdı.



Foto 2. Qazıntı sahəsinin seçilməsi.



Foto 3. Numizmatik materiallar.



Foto 4. Qazıntı sahəsi.



Foto 5. Təsərrüfaqt quyusu.

40-50 sm dərinlikdə torpaq bir qədər yumşaldı və qazıntı sahəsinin müxtəlif hissələrində, düzbucaq və yarımdairəvi formalı müxtəlif düzümlərin cizgiləri görünməyə başladı. Sonrakı tədqiqatlar göstərdi ki, bu düzümlər otaqların özüllərini təşkil edirlər və əsasən çay daşlarından və bişmiş kərpiclərdən hörülmüşdür (foto 4).

Lakin, yalnız iri və orta həcmli çay daşlarından ibarət olan düzümlər də mövcuddur. Bu dərinlikdə aşkar edilmiş tikinti materialları bişmiş kərpic qırıqlarından və mavi, göy, yaşıl və sarı rəngli kaşılardan ibarət idi. Həmçinin, dəmirdən hazırlanmış məmulatlarln fraqmentləri də tapıldı. Hazır məmulatlarla yanaşı, həmçinin dəmir çıxarlarına da rast gəlinir. Ikinci kvadratda 70 sm dərinlikdə diametri 90 sm olan dəyirmi formalı ocaq aşkar edildi (foto 9). Möhrədən hörülmüş ocağın divarları yalnız özül üzərində salamat qalmışdılar və aşağı hissəsinin quruluşundan görünür ki, ocaq konusvari formada olmuşdur. Ocağın özülü bişmiş kərpiclərdən hörülmüşdü. Ocağın içərisində kül qatı qalmışdı. Möhrədən hazırlanmış oxşar ocaq həmçinin 1-ci kvadratda da, 110 sm dərinlikdə, otaqların birinin içərisində (5 saylı otaq) aşkar olundu (foto 5).

Bu ocağın özülü dörd cərgə hörülmüş bişmiş kərpiclərdən ibarət idi. Ocağın diametri – 1,3 m idi. Bu ocağın altında məişət tullantıları üçün nəzərdə tutulmuş quyu aşkar edildi. Quyu 1,6 m dərinlikdə qazıldı. 1,2 m dərinlikdə quyuda 10 sm qalınlığında kül qatı üzə çıxdı. Saxsı qabların müxtəlif fraqmentlərindən əlavə, quyuda metal əşyalar, iri və xırda buynuzlu heyvanların sümükləri də var idi. Qeyd edək ki, qazıntı sahəsində aşkar edilmiş digər təndirlər otaqlardan kənarda, qazıntı sahəsinin demək olar ki, bütün qərb hissəsində yerləşirdilər (foto 6). Analoji mənzərəni biz orta əsr Qəbələ şəhərinin qazıntılarında, XII-XV əsrlərə aid təbəqədə də müşahidə edirik (2, s.245).

Qazıntı sahəsinin cənub-qərb hissəsində yerləşən təndirlərin ətrafındakı ərazi böyük həcmli yastı çay daşları ilə döşənmişdi. Təndirlərin kənarları çay daşları və bişmiş kərpiclərlə hörülmüşdülər. Qazıntı sahəsinin şimal-qərbində yerləşən təndirlərdən biri üç seksiyalı idi və onun da altında həmçinin hansısa bir quyunun olması hiss olunurdu (foto 6).

Birinci kvadratdakı 8 saylı otaqda bir-birinin yaxınlığında iki iri təsərrüfat küpünün alt hissələri aşkar edildi. Küplərin biri yarıyacan döşəməyə basdırılmışdı. Güman ki, bu otaq anbar olmuşdur.

1,3 m dərinlikdə növbəti tikinti horizontunun tikinti strukturları üzə çıxmağa başladılar. Bununla da, qazıntı işlərinin birinci mərhələsi sona çatdı. Kvadratlar arasındakı ayırıcı sədd götürüldükdən sonra qazıntının tam mənzərəsi aydın oldu. Beləliklə, qazıntı sahəsinin cənub, cənub-qərb və şərq hissələrini müxtəlif ölçülü səkkiz otaq tuturdu ki (ölçüləri = 2x1,45 m; 2x1,8 m; 1,7x1,8 m; 2,1x1,5 m; 3,3x2 m və s.), bunların da yalnız özülləri salamat qalmışdı. Praktiki olaraq, bütün bu otaqlar qərb tərəfdən ümumi divarla birləşmişdilər (foto 7).

Qazıntı sahəsinin qərb və şimal-qərb hissəsində isə 10 təndir yerləşirdi (qeyd olunduğu kimi, daha iki təndir otaqların içərisində yerləşirdilər). Tədqiqatçıların fikrincə, Şabran təndirlərinin Azərbaycanın başqa orta əsr abidələri arasında analoqları yoxdur, və həmçinin onlar müxtəlif tikinti dövrlərində quruluşca bir-birlərindən fərqlənirlər (3, s.46; 4,s.54). Arxeoloji tədqiqatlar nəticəsində aydın oldu ki, tədqiq olunan dövrdə inşa edilmiş düzbucaqlı binaların fundamentləri əsasən çay daşından hörülmüş, divarları isə bişmiş kərpiclərdən ucaldılmışdır. Qeyd edək ki, binaların bu cür tikilmə ənənəsi inkişaf etmiş orta əsrlərə gedib çıxır. Belə binalara orta əsr Şəmkir şəhərinin XI-XII əsr tikinti qatında (5, s.35), orta əsr Qəbələ şəhərinin XII-XV əsrlərə aid tikinti təbəqələrində (2, s.245) və digər orta əsr abidələrində təsadüf olunur. Divarların bəzədilməsi üçün çox vaxt kaşıdan istifadə olunurdu. Bəzi otaqların küncündə aşkar olunmuş, içərilərində ağac çürüntüləri qalan çalalar, binaların ağac dirəklərə malik olmasından və ya burada eyvanların yerləşməsindən xəbər verir. Bu cür dirək çalaları Şəmkir şəhər yerində, XVIII-XIX əsrlərə aid təbəqələrdə aşkar edilmişlər. Maraqlıdır ki, bu çalalar da həmçinin qazıntı sahəsinin qərb tərəfində yerləşirdilər (6, s. 62).

Bundan əlavə, toplanmış arxeoloji materialların içərisində saxsı boru (tüng) hissələrinin olması Şabran şəhərində mükəmməl su təchizatı sisteminin olmasından xəbər verir.



Foto 6. Qazıntı sahəsində aşkar edilmiş təndir qalıqları.



Foto 8. Tikili qalıqları.

Otaqların birinin özülünə qoyulmuş başdaşı kimi maraqlı bir tapıntını da qeyd etmək lazımdır. Başdaşının üzərində ərəb əlifbası ilə yazılmış mətn və nəbati ornamentlər həkk olunmuşdur.

Üzə çıxmış otaqların quruluşu, onların bəzilərində böyük ocaq yerlərinin və iri təsərrüfat küplərinin olması, təndirlərin sayının çoxluğu və s. şərti olaraq, qazıntı sahəsini, şəhər şəhristanının ərazisində yerləşən "çörəkçilər" məhəlləsinin bir hissəsinin olduğunu hesab etməyə imkan verir. F.Abbasovanın fikrincə, şəhərin məhəlli xarakteri, əhalinin dini və etnik tərkibi ilə yanaşı, həmçinin sənətin ixtisaslaşması ilə də şərtlənir (7, s.100). Qeyd edək ki, belə "çörəkxanalar" Şabranın əvvəlki qazıntıları zamanı da aşkar edilmişlər (4, s.54). Şübhəsiz ki, gələcək tədqiqatlar bu məsələnin həllinə daha çox aydınlıq gətirəcəklər.

Şabran şəhər yerində aparılmış arxeoloji qazıntılar nəticəsində çoxsaylı maddi-mədəniyyət nümunələri əldə olunmuşdur. Qeyd olunduğu kimi, burada müxtəlif formalı və təyinatlı şirli və şirsiz saxsı qab fraqmentləri, tikinti materialları, osteoloji qalıqlar, şüşə və metal məmulatların qırıqları, daş və dəmir əmək alətləri, mis pullar, bəzək əşyaları və s. aşkar edilmişdir.

Şirsiz saxsı qablar küpələrdən, dopulardan, sərniclərdən və s. ibarətdir. Onların qulpları lentvari (foto 9), oturacaqları əsasən yastıdır. (foto 10).

Bəzilərinin üzərində yapma və cızma naxışlar vardır. Şirli qablar vazalarla, kasalarla, xeyrələrlə, piyalələrlə, duzqabılarla, kiçik dopularla və s. ilə təmsil olunmuşlar. Onların qulpları kəsikdə dəyirmi (foto 11), oturacaqları isə dabanlıdır (foto 12). Üzərinə müxtəlif rəngli şir çəkilmişdir, tez-tez qəhvəyi və sarı rənglərin birləşməsinə rast gəlinir. Nəbati və həndəsi naxışlar da şirlə çəkilmişdir (foto 13). Şir əsasən anqobun üstündən çəkilmişdir.

Həmçinin olduqca nəfis hazırlanmış fayans qablara da təsadüf olundu (foto 14).



Foto 9. Saxsı qulp qırıqları.



Foto 10. Şirsiz keramika.




Foto 11. Şirli qablara məxsus qulp qırıqları.



Foto 12. Saxsı qabların oturacaq hissələri.



Foto 13. Şirli qab fraqmentləri.



Foto 14. Nəbati təsvirli gil qab nümunələri.



Foto 15. Təsərrüfat qablarının ağız hissələri.



Foto 16.

Onlar əsasən vaza və kasalarla təmsil olunmuşlar. Bu qabların bütün səthi ağ və ya açıq mavi rəngli şirlə örtülmüş, onun üzərindən isə bu fonda göy, qara və firuzəyi şirlə nəbati naxışlar çəkilmişdir. Vazaların birinin ornamenti, digər aşkar edilmiş fayans qablardan bir qədər fərqlənir. Bu vazanın dibi içəridən ağ rəngli şirlə örtülmüş, ortasında isə şirlə, kənarları dişəkli mavi rəngli dairəcik çəkilmişdir. Bu dairənin mərkəzində kənarları hamar olan, içərisi qara rəngli daha bir dairə yerləşir. Bu dairənin ətrafında alma və armudları xatırladan qırmızı və sarı fiqurlar bir-birini əvəzləyirlər. Çox güman ki, fayans qablar gündəlik istifadə edilən qablar kateqoriyasına aid deyillər.

Qazıntı sahəsində aşkar edilmiş çıraqların içərisində həm sadə, həm də şirli nüsxələrə rast gəlinmişdir. Görünür, şirli çıraqlar xüsusi təmtəraqlı mərasimlərdə istifadə olunurdular (foto 15).

Onların gövdələri dəyirmi və ya sferik, boğazları qıfvaridir. Ağızlarının kənarı köbəlidir. Çıraqların arxasında kəsikdə dairəvi olan qulp yerləşir. Çıraqların forması bütün orta əsrlər boyu demək olar ki, dəyişməmişdir. Məsələn, orta əsr şəhər yeri Örənqalanın müxtəlif təbəqələrindən (IX-XIII əsrlər) əldə olunmuş çıraqlar öz formalarına görə daha sonrakı dövrlərə aid edilən Şabran çıraqlarından az fərqlənirlər. Onlar da da həmçinin şarvari, bəzən bir qədər aşağıya basılmış gövdəyə, yastı oturacağa, alçaq şaquli ağıza, yarımdairəvi qulpa və az və ya çox dərəcədə uzadılmış, ucu nazikləşən və üzərində fitil üçün kiçik yarığı olan lüləyə malikdirlər (8, s.220).

Qazıntılar zamanı aşkar edilmiş qablar həm enli, həm də dar boğazlıdır. (foto 16-17).



Foto 17. Bardaq tipli qab nümunələri.



Foto 18. Bardaq.



Foto 19. Gil lüləkləri.



Foto 20. Daş məmulatı.



Foto 21. Metal məmulatı.

Dar boğazlı qaba nümunə kimi, yuxarı hissəsini bərpa etmək mümkün olmuş böyük bir küp xidmət edə bilər. Küpün gövdəsi şişman, boğazı alçaq və dardır. Ağzı köbəli olub, kənarları hamardır və azca içəriyə qatlanır. Boğazı birbaşa zəif ifadə olunmuş çiyinə keçir. Küpün qulpu lentvaridir və qabın arxa tərəfində şaquli istiqamətdə gövdəyə birləşdirilmişdir. Qulpun yuxarı hissəsi boğaza, aşağı hissəsi isə gövdəyə birləşir. Boğazının və gövdəsinin üzərində qabarma və cızma naxışlar vardır (foto 18).

Tez-tez lüləkli qab fraqmentlərinə rast gəlinirdi (foto 19). Bunlar həm şirli, həm də sadə qabların lüləkləri idi. Lüləklər bir qayda olaraq, boruvari olub, ucları nazikləşir. Onların bəzilərinin ucları məməcik formasındadır. Çıraqlarda isə, geniş lülələrinin ucunda geniş yarıqlar vardır.

Daş əmək və məişət alətləri əsasən dən daşlarından, bülöv və çəki daşlarından ibarətdirlər (foto 20). Dəmir məmulatlar bıçaqlar, mıxlar, qarmaqlar, kotan ucluqları və s. ilə təmsil olunmuşlar. Tez-tez dəmir xıltlara da rast gəlinirdi (foto 21). Qazıntı zamanı tapılmış şüşə fraqmentlər əsasən müxtəlif, qalın və nazik divarlı qab ağızlarının, gövdələrinin, oturacaqlarının və qapaqlarının qırıqlarıdır. Onların üzəri çox zaman zərlə örtülmüşdür. Bəzək əşyaları mis düymələrlə, medalyonlarla, sırğalarla, şüşə qolbaqlarla, mavi pastadan və qırmızı əqiqdən hazırlanmış muncuqlarla təmsil olunmuşlar. Qazıntılar gedişində həmçinin tunc xaç da tapılmışdır. Xaç formaca provaslav xaçını xatırladır. Bu xaç şəhərdə xristian əhalinin də yaşamasına dəlalət edir və yaxud da ola bilsin ki, bu xaç gəlmə tacirlərə məxsus imiş. Bundan əlavə, boru şəkilli, üstü inkrustasiyalı sümük məmulatın bir hissəsini, sədəf qırıqlarını və s. də qeyd etmək olar.

Tikinti qalıqlarının öyrənilməsi, həmçinin də əldə olunmuş artefaktların təhlili göstərdi ki, qazıntılar gedişində üzə çıxmış mədəni təbəqə XVI-XVII əsrlərə aiddir. Qazıntı sahəsinin bütün perimetri boyu, yer səthindən 70 sm dərinlikdə izlənilən yanıq qatı isə, ola bilsin ki, burada XVIII əsrin əvvəllərində (1720/1721ci il) baş vermiş böyük yanğının nəticəsidir.

Beləliklə, 2012-ci ildə Şabran şəhər yerində aparılmış arxeoloji qazıntılar göstərdi ki, orta əsr Şabran şəhəri mövcudluğunun son zamanınadək öz əhəmiyyətini saxlamış, burada sənətkarlıq və ticarət intensiv inkişaf etmişdir. Şübhə yoxdur ki, gələcək arxeoloji qazıntılar şimal-şərqi Azərbaycanın bu əhəmiyyətli orta əsr şəhərinin daha qədim çağlarının mənzərəsini üzə çıxarmağa imkan yaradacaqdır.

ƏDƏBİYYAT

1. О.Г.Большаков Средневековый город Ближнего Востока. Наука, М – 1984.
2. Q.Cəbiyev, E.Abbasova, S.Nemətov Qəbələ orta əsrlərdə, Azərbaycanda 2009-cu ildə arxeoloji tədqiqatlar. Bakı – 2010.
3. Р.Б.Геюшев, В.А.Мамедов. Археологические исследования II участка городища Шаб рана в 1980-1981 гг. – Археологические и этнографические изыскания в Азербайджане (1980-1981 гг.). Баку, Элм, 1986.
4. V.A.Məmmədov. Şabran qazıntılarında aşkar edilmiş müxtəlif quruluşlu təndirlər haqqında. Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitunun və Azərbaycan Dövlət Universiteti Tarix fakultəsinin gənc alimlərinin konfransının tezisləri, Bakı, 1983.
5. T.M.Dostiyev 2006-2007-ci illərdə Şəmkir şəhər yerində aparılmış arxeoloji tədqiqatlar.
6. R.Y.Bəşirov Şəmkir şəhər yerinin XVIII-XIX əsrlərə aid mədəni təbəqəsi. Şəmkir, arxeoloji irs, tarix və memarlıq // birinci respublika elmi-praktiki konfransın materialları, Bakı – 2008.
7. F.Abbasova. Şabran. Bakı – Elm – 2002.
8. Г.М.Ахмедов Неполивная керамика Орен-кала IX-XIII вв. МИА СССР, № 67.

Г.О.Гошгарлы, В.А.Асадов, Т.В.Бабаева, А.И.Абдурахманов, А.Ф.Багирова, Т.Д.Бабаев

НОВЫЙ ЭТАП АРХЕОЛОГИЧЕСКОГО ИССЛЕДОВАНИЯ СРЕДНЕВЕКОВОГО ГОРОДА ШАБРАН

РЕЗЮМЕ

Статья посвящена археологическим раскопкам, проводившимся в 2012 году на городище Шабран. В статье широко и поэтапно освещен процесс раскопок, даны точные координаты и описание сооружений и тендиров, обнаруженных во время раскопок.

В результате археологических раскопок обнаружены и изучены многочисленные материально-культурные образцы, представленные строительными материалами, поливными и неполивными керамическими и фаянсовыми сосудами разной формы и назначения, хозяйственными кувшинами, частями железных изделий, каменными орудиями, обломками стеклянных сосудов, предметами украшений, медными монетами и т.д. В статье даются краткие сведения об этих археологических артефактах.

Проведенные исследования и анализ археологических материалов позволил предположить, что строительные остатки, выявленные на раскопочном участке, являются фундаментами помещений разного размера, что здесь располагалась часть квартала «пекарей». Культурный слой, выявленный в процессе исследований, датирован к XVI-XVII вв.

G.O.Goshgarly, V.A.Asadov, T.V.Babayeva, A.I.Abdurakhmanov, A.F.Bagirova, T.D.Babayev

NEW STAGE OF ARCHEOLOGICAL STUDY OF MEDIEVAL TOWN SHABRAN

SUMMARY

The article is devoted to archeological excavations carried out in the site of ancient settlement Shabran in 2012. The article describes the process of excavations in details, in a phase-to-phase manner, gives the exact coordinates and description of constructions and tendirs discovered during the excavations.

Archeological excavations carried out in the site of ancient settlement Shabran resulted in the discovery and subsequent study of numerous material-cultural specimens. They consisted of building materials, ceramics, glazed ceramics, and faience vessels of various forms and designation, household jugs, parts of iron tools, stone implements, breaks of glassware, decorations, copper coins, etc. The article gives a brief information of these materials.

The conducted studies and analysis of the obtained archeological materials made it clear that the remnants of building materials discovered within the excavated area were the fundaments of different-size premises and that a part of the quarter of “bakers” had supposedly been located here. The cultural layer identified as a result of the excavations is dated back to the 16^{th}-17^{th} centuries.

DƏLMƏ QALASINDA ARXEOLOJİ TƏDQİQATLAR
(Naxçıvan MR Ordubad rayonu)

B.İ.İbrahimli, F.Səfərli, Q.Əliyev, G.Qəmbərova,
N.Hacızadə, S.Hüseynova



Dəlmə qalası. Ümumi görünüş.

Xaraba-Gilan arxeoloji ekspedisiyası 2012-ci ildə yeni bir abidədə - Dəlmə qalasında arxeoloji tədqiqat işlərinə başladı. Dəlmə qalası Ordubad-Naxçıvan avtomobil yolunun 19-cu kilometrində, yoldan şimal tərəfdə, cənub, şərq və qərb tərəfləri sıldırım qayalıq olan dağın üzərində yerləşir. Qalanın yerləşdiyi dağın şimal tərəfi nisbətən mailidir. Dağın zirvəsi 25-30 m enində və təqribən, 103 m uzunluğunda sahə 2 m enində daş divarla əhatələnərək qalaya çevrilmişdir. Qala yerləşdiyi dağın ətəyindən, Gilan çaydan çəkilmiş su arxı keçir. Dağın şərq ətəyində bir neçə tikili qalıqları izlənir. Qalanın bütün tikililəri dağ daşı və gil məhlulu ilə işlənmişdir.

Dəlmə qalası Xaraba-Gilan şəhər yerindən 5 km, Plovdağdan 3 km, Sumbatan-dizə şəhər yerindən isə 1,5 km qərbdə yerləşir. Qalanı Sumbatan-dizənin və ya Xaraba-Gilanın forpostu hesab etmək olar, lakin sahəsi azdır, su təchizatı da çətindir.

Dəlmə qalasının mərkəzi hissəsi – qala qapısının yerləşdiyi yer nə vaxtsa buldozerlə dağıdılmışdır. Qazıntıya qalanın şərq tərəfindən başladıq. Əsas məqsəd abidənin miqyasını və plan quruluşunu öyrənməkdir. Tədqiqatın sonrakı mərhələsində abidənin təyinatını və stratiqrafiyasını müəyyənləşdirmək nəzərdə tutulmuşdur.



Dəlmə qalası. Şimal divarının görünüşü.

Qalanın müdafiə divarının hər iki tərəfi – içəridən 2,5 m, bayır tərəfdən isə 1,5 m enində, bəzi yerlərdə isə 2 m enində təmizləndi. Müəyyən edildi ki, içəridən qalanın müdafiə divarına, sahəsi 25-30 kv. m, divarlarının eni 60-80 sm olan otaqlar bitişik işlənmişdir. Otaqların divarları 0,8-1,2 m hündürlüyündə salamat qalmışdır. Pəncərə yerləri yoxdur. Güman ki, bu otaqların yalnız qapısı və bacası olmuşdur. Otaqların qapalı plan quruluşuna malik olması, qala divarına bitişik işlənməsi və qalanın özünün cöğrafi mövqeyi qaladan zindan kimi istifadə olunduğunu ehtimal etməyə əsas verir.

Müdafiə divarının hər iki tərəfinin təmizlənməsi ilə eyni zamanda qalanın şərq, qərb və mərkəzi hissələrində qazıntı sahəsi nisbətən genişləndirildi.

Qalanın şərq və şimal divarlarının kəsişdiyi yerdə, qalanın daxildən şimal-şərq küncündəki otağın içərisi təmizləndi. Burada, 1,0-1,2 m qalınlığında uçqundan aşağıda mədəni təbəqə başlayır. Mədəni təbəqə çürüntülü torpaq qatından ibarətdir, içərisində tək-tək dağ daşları vardır. Uçqun qatının içərisində, 70 sm dərinlikdə, bitki çürüntülərindən ibarət nazik qatın aşkar olunması qala divarlarının nə vaxtsa ikinci dəfə dağıntıya məruz qaldığını göstərir. Bu dağıntı, artıq qala dağıldıqdan çox sonralar baş vermişdir. Otağın içərisində, şərq müdafiə divarına bitişik, birbaşa uçqun qatının altında 1,5 m enində safa – daş və palçıqla işlənmiş səki aşkar edildi. Səkinin otağın içərisinə tərəf olan hissəsi daşla işlənmiş, ortası torpaqla doldurulmuşdur. Səkinin üstündə, qalanın şimal divarından düşmüş bir neçə iri həcmli dağ daşının altında sınmış şəkildə gil qablar aşkar edildi. Gil qablar üzəri boz anqoblu, çəhrayı gilli su qablarından ibarətdir. Qabların üzərində dalğalı və paralel çızma xətlərdən başqa bəzək yoxdur.

Qala divarının üstünü açmaq üçün ona bitişik işlənmiş digər otaqların şimal tərəfləri 0,5 m. dərinlikdə açıldı. Qazıntı qalanın mərkəzi hissəsinə çatdırıldıqda sahə genişləndirildi. Əvvəldə qeyd etdiyimiz kimi bu hissə nə vaxtsa buldozerlə dağıdılmışdı, lakin dağ daşlarının təpə şəklində tökülməsi qala qapısının məhz burada yerləşdiyini göstərirdi. Burada, qala divarı mərkəzində olmaqla, 10x12 m (120 kv.m) qazıntı sahəsi götürüldü. Divarlar nə vaxtsa, (ehtimal ki, kəndlərdə tikintinin vüsət aldığı XX əsrin 70-80-ci illərində) texnikanın köməyi ilə dağıdıldığından onların qalıqları bəzi yerlərdə 0,5 m, bəzi yerlərdə isə 1,3-1,5 m. dərinlikdə aşkar olunurdu. Qalanın müdafiə divarının ətrafı iri həcmli dağ

daşlarından təmizləndikdən sonra aydın oldu ki, müdafiə divarının qala qapısına tərəf olan hissələri yonulmuş iri həcmli dağ daşları ilə çox səliqə ilə işlənmişdir. Qala qapısının maraqlı memarlıq həlli vardır. Adətən qala qapıları müdafiə divarının ortasında tağ şəklində işlənir. Amma, burada vəziyyət tamamilə başqadır. Dəlmə qalasının memarlığında diqqəti cəlb edən qala qapısının yeri və quruluşudur. Qalanın şimal tərəfdəki ən uzun divarı iki hissədən ibarətdir. Belə ki, şərqdən qərbə döğru uzanan divar qərbdən şərqə döğru uzanan divarla ortada birləşmir. Onlar bir-birindən 3 m. aralanaraq bir-birlərini 5,5 m. ötüb keçməklə, aralarında 3 m. eni olan dəhliz yaradırlar. Bu dəhlizin üstü tağla örtülərək yuxarı hıssədə divarlar arasında əlaqə yaradılmış, tağın altı isə qalanın giriş yolu olmuşdur. Şərq divarının qala qapısına tərəf 2,5 m. uzunluğu və 60 sm. eni olan kontrforsu vardır. Bu kontrforsun tikilməsinin səbəbi qala qapısının şimal tərəfinin möhkəmliyini artırmaq olmuşdur. Ona görə ki, qala qapısının ağırlığı ən çox bu hissəyə düşür. Digər tərəfdən giriş yolunun 3 m. enində olması qalaya araba yolunun da olduğunu ehtimal etməyə əsas verir.



Dəlmə qalası. Tikili qalıqları.

Giriş yolunun memarlıq həlli müdafiə qabliyyəti baxımından olduqca təkmildir. Belə ki, qala qapısının cənub tərəfinin şimal tərəfindən hündürdə yerləşməsi, enli tağ vasitəsilə divar üzərində sərbəst hərəkətə şərait yaradılması, aşağıda olan divarın kifayət qədər uzun və enli kontrforsla təmin olunması düşmənin hücum edərək qalaya girməsini olduqca çətinləşdirirdi.

Qalanın içəridən qərb tərəfində 20 kv.m sahədə qazıntı aparıldı. Burada aşkar edilən otağın içərisində, qərb divarına bitişik 70-80 sm enində səki (safa) işlənmişdir. Səkinin üzərində və yanında sadə gil qablar aşkar edildi. Gil qablardan başqa safanın yanında, otağın döşəməsindən bir ədəd mis üzük, mis camın divarından fraqment, iydə və alça dənələri, kül qatı və kömür parçaları tapılır. Qeyd edək ki, iydə və alça dənələri qazıntı sahəsinin hər yerində aşkar edilir. Otağın ortasına yaxın, dairəvi planda daha bir tikilinin qalıqları vardır. Bu tikilinin bir hissəsi qala divarının üzərinə düşür. Ehtimal ki, bu tikili qala dağıdıldıqdan bir müddət sonra tilikmişdir.



Dəlmə qalası. Keramika kirkirənin bir hissəsi, dəmir mıx, mis üzük və şüşə qapağın üst hissəsi.

Qalanın içəridən, şərq küncündə, 16 kv.m sahədə aparılmış qazıntıların nəticəsi göstərdi ki, qaladakı otaqların quruluşu eyni olmuşdur. Sahəsi 18-25 kv.m olan otaqlar qala divarı boyu ona bitişik işlənmişdir. Qala qapısından qərbdə olan otaqların qərb divarına, qala divarından şərqdə olan otaqların isə şərq divarına bitişik 70-80 sm hündürlüyündə, 80-150 sm enində safa işlənmişdir.

Arxeolooji qazıntılar zamanı əldə olunan arxeoloji tapıntılar gil qablardan, şüşə qab fraqmentlərindən, metal əşyalardan və onların fraqmentlərindən ibarətdir. Gil qabların böyük əksəriyyəti su saxlamaq üçün işlədilmiş səhəng, kuzə və küplərdən, mətbəx qablarından və ləyənlərdən ibarətdir. Arxeoloji tapıntılar ilk orta əsrlərə, çoxu da islama qədərki dövrə aiddir.

2012-ci ildə Dəlmə qalasında 560 kv.m sahədə arxeoloji qazıntı işləri aparılmışdır. Dəlmə qalasının müdafiə divarı qaya daşları üzərində, müxtəlif ölçülü dağ daşları və gil məhlulu ilə işlənmişdir. Divarların aşağı hissəsi və özülü iri həcmli daşlarla, yuxarı hissəsi isə nisbətən kiçik həcmli daşlarla işlənmişdir. Eni 2,0-2,5 m-dir. Qala divarları ən çox şərq tərəfdə salamat qalmışdır (3,2 m hündürlüyündə). Qərb tərəfdə qala divarının bir hissəsi özülünə qədər dağıdılmışdır. Müdafiə divarlarının ümumi uzunluğu (şərq tərəfdə - 17,6 m, qərb tərfdə - 9 m, şimal tərəfdə isə 102,1 m) 128,7 m-dir. Qala divarları və başqa tikililər inşa edilərkən relyefin təbii müdafiə imkanları maksimum nəzərə alınmışdır. Maraqlıdır ki, şərq tərəfdə müdafiə divarı dağın sıldırım kənarınadək çəkilməmiş, qalanın bu tərəfi 3m enində divarla bağlanmışdır.

2012-ci ilin arxeoloji qazıntıları Dəlmə qalasının təyinatını dəqiq müəyyən etməyə imkan verməmişdir. Bu haqda bir neçə ehtimal vardır. Yuxarıda qeyd etdiyimiz kimi, birinci ehtimal qalanın ilk orta əsrlərdə zindan olması, ikinci ehtimal qalanın Xaraba-Gilanın forpostu olması, üçüncü ehtimal burada zərbxana yerləşməsidir. Bu ehtimalların hər biri ağlabatandır. 2013-cü ildə Dəlmə qalasının qala qapısından şərq tərəfə olan hissənin bütünlüklə tədqiq olunması planlaşdırılır ki, bu da qalanın təyinatını dəqiqləşdirməyə imkan verəcəkdir.

Б.Ибрагимли, Ф.Сафарли, Г.Алиев, Г.Гамбарова, Н.Гаджизаде, С.Гусейнова

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ НА КРЕПОСТИ ДАЛМА

РЕЗЮМЕ

Хараба-Гиланская археологическая экспедиция в 2012 году начала археологические раскопки раннесредневековой крепости Далма. Крепость расположена по левую сторону магистрали Ордубад–Нахчыван, на вершине горы с крутыми утёсами. Относительно хорошо сохранилась восточная часть крепости, где высота разрушенных оборонительных стен достигает трёх метров. В западной части крепости оборонительные стены разрушены почти до фундамента. С целью выявления границы крепости оборонительная стена очищена с обеих сторон.

Общая длина оборонительной стены достигает 128,7 метров. Вызывает большой интерес архитектурное решение крепостных ворот. Крепостные ворота находятся в центральной части северной оборонительной стены. Здесь концы оборонительной стены, не касаясь друг друга, заходят один за другой до 5-ти метров. Верхняя часть 5-ти метрового коридора оформлена аркой, а в западной части коридора установлены крепостные ворота.

На внутренней части оборонительной стены обнаружены, четырёхугольные в плане, помещения, пристроенные к ней. В каждом помещении у восточной стены находилась софа 1,5Х3,2 м, высотой 70 см.

Раскопки 2012 года выявили новый уникальный средневековый памятник своеобразной оригинальной архитектуры. Крепость Далма одна из страниц многовековой истории Нахчыванской архитектурной школы.

B.Ibragimli, F.Safarli, G.Aliyev, G.Gambarova, N.Gadzhizade, S.Guseynova

ARCHAEOLOGICAL EXCAVATIONS AT THE FORTRESS DALMA

SUMMARY

Kharaba-Gilan archaeological expedition of the Institute of Archaeology and Ethnography, in 2012, began excavations at the early medieval fortress Dalma. Dalma fortress is located on the left side of the highway Ordubad - Nakhchivan, on top of a mountain with steep cliffs. Eastern part of the fortress is relatively well preserved, where the height of the ruined defensive walls reaches three meters. On the western part of the fortress defensive walls are destroyed almost to the ground. In order to identify the boundaries of the fortress defense wall is cleaned on both sides. The total length of the defensive wall is 128.7 meters.

The architectural building the fortress gates attracts great interest. The gates are in the central part of the northern defensive wall. Here, the ends of the defensive wall, not touching each other, overlap of up to 5 meters. The upper part of the 5-meter corridor was decorated vaulted arch, and in the western part of the corridor there were installed the gates. On the inside of the defensive wall found in terms of rectangular room attached to it. In each room at the east wall is a sofa, a size of 1.5 X 3, 2 m and a height of 70 cm. Excavations in 2012 revealed a unique new kind of monument to the original architecture of the early Middle Ages. Fortress Dalma is the one page of long history of Nakhchivan School of architecture.

GƏNCƏ ARXEOLOJİ EKSPEDİSİYASININ APARDIĞI ARXEOLOJİ QAZINTILAR HAQQINDA

(Gəncə şəhəri)

A.M.Məmmədov, C.Bağırzadə



Gəncə arxeoloji ekspedisiyası 2012-ci ilin yay mövsümündə (20 iyul-13 sentyabr) Gəncə və onun ətraf ərazilərində arxeoloji qazıntı və çöl-tədqiqat işlərini davam etdirmişdir. Ekspedisiya tədqiqata Gəncə şəhərinin şimal-şərq hissəsində yerli əhali arasında «təpələr» adı ilə tanınmış abidələrdən birində başlamışdır. Yerli əhali arasındakı məlumata görə Gəncə şəhərində baş verən dəhşətli zəlzələdən sonra gürcü çarı I Demetre Gəncənin zəlzələdən qurtulmuş əhalisini dəstələrə bölərək şəhərin torpağını ələtdirmiş və orada olan qiymətli maddi mədəniyyət qalıqlarını qarət etdirmişdir. Arxeoloji qazıntı aparılan təpəlik yer səthindən 4-5 metr hündürlükdə yerləşir. Vaxtilə həmin təpəliyin bir hissəsində qeyri-qanuni təsərrüfat işləri aparılarkən abidənin bir hissəsi dağıdılmış, digər hissəsində isə ağır texnikanın təsirindən torpaq qatı möhkəmlənmişdir. Digər tərəfdən torpağın tərkibində çoxlu xırda daşların və gilin olması da həmin ərazidə arxeoloji qazıntı aparılması işini çətinləşdirirdi. Buna baxmayaraq, həmin ərazidə 5x10 metr ölçüdə iki sahədə arxeoloji qazıntı işləri aparılmışdır. 5x5 metr ölçüdə götürülmüş I qazıntı sahəsində arxeoloji tədqiqat işləri 1,8 metr dərinliyə qədər davam etdirilmişdir. Tapıntılar içərisində əsasən IX-XII əsrlərə aid olan maddi mədəniyyət qalıqları üstünlük təşkil etmişdir. Bunlar əsasən süfrə və mətbəx qablarından, təsərrüfatda işlədilən müxtəlif maddi mədəniyyət nümunələrindən ibarət olmuşdur (Şəkil 6-a,b; 7-a,b; 8-a,b; 9-a,b; 10-a,b). XII əsrə aid üç ədəd mis pul da əldə edilmişdir. Arxeoloji materiallar içərisində saxsı nümunələri üstünlük təşkil etsə də şüşə materiallarına da rast gəlinir. Metal məmulatına isə ümumilikdə rast gəlinməmişdir. Əldə edilən saxsı qab nümunələrinin əksəriyyətinin oturacaq hissəsində ustaların şəxsi möhürləri vardır. Qabların içərisinin rənglənməsində həndəsi və nəbati naxışlardan daha çox istifadə olunmuşdur (Şəkil 5-a,b).



5x5 metr ölçülü II qazıntı sahəsində isə əsas tapıntı eni 1,5 metr olan ictimai bina qalığını xatırladan divar qalığının aşkarlanmasıdır. Gəncəçayın sol sahilində də arxeoloji qazıntılar aparılmış, burada hündürlüyü 3,1 metr, uzunluğu 25 metr olan divar qalığı torpaqdan təmizlənmiş, həmçinin ikiqat qala divarı arasında olan ərazidə arxeoloji qazıntılar aparılmışdır. Müəyyən edilmişdir ki, iki divar qatının arasında olan daşlar birinci qala bürcünün uçmuş hissəsinin daşlarıdır. İki qala divarı arasında qazıntı sahəsi 20x10 metr ölçüdə götürülmüşdür. Bu hissədə arxeoloji tədqiqat işləri 1,1 metr dərinliyə qədər davam etdirilmişdir. O da müəyyən edilmişdir ki, Gəncəçayın vaxtaşırı olaraq daşması ilə əlaqədar ərazinin böyük bir hissəsi sel yumaları nəticəsində əmələ gəlmiş çöküntülərlə örtülmüşdür.





Gəncə arxeoloji ekspedisiyası həmçinin Gəncə şəhər İcra Hakimiyyəti və Gəncə Dövlət Qoruğunun rəhbərliyinin xahişi ilə Gəncə Regional Elmi Mərkəzin rəhbərliyinin yeraltı yollar kimi təqdim etdiyi yerlərə də baxış keçirmiş və tədqiqat aparmışdır. Məlum olmuşdur ki, yeraltı yollar kimi təqdim olunan qurğuların bir hissəsi kəhrizlərdir. Onlar öz başlanğıcını Gəncə çayı yaxınlığındakı dağların ətəklərindən

götürür və hər 25 metrdən bir olmaqla orta əsr Gəncə şəhərinə qədər bir neçə istiqamətdə davam edir. Dağətəyi hissələrdə onların dərinliyi 16 metr, son məntəqədə isə 40 metrdir. Kəhriz quyularının hörgüsündə əsasən çay daşından və kirəc məhlulundan istifadə edilmişdir. Belə müəyyən olunmuşdur ki, bu cür kəhrizlərin hörgüsü hər iki tərəfdən aparılmış və 12,5 metr məsafədə dayandırılmışdır. Bu da görünür ki, tikinti zamanı həmin dərinlikdə nəfəs almanın və çıxarılan torpağın daşınmasının çətinliyi ilə əlaqədardır. Yeraltı yollar kimi təqdim olunan digər abidələr isə XIX əsrin əvvəllərinə aid binaların zirzəmiləridir. Gəncə və onun ətraf ərazilərində XIX əsrin əvvəllərində alman koloniyalarının yaranması ilə əlaqədar bir neçə mərtəbəli zirzəmidən ibarət bu cür evlərin tikintisi geniş yayılmışdır və onların bir çoxu hal-hazırda da saxlanılmaqdadır.

2012 ci ildə antik və ilk orta əsrlər Gəncəsinin ərazisi hesab edilən Şəhər burnunda da arxeoloji qazıntılar aparılmışdır. Gəmilərin yan alması üçün buxtanın dayağının bir hissəsində diametri 2 metr, dərinliyi isə 16 metr olan quyu təmizlənmişdir. Eyni zamanda buxtadan 50 metr cənub-qərb hissədə 5x5 metr ölçüdə arxeoloji qazıntı sahəsi götürülmüşdür. Həmin hissədə arxeoloji qazıntı işləri 3,5 metrə qədər davam etdirilmişdir. Buradan əsasən ilk orta əsrlər, qismən isə antik dövrə aid olan maddi mədəniyyət qalıqları aşkarlanmışdır (Şəkil 2-a,b; 3-a,b).

Gəncə arxeoloji ekspedisiyası Gəncə şəhəri ətrafında arxeoloji kəşfiyyat işlərini davam etdirərək Samux rayonunun Qədili kəndi yaxınlığında XIV əsrə aid türbənin qalıqlarını, Quşqara çayının sahillərində isə sahəsi 6 hektardan artıq olan antik, ilk orta əsrlər və inkişaf etmiş orta əsrlərə aid yaşayış yerinin qalıqlarını müəyyənləşdirmişdir. Buradakı yerüstü materiallar abidədə yaşayışın XII əsrə qədər davam etdiyini söyləməyə əsas vermişdir.

Gəncə ərazisində aparılan arxeoloji tədqiqatlar erkən orta əsrlər dövründə də bölgədə intensiv həyatın olduğunu söyləməyə əsas verir. Tarixi məlumatlar isə arxeoloji dəlilləri təsdiqləsə də işğalçı dövlətlərin maraqlarına uyğun olaraq tarixi saxtalaşdırmalara da yol verilir. Erkən orta əsrlər dövründə həm də Sasani imperiyasının Albaniya torpaqlarını işğalı ilə xarakterikdir. Bu Albaniyada feodalizmin yaranmasına və inkişafına müsbət təsir göstərən amillərdəndir. Lakin bu vaxta qədərki əksər tədqiqat əsərlərində Sasani ordularının ərazidəki hərbi əməliyyatları zamanı dağıdılmış şəhərlərin əvəzinə yenilərinin qurulmasını, yaxud onların bərpasını, tamamilə yeni şəhərlərin salınması kimi qələmə alır, beləliklə qərəzlilikdən əziyyət çəkir, bu və ya başqa bir hadisəni şübhə altına qoyur, bir-birinə zidd olan məlumatlar verirlər. Bəzən bu yazılı məlumatlar tamamilə həqiqətdən uzaq olurlar. Məsələn Makedoniyalı İsgəndəri müşayət edən yunan müəllifi Aristoblun Hindistandan, Qara Dənizdən, Xəzər dənizindən keçən su yolu haqqında hekayətində söylədikləri Qərbi Avropa alimi Herman tərəfindən tamailə rədd edilmişdir. Bu cür fikirlər onu göstərir ki, yazılı mənbələr yalnız onların hərtərəfli yoxlanılmasından və məlumatlara tənqidi yanaşıldıqdan sonra tarixi sənəd kimi müəyyən nəticələrin çıxarılması üçün əsas ola bilərlər. Bu cür məlumatların dəqiqləşdirilməsində etnoqrafik və folklor məlumatlarının da əhəmiyyəti böyükdür.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sifarişi əsasında Gəncə arxeoloji ekspedisiyası həmçinin Gədəbəy rayonundan 100 km-ə qədər cənub-qərbdə yerləşən Mahrasa məbədində (Şəkil 4-b) və Qız qalası abidəsində (Qızıl qala) (Şəkil 1-a; 4-a,c) arxeoloji kəşfiyyat işləri aparmışdır. Məlum olmuşdur ki, bu qala e.ə. II minilliyin sonu – I minilliyə aid olan qalaçanın ərazisində inşa edilmişdir. Qalaçada əsasən tikinti kərpiclərindən istifadə olunmuşdur, onlar 25x20x7 sm və 23x20x6 sm ölçüdədirlər. Arxeoloji materiallar qalanın IX-X əsrlərdə inşa edildiyini söyləməyə əsas verir. Hal-hazırda qalanın cənubdan 7 bürcü saxlanılır. Birinci yarusda 4 bürc, ikinci yarusda isə 2 bürc salamat, biri isə dağılmış vəziyyətdədir. Bürclərin hündürlüyü 20 metrdir. Qalanın tikintisi dağın relyefinə uyğun olaraq aparılmışdır. Bürclərin bünövrəsi qaya daşı, əsas hissəsi isə qırmızı kərpiclə hörülmüşdür. Qala Şəmkirçayın sol sahilində yerləşir. Dəniz səviyyəsindən 1800 metr, çay yatağından sərt sıldırım yamaclarla 500 metrə qədər hündürlükdədir. Üç tərəfdən sıldırım qayalıqlarla əhatə olunmuşdur. Qalanın içərisində iki otaq salamat qalmış vəziyyətdədir. Onlardan birinin diametri 4,9 metr, divarının qalınlığı 1 metr, giriş qapısının hündürlüyü 1,8 metr, otağın hündürlüyü 3,5 metrdir. İkinci otağın isə eni

3,2 metr, uzunluğu 4,5 metr, hündürlüyü 3,5 metrdir. Giriş qapısı dağılmış vəziyyətdədir. Qaladan Şəmkirçaya enmək üçün gizli yolun olduğu da müəyyənləşdirilmişdir. Qız qalası abidəsi feodal hakimlərin düşməndən qorunmaq, müdafiəni möhkəmləndirmək, ətrafda yaşayan əkinçi və maldar əhalini mühafizə etmək və ərazidən keçən Zəyəm-Çaldaş-Səbətkeçməz-Arısu-Qalakənd-Turşsu-keçidi-Çayqarışan-Göyəbaxan aşırımı-Göyçə gölü ətrafı ilə Naxçıvana doğru istiqamətlənən və yerli əhali arasında Naxçıvan yolu adı ilə tanınmış yolu nəzarətdə saxlamaq üçün tikilmişdir. Həmin ərazidə Mahı kəndi və qəbristanlığı, Çayqarışan hissədə isə Burcalılar qəbristanlığı yerləşir ki, onların da hər ikisi orta əsrlər dövrünə aiddir. Qız qalası yaxınlığında son tunc-ilk dəmir dövrünə aid Çəpərbulaq qalaçası qeydə alınmışdır.

Digər bir abidə Mahrasa (Ay məbədi) məbədi də Şəmkirçayın sol sahilində yerləşir. Ona yerli əhali arasında Ay məbədi, yaxud Şahzadə məbədi də deyilir. Məbəd öz quruluşuna görə Gəncəsər məbədinə oxşardır. İlkin müşahidələr belə bir fikrə gəlməyə əsas verdi ki, Mahrasa məbədi Alban katolikosluğunun mərkəzlərindən biri olmuşdur. Gəncəli Kirokos da «Tarix» əsərində Alban katolikosluğunun mərkəzinin əvvəlcə Çolada, sonra Bərdədə, daha sonra isə Bərdə yaxınlığındakı Berdakur və Gəncəsər monastırlarında yerləşdiyini, sonradan isə Gəncə yaxınlığındakı dağların qaranlıq meşələrinə köçrüldüyünü yazmışdır. Mahrasa məbədinin quruluşu onun ibadət keçirilməsi, toplantı zalı və digər qurğularının olması bu fikrə gəlməyə əsas verir. Məbədin tikintisində əsasən qaya daşlarından istifadə olunmuşdur. Çöldən məbədin qarşı tərəfdən üç tağlı görünüşü var. Mahrasa məbədindəki əsas binanın eni 12 metr, uzunluğu 30 metr, hündürlüyü yanlardan 10-11 metr, qarşı tərəfdən 7-8 metrdir. Məbədin eyvan hissəsində iki sütun vardır ki, onların hər birinin eni 0,7 metrdir. Digər bir otağın isə eni 7,3 metr, uzunluğu 7,45 metrdir. Zəng qülləsi adlanan ikinci binanın eni 6 metr, hündürlüyü 10 metrdir. Qapısının eni 1,4 metr, birinci mərtəbənin hündürlüyü 2,1 metrdir. Səkkiz sütunu var. Üstündəki kümbəz səkkiz guşəlidir. Belə qənaətə gəlinmişdir ki, bu ərazi əvvəlcə bütpərəst əhalinin ibadət yeri olmuş, ərəb işğalları dövründə alban xristianlarının gizli ibadət yerinə çevrilmiş, Gəncəsər monastırının fəaliyyətinin dayandırılmasından sonra Alban katolikosluğunun mərkəzi olmuşdur.

Gəncə arxeoloji ekspedisiyası həmçinin Tovuz rayonunun Qəribli kəndində qəbir qazılarkən təsadüfən aşkarlanmış kurqana baxış keçirmiş, həmin kurqanın skeleti təmizlənmiş, kurqanın ölçülərini götürmüş, arxeoloji materialları təhvil almış, eyni zamanda həmin ərazidə böyük nekropolun olduğunu müəyyənləşdirmişdir. Ehtimal edilir ki, həmin qəbirlərin əksəriyyəti e.ə. II minilliyin sonu-I minillikdə Qəribli kəndi yaxınlığındakı Haçaqaya qalaçasında yaşayan insanlara məxsus olmuşdur.

Gəncə arxeoloji ekspedisiyası 2012-ci ildə müasir Azərbaycan və Gürcüstan Respublikalarının sərhəddində yerləşən, tarixi ərazimiz hesab edilən Keşikçidağ abidələr kompleksində də arxeoloji tədqiqatlar aparmışdır (Şəkil 11-a,b). Bu abidə tarixən Qafqaz Albaniyasının inzibati ərazi vahidi olan Kambisena vilayətinin torpaqlarında inşa edilmişdir.

Müasir Azərbaycan və Gürcüstan Respublikalarının sərhəddində, Ağstafa rayonu ərazisində yerləşən Keşikçidağ abidələr kompleksi, Aveydağ, Tatlı, Yuxarı Əskipara məbədləri kimi, Gürcüstan Respublikasının ərazisində qalan Çeremi, Qurcaani (Qurcaani rayonu), Areşi, Nekreşi, Dzveli Qavaza (Kvareli rayonu), Poxoraulebi (Telavi rayonu) və s. kimi abidələr də alban xristian mədəniyyətinə aid edilirlər və onlardan bir çoxu həm arxeoloji, həmdə memarlıq baxımından tədqiq edilmişdir.

Bu cür abidələr içərisində Ceyrançöl mağara məbədləri xüsusi əhəmiyyət kəsb edir. Ceyrançöl mağara monastrı Kür çayının sol sahilində, Ceyrançöldə, Keşikçidağdakı Keşikçi qala, Qüdrət və Saloğlu bulağı yaxınlığında inşa edilmişdir. Buradakı hər üç sahədə tək və çox yaşayış otaqlarından ibarət sığınacaqlar, ibadət zalı, məişət – təsərrüfat təyinatlı otaqlar, su anbarı, ovdanlar qayaların bir neçə yarusda çapılması nəticəsində düzəldilmişdir. Bəzi mağaraların arasında gediş-gəliş üçün dəhliz vardır. Keşikçidağda ikiyaruslu və ikimərtəbəli mağaralar da var. Mağaralardan birində birinci mərtəbədən ikinci mərtəbəyə qalxmaq üçün yol giriş qapısının üstündəndir və diqqət yayındırır. Bu cür otaqlardan xüsusi mühafizə məqsədilə istifadə olunmuşdur. Digər bir mağarada isə iki yerdə qaya içərisində su durultmaq üçün yerlər düzəldilib. Dağın üstündən qayada düzəldilmiş nov vasitəsilə axıb gələn su

əvvəlcə həmin çalalara tökülür, daha sonra lili çökdükdən sonra su ehtiyyatı saxlamaq üçün düzəldilmiş quyuya toplanırdı. Quyu ətrafa sərinlik verdiyi nəzərə alınaraq onun yuxarı hissəsində soyuducu kimi istifadə olunan ərzaq anbarı yeri düzəldilib. Həmin mağaranın içərisində işıqlandırıcı qoymaq üçün taxça formalı yerlər düzəldilib. Burada təbii mağaralarla yanaşı süni mağaraların da olması tikinti texnikasından məlum olur. Bəzi otaqların divar və tavanlarında əhəng suvağı üstündə xristian motivli polixrom təsvirlər və yazılar vardır.


Bizim fikrimizcə, VIII əsrdə Tiflis müsəlman əmirliyinin yaradılması ilə bölgədə İslam dininin təsiri artdığından, XI əsrdə isə ərazi Səlcuqların təsiri altında olduğundan buradakı mağaralara gürcü elementlərinin artırılması mümkün deyildi.

1836-cı ildə Alban katolikosluğunun ləğvi ilə Azərbaycanda xristian alban abidələri diqqətdən kənarda qaldığından həmin abidələrdə erməni və gürcü elementləri yaranmağa başlayır. 1836-cı ildə Peterburq Sinodunun qərarı ilə Alban məbədlərinin fəaliyyətinin məqsədli şəkildə rəsmən dayandırılması ilə Qarabağda olan Alban məbədlərində erməni, Qərb bölgəsində olan abidələrdə isə gürcü elementləri yaranır. Məqsəd isə VIII əsrdən başlayaraq Azərbaycanda İslam dininin geniş yayılması və möhkəm dayaq tapması ilə Alban xristian abidələrinin diqqətdən kənarda qalmasından istifadə edərək onları ermənileşdirmək və gürcüləşdirməklə tarixi torpaqlarımıza iddia tələbləri irəli sürmək olmuşdur.

Odur ki, Ağstafa rayonu ərazisindəki Keşikçi dağda yerləşən Alban mağara məbədlərində gürcü elementləri XI əsrdə yox, XIX əsrdə yarana bilərdi.

2012-ci ilin iyul ayında Keşikçi dağında aparılan arxeoloji qazıntı və kəşfiyyat işlərinin nəticələri burada ilk insan məskənlərinin e.ə. II minilliyin sonu-I minilliyin əvvəllərində dəmirin kəşfi ilə əlaqədar hasarlı yaşayış məskənlərinin yaranması ilə bağlı olduğunu əsaslandırmağa imkan vermişdir. Dağın zirvəsində təbii hasarların olması buna real imkan yaratmışdır. Keşikçi dağın ətəyində Ceyrançöldə kurqan tipli qəbirlərin mövcudluğu da fikrimizi əsaslandırmağa imkan verir. Bu abidələrrdən son tunc-ilk dəmir dövrünə aid maddi-mədəniyyət qalıqları əldə edilmişdir.





Arxeoloji kəşfiyyat işləri zamanı mədəni təbəqələrdən aşkarlanmış müxtəlif dövrlərə aid maddi-mədəniyyət qalıqları, xüsusilə, saxsı materialları antik, ilk orta əsrlər, inkişaf etmiş orta əsrlər və son orta əsrlər dövründə Keşikçi dağ ərazisində yaşayışın ardıcıl olaraq davam etdiyini müəyyənləşdirməyə imkan vermişdir. Bütün bunlar isə xalqımızın maddi-mədəniyyətindəki eyniliyi, ardıcıllığı və varisliliyi izləməyə şərait yaratmışdır.

Arxeoloji tədqiqatlar zamanı müəyyənləşdirilmişdir ki, bütövlükdə Keşikçi dağ ərazisində 72 mağara vardır. Onlardan bəziləri təbii olsa da çoxu süni düzəldilmiş mağaralardır.

Mağara məbəd termini ilk dəfə Azərbaycan arxeoloqlarından R.B.Göyüşov, R.M.Vahidov, N.M.Quliyev və başqaları tərəfindən işlədilsə də digərləri bu termini (G.N.Məmmədova) «qaya kilsəsi» termini kimi ifadə etmişdir. XIII əsr alban müəllifi Gəncəli Kirakos da XII-XIII əsrlərdə alban

katolikoslarının sıxışdırılmasından bəhs edərkən onların bir mağaradan alban kilsələrinə rəhbərlik etdiklərini göstərmişdir. Gəncəyə yaxın ərazidə ən iri mağara məbədlərin Ağstafa rayonu ərazisində olduğunu nəzərə alsaq ehtimal ki, rəhbərlik Keşikçi dağda yerləşmişdir.

Keşikçi dağ mağara məbədləri ölçülərində inşa edilmiş kilsələrdə mehrab zalın döşəməsindən 25-30 sm yuxarıda yerləşir. Burada keşiş ibadətə gələnlərə fiziki cəhətdən daha yaxındır. Bu Məsihin (Xristosun) həm də insan olması haqqındakı inamlara uyğun gəlir. Bu cür inşaat texnikası ilk orta əsrlərin tikinti xüsusiyyətləri ilə uyğundur.

Eyni vəziyyət Goranboy rayonundakı Xarxaput (Meşəli), Şəkidə Kiş, Qaxda Ləkit və Mingəçevir məbədlərində müşahidə edilmişdir.

Məbədlərdən bir neçəsinin içərisində bir və ya iki qəbir olduğu da müəyyənləşdirilmişdir. Tədqiqatlar göstərmişdir ki, məbəd qəbir qazılana qədər mövcud olmuşdur. Elə ona görə də qəbrin bir hissəsi məbədin bünövrəsinin üstündədir. Burada qəbir kamerasında meyidin tam yerləşməsi üçün kiçik taxça düzəldilmişdir.

XIX əsrdə məbəddə yenidənqurma işləri aparan gürcülər qəbri qazarkən ehtiyatsızlıq etmiş, skelet parçalanmışdır. Lakin onun müqəddəs adam olduğu ehtimal edilərək, ayrıca qəbir düzəldilmiş, kəllə və qarışıq sümüklər orada dəfn edilmişdir.

Mağara məbədlərin xristianlığın gizli ibadətə məcbur edildikləri dövrdə daha geniş istifadədə olması şübhəsizdir. Sasani dövləti tərəfindən xristianlığın sıxışdırılması prosesinin V əsrin ortalarında, II Yezdəgerdin hakimiyyəti illərində daha da gücləndiyi tarixi hadisələrdən məlumdur. VII – IX əsrlərdə ərəblərin Albaniya ərazisində hərbi əməliyyatları, katolikos İovannesin dövründə (797-822) Alban kilsəsinin mərkəzi iqamətgahının düzənlikdəki Bərdə şəhərindən Qarabağın dağlıq hissəsindəki Berdakura köçürülməsi belə mağara məbədlərdə yaşayışın artmasına rəvac verə bilərdi. R.B.Göyüşov Albaniyanın ərəb xilafəti tərkibinə qatılması ilə mağara məbədlərin sayının daha da artdığını bildirmişdir.

Tədqiqatlar göstərir ki, Keşikçidağ mağaraları hələ eramızın əvvəllərində bütpərəstlərin ibadət yerləri olmuşdur. Din dəyişəndən sonra səcdəgahların öz müqəddəsliyini qoruyub saxlaması adi bir haldır. Odur ki, V əsrdə Alban hökmdarı II Vaçenin dövründə məbəd yenidən qurulmuş və onların sayı artırılmışdır. VII – VIII əsrlərdə ərəb işğalları dövründə isə məbədlərin yerləşdiyi ərazidə qayaların çapılması o qədər də çətin olmadığı nəzərə alınaraq burada xristian albanlar həm də əlavə sığınacaqlar düzəltmişlər. Məbədlərdə və mağaralarda növbəti yenidənqurma işləri XIX əsrdə aparılmışdır ki, o da təkcə ibadət yeri kimi yox, həm də qaçaq məskəni rolunu yerinə yetirmişdir.

Gəncə arxeoloji ekspedisiyası Samux rayonu ərazisində Nizami Gəncəvinin əsərlərində adı çəkilən Təndirli, Kərpicli, Armudlu dərə, Narlı qoruq, Dnaqşəm, İncilli və s. yerləri müəyyənləşdirmiş, Təndirli deyilən ərazidə eneolit dövrünə aid yaşayış məskəninin izləri aşkarlanmışdır.

А.М.Мамедов, Дж.Багирзаде

ОБ АРХЕОЛОГИЧЕСКИХ РАСКОПКАХ ГЯНДЖИНСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

Гянджинская археологическая экспедиция в 2012 году (20 июля – 13 сентября) продолжила археологические раскопки и полевые исследования в Гяндже и, прилегающих к нему территориях. Основные археологические раскопки велись на территории под названием «Земляные холмы», расположенной на северо-западе Гянджи (IX-XIV вв.), на территории двойных крепостных стен, расстояние между которыми 7,5 метра, на левом берегу Гянджачая, на кягризных колодцах, имеющих важное значение в снабжении водой средневекового города, на поселении «Городской мыс», считающемся местом расположения античной и раннесредневековой Гянджи. Проведены также разведочные археологические работы на памятниках Гадили Самухского района, Кешишдаг Акстафинского района, Девичья крепость и храм Махраса Кядабейского района.

Результаты археологических раскопок имеют значение при изучении средневековой культуры Азербайджана.

A.M.Mammadov, J.Baghirzadeh

ABOUT THE ARCHAEOLOGICAL EXCAVATIONS OF GANJA ARCHAEOLOGICAL EXPEDITION

SUMMARY

The members of Ganja archaeological expedition were excavated in the territory of the Middle Age city place of Ganja, in Sheher-burnu (Antique and Early Middle Age city place of Ganja), Mahrasa temple (Gedebey), Garibli grave (Tovuz) and Keshikchidagh temple complex (Akhstapha). The results of the archaeological researches make us sure that Keshikchidagh temple concerned to Albanians. It has founded the wall remains, ceramics, the pieces of archaeological materials and etc. Glazed ceramics are forming the majority in the Middle Ages city place of Ganja.

ARXEOLOJİ KƏŞFİYYAT

АРХЕОЛОГИЧЕСКАЯ РАЗВЕДКА
ARCHAEOLOGICAL SURVEY



CƏNUB ŞƏRQİ AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLAR
(Cəlilabad rayonu)

A.İ.Ələkbərov, A.M.Mirabdullayev, T.H.Əzizov

2012-ci ilin çöl-tədqiqat mövsümündə “Cənub Şərqi Azərbaycan abidələrinin arxeoloji tədqiqi” ekspedisiyası Cəlilabad rayonu ərazisində arxeoloji tədqiqatları davam etdirmiş, bölgənin arxeoloji xəritəsinin hazırlanması məqsədi ilə kəşfiyyat işləri ilə məşğul olaraq onlarla yeni abidə qeydə almışdır. Əvvəlki illərdə olduğu kimi, kəşfiyyat axtarış işləri bölgənin dağlıq, dağətəyi və sərhəd rayonlarında aparılmışdır. Qeydə olınmış abidələrin bəzilərində kəşfiyyat xarakterli arxeoloji qazıntı işləri aparılmış, onların dövrü, sərhədləri, ümumi koordinatları və tipi müəyyənləşdirilmişdir. Bundan başqa qeydə alınan abidələrin əksəriyyətindən yerüstü materiallar toplanılmışdır ki, bu da onların dövrünü daha dəqiq müəyyənləşdirməyə imkan yaratmışdır.



“Lallar” orta əsr yaşaış yeri.

Cəlilabad rayonun İran İslam Respublikası ilə sərhəddə yerləşən əraziləri arxeoloji abidələrlə çox zəngindir. Sərhəddə yerləşdiyi üçün uzun müddət bu abidələr diqqətdən kənarda qalmışdır. Burada aparılan arxeoloji kəşfiyyat işləri nəticəsində müxtəlif dövrlərə aid, şəhər və kənd tipli yaşayış yerləri, qəbir abidələri (torpaq qəbirlər, küp qəbirlər, daş qutu qəbirlər, kurqanlar və s.) qalalar, ziyarətgahlar, və s. qeydə alınmışdır.

Dağlıq ərazidə və sərhəddə qeydə alınan yaşayış yerləri düzənlikdə və o cümlədən, Muğanda yerləşən yaşayış yerlərinə nisbətən çox az ərazini tutur. Eyni zamanda bu abidələrin yerüstü əlamətləri də demək olar ki, izlənmir. Bu bir daha təsdiq edir ki, burada yaşayan əhali əsasən

maldarlıq təsərrüfatı ilə məşğul olmuş, yeni otlaqlar dalınca qaçdıqlarından tez-tez öz yaşayış yerlərini dəyişməli olmuşlar. Nəticədə, yaşayış yerləri müvəqqəti xarakter daşımış bu da öz növbəsində mədəni təbəqə yatırımının zəif olmasına səbəb olmuşdur.

2012-ci ilin çöl-tədqiqatları nəticəsində Cəlilabad rayonu ərazisində qeydə alınmış və ilkin arxeoloji tədqiqatlar aparılmış abidələr əsasən aşağıdakılardan ibarətdir.

Yaqublu orta əsr yaşayış yeri – Abidə Cəlilabad rayonu Yaqublu kəndinin şimalında yerləşir. 2010-cu ilin arxeoloji tədqiqatları zamanı burada orta əsrlərə aid qəbristanlıq qeydə alınmışdı. Təəssüflə qeyd etmək lazımdır ki, keçən iki il ərzində demək olar ki, buradakı bütün qəbir daşları yerindən tərpədilmiş və sındırılmışdır. Hətta bəzi qəbirlər dağıdılmış və insan sümükləri ətrafa səpələnmişdir. Qeydə alınan orta əsr yaşayış yeri qəbiristanlıqdan təxminən 600 m. şimal-qərbdə olub 4 hektara qədər ərazini tutur. Ərazidən toplanan yerüstü materiallar əsasən müxtəlif çeşidli sadə şirsiz keramika nümunələrinin, o cümlədən üzərinə cızma və batıq xətlərlə bəzək vurulmuş çölmək, qazan, bardaq, boşqab tipli məişət avadanlığının fraqmentlərindən ibarətdir. Yerüstü maddi mədəniyyət nümunələrinin təhlilinə əsasən yaşayış yeri və qəbristanlığın eyni dövrə XIII-XV əsrlərə aid olduğunu söyləmək olar.





“Seyidəbazar” məzarlığı. 1,2,4 N-li qəbirlər.



Kürünc küp qəbirlər nekropolu – Abidə İran İslam Respublikası ilə sərhəddə İlxıçı kəndinin şimalında yerləşən Kürünc kəndinin ətəyindəki zastavanın yaxınlığındadır. Bu ərazi yaylaq olmuş, hal hazırda isə ətraf kəndlərin əhalisi buradan örüş kimi istifadə edir. Küp qəbirlər nekropolu sərhəd tellərinin arasında olduğundan, ancaq ərazinin uzaqdan şəklini çəkməklə kifayətləndik. Bələdçimizin verdiyi məlumata görə hələ sovet dönəmində sərhədçi əsgərlər burada dağıntılar törətmiş və iri küplərdə dəfn olunmuş insan qəbirlərini məhv etmiş, qəbir avadanlığını isə qarət etmişlər. Abidənin tutduğu ərazi və ətrafdakı dərədə iri dəfn küplərinin oturacaq, gövdə və ağız hissəsinin fraqmentləri səpələnmişdir. Nekropolun yaxınlığında dərin mağara vardır. Əvvəllər sərhədçilərin bu mağaradan naməlum məqsədlər üçün istifadə etdikləri haqda yerli əhali arasında çoxlu söhbətlər dolaşır.

Kürünc küp qəbirlər nekropolunun b.e.ə. I – b.e. I əsrlərinə aid olduğunu güman etmək olar.

Cəfərli orta əsr yaşayış yeri və qəbiristanlığı – Cəfərli kəndi sərhəddə yerləşir. Hal-hazırda burada yaşayış yoxdur. Kəndin əhalisi vaxtilə buradan köçürülmüş, yeri isə xaraba qalmışdır. Tərk edilmiş kəndin ərazisində orta əsrlərə aid yaşayış yeri qeydə alındı. Təxminən 6 hektara qədər ərazidə orta əsrlərə aid sadə və şirli saxsı məmulatının fraqmentləri yayılmışdır, yaşayış yerindən 500 m şimal-qərbə doğru yamacda orta əsrlərə aid qəbiristanlıq vardır. Burada yerindən tərpədilmiş və sındırılmış qəbir daşları qeydə alındı. Yaşayış yeri və qəbiristanlığın eyni dövrə aid olduğu şübhəsizdir. Ərazidən toplanan keramika nümunələrinə əsasən Cəfərli yaşayış yeri və qəbiristanlığını XIII-XV əsrlərə aid etmək olar.



“Xəlilli” nekropolu. Gil qablar və metal əşya.



“Xəlilli” nekropolu. Gil qab.

I Lallar orta əsr yaşayış yeri – Lallar kəndi Cəlilabaddan Xanəgaha gedən yolun solunda, yerli əhalinin Şordərə adlandırdığı ərazidə yerləşir. Əvvəllər bu ərazi meşə ilə örtülü olmuşdur. Orta əsr yaşayış yeri kəndin Şimal qurtaracağında yerləşir və təxminən 8-10 hektara qədər ərazini tutur. Vaxtı ilə burada üzüm plantasiyaları salınmış nəticədə abidəyə xeyli ziyan dəymişdir. Abidənin tutduğu ərazi tikinti qalıqları və müxtəlif çeşidli keramika nümunələrinin fraqmentləri ilə doludur. Dərin şum zamanı təbəqə yatırımı qarışdırılmışdır. Toplanılan yerüstü materiallara əsasən abidələri XIII-XV əsrlərə aid etmək olar.

II Lallar orta əsr qəbiristanlığı – Abidə Lallar kəndinin qərb hissəsində qeydə alındı. Burada ölçülərinə və formasına görə bir-birindən fərqlənən 4 tip qəbir daşı vardır. qəbir daşlarının əksəriyyəti yerindən tərpədilmiş və sındırılmışdır. Hətta bəzi qəbirlərin qəbir çuxuru da dağıntıya məruz qalmışdır. Qəbir daşlarının üzərində şəbəkə və göy cisimlərinin təsvirləri vardır. I Lallar yaşayış yeri ilə bu qəbristanlığın eyni dövrə aid olduğunu söyləmək olar.

III Lallar küp qəbirlər nekropolu – Abidə Lallar kəndindən Pərdi kəndinə gedən torpaq yolun sağ tərəfində, kənddən təxminən 1,5-2 km aralıda qeydə alındı. Lallar kənd sakini Qardaşxan Hüseynovun məlumatına görə keçən əsrin 80-ci illərində bu ərazidə üzüm plantasiyaları salınarkən iri küplərdə dəfn edilmiş insan sümükləri, onların ətrafında isə saxsı qablar tapılırdı. Ərazi tərəfimizdən diqqətlə nəzərdən keçirildi. Doğrudur, bu qəbirlərin yerüstü əlamətləri yoxdur. Lakin hal-hazırda ərazi hər il şumlanır və taxıl əkilir. Bələdçimizin dediyinə görə indinin özündən də bu ərazidə şum zamanı tunc və mis əşyalar, gil qablar və s. tapılır. Abidədən toplanan yerüstü materiallara əsasən onu e.ə. II – b.e. I əsrlərinə aid etmək olar.

Seidəbazar nekropolu – Abidə Seyidə bazar kəndinin cənub-qərb hissəsində, “Seidəbazar” ocağından 500 m şimal qərb tərəfdə yerləşir. Yerüstü əlaməti yoxdur. Abidənin ortasından keçən torpaq yol genişləndirilən zaman yanmış torpaq izləri və bişmiş gil fraqmentləri üzə çıxmışdır. Ərazi tərəfimizdən tam nəzərdən keçiriləndən sonra yoldan azacıq aralıda 4x4 m. ölçüdə yoxlama qazıntısı aparıldı. Təxminən 40 sm dərinlikdə bir-birinin yanında 4 ədəd gildən hazırlanıb, qırmızı rəng alana kimi bişirilmiş sənduqə aşkar olundu. Qazıntı sahəsinin cənub küncündə daha bir sənduqə aşkar edildi.

1 № li qəbir – Qazıntı sahəsinin şimal qərb hissəsində yerləşir. Sənduqənin üst hissəsi qopmuşdur. Dörd hissədən ibarət hazırlanmış və gil qutunun üzərinə qoyulmuşdur. Uzunluğu 1,30 sm, eni 40 sm qutunun içi 17 smdir. Qutunun içərisində bərkimiş kül izləri, qalmışdır. Sümük və skelet yoxdur. İstiqaməti cənub-qərbdən şimal-şərqə doğrudur.

2 № li qəbir – Birincidən 1,5 m aralı olub, qazıntı sahəsinin şimal-şərq hissəsində aşkar olundu. Bunun da sənduqəsinin üstü qopmuşdur, 4 hissədən ibarətdir. Uzunluğu 1,27 sm, eni 38 sm, gil qutunun içi 17 sm-dir. Birincidə olduğu kimi bunun da içində torpaq ilə qarışıb bərkimiş kül izləri vardır. Skelet yoxdur.

3 № li qəbir– İkinci qəbirdən 60 sm aralıda yerləşir. üstü qopmuşdur. Ölçülərinə görə əvvəlkilərdən kiçikdir. Uzunluğu 94 sm, eni 33 sm, içi 16 sm-dir. İçərisində kül izləri vardır.

4 № li qəbir– Əvvəlki qəbirlərlə eyni sırada olub, 3-cü qəbirdən 50 sm aralıdır. Üstü qopmuşdur. Uzunluğu 80 sm, eni 33 sm, qutunun içi 16 sm-dir. İçərisində kül izləri vardır.

5 № li qəbir − Qazıntı sahəsinin cənub-şərq hissəsində aşkar olundu. Qəbri tam aşkara çıxarmaq üçün qazıntı sahəsi 1 m genişləndirildi. Əvvəlki qəbirlər kimi bunun da üst hissəsi qopmuşdur. Uzunluğu 1,20 sm, eni 34 sm, qutunun içi 18 sm-dir. Bunun üzərində buynuza oxşar gil bəzək olmuş, lakin sındığından harasında olduğunu müəyyən etmək olmadı. Əvvəlki qəbirlər kimi bunun da içərisində daşlaşmış kül izləri qalmışdır. Skelet və sümük yoxdur.

Bütün qəbirlərdə oturacağa yaxın hissə kvadrat şəkilli olub, baş tərəfindən deşik olmuşdur. Qəbirlərin hamısının yan tərəfləri şəbəkə və çoxguşəli ulduzlarla bəzədilmişdir.

Skelet əvəzinə kül qalıqlarının olması, üzərində günəş və ulduzların əks etdirən çoxlu sayda təsvirlərin olması Seidəbazar nekropolunun atəşpərəstlik ilə əlaqədar olduğunu söyləməyə imkan verir.

Burovar antik dövr yaşayış yeri –Abidə Burovar kəndinin mərkəzindən şərqə tərəf gedən torpaq yolun sağ tərəfindəki yamacda qeydə alındı. Burada yol çəkilərkən açılmış yarğandan ocaq, təndir izləri, biçmiş gil və kərpic fraqmentləri qeydə alındı. Yol çəkilərkən burada aşkar olunmuş bir neçə bütöv qab satırlı kənd orta məktəbin tarix müəllimi Elşad Əmənov tərəfindən Cəlilabad tarix diyarşünaslıq muzeyinə verilmişdir. Tapılan qablar bardaq, küpə və çölmək tipli olub, öz formasına görə e.ə. II − b.e. əvvəllərinə aid olan keramika nümunələri ilə eyniyyət təşkil edir.

Düşərgə yaşayış yeri – Abidə Satırlı kəndinin şimal hissəsində (kəndin bu hissəsi Kiçik Satırlı adlanır) meşə massivinin içərisində qeydə alındı. Təxminən 6 hektara qədər ərazini tutur. Hər il şumlandığından abidəyə ciddi ziyan dəymişdir.

Yaşayış yerindən toplanan yerüstü materiallar öz çeşidinə və dövrünə görə müxtəlifdir. Buradan antik, ilk orta əsrlər, hətta orta əsrlərə aid dulusçuluq nümunələrinin fraqmentləri toplandı. Yerüstü materiallara əsasən, Düşərgə yaşayış yerində antik dövrdə başlanan həyatın orta əsrlərə qədər davam etdiyini söyləmək olar. Buradan orta əsrlərdə karvan yolu da keçmişdir. Bu yoldan indi də istifadə olunur. Belə ki, buradan Cəlilabad rayon mərkəzinə cəmi 18 km-dir. Müqayisə üçün uzun yol isə 45 km-dir. Gələcəkdə bu abidədə arxeoloji qazıntı aparılması məqsədə uyğundur.

Kiçik Şatırlı kurqanlar qrupu – Abidə "Düşərgə" yaşayış yerindən təxminən 300 m. aralıda, yerli əhalinin Kələyim təpəsi adlandırdığı ərazidə yerləşir. Burada bir-birinin yanında bir neçə kurqan qeydə alındı. Onlardan birinin örtüyü dağıdılmışdır. kurqanların hündürlüyü 1,5-2 m-ə çatır. Hər birinin üstündə daş örtüyü vardır. Bu ərazi biçənək üçün istifadə olunduğundan ərazi daşlardan təmizlənmiş, nəticədə kurqanların üst örtüyü xeyli zədələnmişdir.

Yurdlar yaşayış yeri – Abidə Şatırlı kəndinin şimalında, Kiçik Şatırlı çayının sol sahilində qeydə alındı. Yaşayış yerinin tutduğu ərazi yaxın vaxtlara kimi meşə ilə örtülü olmuşdur. Yerli əhalinin verdiyi məlumata görə 30 il bundan əvvəl bu ərazi əkin üçün yararlı hala salınmış və hər il şumlanaraq əkilmişdir.

Şumlanmış sahədən antik, ilk orta əsr və orta əsrlərə aid xeyli keramika nümunələri toplandı bunlar xeyrə, çölmək, boşqab, bardaq və s. tipli qabların fraqmentlərindən ibarətdir. Sadə keramika ilə yanaşı şirli saxsı məmulatının fraqmentlərinə də təsadüf olunur.

Abidənin ümumi ərazisi 3,5-4 hektara qədərdir. Yerüstü materiallara əsasən Yurdlar yaşayış yerində uzun müddət intensiv həyat olduğunu söyləmək olar.

Kiçik Şatırlı küp qəbirlər nekropolu − Abidə Kiçik Şatırlı çayının sağ sahilindəki yamacda qeydə alındı. Nekropol yamacda yerləşdiyindən sel-su mütəmadi olaraq bu ərazini yumuş, nəticədə küp qəbirlər üzə çıxmış və yerli əhali tərəfindən dağıdılmışdır. Eyni zamanda nekropolun sağ və sol

tərəfindən meşəyə yol çəkilərkən də buraya ciddi ziyan dəymişdir. Nekropolda toxunulmamış qəbir aşkar etmək məqsədi ilə 4x4 ölçüdə qazıntı işi aparıldı. Təxminən 30-40 sm dərinlikdən iri ölçülü küplərin ağız, oturacaq və gövdə hissəsinin fraqmentləri aşkar olundu. Qazıntı sahəsini hər iki tərəfə genişləndirsək də salamat qalmış qəbir aşkar olunmadı.

Qazıntı sahəsindən kiçik ölçülü dulus məmulatının fraqmentləri aşkar olundu. Bu materiallara əsasən kiçik Şatırlı küp qəbirlər nekropolunu e.ə. I – b.e. I əsrlərinə aid etmək olar.

Çox güman ki, "Yurdlar" yaşayış yerinin sakinləri antik və ilk orta əsrlərdə öz ölülərini burada dəfn etmişlər.

Qərib ocağı ziyarətgahı – Ziyarətgah Çinar kəndinin ərazisində, Cəlilabaddan Burovar kəndinə gedən yolun üstündə qeydə alındı. Başqa yerdən gəldiyinə görə yerli əhali burada dəfn olunan şəxsi qərib adlandırmış, sonralar isə buraya "Qərib ocağı" adı verilmişdir. Sovet dönəmində buradakı qəbir dağılsa da, bu gün yenə də ziyarətgaha çevrilmişdir. Ətraf kəndlərin əhalisi də buraya ziyarətə gəlir. Niyyət edib nəzir gətirir və yaylıq bağlayırlar.

Ziyarətgahın islam dinini yaymaq və təbliğ etmək üçün buraya gələn imam övladlarından birinə aid olduğunu söyləmək olar.

Nərgiztəpə küp qəbirlər nekropolu – Abidə Gülməmədli kəndinin ərazisində olub təxminən 1 ha qədər sahəni əhatə edir. Keçən əsrin 70-ci illərində üzüm plantasiyaları salınarkən burada bir neçə iri ölçülü küp üzə çıxarılmışdı. Həmin küplərdə insan skeleti olduğunu görüb bu ərazidə işi dayandırılmışlar. Lakın sonrakı dövrlərdə buradan xeyli küp qəbir üzə çıxarılmış və dağıdılmışdır. Yerli əhalinin verdiyi məlumata görə iri küplərin içində və yanında bəzək əşyaları, saxsı qablar, hətta silahlar da olmuşdur.

Təəssüf ki, bu materiallar itirilmişdir. Ərazidən toplanan yerüstü materiallara əsasən "Nərgiztəpə" nekropolunu e.ə. I – b.e. I əsrlərinə aid etmək olar.

Cəmşid orta əsr yaşayış yeri – Abidə Gülməmmədli kəndinin şimal-qərbində İran İslam Respublikası ilə sərhəddə, Germi dağlarına yaxın ərazidə qeydə alındı. Təxminən 10 ha qədər ərazini əhatə edir. Hal-hazırda əkin sahəsidir və hər il şumlanır. Şum zamanı orta əsrlərə aid sadə və şirli qab sınıqları üzə çıxır. Şumlanmış sahədə ocaq, təndir, kül izləri açıq aydın bilinir. Vaxtilə burada da üzüm plantasiyaları salınmışdır. Nəticədə abidəyə xeyli ziyan dəymiş, mədəni təbəqə məhv edilmişdir. Bələdçimiz, Gülməmmədli kənd orta məktəbinin müəllimi Həmdulla İbayevin verdiyi məlumatı görə şum zamanı buradan mis və gümüş pullar da tapılmışdır. Təəssüf ki, həmin pullar itirilmişdir.

Yerüstü materiallara əsasən Cəmşid yaşayış yerini XIII-XIV əsrlərə aid etmək olar.

Xəlilli torpaq qəbirlər nekropolu – Abidə Cəlilabad rayon mərkəzindən Sadatlı kəndinə çəkilən yolun Xəlilli kəndi ərazisindən keçən hissəsində "İncillik" orta əsr qəbiristanlığından 150-200 m aralıda aşkar olunmuşdur. 2010-cu ilin çöl tədqiqatları zamanı burada "Darılıq" orta əsr yaşayış yeri də qeydə alınmışdı. Buldozerin açdığı geniş yarğanda təndir, ocaq izləri, kömür-kül qalıqları da görünür. Burada bir neçə torpaq qəbir dağıdılmış, materiallar isə Cəlilabad Tarix-Diyarşünaslıq muzeyinə gətirilmişdir. Onlar ilk orta əsrlərə aid küpə və bardaq və parçşəkilli qabdan ibarətdir. Qazılmış sahədə insan sümükləri də vardır. Toplanmış artefaktlar Xəlilli torpaq qəbirlər nekropolunu IV-VI əsrlərə aid etməyə imkan verir.

Yuxarıda göstərilənlərdən əlavə "Cənub-Şərqi Azərbaycan abidələrinin" arxeoloji tədqiqi ekspedisiyası müdiriyyətin və Mədəniyyət və Turizm Nazirliyinin tapşırığı ilə Astara rayonunun **Siyatuk, Pəlikəş və Sim** kəndlərində də olmuş və burada təsadüfən açılmış abidələrdə tədqiqatlar aparmışdır ki, bunun geniş hesabatı təqdim olunacaqdır.

Cəlilabad rayonunun arxeoloji xəritəsinin hazırlanması işi davam edir. Gələcəkdə arxeoloji kəşfiyyat işlərinin davam etdirilməsi və məhv olmaq təhlükəsi qarşısında qalan "Xudu təpəsi" abidələrində, eyni zamanda Kiçik Şatırlı kurqanlarında arxeoloji tədqiqatlar aparılması nəzərdə tutulmuşdur.

А.И.Алекперов, А.М.Мирабдуллаев, Т.Г.Азизов

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В ЮГО-ВОСТОЧНОМ АЗЕРБАЙДЖАНЕ

РЕЗЮМЕ

В 2012 году были продолжены археологические исследования на территории Джалилабадского района. Поисково-разведочные работы проводились с целью создания археологической карты региона, на учет взяты новые памятники.

Как и в предыдущие годы, поисково-разведочные работы велись в горных, предгорных и приграничных районах региона. На некоторых нововыявленных памятниках проводились первичные археологические раскопки, определились их хронологические границы, общие координаты.

Археологические исследования велись на территории сел: Ягублу, Лаллар, Тазакенд, Сатырлы, Халилли, Гюльмамедлы, Буровар, Сеид-базар. Было определено, что горные и приграничные поселения, взятые на учёт, занимают небольшую территорию относительно поселений на Мугани. Однако наземные признаки этих памятников слабо прослеживаются. Это ещё раз подтверждает, что проживающее здесь население, в основном, занималось скотоводством и часто перемещалось в связи с поисками новых пастбищ. Большой интерес представляют археологические исследования в некрополе села Сеидабазар. Здесь выявлены 5 грунтовых погребений с обрядами огнепоклонничества. Наличие в этих могилах, вместо скелетов, остатков золы указывает на обряд кремации. В целом Сеидабазарский некрополь – очень интересный памятник и поэтому необходимо более масштабное археологическое исследование памятника.

A.I.Alabakov, A.M.Mirabdullayev, T.H.Azizov

THE ARCHAEOLOGICAL INVESTIGATIONS IN SOUTH-EAST AZERBAIJAN

SUMMARY

There are registered tens of monuments with secret-service works aim of preparation of districts archaeological maps from 2012 year in field – investigation season, South-West Azerbaijan monuments archaeological investigation expedition in Jalilabad regions area. As previous years secret-service works taken away in districts, upland, foothills and border regions.

There are known general coordinates, their periodical borders, taken away previous archaeological excavation works in some of new revealed monuments.

The archaeological investigations taken away mainly in Jalilabad region's Yasublu, Lallar, Tazakand, Shatirli, Khalilli, Gulmamadli, Saidabazar, Buzovar etc villages' area in 2012 year. It is known that the living places registered in upland area and border comparatively the living places situated in Mugan, captured few area. At the same time these monuments surface specialties also are sensible. It is affirms again that the people lives here are duals with cattle-breeding, economy, run for new pastures and often changed their places.

The archaeological investigations taken away in necropolis in the area of Jalilabad's Saidabazar village giving more interests during field-investigations time. There are investigated 5 land grave which buried with fire-worship traditions. It allows to say that, there was tradition to burn of death and ashes remainders instead of skeleton .Generally Saidabazar necropolis is a lot of interesting monument and it is considering to take away investigations in this monument.

BEYNƏLXALQ EKSPEDİSİYALAR

МЕЖДУНАРОДНЫЕ ЭКСПЕДИЦИИ
INTERNATIONAL EXPEDITIONS



GÖYTƏPƏ VƏ HACIƏLLƏMXANLI NEOLİT DÖVRÜ YAŞAYIŞ YERLƏRİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR

(Tovuz rayonu)

(qazıntıların 5-ci mərhələsi)

Fərhad Quliyev və Yoşihiro Nişiyakinin
rəhbərliyi ilə

Azərbaycan heyəti; F.R.Hüseynov, O.A.Zamanov, Y.V.Məmmədov, Ş.A.Səlimbəyov, V.Ə.Ələkbərov
Yaponiya heyyəti; S.Kadovaki, Y.Arimatsu, K.Şimoqama, Ç.Akaşi, Y.Hayakava, T.Miki, S.Aray

GİRİŞ

Göytəpədə aparılan tədqiqatların əsas məqsədi Cənubi Qafqazda Neolit mədəniyyətlərinin prosesini işıqlandırmaqdan ibarətdir. Daha dəqiq desək, araşdırmaların əsas hədəfi, regionda ən qədim Neolit mədəniyyəti olaraq tanınmış Şomutəpə erkən əkinçilik mədəniyyətinin yaranması və inkişafını tədqiq etməkdən və bu məsələni Qərbi Avroasiyanın Neolit dövrünün proseslərinin ümumi konteksində qoymaqdan ibarətdir.


Hesabatın birinci fəsli Göytəpə qədim yaşayış yerinin qazıntılarına həsr olunmuşdur. İkinci fəsil isə digər Neolit dövrünə aid olan qədim yaşayış yerlərinin, o cümlədən, Hacı Ələmxanlı qədim yaşayış yerində həyata keçirilən tədqiqatlara aiddir. Üçüncü fəsil, Göytəpə qədim yaşayış yerinin ətrafında arxeoloji abidələrin araşdırılmasına həsr olunmuşdur. Nəhayət, sonuncu dördüncü fəsildə nüxtəlif elmlərin fövqündə araşdırmaların yəni, geomorfologiya, arxeobotanika, və arxeozooloji tədqiqatların nəticələri verilmişdir. Birinci, üçüncü və sonuncu fəsillər praktik olaraq əvvəlki illərdə həyata keçirilən tədqiqatların davamı, ikinci fəsil isə Hacı Ələmxanlı qədim yaşayış yerinin yeni tədqiqatlarına həsr edilmişdir. Göytəpə qədim yaşayış yerinin yaxınlığında yerləşən bu yaşayış yeri keçən il aşkar edilmiş və Göytəpə ilə müqayisədə bu abidədə daha qədim Neolit təbəqələrinin olduğu müəyyən edilmişdir. Bu il aparılan araşdırmalar bunu həqiqətən təsdiqləmiş və bu, regionun qədim erkən əkinçilik mədəniyyətinin (Şomutəpə) araşdırılmasına əhəmiyyətli dərəcədə yardımçı olmuşdur.

QAZINTILAR

Bu il Göytəpə qədim yaşayış yerində həyata keçirilən çöl tədqiqat işləri üç fərqli kvadratlarda müxtəlif tədqiqat işlərindən ibarət olmuşdur. 4BII kvadratında daha erkən Neolit təbəqələrini aşkar etmək məqsədilə 2x2 m ölçülərdə yoxlama şurfu qazılmış, 99 A-B kvadratlarında stratiqrafiya analizləri həyata keçirilmiş, nəhayət 1B və 2 B kvadratlarında geniş arxeoloji qazıntılar aparılmış və təpənin cənub hissəsində 2x2 m ölçüsündə 2 yoxlama şurfu qazılmışdır.

1.1 4 B II kvadratında həyata keçirilən qazıntılar.

Ötən il 4B II kvadratında 11-ci tikinti horizontuna qədər arxeoloji qazıntılar aparılmışdır. Lakin 2012 ci ilin tədqiqatları zamanı Göytəpə tikililərinin daha aşağı təbəqələrini aşkar etmək məqsədilə 4 BII kvadratının şimal-şərq hissəsində 2x2 m ölçüsündə yoxlama şurfu qazılmışdır. Bu kvadratda çatmaq mümkün olmasa da, 10, 12 və 13-cü tikili horizontları aşkar edilmişdir (şəkil 2). 12 və 13-cü təbəqələr bu abidədə daha qədim yaşayış tikililərini təsdiq etmişdir.



Şəkil 1. Göytəpənin qazıntı sahələrini əks etdirən topoqrafik xəritəsi.




Şəkil 2. 4 BII kvadratının şimal- şərq hissəsindəki 2x2 m ölçüsündə şurf.




Şəkil 3. 4 BII kvadratının 2x2 m ölçülərdə olan şurfun şimal tərəfinin yuxarı hissəsi.



Şəkil 4. 4 B II kvadratının 2x2 m şurfunun şərq tərəfi.



Şəkil 5. 13-cü təbəqənin kərpic səkisi və 12- ci təbəqənin 107-ci divarı.



Şəkil 6. 4BII kvadratında 10 – cu təbəqənin tikilisi və səpələnmiş materiallar.



Şəkil 7. 4BII kvadratının 12 – ci təbəqəsi, kərpic divar.



Şəkil 8. Təbəqə 12. Divar 107. (şimaldan görünüş).



Şəkil 9. Divar 107 – nin çöl tərəfi. (cənub – şərqdən görünüş.)



Şəkil 10. 4BII kvadratının 2x2 şurfunun cənub divarı. Divar 107 – Orta divar.

STRATİQRAFİYA

Qazılmış şurfun şimal-şərq divarlarının təsviri və görünüşü 13-cü təbəqədən 10-cu təbəqəyə qədər stratiqrafiya ardıcıllığını tam olaraq aydın formada göstərmişdir. Döşəmələr arasında olan fərqlilik və tikililərin ayrılması bu təsvirlərdə, xüsusilə şimal divarında daha aydın görünür (şək.3). Döşəmələr ardıcıl olaraq tünd-qəhvəyi rəngli kül təbəqələr ilə fərqləndiyi halda, əsas döşəmələr arasındakı qatlar sarımtıl qəhvəyi torpaqla qarışıq olan kərpiclərdən ibarət olmuşdur. Bu qazıntı sahəsinin strateqrafiyası üzərində digər maraqlı müşahidə bundan ibarət olmuşdur ki, təpənin bu hissəsindəki tikililərin döşəmələri maili formada enmişdir. Şərq tərəfdən təsvirdə göründüyü kimi (şəkil 4), onlar şimala doğru əyilmişdir. Buradan da aydın olur ki, tikililər relyefə uyğun inşa edilmişdir.

MEMARLIQ

10-cu tikili horizontu

Bu təbəqədə qazıntı sahəsinin şimal-şərq hissəsində yerləşən torpaq üzərində gildən hörülmüş oval formalı təsərrüfat quyusu aşkar edilmişdir. Burada tikinti üsulluraını və təsərrüfat quyusunun istifadəsini tədqiq etmək məqsədilə mikromorfoloji analizlər üçün torpaq nümunələri götürülmüşdür.

Təsərrüfat quyusunun cənub tərəfində dağınıq halda çay daşları, heyvan sümükləri və sümük alətlər aşkar edilmişdir. Həmin quyunun qərb hissəsində kömür parçaları və yanmış torpaq izləri müəyyən edilmişdir (şək. 6).

11–ci tikili horizontu. Bu təbəqədən heç bir memarlıq nümunəsi aşkar edilməmiş, lakin, 12 və 10-cu təbəqələr arasında yerləşən tünd-qəhvəyi rəngli kül qatlarının olması, bu təbəqənin mövcud olmasını sübut edir. Bu təbəqələrin tikili qalıqları 4B kvadratının qərb tərəfində yerləşmiş, lakin, şimal – qərb hissəsi çox güman ki, açıq sahə olmuşdur.


12–ci tikili horizontu. Qazıntı sahəsinin qərb tərəfində cənubdan şimal - qərbə doğru uzanan əyri bir divar aşkarlanmışdır (Şək.7–8). Təqribən 1 m hündürlükdədir. Divarın yuxarı hissəsi aşınmaya məruz qalsa da, aşağı hissələr kifayət qədər yaxşı vəziyyətdə qalmışdır (şək. 8). Sarımtıl-qəhvəyi çiy kərpiclərdən tikilmiş divarın hündürlüyü 1.4 m-dir (şək. 9). Kərpiclər əsasən bir cərgədə düzülsə də, lakin iki cərgədə düzülmüş olanları da vardır (şək. 10).

13-cü tikili horizontu

Kiçik qazıntı sahəsindən yığcam formalı çiy kərpiclərdən ibarət mükəmməl bir tikili aşkar edilmişdir (şək. 11 və 12). Aşkar edilmiş tikilinin hündürlüyü 150 sm dən artıq idi. Burada tikilinin alt hissəsində qazıntı aparmaq mümkün olmadı. Ona görə də qazıntının bu hissəsini tam olaraq müəyyən

edə bilmədik. Divarın yuxarı hissəsi isə tədricən aşınmaya məruz qaldığı üçün dağılmışdır. Müşahidələr göstərir ki, burada ən azı on cərgə çiy kərpic düzülmüşdür (şək. 13).

Bu divarın başlıca funksiyası hələlik tam müəyyən edilməmişdir. Lakin Orta Şərqin abidələri ilə olan analoji paralelliklərə əsasən deyə bilərik ki, bu divar axan çayın təhlükəsinə qarşı səd və yaxud isə mühafizə rolunda ola bilər. Bu tikili ilə müvafiq surətdə əlaqəli olan arxeoloji materiallar çox nadir halda aşkar edilmişdir. Divarın hansı funksiyaya malik olmasından asılı olmayaraq, bu tikili 2011-ci ildə aparılmış qazıntılar zamanı təpənin şərq hissəsində aşkar edilən iri divarın bir oxşarıdır. Abidənin ətrafında olan alt təbəqələrin qazıntılarından məlum olur ki, qədim yaşayış yerinin ilk formalaşdığı dönəmdə xüsusi özəllikləri ilə seçilən memarlıq uslubu hökm sürmüşdür.



Şəkil 11. Təbəqə 13. Tikili qalıqları.



Şəkil 12. Kərpicdən olan terras. Təbəqə 13 və 12-nin 107-ci divarı. (şimaldan görünüş).



Şəkil 13. Kərpicdən olan terras. Təbəqə 13. (şimal–qərbdən görünüş.)

99 A–B kvadratları.


99 AI, 99AII, 99 BI və 99 BII (qərb–şərq) hissələrinə bölünən 99 A – B kvadratlarının qazıntıları 2011-ci ildə start götürmüş və növbəti il 2012-ci ildə davam etdirilmişdir. Bu kvadratlarda həyata keçirilən qazıntılar zamanı bir–biri ilə əyri divarlarla birləşən beş dairəvi tikilidən ibarət kompleks üzə çıxarılmışdır.

1A və 1B kvadratları

Burada ikinci tikili horizontuna aid olan 1 B1 kvadratında yeni bir kompleks tikili aşkar edilmişdir (şək. 14). Bu əsasən əyri divarlarla birləşmiş və həyətə girişi olan dörd dairəvi tikilidən ibarətdir. Həyətin ortasında ətrafı daşla olan ocaq yeri yerləşir. Qazıntı sahəsində aşkar edilmiş dairəvi tikililər, həyətin içərisində yerləşən ocaq yeri və bir neçə kiçik ölçülü təsərrüfat quyuları burada böyük bir tikili kompleksinin olduğunu təsdiq edir.

2B kvadratı (şək. 15)


Bu kvadratda aşkar edilmiş tikililər arasında (Locus 4) 4 saylı bina tikilininin tavanının saxlanılması üçün istifadə olunmuş dirək yeri aşkarlanmışdır (şək. 16). Dirək yeritəqribən 10 sm diametrində olub və döşəmənin təxminən mərkəzində yerləşir. Qazıntılardan məlum olur ki, Göytəpə qədim yaşayış yerinin Neolit tikililərinin tavanını saxlamaq məqsədilə istifadə olunan belə bir dirək yeri heç də hər bina üçün xarakterik olmamışdır.



Qazıntının planı.



Şəkil 14. 1B kvadratının Neolit tikililəri. (cənubdan görünüş)



Şəkil 15. 2B kvadratında Neolit tikililərinin təbəqə üzrə planı.



Şəkil 16. Təbəqə 2, Kvadrat 2B, Locus 4 tikilisinin sütun çuxuru.

Burada 5 saylı (Locus) tikilinin daxilində aparılan arxeoloji qazıntılar da diqqətə layiqdir (şək. 15). Ölçüsünə görə kifayət qədər kiçik olmasına baxmayaraq (2m-dən daha az diametrdə), qazıntılar zamanı bir neçə iri sümük alətlər, iri obsidian parçaları və obsidiandan olan ülgüclər dağılmış kərpic parçaları altından yerində olaraq aşkar edilmişdir.

HACI ƏLƏMXANLI TƏPƏSİNİN QAZINTILARI


2012-ci ildə Hacı Ələmxanlı qədim yaşayış yerində Tovuz arxeoloji ekspedisiyasının Yapon heyəti tərəfinin (Y.Nişiyaki) təşəbbüsü ilə abidədə qazıntılar aparılmışdır. Hacı Ələmxanlı qədim yaşayış yeri Göytəpənin şimal– qərb istiqamətində, 1km aralı məsafədə yerləşir. Hündürlüyü 1.5 m, olan təpənin diametri 50 m-dır.

Burada ilkin olaraq təpə ilə əlaqəli geomorfoloji parametrləri aydınlaşdırmaq üçün sahənin ətrafında topoqrafiq ölçülər aparılmışdır. Qazıntı sahəsi 5x5 m ölçüsündə kvadratlara bölünmüşdür. Bu il ancaq M 10 kvadratında arxeoloji tədqiqat işlərinə başlanılmışdır.

M 10 kvadratının qazıntıları. Hacı Ələmxanlı və Göytəpə qədim yaşayış yerlərinin arasındakı xronoloji çərçivəni sistemli şəkildə müqayisə etmək məqsədilə hər iki abidədə eyni qazıntı və sənədləşmə metodlarından istifadə edilmişdir. Qazıntıların əsas hədəfi memarlıq tikililərinin stratiqrafik əlaqələri əsasında tikililərin horizontlarını dəqiq müəyyən etməkdir.

1-ci tikili horizontu. M10 Kvadratında ilkin olaraq əyri formalı kərpic divar (diametri 2.7 m) aşkar edilmişdir (şək. 17). Kvadratın qərb divarına qədər uzanan başqa bir əyri divar birinci tapılmış divarla (1–ci neolit horizontu) birləşir (divar 50). 15-20 sm hündürlüyündə 9 və 50-ci divarlarla əlaqəli olan torpaq qatlarında arxeoloji materiallar aşkar edilmişdir. Bunlar əsasən sapand daşları, nukleus tipli iri obsidian parçaları, heyvan sümükləri (34 və 40) və divarın yanında cəmləşmiş bir ədəd gildən olan sapand daşları olmuşdur (şək. 18).

M10 kvadratının 1–ci tikili horizontuna aid olan divarların şərq və qərb hissələrinin torpaq qatlarında fərqli tapıntılar qeydə alınmışdır. Kvadratın şərqi əsasən sınmış kərpic parçalarından, bitki tərkibli qəhvəyi rəngli torpaq qatından (7,11,42,46,49), qərbi isə əsasən kül qatlarından ibarətdir (31,32,38,44,51,52 və 54).



Şəkil 17.M10 kvadratında 1-ciNeolittəbəqəsininmemarlığı.



Şəkil 18. 1-ci Neolit Təbəqəsi; Divar 9 – un ətrafında tapılan alətlər (40).

2- ci tikili horizontu. Növbəti tikili təbəqəsi 1–ci horizontun altından torpaqdan təmizləndi. 2-ci tikili horizontunun üst səthi 9-cu divar ilə şərq və qərb arasındakı boş sahə ilə müşayət olunur (şəkil 19). Ərazinin şərq hissəsi 9-cu divarla əlaqəli olub buradan kiçik ocaq yeri, üzərində deşiyi olan buynuz, əl daşı və sürtmək üçün alət kimi nümunələr tapılmışdır. Şərq hissədə tədqiqata yararlı heç bir arxeoloji tapıntı aşkar edilməmişdir. Kvadratın qərb hissəsi iri ölçülü çuxurun timsalında kül qatından ibarət olub içərisində çoxlu sayda tədqiqata yararlı olmayan heyvan sümükləri, daş parçaları, bitki qalıqları, yanmış çay daşları, gil daşlar və bir neçə keramika parçaları aşkar edilmişdir. Buradan aşkar edilən keramika parçaları arasında Orta Şərqin proto-şəhər Xələf mədəniyyətinə mənsub olan boya naxışlı keramika nümunələri xüsusilə diqqətə layiqdir. Geniş kül qatından ibarət bir quyuda tulantılarla cəmləşmiş bu materiallar torpağın ələk vasitəsilə təmizlənməsi zamanı üzə çıxarılmışdır.

3-cü tikili horizontu. Növbəti tikili horizontu iri ölçülü kərpic divarın rast gəlinməsi ilə müşayət olundu. İçərisindəki dairəvi tikilinin döşəməsi kül qatından ibarət olub bir neçə çay daşları, əmək aləti nümunələri və heyvan sümükləri ilə seçilirdi (şək. 20). Divarın qərb hissəsi çox güman ki, yuxarı təbəqədə quyunun qazılmasına görə dağılmışdır.

Kvadrat M10-da qazıntıların davamı dairəvi planlı evin döşəməsinin üzə çıxarılması ilə nəticələndi. Tikilinin içərisindən təqribən 30-40 sm qalınlığında torpaq təmizləndikdən sonra döşəmədə çoxlu sayda qaydasız şəkildə çiy kərpiclərə rast gəlindi. Kərpiclərin yarı hissəsi yanaşı olaraq divarın yaxınlığında paralel formada düzülmüşdür. Qazıntılar göstərir ki, dairəvi tikilinin divarı uçmuş və döşəməyə tökülərək kərpic toplusu əmələ gətirmişdir (şək. 21). Burada otağın mərkəzində döşəmədən 15-25 sm yuxarı hissədə kərpiclərin arasından təqribən 10 ədəd buynuz aşkar edilmişdir (şək. 22).

Divardan uçmuş kərpiclər torpaqdan təmizləndikdən sonra tikilinin döşəməsi aşkar edildi. Gil ilə suvanmış döşəmə üzərində müxtəlif məişət əşyalarına rast gəlinmişdir. Paleobotanika analizlərinin aparılması məqsədilə döşəmənin torpağı götürüldü (şək. 23).



Şəkil 19.M10 kvadratı; 2-ci Neolit təbəqəsi. Tikililərin üst səthi və kərpicdən olan divarlar (qərbdən görünüş)



Şəkil 20. Divar 82 – nin içərisindəki kül qatlarından ibarət döşəmədə aşkar edilmiş çay daşları və iri daş parçalar. 3 – cü Neolit Təbəqəsi; M10 Kvadratı (qərbdən görünüş).



Şəkil 21. Divar 105 – in sınmış kərpiclərlə dolu çökmüş otaq tikilisi (qərbdən görünüş).



Şəkil 22. Divar 105-in daxilində bir-birinə yanaşı düzülmüş buynuz sümükləri (qərbdən görünüş).

Aşkar olunan nümunələr üzərində gələcəkdə geniş analizlər aparılacaq. Qeyd etmək lazımdır ki, döşəmə üzərində aşkar edilən iki ocaq yerinin hər biri çoxsaylı kömür parçaları və yanmış torpaq qatları olan ərazi ilə əlaqəlidir. Şimal hissədə kül qatında çoxlu sayda dən daşları, əzmək üçün daş alətlər, bir ədəd kiçik ölçülü tiyə, iri daş parçalarının müəyyən hissələri, ülgüclər və nukleus tipli obsidian və bir ədəd keramika parçası aşkar edilmişdir. Bundan fərqli olaraq cənub hissədə ocaq yerinin ətrafında arxeoloji materiallara müəyyən qədər az miqdarda rast gəlinmişdir. Cənub hissədə isə divarın hər iki yanlarından nukleus tipli obsidian nümunələri və içərisində iri daş aləti, sapand daşları olan çuxur tapılmışdır (şək. 24). Çuxur divar ilə şimal tərəfdə yerləşən ocaq yeri arasında yerləşir.



Şəkil 23. Divar 105-in iç hissəsindəki döşəmə (qərbdən görünüş).



Şəkil 24. Çuxurun içərisində aşkar edilən sapand daşları və daş alətlərin parçaları.

Paleobotanik analizlər. Qazıntılar zamanı Göytəpə qədim yaşayış yerindən 8 torpaq nümunəsi və iri kömür parçaları əldə olunmuşdur. Yanmış bitki qalıqlarının bərpası məqsədilə qazıntıdan götürülmüş torpaq nümunələri su ilə yuyularaq təmizlənmişdir. Bitki qalıqları Göytəpə qədim yaşayış yerinin üst və alt təbəqələrindən götürülmüşdür.Analizlər əsasında arpa və buğda toxumları, taxıl sapları və üzüm dənələri müəyyən edilmişdir. Gələcəkdə bu nümunələr üzərində mikroskop altında analizlər aparılacaqdır.

Burada həmçinin kərpic və keramika parçalarının səthində və tərkibində olan bitki qalıqları araşdırılmışdır. Keramika parçalarının tərkibində buğda toxumları, arpa sapları, saman çöpləri təyin edilmiş və onların surətinin çıxarılması üçün silikondan (silisium) istifadə edilmişdir. Silikon daxil

edilməmişdən öncə, keramikanın üz səthini dağılmaqdan qorumaq məqəsdilə bitki izlərinin ətrafı aseton da həll olmuş qətran vasitəsilə örtülmüşdür. Bunun iki əsas üstünlüyü vardır; bunun vasitəsilə biz hətta yanmış qalıqlardakı itmiş məlumatı əldə edə bilərik və həm də bu bitkilərin izlərinin müəyyən qədər az pozulmasına imkan verir.

Qədim yaşayış yerinin əsas tikinti materialı olan çiy kərpiclərin tərkibi əsasən saman qatışıqlıdır. Bəzi kərpic nümunələrdə bitki izləri aydın olaraq görünür. Göytəpə qədim yaşayış yerinin kərpicləri adətən yanmış bitki qalıqlarından ibarətdir. Kərpiclərin tərkibində yanmış qalıqların olması bitki izlərinin pozulması üçün müəyyən qədər təhlükəlidir, lakin, həmin izlərin surəti çıxarıldıqdan sonra onlar su ilə yuyularaq təmizlənmişdir.

Qazıntılar zamanı **Hacı Ələmxanlı qədim yaşayışyeri**ndən 30-dan artıq torpaq nümunəsi götürülmüşdür. Buradan xeyli kömür parçaları, karkas ağacının meyvəsi (dağdağan fəsiləsindən olan ağac) və buğda biti əldə edilmişdir. Karkas ağacının qalıqları yanmaya məruz qalmamışdır. Gümanımıza əsasən onlar neolit dövrü ilə əlaqədardır, çünki bunlar minerallaşaraq yanmadan qorunmuşlar. Belə bitki qalıqları Suriya və Türkiyənin həm dövr abidələrində çoxlu sayda aşkar olunmuşdur. Hacı Ələmxanlı təpənin sakinləri də çox güman ki, bu ağacın meyvəsindən istifadə etmişlər. Həmçinin bitki izlərinin surətini çıxartmaq məqsədilə buradan bir neçə kərpic parçaları seçilmişdir. Onlardan birinin tərkibi bütünlüklə dənli bitkilərdən ibarətdir.

Göytəpənin bitki qalıqları əsasən çiy arpa, çiy buğda, tumlu buğda, üzüm, mərci və digər başqa paxla və meyvələrdən ibarətdir. Əkinçilik açıq aydın olaraq burada yaşamaq üçün ən zəruri vasitə olmuşdur. Hacı Ələmxanlı qədim yaşayış yeri isə Göytəpə ilə müqayisədə daha qədimdir. Burada qeyd olunan bitki qalıqlarının çeşidləri təmsil olunmamışdır.



Şəkil 25. Kərpic üzərində bütöv bir taxıl yarpağının (sünbülün) izləri.



Nəticə

Arxeologiya və Etnoqrafiya institutunun Tovuz rayonunda çalışan arxeoloji ekspedisiyası 2008-ci ildən etibarən ilkin sivilizasiyaların başlanğıc mərhələsini əks etdirən qədim yaşayış yerlərinin araşdırılması ilə məşğuldur. Bu illər ərzində ölkəmizdə səkkiz min illik tarixi olan Neolit mədəniyyətinin yaranmasının və inkişafının aydınlaşdırılması istiqamətində mühüm irəliləyişlər əldə edilmişdir. Göytəpə qədim yaşayış yerinin kompleks tədqiqatları ilə birgə ondan 1 km aralıda olan Hacı Ələmxanlı qədim yaşayış yerinin 2012-ci ildən etibarən tədqiqatlara cəlb olunması araşdırılan problem mövzunun daha geniş konteksdə öyrənilməsinə şərait yaratdı. Hacı Ələmxanlı qədim yaşayış yerinin ilkin radiokarbon analizləri, çox az sayda aşkar edilmiş keramika qalıqları bu kiçik yaşayış yerinin Göytəpə və Şomutəpə tipli qədim yaşayış yerlərindən əvvəl yarandığını təsdiqləyir. Aparılmışilkin araşdırmalar Göytəpənin materialları ilə müqayisədə kifayət qədər uyğunluq və qeyri uyğunluqların olduğunu göstərmişdir. Nümunə olaraq Hacı Ələmxanlı qədim yaşayış yerinin dairəvi planlı bina tikilisi Göytəpə ilə müqayisə edilə bilər. Lakin, tikilinin ölçüsü və tikilmə texnologiyası Göytəpədən təmamilə fərqlidir. Həmçinin, zəngin obsidian ülgücləri ilə müşayət olunan iri daş parçaları Göytəpə ilə oxşardır. Tiyə uclu çaxmaq daşları və iti uclu kəsici alətlər kimi tipoloji elementlər hər iki abidədə eynilik təşkil edir; halbuki, ülgüc istehsalı texnologiyası və ox ucluqlarının tipoloji xüsusiyyətləri qeyri uyğunluq yaradır. Göytəpədə mövcud olmayan boya naxışlı keramikadan ibarət fraqmentlərdə o cümlədən sümükişləmədə oxşarlıq və fərqliliklər mövcuddur. Arxeoloji materiallar üzərində analizlər sona çatdıqdan sonra, Hacı Ələmxanlı qədim yaşayış yerinin Cənubi Qafqazın Erkən Neolit Keramikasının yeni dövr mədəniyyətini ifadə edib etməməsi mövzusu üzərində fikir yürütmək mümkün olacaqdır.

Qədim erkən əkinçilik mədəniyyətinin inkişaf mərhələlərini özündə birləşdirən Göytəpə qədim yaşayış yerinin strateqrafiya ardıcıllığı bu məsələdə mühüm əhəmiyyət kəsb edir. 2012-ci ildə aparılmış arxeoloji qazıntılar və strateqrafik təhlillər bu mədəniyyətin inkişaf mərhələlərini və proseslərini müəyyən etməyə imkan vermişdir.

Apardığımız arxeoloji çöl tədqiqat işlərinə müvafiq olaraq deyə bilərik ki, zənnimizcə, Göytəpə qədim yaşayış yerinin öyrənilməsi ilə bağlı olan layihə Azərbaycanda Neolit mədəniyyətlərinin məsələsinin daha geniş konteksdə öyrənilməsinə xidmət edir. Bu fikir həm elmi tədqiqatların nəticələrinə görə və həm də Fərhad Quliyev tərəfindən təşviq edilən Göytəpə arxeoloji parkının yaradılması əsasında öz təsdiqini tapır.

Qədim yaşayış yerinin dövrünün təyin olunması məqsədilə aparılmış radiokarbon (C14)analizlərin nəticələri

Tab. 1 Hacı Elamxanlı Tepe. Radiocarbon dates for the Neolithic levels excavated in 2012

Level Context Lab no. Date bp Cal BC (1 sigma) Cal BC (2 sigma)

Level 1 HAJ2012 M10-54 IAAA-120693 7,000 ± 30
5974calBC - 5951calBC (19.6%)
5917calBC - 5873calBC (36.8%)
5863calBC - 5846calBC (11.9%)
5985calBC - 5834calBC (92.6%)
5826calBC - 5810calBC (2.8%)

Level 2 HAJ2012 M10-48 IAAA-120694 6,960 ± 30 5890calBC - 5799calBC (68.2%)
5971calBC - 5954calBC (3.8%)
5912calBC - 5752calBC (91.6%)

Level 2 HAJ2012 M10-68 IAAA-
120695 6,930 ± 30 5838calBC - 5755calBC (68.2%) 5882calBC - 5733calBC (95.4%)

Level 3 HAJ2012 M10-15 IAAA-120696 7,070 ± 30
6001calBC - 5974calBC (28.0%)
5952calBC - 5916calBC (40.2%)
6015calBC - 5893calBC (95.4%)

Level 3 HAJ2012 M10-79 IAAA-120697 7,060 ± 30
5992calBC - 5970calBC (20.6%)
5955calBC - 5907calBC (47.6%)
6012calBC - 5886calBC (95.4%)

Level 4 HAJ2012 M10-96H IAAA-120698 7,080 ± 30
6003calBC - 5974calBC (29.5%)
5951calBC - 5917calBC (38.7%)
6015calBC - 5895calBC (95.4%)

Level 4 HAJ2012 M10-96I IAAA-120699 6,950 ± 40 5885calBC - 5783calBC (68.2%)
5969calBC - 5955calBC (2.7%)
5907calBC - 5739calBC (92.7%)

Ф.Э.Кулиев, Йош.Нишияки,
Ф.Р.Гусейнов,С.Кадоваки,

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ НА НЕОЛИТИЧЕСКИХ ПОСЕЛЕНИЯХ ГЁЙТЕПЕ И ГАДЖИ АЛЕМХАНЛЫ ЭПОХИ НЕОЛИТА

РЕЗЮМЕ

С 2008 г. Институт археологии и этнографии НАНА проводит исследования в Товузском районе Азербайджана. Археологическая экспедиция изучает древние поселения, отражающие начальный этап возникновения ранних цивилизаций.

Первым памятником, подвергшимся комплексному археологическому исследованию, стало поселение Геойтепе. С 2012 г. начались археологические работы на другом синхронном ему поселении - Гаджи Алемханлы, находящемся на расстоянии 1 км от первого. Проведенный радиоуглеродный анализ материалов из поселения Гаджи Алемханлы и, найденные здесь, образцы керамики указывают на возникновение этого небольшого поселения еще до появления таких древних поселений как Геойтепе и Шомутепе.

Первичные исследования археологических материалов выявили особенности нового поселения. Круглые в плане постройки поселения Гаджи Алемханлы идентичны Геойтепинским. Однако, размеры построек и технология их строительства различны. Крупные каменные обломки с многочисленными обсидиановыми остриями идентичны находкам из Геойтепе. Такие типологические элементы, как кремень с клинкообразным наконечником и остроконечные резаки идентичны на обоих поселениях, но технология изготовления их острия различна. Типологические особенности наконечников стрел также различны. Обнаружены особенности в изготовлении и декорировании расписной керамики. Анализ археологического материала из поселения Гаджи Алемханлы указывает на новый этап в изучении керамики раннего неолита на Южном Кавказе.

Археологический материал и выявленная стратиграфическая последовательность слоев на исследуемых поселениях, охватывающих период развития культуры раннего земледелия, создали условия для определения этапов и процессов развития неолитической культуры.

Археологическое исследование древнего поселения Геойтепе служит изучению в более широком контексте вопросов культуры неолита в Азербайджане. Эта мысль находит свое подтверждение в создании археологического парка Геойтепе как иллюстрация полученных результатов научных исследований.

F.E.Guliyev, Y.Nishiaki,
F.R.Huseynov, S.Kadowaki

ARCHAEOLOGICAL EXCAVATIONS AT THE NEOLITHIC SITES OF GÖYTEPE AND HAJI ELEMKHANLI

SUMMARY

Since 2008, the archaeological expedition of the İnstitute of Archaeology and Ethnography in Tovuz region has been engaged in invastigating old settlement sites which represent the early stages of the first civilizations. Since 2012, the involvement of ancient settlement of Haji Elemkhanli i.e sutuated in 1 km distance from Goytepe, in research together with complex studies of Goytepe ancient settlement gave a chance to study the investigated problem ina wide context. The initial radicarbon analysis of the ancient settlement of Haji Elemkhanli and a small number ofpottery sherds found in this site confirm that this small mound site existed before the type of Goytepe and Shomutepe old settlements. The preliminary investigations on the archaeological materials show enough similarities and dissimilarities with compared materials of Goytepe.As an example, the round bulidings of the the ancient settlement of Haji Elamkhanli can be compared to Goytepe. But, the size of buildings and construction technology is completely different from Goytepe.

Also, huge stone fragments accompanying by a large amount of obsidian blades are of great similarity with Goytepe. Typological elements like chisels and knife tools are of similarity in both sites; but the technology of blade industry and typological elements of the arrowheads are quite differrent.

There are many differences and similiarities on the patterned ceramic fragments including bone industry that is unknown in Goytepe. It will be possible to say that Haji Elamkhanli ancient settlement expressing the culture of new period of Early Neolithic ceramics of the South Caucasus after the analysis of archaeological materials. The stratigraphic sequence of Goytepe ancient settlement which combines the development stages of early ancinet farming culture is very important in this mission. Archaeological excavations and stratigraphic examinations carried out in 2012 enabled to define the development stages and processes of this culture. According to archaeological research conducted in the field, we can say that the project about the studying the ancient settlement of Goytepe is serving to study the problems of Neolithic cultures in wide context.

MENTEŞTƏPƏ QƏDİM YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR

(Tovuz rayonu)

(qazıntıların 5-ci mərhələsi)

Fərhad Quliyev və Bertil Lyonnetin
rəhbərliyi ilə

Fransa heyəti –L.Pecqueur M.Poulmarc'h, K.Hamon, L.Bouquet, G.Bruley-Chabot, P.Raymond, A.Samzun, E.Baudouin, A.Decaix və
Azərbaycan heyəti – Ş.Səlimbəyov, V.Ələkbərov, N.İbrahimov, E.Muradova, A.Əliyeva, M.Mirqədirov və T.Axundzadə

Menteş qədim yaşayış yerində aparılan arxeoloji araşdırmalar Cənubi Qafqazda mühüm əhəmiyyətli maddi mədəniyyət abidəsinin üzə çıxmasına səbəb oldu. Araşdırmalar zamanı qədim yaşayış yerinin üzərində tunc dövründə salınmış kurqan qəbirin kamerasının üstündə olan daş yığını təmizləndi. Nəticədə qəbir kamerası üçün nəzərdə tutulmuş ağac tirlərdən olan örtük aşkar edildi. Tirlərin üzərində isə dağılmış şəkildə insan skeleti tapıldı. Kurqanın tam olaraq qazıntısı növbəti ildə nəzərdə tutulduğu üçün qəbir abidəsinin dəqiq yaş həddi hələlik bizə bəlli olmamışdır. Araşdırmalar zamanı xam torpaq üzərində inşa edilmiş dairəvi tikililər ilə eyni səviyyədə kollektiv şəkildə insan dəfnlərinə rast gəlinmişdir.

I - Kurqanın yuxarı hissəsinin təmizlənməsi

Kurqanın üzərində olan daşlardan ibarət topanın torpaqdan təmizlənməsi bu il çöl tədqiqatlarının xeyli vaxtını əhatə etdi. Daşların əksəriyyəti kiçik çay daşlarından ibarət olub yaxınlıqdakı çaydan (Zəyəmçay) götürülmüşdür. Eyni zamanda kurqan kamerasının üzərində olan bütün tirlər götürülmüşdür. Ağacdan olan tirlərin orta hissəsi aşağıya doğru çökmüş vəziyyətdə aşkar edildi **(şək.1).** Tirlər Juniperus (sərv kimilər fəsiləsinin ardıc cinsinə aid bitki növü) ağacından hazırlanmışdır **(Şək. 2).**



Şək. 1. İkinci kurqanın Şimal qərb görüntüsü. Sol tərəfdə ağacdan tirlər və iki tərəfdə sümük yığını.



Şək. 2. Tirlərin üzərindəki həsir izləri.



Şək. 3. Metaldan hazırlanmış üzük və kurqan qəbrin daş örtüyündən aşkar edilmiş saxsı parçaları.

Qəbrin şimal-qərb hissəsində bir-birindən 80 sm aralıda insan skeletinin dağılmış sümükləri aşkar edilmişdir. Bir hissəsi çay daşı və əhəndaşı plitələrinin, digər hissəsi isə ağacdan olan tirlərin üzərində idi (bax: şək. 1). İnsan skeletinin sümüklərinin müəyyən hissələri istisna olmaqla digər sümüklər bütünlüklə yayılaraq səpələnmişdirlər. Araşdırmalar nəticəsində məlum oldu ki, dağınıq halda aşkar olunmuş sümüklər bir insana aid olmuşdur. Sümüklərin üzərində aparılmış tədqiqatlar skeletin onurğa sütununa əsasən qalıqların 40 yaşlı kişiyə aid olduğunu göstərir. Həmçinin daşların arasında muncuqlar, tuncdan üzük və son tunc dövrünə aid keramika fraqmentləri aşkar edilmişdir **(şək. 3).**

Qədim yaşayış yerinin qazıntıları.

Keçən mövsümdə aparılan araşdırmalar nəticəsində eneolit dövrünə aid olan düzbucaqlı planlı tikililərin altında dairəvi planlı tikililər aşkar edildi. Qazıntı sahəsindən götürülmüş kömür qalıqlarının radiokarbon analizi (C14) bu təbəqələrin e.ə. VI minilliyin ortalarına və e.ə. V minilliyin birinci yarısına aid olduğunu göstərir.

Erkən eneolit dövrünün tikililəri.


Burada gumanımıza görə bir neçə dairəvi binalar e.ə. V minilliyin birinci yarısına aiddir. Dairəvi tikililərlə bərabər bu təbəqədə keramika parçaları, ocaq yeri və torpaqda qazılmış quyu tapılmışdır.



Şək. 4. Dairəvi planlı tikililərlə (sağda) əhatə olmuş əsas dairəvi bina tikilisi.



Şək. 5. Kiçik ölçülü dairəvi planlı tikililərin alt hissəsində oval formalı çökəklik.



Şək. 6. Qazıntı sahəsində aşkarlanmış son neolit dövrünə aid olduğu ehtimal olunan kollektiv dəfn.

Son neolit dövrünün tikililəri.

Bu təbəqənin tikililəri dairəvi planlıdır. Tikililərin kərpiclərinin bir üzü düz, digəri qabarıqdır. Bir neçə dəfə tikililər üzərində dəyişiklilər edilmişdir **(şək. 4, solda)**. Burada gil qatının aşkar edilməsi tikililərin həm çiy kərpiclərdən olan divarlarının, həm də döşəməsi üçün istifadə olunmasını nəzərdə tuturuq. Ən böyük bina (diam. 4,40-4,60m) burada iki dəfə tikilmişdir. Həmçinin keçən mövsümdə iki mərhələnin arasında uşaq qəbri aşkar edilmişdir **(şək. 4, sağda).** Bu təbəqədə çoxlu sayda dən daşları, həvəngdaşları və başqa alətlər, həmçinin heyvan sümükləri və bir neçə saxsı nümunələri aşkar edilmişdir. Bu dövr ilə əlaqəli təxminən 2m. hündürlükdə kül ilə dolu olan oval şəkilli çökəkliyi də (7,40x6,80m) də qeyd etməliyik. Çökəklik qərb tərəfdən dairəvi tiklililərlə və kərpiclərlə əhatə olunmuşdur **(şək. 5).** Biz onun bir hissəsini qazdıq və analiz üçün çoxlu nümunələr götürdük. Buradan bir neçə sümük alətlər və saxsı parçaları aşkar edildi: keramika nümunələri dairəvi tikilidən aşkar edilmiş nümunlərlə eyni tipdədir.

Nəhayət bu təbəqədə iki uşaq qəbri aşkar edildi. Onlardan biri tikilinin kənarında kiçik çökəklikdə, digəri isə keçən il tapılmış qəbrin yaxınlığında geniş dairəvi binanın içərisində idi. Bu təbəqədə ən maraqlı tapıntı isə qazıntının son günlərində böyük quyuda bir neçə skeletin (ən azı 9 şəxs) olduğu qəbrin aşkar edilməsi oldu **(şək. 6).** İlkin tədqiqatlar qəbirdə həm böyüklərə, həm də uşaqlara məxsus skeletlərin olduğunu göstərir. Maraqlıdır ki qəbir kamerasında bəzi skeletlər qaydasız şəkildə bir-birinin üzərində aşkar edilmişdir. Qəbrdə bir neçə heyvan sümükləri və bir neçə material aşkar edilmişdir **(şək. 7).**

Fikrimizcə, bu kollektiv dəfn Cənubi Qafqazda nadir dəfn adətlərindən biri ola bilər. Qazıntılar növbəti ildə davam etdiriləcək.

Tikili qalıqlarından tapılmış saxsı materialları kifayət qədər xarakterikdir. Keramikanın tərkibi yumru, çox xırda olan yabanı bitki toxumları ilə müşayət olunur. Üst səthin intensiv olaraq cilalanması çox tez-tez hallarda bitki izlərinin pozulmasına səbəb olmuşdur. Rəngi açıqdır. Daha çox rast gəlinən keramika nümunəsinin ağız tərəfinin bir hissəsi yarı bağlı formalıdır **(şək. 8).** Bu tip keramika nümunələri bu ərazi üçün xarakterik olmasa da, Mil düzü ərazisində aşkar edilən keramika nümunələri ilə oxşar xüsusiyyətlərə malikdir.



Şək. 7. Kollektiv dəfn aşkar olunmuş yerdən qaban dişlərindən olan əşyalar.



Şək. 8. Son neolit dövrünün keramika nümunəsi.

NƏTİCƏ

Menteş qədim yaşayış yerində aparılan arxeoloji araşdırmalar Cənubi Qafqazda mühüm əhəmiyyətli maddi mədəniyyət abidəsinin üzə çıxmasına səbəb oldu. Araşdırmalar zamanı qədim yaşayış yerinin üzərində tunc dövründə salınmış kurqanın qəbir kamerasının üstündə olan daş yığını təmizləndi. Nəticədə qəbir kamerası üçün nəzərdə tutulmuş ağac tirlərdən olan örtük aşkar edildi. Tirlərin üzərində isə dağılmış şəkildə insan skeleti tapıldı. Kurqanın tam olaraq qazıntısı növbəti ildə nəzərdə tutulduğu üçün qəbir abidəsinin dəqiq yaş həddi hələlik bizə bəlli olmamışdır. Araşdırmalar zamanı xam torpaq üzərində inşa edilmiş dairəvi tikililər ilə eyni səviyyədə kollektiv şəkildə insan dəfnlərinə rast gəlinmişdir.

Keçən mövsümdə aparılan araşdırmalar nəticəsində eneolit dövrünə aid olan düzbucaqlı planlı tikililərin altında dairəvi planlı tikililər aşkar edildi. Qazıntı sahəsindən götürülmüş kömür qalıqlarının radiokarbon analizi (C14) bu təbəqələrin e.ə. VI minilliyin ortalarına və e.ə. V minilliyin birinci yarısına aid olduğunu göstərir.

Qazıntı sahəsində iki uşaq qəbri aşkar edildi. Onlardan biri tikilinin kənarında olan çuxurda, digəri isə geniş dairəvi binanın içərisində idi. Lakin, ən maraqlı tapıntı isə qazıntının son günlərində böyük bir xəndəkdə bir neçə skeletin (ən azı 9 şəxs) olduğu qəbrin aşkar olunması oldu.İlkin tədqiqatlar burada həm böyüklərin, həm də uşaqların olduğunu göstərir və bəzi skeletlər burada qaydasız şəkildə bir-birinin üzərində idilər. Qazıntılar növbəti ildə davam etdiriləcək.

Ф.Э.Гулиев, Б.Лионет

РАСКОПКИ НА ДРЕВНЕМ ПОСЕЛЕНИИ МЕНТЕШТЕПЕ

РЕЗЮМЕ

Археологические исследования поселения Ментеш выявили важнейший материально-культурный памятник на Южном Кавказе.

Во время раскопок на месте древнего поселения было расчищена груда камней над камерой курганного могильника эпохи бронзы. Под камнями найдено перекрытие из деревянных блоков. На деревянном перекрытии выявлен хаотично разбросанный скелет человека. Поскольку раскопки кургана продолжаются, погребения датировать невозможно. При проведении археологических работ на одном уровне с округлыми постройками зафиксированы коллективные человеческие захоронения.

В 2012 г. под четырехугольными в плане постройками эпохи энеолита обнаружены круглые сооружения. Радиоуглеродный анализ (С14) остатков угля, взятых с участка раскопок показал принадлежность этих слоев к середине VI – первой половине V тысячелетия до н.э.

В зоне раскопок обнаружены два детских погребения: один с края сооружения в маленьком зондаже, другой внутри просторного круглого сооружения. Интерес вызвал коллективное погребение, обнаруженное в большом рве минимум с 9 скелетами. Первоначальные исследования показали наличие здесь скелетов как взрослых, так и детей, некоторые беспорядочно друг на друге. Раскопки будут продолжены в следующем году.

F.E.Guliyev, B.Lyonnet

EXCAVATIONS OF THE ANCIENT SETTLEMENT OF MENTESHTEPE

SUMMARY

Archaeological investigations done at the ancient settlement of Menteshtepe revealed a significant material-cultural monument at the Southern Caucasus. Stone covered on topof the burial chamber of the Kurgan of the Bronze age had been cleaned during investigations. As aresult , a cover consisting of the beams considered for the chamber of the grave had been discovered. We also found scattered human skeleton on those beams. Compete investigation of the Kurgan is going to be done next year and therefore we are not able to determine the precise age of the grave monument yet. Collective human burials together with circular structures built on the virgin soil had been discovered during the investigations.

Circular building structures directly under the rectangular buildings dating back to the Chalcolithic period had been discovered as a result of archaeological investigations of last year. Charcoal remains from the excavation area had been submitted to radio carbon analyses (C^{14}) and these analyses show this layers date back to the midst of the VI and the first half of the V millenniums BC.

Two infants' graves were found at the excavation area. One of them was found in the small pit near the building structure and the second one had been discovered inside of the large circular building. But the most interesting find is a grave inside of which were several skeletons (at least 9 individuals) discovered in alarge pit at the end of investigations. Preliminary investigations show both adults' and infants' bones here and some of the skeletons were scattered and mixed here. Further investigations will be done next year.

AZƏRBAYCAN-ALMANİYA BEYNƏLXALQ EKSPEDİSİYASININ ÇÖL TƏDQİQATLARININ HESABATI

(Ağcabədi rayonu)

T.R.Əliyev, B.Helving, A.Ricci



I Kamiltəpə. Kərpic platformanın qalıqları.

Azərbaycan - Almaniya beynəlxalq arxeoloji ekspedisiyası 2012-ci ilin yay aylarında Ağcabədi rayonundakı Neolit-Xalkolit dövrlərinə aid abidələrin tədqiqini davam etdirmiş, Mil-Qarabağ düzənliyində, o cümlədən Qarabağ dağlarının şimal-şərq ətəklərində bir sıra qədim yaşayış məskənləri aşkara çıxararaq onlar haqqında ilkin məlumatlar toplamışdır. Cari tədqiqat ilində I və IV Kamiltəpə abidələrinin memarlığına xüsusi diqqət yetirilmlşdir. Belə ki**,** I Kamiltəpədə (KAM I) hələ 2009-cu il qazıntıları zamanı açılan və çoxlu suallar doğuran kərpic platformanın ətrafında rast gəlinən, bəzi hallarda isə ona bitişik halda olan tikililərin onunla eyni dövrə aid olub-olmadığını aydınlaşdırmaq zəruri idi. Buna görə də qazıntı sahəsi – O12 kvadratı qərb və şimala doğru genişləndirilmişdi. Qeyd edək ki, bu hissədə platforma daha salamat, yaxşı vəziyyətdə qalmışdır. Digər qazıntı sahəsində - P13 kvadratda isə platformanın şimala doğru xeyli dağılması müşahidə edilmişdir. Qazıntılar göstərdi ki, platformanı əhatə edən arxitektura 2 fazaya – mərhələyə bölünür. Bundan başqa təkrar istifadə olunmuş 3-cü bir mərhələ də izlənilir. Aşağıdakı - erkən faza platforma ilə eyni dövrə aiddir. Bütövlükdə isə açılan tikili qalıqları böyük bir kompleksin hissələri kimi qəbul oluna bilər. 2-ci faza

tikililəri aşağıdakı – erkən faza tikililəri üzərində inşa olunmuşdur. Qədim divarlar arasındakı boşluq isə kərpic hörgüdən ibarət döşəmə ilə örtülmüşdür. İlk fazaya aid kərpiclər təmiz gildən hazırlanmış və daha yaxşı qalmışdır. İkinci fazaya aid kərpiclər isə aşağı keyfiyyətlidir. Onların tərkibində qum və daş qırıntıları var. Müəyyən edilmişdir ki, ikinci fazaya aid tikili anbar kimi istifadə olunmuşdur. Burada xeyli miqdarda iri həcmli küp və mətbəx qablarının qalıqlarına rast gəlinmişdir. 2-ci fazaya aid böyük otaqlardan birində isə üzərində qırmızı oxra izi olan daş balta, sapand daşı və maral buynuzundan hazırlanmış çəkic əldə olunmuşdur. Sonuncu Şomutəpə tiplidir və Kamiltəpədən ilk dəfədir ki, belə nümunəyə təsadüf edilir.



I Kamiltəpə. Platformaya bitişik tikililərin görünüşü.



I Kamiltəpə. Platformanın dağılmış hissəsi.



I Kamiltəpə. Platforma və onun ətrafındakı tikililərin planı.

P12-13 kvadratlarında qazıntı davam etdirilərkən platformadan 7 m şimalda daha bir divar aşkara çıxarılmışdır. Ortada kərpic parçaları, yanmış ağac və qamış qırıntıları diqqəti çəkmişdir. Buradan mətbəx keramikası, xüsusilə boya naxışlı qablar, arpa qalıqları və öküz buynuzu tapılmışdır.

Qeyd edək ki, I Kamiltəpədən əldə olunan maddi qalıqların radiokarbon analizləri bu abidənin e.ə. VI minilliyin ortalarına aid olduğunu göstərmişdir.

IV Kamiltəpə (KAM IV) qədim yaşayış məskənində aşkar edilmiş xəndək qalıqlarının əvvəlki 2 ildə (2010-2011) kiçik bir hissəsi açılmışdır. 2012-ci ildə isə 200 kv.m-dən çox sahədə bu xəndək sistemi öyrənilmişdir. Bütövlükdə bir neçə fazanı əhatə edən xəndəklər müxtəlif məqsədlər üçün istifadə olunmuşdur. Ən yuxarı fazadakı xəndəklərin üzərində bina qalığı və yaşayış izləri aşkar edilmişdir ki, bu da həmin xəndəklərin tamamilə açılmasını çətinləşdirmişdir. Buna görə də əsas iş F-G29 kvadratında 8 m uzunluğu olan sahədə iş aparılmışdır.



IV Kamiltəpə. Kərpic arakəsmələri olan xəndəyin bir hissəsi.



IV Kamiltəpə. Gildən insan fiqurunun baş hissəsi.


Kəsiklərdən aydın görünür ki, xəndəklər xam torpaqda 2,7 m dərinliyədək üçbucaq şəkildə qazılmışdır. Yan divarlar bir qədər kələ-kötürdür. Arakəsmə divarlardakı açıq rəngli kərpiclər keyfiyyətsiz olub ölçücə müxtəlifdirlər. Xəndəklərin yuxarı hissəsində quyu qalıqlarına, tünd rəngdə küllü torpağa, daş, sümük, saxsı və s. rast gəlinmişdir.Tədqiq edilən digər bir xəndəyin üzərində Neolit dövrünə aid binanın döşəməsi açılmış və müxtəlif maddi qalıqlar (muncuq, saxsı və s.) əldə edilmişdir. Açılan profillərdən birində gildən hazırlanmış insan fiqurunun baş hissəsi aşkarlanmışdır.

IV Kamiltəpə abidəsində tapılan maddi mədəniyyət qalıqları arasında "muncuq atelyesi" - balıqqulağından hazırlanmış minlərlə muncuq tədqiqatçıların diqqətini daha çox cəlb etmişdir. Muncuqlar düzəldilərkən çaxmaq daşından olan alətlərdən istifadə olunmuşdur. Bu tapıntılar hələ Neolit dövründə Mil düzündəki yaşayış məskənlərində istehsal təsərrufatının, o cümlədən sənətkarlığın, mübadilənin inkişafından xəbər verir.

Aparılan analiz və müqayisəli təhlillər IV Kamiltəpə yaşayış məskəninin e.ə. VII-VI minilliklərin kəsişməsinə aid olduğunu göstərir.

Arxeoloji qazımtı işləri ilə yanaşı 2012-ci ildə Ağcabədi və Beyləqan rayonları ərazisində 3 istiqamətdə kəşfiyyat işləri aparılmışdır:


1. Qarasu hövzəsində və Kamiltəpə ətrafında aparılmış axtarışların davam etdirilməsi, abidələrin yerləşmə xəritəsinin tərtibi, yeni materialların toplanması;
2. Qalatəpə ətrafındakı landşaftı öyrənmək məqsədilə Qarqarçay hövzəsinin nəzərdən keçirilməsi, yeni aşkar olunan abidələr haqqında ilkin məlumatın toplanması;
3. Örənqala (Beyləqan) orta əsr şəhər yeri ətrafındakı ərazilərin öyrənilməsi.



Mil düzü. Qarasu hövzəsində abidələrin yerləşmə planı.



Qalatəpə ətrafında – Qarqarçay hövzəsində abidələrin yerləşmə planı.



Örənqala və onun yaxınlığından keçən yeni su kanalı ətrafında yerləşən abidələrin xəritəsi.

2012-ci ildə Qarasu hövzəsində 20-dən artıq, Qarqarçay hövzəsində isə 11 abidə qeydə alınmış, xəritələri çıxarılmışdır. Onlar Neolit-Xalkolit, Dəmir, Antik və Orta əsrlərə aiddir. Bu abidələrin bir qismi yaxşı qalmışdır (məsələn, MPS 55, 61 və s.). Kəşfiyyat zamanı abidələrdən toplanan materiallar arasında saxsı nümunələri çoxluq təşkil edir. Ağcabədi rayonunun Muğanlı və Hüsülü kəndləri arasında MPS 61 adı ilə qeydə alınan abidə daha yaxşı vəziyyətdədir. Oval formalı olan bu abidə 100 x 70 m sahəni əhatə edir. Ətraf sahədən hündürlüyü 2 m-dir. Buradan əldə edilən saxsı nümunələri, xüsusilə boya naxışlı qab fraqmentləri e.ə. VI minilliyin ortalarına aiddir. Başqa sözlə desək, 61 saylı yaşayış məskəni I Kamiltəpə ilə sinxrondur. Bu abidədən 150 m kənarda xalkolit (eneolit) dövrünə aid daha bir abidə (MPS 60) yerləşir. Hazırda onun üzərində ferma var. Hər biri ayrı-ayrı üç kiçik təpədən ibarət olan 51 və 52 saylı abidələr sonrakı tarixi dövrlərə - erkən dəmir, antik və orta əsrlərə aiddir.

İlkin tədqiqatlar göstərdi ki, Qarqarçay hövzəsi, onun landşaftı hələ qədim zamanlardan yaşayış üçün əlverişli olmuş və burada Neolit dövrünün sonlarından intensiv həyat başlamışdır.

Örənqalanın orta əsr şəhər məskəninin ətrafı, xüsusilə onun qərb tərəfində olan sahələr nəzərdən keçirilərək tədqiq edilmişdir. Buradakı 5 min hektara yaxın geniş sahə hazırda əkin yeri kimi şumlanır. Sürətli antropogen təsir nəticəsində landşaft dəyişib yeni görkəm alır. Bir çox abidələr dağılmaq təhlükəsi qarşısında qalır. İtkilərin minimuma endirilməsində Mil (Haramı) düzündə arx və kanallar çəkən (Aqro Servis Ltd.), şumlama işləri aparan şirkət rəhbərləri ilə sıx əlaqə saxlamağımız müəyyən pol oynayır. Tədqiqat ilində hələ şumlama işlərinin başlanmadığı bir sıra ərazilər peyk və CORONA, GeoEye ve Google Earth sistemləri ilə nəzərdən keçirilmiş, yaşayış məskənləri, qədim arxlar qeydə alınmışdır. Onlardan bir qismi bilavasitə orta əsr Beyləqan şəhəri ilə əlaqəlidir. Bölgədə qədim irreqasiya sistemlərini araşdırmaq məqsədilə arx və kanallarda şurflar qazılmış, profillər çıxarılmış, analiz üçün nümunələr götürülmüşdür.

Tədqiqatlar zamanı Qalatəpə antik və orta əsr şəhər yerinin, Örənqalanın qərb hissəsinin, Kamiltəpələrin (1,4,5) arasındakı abidələrin topoqrafik xəritəsi çəkilmiş və heksakopterlə fotoları çıxarılmışdır.

Arxeoloji kəşfiyyat işləri aparılan sahələrdə geomorfoloji tədqiqatlar da aparılmışdır. Holosen dövrünə aid landşaftı öyrənmək məqsədilə Örənqala yaxınlığındakı arxlarda, Qarqarçayın terraslarında, o cümlədən Qalatəpənin ətrafında profillər açılaraq tədqiq edilmişdir.

Cari ildə Qarasu ətrafında yeni aşkar olunan abidələrin qorunması məqsədilə də müəyyən işlər görülmüşdür. İlkin görkəmini minilliklərdən bəri qoruyub saxlamış bir sıra yaşayış məskənlərinin, məsələn MPS 16, 18 və 19-un ətrafanda mühafizə məqsədilə xəndəklər qazılmışdır. Eyni zamanda təsərrüfat işləri aparan təşkilatlarla əlaqə yaradılmış, ayrı-ayrı şəxslərlə görüşlər keçirilmiş və abidələrin mümkün qədər qorunmasına səy göstərilmişdir. Bu istiqamətdə müvafiq təşkilatlar arasında əlaqələrin genişləndirilməsinə ehtiyac var.

Sonda onu qeyd etmək istərdik ki, Mil-Qarabağ düzənliyinin Ağcabədi rayonu ərazisinə düşən hissəsində - Qarasu və Qarqarçay hövzəsində Azərbaycan tarixinin müxtəlif dövrlərinə aid çox əhəmiyyətli 50-dən artıq arxeoloji abidənin qeydə alınması həmin çay hövzələrinin bütövlükdə tarixi-arxeoloji qoruq elan olunmasına tam əsas verir.

Т.Р.Алиев, Б.Хельвинг, А.Риччи

ОТЧЕТ ПОЛЕВЫХ ИССЛЕДОВАНИЙ МЕЖДУНАРОДНОЙ АЗЕРБАЙДЖАНО-ГЕРМАНСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

В 2012 году уделено особое внимание архитектуре памятников Камильтепе I и IV. Раскопки показали, что архитектура вокруг, открывшейся в 2009 году, кирпичной платформы делится на две фазы. Период нижней – ранней фазы идентичен с периодом платформы. На нем были возведены сооружения второй фазы. Кирпичи ранней фазы изготовлены из чистой глины и лучше сохранены. Постройка второй фазы использовалась как амбар. Здесь встречаются остатки кухонной утвари. В одной из комнат обнаружены каменный топор, пряща и молоток из оленьего рога Шомутепинского типа.

В предыдущие годы в поселении Камильтепе IV были открыты остатки рвов. В 2012 году на площади более 200 м^2 изучена система этих рвов. По прорезям видно, что рвы были треугольной формы. Здесь была обнаружена изготовленная из глины, часть головы человеческой фигуры.

Поселение Камильтепе I относится к середине VI тысячелетия до н.э., а поселение Камильтепе IV – к стыку VII - VI тысячелетий до н.э.

В 2012 году на территории Агджабединского и Бейляганского районов также были проведены разведочные работы. В бассейне Гарасу было зафиксировано 20, а в бассейне Гаргарчая - 11 памятников периодов неолита-халколита, железного века, античности и средневековья.

С целью изучения древних ирригационных систем в канавах и каналах были заложены шурфы и проведены геоморфологические исследования. Составлены топографические карты ряда памятников и гексакоптером сняты фотографии.

T.R.Aliev, B.Helwing, A.Ricci

REPORT OF FIELD RESEARCHES OF AN INTERNATIONAL AZERBAIJANI-GERMAN EXPEDITION

SUMMARY

In 2012 it was given special attention to the architecture of monuments Kamiltepe I and IV. Excavations showed that the architecture around the brick platform which opened in 2009 is divided into two phases. Period of the bottom - early phase identical with a period of the platform. On it there were built the structures of the second phase. Bricks of the early phase made of pure clay and better preserved. The building, related to the second phase was used as a barn. There are the remains of kitchen utensils here. In one of the rooms were found a stone ax and a hammer made of reindeer antler of Shomutepe type.

In previous years in the Kamiltepe IV settlement were opened the remains of ditches. In 2012 on an area of over 200 m^2 has been studied this system of ditches. Slots show that the ditches were dug in the damp earth in a triangular shape. It has been found a part of the head of the human figure made of clay.

Kamiltepe I settlement dates to the mid VI century BC, and the settlement Kamiltepe IV - to the joint VII - VI millennium BC.

In 2012 in the territory of Aghjabadi and Beylagan regions were also carried out exploration works. There were fixed 20 monuments on the Garasu band and 11 in the Gargarchay band. They belong to the period of the Neolithic-Chalcolithic, Iron Age, Antiquity and the Middle Ages.

In order to study the ancient irrigation systems in the grooves and canals were dug pits and conducted geomorphologic studies. Were drawn topographic maps of some monuments and taken photographs by hecsacopter.

OVÇULARTƏPƏSİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR
(Naxçıvan MR, Şərur rayonu)

V.B.Baxşəliyev, C.Marro, S.H.Aşurov

Ovçulartəpəsi yaşayış yerində 2012-ci ildə aparılan arxeoloji tədqiqatların əsas məqsədi yaşayış yerinin ümumi planını və strukturunu müəyyənləşdirməkdən ibarət idi. 1000 kv. m sahədə qazıntı aparılmış və qazıntının ümumi sahəsi təqribən 1950 kv m-ə çatdırılmışdır.



Ovçulartəpəsi. Qazıntının ümumi görünüşü.

Beşinci kvadratda aparılan araşdırmalar zamanı 2011-ci ildə burada aşkar olunan təsərrufat quyusu və ocaq yerləri təmizlənmişdir. Təsərrüfat quyusu dairəvi planlı olub döşəmədən 1,8 m dərinlikdə yerləşirdi. Onun divarları gillə (palçıqla) suvanmışdı. Bənzər təsərrüfat quyuları Ovçulartəpəsində ikinci və on birinci kvadratlardan da aşkar olunmuşdur. Bu təsərrüfat quyuları müəyyən müddətdən sonra zibil quyusu kimi istifadə edilmişdir. Araşdırmalar zamanı müxtəlif məişət qalıqları, o cümlədən keramika nümunələri, botaniki və osteoloji qalıqlar aşkar edilmişdir.

Altıncı kvadratdakı qazıntılar zamanı 2010-2011-ci illərdə aşkar olunmuş təsərrüfat anbarları, ocaq yerləri tədqiq olunmuşdur. Başlıca olaraq bir cərgə çay daşlarından inşa edilən, 50-60 sm girişləri olan təsərrüfat anbarlarının içərisi və döşəməsi qalın gil qatı ilə suvanmışdı. Suvağın eni bəzən 10 sm-ə

çatırdı. Bu binaların içərisindən mis, sümük, obsidiandan hazırlanmış əmək alətləri, bioloji və osteoloji qalıqlar aşkar olunmuşdur. 2009-2010-cu illərdə aparılan araşdırmalar zamanı bu tip tikintilər onuncu və on üçüncü kvadratda da aşkar olunmuşdu. Araşdırmalar bu anbarların bəzisinin müəyyən müddət keçdikdən sonra zibil çuxuru kimi istifadə edildiyini göstərir. Tədqiqtlar bu sahədə bir-biri üzərində yerləşən dairəvi tikintilərin olduğunu göstərir. Şübhəsiz ki, zaman keçdikcə onların bəzisi tərk edilmiş və yeniləri inşa olunmuşdur.



Ovçulartəpəsi. Evlərin, iş yerlərinin və təsərrüfat quyularının görünüşü.

Onuncu kvadratda əvvəlki illərdə aparılmış araşdırmalar davam etdirilmiş, çay daşlarından inşa olunmuş, dairəvi formalı təsərrüfat anbarları təmizlənmişdir. Araşdırma zamanı qazıntının şimal tərəfində daş tikinti qalıqları izlənmişdir. Qazıntının cənub hissəsində mədəni təbəqənin bitdiyi, digər

hissədə isə davam etdiyi müəyyən edilmişdir. Ovçulartəpəsində ana torpaq qum qarışıq çınqıl təbəqədən ibarət olub sarı rəngli idi. Bu sahədə ana torpaqda qazılan, diametri 0,9-1 m olan çuxur aşkar olundu. Onun dərinliyi 60 sm idi. Çuxurun içərisi kül və məişət tullantıları, xüsusilə keramika parçaları ilə dolmuşdu. Keramika məmulatının xeyli hissəsi Kür-Araz mədəniyyətinə məxsusdur, çuxurun da həmin dövrə aid olduğu ehtimal olunur. Tədqiqat zamanı bu kvadratdan həmçinin eneolit dövrünə aid keramika məmulatı və əmək alətləri də aşkar olunmuşdur.

On üçüncü kvadratda aparılan araşdırmalar, onun yaxınlığında yerləşən on yeddinci kvadratda aparılan araşdırmalarla bağlı olmuşdur. Əvvəlki illərdə, xüsusilə 2010-cu ildə aparılan qazıntılar zamanı bu sahədə aşkar olunan uzun divarın ətrafında xeyli kərpic töküntülərinin olduğu müəyyən olunmuşdu. Kərpiclər başlıca olaraq yaşıl rənli gildən hazırlanmışdı. Lakin, binanın ümumi planı qazıntı sahəsindən kənara çıxdığından, müəyyən edilə bilməmişdi. On yeddinci kvadratdakı qazıntılar zamanı da kərpic töküntüsünə rastlanmışdı. Əvvəlki illərin tədqiqatları zamanı on üç və on yeddi ilə birləşik olan altı və on dördüncü kvadratlarda antropik təbəqə üzərində yerləşən təməldə qaya parçaları, yuxarıda kərpicdən inşa edilən böyük divar qalığına rastlanmışdı. On üç və on yeddinci kvadratlardakı qazıntılar bu divarın dördkünc formalı evə aid olduğunu göstərdi. Evin bir qismi on üçüncü, digər qismi isə on yeddinci kvadratda yerləşirdi. Evin divarları daş təməl üzərində çiy kərpicdən inşa olunmuş və olduqca pis saxlanmışdı. Evin içərisində iş yerləri, ocaq qalıqları, məişət əşyalarının qalıqları, o cümlədən keramika məmulatı, həvəng, dəstəklər, heyvan sümükləri, obsidian alətlər aşkar olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, bu sahədə aparılan qazıntı zamanı böyük obsidian parçasına rastlanmışdır ki, bu da bəzi tədqiqatçıların obsidian alətlərin Ovçulartəpəsinə hazır gətirilməsi ilə bağlı fikirlərini rədd edir. Qazıntının cənub hissəsində tədqiqtlar xam torpağadək davam etdirilmiş, dairəvi formalı kiçik çuxurlar, buraya baçdırılmış küplər aşkar edilmişdir.



Ovçulartəpəsi. Təsərrüfat quyusu.



Eneolit dövrü iş yeri.



Ovçulartəpəsi. Təsərrüfat küpü.



Kasa tipli qablar.

On yeddinci kvadratın qərb hissəsində, Ovçulartəpəsinin ilk sakinlərinə aid yarımqazma tipli evlərin qalıqları aşkar edildi. Evlərin bir qismi qazıntı sahəsindən kənara çıxdığından onların planını tam izləmək mümkün olmamışdır. Qazıntı sahəsində qalan hissədə gillə suvanmış döşəmənin qalıqları, evin şimal tərəfində isə dairəvi formalı təsərrüfat quyusu aşkar edilmişdir. Quyunun içərisi gil məhlulu ilə (palçıqla) suvanmışdı. Onun içərisindən kül, kömür, keramika parçaları, əmək alətləri aşkar olunmuşdur. Quyu axıradək təmizlənməmişdir. Qazıntı sahəsinin şimal - qərb tərəfində iki evin qalığı aşkar edilmişdir. Onlardan birinin yalnız döşəməsi, digərinin isə dördkünc planda inşa edilmiş hörgüsünün qalıqları qalmışdı. Evin böyük bir hissəsi qazıntı sahəsindən kənara çıxırdı. Onun döşəməsi gil məhlulu ilə suvanmışdı, içərisində döşəməsi gillə suvanmış ocaq qalıqları qalmışdı.

2010-2011-ci ilərdə aparılan qazıntılar zamanı on dördüncü kvadratda daş təməl üzərində kərpicdən inşa edilmiş evin iki divarının qalıqları aşkar edilmişdi. Bu ilki qazıntılar zamanı evin planını müəyyənləşdirmək mümkün oldu. Evin cənub - qərbdəki divarı iki sıra çay daşından və qaya parçalarından inşa edilmişdi. Divar ortada bir qədər müəyyən bucaq altında əyilmiş və divarı saxlamaq üçün dördkünc formalı kontfors inşa olunmuşdu. Bu divar 1,5 m hündürlükdə qalmışdı. Tədqiqat zamanı onun ana torpaq üzərində inşa olunduğu müəyyən olundu. Şərq divarı da ana torpaqda, hündür daş təməl üzərində, çiy kərpicdən inşa olunmuşdu. Şimal divarı iki sıra qaya parçalarından inşa edilmiş, divarın bəzi qisimlərində çiy kərpiclər qalmışdı. Bu divar antropik təbəqə üzərində inşa olunmuşdu. Divarın hündürlüyü 0,8-1 arasında idi. Qazıntı zamanı müəyyən edildi ki, bu otağın uzunluğu 6, 3 m, eni 2,4 m-dir. Otağın mərkəzində ocaq yeri, divar boyunca qab qoymaq üçün çuxurlar var idi. Müəyyən olundu ki, qabların oturacağı yuvarlaq olduğu üçün onları yerdə qazılmış dairəvi çuxurlara qoyurmuşlar. Ocağın ətrafından keramika parçaları, heyvan sümükləri və kül yığınları aşkar olundu. Döşəmənin üzərində həsir qalıqları var idi. Döşəmənin altında dairəvi formalı dirək yerləri aşkar olundu. Əvvəlki illərdə də qeyd etdiyimiz kimi Ovçulartəpəsinin ilk sakinlərinin ilk sığınacaqları ağac dirəklərlə dəstəklənən tikintilərdən ibarət olmuşdu. Bu təbəqədə ana torpaqda qazılmış ocaqlara rastlanırdı. Dirək dəlikləri həmçinin qazıntının şərq hissəsində izlənmişdir. Onların dördkünc plan verməsi ilk evlərin düzbucaqlı olduğunu göstərir. Bu tip dirək yerlərinə həmçinin on dördüncü kvadratla yanaşı olan altıncı kvadratda da rastlanmışdır.

Araşdırma zamanı on dördüncü kvadratda birinci otaqla birləşik olan bir otaq aşkar olundu. Onun şərq divarlarından yalnız daş hörgülər salamat qalmışdı. Bu otağın şimal divarı birinci otağın divarı ilə parallel idi. Lakin, bu otaq planda üçbucaq şəkilli idi. Şimal divarı daş təməl üzərində kərpicdən inşa olunmuşdu. Kərpic divar 0,8 m hündürlükdə qalmışdı və monolit kütlə halında idi. Bu divar antropik təbəqə üzərində inşa edilmişdi. Divarın altında ocaq qalıqları var idi. Otağın içərisində dairəvi formalı, dağıntıya uğramış ocaq qalıqları, ətrafa yayılmış kömür parçaları, gil qabların parçaları aşkar olunmuşdur. Ocaq təmizlənərkən onun altında dairəvi dirək yerlərinə rastlandı. Aşkar olunan tapıntılar qədim sakinlərin ilk dəfə məhz dirəklərlə möhkəmləndirilmiş evlərdə yaşadığını, sonra yaşayış binası inşa etdiyini göstərir. Arakəsmə divarların antropik təbəqə üzərində olması onların sonradan inşa edildiyini təsdiq edir. Bu bizcə zaman keçdikcə evlərin otaqlara ayrıldığını göstərir.

On dördüncü kvadratın cənub və qərb hissəsində yarımqazma tipli evlərin qalıqlarına rastlandı. Qeyd edək ki, onların izləri 2011-ci ilin qazıntıları zamanı müəyyən olunmuşdu. Cənub tərəfdə aşkar olunan ev dördkünc planlı olub şimal tərəfdə bir qədər yuvarlaq idi. Evin cənub hissəsində oval formalı iş yeri, onun yaxınlığında həvəng və dəstələr, şərq tərəfdə ocaq qalıqları aşkar olunub. Evin şimal tərəfində dairəvi formalı təsərrüfat quyusu var idi. Quyunun içərisi kül və məişət qalıqları ilə dolmuşdu. Onun içərisindən keramika, heyvan sümüyü və əmək alətləri aşkar olunmuşdur. Evin döşəməsi təmizlənərkən gil qabın parçaları, sümük bizlər, kül yığınları aşkar olunmuşdur. Döşəmə qalın gil qatı ilə suvanmışdı. Tədqiqat zamanı evin içərisində iki qat döşəmənin olduğu müəyyən olundu. Qazıntı sahəsinin şimal hissəsində, qərb hissədə yerləşən yarımqazmanın döşəməsi yaxşı saxlanmamışdı. Evin içərisində oval formalı ocaq və qabları qoymaq üçün dairəvi çuxur aşkar olundu. Ocağın içərisi kül və

kömür qalıqları, müxtəlif mətbəx qablarının parçaları ilə dolmuşdu. Evin bir hissəsi çoxotaqlı evin altında qalmışdı. Bu qazma tipli evlərin çoxotaqlılardan əvvəl inşa edildiyini təsdiq edən faktlardan biridir.

On səkkisinci kvadratdakı qazıntılar zamanı burada mədəni təbəqənin digər kvadratlarla müqayisədə incə olduğu müəyyən edildi. Tədqiqat zamanı eneolit dövrünə aid torpağa basdırılmış təsərrüfat küpləri, Erkən Tunc dövrünə aid dairəvi formalı çuxurlar aşkar olundu. Qazıntı sahəsinin qərb tərəfində dördkünc formalı binanın qalıqları üzə çıxarıldı. Evin mərkəzi hissəsində ocaq yeri, onun ətrafında əmək alətləri və qab qoymaq üçün çuxurlar aşkar olundu. Qərbdəki divar on doqquzuncu sahəyə doğru uzandığından iki kvadratın arasındakı qoruma payı qaldırıldı və evin tam planı müəyyən edildi. Evin içərisində eneolit dövrünə aid keramika parçaları aşkar olundu.

On doqquzuncu kvadratdakı tədqiqatlar zamanı üst təbəqədə daşdan inşa olunmuş tikinti qalıqları aşkar olundu. Lakin, tikintilər yaxşı qalmadığından evin tam planını müəyyən etmək mümkün olmadı. Qazıntı sahəsinin mərkəzi hissəsində erkən tunc dövrünə aid dairəvi formalı çuxurların olduğu müəyyən olundu. Onların içərisi qara rəngli küllə dolmuşdu. Kül təbəqəsi təmizlənərkən Kür-Araz mədəniyyətinə aid ocaq qurğuları, gil qabların parçaları, heyvan fiquru və gil təkər modelləri aşkar olundu. Gil qabların ikisini bərpa etmək mümkün oldu. Qara cilalı təkqulplu qabın oturacağında dairəvi deşik açılmışdır. Digər küpə iki qulplu və çəhrayı rəngli idi. Onun üzərində sürmə ilə çəkilmiş boya izlərinə rast gəlinmişdir. Ümumiyyətlə, bu sahədəki araşdırmalar şimala doğru, təpənin ətəyinə doğru irəlilədikcə təbəqənin azaldığını göstərir.

Abidənin sərhədlərini müəyyən etmək üçün iyirmi birinci kvadrat açıldı. Bu kvadratda mədəni təbəqə olduqca az yığılmışdı. Tədqiqat zamanı eneolit və erkən tunc dövrünə aid gil qab parçalarına rastlanmışdır. Qazıntı sahəsində çay daşlarından və qaya parçalarından inşa edilmiş tikinti qalıqları aşkar olunmuşdur. Lakin, onların kiçik bir hissəsi qaldığından evlərin planını tam müəyyən etmək mümkün olmamışdır. Qazıntı sahəsinin müxtəlif yerlərində Eneolit dövrünə aid, yerə basdırılmış küplərin qalıqları aşkar olunmuşdur. Sahənin demək olar ki, hər yerində 15-20 sm-dən sonra ana torpağın üzə çıxması bu hissədə təbəqənin incə olduğunu göstərir. Araşdırmalar yaşayış yerinin təpənin şimal-qərb yamacı boyunca davam etdiyini göstərir.

İyirminci kvadratdakı araşdırmalar zamanı üst təbəqədə Erkən Tunc dövrünə aid tikinti qalıqları və keramika nümunələri aşkar olundu. Lakin, tikintilər güclü dağıntıya məruz qaldığından onların planını izləmək mümkün deyildi. Tədqiqat zamanı 20-30 sm dərinlikdə yarımqazma tipli binaya aid divarın qalıqları aşkar olundu. Evin əsas hissəsi qazıntı sahəsindən kənarda qalmışdı. Divar orta həcmli çay daşları və qaya parçalarından inşa olunmuşdu. Evin döşəməsi 0,6 m dərinlikdə idi. Döşəmə göy rəngli gil məhlulu ilə suvanmışdı. Sahənin şərq hissəsində, on birinci kvadratda aşkar olunan daş təməl üzərində inşa olunmuş kərpic divarın davamı üzə çıxarılaraq təmizlənmişdir. Qazıntının digər hissələrində tikinti qalıqları, ocaq yerləri olduğu müəyyənləşdirilmişdir. Lakin, qazıntı başa çatdığı üçün tikintilərin planını tam izləmək mümkün olmamışdır.

Ovçulartəpəsində 2012-ci ildə aparılan araşdırmalar zamanı aşkar edilən tapıntılar yaşayış yerinin ümumi planını və stratiqrafiyasını dəqiqləşdirməyə imkan vermişdir. Müəyyən edilmişdir ki, ilk mərhələdə ağac tikintilər, sonra yarımqazma evlər, daha sonra isə çoxotaqlı evlər inşa olunmuşdur. Çoxotaqlı evlərin tədqiqi onların müxtəlif dövrlərə aid olduğunu göstərir. İlk mərhələdə evlərin divarları ana torpaqda qazılmış daş təməl üzərində, sonrakı mərhələdə isə antropik təbəqə üzərində inşa olunmuşdur. Bu mərhələyə xüsusilə on üç və on yeddinci kvadratlarda aşkar olunan evlərlər aiddir. Birinci və beşinci kvadratlarda da bu mərhələyə aid evlər aşkar olunmuşdur. Çoxotaqlı evlərin birinci mərhələsində evlər qrup halında inşa olunmuş, onlar arasında boş qalan hissələrdə müəyyən təsərrüfat binaları və ocaqlar olan həyətlər olmuşdur. Ovçulartəpəsində belə həyətlərə hələlik üç yerdə rast gəlinmişdir. Eneolit dövrünün erkən mərhələsi üçün xarakterik olan təkotaqlı evlərin yerinə ikinci mərhələdə çoxotaqlı evlərin meydana gəlməsi cəmiyyətin sosial quruluşunda müəyyən dəyişikliklərin ortaya çıxdığını göstərir.



Ovçulartəpəsi. Saxsı qablar.

Ovçulartəpəsindən aşkar olunan ən çoxsaylı material keramika məmulatıdır. Həmçinin, Ovçulartəpəsində aşkar olunan keramika məmulatı və tikintilər Azərbaycanın digər yerlərindən aşkar olunan tapıntılarla bənzərdir. Tədqiqatların yekunu Ovçulartəpəsinin çoxotaqlı evləri üçün kontrforsları olan divarların xarakterik olduğunu göstərir. Bu tip evlər Əliköməktəpədən məlumdur. Keramika məmulatının bəzi xüsusiyyətləri Urmiya hövzəsi və Şərqi Anadolunun keramikası ilə bənzərdir.

Duzdağdakı araşdırmalar Ovçulartəpəsindəki tədqiqatların tərkib hissəsi kimi davam etdirilmişdir. Əvvəlki illərdə aparılan araşdırmalar zamanı Duzdağda qədim duz qalereyalarının yeri müəyyən edilmiş və GPS-lə qeydə alınmışdı. Duzdağda aparılan araşdırmalar tarixə qədərki cəmiyyətlərin Naxçıvanın təbii sərvətlərinin istismarı, yaşayış yerlərinin tipləri və onların konkret bir ərazidə inkişaf dinamikasını müəyyən etmək üçün başlanan iri həcmli layihənin tərkib hissəsidir. Burada aparılan araşdırmaların əsas məqsədlərindən biri son eneolit və erkən tunc dövrü cəmiyyətlərinin iqtisadi və yaşayış strategiyasını müəyyənləşdirməkdən ibarətdir.

Duzdağında apardığımız araşdırmaların əsas məqsədlərindən biri də duz mədənlərində erkən istismar izlərini aşkar etmək, tarixə qədərki dövrün son mərhələsində duzun çıxarılması üsullarını müəyyən etməkdən ibarətdir. Bu vəzifə mədənlərdə işlənmə izlərinin bərpası, həmçinin daş alətlərdə aşınma izlərinin tədqiq edilməsi ilə mümkün olmuşdur. Yatağın üzərindən toplanan keramika məmulatı *in situ* vəziyyətində aşkar olunan tapıntıların və digər arxeoloji strukturların tarixinin müəyyən edilməsi üçün xronoloji göstərici kimi istifadə edilmişdir.



Ovçulartəpəsi. Nalşəkilli ocaq qurğusu.



Ovçulartəpəsi. Metal biz.



Ovçulartəpəsi. Gil fiqur və araba təkəri model.

Biz həmçinin müəyyən zaman ərzində duz çıxarılmasını bərpa etmək, əsas texnoloji və istehsal kəsintilərini eyniləşdirməyin mümkünlüyünü araşdırmışıq. Beləliklə, işimizin bir hissəsi istehsal infrastrukturları üzərində cəmləşdiriləcəkdir, onların korrelyasiyası gil qab parçaları, makro və mikro daş alətlər əsasında aparılmışdır. Duzdağında aşkar olunan arxeoloji materiallar çoxsaylı və müxtəlif formalı olması ilə fərqlənir. Toplanılan materiallar sputnik təsvirləri, yaxud havadan çəkilən rəngli foto rəsimlər üzərində işlənib hazırlanmışdır. Geomorfoloji araşdırmalar göstərmişdir ki, təpənin yalnız ağ-yaşıl rəngli gil qatları duz-mədən sənayesi üçün əlverişlidir.

Mədən sənayesinin ən maraqlı infrastrukturları ehtimal ki, qədim tunellər olmuşdur. Onlar duz yatağının ağ-yaşıl rəngli laylarında səpələnmişdir. Havadan çəkilmiş rəsimlərdən göründüyü kimi tunellər duz yatağının ortasında bir-birinin yaxınlığında qazılmışdır. İndiyədək qeydə alınan tunellərin hamısı dağılmış, lakin, onlardan biri saxlanmışdır. Onun uzunluğu 4 m, eni 1,10 m-dir. Tunelin içərisindən heç bir tapıntı əldə edilməmişdir. Belə ki tunelin döşəməsi qalın çınqıl qatı ilə örtülmüşdü. Digər mühüm tapıntı tunelin girişində qayada sütunun yonulması idi. Kür-Araz mədəniyyəti dövrünə aid keramika parçalarına əsasən onları eyni dövrlə tarixləndirsək, demək olar ki, biz Son eneolit və erkən tunc dövrü ilə tarixlənən mədən sənayesinin şəbəkəsi ilə rastlaşmışıq.

2012-ci ildə başlıca məqsəd Duzdağda eneolit və erkən tunc dövrünə aid qalereyaların müəyyən edilməsi idi. Bu məqsədlə arxeoloji qazıntılar aparılmışdır. Qazıntılar başlıca olaraq “Pəncərə-2” adı ilə kodlanan sahədə aparılmışdır. Tədqiqat zamanı içərisi müxtəlif çöküntülər və Kür-Araz mədəniyyətinə aid keramika parçaları ilə dolmuş üç çuxur aşkar olunmuşdur. Onların dərinliyi 0,9-1 m arasında, diametri ortalama 1 m-dir. Bu çuxurların duz çıxarılması və emalı ilə bağlı olduğu müəyyən edilmişdir. Arxeoloji qazıntılar qədim dövrdə açıq üsulla da duz çıxarıldığını göstərir. Bu sahədə laylardan qoparılmış, bir-birinin üzərinə yığılmış hazır duz blokları aşkar olunmuşdur. Zaman keçdikcə yağmur suları zamanı axan torpaq onların üzərini örtmüşdür. Bu torpaq qatı 1-1,5 m-dir. İkinci qazıntı sahəsi qədim tunelin girişinin təmizlənməsi ilə açılmışdır. Bu sahədə tunelin girişi üstən bəlli idi. Qazıntı zamanı uçmuş torpaq qalıqları təmizlənmiş tunelin girişi açılmışdır. Lakin, uçqun zamanı giriş daraldığından onun içərisinə çətinliklə girilirdi. Bununla belə qalereyanın içərisinə girilmiş və araşdırma aparılmışdır. Araşdırma zamanı bu qalereyanın işlənməsində metal alətlərdən istifadə olunduğu müəyyən olunmuşdur.

Üçüncü sahədə aparılan qazıntılar zamanı təbii çökmə nəticəsində açılan qədim tunelin tavanından açılan dəlik təmizlənmiş və onun içərisində araşdırmalar aparılmışdır. Tunelin içərisindən əmək aləti və keramika aşkar edilmədiyindən onu dəqiq tarixləndirmək mümkün olmamışdır. Bu tunelin son tunc və erkən dəmir dövründə istismar edildiyi güman olunur. Bizim əsas məqsədimiz son eneolit və erkən tunc dövrünə aid qalereyaları araşdırmaq olduğundan araşdırmalar davam etdirilməmişdir. Gələcək illərdə qədim qalereyaların tədqiqi davam etdiriləcəkdir.

Duzdağında dörd tədqiqat mövsümdə aparılan sistematik araşdırmalardan sonra, onun tarixə qədərki dövrün son mərhələsində mühüm əhəmiyyət kəsb etdiyi göz önünə çıxarılmışdır. Duzdağının istismarının miqyasından da göründüyü kimi duzun funksiyası "İkinci ərzaq inqilabı" zamanı, e. ə. V - IV minilliklərdə Mesopotamiyanın böyük hissəsində və Qafqazda meydana gələn struktur dəyişikliklərini anlamaq üçün əsas açarlardan biridir. Bununla bağlı olaraq aşağıdakı əsas nəticələri çıxarmaq mümkündür:

1-ci və 2-ci Pəncərədə mütəmadi aşkar olunan saman qarışıqlı keramikaya əsasən aydın olur ki, mədənin istismarı e. ə. V minilliyin ikinci yarısında başlamışdır. Bu onu göstərir ki, İspaniyadakı Kardona (La Müntania del Sal) ilə birlikdə Duzdağı dünyanın ən qədim mədənlərindən biridir. Kardonada duz yataqlarının ətrafında insan fəaliyyətinin ən qədim izləri e. ə. 4200 və 3600-cü illərə aid edilmişdir. Duzdağdan aşkar olunan arxeoloji tapıntılar da təqribən həmin dövrlə tarixlənir. Qeyd etmək lazımdır ki, Duzdağında duzun erkən çıxarılması ilə bağlı məsələlər Kardonadakı faktlardan daha tutarlıdır. Belə ki, duz mədənində müxtəlif xronoloji dövrlərə aid keramika məmulatı ilə birlikdə yüzlərlə daş əmək aləti aşkar olunmuşdur. Aydındır ki, Duzdağında aşkar olunan arxeoloji materiallar, xüsusilə xeyli informasiya verən keramika məmulatı tarixə qədərki dövrün son mərhələsindən başlayaraq müasir dövrədək duz sənayesinin inkişafının müxtəlif cəhətlərini öyrənmək üçün unikal imkan yaradır.

2012-ci il mövsümündə I Kültəpə yaşayış yerində arxeoloji qazıntılar yenidən bərpa olunmuşdur. Əsas məqsəd I Kültəpənin stratiqrafiyasını yenidən incələmək, köhnəlmiş kömür analizlərini yeniləri ilə əvəz etmək, neolit və eneolit təbəqələrini araşdırmaq, I Kültəpə ilə Naxçıvanın digər eneolit yaşayış yerləri arasında bağlantıları araşdırmaqdan ibarətdir. I Kültəpə həm də qədim mədən alətlərinin olması ilə fərqlənir. Bu baxımdan mədənçilik tarixinin müəyyən edilməsində yaşayış yerinin əvəzedilməz əhəmiyyəti var. Bu il yaşayış yeri yalnız kəşfiyyat xarakterli araşdırmalarla 5x5 m sahədə öyrənilmiş, neolit və eneolit dövrünə aid keramika məmulatı aşkar olunmuşdur. Növbəti illərdə Ovçulartəpəsi, Duzdağı və II Kültəpədə tədqiqatların davam etdirilməsi nəzərdə tutulmuşdur.

В.Б.Бахшалиев, К.Марро, С.Г.Ашуров

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ ОВЧУЛАРТЕПЕСИ

РЕЗЮМЕ

Главной целью археологических раскопок 2012 года на поселении Овчулартепеси было определение общего плана и структуры поселения. Здесь, на участке в 1000 м^2 проведены раскопки на площади до 1950 м^2.

Очищены хозяйственная яма и очажные места, обнаруженные здесь в 2011 году. Аналогичные хозяйственные ямы обнаружены также на втором и одиннадцатом квадратах. Здесь выявлены бытовые, растительные и остеологические остатки, образцы керамики.

В шестом квадрате исследованы хозяйственные склады с входами, шириной в 50-60 см и полом, покрытым толстым слоем глины, а также очажные места, сложенные из булыжника. Исследования указывают на наличие здесь круглых строений, расположенных одно на другом.

В десятом квадрате с северной стороны раскопа прослежены остатки каменных сооружений. Обнаружена, вкопанная в грунт яма, диаметром 0,9-1 м. Большая часть керамических изделий принадлежит Куро-Аракской культуре. Предполагается, что яма датируется тем же периодом.

В тринадцатом квадрате, вокруг длинной стены, обнаружено много битых кирпичей. Кирпичи изготовлены в основном из глины зеленого цвета. Раскопки в тринадцатом и семнадцатом квадратах указывают на четырехугольную форму этой стены. Внутри помещения обнаружены остатки очагов, бытовых предметов, в том числе керамические изделия, зернотерки, кости животных, обсидиановые орудия.

На западной стороне семнадцатого квадрата обнаружены остатки домов-полуземлянок первых жителей Овчулартепеси.

Во время раскопок 2010-2011 гг. в четырнадцатом квадрате обнаружены остатки двух стен кирпичного дома на каменном фундаменте. Раскопки 2012 года позволили определить план дома. Стена в середине немного отклонена под определенным углом и для удержания стены возведен контрфорс четырехугольной формы. В квадрате обнаружено еще одно помещение, соединенное с первым. Сохранилась только каменная кладка восточных стен. В южной и западной части четырнадцатого квадрата сохранились остатки домов-полуземлянок.

Определено, что культурный слой восемнадцатого квадрата, более тонкий по сравнению с другими квадратами. Выявлены, вскопанные в землю, хозяйственные кувшины энеолитического периода, круглые ямы раннебронзового периода. Внутри помещения обнаружены керамические черепки энеолитического периода.

Раскопки верхнего слоя девятнадцатого квадрата выявили строительные остатки из камня. В центре раскопанного участка обнаружены круглые ямы раннебронзового периода. По мере продвижения исследований к подножию холма, наблюдается уменьшение культурного слоя.

Для определения границ памятника был вскрыт двадцать первый квадрат. Здесь культурный слой был очень тонким.

Во время исследования обнаружены черепки глиняных сосудов периода – энеолит и ранняя бронза.

Находки на Овчулартепеси в 2012 году позволили уточнить общий план и стратиграфию поселения. Установлено, что на первом этапе были построены деревянные строения, затем полуземлянки, а позже многокомнатные дома. Вместо однокомнатных строений, характерных для раннего этапа энеолита, на втором этапе появились многокомнатные дома, что указывает на определенные изменения в социальной структуре общества.

Были продолжены исследования на Дуздаге как на составной части Овчулартепеси. Во время прежних исследований здесь были установлены места древних галерей и зафиксированы GPS. Исследования, на Дуздаге являются составной частью крупномасштабного проекта для определения эксплуатации естественных богатств в доисторических обществах Нахчывана, типов поселений и динамики развития их на конкретной территории. Одним из основных целей, проведенных здесь исследований, является определение экономической стратегии при заселении территории в период позднего энеолита - ранней бронзы.

В 2012 году возобновлены археологические раскопки на поселении Кюль-тепе I. Основной целью было определить стратиграфию Кюль-тепе I, провести новый радиокарбонный анализ, исследовать неолитические и энеолитические связи Кюльтепе I и других энеолитических поселений Нахчывана. Кюль-тепе I отличается также наличием древних рудниковых залежей. С этой точки зрения поселение имеет исключительное значение в определении истории добычи руды. В 2012 году исследования поселения на площади 5x5 м носили разведочный характер. Здесь были обнаружены неолитические и энеолитические керамические изделия. В последующие годы предусмотрено продолжение исследований на Овчулартепеси, Дуздагы и Кюльтепе II.

V.B.Bakhshaliyev, C.Morro, S.H.Ashurov

ARCHAEOLOGICAL INVESTIGATIONS IN OVCHULARTEPESI

SUMMARY

Archaeological investigations which taken away 2012 year in Ovchulartepesi living place major aim consisted of determine living place's general plan and structure. There is taken away excavation in 1000 kv.m. area and excavations general area was about 1950 m^2.

Found agriculture well and fire follows have been cleaned during researches in 5th square here in 2011 year. Similar agriculture well are revealed in Ovchulartepesi, second and eleventh squares. During investigations revealed botanical and osteologic remainders,various way of life.

There is investigated agriculture stores, fire places in 6th square. Mainly agriculture stores was plastered with clay layer inside and floor which was 50-60 sm entrance,constructed one row river stones. Investigations are shows round buildings was on each in this area.

Stone building remainders follows in 10th square excavations North side. There is revealed hole which diameter was 0,9-1 m, digged in major land. Most of ceramic products are about Kuro-Araxes culture supposed that hole was about that era.

There are determined lots of brick pieces in the round of long wall in 13 th square. Bricks made by yellow colored clay. The excavations 13th and 17th square shows that this wall was about four cornered formed house. There are found working places, fire remainders, way of lifes remainder also ceramic product, pestle, handles, animal bones, obsidian tools.

Half dig typical house's remainders about first inhabitants of Ovchulartepesi, 17th square West side.

Two walls remainder revealed of house which constructed from brick on stone found during excavation time in 2010-2011 years. During excavation of this years it was possible determine house's plan. There was constructed wall under some corner bent and there are constructed four corner formed confors in 1st square. There is revealed one room linked to 1st room in square. Only stone layings stayed its East wall. House's remainders meet in 14 th square's South and West part.It is determined cultural layer tiny with compare of other square during excavations in 18th square. It is revealed round formed holes about Early Bronze Age, agriculture pitchers buried to land about En eolith Age. There are found ceramic pieces about En eolith Age inside house.

There are revealed building remainders constructed by stone on top layer during investigations in 19th square. It is determined round formed holes about Early Bronze Age in the center of excavation area. Generally researches in that area to North side, hill's hem shows layer decreases .

21st square opened for determine monuments border. The cultural layer quite gathered in this square. During investigation meet clay plate pieces about En eolith and Early Bronze Age.

It allows to specify living place's general plan and stratigraphy found in Ovchulartepesi,2012 during investigations. Determined that there are constructed multi rooms houses, half digged houses, wood building in first stage.

Being multi rooms house inspide of one room houses in second term for En eolith Age's Early stage shows some changes in society's social structure. Researches of Duzdagh continued as a component of investigation in Ovchulartepesi. During researches taken away previous years determined salt gallery place in Duzdagh and registered with GPS. The researches taken away in Duzdagh the societies till history are components of Nakhchivan's natural wealth exploitation, living places's type and component part of wide part project began determine progress dynamics and direct one area. One of major aims of researches taken away here is determine economy and living strategy of Last En eolith and Early Bronze societies..

Archaeological excavations restored again in I Kultepe living place in 2012 years season. Major aims are consists of again get thinner of I Kultepe's stratigraphy old coal analyses substitute, Neolith, En eolith layers researches relations among I Kultepe with Nakhchivan other En eolith living places. I Kultepe is also differs with its old mine traditions. There are irreplaceable significance in determine mining history of living place. This year revealed ceramic product only research character in 5×5 m area, learnt, ceramic product revealed about Neolith and En eolith Age. There are considered continue investigations in II Kultepe, Duzdaghi, Ovchulartepe for next years.

AZƏRBAYCAN-FRANSA ARXEOLOJİ EKSPEDİSİYASININ APARDIĞI ÇÖL TƏDQİQAT İŞLƏRİ HAQQINDA
(Lerik rayonu)

M.N.Rəhimova, A.İ.Ələkbərov,
M.Kazanova, Ch.Lorre

Azərbaycanın cənub-şərq bölgəsi tarixi və arxeoloji abidələrlə çox zəngindir. Burada uzaq paleolit dövründən tutmuş, son orta əsrlərə qədər müxtəlif tipli abidələr. o cümlədən mağaralar, yaşayış yerləri, kurqanlar, qəbir abidələri, qalalar və s. geniş yayılmışdır. Cənub bölgəsinin arxeoloji abidələrlə zənginliyi hələ XIX əsrin axırlarında buraya olan marağı artırmış və Fransadan gəlmiş missiya burada arxeoloji qazıntılar aparmışdır. Bu missiyanın başında Jak de Morqan və onun qardaşı dururdu. Morqan qardaşları Lerik rayonunun Mistan, Mastayıl, Cuni, Tüli, Rəzqov, Qosmayilan, Mondigah, Çayrud, Veri, Hoveri, Kıraveladi və s. kəndlərində axtarış işləri aparmış və son tunc-ilk dəmir dövrünə aid edilən yüzlərlə Daş qutu qəbirlərini açmış, əldə edilən artefaktlar isə Fransaya aparılmışdır. Hal-hazırda həmin maddi mədəniyyət nümunələri Paris yaxınlığında yerləşən Sen Jermiendə, Milli Arxeologiya Muzeyində saxlanılır.



Kraveladi kəndi.

2011-ci ildə Morqan irsini öyrənmək məqsədi ilə Fransanın Ren 2 Universiteti, Fransa Muzeylər Departamenti, Sen-Jermen Milli Arxeologiya Muzeyi və Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu arasında Lerik rayonu ərazisində birgə arxeoloji tədqiqatlar aparılması barədə layihə hazırlanmış və müqavilə imzalanmışdır. Dörd il üçün nəzərdə tutulan bu layihədə aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

Tunc dövrü və dəmir dövrünün başlanğıcı arasındakı dövrdə bölgənin məskunlaşması

ardıcıllığını müəyyənləşdirmək;

Dəfn adətlərini təhlil etmək və dağlıq ərazidəki nekropollarla düzənlik hissədə olan nekropolların fərqil və oxşar cəhətlərini müəyyən etmək;


Son tunc-ilk dəmir dövründə bölgə əhalisinin həyat tərzini, təsərrüfatını və məişətini öyrənmək;

Yaşayış məskənlərinin salınması və tərk edilməsi səbəblərinə aydınlıq gətirmək.


Sözü gedən layihəni gerçəkləşdirmək məqsədilə 2011-ci ilin iyun ayında Fransadan gəlmiş tədqiqatçılar və Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları üç gün bölgədə olmuş və vaxtilə Morqan qardaşlarının tədqiqat apardığı yerlərdə olmuşlar. Onlar, Hiveri, Mondigah, Çayrud və Kraveladi kəndlərində olmuş və gələcək tədqiqat üçün Kraveladini (en: 38° N42, 486, uzun: 48°E 38, 947) seçmişlər. Bu kənd Lənkəran şəhərindən 25 km qərbdə Ləkərçay çayının sahilində yerləşir.

Tədqiqat üçün Kraveladinin seçilməsi təsadüfi olmamışdır. Belə ki, Morqan 1890 cı ildə burada işləmiş və Ləkərçay çayı boyunca yerləşən daş qutu qəbirlərin xəritəsini hazırlamışdır. Elə həmin xəritəni də əsas götürərək 2012-ci ilin iyun ayının axırlarında Beynəlxalq Arxeoloji Ekspedisiya aşağıdakı tərkibdə: Mişel Kazanova (Fransa), A.İ.Ələkbərov (Azərbaycan), Kristine Lorre (Fransa), Viktoriya de Kasteja (Fransa), Fransua Debraban (Fransa), Oliviya Münöz (Fransa), Anar Ağalarzadə (Azərbaycan), Giyom Segen (Fransa), Frederik Guyot (Fransa) və Aleksiya Dekaiks (Fransa) bu ərazidə arxeoloji qazıntı və kəşfiyyat işlərinə başlamışdır.

Kraveladi kəndi Morqan qardaşlarının olduğu digər kəndlərə, o cümlədən Coni, Tüli, Mistan, Mastayil və başqa kəndlərə nisbətən dəniz səviyyəsindən aşağıda, (270 m.) meşə massivinin içərisindədir. İlk günlər hava şəraitinin yaratdığı çətinliklər aradan qaldırıldıqdan sonra axtarış işlərini davam etdirmək mümkün oldu.



Jak de Morqanın tərtib etdiyi xəritə.



Morqanın açdığı daş qutu qəbirlər

Birinci tədqiqat ili olduğu üçün ekspedisiya öz qarşısına iki əsas vəzifə qoymuşdu. Birincisi, Morqan qardaşlarının qazıntılar apardığı qəbirləri müəyyən etmək; ikincisi isə gələcək tədqiqatlar aparmaq üçün yeni qəbirlər müəyyən etmək. Bu məqsədlə, Ləkərçayın hər iki sahilində və meşənin içərisində axtarışlara başladıq. Lakin bəzən biz əlimizdə Morqanın xəritəsi olmasına baxmayaraq qəbirlərin yerini müəyyənləşdirməyə çətinlik çəkirdik. Çətinliklərin əsas səbəbi kəndin ortasından keçən Ləkərçayın öz yatağını dəyişməsi, həmçinin ərazidə meşə yollarının salınması zamanı dağıntıların törədilməsidir. Eyni zamanda Morqanın xəritəsində nişan kimi istifadə etdiyi kənd evlərinin yoxa çıxması da işimizi xeyli çətinləşdirdi. Morqan öz hesabatlarında burada yayılmış 4 tip qəbir haqqında danışır: diametri 8-10 m, hündürlüyü 3-4 m. olan torpaq kurqanlar: daşlarla əhatələnmiş “daş qalağı”; daşların konusşəkilli və ya yarımkürəşəkilli təpələri və nəhayət dolmenlər.







Kraveladi. Daş qutu qəbirlər.

Biz səylərimizi daha çox Kiravelədi kəndinin 4 zonası üzrə cəmləşdirdik. I və II Kirəvələdinin sektorları Ləkərçay çayının qərb sahilində yerləşir və görünür Morqan kəndin bu hissəsində tədqiqat aparmamışdır. Əksinə III və IV Kirəvələdinin sektorları digər sahildə yerləşir və onlar Morqan tərəfindən tədqiq edilərək xəritələşdirilmişdir.

I Kirəvələdi. Ləkərçayın sol sahilində yerləşən I Kirəvələdi ərazisində daş yığınların topa halda göründüyü yerdə böyük bir sahədə qazıntı apardıq. Təxminən 2 kvadrata qədər ərazi qazıldı, lakin burada heç bir izə rast gəlmədik. Görünür bu sahə çayın böyük yatağının yerləşdiyi əraziyə daxil olduğundan çayın yatağındakı dəyişikliklər ərazini də dəyişdirmişdir.

II Kirəvələdi. Dəniz səviyyəsindən təxminən 286 m yüksəklikdə yoldan uzaq bir sahə seçildi. Meşə örtüyünün altından meqalitik tipdə bir neçə dəfn formaları aşkara çıxdı. Əvvəlcə ərazini qəbirlərin üzərində bitmiş və yüz illərdən bəri kökləri dəfn kameralarını dağıtmış ağaclardan təmizlədik. Burada 7 qəbir müəyyənləşdirildi. I, V və VIII qəbirləri hələlik qazmaq mümkün olmadı. II, III, IV və VII qəbirlər tərəfimizdən təmizləndi. Lakin onlar qarət olunmuşdu. Qəbirlər yerindən tərpədilmiş böyük ölçülü daşlardan düzəldilmiş kameraları vardır. Dəfn kameralarının ölçüləri müxtəlifdir: E 170x1150xh80 sm, E195x175xh90 sm, E265x1110xh85 sm, E270x1105xh75 sm. Bu qəbirlərin avadanlığı əsasən müxtəlif mineral daşladan hazırlanmış muncuqlar, qızıl təbəqədən hazırlanmış konusşəkilli muncuq, dəmirdən nizə ucluğu və s. ibarətdir.

III Kirəvələdi. Bu qəbirlər kompleksi Ləkərçayın sağ sahilində meşənin içərisində müəyyənləşdirildi Burada şimaldan cənuba doğru 3 m 30 sm, şərqdən qərbə doğru 4 m 30 sm, hündürlüyü 0,70 m olan daş yığımı Morqanın nişanladığı qəbirləri xatırladırdı. Qazıntı işləri kiçik daşların və böyük ölçülü daş blokların arasındakı ot təbəqəsinin götürülməsi ilə başlandı. Mərkəzi hissədə təxminən 1,5 m olan sahədə təndirin üst hissəsi aşkara çıxdı. Təndirin ətrafında ağ kül təbəqəsinin olması ondan uzun müddət istifadə olunduğunu söyləməyə imkan verir.

IV Kirəvələdi. Buradakı qəbirlər kompleksi vaxtilə Morqan tərəfindən xəritəyə salınmışdır. Hal-hazırda burada geniş təsərrüfat işləri aparılmış və feyxoa plantasiyaları salınmışdır. Çay ilə daş qutu qəbirlər arası ərazi cəngəllik olduğundan qəbirlərin yuxarı hissəsinə çatmaq üçün ağaclar kəsilməli oldu. Nəticədə təmizlənmiş sahədə meqalitik tikinti aşkara çıxdı. Yerində düzülmüş daş təbəqələri bu tikilinin arakəsmələrini əmələ gətirir. Dolmenin üstünü tam açmaq üçün ətrafdakı bütün daşları yerindən tərpətməli olduq. Çox təəssüf ki, bu qəbir də qarət olunmuşdur. Buna baxmayaraq oradan az miqdarda da olsa keramika nümunələri, insan sümükləri aşkar olundu. Bizə belə gəlir ki, qəbir kamerası qarətçilər tərəfindən tam qazılmamışdır. Vaxt az olduğundan biz də bu işi başa çatdıra bilmədik. Bu abidədə gələcəkdə tədqiqatın başa çatdırılması nəzərdə tutulur.

Ekspedisiya eyni zamanda Lerik rayonunun Mastail kəndində, dəniz səviyyəsindən təxminən 1330 m yüksəklikdə yerləşən dolmenləri və meqalitik tikililəri qeydə aldı. Mastail nekropolu yüksək bir təpənin üstündə yerləşir. Burada nişanladığımız və koordinatlarını müəyyən etdiyimiz bütün qəbirlər qarət edilmişdir. Morqan burada böyük bir dolmen tədqiq etmişdir. Onun ümumi uzunluğu 7,3 m-dir. O, hamar sal daşlarla örtülmüşdür və 2 kameradan ibarətdir. Morqan buradan obsidiandan hazırlanmış ox ucluqları aşkar etmişdir.

Beləliklə, Fransa-Azərbaycan arxeoloji ekspedisiyası 1-ci tədqiqat ilində Ləkərçayın sağ və sol sahillərində 4 sahədə arxeoloji tədqiqat işləri aparmaqla həm Morqanın vaxtilə öyrəndiyi qəbirləri müəyyənləşdirə bilmiş, həm də yeni abidələrdə tədqiqatlar aparmışdır. Arxeoloji qazıntılar zamanı əldə olunmuş artefaklar isə tədqiq olunmaq üçün Arxeologiya və Etnoqrafiya İnstitutuna gətirilmişdir.

2013-cü ildə ekspedisiya II və IV Kirəvələdi sektorunda yarımçıq qalmış işləri davam etdirmək, o cümlədən Hovil, Codikaş, Hamarat, Coni, Tüli kəndləri ərazisində axtarışlar və tədqiqatlar aparmağı planlaşdırır.

М.Н.Рагимова, А.И.Алекперов,
М.Казанова, К.Лорре

ПОЛЕВЫЕ РАБОТЫ АЗЕРБАЙДЖАНО–ФРАНЦУЗСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

В конце XIX в., прибывшие из Франции, братья Жак и Генри Морганы обнаружили на территории юго-восточного Азербайджана, в частности на территории Лерика и Лянкярана, большое количество погребений типа «каменных ящиков». Добытый материал был отправлен во Францию. В 2011 г. был подписан контракт между французским университетом Рен 2, Музейным департаментом Франции, Национальным археологическим музеем Сен-Жермена и Институтом Археологии и Этнографии НАН Азербайджана с целью изучения наследия Жака де Моргана и проведения археологических исследований на территории Лерикского района. Согласно проекту в 2012 г. Международная экспедиция начала свою работу.

Цель экспедиции заключалась в определении последовательности заселения региона в период между бронзовым и началом железного века, анализе погребальных обрядов и выявлении различий между некрополями горных и равнинных территорий, а также в изучении образа жизни в регионе в эпоху поздней бронзы – раннего железа, его хозяйства, быта, зарождения поселений и выяснении причин их упадка. Для осуществления этих задач в селе Кравелади Лерикского района были проведены разведочные работы и археологические исследования.

В селе, разделенном на 4 сектора, проведены археологические раскопки погребений «каменных ящиков». Очищены погребения открытые братьями Морган, определены их размеры и координаты. В условно названных секторах: Кравелади I, II, III, IV были проведены раскопки во вновь обнаруженных погребениях. Выяснено, что большинство погребений села Кравелади на протяжении прошедших ста лет были разграблены и разрушены.

M.N.Rahimova, A.I.Alakbarov,
M.Kazanova, Ch.Lorre

AZERBAIJAN-FRANCE ARCHAEOLOGICAL EXPEDITION ABOUT FIELD-INVESTIGATION WORKS

SUMMARY

In last XIX centuries came from France Yak and Henry Morgan brothers opened lots of stone-box graves about Last Bronze, Early Iron age in the area of Lerik and Lankaran regions of the South-West Azerbaijan,getting artefacts taken to France. More than one hundred year spent from this accident.

These is written assignment between France's Ren 2 University, France Museums Organization and Sen-Jermen an-Lay National Arcaeology Museum and ANSA Archaeology and Ethnography Institute for study Jak-de Morgan despat and for take away archaeological investigations in Lerik region 2011. International expedition began for activity in June-July months for project in 2012 year.

The major duties in expedition are to find out chronology settlement of district among The Bronze Age and Iron Age analyze burial traditions to determine different and similar specialties which in plain areas necropolis and mountain plain, the study of people in district settlement, life style in Iron Age, its life style, economy and way of life, living places settle and leave results clearness.

Expedition took away investigation and secret-service works in the area of Lerik region's Kkavalagi village for realize these duties villages area divided to 4 parts and archaeological excavations taken away in stone-box graves.

As a result of archaeological investigation works, taken away excavations in new found graves ,Morgan brothers opened graves, renew cleaned, sizes and coordinates are determined in Kraveladi I-II=III and IV sectors. It is known that the graves in Kraveladi village were ruined during 100 year. Now planning secret-service and excavation works in Lerik regions Kraveladi, Joni, Tuli, Mistan, Hamarat and Jadikash villages for 2013.

OĞLANQALA ƏTRAFINDA ARXEOLOJİ TƏDQİQATLAR
(Naxçıvan MR, Şərur rayonu)

V.B.Baxşəliyev, E.Hammer,
L.Ristvet, S.H.Aşurov

Oğlanqala yaşayış yerində 2008-2011-ci illərdə aparılan araşdırmalar zamanı xeyli maddi mədəniyyət qalıqları aşkar olunmuş, qalanın Şərur düzənliyində yaranmış qədim dövlətin paytaxtı olması ilə bağlı xeyli dəlil ortaya çıxarılmışdır. 2012-ci ilin iyul ayında Azərbaycan - Amerika ekspedisiyası tərəfindən Naxçıvan Arxeoloji Layihəsi çərçivəsində Şərur Rayonunda, Oğlanqala yaşayış yerinin ətrafında yenidən arxeoloji kəşfiyyat işlərinə başlanıldı. Əvvəlcə Şərur ovalığında, Oğlanqala ətrafında yerləşən yaşayış yerləri tədqiq edildi. Lakin, bizim əsas məqsədimiz ovalıq, bozqır və dağlıq bölgələri birlikdə araşdırmaqdan ibarət idi. Araşdırmamızın məqsəd və vəzifələri aşağıdakılardır:



Oğlanqala. Qala divarlarından görünüş.

Birinci, Oğlanqala ətrafındakı Dəmir dövrü yaşayış yerlərinin xarakteristikasını araşdırmaq. İkinci, ovalıqdan kənardakı qədim yaşayış yerlərinin izini tapmaq və onların Oğlanqala ilə əlaqələrini müəyyənləşdirmək. Üçüncü, əsas məqsəd Arpaçay və Axuraçay vadisində əvvəlcə araşdırılan yaşayış yerlərini yenidən tədiq etmək, nəhayət, dördüncü məqsəd ovalıq, bozqır və dağlıq bölgələrin tarixi əlaqələrini aydınlaşdırmaqdan ibarətdir.


Beləliklə, Oğlanqala ətrafındakı yaşayış yerlərini yenidən araşdırmaqla Urartu kimi güclü dövlətə boyun əyməyən bu qala-şəhərin müdafiə sistemi, ətraf aləmlə əlaqəsi haqqında yeni məlumatlar əldə etmək istəyirdik.


Oğlanqala yaşayış yerinin şimalında əvvəlki 2008-2010-cu illərdə aparılan araşdırmalar zamanı daş divarın qalıqları aşkar olunmuşdu. Böyük ərazini əhatə edən bu daş divarın funksiyası və tarixi ilə bağlı ətraflı məlumat olmadığından 2012-ci ildə bu divar yenidən tədqiqata cəlb edildi. Divar bəzi yerlərdə bir, bəzi yerlərdə isə iki sıra iri qaya parçalarından inşa edilmişdi. Yanlara qoyulan iri daşların arası kiçik həcmli daşlarla doldurulmuşdu. Divarın eni 1,5-2 m arasında idi. Araşdırma zamanı müəyyən olundu ki, bu divar Qız qalasının aşağı terraslarından başlayaraq cənub-qərb istiqamətdə uzanır. Divar Arpaçayın

sahilindəki sıldırım qayalarda bitirdi. Yerli əhalinin məlumatına görə Arpaçayın bir qolu vaxtilə Oğlanqala ilə Qız qala arasından axmışdır. Divarın ümumi uzunluğu 850 m idi. Divar boyu aparılan araşdırmalar zamanı Orta Tunc, Orta Dəmir və Orta əsrlərə aid keramika parçaları aşkar olunmuşdur. Bu divarla Arpaçay vadisinin qurumuş vadisi arasında müxtəlif dövrlərə, o cümlədən Orta Tunc, Erkən Dəmir və Orta əsrlərə aid keramika nümunələrinin aşkar olunması bu ərazidə uzun müddət yaşayış olduğunu təsdiq edir. Ərazidə həmçinin, Orta Tunc dövrünə aid kurqan tipli abidələrin olduğu müəyyən edilmişdir.

Şimal divarı ətraflı şəkildə tədqiq edilsə də yaşayış yerlərindən xeyli aralıda yerləşən bu divarın funksiyası ilə bağlı fikir yürütmək olduqca çətin idi. Odur ki, araşdırmalar davam etdirildi.


Əvvəlki illərdə aparılan araşdırmalar zamanı Oğlanqalanın şərqində də uzun divar qalıqları aşkar edilmişdi. Bu divar həm Oğlanqaladan, həm də Qızqaladan xeyli uzaqda yerləşirdi və onun da nə məqsədlə inşa edildiyini təsəvvür etmək o qədər asan deyildi. Araşdırma zamanı bu divarın müəyyən kəsintilərlə yaxınlıqdakı fermaya, oradan isə Axuraçay və Arpaçay vadisinə doğru uzandığı müəyyənləşdirildi. Divarın müəyyən hissələri su - təsərrüfat işləri görülərkən dağıdılmışdır. Müasir su kanalının yaxınlığında divarın üstündə 2-3 m-lik torpaq qatının izlənməsi vaxtilə daş divarın üzərində kərpic tikintilərin də olduğunu göstərir. Bu divarın ümumi uzunluğu 550 m idi. Divarın ətrafında aparılan araşdırmalar zamanı, divar boyunca Orta əsrlərə aid yaşayış yerlərinin olduğu müəyyən olundu. Onlar başlıca olaraq mövsümi yaşayış yerləri idi. Divar qeyd etdiyimiz kimi, cənubda Axuraçay və Arpaçay vadisinə doğru uzanırdı. Şimalda isə divar quru çay vadisi ilə kəsilirdi. Divarın şimal uzantısını yoxlamaq məqsədi ilə ətrafdakı dağlıq bölgə araşdırıldı, lakin, burada divar qalıqlarına rastlanmadı. Lakin, şimal istiqamətdə aparılan araşdırmalar zamanı Arpaçayın sol sahilində dağın zirvəsi ilə vadini birləşdirən, iri daşlardan inşa edilmiş divar qalıqlarına rastlandı. Divarın ümumi uzunluğu 370 m idi. Divarın eni 1,5-2 m. arasında idi. Araşdırma zamanı bir neçə forma verməyən keramika aşkar olundu.







Oğlanqala. Sarayın bərpa-rekonstruksiya planı.




Divarların yerləşdiyi ərazinin topoqrafik xəritəsinin hazırlanması onların Arpaçay vadisinə, o cümlədən Oğlanqalaya olan hücumların qarşısını almaq məqsədi ilə inşa edildiyini aydınlaşdırdı. Şübhəsiz ki, Oğlanqalanın yaxınlığında yerləşən müdafiə qalaları, xüsusilə Qız qala Oğlanqalanın müdafiəsinin möhkəmləndirilməsinə xidmət etmişdir. Araşdırmalar göstərir ki, Oğlanqalanın ətrafında divarlarla əhatə olunan sahə 487 hektardır.

Qız qala Arpaçay vadisində Qız qala adlı ikinci abidənin tapılmasından sonra I Qız qala adlanmaqdadır. Qala Aşağı Yaycı kəndinin cənub-qərbində, Uzunqaya dağ silsiləsinin Arpaçaya endiyi yerdə yerləşir. O, şərqdə Arpaçay vadisi və su anbarı ilə, cənubda düzənlik sahə, şimal və qərbdə isə dağlarla əhatələnmişdir. Tikinti qalıqları olduqca az saxlanmışdır. Yaşayış yerində təsadüf edilən tikinti qalıqları burada vaxtilə daşdan tikilmiş binaların olduğunu göstərir. Abidənin cənub - qərb tərəfində iri daşlardan tikilmiş divar qalıqları saxlanmışdır. Tikinti texnikasına görə onlar Oğlanqala tikililərini xatırladır. Araşdırmalar zamanı yaşayış yerinin ərazisindən Orta Tunc, Son Tunc və Erkən Dəmir, Orta əsrlərə aid keramika parçaları aşkar edilmişdir. Bu aparılan araşdırmalar göstərdi ki, yaşayış yeri Orta Tunc dövrünün əvvəllərindən başlayaraq məskunlaşmışdır. Tədqiqat zamanı qalanın şimal ətəyindən Orta Tunc dövrünün erkən mərhələsinə aid monoxrom boyalı keramika parçaları aşkar olundu. Həmçinin, Orta Dəmir dövrünə aid keramika parçaları da aşkar olundu. Yeni tapıntılar Orta Dəmir dövründə Qız qalanın mühüm strateji məntəqə olduğunu təsdiq etdi. Qız qala ilə bağlı mühüm tapıntıların bir qismi də Arpaçay vadisində aparılan araşdırmalar zamanı aşkara çıxarıldı. Burada su kanalı boyunca aparılan araşdırmalar zamanı aşkar olunan yarğanlarda mədəni təbəqə 2-3 m. qalınlığında idi. Müəyyən olundu ki, əski su kanalı qazılarkən bu yaşayış yerinin bir qismi dağıdılmışdır. Yarğan boyunca iri daşlardan hörülmüş divar qalıqları var idi. Daş divarlar bəzən bir, bəzən isə iki cərgə

saxlanmışdı. Araşdırmalar zamanı aşkar olunan keramika məmulatı Orta Tunc, Orta Dəmir və Orta əsrlərə aid idi. Araşdırmalar Qız qalasının ətrafında böyük ərazini əhatə edən və əlavə qala divarı ilə möhkəmləndirilən sivil yaşayış yerinin olduğunu göstərir. Hələlik müdafiə divarlarının Dəmir dövrünə aid olduğu ehtimal olunur. Gələcək tədqiqatlar bu məsələni daha da aydınlaşdırmağa imkan verəcəkdir. Bu, Dəmir dövründə Naxçıvanda irimiqyaslı yaşayış yerlərinin olduğunu təsdiq edir.

Araşdırmalar zamanı Arpaçay vadisində Oğlanqaladan şimalda yerləşən arxeoloji abidələr də tədqiqata cəlb edilmiş, GPS-lə yaşayış yerlərinin planı dəqiqləşdirilmiş, keramika məmulatı toplanmışdır. Belə abidələrdən biri II Qız qalası abidəsidir. II Qız qalası Şərur rayonunun Aşağı Yaycı kəndindən qərbdə, Arpaçayın sağ sahilində, hündür dağın üzərində yerləşir. Qala şimal tərəfdən sıldırım qaya ilə əhatə olunmuş, onun cənub və cənub - qərb tərəfinə isə iri qaya parçalarından hörülmüş divar çəkilmişdir. Müəyyən hissəsi yonulmuş daşlardan inşa olunmuş divarların eni 1,8-2m arasındadır. Divarlar bəzi yerlərdə 2,1 m hündürlüyündə salamat qalmışdır. Qalanın girişi cənub tərəfdəndir. Giriş qapısının eni 3 m-dir. Divarlar boyunca dördkünc formalı binalar yerləşdirilmişdir. Qalanın mərkəzində yerləşən, sahəsi 72 kv.m olan böyük binanın qalıqları iri daşlardan tikilmişdir. Ehtimal ki, bu bina qalanın inzibati mərkəzi olmuşdur. Tədqiqat zamanı olduqca az miqdarda keramika məmulatı aşkar olunmuşdur. Arxeoloji materiallara əsasən qalanı e.ə. IV- b.e. III əsrinə aid etmək olar. Qalanın əvvəlki dövrlərdə, xüsusilə Orta Dəmir dövründə də istifadə olunduğu ehtimal olunur.



Arpaçayın şimalında tədqiq edilən abidələrdən biri də Qarasu qalasıdır. Abidə Gümüşlü qəsəbəsindən şimalda, Arpaçayın sol sahilində, hündür təpə üzərində yerləşir. Yaşayış yerinin yerləşdiyi təpə bir neçə terrasdan ibarət olub kobud yonulmuş iri daşlardan hörülmüş divarla əhatə olunur. Üst terrasda salınmış qala divarı ilə iki hissəyə bölünmüşdür. Narınqala yaşayış yerinin mərkəzi hissəsində


yerləşir. Yerüstü materiallar gil qab sınıqlarından və əmək alətlərindən ibarətdir. Qala divarı relyefə uyğun inşa edilmiş, bəzi hissələrdə rizalitlərlə möhkəmləndirilmişdir. Qala divarının içərisində dördkünc formalı binaların qalıqları vardır.

Tədqiqatçıların verdiyi məlumata görə vaxtilə yaşayış yerindən Orta Tunc dövrünün əvvəlləri üçün xarakterik olan boyalı qablar aşkar olunmuşdur. Yaşayış yerinin mərkəzi hissəsi Orta əsrlərdə bərpa olunaraq istifadə olunmuşdur. Qarasunun Orta əsr divarları yarımdairəvi bürclərlə möhkəmləndirilmişdir. Divarlar qaya parçalarından hörülərək əhəng məhlulu ilə bərkidilmişdir.

Yerüstü materiallar içərisində Erkən Dəmir dövrünə aid gil məmulatı üstünlük təşkil edir. Tapıntıların əksəriyyəti çəhrayı və boz rəngdə bişirilmiş qab hissələrindən ibarətdir. Qalanın mərkəzi hissəsində xeyli miqdarda orta əsrlərə aid şirli və şirsiz keramika toplanmışdır.

Qarasudan aşkar olunmuş arxeoloji materialların tədqiqinə əsasən demək olar ki, burada həyat e.ə. II-I minilliklərdən XIV-XVII əsrlərədək davam etmişdir.

Araşdırma zamanı Arpaçayın sol sahilində, digər bir yaşayış yerinin olduğu müəyyən edildi. Yaşayış yeri indiki Gümüşlü kəndinin yaxınlığında olmaqla onun şimal - şərqində yerləşir. Yaşayış yerindəki binalar iri qaya parçalarından inşa edilmişdi. Evlər qaba dördkünc formalı idi. Keramika məmulatının azlığı yaşayış yerini dəqiq tarixləndirməyə imkan vermir. Lakin şübhəsizdir ki, qədim Gümüşlü kəndi vaxtilə bu ərazidə olmuşdur. Yaşayış yerinin şimal tərəfində, ondan xeyli aralıda iri daşlardan hörülmüş divar qalıqları var idi. Divar qalıqları Gümüşlü mədənlərinin yaxınlığınadək davam edir. Onun uzunluğu 150 m-dir. Müasir Gümüşlü mədənləri ərazisində aparılan araşdırmalar zamanı Dəmir dövrünə aid bir neçə keramika parçası aşkar edildi. Bu mədənlərin qədim dövrdən istifadə edildiyini göstərir. I Kültəpə yaşayış yerindən tapılan qurğuşun əşya, Ovçulartəpəsindən aşkar olunan qurğuşun filizinin qalıqları da bu yataqdan qədim dövrdə istifadə olunduğunu göstərir.



Araşdırma zamanı ovalıq, bozqır və dağlıq ərazilər arasındakı əlaqələri müəyyənləşdirmək məqsədilə Oğlanqala ətrafındakı düzənlik ərazidə və Axuraçay vadisində araşdırmalar aparıldı. Oğlanqala ətrafındakı düzənlik yerlərdə yalnız Orta əsr keramikası aşkar olundu. Lakin düzənliklə sərhədlənən bozqırlarda Orta Tunc dövrünə aid kurqanların olduğu müəyyən olundu. Axuraçay vadisinin sol sahilindəki dağ silsiləsi üzərində kurqan tipli abidələrin olduğu müəyyənləşdirildi. Təqribən 2-3 m diametrində olan kurqanların daş qarışıq torpaqdan düzəldilmiş kurqan örtüyünün hündürlüyü 0,8-1 m. arasındadır. Bəzi kurqanların ətrafında iri daşlardan düzəldilmış kromlexlərə də rastlanır.

Axuracayın sağ sahilində, əvvəlki illərdə qeydə alınan abidələr və onların arasındakı ərazilər araşdırmalarla öyrənildi, abidələrin planı yeni tipli GPS-lə dəqiqləşdirildi. Bu abidələr sırasına Qalacıq, Aqvantəpə, Qoşatəpə, Axura Kültəpəsi, Həmzəlitəpə, Ağbucaqtəpə, Aratəpə və digər yaşayış yerləri daxildir.

Axura Kültəpəsi adı ilə tanınan yaşayış yerində aparılan araşdırma zamanı təsadüfən aşkar olunmuş bir qəbir abidəsi ilə rastlaşdıq. Qəbir təpənin zirvəsində qazılmış dərin xəndəyin içərisində inşa olunmuşdur. Qəbirin girişi şimal-qərb, cənub-şərq istiqamətində olub, yumşaq torpaqla tutulmuşdur. Qəbir iki kameralı olub birindən digərinə keçid var. Otaqların planı bir-birinə bənzərdir. Onlar dördkünc formalı olub yuxarıda tağvari formada tamamlanır. Bərkidici məhlul kimi əhəng və gəc məhlulundan istifadə olunmuş, tavan isə tamamilə gəclə suvanmışdır. Birinci otağın ölçüləri 2.2 x 3.9 m olub, hündürlüyü 1.65 m-dir. Qəbir yer səviyyəsindən 0.86 m aşağıda idi. Düzbucaqlı otağın divarları boyunca iki uzun səki düzəldilmişdir. Səkilərin düzəldilməsində qeyri-mütənasiblik izlənir. Onlar döşəmənin səviyyəsindən 15-20 sm yüksəklikdədir. Bu səkinin üzərində olan skeletlər bir qədər qarışmış vəziyətdə idi. İkinci otağa gedən giriş alçaq idi və yarıyadək yumşaq torpaqla dolmuşdu. İçəri nəmişlik olduğundan ikinci otağın içərisinə girmədik. O birinci ilə eyni planda idi. Dəfn adəti də eynidir. Skeletlər döşəmədən bir qədər yuxarıda olan səkinin üzərində idi.

Qəbirin içərisindən heç bir maddi mədəniyyət nümunəsi tapılmadığından onu dövrləşdirmək çətindir. Abidənin üzərindəki təpədən Orta əsrlərə aid keramika parçaları, o cümlədən kirəmit aşkar olunmuşdur. Xaraba-Gilan və Xanəgahdakı bənzərlərinə əsasən abidəni IX-X əsrlərə aid etmək olar.

Araşdırma zamanı Həmzəli kəndi yaxınlığında, ondan şimal-qərbdə, yerli əhali arasında Şorbulaq adı ilə tanınan ərazidə kənd tipli yaşayış yerinin olduğu müəyyən olundu. Yaşayış yerində iki yerdə su qaynağının olduğu müəyyənləşdirildi. Abidə bulaq suyunun axdığı dərə boyunca şərqdən qərbə doğru uzanır. Yaşayış yerinin mərkəzi, bulağın üstündəki təpənin üzərindədir. Bu ərazidən Orta əsrlərin müxtəlif mərhələlərinə aid keramika parçaları, o cümlədən az miqdarda şirli keramika aşkar olundu. Yaşayış yerinin aşağı hissəsində, dərə boyunca bir-birinə birləşik dördkünc formalı bina qalıqlarına rastlanır. Abidənin bu hissəsindən Orta əsrlərə aid keramika parçaları aşkar olundu.

İkinci bir yaşayış yeri Şorbulaqdan şimalda aşkar olundu. Bu ərazidə iri həcmli binanın qalıqlarına rastlandı. Divarlar kiçik həcmli dağ daşlarından inşa olunmuşdur. Araşdırma zamanı Orta əsrlərə aid bir neçə keramika parçası aşkar edildi. Burada mövsümi yaşayış məskəni olduğu müəyyən olundu. Yaşayış yerindən bir qədər aşağıda kurqan tipli qəbir abidələri var. Lakin maddi-mədəniyyət qalıqları aşkar edilmədiyindən kurqanları tarixləndirmək mümkün deyil. Burada aşkar olunan ikinci kurqanın Orta Tunc dövrünə aid olduğu ehtimal olunur.

Mərkəzi Oğlanqala olan dövlətin sərhədlərini müəyyənləşdirmək məqsədi ilə Sədərəkqalada da araşdırmalar aparıldı və qala divarlarının mövqeyi GPS-lə dəqiqləşdirildi. Araşdırma zamanı həmçinin xalq arasında "Fərhad arxı" adı ilə bəlli olan iri daşlardan inşa edilmiş divar qalıqları öyrənildi. Toplanılmış keramika məmulatının böyük bir qismi Orta Dəmir dövrünə aiddir.

Oğlanqala ətrafında aparılan araşdırmalar bu yaşayış yerinin böyük ərazini (487 hektar) əhatə edən şəhər dövlətin paytaxtı olduğunu təsdiq edir. Yaşayış yerini əhatə edən müdafiə divarlarının daha çox şimal istiqamətdə olması bu istiqamətdə hücumların intensiv olduğunu təsdiq edir.

В.Б.Бахшалиев, Э.Хаммер,
Л.Рисвет, С.Г.Ашуров

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В ОКРЕСТНОСТЯХ ОГЛАНКАЛА

РЕЗЮМЕ

В июле 2012 года Азербайджано-Американской экспедицией в рамках Нахчыванского Археологического Проекта вновь начаты археологические разводочные работы в окресностях поселения Огланкала Шарурского района.

Целью повторных исследований было получить новые данные об оборонительной системе этого города – крепости, не подчинившемуся такому сильному государству, как Урарту, об ее внешних связях.

В прошлые годы, на востоке Огланкала были обнаружены остатки длинных стен. Было выяснено, что эта стена с определенными промежутками доходила до близлежащей фермы, а оттуда к долине Ахурачая и Арпачая. В северном направлении, на левом берегу Арпачая выявлены остатки стен, сооруженные и крупных камней длиной 370 м. от вершины горы до долины.

Крепости, расположенные в окрестностях Огланкалы, особенно Девичья (Гыз галасы), были оборонительными. Исследования показали что, окруженный стенами, участок в окрестности Огланкалы занимал 487 гектара.

Гызгала I находится на юго-западе села Ашагы Яйджи, на месте спуска горной гряды Узункая к Арпачаю. Он окружен с востока долиной Арпачая и водохранилищем, с юга равниной, с севера и запада горами. Строительных остатков сохранилось очень мало. По строительной технике они напоминают Огланкалинские сооружения. На территории поселения обнаружены керамические черепки периодов средней бронзы, поздней бронзы и раннего железа, а также средних веков.

Гызгала II находится к западу от села Ашагы Яйджи Шарурского района, на правом Берегу Арпачая на высокой горе. С северной стороны крепость окружена отвесной скалой, а на ее южной и юго-западной сторонах из крупных скальных пород возведена стена. На основании археологических материалов крепость можно датировать IV в. до н э. – III в. н.э. Предполагается, что крепость использовалась и в более ранний период, особенно в период среднего железа.

Одним из исследованных памятников на севере Арпачая является крепость Карасу. Памятник находится к северу от поселка Гюмюшлу, на левом берегу Арпачая, на высоком холме. На основании исследования археологических материалов, можно утверждать, что заселение этой крепости длилось от II-I тыс. до н.э. – до XIV-XVII вв.

Исследования 2012 года показали наличие в Бозгырларе курганов периода средней бронзы. Определено, что на горной гряде левобережья Ахурачайской долины находится памятник курганного типа. Высота курганного покрытия диаметром в 2-3 м, колеблется между 0,8 и 1.

В местечке, известном как Ахура Кюлтепеси, случайно обнаружено двухкамерное погребение с проходом из одной камеры в другую. Планы четырехугольных помещений сходны, и завершаются аркой. В связи с тем, что в погребении не обнаружено материально-культурных образцов, сложно установить ее датировку. На поверхности памятника, обнаружены средневековые керамические черепки, в том числе черепицы. По аналогиям с Хараба-Гиляном и Ханегяхом памятник можно отнести к IX-X вв.

С целью определения границы государства с центром в Огланкала, исследования были проведены также в Садараккале, где с помощью GPS были уточнены позиции крепостных стен.

Исследования в окресностях Огланкалы подтвердили, что это поселение было центром города-государства, охватывающего большую территорию (487 гектаров). То, что большая часть оборонительных стен, окружающих поселение, находится в северном направлении, подтверждает, что нападения в этом направлении были интенсивными.

V.B.Bakhshaliyev, E.Hammer
L.Ristvet, S.H.Ashurov

ARCHAEOLOGICAL INVESTIGATIONS
IN SURROUNDINGS OF OGLANGALA

SUMMARY

Archaeological secret-service works began again in the round of Oghlangala living place by Azerbaijan-America expedition in the frame of Nakhchivan Archaeological Project in Sharur region in July 2012 year.

With research again living place Oghlangala's surrounding we want get new informations about relation with surroundings world un growing this-tower town protection system as Urartu powerful state.

During researches in previous years were revealed long wall remainders in West of Oghlangala. During research determined that this wall continued with some cuttings to near farm then lied to Akhurachay and Arpachay valley. There are found wall remainders constructed by big stones, linked valley with mountains pick in the Arpachay's left side during researches to North side. Wall's general longest was 370 m. Wall's width was 1,5-2 m.

Defense towers situated next to Oghlangala, especially Giz gala served to becoming stronger Oghlangala. Researches shows that the area surrounding Oghlangala's around is 487 hectare.

I Giz gala is situated in the Uzungaya mountain range's downed to Arpachay, Ashaghi Yayji villages, South-West. It is round with mountain in North and West, in South plain area with water store in West with Arpachay .Building remainders were quite few kept. For building technique they remain Oghlangala buildings. There are found ceramic pieces about Middle Bronze, Last Bronze and Early Iron ,Middle Ages from living place's area during researches.

II Giz gala is situated in the Sharur regions Ashaghi Yayji villages West in the right side of Arpachay. Gala was constructed with precipice rock from North side wall from big rock pieces South and South-West side rounded with rock. It is possible to about tower in IV-III B.C. Mostly archaeological materials. It is supposed tower used to in previous terms, specially Middle Iron Age.

Garasu tower is one of investigated monument in Arpachay's North. The monument is situated in North of Gumushlu settlement, Arpachay's left side on the height hill. Mostly investigation of archaeological materials from Garasu it is possible to say that, here life continued from II-I millenniums B.C. till XIV-XVII centuries.

There is determined being barrows about Middle Bronze Age during research time. It is determined barrow typical monument on the mountain range of Akhurachay valley's left side. Barrow cover's height is between 0,8-1 which barrows made by stone mixed land about 2-3m diameter.

Occasionally, we meet one grave monument during research in living place which known as Akhura Kultepesi. The grave have two cell, passage to other. Room's plan looks each other. They was four-square formed, completed arch form in up. It is hard separate to times because of, there is no found any material-cultural example inside of grave. There are found tile also ceramic pieces about Middle Ages on monument's hill. The monuments could about to IX-X centuries for similarities which in Kharaba-Gilan and Khanagah.

There are taken away researches in Sadarakgala with aim of determine state borders which center is Oghlangala and tower walls' position determined with GPS.

The investigations taken away around Oghlangala are affirms this living place which round big area (487 hectare) was center of town state. The rounded living place defense walls being in North side affirms that attacks was intensive.

BEYNƏLXALQ QƏBƏLƏ ARXEOLOJİ EKSPEDİSİYASININ ANTİK QƏBƏLƏ DƏSTƏSİNİN APARDIĞI ÇÖL-TƏDQİQAT İŞLƏRİ

(Qəbələ rayonu)

İ.A.Babayev, L.X.Mustafayev,
R.İsmayılov, N.Ə.Alışov

Ekspedisiya 2009-cu ildən başlayaraq hər il olduğu kimi 2012 ci ildə də Koreya Respublikasının müxtəlif universitet və digər elmi müəssisələrinin böyük bir qrup (bu il ümumilikdə 17 nəfər) arxeoloqlarının iştirakı ilə beynəlxalq tərkibdə fəaliyyət göstərmişdir.

Ekspedisiya AMEA-nın müxbir üzvü, professor İlyas Babayevin ümumi rəhbərliyi ilə aprel ayının 1-dən iyun ayının 30-na qədər (3 ay) qədim Qəbələ və onun ətrafında arxeoloji tədqiqatlar aparmışdır.

Ekspedisiya plana əsasən Antik şəhər yerində və son antik-ilk orta əsrlər dövrünü əhatə edən Səlbir sahəsində qazıntı işlərini davam etdirmək və imkan daxilində ətraf ərazidə kəşfiyyat işləri aparmağı nəzərdə tutmuşdu.

Bundan başqa bu il ekspedisiya Qəbələ rayonu ərazisində qədim daş dövrü abidələrinin araşdırılması ilə də məşğul olmuşdur.

Antik şəhər yerində əsas qazıntı işləri 3-cü qazıntı sahəsində davam etdirilmişdir. Burada qazıntı sahəsinin şimal şərqində 2-ci oval planlı tikintinin altındakı e.ə. IV-III əsrlərə aid təbəqədə son illərdə aparılan qazıntılar zamanı böyük ərzaq anbarının bir his-səsinin qalıqları aşkar edilmişdi. Bu anbarda sıralarla çiyninə qədər torpağa basdırılan böyük təsərrüfat küplərinin qalıqları izlənir. Qazıntının stratiqrafiyası, tapıntıların müqayisəli təhlili və radio karbon (C^{14}) analizi göstərir ki, bu anbar e.ə. IV-III əsrlərə aiddir.

Uzun müddət istifadədən sonra e.ə. III əsrin ortalarında təsərrüfat küplərinin bir çoxu yararsız hala düşmüş və anbar da əhəmiyyətini itirmişdir. Bu zaman hələ istifadəyə müəyyən qədər yararlı olan küplər yenidən istifadə üçün götürülmüş, tamamilə yararsız hala düşən küplərin sınmış qalıqları öz yerlərində saxlanaraq sahə hamarlanmış və həmin yerdə yeni binalar inşa edilmişdir. Göstərilən dövrə aid nə Azərbaycanda, nə də qonşu ölkələrdə bu böyüklükdə anbar qalıqları bizə məlum deyildir. Bu anbardakı küp qalıqlarının içərisindən götürülən torpaq nümunələrinin Tiflis şəhərində professor Eliso Kvavadze tərəfindən aparılan palinoloji analizləri həmin küplərdə əvvəl çaxır, sonralar, onlarda çatlar yarandığından çaxır saxlamaq mümkün olmadığı üçün, qoz-fındıq və digər ərzaq məhsullarının saxlandığını müəyyən etmişdir.

Şəhərin ən qədim dövrünə aid belə anbarın bütün qalıqlarının aşkar etmək xüsusi elmi maraq doğururdu. Ona görə də hesabat ilində bu çaxır anbarının əhatə etdiyi sahəni müəyyənləşdirmək üçün III qazıntı sahəsini şimal-şərq tərəfə doğru xeyli genişləndirməli olduq. Müəyyən olundu ki, bu anbarda 220 ədəddən az olmayaraq küplər qoyulmuşdur [şək. 1].

Küplər basdırılan quyularda küplərin ətrafındakı torpaq göyümsov rənglidir. Əvvəlki illərdə güman edilirdi ki, onların ətrafına nə məqsədləsə lil tökülmüşdür. Bu ilki müşahidələr göstərdi ki, torpaq bu rəngi çaxır töküntüsündən almışdır. Görünür, küplərdə əmələ gələn çatlardan çaxırın sızması və istifadə zamanı ətrafa tökülməsi torpağın rəngini dəyişmişdir. Küplər artıq nəzərdə tutulan məhsulun saxlanması üçün yararlı olmadığından anbar da əhəmiyyətini itirmişdir. Bu anbarda on

minlərlə litr çaxır və digər məhsullar saxlanmışdır. 2300 il bundan əvvəl bu böyüklükdə anbar heç şübhəsiz bir adama aid ola bilməzdi. O, görünür, icitmai əhəmiyyət daşımışdır. Qazıntılar zamanı Qəbələdə aşkar edilən böyük ictimai əhəmiyyətli binaların qalıqları ilə yanaşı, bu böyüklükdə çaxır anbarlarının olması o zaman burada çox böyük şəhərin olmasını göstərir.



Şəkil 1. E.ə. IV-III əsrlərə aid çaxır anbarının qalıqları.



Şəkil 2. 3-cü oval tikintinin qalıqları.


Bu tapıntı həm də o zaman Qəbələdə üzümçülük və şərabçılığın yüksək inkişaf etdiyini sübut edir.

Təkcə bu anbarda deyil, şəhər yerinin bütün qazıntı sahəsində tək-tək çiyninə qədər yerə basdırılan iri təsərrüfat küplərinin qalıqlarına çox rast gəlinir. Bu küplərin ağzını örtmək üçün nazik laylara ayrılan, qəlpələnən, asan qırılan göyümsov, qara rəngli daşlardan qapaqlar düzəltmişlər. Belə daşlar yalnız şəhər yerindən təxminən 25-30 km. şimalda yerləşən, indiki rayon mərkəzindən bir qədər şimal-qərbdəki yerləşən ərazidə axan çayların sahillərindəki qayalıqlardan gətirilmişdir.

Əvvəlki illərdə 2-ci oval tikintinin cənubunda 3-cü oval planlı tikintinin şərq tərəfi aşkar edilmişdi. Bu oval tikinti 2-ci oval tikintiyə çox sıx və ona paralel olaraq şərq-qərb istiqamətdə uzanır. Qazıntının stratiqrafiyası və tapıntılara əsasən bu tikintini e.ə. III əsrə aid etmək olar. Bu tikintinin divarlarını çox yerdə sonradan qazılan quyular dağıtmışdır. Bu il qazıntılar göstərdi ki, 3-cü oval tikinti təxminən 2-ci oval tikinti böyüklüyündə olmuşdur (Şək. 2, 3).

III qazıntı sahəsində üst təbəqədə aşkar edilən 1-ci oval planlı tikintinin orta hissəsində 2011-ci ildə alt təbəqələrin stratiqrafiyasını müəyyən etmək üçün oval tikintinin qalıqlarını saxlamaqla, nisbətən kiçik sahədə alt təbəqənin qazıntısına başlamışdıq. Oval tikintinin altında gil qab bişirilən kürələrin qalıqları aşkar edilmişdi. Burada kürədə qara rəngli təkayaq vazalar bişirmişlər. Onların xeyli hissəsi kürənin içərisində qalmışdır.


Bu kürə qalıqları ellinizm dövrünə aiddir. Keçən ilin qazıntısı zamanı məlum oldu ki, kürənin xeyli hissəsi qazıntı sahəsindən kənara çıxır. Onun qalıqlarının üstünü bütünlüklə açmaq üçün qazıntı sahəsini şimal, şərq və cənub istiqamətində xeyli genişləndirmək lazımdır.



Şəkil 3. 2-ci və 3-cü oval tikintilərin planı.



Şəkil 4. Erkən ellinizm dövrünə aid dulusçuluq emalatxanasının qalıqları.



Şəkil 5. Mədəni təbəqənin dulusçuluq emalatxanasının altındakı qatı.

Azərbaycanda bu vaxta qədər ellinizm dövrünə aid belə gil qab bişirmə kürəsi aşkar edilmədiyi üçün kürə qalıqlarını bütünlüklə aşkar etmək ümidi ilə qazıntı sahəsini xeyli genişləndirmək qərarına gəldik. Lakin qazıntı zamanı məlum oldu ki, kürə qalıqları şimal, şərq və cənub tərəfə doğru uzanır. Belə məlum olur ki, ellinizm dövründə bu sahədə böyük gil qab bişirmə emalatxanası yerləşmişdir (Şək. 4).

Bu qazıntı sahəsi 12,5 (Şərq-qərb), 14 m (Şimal-cənub) istiqamətlərində sahədə aparıldı. Məlum oldu ki, kürə qalıqlarını tam aşkar etmək üçün qazıntı sahəsini yenə də bir qədər şimal, şərq və cənub istiqamətlərində xeyli genişləndirmək lazımdır.

Qazıntı sahəsini şimal və cənub istiqamətlərində genişləndirmək mümkündür. Lakin şərqə doğru sahə genişləndirilsə, çox böyük elmi əhəmiyyət kəsb edən oval tikintinin şərq divarı dağıdılmalıdır. Antik dövrə aid belə oval tikintilər inidiyə kimi arxeoloqlar tərəfindən bütün Qafqaz, Yaxın və Orta Şərqdə, aşkar edilməmişdir. Ona görə də kürə qalıqlarına görə qazıntı sahəsini şərqə doğru genişləndirmək məqsədəuyğun deyildir.

Burada olan kürələrin sahəsi çox böyükdür. Onların od yandırılan kameralarının yalnız döşəməsi və yan divarlarının ancaq ən alt hissəsi izlənir. Bir kürənin döşəməsi üstündə xeyli miqdarda qara rəngli təkayaq vazalar qalmışdır. Onların bəziləri salamat qalmışdır. Bu vazalar nizamsız döşəməyə tökülmüşdür. Çoxusu böyrü və ağzı aşağa çevrilmiş vəziyyətdədir. Bəzi vazaların oturacaq hissəsi bişirilərkən oda yaxın olduğundan bir qədər şlaklaşmışdır. Görünür, onlar bişirilmək üçün kürəyə oturacaqları aşağıya doğru qoyulmuşdur.

Bu tapıntılar göstərir ki, qara rəngli qablar kürədə ayrıca bişirilmişdir. Belə qabların bişirilərkən qırmızı rəngli qabların bişirilməsi üçün lazım olandan aşağı temperatur kifayət edirdi. Kürələrin döşəməsi odun təsirindən yanaraq 1-2 sm. qalınlığında şlaklaşmışdır. Bu qablar kürənin döşəməsi üstündə 15-20 sm. qalınlığında qalmışdır. Görünür, onlar hələ kürədə olarkən kürə hansı səbəbdənsə dağılmış, onlar kürədə bişirilmək üçün qoyulan yuxarı kameradan od yandırılan alt kameraya döşəməyə tökülmüşdür. Bundan sonra bu sahədə kürələr fəaliyyətini dayandırmış və burada yeni tikililər inşa olunmuşdur.

Qazıntının stratiqrafiyasına görə bu kürələr görünür, e.ə. III-II əsrin əvvəllərinə aiddir. Bu kürələrdən altda və üstdə də tikinti təbəqələri izlənir.

Yuxarıda qeyd etdiyimiz kimi, kürələr aşkar etdiyimiz sahənin ən üst təbəqəsində çox böyük ölçüsü olan 1-ci oval planlı ictimai əhəmiyyət daşıyan binanın qalıqları yerləşir.

Bu oval binadan altda, kürələrin üstündə bünövrəsi çay daşları, divarları kvad-rat formalı (43x43 sm) çiy kərpiclərlə hörülən bina olmuşdur. Bu binanın döv-rünə aid quyular kürələrin döşəməsini kəsmişdir. Bu sahədə kürələrdən əvvəldə mədəni təbəqə izlənir. Bu təbəqədə oval planlı təsərrüfat

quyuları, tək-tək düzbucaqlı formada yonulan sütunaltlığı kimi istifadə olunduğu güman edilən iri ölçülü puç daşlar bir qədər yerə basdırılan dayaq-sütun kimi ist-ifadə olunan ağac yerləri izlənir (Şək. 5).

Buradakı ən alt təbəqədə aşkar edilən bu qalıqlar görünür, təxminən e.ə. IV-III əsrin əvvəllərinə aiddir.

Bu vaxta qədər şəhər yerinin başqa sahələrində apardığımız qazıntılar zamanı müşahidə etdiyimiz kimi, burada da çox intensiv həyatın olduğu izlənir. Belə ki, indiki şəhərlərdə olduğu kimi, o zaman Qəbələdə də müəyyən tikililər əhəmiyyətini itirdiyi zaman onların qalıqlarının üstündə fasiləsiz olaraq yeni binalar tikilmişdir.

İndiyə kimi Qəbələnin antik şəhər yerində arxeoloji qazıntılar zamanı mədəni təbəqənin ən alt qatında tunc dövrünə, əsasən, ilk tunc dövrünə aid gil qabların az miqdarda parçalarına, obsidian və çaxmaq daşı qəlpələrinə, onlardan hazırlanan müxtəlif alət və ya onların qırıqlarına təsadüf olunurdu. Yeri gəlmişkən qeyd etmək olar ki, bütün Qafqaz ərazisində aparılan arxeoloji qazıntılar göstərir ki, bu ərazidə aşkar edilən antik dövrə aid yaşayış yerlərinin bir çoxu tunc dövrü yaşayış yerlərinin üstündə yaranıb. Ehtimal etmək olar ki, bu iqlim şəraiti ilə əlaqədar olmuşdur. Həmin dövrlərdə, görünür, bu yerlər yaşayış üçün çox əlverişli olduğu üçün insanlar həmin yerləri yenidən yaşayış üçün seçmişlər.

Bəzən belə yaşayış yerlərində həyat fasiləsiz davam etmiş həmin yaşayış yerləri şəhərə çevrilmişdir.




Şəkil 6. Son tunc və ilk dəmir dövrünə aid küp qəbir.



Şəkil 8. Son tunc və ilk dəmir dövrünə aid küpün içərisindəki gil qabın qırıqları.



Şəkil 7. İlk dəmir dövrünə aid gil qab hissəsi.



Şəkil 9. Daş toxa.

Antik şəhər yerində bu il aparıaln qazıntılar zamanı III qazıntı sahəsində e.ə. III əsrə aid etdiyimiz 3-cü oval planlı tikintinin altında son tunc və ilk dəmir dövrünə aid təbəqə aşkar edildi. Bu təbəqədə çaxmaq daşı və obsidian qəlpələri, həmin dövr üçün səciyyəvi olan dən daşlarının parçaları, müxtəlif gil qabların parçaları, çiyninə qədər yerə basdırılmış qalın divarlı, iri ölçülü, bozumtul rəngli təsərrüfat küpü aşkar edildi (Şək. 6).

Bu küpün divarlarının qalınlığı 3 sm, qalmış hissəsinin hündürlüyü 90 sm, diametri 1 m-dir. Onun gilinin tərkibinə iri qum qatılmışdır. Küpün içərisindən və ətrafından müxtəlif gil qabların parçaları, dən daşı parçası da tapıldı (Şək. 7, 8).

Bu təbəqədə divarları hər iki tərəfdən nazik batıq xətlərlə naxışlanan bozumtul rəngli gil qabın parçası da tapıldı. Belə gil qabların parçalarına bizim Şəmkir rayonunun Qaraçəmirli kəndində Əhəmənilər və ilk ellinizm dövrünə aid böyük saray tipli abidənin qazıntısı zamanı tez-tez rast gəlinir.

Bu tapıntılar göstərir ki, antik şəhər yerinin bu sahəsi, burada şəhər salınandan əvvəl də yaşayış yeri olmuşdur. Sonra bu kiçik yaşayış yeri böyüyərək ölkənin paytaxtı Qəbələ şəhərinə çevrilmişdir. Antik şəhər yerinin digər sahələrində əvvəlki illərdə apardığımız qazıntılar zamanı şəhərin yaranmasından əvvəlki yaşayış yerinə məxsus belə qalıqlar aşkar edilməmişdir.

Bu ilki qazıntılar zamanı bu təbəqədə yaxşı qalmış boz rəngli daşdan düzəldilən daş toxa da tapıldı (Şək. 9). Belə bir daş toxa, III qazıntı sahəsindən 20 m. şərqdə yerləşən IV qazıntı sahəsinin ən üst təbəqəsində əvvəlki illərdə tapılmışdı. Ola bilsin, onlar quyular qazılarkən alt təbəqələrdən çıxarılmışdır.

Ancaq şəhər yerinin böyük binaların qalıqları izlənən sahəsi 50 hektara qədərdir. Şəhər xırda tikililər yerləşən kənarları ilə birlikdə daha böyük sahəni əhatə etmişdir. Burada antik şəhər salınana kimi mövcud olan yaşayış yerinin sahəsi kiçik olmuşdur. Yalnız bu il III qazıntı sahəsində şəhərdən əvvəlki yaşayış yerinin bəzi qalıqlarını nisbətən yaxşı izləmək mümkün olmuşdur.

Qazıntılar zamanı mədəni təbəqənin bütün qatlarında tikinti qalıqları ilə yanaşı, təsərrüfat quyuları, müəyyən hissəsi yerə basdırılan iri təsərrüfat küplərinin hissələri, onların ağzını örtmək üçün istifadə olunan daş qapaqlar, müxtəlif gil qabların çox saylı parçalarına, az miqdarda bəzək predmetlərinə, digər məişət qalıqlarına rast gəlinir.

Qazıntı zamanı çox tez-tez heyvan sümüklərinə də rast gəlinir. Bu sümüklər əsasən ev heyvanlarına (donuz, iri və xırda buynuzlu mal-qara, dəvə, at və s.) aiddir. Burada donuz sümüklərinə daha çox rast gəlinir. Sümüklərin müəyyən hissəsi ov heyvanlarına məxsusdur.

2012-ci ildə şəhərin Səlbir sahəsində hələ, 1959-1960-cı illərdə qazıntısı yarımçıq qalmış dördbucaqlı (1,40 x 1,42 m) formalı quyuda təmizləndi. O zaman bu quyu 19 m-ə yaxın dərinliyə qədər təmizlənmişdi. Lakin bu iş başa çatmamışdı. Quyu təmizlənərkən belə təəssürat yaradırdı ki, bu quyu qazılandan az sonra təzədən doldurulub. O zaman quyunun ən alt qatının torpağını bu yazının müəlliflərindən biri olan İlyas Babayev qazmışdır.

Bütün quyular orada dairəvi formada qazılmışdır. Yalnız bu quyu kvadrat plan-da qazılıb. Quyu o zaman təmizlənərkən 17 m. dərinlikdə kiçik dayça skeletinə və bir neçə şirsiz gil qab qırıqlarına təsadüf olunmuşdu. Quyunun təmizlənməsi dərinliyinə görə təhlükəli olduğu üçün bu iş dayandırılmışdı. Quyunun ağzını 1960-cı ildə ağac və torpaqla örtmüşdük. 50 ildən çox vaxt ərzində bu örtük çürüyüb tökülmüş, yerli əhali də ətrafdan çoxlu daş və başqa tullantıları quyuya tökərək onu yenidən bir neçə m. qalınlığında doldurmuşdur.

Bu quyunun nə məqsədlə qazılması böyük maraq doğururdu. Ona görə də hesabat ilində 51 il bundan əvvəl təmizlənməsi yarımçıq qalan quyunun tam təmizlənməsi qərara aldıq.

Quyu Səlbirin şərq tərəfdən, çayın yuyub yaratdığı qaya kənarından təxminən 6 m. qərbdə yerləşdiyinə görə həmin tərəfdən 1,5 m. enində, 2 m. hündürlükdə quyuya doğru lağım atmaq qərara alındı. Təhlükəsizlik məqsədi ilə qazıntı uzandıqca lağım yan dirəklər və onların üstünə qoyulan taxtalarla möhkəmləndirilirdi. Qazılan lağım quyuya çatandan sonra əvvəlcə 1960-cı ildən sonra quyuya tökülən daş, torpaq və digər tullantılar sonra isə quyunun dibi təmizləndi.

Məlum oldu ki, quyunun yer səviyyəsindən dibinə qədər ümumi dərinliyi 20 m-dir. Quyunun dibinə yaxın qatında təxminən 0,5 m. qalınlığında təbii çınqıl təbəqəsi, daha sonra yenə də gil təbəqəsi yerləşir. Bu çınqıl təbəqədən quyuya az miqdarda su sızırdı. Ola bilsin bu su uzun illər açıq olan quyuya tökülən yağış və qar sularıdır. Belə ki, su çox yığılmırdı. Quyunun dibindən son antik və ilk orta əsrlərin başlanğıc dövrü üçün səciyyəvi olan bir gil qabın hissələri, üstü ağımtıl irrizasiya ilə örtülən şüşə qabın kiçik bir qırığı tapıldı.

Hələ 1959-1960-cı illərdə apardığımız müşahidələr və bu ilki qazıntılar göstərir ki, bu quyu son antik və ilk orta əsrlərin başlanğıc dövrünə (b.e. III-V əsrlərinə) aiddir.

Çox böyük maraq doğuran məsələ bu quyunun nə məqsədlə qazılmasıdır. Qəbələdə bundan başqa kvadrat planlı və bu dərinlikdə quyu aşkar edilməmişdir. Səlbirdə qazıntılar zamanı aşkar edilən və təmizlənən quyuların hamısı dəyirmidir. Kvadrat planlı quyunun təəccüb doğuran digər xüsusiyyəti onun qazılandan az sonra doldurulmasıdır. Adətən bütün digər quyuların içərisinə tökülən töküntülər qarışıq olur və hiss olunur ki, onlar müəyyən dərəcədə tədricən doldurulmuşdur. Bu quyu işə qısa zamanda, özü də, o qazılarkən çıxarılan torpaqla doldurulmuşdur. Ona görə də onun nə məqsədlə qazılmasını müəyyənləşdirmək böyük maraq doğururdu.

Tam təmizlənəndən sonra quyunun dövrü müəyyənləşdirildi. Çox güman ki, bu quyu su üçün qazılmışdır. Quyunun səviyyəsi yandan axan çayın səviyyəsindən aşağı keçməsinə baxmayaraq suyun çıxmadığını gördükdə quyunu doldurublar.

Belə ki, şəhər bu sahəyə köçürüləndən sonra onun su təchizatına fikir verilməli idi. Ətrafda çoxlu bulaqlar olsa da, düşmənlər tərəfindən şəhər mühasirəyə alınanda bu bulaqlardan su götürmək mümkün olmazdı. O zaman hələ şəhərə gil borularla su xətti çəkilməmişdi.

Ekspedisiya Qəbələ rayonunun Nic kəndinin Abdallı ərazisində yerləşən Kilsəli təpə abidəsində də arxeoloji qazıntılar aparmışdır. Qazıntılar zamanı yarım qazma formada inşa edilmiş və üst örtüyü tam uçub dağılmış kilsə təmizlənmişdir. Kilsənin altarı, onun nalvari çıxıntısı və altarda yerləşən mehrab daşı aşkar edilmişdir. Kilsənin şərq divarında 4, giriş hissənin bayır üzündə də 4 ədəd cızma yolu ilə xaç işarələri həkk edilmişdir. Kilsə daxilində şimal və cənub divarının hərəsində 2 taxçalar vardır. Kilsənin döşəməsinə qaya və çay daşı döşənmişdir. Kilsənin divarlarının eni 90 sm-dir. Qazıntılar çox saylı maddi mədəniyyət nümunələri vermişdir. Bunlar IX-X əsrlər üçün xarakterik olan şirli və şirsiz saxsı qabların, şüşə flakonların qırıqları, dam kirəmitləri, inşaatda istifadə olunan az sayda mıxlardan ibarətdir.

Bundan başqa Oğuz rayonun ərazilərində kəşfiyyat işləri aparılmışdır. Nəticədə Oğuz rayonunun Qarabulaq kəndində iki xristian abidəsində və rayona girişdə Qulkoza istehsalı zavodu yaxınlığında yerləşən Müqəddəs Yelisey kilsəsində kəşfiyyat işləri həyata keçirilmişdir. Memarlıq ölçmə işləri aparılmış və yer üstü materiallar toplanılmışdır.

Qəbələdə antik dövrün qəbiristanlığını tapmaq məqsədi ilə kəşfiyyat işləri aparılmışdır. Lakin bu sahədə hələ xeyli iş aparılmalıdır.

Antik Qəbələ dəstəsinin tapıntıları Çöl qeydi kitabında 1614-1690 №ləri altında qeyd olunmuş və onlar aktla Qəbələ Tarix-Diyarşünaslıq muzeyinə təhvil verilmişdir.

И.А.Бабаев, Л.Х.Мустафаев,
Р.Исмайлов, Н.А.Алышов,

ОБ ИССЛЕДОВАНИЯХ ОТРЯДА АНТИЧНОЙ ГАБАЛЫ МЕЖДУНАРОДНОЙ ГАБАЛИНСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

В 2012 г. обследованы окрестности Габалы и выявлены некоторые материалы, предположительно относящиеся к палеолиту.

Корейские археологи продолжали свои раскопки на позднеантичном и раннесредневековом городище Габалы в Сельбире. Здесь же вел раскопки Джейхун Эминли.

Отряд по изучению Античной Габалы продолжал раскопки на городище на раскопах III и IV.

В предыдущие годы в слое IV –III вв. до н.э. были частично вскрыты остатки большого винного склада. Этот склад в середине III в до н.э. перестал существовать. В предыдущие годы рядом со 2-ым овальным сооружением была выявлена часть 3-ого овального сооружения. В 2012 году полностью расчищены все остатки этого сооружения. Оно частично подвергалось разрушению более поздними хозяйственными ямами.

Продолжалось исследование остатков гончарной мастерской III-II вв. до н.э. под большим овальным сооружением.

Выявлен хорошо прослеживаемый слой эпохи поздней бронзы и раннего железа. Выяснено, что здесь в указанное время было небольшое поселение, которые к середине II тысячелетия до н.э. превратилось в город.

I.A.Babayev, L.Kh.Mustafaev,
R.Ismayilov, N.A.Alyshov,

ABOUT RESEARCHES OF SQUAD ANCIENT GABALA OF GABALA INTERNATIONAL ARCHAEOLOGICAL EXPEDITION

SUMMARY


In 2012, expedition examined neighborhood of Gabala and found some of the material that they think is supposed to Paleolithic.

At the excavation III in previous years in the layer IV-III centuries B.C. have been partially uncovered remains of a large wine warehouse. This warehouse stopped to exist in the middle of the III century BC.

In previous years, next to the second oval structure was revealed a part of the 3rd oval structure. This year all the remnants of the buildings dating back to the III century BC are completely cleared. It is partially exposed to the destruction of more recent economic wells. The study of pottery remains, located in layer III-II centuries BC and a large oval structure is continued.

This year has been revealed a well-traceable layer of the late Bronze and early Iron periods. It turned out that here at the appointed time was a small settlement, which in the middle of the II millennium B. C. turned to the city.

FOTOALBOM




















Tovuz rayonu ərazisində
qədim yaşayış yerləri
METALİSLƏMƏ
Göytepe arxeoloji kompleksində aşkar olunmuş
arxeoparka çevrilmə
Tovuz rayonu ə
qədim yaşayış

MÜNDƏRİCAT

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MADDİ-MƏDƏNİ İRSİ 5
M.N.Rəhimova

AZƏRBAYCANDA 2011-ci ildə APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLAR..... 14
M.N.Rəhimova

ARXEOLOJİ QAZINTILAR 29

PALEOLİT ARXEOLOJİ EKSPEDİSİYASININ APARDIĞI TƏDQİQATLARIN İLKİN NƏTİCƏLƏRİ 30
Ə.Q.Cəfərov

PALEOLİT ARXEOLOJİ EKSPEDİSİYASI QAX, BALAKƏN, ZAQATALA DƏSTƏSİNİN ÇÖL-TƏDQİQATININ NƏTİCƏLƏRİ 34
M.M.Mənsurov

AZƏRBAYCANDA YENİ PALEOLİT ABİDƏLƏRİ 41
A.Ə.Zeynalov, İ.N.Avşarova

AĞSTAFA RAYONUNDA NEOLİT DÖVRÜNƏ AİD YENİ ARAŞDIRMALAR 53
N.Ə.Müseyibli, A.M.Ağalarzadə, G.K.Axundova

ПОЛЕВЫЕ ИССЛЕДОВАНИЯ МУГАНСКОЙ НЕОЛИТ-ЭНЕОЛИТИЧЕСКОЙ ЭКСПЕДИЦИИ 59
Т.И.Ахундов, В.А.Махмудова, А.А.Рахманов, Г.Х.Рамазанлы, С.С.Велиев

QALAYERİ YAŞAYIŞ MƏSKƏNİNDƏ APARILMIŞ ARXEOLOJİ QAZINTILARIN İLKİN NƏTİCƏLƏRİ 66
N.Ə.Müseyibli

“QARABAĞ NEOLİT-ENEOLİT EKSPEDİSİYASININ” APARDIĞI ARXEOLOJİ TƏDQİQATLARIN QISA HESABATI 74
X.İ.Almənməddov, N.V.Quluzadə

ŞORTƏPƏ YAŞAYIŞ YERİNDƏ APARILMIŞ ARXEOLOJİ QAZINTILARIN NƏTİCƏLƏRİ 83
A.Q.Seyidov

NAFTALAN-GORANBOY ARXEOLOJİ EKSPEDİSİYASININ APARDIĞI ARXEOLOJİ TƏDQİQATLAR HAQQINDA 90
M.M.Hüseynov

«MAXTA ARXEOLOJİ EKSPEDİSİYASI»NIN TƏDQİQATLARI 100
S.H.Aşurov, V.B.Baxşəliyev, S.A.Hüseynova, F.A.Əliyeva

РЕЗУЛЬТАТЫ АРХЕОЛОГИЧЕСКИХ РАСКОПОК НА ПОСЕЛЕНИИ МОЛЛАБУРХАНТЕПЕ 109
Д.Л.Мусаев

AZƏRBAYCANIN ŞİMALİ-QƏRB RAYONLARINDA ARXEOLOJİ TƏDQİQATLAR 114
N.M.Muxtarov, İ.N.Bədəlova, B.Əmrullah qızı

QARABAĞ ARXEOLOJI EKSPEDISIYASININ «PALIDLI» NEKROPOLUNDA APARDIĞI TƏDQIQATLAR 122
H.Cəfərov, D.Cəfərova

GÖYGÖL-GORANBOY ARXEOLOJİ EKSPEDİSİYASININ APARDIĞI ARXEOLOJİ TƏDQİQATLAR 128
B.M.Cəlilov

ŞAHTAXTIDA ARXEOLOJİ ARAŞDIRMALAR 138
Q.H.Ağayev, Z.H.Rzayev

GƏDƏBƏY RAYONUNDA APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLAR 145
T.N.Göyüşova

PLOVDAĞIN YENİ AŞKAR EDİLMİŞ III NEKROPOLU 150
B İbrahimli, H.Q.Qədirzadə, T.Xəlilov

II KÜLTƏPƏ YAŞAYIŞ YERİNDƏ TƏDQİQATLARI 155
V.H.Əliyev, A.Ə.Məmmədova

PLOVDAĞ YAŞAYIŞ YERİ 164
B.İ.İbrahimli, H.Q.Qədirzadə, F.Səfərli, T.F.Xəlilov,L.N.Əhmədova

QAZAX ARXEOLOJİ EKSPEDİSİYASININ SARVANTƏPƏ YAŞAYIŞ YERİNDƏ APARDIĞI QAZINTILAR 169
Ş.N.Nəcəfov

RƏSUL DƏRƏSİNDƏ ARXEOLOJİ QAZINTILAR 176
Q.S.İsmayılzadə, B.İ.İbrahimli, T.F.Xəlilov

XINALIQ QORUĞU ƏRAZİSİNDƏ APARILAN ARXEOLOJİ İŞLƏR 180
İ.N.Əliyev, H.S.Ağayev

YASTITƏPƏ YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ QAZINTILARI 186
Ş.N.Nəcəfov

TÜRKAN YAŞAYIŞ YERİNDƏ APARILAN QAZINTI İŞLƏRİ 194
İ.N.Əliyev, C.İ.Əliyev

MEYDANTƏPƏ YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ QAZINTILAR 198
Ə.H.Bədəlov, A.A.Əsədov

QALATƏPƏDƏ APARILAN ARXEOLOJİ TƏDQİQATLAR HAQQINDA 202
T.R.Əliyev, F.İ.Babayev, T.T.Hüseynova, G.İ.Əliyeva, V.B.Abbasov, V.T.Əliyev

BƏRDƏDƏ ARXEOLOJİ QAZINTILAR 208
A.M.Məmmədov, T.V.Əliyev

ÇƏRMƏDİL SON ANTİK VƏ İLK ORTA ƏSRLƏR DÖVRÜ NEKROPOLU 212
B.M.Cəlilov, M.M.Hüseynov, A.A.Quliyev

I SANDIQTƏPƏDƏ TƏDQİQATLAR 223
M.C.Xəlilov, E.B.Cəfərova

GÜLÜSTAN QALASINDA APARILAN TƏDQİQATLAR 232
A.A.Quliyev

QƏBƏLƏ (SƏLBİR) ŞƏHƏR YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR 237
C.T.Eminli, E.Ə.İsgəndərov

ŞEYX BABI XANƏGAHINDA APARILMIŞ ARXEOLOJİ QAZINTILAR 246
X.İ.Almənmədov, N.V.Quluzadə

ŞƏMKİR ŞƏHƏR YERİNDƏ APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLAR 257
T.M.Dostiyev, R.Y.Bəşirov, N.N.Hüseynli, R.H.Mirzəyev

ŞAMAXI ARXEOLOJİ EKSPEDİSİYASININ APARILAN ARXEOLOJİ TƏDQİQAT 269
Ş.S.Əhmədov, L.Ş.Əhmədova

AĞSUDA YENİ TAPINTILAR 272
Q.C.Cəbiyev, F.S.Xəlilli, E.İ.Abbasova

ORTA ƏSR ŞABRAN ŞƏHƏRİNİN ARXEOLOJİ CƏHƏTDƏN ÖYRƏNİLMƏSİNİN
YENİ MƏRHƏLƏSİ 280
Q.O.Qoşqarlı, V.A.Əsədov, T.V.Babayeva,
Ə.İ.Əbdürəhmanov, A.F.Bağırova, T.D.Babayev

DƏLMƏ QALASINDA ARXEOLOJİ TƏDQİQATLAR 289
B.İ.İbrahimli, F.Səfərli, Q.Əliyev, G.Qəmbərova,
N.Hacızadə, S.Hüseynova

GƏNCƏ ARXEOLOJİ EKSPEDİSİYASININ APARDIĞI ARXEOLOJİ
QAZINTILAR HAQQINDA 294
A.M.Məmmədov, C.Bağırzadə

ARXEOLOJİ KƏŞFİYYAT 301

CƏNUB ŞƏRQİ AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLAR 302
A.İ.Ələkbərov, A.M.Mirabdullayev, T.H.Əzizov

BEYNƏLXALQ EKSPEDİSİYALAR 308

GÖYTƏPƏ NEOLİT DÖVRÜ YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ QAZINTILAR 309
F.E.Quliyev, Y.Nişiyaki, F.R.Hüseynov, S.Kadovaki,
K.Şimoqama, Ç.Akaşi, Ş.Kume, O.Zamanov

MENTEŞTƏPƏ QƏDİM YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR..... 329
F.E.Quliyev, B.Lyonnet

AZƏRBAYCAN-ALMANİYA BEYNƏLXALQ EKSPEDİSİYASININ ÇÖL TƏDQİQATLARININ HESABATI..... 335
T.R.Əliyev, B.Helving, A.Ricci

OVÇULARTƏPƏSİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR..... 342
V.B.Baxşəliyev, C.Marro, S.H.Aşurov

AZƏRBAYCAN-FRANSA ARXEOLOJİ EKSPEDİSİYASININ LERİK RAYONUNDA APARDIĞI ÇÖL TƏDQİQAT İŞLƏRİ HAQQINDA..... 352
M.N.Rəhimova, A.İ.Ələkbərov, M.Kazanova, K.Lorre

OĞLANQALA ƏTRAFINDA ARXEOLOJİ TƏDQİQATLAR..... 358
V.B.Baxşəliyev, E.Hammer, L.Ristvet, S.H.Aşurov

BEYNƏLXALQ QƏBƏLƏ ARXEOLOJİ EKSPEDİSİYASININ ANTİK QƏBƏLƏ DƏSTƏSİNİN APARDIĞI ÇÖL-TƏDQİQAT İŞLƏRİ..... 367
İ.A.Babayev, L.X.Mustafayev, R.İsmayılov, N.Ə.Alışov

FOTOALBOM 375

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLAR – 2012

"Xəzər Universiteti" nəşriyyatı
Bakı, 2013

AFPoliqrAF mətbəəsində çap olunmuşdur

Mətbəənin direktoru: F.R.Hüseynov
Texniki redaktor: A.Q.Rəsulov
Dizayn: Ə.Q.Əliyev

Formatı 64x92 $^{1}/_{16}$.
Həcmi 24 ç.v.
Tirajı 500

QEYDLƏR